www.tqdk.gov.az
wap.tqdk.gov.az
www.abiturient.az
www.mekteb.edu.az
www.elachi.edu.az

TQDK
Bilik qiymətləndirilir

TƏLƏBƏ QƏBULU ÜZRƏ DÖVLƏT KOMİSSİYASI

ƏDƏBİYYAT



ABİTURİYENT
jurnalının xüsusi buraxılışı

QƏBUL İMTAHANLARINA HAZIRLAŞANLAR,
YUXARI SİNİF ŞAGİRDLƏRİ
VƏ MÜƏLLİMLƏR ÜÇÜN
VƏSAİT

İ.Ə.Əhmədzadə
Z.Ş.Əsgərli
K.İ.Əliyev
M.K.İmanov
A.B.Mirzəyev
S.H.İbrahimov
M.H.Vəliyeva
G.M.Veysəlov
S.B.Əhmədova
S.M.Hüseynova

ƏDƏBİYYAT

QƏBUL İMTAHANLARINA HAZIRLAŞANLAR, YUXARI SİNİF ŞAGİRDLƏRİ VƏ MÜƏLLİMLƏR ÜÇÜN VƏSAİT

Azərbaycan Respublikası Təhsil Nazirliyi və Tələbə Qəbulu üzrə Dövlət Komissiyası tərəfindən təsdiq edilmişdir.



BAKI - 2010

ABİTURİYENT
jurnalının xüsusi buraxılışı

REDAKSİYA ŞURASI
M.M.Abbaszadə, N.Ə.Babayev, V.M.Bağırov, F.Ş.Bədəlbəyli, A.Q.Əbiyev, M.N.Ələsgərov, Ə.T.Əmiraslanov, N.M.Xudiyev, A.M.Məhərrəmov, M.C.Mərdanov.

REDAKSİYA HEYƏTİ
R.H.Novruzov (baş redaktor əvəzi), H.H.Kazımov (məsul katib), F.A.Atamov, A.H.Bağırov, T A.Bədəlov, R.H.Hüseynov, Ç.C.Xəlilov, Ə.Q.Quliyev, M.N.Qurbanov, V.R.Misirov, M.Ə.Nuriyev, Ç.İ.Rüstəmov.

Elmi redaktorlar:
İ.Ə.Əhmədzadə — filologiya elmləri namizədi, BDU-nun dosenti
E.Ə.Talıblı — filologiya elmlər namizədi, BDU-nun dosenti

Texniki redaktor:
R.K.Əliyeva — TQDK-nın aparıcı məsləhətçisi

Rəyçilər:
V.İ.Məmmədova — Rəssamlıq Akademiyasının "Humanitar və ictimai fənlər" kafedrasının müdiri, professor
B.A.Həsənli — Azərbaycan Müəllimlər İnstitutunun dosenti, p.e.n.
A.Ə.Xanbabayeva — BDU-nun şərqşünaslıq fakültəsinin baş müəllimi
M.Ə.Hüseynov — Sumqayıt şəhər 3 saylı orta məktəbinin Azərbaycan dili və ədəbiyyat müəllimi
S.Q.Məmmədova — Bakı şəhər 67 saylı orta məktəbinin Azərbaycan dili və ədəbiyyat muəllimi

Dil və üslub üzrə redaktor: N.M.Musayev
Kompyuter və dizayn: O.Y.Şelaginov, S.N.Hüseynov, İ.İ.Cəfərov, M.Ə.Bədəlov.

ƏDƏBİYYAT

(qəbul imtahanlarına hazırlaşanlar, yuxarı sinif şagirdləri və müəllimlər üçün vəsait)

Vəsait umumtəhsil məktəbləri üçün ədəbiyyat fənni üzrə tədris proqramı və TQDK-nın tərtib etdiyi qəbul proqramı əsasında hazırlanmışdır. Vəsaitdə "Şifahi xalq ədəbiyyatı", qədim, orta, yeni və ən yeni dövr Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələrinin həyat və yaradıcılığı, "Ədəbiyyat nəzəriyyəsi" mövzuları yığcam və konkret bir formada şərh olunmuşdur. Bəzi bədii materialların yığcam məzmunlarının, klassik ədəbi parçalara aid müfəssəl lüğətlərin və ayrı-ayrı mövzular üzrə test nümunələrinin verilməsi də, yəqin ki, az əhəmiyyətli olmayacaq.

Vəsait qəbul imtahanlarına hazırlaşanlar, orta məktəb şagirdləri və müəllimlər üçün nəzərdə tutulmuşdur

Redaksiyanın ünvanı: AZ1078, Bakı şəhəri, akademik Həsən Əliyev küçəsi, 17.
Telefon: 441-52-20.
E-mail: abiturient@tqdk.gov.az

© TQDK – «Abituriyent»
Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının rəsmi razılığı olmadan kitabın və ya onun hər hansı hissəsinin təkrar çapı, yayılması, elektron və ya mexaniki üsulla surətinin çıxarılması **QADAĞANDIR!**

ÖN SÖZ

Qəbul imtahanlarına hazırlaşan gənclərə elmi-metodiki kömək Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının fəaliyyətinin mühüm istiqamətlərindəndir. Təqdim olunan vəsait bu sahədə görülən işlərin davamıdır. Abituriyent və yuxarı sinif şagirdləri üçün nəzərdə tutulan bu vəsait qəbul proqramlarının məzmununa və tələblərinə uyğun olaraq hazırlanmışdır.

Vəsaitin zəruriliyi bir sıra amillərlə şərtlənir. Məlumdur ki, təlimin qarşısında duran ən mühüm vəzifələrdən biri şagirdləri özünütəhsilə – müstəqil təhsilə hazırlamaqdır. Çox təəssüflər olsun ki, bu cəhətdən hazırda təlim prosesində ciddi çatışmazlıqlar müşahidə olunur və repetitor xidmətindən geniş miqyasda istifadə olunmasının əsas səbəblərindən biri də məhz elə budur. Bunu nəzərə aldıqda öz üzərində müstəqil çalışmaq istəyənlər üçün müvafiq vəsaitlərin nə dərəcədə gərəkli olduğu aydınlaşır. Elə vəsaitlər ki, müvafiq fənn üzrə bütöv kursun məzmununu yığcam, lakonik, sadə və anlaşıqlı bir dildə izah edə bilsin. Belə vəsaitlərin hazırlanıb nəşr olunması bir də ona görə vacibdir ki, qəbula hazırlaşanların heç də hamısı hazırda buraxılış siniflərində oxuyan şagirdlər deyil, onlardan bir çoxu əvvəlki illərin məzunlarıdır. Odur ki, hər bir abituriyentin öz üzərində müstəqil çalışmasına səmərəli imkan yaradan metodiki cəhətdən mükəmməl vəsaitlərin hazırlanmasına bu gün böyük tələbat vardır.

Vəsaitdə materialların seçimi və şərhi zamanı üç mühüm elementin – müvafiq elmin əsasları, təhsilin məqsədləri və abituriyentlərin ümumi bilik və yaş səviyyəsinin bir-birilə ən optimal nisbətdə əlaqələndirilməsinə xüsusi diqqət yetirilib. Adətən, ümumtəhsil məktəblərinin aşağı və orta siniflərində dərs proqramları və vəsaitləri pilləlilik prinsipi üzrə – aşağı siniflərdə ötəri, bəsit şəkildə öyrədilənlərin yuxarı siniflərdə nisbətən dərindən mənimsədilməsi prinsipi əsasında tərtib olunur. Bu vəsait isə abituriyentlər və yuxarı sinif şagirdləri üçün nəzərdə tutulduğundan müəlliflər onu hazırlayarkən qəbul proqramının məzmun və tələblərinə uyğun olaraq xətti prinsipi, yəni eyni bir mövzu və məsələnin bir dəfə müfəssəl

şərhi prinsipini əsas götürüblər. Ona görə də mövcud fənnin bütün bölmələrinin bir kitabda verilməsi normal qəbul edilməlidir. Əlbəttə, belə bir fikir yaranmamalıdır ki, qəbula hazırlaşmaq üçün yalnız mövcud vəsaitdən istifadə etmək kifayətdir. Vəsait dərslikləri əvəz etmir. Proqram materiallarının mənimsənilməsində bunların hərəsinin öz yeri vardır. Vəsait hər bir şagirdin, abituriyentin dərsliklərdən öyrəndiyi bilikləri tamamlayır, zənginləşdirir və sistemləşdirir. O, biliklərin möhkəmləndirilməsi məqsədilə yerinə yetirilən təkrarlama mərhələsində xüsusilə əhəmiyyətli rol oynayır. Vəsaitə xas olan lakoniklik, şərh və izahlardakı yığcamlıq, məzmunu qısa, lakin dolğun ifadə etmək keyfiyyəti ondan istifadə edənlərə az bir vaxtda səmərəli nəticələr əldə etməyə imkan verir. İnanırıq ki, bu üstünlüklərinə görə vəsait abituriyentlər üçün gərəkli bir məlumat mənbəyi olacaqdır.

Vəsaiti hazırlayarkən müəlliflər təlim sahəsində ölkəmizdə və beynəlxalq təcrübədə tətbiq olunan müasir metodika və texnologiyalardan, mütərəqqi üsul və vasitələrdən, o cümlədən testləşdirmə üsulları və yoxlamalarından geniş istifadə etmişlər.

Vəsaitin hazırlanmasına müvafiq sahənin nüfuzlu alimləri, tanınmış metodistləri, təcrübəli müəllimləri cəlb edilmiş, materiallar TQDK nəzdindəki elmi-metodiki seminarlarda geniş müzakirədən keçirilmiş, mütəxəssislərin rəyləri öyrənilmişdir. Bununla belə, təqdim olunan vəsait ideal sayıla bilməz, onda müəyyən qüsurlar da ola bilər. Bunlar növbəti nəşrlərdə aradan qaldırılmalı və vəsait daha da təkmilləşdirilməlidir. Odur ki, ümumi işimizin xeyrinə materialla bağlı mülahizə, rəy və təkliflərinizi bildirməyi Sizdən xahiş edir və əvvəlcədən təşəkkürümüzü bildiririk.

Məleykə Abbaszadə,

Tələbə Qəbulu üzrə
Dövlət Komissiyasının sədri

ELMİ REDAKTORLARDAN

Tələbə Qəbulu üzrə Dövlət Komissiyası ənənəsinə sadiq qalıb bu dəfə «Ədəbiyyat» adlı vəsaiti abituriyentlərə, orta məktəb şagirdlərinə, Azərbaycan dili və ədəbiyyat müəllimlərinə təqdim edir. Elə bilirik ki, əvvəlkilər kimi, bu vəsait də qəbul imtahanlarına hazırlaşmaqda, bütövlükdə orta məktəbdə ədəbiyyat tədrisinin yaxşılaşmasında, təkmilləşdirilməsində əhəmiyyətli rol oynayacaq.

Vəsait Azərbaycan Respublikası Təhsil Nazirliyinin orta ümumtəhsil məktəbləri üçün ədəbiyyatdan tədris proqramına və TQDK-nın qəbul proqramına uyğun hazırlanmışdır. Hər bölmə yığcam, zəruri məqamlarda isə müəyyən təfsilatı ilə izah olunmuş, bölmələrin sonunda mövzunu tam əhatə edəcək testlər verilmiş, bu testlərin düşündürücü və məntiqi olmasına diqqət yetirilmişdir. Ədəbiyyatdan ayrıca öyrənilən bəzi əsərlərin məzmunu da diqqət mərkəzində olmuşdur (H.Cavidin «İblis», C.Cabbarlının «Oqtay Eloğlu», C.Məmmədquluzadənin «Anamın kitabı», Mir Cəlalın «Bir gəncin manifesti» və s.). Seçim vaxtı nəzərə alınmışdır ki, ən çox məhz bu əsərlərin mətninin öyrədilməsində müəyyən təbii çətinliklər meydana çıxır.

Vəsaitdə orta məktəbin «Ədəbiyyat» dərsliklərinin, eləcə də «Ədəbiyyat nəzəriyyəsi» vəsaitinin məzmunu, əsasən, mühafizə edilmişdir. Lakin X sinfin «Ədəbiyyat» dərsliyindəki və X–XI siniflər üçün «Ədəbiyyat nəzəriyyəsi» vəsaitindəki «Şifahi xalq ədəbiyyatı» və «Aşıq yaradıcılığı» bölmələri birləşdirilmişdir. Təbii ki, bəzi məsələlərin izahında kiçik fərqli yanaşmaları, hətta hansısa əlavə şərhləri də görəcəksiniz.

Vəsait tanınmış ədəbiyyat mütəxəssisləri və orta məktəblərin peşəkar dil-ədəbiyyat müəllimləri tərəfindən hazırlanmışdır. Əlbəttə, onlar bu vəsaitdə hər şeyin öz yerində olması qənaətində də deyillər. Yəqin ki, təklif və iradlar da olacaq. Biz bu təklif və iradlar üçün əvvəlcədən minnətdarlığımızı bildirir, oxucuları əmin edirik ki, vəsaitin sonrakı nəşrlərində bu təklif və qeydlərin faydalı olanlarını mütləq nəzərə alacaq, kitabın məzmununu, səviyyəsini daha da yaxşılaşdırmağa çalışacağıq.

Biz hər şeyi ölçüb-biçmiş, bu vəsaitin tərtibinin bütün mümkün variantlarını aramışıq. Nəticə etibarilə kiminsə xoşuna gələcək, ola bilsin ki, kiminsə də bəyənməyəcəyi belə bir variant alınmışdır. X və XI siniflərin mövcud «Ədəbiyyat» dərsliklərinin və «Ədəbiyyat nəzəriyyəsi» vəsaitinin müəlliflərindən xahiş edirik ki, onlar öz böyük zəhmətlərini bizə halal etsinlər, haradasa, nədəsə bizdən bədgüman olmasınlar.

Hamınıza böyük uğurlar arzulayırıq.

GİRİŞ

Ədəbiyyat həyatı, insanın hislərini, düşüncələrini, arzu və istəklərini obrazlı şəkildə əks etdirən söz sənətidir. Həyatı əks etdirmək ədəbiyyatın əsas məqsədidir. Təsadüfi deyil ki, qədim yunan filosofu Aristotel ədəbiyyatı *təqlidi sənət*, yəni həyatı və insanları yamsılama sənəti adlandırmışdır. Həyatı əks etdirmək ədəbiyyatı elmə yaxınlaşdırır. Amma elmdən fərqli olaraq, ədəbiyyat həyatı bədii təxəyyül əsasında əks etdirir. Həyatı və insanları bədii təxəyyüllə, yəni obrazlı şəkildə əks etdirmək ədəbiyyatı elmdən fərqləndirirsə, incəsənətin digər sahələrinə yaxınlaşdırır. Bu mənada ədəbiyyat da incəsənətin bir növüdür. İncəsənətin bütün növləri üçün ümumi, oxşar cəhət odur ki, onların hamısı varlığı, həyatı əks etdirir, yəni varlığın obrazlı inikasıdır. İnikas əks etmə deməkdir. İncəsənətin növləri həyatı əks etdirmə materialına görə bir-birindən fərqlənirlər. Məsələn, incəsənətin digər sahəsi olan rəssamlıqda rəngdən, bəstəkarlıqda musiqidən, rəqqaslıqda bədən hərəkətlərindən obrazlı şəkildə istifadə edildiyi kimi, ədəbiyyatda da sözdən obrazlı şəkildə istifadə edilir. Obrazlardan necə və hansı vasitə ilə istifadə etmək məsələsində də ədəbiyyat incəsənətin digər sahələrindən fərqlənir. İncəsənətin digər sahələrindən fərqli olaraq, ədəbiyyatın əsas ifadə vasitəsi, həyatı əks etdirmə materialı sözdür. Görkəmli rus ədəbiyyatşünası V.Q.Belinski incəsənətin başqa sahələri ilə müqayisədə ədəbiyyatı daha geniş ifadə imkanları olan sənət növü adlandırmışdır.

Ədəbiyyat sözü *ədəb* (mərifət) sözündən götürülmüşdür. Ədəbiyyatın vəzifələrindən biri insanlara zövq verməkdirsə, biri də insanları tərbiyə etmək, onları mənəvi cəhətdən zənginləşdirməkdir.

Ədəbiyyatı öyrənən elmə **ədəbiyyatşünaslıq** deyilir. Ədəbiyyatşünaslıq elminin üç əsas sahəsi var:

1. Ədəbiyyat tarixi

2. Ədəbiyyat nəzəriyyəsi

3. Ədəbi tənqid

Ədəbiyyat tarixi ədəbiyyatın keçdiyi tarixi inkişaf mərhələlərini, o cümlədən həmin mərhələlərdə yaşayıb fəaliyyət göstərmiş ayrı-ayrı sənətkarların həyat və yaradıcılığını öyrənir.

Ədəbiyyat nəzəriyyəsi ədəbiyyatın ümumi qanunauyğunluqlarını, ədəbi növ və janrları, yaradıcılıq metodlarını, bədii əsərin məzmun və forma cəhətlərini, quruluşunu, dil-üslub xüsusiyyətlərini və s. öyrənir.

Ədəbi tənqid müasir ədəbi prosesə, bədii əsərə qiymət verir, onun müsbət və mənfi cəhətlərini meydana çıxarır.

Ədəbi tənqid müasir ədəbi prosesi araşdırıb öyrənməklə bu gün yaşayıb-yaradan sənətkarlara istiqamət verir, ədəbi prosesin dərk olunmasında oxucuya kömək edir.

Firudin bəy Köçərli, Salman Mümtaz, Həmid Araslı, Məmməd Arif, Məmməd Cəfər, Məmmədhüseyn Təhmasib, Feyzulla Qasımzadə, Mirzə İbrahimov, Kamal Talıbzadə, Mir Cəlal, Əziz Mirəhmədov, Əkbər Ağayev, Mehdi Hüseyn, Bəkir Nəbiyev, Yaşar Qarayev və başqaları Azərbaycan ədəbiyyatşünaslığının inkişafında mühüm rol oynamışlar.

Azərbaycan ədəbiyyatı tarixi bu dövrlərə bölünür:

1. Qədim dövr (ən qədim zamanlardan XIII əsrə qədər)

2. Orta dövr (XIII əsrdən XVII əsrə qədər)

3. Yeni dövr (XVII əsrdən XX əsrin əvvəllərinə qədər)

4. Ən yeni dövr (XX əsrin əvvəllərindən bu günə qədər)

Azərbaycan ədəbiyyatının ümumi ideya-bədii istiqaməti və aparıcı prinsipləri *türkçülük, islamçılıq* və *müasirliklə* bağlıdır. Həmin ideya-bədii istiqamətlər bu və ya digər dərəcədə ədəbiyyatımızın tarixi dövrlərinin hər biri üçün səciyyəvi olmuşdur.

Bədii ədəbiyyatın iki qolu vardır:

1. Şifahi xalq ədəbiyyatı (folklor)

2. Yazılı ədəbiyyat

AZƏRBAYCAN ŞİFAHİ XALQ ƏDƏBİYYATI

Şifahi xalq ədəbiyyatına folklor da deyirlər. «Folklor» ingilis sözüdür, mənası «xalq hikməti» deməkdir. Folklor bədii ədəbiyyatın bir növü olub, aşağıdakı xüsusiyyətlərinə görə yazılı ədəbiyyatdan fərqlənir:

1. Şifahi xalq ədəbiyyatı şifahi şəkildə, yazılı ədəbiyyat isə yazılı şəkildə yaranır.

2. Şifahi xalq ədəbiyyatı bir növ kollektiv yaradıcılıq məhsuludur, yəni onun yaradılmasında bir çoxlarının zəkası, əməyi olur. Bəzən bir folklor nümunəsinin yaranmasında dolayı yolla nəsillər iştirak edir. Bu mənada, bir folklor nümunəsi bəzən bir günün, bir ayın, bir ilin yox, əsrlərin məhsulu olur.

3. Şifahi xalq ədəbiyyatı yazılı ədəbiyyatdan daha qədimdir.

4. Şifahi ədəbiyyat nümunəsinin müəllifi bəlli olmadığından **xalq yaradıcılığı** adlanır, yazılı ədəbiyyat nümunəsinin isə, bir qayda olaraq, müəllifi bəlli olur. Bu cəhətdən şifahi xalq ədəbiyyatını **anonim** ədəbiyyat adlandıranlar, görünür, heç də səhv etmirlər.

5. Şifahi xalq ədəbiyyatı çoxvariantlı, yazılı ədəbiyyat isə təkvariantlıdır. Şifahi ədəbiyyatın çoxvariantlı olması daha çox onun şifahi şəkildə yaranması ilə əlaqədardır.

6. Şifahi xalq ədəbiyyatı ağızdan – ağıza keçib bu günə gəldiyindən, təbii ki, yarandığı dövrün dil-üslub xüsusiyyətlərini qoruyub saxlamır, yazılı ədəbiyyat isə saxlayır.

7. Şifahi xalq ədəbiyyatı janrları, dil-üslub xüsusiyyətlərinə görə də yazılı ədəbiyyatdan fərqlənir. Məsələn, şifahi ədəbiyyatın bayatı, sayaçı sözü, layla, əfsanə, rəvayət, tapmaca, atalar sözü, məsəl, nağıl, dastan və s. kimi özünəməxsus janrları var. Sizin hər biriniz dil-üslub, ifadə xüsusiyyətlərinə görə şifahi xalq ədəbiyyatı nümunəsini yazılı ədəbiyyat nümunəsindən asanlıqla ayıra bilərsiniz.

Azərbaycan şifahi xalq ədəbiyyatı həyatı əks etdirmə – ifadə etmə üsullarına görə üç ədəbi növə ayrılır: **lirik növ, epik növ, dramatik növ.** Lirik növdə *tərənnüm*, epik növdə *təsvir-təhkiyə*, dramatik növdə isə *əyani göstərmə* üsulu əsasdır.

Şifahi xalq ədəbiyyatının (folklorun) lirik növünün janrları, əsasən, bunlardır: nəğmələr, mahnılar, bayatılar və s. Aşıq şeirinin qoşma, gəraylı,

təcnis və s. kimi janrları da, təbii ki, lirik növə daxildir. Siz bu barədə ədəbiyyat nəzəriyyəsini keçərkən müvafiq məlumat alırsınız.

Azərbaycan şifahi xalq ədəbiyyatının lirik növə daxil olan janrlarından biri **nəğmələrdir**. Nəğmələr məzmununa görə bir neçə yerə bölünür: *əmək nəğmələri, mərasim nəğmələri, mövsüm nəğmələri, qəhrəmanlıq nəğmələri, məişət nəğmələri.*

Əmək prosesində yaranan və oxunan nəğmələr **əmək nəğmələri** adlanır. Əmək nəğmələri şifahi xalq ədəbiyyatının ən qədim nümunələri hesab olunur. Əmək nəğmələri içərisində holavar və sayaçı sözləri geniş yayılmışdır. **Holavarlar** əkinçilik və cütçülüklə bağlı nəğmələrdir. Bu nəğmələrdə öküz, kəl kimi qoşqu heyvanlarına müraciət olunur, kotan, mac kimi istehsal alətlərinin adı çəkilir:

Gün düşdü qar üstünə,
Bağçada bar üstünə.
Tənbəl yatan öküzün
Quşlar qonar üstünə.

Sayaçı sözləri qoyunçuluqla bağlı nəğmələrdir. Bu nəğmələrdə qoyun, quzu, keçi kimi heyvanların adı çəkilir:

Nənəm, a narış qoyun,
Yunu bir qarış qoyun.
Çoban səndən küsübdür,
Südü ver, barış, qoyun.

Nəğmələrin bir qismi müxtəlif mərasimlərlə bağlı yaranmışdır və buna görə **mərasim nəğmələri** adlanır. Mərasim nəğmələri də çox qədim nəğmələrdən sayılır. Bu nəğmələrin içərisində daha geniş yayılanı toy nəğmələri və yas nəğmələridir. **Toy nəğmələri** toy mərasimlərində oxunur:

Qızıl üzük laxladı,
Verdim, anam saxladı.
Anama qurban olum,
Məni tez adaxladı.

Yas mərasimlərində oxunan nəğmələr **ağı** adlanır. Ağılar ölümlə, fəlakətlə bağlı olan qəmli nəğmələrdir:

Bostanda tağım ağlar,
Dəymə, yarpağım ağlar.
Sağ durduqca mən özüm,
Ölsəm, torpağım ağlar.

Mövsüm nəğmələri ilin ayrı-ayrı fəsilləri ilə əlaqədar olur:

Üçü bizə yağıdır,
Üçü cənnət bağıdır.
Üçü yığır, gətirir,
Üçü vurur, dağıdır.

Tapmaca xarakterli bu nəğmədə qış, yaz, yay və yaz fəsillərinə işarə olunmuşdur.

«Yel baba», «Duman, qaç», «Günəş, çıx», «Yağmur, gəl» kimi nümunələr də mövsüm nəğmələridir. Bu nəğmələrdə insanlar yazın gəlməsi, günün çıxması, yağışın yağması, küləyin əsib taxılçılığa yardım etməsi və s. ilə bağlı arzularını ifadə edirlər:

A yel baba, yel baba,
Qurban sənə, gəl, baba.
Taxılımız yerdə qaldı,
Yaxamız əldə qaldı...

Qəhrəmanlıq nəğmələri Koroğlu, Qaçaq Nəbi, Qaçaq Kərəm, Qatır Məmməd kimi xalq qəhrəmanları ilə bağlı oxunan və döyüşə, mübarizəyə səsləyən nəğmələrdir:

Dolun at belinə, qoç igidlərim,
Xotkarı taxtından endirək, hoydu!
Talayaq mülkünü, alaq malını,
Öyünü başına endirək, hoydu!

Belə nəğmələr daha çox aşıqlar tərəfindən ifa olunur.

Məişət nəğmələrinin ən geniş yayılan nümunələri laylalar və oxşamalardır. **Laylalar** anaların, nənələrin körpə uşağı yatırtmaq istəyərkən oxuduğu nəğmələrdir. Laylalar uşaqla, uşağın gələcəyi ilə bağlı ananın arzu və istəklərini, qayğılarını da ifadə edir.

Laylalar əslində dördlük şeir formasında olur. Çox vaxt bunlara iki misradan ibarət nəqarətlər də əlavə olunur.

Laylay, beşiyim, laylay,
Evim, eşiyim, laylay.

Sən get şirin yuxuya,
Çəkim keşiyin, laylay.
Balam, laylay, a laylay,
Gülüm, laylay, a laylay.

Laylalar bəzən nəsr şəklində də ola bilir. İstər nəzmlə, istər nəsrlə olsun, burada əsas cəhət ritm, ahəngdarlıqdır.

Laylalardan fərqli olaraq, **oxşamalar** uşaq yuxudan oyandıqdan sonra onu əzizləmək məqsədilə oxunur. Oxşamalara bəzən **nazlamalar** da deyilir. Oxşamalar oynaq, ritmik olmaqla yanaşı, zarafatyana ifadələrlə də diqqəti cəlb edir:

Dağda darılar,
Sünbül sarılar,
Qoca qarılar
Bu balama qurban.

Və ya:

Balama qurban sərçələr,
Balam haçan dirçələr?
Balama qurban ilanlar,
Balam nə vaxt dil anlar?

Oxşamaların bir elə də sabit şəkli olmur. Hecalarının və misralarının sayına görə bir-birindən fərqli oxşamalar olur.

Lirik növün geniş yayılmış janrlarından biri də **mahnılardır**. Lirik növün digər janrlarından fərqli olaraq, mahnıların özünəməxsus melodiyası – havası olur. Mahnılar musiqinin müşayiəti ilə oxunur. «Üçtelli durna», «Ahu kimi», «Küçələrə su səpmişəm», «Kəklik», «Bülbüllər oxur» kimi mahnılar məhəbbət mövzusundadır. «Qadan alım», «Sona bülbüllər», «Çalpapaq», «Bizi ayırdılar ata-anadan» kimi mahnılarda isə ictimai motivlər üstünlük təşkil edir. Ü. Hacıbəyov xalq mahnıları haqqında yazır: «El mahnıları Azərbaycan xalqının ... şeir və musiqidəki yaradıcılıq qabiliyyətinin dərəcəsini təyin edə bilən böyük bir material olduğundan onun istər musiqi, istər ədəbi, istər psixoloji, istər etnoqrafik əhəmiyyəti çox böyükdür».

Lirik növün ən geniş yayılmış janrı **bayatıdır.** Bayatıların sabit forma xüsusiyyətləri vardır. Bayatı cəmi dörd misradan ibarətdir. Misraları yeddi

hecalıdır. Bayatının birinci və ikinci misraları, adətən, hazırlıq məqsədi daşıyır, əsas fikir üçüncü və dördüncü misralarda ifadə olunur. Bayatılar ən çox «mən aşiq», «mən aşıq», «aşiqəm», «eləmi», «əzizim», «əziziyəm» kimi ifadələrlə başlanır. Bayatının qafiyə quruluşu *aaba* şəklindədir:

Mən aşıq, keçdi məndən,
Ox dəydi, keçdi məndən.
Yaxşıya körpü oldum,
Yaman da keçdi məndən.

Şəkli xüsusiyyətlərinə görə bayatı yazılı ədəbiyyatın rübai, tuyuq kimi klassik janrlarına yaxındır.

Bayatılar mövzu və məzmunca müxtəlif olur. Bayatıların böyük bir qismi məhəbbət mövzusundadır. Xalq yazıçısı Mehdi Hüseyn yazırdı: «Bayatıların ən qüvvətli nümunələrini sevgi lirikası adlandırmaq daha doğru olar».

Bayatı janrına aşıq ədəbiyyatı və yazılı ədəbiyyatda da müraciət edilir. Sarı Aşıq, Xəyyat Mirzə kimi el sənətkarları, Şah İsmayıl Xətai, Məhəmməd Əmani, Qasım bəy Zakir kimi klassik şairlər bayatının gözəl nümunələrini yaratmışlar. Molla Vəli Vidadi bayatını «nərmü nazik» bilmiş və Qarabağın gözəl təbiətini bayatıya bənzətmişdir:

Külli-Qarabağın abi-həyatı
Nərmü nazik bayatıdır, bayatı.

Şifahi xalq ədəbiyyatında holavar, sayaçı sözü, layla, ağı, vəsfi-hal, tapmaca və s. kimi janrlar bir çox hallarda bayatı formasında olur.

XVI-XVII əsərlərin böyük şairi Məhəmməd Əmani bayatının 6 misralıq növünü yaratmışdır.

Azərbaycan şifahi xalq ədəbiyyatının **epik növünə** əfsanələr, rəvayətlər, lətifələr, qaravəllilər, nağıllar, dastanlar, atalar sözü və məsəllər, həmçinin tapmacalar və yanıltmaclar daxildir.

Əfsanələri epik növün başqa janrlarından fərqləndirən başlıca cəhət həmin nümunələrdə müasir ağlın, düşüncənin uydurma, fantastika kimi qəbul etdiyi qeyri-adi hadisələrin təsvir edilməsidir. Əfsanələrdə insan

quşa, heyvana, səma cisimlərinə çevrilir, dağlar, çaylar, güllər, çiçəklər dil açıb danışır və s.

Əfsanələr mövzu etibarilə aşağıdakı qruplara ayrılır:

1. Zoonimik əfsanələr

2. Toponimik əfsanələr

3. Etnonimik əfsanələr

4. Kosmoqonik əfsanələr.

Zoonimik əfsanələr heyvan və quş adları, onların yaranması ilə bağlıdır. «Maral», «Qu quşu», «Qızıl ilan», «Turac», «Şanapipik» zoonimik əfsanələrə misal ola bilər.

Toponimik əfsanələr yer adları, məsələn, kənd, şəhər, qala, dağ, bürc və s. adları ilə bağlı olur. «Pəri qala», «Siyəzən», «Beşbarmaq dağı», «Səngəçal», «Dədəgünəş», «Dəmirqaya» belə əfsanələrdəndir.

Etnonimik əfsanələr tayfa, xalq, el, nəsil adları ilə bağlı olur. «Oğuz» və «Bayat» kimi əfsanələrdə qədim türk tayfalarından, onların yaranma tarixindən bəhs olunur.

Kosmoqonik əfsanələr səma cisimləri haqqında söylənən əfsanələrdir. Bu əfsanələr içərisində *«Günəşlə Ay»* daha məşhurdur. Həmin əfsanədə Ayın Günəşə sonsuz məhəbbətindən söhbət açılır. Ay Günəşin tələbi ilə öz üzündəki xalı qoparıb Günəşə verir. Lakin Günəş bu fədakarlığı qiymətləndirə bilmir və qürrələnib deyir: «Sənin gözəlliyin üzündəki xalda idi, onu da qopartdın. İndi dünyanın ən gözəli mənəm». Ay sevdiyi gözəlin bu sözlərindən elə heyrətlənir ki, üzünə tökülən qan sifətindəcə donur. Əfsanəyə görə, elə o vaxtdan Ayın üzündə ləkə qalır.

Göründüyü kimi, əfsanələrdə ətraf aləm canlı varlıq kimi dərk olunur, Günəş, Ay, eləcə də dağ, çay, heyvan, quş insana xas əlamətlərlə təqdim edilir.

Səməd Vurğun *«Ayın əfsanəsi»* poemasını, İlyas Əfəndiyev *«Apardı sellər Saranı», «İsa-Musa»* hekayələrini xalq əfsanələri əsasında yazmışlar.

Əfsanələrdən fərqli olaraq, **rəvayətlərdə** real zəmin üstünlük təşkil edir. Rəvayətlər tarixən baş vermiş hadisələr, yaxud real şəxsiyyətlərin başına gəlmiş əhvalatlar əsasında yaranır. Təbii ki, həmin hadisə və əhvalatlar zaman keçdikcə öz dəqiqliyini itirir və ağızdan-ağıza ötürülərək müxtəlif məzmunda danışılır. Rəvayətlər, bir qayda olaraq, «rəvayətə görə», «deyilənə görə», «belə rəvayət edirlər ki» və s. ifadələrlə başlayır. Rəvayətlər məzmun etibarilə iki əsas qrupa ayrılır:

1. Tarixi şəxsiyyətlərlə bağlı rəvayətlər

2. Coğrafi ərazilərlə (yer adları ilə) bağlı rəvayətlər

Azərbaycan şifahi xalq ədəbiyyatında Teymurləng, Nəsimi, Xətai, Həbibi, Füzuli, Vaqif, Aşıq Ələsgər və başqa şəxsiyyətlər barədə maraqlı rəvayətlər vardır. Məsələn, Xətai haqqında bir rəvayətdə deyilir ki, onun arvadı Bəyim xanım döyüşdə əsir düşür. Bu xəbəri Xətai gec eşidir. Vaxtında arvadının köməyinə gedə bilməyən Xətai bu hadisədən sarsılır və deyir: «Nə böyük xəta elədim». Rəvayətə görə, o vaxtdan Şah İsmayıl el arasında Xətai adı ilə tanınır.

«Qarı dağı», «Sınıq körpü», «Bibiheybət», «Şuşa», «Xatın arxı» kimi rəvayətlər coğrafi adlarla bağlıdır.

C.Cabbarlı *«Qız qalası»*, M.Müşfiq *«Çoban»*, S.Vurğun *«Aslan qayası»* poemalarını, İ.Əfəndiyev *«Qarı dağı»* hekayəsini rəvayətlər əsasında yazmışlar.

Epik növün əsas janrlarından olan **lətifələr** ictimai həyatdakı və məişətdəki qüsurlardan bəhs edən yığcam və gülməli əhvalatlardır Gülüş lətifələrin ayrılmaz xüsusiyyəti olub, daha çox islahedici səciyyə daşıyır. Azərbaycan şifahi xalq ədəbiyyatında Bəhlul Danəndə, Molla Nəsrəddin, Abdal Qasım, Ayrım Tağı, Mirzə Bağı, Hacı dayı kimi lətifə qəhrəmanları vardır. Bunlardan Molla Nəsrəddin daha məşhurdur. Molla Nəsrəddin Azərbaycanla yanaşı, digər türk-müsəlman xalqlarının da folklorunda xüsusi yer tutur. Molla Nəsrəddin bəzən özünü axmaqlığa vurur, eşşəkləri saymağı belə bacarmayan, ən adi işlərdən baş çıxarmayan avam, kütbeyin adam rolunda görünür. Özü gülüş hədəfinə çevriləndə də Molla Nəsrəddin əslində dolayı yolla cəmiyyətdəki nöqsanlara gülmüş olur.

Molla Nəsrəddin lətifələri yazılı ədəbiyyata da təsir göstərmişdir. Belə təsirin nəticəsidir ki, C.Məmmədquluzadə satirik yazılarının bir çoxunu *Molla Nəsrəddin* imzası ilə çap etdirmiş, nəşr etdirdiyi satira və yumor jurnalını *«Molla Nəsrəddin»* adlandırmışdır.

Epik növün əsas janrlarından olan **nağıllar** həcm etibarilə lətifələrdən böyük olur. Lətifələrdən fərqli olaraq, nağıllar heç də həmişə gülməli olmur. Nağıllar gülməli olduğu kimi, tam «ciddi» məzmun da daşıya bilir. Nağılların sabit forma əlamətləri vardır. Bu əlamətlərdən biri nağılın bəzən **pişrov** adlanan və nəzm şəklində söylənən xüsusi müqəddimə ilə başlamasıdır:

Hamam, hamam içində,
Xəlbir saman içində,
Dəvə dəlləklik elər
Köhnə hamam içində.

Və ya:

Qarışqa şıllaq atdı,
Dəvənin budu batdı.
Xanın yarıtmaz oğlu
Elin varını satdı.
Puluna doşab aldı,
İçdi, yıxıldı-yatdı ...

Pişrovdan sonra nağılın əsas mətni «biri varmış, biri yoxmuş, Allahdan başqa heç kim yoxmuş» kimi ifadələrlə danışılır. Danışılan əhvalatları bir-biri ilə əlaqələndirmək üçün nağıl söyləyənlər xüsusi cümlələrdən və ifadələrdən istifadə edirlər: «Nağıl dili yüyrək olar», «Az getdi, üz getdi, dərə, təpə, düz getdi», «Dərələrdən sel kimi, təpələrdən yel kimi, badiyi-sərsər kimi», «Orda ayla, illə, burda müxtəsər dillə» və s. Nağıl özünəməxsus sonluqla bitir: «Onlar yedilər, içdilər, yerə keçdilər, siz də yeyin, için, yerə keçin», «Göydən üç alma düşdü, biri mənim, biri özümün, biri də nağıl deyənin».

Mövzusuna və təsvir üsuluna görə nağıllar dörd əsas qrupa bölünür:

1. Sehrli nağıllar

2. Heyvanlar haqqında nağıllar

3. Tarixi nağıllar

4. Ailə-məişət nağılları

Sehrli qüvvələrin iştirak etdiyi nağıllar ***sehrli nağıllar*** adlanır. Bu nağıllarda qəhrəman div, əjdaha, dərviş və s. kimi sehrli qüvvələrə qarşı mübarizə aparır. Sehrli nağıllarda hadisələr real dünyadan başqa, həm də yeraltı dünyada – Qaranlıq dünyada cərəyan edir. «Məlikməmməd», «Şəms və Qəmər», «Sehrli üzük», «Ağ atlı oğlan», «Vur, çomağım, vur», «Şahzadə Mütalib» kimi nağıllar sehrli nağıllardır.

Heyvanlarla bağlı nağılların əsas iştirakçıları tülkü, canavar, şir, dovşan və s. heyvanlardan ibarət olur. Tülkü hiyləgərliyi, şir qəddarlığı, dovşan qorxaqlığı, canavar acgözlüyü təmsil edir. «Şəngülüm, Şüngülüm, Məngülüm», «Tülkü, tülkü, tünbəki», «Tülkünün kələyi», «Çil madyan», «Şir və tülkü», «Tülkü və canavar», «Axmaq canavar», «Qoca aslan» kimi nağıllar heyvanlar haqqında nağıllara nümunə ola bilər.

Azərbaycan şifahi xalq ədəbiyyatında Dara, İsgəndər, Ənuşirəvan, Şah Abbas kimi ***tarixi şəxsiyyətlərlə bağlı nağıllara*** rast gəlirik. «İsgəndərin buynuzu var», «Quş dili bilən İsgəndər», «İsgəndərin zülmətə getməsi» İsgəndər haqqındakı nağıllardandır. Şah Abbasla bağlı nağıllar folklorumuzda daha geniş yer tutur. «Üç bacı», «Saleh və Valeh» kimi nağıllarda Şah Abbas mənfi, «Baftaçı Şah Abbas», «Şah Abbasın doğulması» kimi nağıllarda isə müsbət planda təsvir edilir.

Xalqın gündəlik həyat və məişətindən bəhs edən nağıllar ***məişət nağılları*** adlanır. Bu nağıllarda real hadisələrin təsviri aparıcı yer tutur. «Yeddi qardaş, bir bacı», «Usta Abdulla», «Yetim İbrahim», «İlyasın nağılı», «Daşdəmirin nağılı», «Qazanılmış manat» məişət nağılları sırasına daxildir.

Epik növün aparıcı janrlarından biri **dastandır**. Dastan əslində aşıq yaradıcılığının məhsuludur. Aşıq yaradıcılığını şifahi xalq ədəbiyyatı ilə bağlayan əsas amil də dastanlardır. Dastanda epik təhkiyə ilə lirik təqdimat, nəsrlə nəzm vəhdət təşkil edir. Əhvalatları danışarkən aşıq yeri gəldikcə saz havasının müşayiəti ilə şeirlər söyləyir və həmin şeirlər vasitəsilə qəhrəmanların hiss-həyəcanlarını ifadə edir. Dastanlarımızın nəzm hissəsi, əsasən, qoşma və gəraylılardan ibarət olur.

Dastan bütövlükdə epik növə daxil edilsə də, elə bu cəhətlərinə görə epik-lirik janr hesab olunur.

Mövzusuna görə dastanlar iki əsas qrupa bölünür:

1. Qəhrəmanlıq dastanları

2. Məhəbbət dastanları

Qəhrəmanlıq dastanlarında vətənin, xalqın azadlığı uğrunda mübarizə aparan qəhrəmanlardan bəhs olunur. «Dədə Qorqud», «Koroğlu», «Qaçaq Nəbi», «Qaçaq Kərəm», «Səttarxan», «Qatır Məmməd» qəhrəmanlıq dastanlarıdır.

Məhəbbət dastanları qəhrəmanların məhəbbət macərası üzərində qurulur. «Əsli və Kərəm», «Tahir və Zöhrə», «Abbas və Gülgəz», «Şah İsmayıl» və s. kimi məhəbbət dastanlarımız var.

Qəhrəmanlıq dastanlarında məhəbbət motivlərinə, həmçinin məhəbbət dastanlarında qəhrəmanlıq motivlərinə yer verilə bilər. Məsələn, məhəbbət dastanı olan «Şah İsmayıl»da qəhrəman öz istəyinə həm də «qeyri-adi güc»ü sayəsində çatır. Eləcə də «Dədə Qorqud» və «Koroğlu» dastanlarında müəyyən məhəbbət məqamları var.

Dastanların özünəməxsus kompozisiyası olur. Qəhrəmanlıq dastanlarından fərqli olaraq, məhəbbət dastanları, bir qayda olaraq, üç ustadnamə ilə başlayıb, duvaqqapma ilə bitir. Kədərli sonluqla bitən məhəbbət dastanının (məsələn «Əsli və Kərəm»in) axırında duvaqqapmadan yox, cahannamədən istifadə edilir. Dastanda əsas əhvalatları danışan aşıq bir epizoddan başqasına keçərkən xüsusi cümlələr işlədir. Məsələn, aşıq bir əhvalatı yarımçıq saxlayıb: «İndi Ziyad xan toy tədarükündə olsun, görək Qara Keşiş neynədi?» – deyir və başqa bir əhvalatı danışmağa başlayır. Nağılların əvvəlində pişrovdan istifadə edildiyi kimi, dastanların da arasında qaravəllidən istifadə edilə bilər. «Əsli və Kərəm» tipli dastanların qəmli əhvalatlarını danışarkən aşıq dinləyicilərin eynini açmaq, onların əhvali-ruhiyyəsini yüksəltmək ehtiyacı duyur və bu məqsədlə dastanı bir neçə dəqiqəliyə yarımçıq saxlayıb məzəli bir qaravəlli verməli olur.

Nəbi Xəzri, Anar, Elçin, Kamal Abdulla kimi yazıçılarımız xalq dastanları əsasında roman, povest, hekayə, dram və s. janrlarda əsərlər yazmışlar. Üzeyir Hacıbəyov «Əsli və Kərəm», «Koroğlu», Müslüm

Maqomayev «Şah İsmayıl», Zülfüqar Hacıbəyov «Aşıq Qərib» operalarını eyniadlı dastanlar əsasında yazmışlar.

Epik növün janrlarından sayılan **atalar sözləri** yığcam və dərin mənalı sözlərdir: «Qələm qılıncdan itidir», «Qaz lələyi qanun yazar», «Hirsli başda ağıl olmaz», «Dəmiri isti-isti döyərlər», «Bugünkü işi sabaha qoyma», «Güc birlikdədir». Atalar sözləri nəsrlə ifadə olunduğu kimi, nəzmlə də ifadə oluna bilər: «El gücü, sel gücü», «Yüz ölç, bir biç», «Dost dosta tən gərək, tən olmasa gen gərək», «Saxla samanı, gələr zamanı» və s.

Y.V.Çəmənzəminli şifahi xalq ədəbiyyatının müxtəlif janrlarına aid eyni nümunələrin müxtəlif xalqların folklorunda özünü göstərdiyini qeyd edir. O, bu baxımdan atalar sözlərini «daha ümumi və bəşəri folklor nümunələri» adlandırır.

Məsəllər də atalar sözləri kimi hikmətamiz fikir ifadə edir. Amma atalar sözləri müstəqil işləndiyi halda, məsəllər müəyyən bir əhvalatla bağlı olur. Məsəl hansısa lətifənin, nağılın, rəvayətin, yaxud dastan parçasının yekunu kimi meydana çıxır. Odur ki, məsəl deyildikdə onun bağlı olduğu əhvalat da hökmən nəzərdə tutulur. «Mıxı mismara döndərən var», «Nə diriyə hay verir, nə ölüyə pay», «Nə tüfəngə çaxmaqdır, nə süngüyə toxmaq», «Karın könlündəki», «Sən çaldın», «Qələt yağ küpəsindədir», «Doyan o rəhmətlik kimi olar» və s. kimi məsəllər rəvayət və lətifələrlə; «Çünki oldun dəyirmançı, çağır gəlsin dən, Koroğlu», «Söz dəyirmandakıdır», «İgidlik ondur, doqquzu qaçmaq» kimi məsəllər «Koroğlu» dastanı ilə; «Əkəndə yox, biçəndə yox, yeyəndə ortaq qardaş» məsəli bir xalq dramı ilə bağlıdır.

Epik növün janrlarından hesab edilən **tapmacalarda** müəyyən bir əşyanın əlaməti obrazlı, üstüörtülü şəkildə göstərilir və həmin əlamət əsasında əşyanın adını tapmaq tələb olunur:

Altı bulaq – içərlər,
Üstü zəmi – biçərlər.

Bu tapmacada obrazlı şəkildə qoyunun əlamətlərinə işarə olunur.

Tapmacalar nəzmlə ifadə olunduğu kimi, nəsrlə də ifadə oluna bilər: «Mən gedirəm, o da gedir» (kölgə); «Bir ipim var, nə qədər yığıram, qurtarmır» (yol), «Yol üstündə yoğun arvad» (təndir) və s.

Tapmacalarda epitet, təşbeh, metafora kimi bədii təsvir vasitələrindən geniş istifadə olunur. Bunu nəzərdə tutan yunan filosofu Aristotel (Ərəstu) tapmacanı «ən yaxşı düzəldilmiş istiarə» adlandırmışdır.

Azərbaycan şifahi xalq ədəbiyyatında **dramatik növün** əsas janrları bunlardır: **xalq oyunları, xalq tamaşaları** və **şəbihlər.**

Xalq oyunlarından biri «Xan oyunu»dur. Oyunun əvvəlində aşıq atmaq yolu ilə xan, vəzir və cəllad seçilir. Qalan oyunçular oğru rolunda çıxış edirlər. Xan oğruları sorğu-suala çəkir, onlara müəyyən cəzalar verir, cərimə kəsir, onları həbs edir və s. «Xan oyunu»ndan başqa, «Motal-motal», «Əl üstə kimin əli» kimi oyunlar da var.

Oyunlardan fərqli olaraq, *xalq tamaşaları* (bəzən *meydan tamaşaları* da deyilir) başqalarına göstərmək üçün icra edilir. Karvansara həyətlərində, şəhər, kənd meydanlarında göstərilən bu tamaşaların «Kosa-kosa» (bu həm oyundur, həm də tamaşa), «Əkəndə yox, biçəndə yox, yeyəndə ortaq qardaş», «Biç nökər» və s. kimi nümunələri vardır. «Əkəndə yox, biçəndə yox, yeyəndə ortaq qardaş», «Tənbəl qardaş» adlanan və üç hissədən ibarət olan xalq tamaşasında əməyə məhəbbət motivi əsas yer tutur.

Şəbihlər dini tamaşalardır. Bu tamaşalar daha çox məhərrəmlik mərasimləri ilə, Kərbəla müsibətinin təsviri ilə bağlı olur. Belə şəbihlərdən biri «Qasimin toy gecəsi» adlanır. Şəbihdə İmam Hüseynin qardaşı oğlu Qasimin başına gələn müsibətdən bəhs edilir.

Aşıq yaradıcılığı

Xalq ədəbiyyatının mühüm bir sahəsi olan aşıq yaradıcılığı qədim zamanlardan şifahi şəkildə yaranıb inkişaf etmişdir. Amma şifahi xalq ədəbiyyatının digər sahələrindən fərqli olaraq, aşıq ədəbiyyatı nümunələrinin, xüsusən də aşıq şeirlərinin müəllifi, əsasən, bəlli olur.

Aşıqlar həmişə zəmanə problemlərinə münasibətdə, bəzən hətta onların həllində fəal olmuşlar. Məsələn, Şah İsmayıl Xətainin dövründə Səfəvilər sarayına cəlb olunan aşıqlar ordunun döyüş ruhunun yüksəlməsinə güclü təsir göstərmişlər. XVII-XVIII əsrlər Azərbaycan intibahında aşıq yaradıcılığının mühüm rolu olmuşdur.

Müxtəlif dövrlərdə aşıqlar «ata», «dədə», «ozan», «yanşaq», «varsaq» kimi adlar daşımışlar. Aşıq sənəti sinkretik (qovuşuq) sənətdir, çünki burada musiqi, şeir və rəqs kimi müxtəlif yaradıcılıq növləri birləşir.

Aşıqlar iki əsas qrupa bölünür: ***yaradıcı aşıqlar, ifaçı aşıqlar***. *Yaradıcı aşıqlar* şeir qoşur, saz havası bəstələyir, dastan yaradır və bunları məclislərdə ifa edirlər. *İfaçı aşıqlarsa*, bir qayda olaraq, ustadların (yəni yaradıcı aşıqların) əsərlərini yüksək səviyyədə xalqa çatdırmaqla məşğul olurlar. Dirili Qurbani (XVI əsr), Abbas Tufarqanlı (XVII əsr), Sarı Aşıq (XVII əsr), Xəstə Qasım (XVIII əsr), Aşıq Alı (XIX əsr), Aşıq Ələsgər (XIX-XX əsrlər) yaradıcı aşıqlardır. XX əsr aşıqlarından Hüseyn Bozarqanlı, Aşıq Şəmşir, Aşıq Şakir, Aşıq Hüseyn Cavan, Mikayıl Azaflı, Aşıq Pənah da yaradıcı aşıqlar hesab olunur. Aşıq Əmrah, Aşıq Kamandar, Aşıq Hüseyn Saraclı, Aşıq Ədalət isə ifaçı aşıqlardır.

Aşıq şeirinin müxtəlif janrları vardır. Bu janrlar arasında ən geniş yayılanı gəraylı, qoşma və təcnisdir.

Gəraylı. Aşıq şeirinin hər bəndi dörd misradan, hər misrası səkkiz hecadan ibarət olan 3-5 bəndlik nümunəsi *gəraylı* adlanır. Gəraylının qafiyə quruluşu belədir: I bənddə: *abcb,* sonrakı bəndlərdə: *çççb, dddb*. Məsələn:

Gözəllər seyrangahısan,
Görüm səni var ol, yaylaq!
Açılsın gülün, nərgizin,
Təzə mürğüzar ol, yaylaq!

Gözüm qaldı siyah teldə,
Bülbül öldü meyli güldə.
Kimsəm yoxdu qürbət eldə,
Sən mənə qəmxar ol, yaylaq!

Mən səni görəndən bəri,
Sinəm oldu qəm dəftəri.
Öldür Aşıq Ələsgəri,
Özün günahkar ol, yaylaq!

Göründüyü kimi, birinci bəndin 2-ci və 4-cü misraları həmqafiyədir, 1-ci və 3-cü misraları isə sərbəst buraxılmışdır. Sonrakı bəndlərin 1, 2 və 3-cü misraları öz aralarında qafiyələnmiş, 4-cü misraları isə birinci bəndin 2-ci və 4-cü misraları ilə həmqafiyə olmuşdur. Aşıq sonuncu bənddə öz adını çəkmiş və şeirin məhz ona məxsus olduğunu bildirmişdir. Aşıq şeirinin müəllifin adı çəkilən sonuncu bəndi *möhürbənd* adlanır. Gəraylıda bəndlərin sayı mümkün qədər tək olmalıdır.

Qoşma. Aşıq şeirinin hər bəndi dörd misradan, hər misrası on bir hecadan ibarət olan janrına *qoşma* deyilir. Qoşmanın qafiyə quruluşu eynilə gəraylıdakı kimidir: *abcb, çççb, dddb....* Gəraylıdakı kimi, qoşmada da bəndlərin sayının tək olması (3, 5, 7) onun səciyyəvi xüsusiyyətlərindən biridir.

Qoşma aşıq poeziyasından yazılı ədəbiyyata da keçmiş, M.V.Vidadi, M.P.Vaqif, Q.Zakir, S.Vurğun, S.Rüstəm, M.Rahim, H.Arif, B.Vahabzadə və başqa şairlərimiz bu janrda bir sıra əsərlər yazmışlar.

Qoşmanın məzmunca dörd əsas növü vardır:

1. Gözəlləmə

2. Ustadnamə

3. Qıfılbənd

4. Vücudnamə

Gözəlləmə gözəllərin vəsfinə həsr edilən aşiqanə məzmunlu qoşmalara deyilir. Aşıq Ələsgərin «Güləndam», «Xurşid», «Müşkinaz» və s. kimi qoşmaları gözəlləmə nümunələridir.

Ustadnamə dinləyiciyə öyüd-nəsihət vermək məqsədi daşıyan hikmətamiz qoşmalara deyilir. Aşıq ədəbiyyatında Abbas Tufarqanlı, Xəstə Qasım, Aşıq Alı, Aşıq Ələsgər və başqa sənətkarların yaddaqalan ustadnamələri vardır.

Üz vermə nadana, sirr vermə pisə,
Axır qəlbin ya inciyə, ya küsə.
Ot bitər kök üstə, əsli nə isə,
Yovşan bəslənməklə çəmənzar olmaz!

Xəstə Qasımın ustadnaməsindən götürülmüş bu bənddə aşıq özünün nəsihətamiz fikirlərini ifadə edir.

Qıfılbənd tapmaca məzmunlu qoşmalara deyilir. Bəzən **bağlama** da adlanan qıfılbənddən aşıqlar, adətən, deyişmələr zamanı istifadə edirlər. Bir aşıq tapmaca məzmunlu qoşma-qıfılbəndlə o biri aşığa suallar verir və qarşı tərəfdən cavab gözləyir:

Məğrurluq eyləyib ustadam deyən,
O hansı ağacdı, tağı yeddidi?
O ağacda bir quş yuva salıbdı,
Çarpaz sinəsinin dağı yeddidi.

Aşıq Ələsgərin bu qıfılbəndini sonralar Aşıq Bəhmən belə açmışdır:

Ustadam deyənlər məğrur olmasın,
Cəsəd damarının səri yeddidi.
Sinə yuvasında məskən salıbdı,
Ürək bir quş olsa, pəri yeddidi.

Göründüyü kimi, qıfılbəndi açan aşıq qoyulan suala cavab verməklə yanaşı, qıfılbəndin ahəngini də saxlamalı olur.

Bir qıfılbəndin müxtəlif açmaları da ola bilir. Ola bilər ki, aşıq deyişməsiz də əvvəlcədən qıfılbənd yaratsın, sonrakı aşıqlar da ayrı-ayrılıqda, ayrı-ayrı vaxtlarda onu açmağa çalışsınlar.

Vücudnamə insanın ayrı-ayrı yaş mərhələlərinin xüsusiyyətlərini əks etdirən qoşmalara deyilir. İnsanın doğulandan ölənə qədər keçdiyi həyat yoluna nəzər salmaq vücudnamədə əsas xətt kimi özünü göstərir:

Üç yaşından beş yaşına varanda
Yenicə açılan gülə bənzərsən.
Beş yaşından on yaşına varanda
Arıdan saçılmış bala bənzərsən...

... Əllisində əlif qəddin çəkilər,
Altmışında qabaq dişlər tökülər,
Yetmişində qəddin, belin bükülər,
Karvanı kəsilmiş yola bənzərsən.

(«Koroğlu» dastanından)

İki bəndi təqdim olunan bu qoşma insanın müxtəlif yaş xüsusiyyətlərini əks etdirdiyinə görə vücudnamə nümunəsi sayılır.

Təcnis. Əksər cəhətlərdən qoşma ilə eyniyyət təşkil edən, amma qoşmadan fərqli olaraq, qafiyələri cinas sözlər (yəni şəkilcə eyni, mənaca müxtəlif sözlər) əsasında qurulan aşıq şeiri *təcnis* adlanır. Bütün omonimlər cinas ola bilər, amma bütün cinaslar heç də omonimlərdən ibarət olmur:

Yar, məskənin astanamı, dərdimi?
Kamil bağban gülü bağdan dərdimi?
A bimürvət, dərdin mənim dərdimi
Artırıb, yetirib a yüzə, yüzə.

(Aşıq Ələsgər)

Bu bənddə *dər (qapı) və dərd* isimləri ilə *dər* feli şəkilcə oxşarlıq yaratdığına və müxtəlif mənalar bildirdiyinə görə (*dər-di-mi, dər-di-mi, dərd-im-i*) buradakı qafiyələr cinas qafiyələrdir.

Amma cinas olan bu sözlərdən yalnız ikisi (də'rdi(r)mi, dər-di'-mi) həm də omonimdir. Mənaları: ***qapı***dırmı (isim); dərdimi? (fel).

Cinas qafiyələrə bayatı, tuyuq, qəzəl, qəsidə, müxəmməs və s. kimi müxtəlif şeir janrlarında da rast gəlmək mümkündür. Buna baxmayaraq, həmin janrlarda olan heç bir şeir nümunəsi *təcnis* sayılmır. Cinas qafiyələr əsasında yaranan şeir yalnız o halda təcnis sayılır ki, həmin şeir əksər cəhətlərinə görə məhz qoşma ilə eyniyyət təşkil etsin.

Bəzən gəraylı təcnislərdən (hətta müxəmməc təcnislərdən) də danışırlar. Bu mənada, Aşıq Alının (Ələsgərin ustadının) xeyli sayda gəraylı təcnisləri də var. Təsadüfi deyil ki, bu aşığa Təcnis Alı da deyiblər.

Təcnisin formaca müxtəlif növləri vardır: ***dodaqdəyməz təcnis, ayaqlı təcniz*** (yaxud ***müstəzad təcnis), cığalı təcnis***.

Dodaqdəyməz təcnis m, b, p kimi qoşadodaq samitlərin işlənmədiyi təcnisə deyilir. Məsələn:

Gəldi yaz ayları, həsrət çəkər xak,
Deyər: Leysan gələ a yağa-yağa.
«Lənət şeytana!» – de, şər işdən əl çək,
Şeytan səni salar ayaq-ayağa.

(Aşıq Ələsgər)

Maraqlıdır ki, Aşıq Ələsgər dodaqdəyməz təcnis deyilən təcnislərində nəinki *b, m, p* kimi qoşadodaq, hətta *f, v* kimi dodaq-diş samitlərindən, *o, ö, u, ü* kimi dodaqlanan saitlərdən də istifadə etməyərək, bir ilahi sənətkarlıq nümunəsi göstərmişdir.

Ayaqlı təcnis hər bəndin axırında 5-6 hecalı əlavə bir misranın da işləndiyi təcnisə deyilir. Məsələn:

Bir xoş günü əvəz min aya billəm,
Boyun naqqaş çəkib minaya, billəm.
Pirim dərsim verib, min aya billəm,
Bir sözünə min söz deyim dəsbədəs,
Sən eylə həvəs.

(Aşıq Ələsgər)

Cığalı təcnis hər bəndinin 2-ci və 3-cü misraları arasına bir bayatı artırılan təcnisə deyilir. Məsələn:

Arif olan, bir od düşüb canıma,
Əridib döndərir a yağa məni.
Aşıq deyər ay ağa,
Yetiş dada, ay ağa!
İllər xəstəsi canım,
Yar gəldi, qalx ayağa.
Ağa olan qulun salmaz nəzərdən,
Salma nəzərindən, ay ağa, məni!

(Aşıq Ələsgər)

Verilən nümunə cığalı təcnisin birinci bəndidir. Burada *cığa* bəndin ikinci və üçüncü misraları arasında yerləşdirilən bayatının adıdır. Belə bəndlərə isə ***cığa bəndi*** deyilir.

Aşıq poeziyası belə gözəllikləri, quruluş incəlikləri ilə zəngindir.

A variantı

1. Ədəbiyyatı incəsənətin digər növlərindən fərqləndirən cəhət:
   A) mövzunun həyatdan götürülməsi
   B) həyatı obrazlı şəkildə əks etdirən söz sənəti olması
   C) həyatın rənglərin dili ilə əks etdirilməsi
   D) səslərdən, notlardan geniş istifadə edilməsi
   E) forma ilə məzmunu vəhdətdə götürməsi

2. Şifahi ədəbiyyatla yazılı ədəbiyyat arasında olan fərqləri seçin.
   1. Şifahi şəkildə yaranması və yayılması
   2. Müəllifin bəlli olması
   3. Çoxvariantlı olması
   4. Yarandığı dövrün dil-üslub xüsusiyyətini qoruyub saxlaması
   5. Kollektiv yaradıcılıq məhsulu olması
   A) 1, 3, 5 B) 1, 4, 5 C) 2, 3 D) 1, 2, 3 E) 1, 2, 4

3. Biri yazılı ədəbiyyatın xüsusiyyəti kimi götürülə **bilməz:**
   A) Müəllifli ədəbiyyatdır.
   B) Yazıldığı dövrün dil-üslub xüsusiyyətini qoruyub saxlamır.
   C) Təkvariantlıdır.
   D) Həyatı əks etdirmə üsulu baxımından üç ədəbi növə ayrılır.
   E) Dövrün ədəbi ənənələrinə uyğun olaraq müxtəlif dillərdə yaranır.

4. Şifahi xalq ədəbiyyatının lirik növünün xüsusiyyətləri hansılardır? Tam cavabı seçin.
   1. Yalnız heca vəznində olması
   2. Xalqın mifoloji dünyagörüşünü də əks etdirməsi
   3. Əksər nümunələrinin bitkin dördlüklər şəklində olması
   4. Qəzəl, qəsidə, qitə janrında yazılması
   5. Son nümunələrinin səpkili şeir şəklində yaranması
   A) 4, 5 B) 1, 2, 3 C) 1, 4, 5 D) 2, 4, 5 E) 2, 3

5. Hansı cərgə şifahi xalq ədəbiyyatının lirik növünün janrlarından ibarətdir?
   A) altılıq, müəşşər, mürəbbe, qitə
   B) qəzəl, məsnəvi, rübai, bayatı

C) poema, qoşma, beşlik, tuyuq
D) nəğmələr, bayatılar, holavarlar, sayaçı sözləri
E) qəsidə, üçlük, tərcibənd, oxşama

6. Verilmiş nümunədə nöqtələrin yerinə hansı ifadə yazılmalıdır?
«Ədəbiyyatın özünəməxsus qanunauyğunluqlarını, prinsiplərini öyrənən elmə ... deyilir.»
A) ədəbi proses B) ədəbi tənqid C) ədəbiyyat nəzəriyyəsi
D) ədəbiyyat tarixi E) ədəbiyyatşünaslıq

7. Ədəbiyyat tarixinə aid edilmiş fikirlərdən biri ***səhvdir:***
A) Müasir ədəbi prosesə qiymət verir.
B) Ədəbiyyatın keçdiyi inkişaf mərhələlərini öyrənir.
C) Ayrı-ayrı söz sənətkarlarının həyat və yaradıcılığı tədqiq edilir.
D) Ədəbiyyat tarixçiləri onu ümumi tarixin tərkib hissəsi kimi araşdırırlar.
E) O, ümumən, dünya xalqları ədəbiyyatının keçdiyi inkişaf dövrlərini öyrənir.

8. Ədəbiyyat nəzəriyyəsinə aid düzgün fikirləri seçin.
1. Yaradıcılıq metodları və ədəbi cərəyanları öyrənir.
2. Ədəbi növləri, janrları, bədii əsərin quruluşunu öyrənmək onun vəzifələrindəndir.
3. İncəsənətin başqa sahələri ilə ədəbiyyatın uyğun və fərqli cəhətlərini aşkara çıxarır.
4. Müasir ədəbi proseslə məşğul olur.
5. Yazıçıların həyat və yaradıcılığını öyrənir.
6. Ədəbi əlaqələri öyrənmək əsas vəzifələri sırasına daxildir.
A) 3, 4, 5 B) 1, 2, 3 C) 4, 5, 6 D) 1, 4, 5 E) 2, 3, 6

9. *«Müasir ədəbi proseslə məşğul olur. Yazıçı ilə oxucu arasında anlaşma, ünsiyyət yaradır.»* Söhbət nədən gedir?
A) ədəbiyyat tarixindən B) ədəbiyyat nəzəriyyəsindən
C) ədəbi tənqiddən D) yazılı ədəbiyyatdan
E) ədəbiyyatın qollarından

10. Şifahi xalq ədəbiyyatının epik növünün janrlarını seçin.
1. Əfsanə 2. Atalar sözü 3. Oçerk 4. Nağıl
5. Hekayə 6. Dastan 7. Povest
A) 1, 2 ,4, 6 B) 3, 5, 7 C) 1, 3, 5, 7 D) 2, 4, 7 E) 2, 3, 5

B variantı

1. *«Əkinçilik və cütçülüklə bağlıdır. Bu nəğmələr, adətən, öküz, kəl kimi iş heyvanlarına müraciətlə oxunur.»* Söhbət nədən gedir?
   A) qəhrəmanlıq nəğmələrindən
   B) sayaçı sözlərindən
   C) mərasim nəğmələrindən
   D) məişət nəğmələrindən
   E) holavarlardan

2. Nümunənin janrını müəyyənləşdirin.
   Qızıl öküzüm, yeri,
   Qoyma şum qala geri.
   İti tərpən, maralım,
   Düşmənlər baxır bəri.
   A) sayaçı sözü B) holavar C) oxşama D) ağı E) bayatı

3. Fikirlərdən biri sayaçı sözlərinə aid edilə ***bilməz:***
   A) Sayaçı sözləri qoyunçuluqla bağlı yaranmışdır.
   B) Bu nəğmələr, adətən, qoyuna müraciətlə oxunur.
   C) Belə nəğmələrdə qoyunçuluğun mühüm yer tutması təriflənir.
   D) Bəzi nümunələri bayatı şəklindədir.
   E) Cütçülüklə bağlı alətlərin adına bu nəğmələrdə tez-tez təsadüf olunur.

4. Nümunənin janrını müəyyənləşdirin.
   Nənəm, a narış qoyun,
   Yunu bir qarış qoyun.
   Çoban səndən küsübdür.
   Südü ver, barış, qoyun.
   A) bayatı B) holavar C) layla D) oxşama E) sayaçı sözü

5. Mərasim nəğmələrinə aiddir:
   A) toy nəğmələri, yas nəğmələri
   B) holavarlar, oxşamalar
   C) sayaçı sözləri, bayatılar
   D) oxşamalar, laylalar
   E) laylalar, bayatılar

6. Toy nəğmələrinin əsas motivini təşkil edən əlamətlərdən biri ***səhvdir:***
   A) Nəğmə ifaçıları ailə qurmaq istəyən gəncləri bir-birinin qədrini bilməyə çağırırlar.
   B) Belə nəğmələrdə mərdlik, etibar kimi mənəvi-əxlaqi keyfiyyətlər təbliğ olunur.
   C) Elçilik, nişan, qız köçürmək, gəlin gətirməklə bağlı olur.
   D) Məzmununda narahatçılıq əhvali-ruhiyyəsi güclü olur.
   E) Bu nəğmələrdə qədim həyat tərzi və etiqadlar da öz əksini tapmışdır.

7. Koroğlu, Qaçaq Nəbi, Qaçaq Kərəmlə bağlı oxunan nəğmələr nə adlanır?
   A) məişət nəğmələri
   B) mövsüm nəğmələri
   C) mərasim nəğmələri
   D) qəhrəmanlıq nəğmələri
   E) əmək nəğmələri

8. Nümunə nəyə aiddir?
   A yel baba, yel baba,
   Qurban sənə, gəl, baba.
   Taxılımız yerdə qaldı,
   Yaxamız əldə qaldı...
   A) mövsüm nəğmələrinə
   B) mərasim nəğmələrinə
   C) məişət nəğmələrinə
   D) əmək nəğmələrinə
   E) qəhrəmanlıq nəğmələrinə

9. «Yel baba», «Duman, qaç», «...Günəş, çıx» hansı nəğmə nümunələridir?
   A) həm mövsüm, həm mərasim
   B) mərasim
   C) məişət
   D) qəhrəmanlıq
   E) mövsüm

10. Məişət nəğmələrinə aiddir:
   A) holavarlar, sayaçı sözləri
   B) laylalar, oxşamalar
   C) mahnılar
   D) bayatılar, sayaçı sözləri
   E) bayatılar

C variantı

1. Mahnılara aid edilə ***bilməz:***
   A) Mahnılara bəzən əzizləmələr, nazlamalar da deyilir.
   B) Mahnıların özünəməxsus havası – melodiyası olur.
   C) Mahnılar mövzu baxımından da müxtəlifdir.
   D) Mahnıların forma zənginliyi, quruluşu və kompozisiya xüsusiyyətləri onları nəğmələrdən fərqləndirir.
   E) Mahnılar gözəllik, azadlıq, vətənpərvərlik ideyalarını təbliğ edir.

2. Bayatılara aid edilmiş fikirlərdən biri ***səhvdir:***
   A) Sarı Aşıq, Xəyyat Mirzə kimi el sənətkarlarının yaradıcılığında bayatılar geniş yer tutur.
   B) Nəğmə və mahnılardan fərqli olaraq bayatıların daşlaşmış, sabit janr – forma xüsusiyyətləri vardır.
   C) Bayatılar lirik növün başqa janrlarının yaranması üçün də özül rolunu oynayır.
   D) Bayatılar müxtəlif mövzulara həsr olunur.
   E) Bayatı janrına yalnız şifahi xalq ədəbiyyatında təsadüf olunur.

3. Yazılı ədəbiyyatın hansı nümayəndələrinin yaradıcılığında bayatı janrına təsadüf olunur?
   1. Şah İsmayıl Xətai 2. Məhəmməd Əmani
   3. Məhəmməd Füzuli 4. Molla Pənah Vaqif 5. Qasım bəy Zakir
   A) 2, 4, 5 B) 3, 4 C) 1, 2, 5 D) 3, 4, 5 E) 1, 4

4. Şifahi xalq ədəbiyyatının bu janrında insan asanlıqla quşa, heyvana, səma cisimlərinə çevrilir, dağlar, çaylar, güllər dil açıb danışır:
   A) əfsanədə B) dastanda C) nağılda D) tapmacada E) lətifədə

5. Verilmiş nümunə ilə bağlı fikirlərdən biri ***səhvdir:***
   Əziziyəm, dilən gəz,
   Dilən, könlüm, dilən gəz!
   Qürbətdə xan olunca,
   Vətənində dilən gəz.
   A) Bayatı janrındadır.
   B) *Aaba* şəklində qafiyələnmişdir.
   C) Lirik növdədir.
   D) Hər misrası yeddi hecalıdır.
   E) Məzmununda saf məhəbbətin tərənnümü əsas yer tutur.

6. Əfsanələri epik növün digər janrlarından fərqləndirən başlıca cəhət:
   A) tarixən baş vermiş əhvalatlar əsasında yaranması
   B) onlarda real zəmindən kənar hadisələrin təsvir olunması
   C) məzmununa görə 2 yerə ayrılması
   D) əvvəlində qaravəlli adlanan və nəzm şəklində söylənən kiçik bir müqəddimənin verilməsi
   E) əfsanələrin həm epik, hə də lirik növə aid edilməsi

7. Rəvayətlərə aid düzgün fikirləri seçin.
   1. Real zəmin üstünlük təşkil edir.
   2. Mövzu-məzmun baxımından zoonimik, toponimik, etnonimik, kosmoqonik olmaqla qruplaşır.
   3. Əsasən, «rəvayətə görə», «deyilənə görə» ifadələri ilə başlayır.
   4. Belə nümunələrdə xalq ətraf aləmi canlı varlıq kimi dərk edir, təbiət hadisəsinə mifik-bədii izah verir.
   5. Nə vaxtsa baş vermiş, lakin zaman keçdikcə ilkin dəqiqliyini itirmiş nümunələrdir.

   A) 2, 4, 5 B) 2, 4 C) 1, 3, 5 D) 1, 2, 4 E) 2, 5

8. Rəvayətləri göstərin.
   1. «Qarı dağı» 2. «Sınıq körpü»
   3. «Bibiheybət» 4. «Maral»
   5. «Beşbarmaq dağı» 6. «Dədəgünəş»

   A) 1, 2, 3 B) 4, 6 C) 1, 4, 6 D) 2, 4, 5 E) 3, 5

9. Hansı sənətkarlar əfsanələr və rəvayətlər əsasında əsərlər yaratmışlar?
   1. Səməd Vurğun 2. İlyas Əfəndiyev
   3. Cəfər Cabbarlı 4. C. Məmmədquluzadə
   5. Şah İsmayıl Xətai

   A) 3, 4, 5 B) 2, 5 C) 1, 4, 5 D) 1, 2, 3 E) 1, 4

10. *Onlar ictimai həyatdakı və məişətdəki qüsurları əks etdirən yığcam gülməli əhvalatlardır.* Söhbət nədən gedir?
   A) rəvayətlərdən
   B) əfsanələrdən
   C) lətifələrdən
   D) nağıllardan
   E) dastanlardan

D variantı

1. Hansı fikir ***səhvdir?***
   A) Lətifələrin əsasında gülüş dayanır.
   B) Azərbaycan lətifələrinin ən məşhur qəhrəmanı Molla Nəsrəddindir.
   C) Molla Nəsrəddin həm başqalarına gülən, həm də başqalarını özünə güldürən bir lətifə qəhrəmanıdır.
   D) Azərbaycan folklorunda Abdal Qasım, Ayrım Tağı, Hacı dayı kimi lətifə qəhrəmanları da vardır.
   E) Molla Nəsrəddin ancaq Azərbaycan şifahi xalq ədəbiyyatının lətifə qəhrəmanıdır.

2. Lətifələrin sonu, yəni nəticə hissəsi hansı janra çevrilə bilir?
   A) məsəllərə B) tapmacalara
   C) atalar sözünə D) qaravəlliyə
   E) laylalara

3. Hansı fikir nağıllara aid edilə ***bilməz?***
   A) Nağıllarda xeyirlə şər mübarizə aparır və həmişə xeyir şərə qalib gəlir.
   B) Nağıllarımızın özünəməxsus girişi və sonluğu vardır.
   C) Sehrli qüvvələrin iştirak etdiyi nağıllar sehrli nağıl adlanır.
   D) Heyvanlar haqqındakı nağıllarda surətlər daha çox alleqorik planda verilir.
   E) Xalq nağıllarında nəzmlə nəsr vəhdətdə verilir.

4. Nağıllara aid olan fikirləri seçin.
   1. Xalqın gündəlik həyat tərzi ilə yaxından səsləşən, real planda verilən nağıllar ailə-məişət nağılları adlanır.
   2. Nağıllarda qoşma və gəraylılardan geniş istifadə olunur.
   3. Sehrli nağıllarda qəhrəmanlar divlərə, əjdahalara, cadugər qarılara qarşı vuruşmalı olurlar.
   4. Nağılların sabit forma əlamətləri vardır.
   5. Nağıllar, bir qayda olaraq, ustadnamə ilə başlanır, özünəməxsus sonluqla qurtarır.

   A) 3, 4, 5 B) 2, 5 C) 1, 3, 5
   D) 1, 3, 4 E) 2, 4

5. Ailə-məişət nağıllarını seçin.
   1. «Usta Abdulla» 2. «Qoca Aslan»
   3. «İlyasın nağılı» 4. «Şahzadə Mütalib»
   5. «Yetim İbrahim»

   A) 1, 3, 4 B) 2, 4 C) 2, 5 D) 1, 2, 4 E) 1, 3, 5

6. Biri sehrli nağıldır:
   A) «Usta Abdulla» B) «Saleh və Valeh»
   C) «Şəms və Qəmər» D) «Daşdəmirin nağılı»
   E) «Çil madyan»

7. Biri heyvanlar haqqında nağıllar sırasında ***səhv*** verilmişdir:
   A) «Şir və tülkü» B) «Qoca Aslan»
   C) «Tülkünün kələyi» D) «Tülkü və qurd»
   E) «Yeddi nar çubuğu»

8. Həcm böyüklüyü, əhvalatların əhatəli epik təsviri, qəhrəmanların zahiri fəaliyyəti ilə lirik düşüncələrin vəhdətdə verilməsi hansı janrın xüsusiyyətidir?
   A) dastan B) nağıl
   C) əfsanə D) rəvayət E) lətifə

9. Dastana aid edilmiş əlamətlərdən biri ***səhvdir:***
   A) Nəsrlə nəzmin bir-birini əvəzləməsi prinsipi əsasında qurulur.
   B) Epik təhkiyə ilə lirik düşüncələr vəhdətdə verilir.
   C) Mövzularına görə qəhrəmanlıq və məhəbbət dastanları olmaqla iki yerə bölünür.
   D) Nəzm hissəsi, əsasən, qoşma və gəraylılardan ibarət olur.
   E) Hamısı qaravəlli ilə başlanır, ustadnamə ilə başa çatır.

10. Üzeyir Hacıbəyov hansı dastanlar əsasında opera yaratmışdır?
    1. «Koroğlu»
    2. «Şah İsmayıl»
    3. «Əsli və Kərəm»
    4. «Aşıq Kərəm»
    5. «Şahsənəm»

    A) 2, 4 B) 1, 3 C) 4, 5 D) 3, 4 E) 1, 5

E variantı

1. Azərbaycan ədəbiyyatının hansı dövründə aşıq yaradıcılığı daha əhəmiyyətli rol oynamışdır?
   A) XVII-XVIII əsrlər B) XI-XII əsrlər
   C) XV-XVI əsrlər D) XIX-XX əsrlər E) VI-VII əsrlər

2. *«Aşıqların fəaliyyətində ..., ..., ... kimi müxtəlif yaradıcılıq növləri birləşir.»* Nöqtələrin yerinə hansı sözlər yazılmalıdır?
   A) qoşma, gəraylı, bayatı B) dədə, ozan, varsaq
   C) musiqi, şeir, rəqs D) xalq tamaşaları, oyunlar, rəqs
   E) musiqi, saz çalmaq, qoşma

3. Şifahi xalq ədəbiyyatının bu qolunda müəllif, əsasən, məlum olur:
   A) aşıq yaradıcılığı B) nağıllar
   C) dastanlar D) rəvayətlər E) lətifələr

4. Aşıq yaradıcılığına aid fikirlərdən biri ***səhvdir:***
   A) Əsərin nə vaxt, nə münasibətlə söylənməsi, əsasən, məlum olur.
   B) Aşıqlar ictimai-siyasi proseslərdə, döyüş əzminin, vətənpərvərlik hislərinin gücləndirilməsində iştirak etmişlər.
   C) Şeir qoşan, saz havası bəstələyən, dastan qoşan aşıqlar yaradıcı aşıqlardır.
   D) Yaradıcılıqla məşğul olmayıb, əsasən, ustadların əsərlərini ifa edənlər ifaçı aşıq sayılırlar.
   E) XII əsr Azərbaycan ədəbiyyatının intibahında aşıq yaradıcılığı əsas rol oynamışdır.

5. Yaradıcı aşıqları müəyyənləşdirin.
   1. Dirili Qurbani 2. Abbas Tufarqanlı 3. Aşıq Əmrah
   4. Aşıq Ələsgər 5. Aşıq Ədalət 6. Aşıq Kamandar
   A) 1, 2, 4 B) 3, 4, 6 C) 1, 4, 6 D) 3, 5, 6 E) 2, 4, 5

6. XX əsrdə yaşamış ustad aşıqları müəyyənləşdirin.
   A) Hüseyn Bozalqanlı, Aşıq Şəmşir, Aşıq Şakir
   B) Dirili Qurbani, Abbas Tufarqanlı, Xəstə Qasım
   C) Aşıq Alı, Aşıq Ələsgər, Aşıq Hüseyn Cavan
   D) Sarı Aşıq, Xəstə Qasım, Dirili Qurbani
   E) Abbas Tufarqanlı, Mikayıl Azaflı, Aşıq Əmrah

7. Şifahi xalq ədəbiyyatının dramatik növü barədə verilənlərdən biri ***səhvdir:***
   A) Janr etibarilə bu nümunələr xalq oyunları, xalq tamaşaları və şəbihlərdən ibarətdir.
   B) Şəbihlər, əsasən, məhərrəmlik mərasimi zamanı, xüsusən Aşura günü göstərilir.
   C) Xalq tamaşaları çox zaman karvansara həyətlərində, şəhər və kənd meydanlarında göstərilir.
   D) Dramatik növün janrları yalnız nəzm şəklində olur.
   E) Xalq oyunlarını xalq dramları da adlandırırlar.

8. Bu xüsusiyyətlərdən biri şifahi xalq ədəbiyyatına ***aid deyil:***
   A) Yazılı ədəbiyyat üçün mənbə rolunu oynayır.
   B) Əfsanə və əsatirlərdə cəmiyyətin ilkin dövr təxəyyülü, ibtidai təsəvvürləri əks olunur.
   C) Şifahi xalq ədəbiyyatının özünəməxsusluğu bəşəriliyi və xəlqiliyindədir.
   D) Dastanlarda zaman və məkan sonsuzluğu görünür.
   E) Bu nümunələrdə nəsrlə nəzmin vəhdətinə yol verilmir.

9. Hansı fikir ***səhvdir?***
   A) Bayatıda ifadə olunan əsas fikir, əsasən, III və IV misralarda verilir.
   B) Sayaçı sözlərinin bəndlərini artırmaq və misraların hamısını həmqafiyə etmək də olur.
   C) Holavarlar yeddi hecalı, bəzən 3-4, bəzən 4-3 bölgüsündə, *aaba* şəklində qafiyələnmiş olur.
   D) Tapmacalar, ağılar, məsəllər lirik növün janrlarıdır.
   E) Layla, ağı, holavar çox vaxt bayatı şəklində olur.

10. Oxşamalar mövzu baxımından nəyə yaxındır?
   A) ağıya
   B) bayatıya
   C) laylaya
   D) sayaçı sözünə
   E) holavara

F variantı

1. Hansı fikirlər atalar sözünə aiddir?
   1. Hikmətli, nəsihətamiz fikirlərdir.
   2. Həyatda sınaqdan çıxmış, ümumiləşmiş, doğruluğunu sübut etmiş ifadələrdir.
   3. Həm nəsr, həm də nəzm şəklində olan nümunələri vardır.
   4. Söylənilən fikir müstəqil işlənə bilmir.
   5. «Nə diriyə hay verir, nə ölüyə pay» nəzm şəklində işlənmiş atalar sözüdür.

   A) 1, 2, 3 B) 4, 5 C) 1, 4, 5 D) 2, 4 E) 1, 3, 5

2. Hansı fikirlər məsəllərə aiddir?
   1. Fikir müstəqil işlənə bilmir.
   2. Müəyyən bir əhvalatla bağlı olur.
   3. «Nə tüfəngə çaxmaqdır, nə sümbəyə toxmaq» nümunəsi nəzm formasındadır.
   4. Y.V.Çəmənzəminli məsəlləri «daha ümumi və bəşəri» sayır.
   5. Xalq məsəllərin doğruluğunu nəzərə alıb onu nüfuzlu adamların adına çıxmışdır.

   A) 1, 4, 5 B) 1, 2, 3 C) 4, 5 D) 2, 3, 4 E) 3, 5

3. Biri məsəl ***deyil:***
   A) «Karın könlündəki» B) «Mıxı mismara döndərən var»
   C) «Dədə-bala çıxdılar» D) «Varlının xoruzu da yumurtlayır»
   E) «Dava yorğan davası imiş»

4. Tapmacalara aid verilən fikirlərdən biri ***səhvdir:***
   A) Müəyyən cisim və hadisələrin əlamətlərinin üstüörtülü şəkildə poetik ifadəsidir.
   B) Tapmacanı yazılı ədəbiyyatın müəmmalarına oxşatmaq olar.
   C) Aristotel tapmacanı ən yaxşı düzəldilmiş istiarə adlandırmışdır.
   D) Tapmacanın işlədilməsində ən azı iki nəfər iştirak edir.
   E) Tapmacalar nəsr şəklində ola bilməz.

5. Hansı fikir ***səhvdir?***
   A) Nağıllarda qəhrəmanın qələbəsi xeyirin şər üzərində, ədalətin nahaq üzərində qələbəsidir.
   B) Nağıllarda xalq tərəfindən yaradılan fantastik əşyalar onun fantastik ixtirası kimi diqqəti cəlb edir.
   C) Nağıllarda söylənilən əhvalatın təsirli olmasında nəzmlə nəsrin vəhdəti mühüm rol oynayır.
   D) Nağıllar mövzu və məzmununa görə 4 yerə bölünür.
   E) Y.V. Çəmənzəminli nağılların milli mənsubiyyətini oradakı rəqəmlərlə müəyyənləşdirir.

6. Biri sehrli nağıldır:
   A) «Ağ atlı oğlan» B) «Qoca aslan»
   C) «Daşdəmirin nağılı» D) «Bostançı və Şah Abbas»
   E) «Qazanılmış manat»

7. Müxtəlif epizodların, əhvalatların müəyyən bir ideya ətrafında birləşdirilməsi, nəsrlə nəzmin bir-biri ilə üzvi şəkildə əlaqələndirilməsi nəyin quruluşunu müəyyənləşdirir?
   A) dastanın B) nağılın C) rəvayətin
   D) əfsanənin E) atalar sözlərinin

8. Aşıq yaradıcılığına aid verilmiş fikirlərdən biri ***səhvdir:***
   A) Bu sənətlə məşğul olanlara keçmişdə «dədə», «ozan» demişlər.
   B) Aşıqlar saz çalır, mahnı oxuyur və çaldığı mahnının ahənginə uyğun rəqs edirlər.
   C) Şeir qoşan, dastan yaradan aşıqlar yaradıcı aşıqlardır.
   D) Təcnis aşıq şeirinin ən rəngarəng janrlarından biridir.
   E) Dodaqdəyməz təcnisdə zəngin qafiyədən istifadə olunmur.

9. Bu janrlardan birinin misraları arasına bayatı əlavə olunur:
   A) dodaqdəyməz B) ayaqlı təcnis
   C) cığalı təcnis D) dildönməz E) qoşayarpaq

10. Nümunələrdən biri təhkiyə əsasında yaranmışdır:
   A) «Qasimin toy gecəsi» B) «Motal-motal»
   C) «Şəms və Qəmər» D) «Yel baba»
   E) «Sona bülbüllər»

G variantı

1. Nümunələrdən biri əyani göstərmə əsasında yaranmışdır:
   A) «Bic nökər»
   B) «Doyan o rəhmətlik kimi olar»
   C) «Duman, qaç»
   D) «Qaçaq Kərəm»
   E) «Qarı dağı»

2. Ədəbiyyatı *təqlidi sənət* adlandıran kimdir?
   A) V.Q.Belinski
   B) Ü.Hacıbəyov
   C) Y.V.Çəmənzəminli
   D) M.Hüseyn
   E) Aristotel

3. Qoşmamın məzmunca növləri sırasında verilə ***bilməz:***
   A) ustadnamə
   B) gözəlləmə
   C) qıfılbənd
   D) vücudnamə
   E) dodaqdəyməz

4. Kim atalar sözlərini «daha ümumi və bəşəri folklor nümunələri» adlandırmışdır?
   A) Salman Mümtaz
   B) Məmmədhüseyn Təhmasib
   C) Yusif Vəzir Çəmənzəminli
   D) Hənəfi Zeynallı
   E) Həmid Araslı

5. Təcnisin qoşmadan əsas fərqi nədədir?
   A) misralardakı hecaların sayında
   B) qafiyə quruluşunda
   C) bəndlərin sayında
   D) vəznində
   E) qafiyələrinin cinaslardan ibarət olmasında

6. Nümunə folklorun hansı janrına aiddir?
Hamam, hamam içində,
Xəlbir saman içində.
Dəvə dəlləklik elər
Köhnə hamam içində.
A) məsəl B) bayatı
C) qaravəlli D) holavar E) sayaçı sözü

7. Bu dastanlardan biri duvaqqapma ilə yox, cahannamə ilə bitir:
A) «Şah İsmayıl» B) «Tahir və Zöhrə»
C) «Abbas və Gülgəz» D) «Əsli və Kərəm» E) «Aşıq Qərib»

8. Təcnisin formaca növləri hansılardır?
1. məhəbbət motivli təcnis 2. ictimai motivli təcnis
3. dodaqdəyməz təcnis 4. ayaqlı (müstəzad) təcnis
5. cığalı təcnis
A) 1, 2, 5 B) 3, 4, 5 C) 2, 4 D) 1, 2, 4 E) 1, 3

9. Təcnis janrı ilə bağlı ***səhv*** fikri göstərin.
A) Aşıq şerinin əsas janrlarındandır.
B) Əksər cəhətlərdən qoşma ilə eyniyyət təşkil edir.
C) Müxtəlif mövzulara həsr edilə bilər.
D) Qafiyələri yalnız omonim sözlərdən ibarət olur.
E) Aşıq Alı, Aşıq Ələsgər və başqa ustad aşıqların mükəmməl təcnisləri vardır.

10. *Firudin bəy Köçərli, Salman Mümtaz, Həmid Araslı, Məmməd Arif, Məmməd Cəfər, Məmmədhüseyn Təhmasib, Feyzulla Qasımzadə, Kamal Talıbzadə, Əkbər Ağayev, Mehdi Hüseyn və b. Azərbaycan ... inkişafında mühüm rol oynamışlar.*
Nöqtələrin yerinə hansı söz yazılmalıdır?
A) dilçiliyinin
B) folklorşünaslığının
C) ədəbiyyatşünaslığının
D) ədəbi tənqidinin
E) ədəbiyyatının

QƏDİM DÖVR
AZƏRBAYCAN ƏDƏBİYYATI
(Ən qədim dövrlərdən XIII əsrə qədərki ədəbiyyat)

Ən qədim zamanlardan Azərbaycanda məskunlaşan Qafqaz, İran, türk, ... mənşəli tayfalar zəngin xalq yaradıcılığı nümunələri ilə yanaşı, yazılı abidələr də yaratmışdır. Həmin abidələrin ən mükəmməli e.ə. I minilliyin ortalarında yaşamış Zərdüşt peyğəmbərə məxsus olan "Avesta"dır*. Bu kitab atəşpərəstlik dininin əsaslarını təbliğ etmək məqsədilə qələmə alınmışdır. Sasanilərin hakimiyyətdə olduqları III-V əsrlərdə Zərdüşt bir peyğəmbər, "Avesta" isə atəşpərəstliyin müqəddəs kitabı kimi tanınmışdır. Qədim şeir yaradıcılığı texnikasını, xeyirlə şərin mübarizəsini, fikirlə əməlin uyğunluğunu böyük sənətkarlıqla əks etdirən, halal zəhməti tərənnüm edən Zərdüşt yalnız dahi mütəfəkkir deyil, həm də qüdrətli şair olmuşdur. "Avesta"nın əsasını xeyirlə şərin, işıqla qaranlığın, doğru ilə yalanın mübarizəsi barədəki dini-fəlsəfi fikirlər təşkil edir.

Qədim dövr Azərbaycan ədəbiyyatının əsasında bir neçə min illik tarixə malik qədim türk, yaxud ümumtürk ədəbiyyatı dayanır. Bir kökdən, bir mənbədən gəldiklərinə və demək olar ki, eyni bir dildə yarandıqlarına görə türk ədəbiyyatları yeni dövrə (XVI-XVII əsrlərə) qədər bütöv bir sistem təşkil edərək, ideya-məzmun, ifadə-forma baxımından sıx qarşılıqlı əlaqədə olmuşdur.

I minilliyin sonu, II minilliyin əvvəllərində fars dili, demək olar ki, bütün müsəlman Şərqində əsas şeir-sənət dili kimi yer tutur. Azərbaycan ədəbiyyatının ən qüdrətli nümayəndələri olan Qətran Təbrizi, Məhsəti Gəncəvi, Əfzələddin Xaqani, Nizami Gəncəvi öz əsərlərini farsca yazsalar da, onların əsərləri təbliğ etdikləri ideyalar, ifadə-üslub baxımından türk – Azərbaycan ədəbiyyatı hadisəsi olduğunu açıq-aşkar nümayiş etdirir. Lakin bu heç də o demək deyildi ki, Azərbaycan yazılı ədəbiyyatı yalnız ərəb, yaxud fars dilində yaranırdı. Bunu II minilliyin əvvəllərində yazıya alınmış "Dədə Qorqud" eposu da təsdiqləyir.

* Tədqiqatçılar heç də bütün "Avesta"nın yox, onun yalnız 17 şeirdən ibarət olan "Qatlar" hissəsinin Zərdüştə məxsus olmasını, demək olar ki, mübahisəsiz qəbul edirlər.

Qədim dövrün sonlarında (XI-XII əsrlərdə) yazılı ədəbiyyat nümunələri, əsasən, ya saraylarda yaranırdı, ya da sarayla bağlı olurdu. Saraylarda fars dili əsas olduğundan yaranan ədəbiyyat da bu dildə idi və onlarda hökmdarların tərifi xüsusi yer tuturdu. Saray ədəbiyyatında qəsidənin mədhiyyə növü geniş yayılmışdı. Şairlər Allahdan, Peyğəmbərdən sonra məhz hökmdarları tərifləyir, onların qüdrətini qeyri-adi mübaliğə və təşbehlərlə tərənnüm edirdilər. Bu ədəbiyyatın bütövlükdə dünyəvi xarakter daşıdığını da inkar etmək olmaz. Bəzi saray şairlərinin yaratdığı ictimai-siyasi və elmi məzmunlu qəsidələr, məhəbbəti, insan şəxsiyyətinin azadlığını, bütövlüyünü tərənnüm edən qəzəllər bu ədəbiyyatın haradasa dünyəvi xarakter daşıdığını da açıq-aydın sübut edirdi. Mədhiyyələr ayrı-ayrı hökmdarların tərifinə həsr olunsa da, onların bir çoxu məhz humanist mövqedən yazılırdı. Bəzən az-çox saraylara qarşı duran, sərbəst hərəkət edə bilən, böyük ictimai-siyasi problemlər qaldıran, humanist ideyalar təbliğ edən ədəbiyyat da var idi. Bu ədəbiyyatı yaradanlar içərisində Qətran Təbrizi, Məhsəti Gəncəvi, Əfzələddin Xaqani və Nizami Gəncəvinin yaradıcılığı xüsusilə diqqətəlayiqdir.

Qətran Təbrizi (1012-1088)

1012-ci ildə Təbriz yaxınlığında Şadiabad kəndində anadan olmuşdur. Gənc yaşlarında Gəncəyə köçmüş və burada, Şəddadilər sarayında qüdrətli şair kimi məşhurlaşmışdır. Sonradan Təbrizə qayıtmış və Rəvvadilər sarayında böyük hörmət qazanmışdır. Şair 1088-ci ildə Təbrizdə vəfat etmişdir.

Qətran Təbrizinin ədəbi irsi fars dilində yazdığı "Divan"dan və fars dili sözlərinin izahını verən "Ət-Təfasir" adlı lüğətdən ibarət olmuşdur.

Onun "Divan"ı ədəbiyyat tariximizdə tam şəkildə bizə gəlib çatmış ilk divandır və Azərbaycan dilinə tərcümə olunaraq nəşr edilmişdir. "Ət-Təfasir" lüğəti isə bizə gəlib çatmamışdır. Şairin "Divan"ına qəsidə, qitə, rübai və s. janrlarda yazılmış lirik şeirlər daxildir. Qətranın yaradıcılığında dövrün hökmdarlarının, əyanların, sərkərdələrin mədhi xüsusi yer tutur.

Şair bir qisim şeirlərində həyat, dünya haqqında fəlsəfi mühakimələr söyləyir, gözəl və rəngarəng təbiət təsvirləri verir, bəzən isə saraylardan narazılığını bildirir. Qətran 1042-ci ildə baş vermiş Təbriz zəlzələsinə həsr etdiyi qəsidələrində doğma şəhərinin keçmiş möhtəşəmliyi haqqında ürəkdolusu danışır.

Məhsəti Gəncəvi (XII əsr)

XII əsrin birinci yarısında yaşayıb-yaratmış Məhsəti Gəncəvi ədəbiyyat tariximizdə gözəl rübailər ustadı kimi tanınır. Onun iki yüzə yaxın rübaisi günümüzədək gəlib çatmışdır. Şairənin farsca yazdığı rübailərdə humanizm, səmimi hislər, dərin fəlsəfi mühakimələr, gözəl təbiət təsvirləri öz əksini tapmışdır. Məhəbbət lirikası onun yaradıcılığında əsas yer tutur. Şairənin məhəbbət mövzusunda olan rübailərində lirik qəhrəmanın şikayətləri – dövrdən, cəmiyyətdəki vəziyyətdən narazılığı da öz əksini tapmışdır.

Məhsətinin bəzi rübailərində ayrı-ayrı peşə sahiblərinin tərənnümünə də yer verilmişdir ki, onun belə rübailəri **şəhrəşublar** (şəhrəngizlər)* kimi tanınır.

Məhsəti Gəncəvi Gəncə sarayında böyük nüfuz sahibi olmuşdur. Şairənin müasiri olan Nizami Gəncəvinin "Xosrov və Şirin" poemasındakı qeydinə görə, Gəncə sarayında Məhsətiyə bir qəzəli üçün xəzinə bağışlanmışdır.

Məhsətinin lirik qəhrəmanı yalnız sevən aşıq deyil, sevginin mənasına, məzmununa varan aşiq-filosofdur:

Zülfün camalına bir yaraşıqdır,
Xərabət əhlinə nurdur, işıqdır.
Ey Şərq günəşinin nuru, xoş gəldin!
Gözəllər şahına qapı açıqdır.

Şairənin böyük məna siqləti, fəlsəfi dərinliyi olan aşağıdakı rübaisinə də diqqət yetirək:

---

* Söz şəhəri həyəcana gətirən, hay-küy, qalmaqal yaradan mənasına uyğun gəlir. Qeyri-adi gözəl anlamındadır. Klassik ədəbiyyatda (XI-XII əsrlərdə) sənətkarlar və müxtəlif peşələr haqqında şeir növü mənasında işlənmişdir.

Dün kaşı kuzəmi daşlara çaldım,
Sərxoşdum, bilmədim, əlimdən saldım.
Kuzə dilə gəlib dedi ki, mən də
Sənin kimi idim, bu günə qaldım.

Məhsəti rübailəri gözəl və rəngarəng təbiət təsvirləri, mükəmməl təbiət obrazları ilə də zəngindir:

Gülə mənzil olmuş yenə də çəmən,
Köynəyi yırtılmış ta ətəyindən.
Dedim: "Kim yırtmışdır səbir pərdəni?"
Qalxıb səhər yeli söylədi ki: "Mən!"

Məhsəti Gəncəvinin həyatı ilə bağlı "Əmir Əhməd və Məhsəti" adlı dastan da vardır.

M.S.Ordubadi "Qılınc və qələm" romanında, M.Hüseyn "Nizami", naxçıvanlı şairə K.Ağayeva "Məhsəti" dramında Məhsətinin bədii obrazını yaratmışlar.

Şairənin rübailəri müxtəlif vaxtlarda Nigar Rəfibəyli və Xəlil Yusifli tərəfindən Azərbaycan dilinə tərcümə edilmişdir.

Əfzələddin Xaqani (1126-1199)

Əfzələddin Xaqani (nisbəsi Şirvani) 1126-cı ildə Şamaxıda dülgər ailəsində anadan olmuşdur. Gənc yaşlarında məliküş-şüəra Əbül-üla onu Şirvanşahlar sarayına dəvət etmiş, xüsusi istedadına görə ona "Xaqani" təxəllüsünü vermişdir. Xaqani gözəl şeirləri, xüsusən qəsidələrinə görə çox məşhur olmuşdur. Sarayda böyük hörmət və nüfuz sahibi olmasına baxmayaraq, bir müddətdən sonra sarayın iç üzünü görüb oradan getmək istəmiş, lakin həbs edilərək zindana salınmışdır.

Xaqani həbsxanada olduğu vaxtlarda məşhur "Həbsiyyə" adlı şeirlər silsiləsi yaratmışdır. Şirvandan sürgün olunan şair bir müddət səyahətə çıxmış, sonradan Mənuçöhrün icazəsilə Şamaxıya qayıtmışdır. Bir müddətdən sonra şair yenidən həbs olunur və, nəhayət, 1176-cı ildə Kəbə ziyarəti adı ilə Şirvanı həmişəlik tərk edir. Bir çox Şərq ölkələrini gəzir, Məkkəni ziyarət edəndən sonra Təbrizdə məskən salır və 1199-cu ildə orada vəfat edir.

Ə. Xaqaninin yaradıcılığı iki dövrə bölünür. Şair yaradıcılığının birinci dövründə hökmdarları, sarayları mədh etdiyi halda, ikinci dövründə zəmanəsinin hökm sahiblərinə qarşı kəskin mövqedə dayanmış, dərin ictimai-fəlsəfi məzmunlu əsərlər yazmışdır.

Şairin ədəbi irsi farsca yazılmış on yeddi min beytlik "Divan"dan, "Töhfətül-İraqeyn" poemasından və bədii nəsr nümunəsi olan məktublardan (60 məktub) ibarətdir.

Ə. Xaqaninin öz xatirələri və səfər təəssüratları əsasında qələmə aldığı "Töhfətül-İraqeyn" əsəri ədəbiyyat tariximizdə ilk poema sayılır. Vahid süjet xəttinə malik olmayan, daha çox mənzum səyahətnamə təsiri bağışlayan bu əsərində şair öz uşaqlıq və gənclik illərindən, atasından, anasından, əmisindən, Şirvanşahlar sarayında çəkdiyi əzablardan, başına gətirilən zülmlərdən danışır. Şirvanı həmişəlik tərk etməyə məcbur olan şair öz doğma yurduna məhəbbətini səmimi etiraf etməklə yanaşı, Təbrizin də onun üçün yad olmadığını göstərir:

Şamaxı! Ey mənim sevimli yurdum!
Mən sənin qoynunda xaniman qurdum.
İndisə acığın tutmuşdur mana!..
Sənin qucağından ayrılsam, ana,
Ümidim, pənahım Təbrizdir, Təbriz.
O şəhər də mənə doğmadır, əziz!..

Ə.Xaqaninin "Mədain xərabələri" qəsidəsi dərin ictimai-fəlsəfi məzmunu ilə diqqəti cəlb edir. Sasani şahlarının paytaxtı olmuş Mədain şəhərinin xarabalığa çevrildiyini ürək ağrısı ilə göstərən şair zəmanəsinin hökmdarlarını bundan ibrət almağa çağırır, qədim Sasani şahları adından hətta xəbərdarlıq edirdi:

Biz ədl sarayıykən zülm ilə xərab olduq,
Zalımlar olan qəsrə gör neyləyəcək dövran!

Ə.Xaqani ədəbiyyat tariximizdə qəsidə janrının ustadı kimi tanınır. Eləcə də ədəbiyyat tariximizdə ilk poema (farsca yazılsa da) və nəsr əsərləri (məktubları) də onun adı ilə bağlıdır. Xaqaninin yaradıcılığı özündən sonrakı ədəbiyyata böyük təsir göstərmiş, Nizami onu özünün müəllimi hesab etmişdir. Məmməd Rahim "Xaqani" mənzum dramında, Mahmud İsmayılov "Xaqani" romanında şairin bədii obrazını yaratmışlar.

Qədim dövr Azərbaycan ədəbiyyatının əsas xüsusiyyətləri "Dədə Qorqud" eposu və N.Gəncəvinin "Xəmsə"sində daha aydın əks olunur.



A varianı

1. *Bu şairin 17 min beytlik "Divan"ı, "Töhfətül-İraqeyn" poeması və bədii nəsr nümunələri (məktubları) ona Şərq ədəbiyyatında böyük şöhrət qazandırmışdır.* Söhbət hansı sənətkardan gedir?
   A) Nizami Gəncəvidən B) Məhsəti Gəncəvidən
   C) Əfzələddin Xaqanidən D) Qətran Təbrizidən
   E) Zülfüqar Şirvanidən

2. Məhsəti Gəncəvinin yaradıcılığı ilə bağlı ***səhv*** fikri göstərin.
   A) Şeirlərində humanizm, səmimi hislər, dərin fəlsəfi mühakimələr öz əksini tapmışdır.
   B) Fars dilində yazıb-yaratmışdır.
   C) XII əsrdə yaşamış bu şairə rübailəri ilə məşhurdur.
   D) Gəncə sarayında yüksək nüfuz sahibi olmuşdur və burada ona bir qəzəli üçün bir xəzinə bağışlanmışdır.
   E) Rübailərindən başqa, epik əsərləri də vardır.

3. *Sasani şahlarının paytaxtı olduğu dövrdə gözəlliyi, əzəməti ilə şöhrət qazanmış Mədain şəhərinin indi xarabaya çevrildiyini deyən bu sənətkar zəmanəsinin hökmdarlarını bundan ibrət almağa çağırır.* Söhbət hansı sənətkardan gedir?
   A) Məhsəti Gəncəvi B) Qətran Təbrizi
   C) Nizami Gəncəvi D) Əfzələddin Xaqani E) Əssar Təbrizi

4. Nizami hansı poemasında Məhsəti Gəncəvinin Gəncə sarayında yüksək nüfuzu olduğunu və burada ona bir qəzəl üçün xəzinə bağışlandığını göstərir?
   A) "Sirlər xəzinəsi" B) "Xosrov və Şirin"
   C) "Leyli və Məcnun" D) "İsgəndərnamə" E) "Yeddi gözəl"

5. XI – XII əsrlər Azərbaycan ədəbiyyatı ilə bağlı ***səhv*** fikri göstərin.
   A) Yazılı ədəbiyyat, əsasən, ya saraylarda yaranırdı, ya da saraylarla bağlı idi.
   B) Hökmdarların tərifinə xüsusi yer verilirdi.

C) Qəsidə ən geniş yayılmış janrlardan biri idi.
D) Böyük ictimai-siyasi problemlər qaldıran, humanist ideyalar təbliğ edən əsərlər də yaranırdı.
E) Dövrün yazılı ədəbiyyat nümunələri fars və Azərbaycan dillərində idi.

6. Verilən nümunənin müəllifi kimdir?
Zülfün camalına bir yaraşıqdır,
Xərabət əhlinə nurdur, işıqdır.
Ey Şərq günəşinin nuru, xoş gəldin!
Gözəllər şahına qapı açıqdır.
A) Əfzələddin Xaqani B) Nizami Gəncəvi
C) İzzəddin Həsənoğlu D) İmadəddin Nəsimi
E) Məhsəti Gəncəvi

7. Ə.Xaqaninin yaradıcılığı ilə bağlı fikirlərdən biri ***səhvdir.***
A) "Mədain xərabələri" əsərində özünün xatirələrini, səfər təəssüratını qələmə almışdır.
B) Məktubları ilə bədii nəsr nümunələri yaratmışdır.
C) Əsərlərini fars dilində yazmışdır.
D) Yaradıcılığının birinci dövründə hökmdarları, sarayları mədh etmişdir.
E) 1176-cı ildə Kəbə ziyarəti adı ilə Şirvanı tərk edərək, Şərq ölkələrini gəzmişdir.

8. Aşağıdakılardan yalnız biri Ə.Xaqaniyə aid edilə bilər:
A) Əsərlərini həm Azərbaycan, həm də fars dillərində yazmışdır.
B) Ədəbiyyatımızda ilk vahid süjet xətti olan poemanın müəllifidir.
C) Məktubları ilə ana dilimizdə bədii nəsr nümunələri yaratmışdır.
D) Ədəbiyyatımızda ilk poemanın müəllifidir.
E) Saray ədəbiyyatının ilk qüdrətli nümayəndəsidir.

9. *Sasanilərin Azərbaycanda hakimiyyətdə olduqları III-V əsrlərdə ... bir peyğəmbər, ... isə atəşpərəstliyin müqəddəs kitabı kimi böyük nüfuz qazanmışdır.* Nöqtələrin yerinə bunlardan hansı yazılmalıdır?
A) Məhəmməd; "Quranı-Kərim" B) Musa; "Tövrat"
C) Zərdüşt; "Avesta" D) Davud; "Zəbur" E) İsa; "İncil"

10. XI – XII əsrlərdə Azərbaycan ədəbiyyatı nümunələri, əsasən, hansı dildə yaranırdı?
A) türk (Azərbaycan) B) fars C) ərəb
D) fars və türk (Azərbaycan) E) ərəb və fars

B variantı

1. Ə.Xaqaninin "Mədain xərabələri" qəsidəsində əsasdır:
   A) Allahın, peyğəmbərin tərifi
   B) hökmdarların mədhi
   C) xeyirlə şərin mübarizəsinin əks olunması
   D) hökmdarları tarixdən ibrət almağa çağırış
   E) əxlaqi-didaktik fikirlərin təbliği

2. Qətran Təbrizi yaradıcılığı ilə bağlı ***səhv*** fikri göstərin.
   A) Əsərlərini farsca yazmışdır.
   B) Lirik şeirlərdən ibarət divanı vardır.
   C) XII əsrdə yaşayıb-yaratmışdır.
   D) Gəncədə bir şair kimi məşhurlaşdıqdan sonra Təbrizə qayıtmış və Rəvvadilər sarayında böyük nüfuz qazanmışdır.
   E) 1042-ci il Təbriz zəlzələsinə şeirlər həsr etmişdir.

3. Azərbaycan ədəbiyyatında poema janrının bizə gəlib çatan ilk nümunəsinin müəllifi:
   A) Nizami Gəncəvi B) Əfzələddin Xaqani
   C) Məhsəti Gəncəvi D) Qətran Təbrizi E) Zülfüqar Şirvani

4. Məhsəti Gəncəvinin ən çox müraciət etdiyi janr və yaradıcılığında öz əksini tapan əsas məsələlər:
   A) qitə; söz sənətinin, sənətkarların, zəmanə hökmdarlarının tərifi
   B) qəzəl; təbiət təsvirləri, vətənə məhəbbət, azad sevgi
   C) rübai; humanizm, səmimi hislər, dərin fəlsəfi mühakimələr
   D) qəsidə; təmiz məhəbbətin, gözəlliyin tərənnümü
   E) rübai; nakam məhəbbətin doğurduğu hislərin ifadəsi

5. Verilən nümunənin janrını və müəllifini göstərin.
   Gülə mənzil olmuş yenə də çəmən,
   Köynəyi yırtılmış ta ətəyindən.
   Dedim: "Kim yırtmışdır səbir pərdəni?"
   Qalxıb səhər yeli söylədi ki: "Mən!"
   A) rübai; Nizami Gəncəvi B) qəzəl; Əfzələddin Xaqani
   C) rübai; Məhsəti Gəncəvi D) qitə; Əfzələddin Xaqani
   E) qəsidə; Qətran Təbrizi

6. Beytin müəllifi kimdir?
Biz ədl sarayıykən zülm ilə xərab olduq,
Zalımlar olan qəsrə gör neyləyəcək dövran!
A) Məhsəti Gəncəvi B) Əfzələddin Xaqani
C) Qətran Təbrizi D) Nizami Gəncəvi
E) Marağalı Övhədi

7. *Bir müddət Rəvvadilər sarayında da yaşamış bu şairin fars dilində yazdığı qəsidə, qitə, rübai və s.-dən ibarət lirik şeirlər divanı vardır.*
Söhbət hansı sənətkardan gedir?
A) Əfzələddin Xaqani
B) Məhsəti Gəncəvi
C) Qətran Təbrizi
D) Əssar Təbrizi
E) Nizami Gəncəvi

8. Atəşpərəstliyin müqəddəs kitabı:
A) "Zəbur" B) "Tövrat"
C) "İncil" D) "Avesta" E) "Qurani-Kərim"

9. Fars dili nə vaxtdan etibarən Şərq ədəbiyyatında əsas dil kimi tarixi nüfuz qazanmışdı?
A) I minilliyin sonu – II minilliyin əvvəllərindən
B) II minillikdən
C) I minilliyin əvvəllərindən
D) I minilliyin ortalarından
E) II minilliyin ortalarından

10. Verilən fikirlərdən biri Məhsəti Gəncəviyə aiddir:
A) Saray ədəbiyyatının bizə məlum olan ilk nümayəndəsidir.
B) Rübailərindən başqa, qəzəl və qəsidələri ilə də ədəbiyyatımızda xüsusi yer tutur.
C) Əsərlərini fars dilində, əruz vəznində yazmışdır.
D) Ədəbiyyat tariximizdə ilk dəfə olaraq rübai janrında əsər yazmışdır.
E) Əvvəlcə Şəddadilər, sonra isə Rəvvadilər sarayında yaşamışdır.

"Dədə Qorqud" eposu

Dədə Qorqud

Azərbaycan türklərinin ulu babası oğuz türklərinin yaratdığı "Kitabi- Dədə Qorqud'' I minilliyin ikinci yarısında Azərbaycan ərazisində formalaşan və xalqımızın tarixi-qəhrəmanlıq keçmişini əks etdirən bir qəhrəmanlıq eposudur. Eposda xalqımızın qədim düşüncə tərzini əks etdirən motivlərlə bərabər, I minilliyin II yarısına aid olan torpaq, vətən sevgisi, dövlətçilik ənənələri, islam dinini yaymaq uğrunda mübarizə də öz əksini tapmışdır.

I minilliyin sonu, II minilliyin əvvəlində epos Azərbaycanda və Anadolunun şərqində ozanlar tərəfindən qopuzun müşayiəti ilə şifahi söylənilsə də, II minilliyin əvvəllərində türk-müsəlman katibləri, tarixçiləri tarixi zərurətdən onu yazıya almağa və onun əsasında "Dədə Qorqud'' kitablarını yaratmağa başlamışlar.

Əsl nüsxəsi gəlib bizə çatmasa da, hazırda eposun iki əlyazma nüsxəsi məlumdur. Hər iki əlyazması XV əsrdə daha əvvəlki əlyazmalardan köçürülmüşdür. Bunların heç biri "Dədə Qorqud" eposunun bütün boylarını əhatə etmir. Bu əlyazma nüsxələrindən daha mükəmməli bir müqəddimə, on iki boydan ibarət olmaqla Almaniyanın Drezden, digəri isə bir müqəddimə və altı boydan ibarət olmaqla Vatikan muzeyində saxlanılır.

"Kitabi-Dədə Qorqud" abidəsi ana dilimizdə yazıya alınmış ilk qədim və möhtəşəm sənət əsəridir. Bir sıra cəhətlərinə görə bu abidəni ortaq oğuz abidəsi də hesab edirlər.

Dastanın elm aləmində məşhurlaşması alman alimi Fridrix fon Ditsin 1815-ci ildə verdiyi ilk məlumatdan sonra başlamışdır. XX əsrdən etibarən türk alimləri də eposla maraqlanmağa başlayırlar. Qorqudşünaslardan Orxan Şaiq Gökyay, Məhərrəm Ergin Türkiyədə; Həmid Araslı Azərbaycanda "Dədə Qorqud"u dəfələrlə nəşr etdirmişlər. XX əsrin 50-ci illərinin əvvəllərində guya burada qan tökmək, tayfalararası düşmənçilik təbliğ olunur deyə, dastan "mürtəce" abidə elan olunmuş, nəşrinə və öyrənilməsinə qadağa qoyulmuşdur. Şəxsiyyətə pərəstişin ifşasından sonra isə tədqiqi və nəşri bərpa olunmuş, bir çox dillərə tərcümə edilmişdir. "Dədə Qorqud"un son mükəmməl nəşri BDU-nun professoru Samət Əlizadənin hazırladığı, ön söz və şərhlər yazdığı 1999-cu il nəşridir.

Kamil Vəli Nərimanoğlunun baş redaktorluğu ilə "Kitabi-Dədə Qorqud"un 2 cildlik ensiklopediyası nəşr olunmuşdur. Xalq yazıçısı Anarın ssenarisi ilə "Dədə Qorqud" filmi çəkilmişdir. 1999-cu ildə Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin təşəbbüsü ilə dastanın 1300 illiyinin YUNESKO tərəfindən dünya miqyasında keçirilməsi təkcə Azərbaycan üçün deyil, bütün türk dünyası üçün tarixi hadisə olmuşdur.

Dədə Qorqud haqqında. Eposun Qorqud atanın adı ilə adlandırılması heç də təsadüfi deyil. O, eposda oğuz elinin ağsaqqalı, gələcəkdən xəbər verən bilicisi, müqəddəs şəxsiyyəti kimi təsvir olunur. Şübhəsiz, boyların ilk yaradıcısı, söyləyəni də odur. Onun haqqında "Kitab"ın müqəddiməsində məlumat verilir. Rəvayətə görə, Məhəmməd peyğəmbərin zamanında yaşamış, islamı qəbul edərək xalq arasında yaymışdır. Oğuzun qəhrəmanlıq tarixinin itib-batmaması üçün soy soylayır, boy boylayır. Dövlət qurmaq, vətəni düşməndən qorumaq barədə söhbət açır. Elçi gedir, toylar, düyünlər keçirir. İgidlik göstərən yeniyetmələrə (Buğaca, Beyrəyə) ad verir. Əfsanəyə görə, dörd əşyaya (gəlinə, ayrana, iynəyə, tikana) ad verərkən yanlışlıq etdiyinə görə təəssüflənmişdir. Qorqud Atanın özü kimi, qopuzu da müqəddəs sayılmışdır. Hətta əsirlikdə olan Əgrək onu xilas etməyə gələn qardaşı Səgrəyi düşmən bildikdə belə, əlində qopuz gördükdə onu öldürmür, Dədə Qorqud hörmətinə bağışlayır.

Müqəddimədə verilən atalar sözləri də Qorqud ataya aiddir:

Allah-Allah deməyincə işlər onmaz,
Qadir Tanrı verməyincə ər bayımaz.
Əzəldən yazılmasa, qul başına qəza gəlməz,
Əcəl vədə irməyincə kimsə ölməz...
Əski panbıq bez olmaz,
Qarı düşmən dost olmaz ...
Ər malına qıymayınca adı çıxmaz,
Qız anadan görməyincə ögüt almaz,
Oğul atadan görməyincə süfrə yaymaz ...

Eposun ümumi məzmunu. Bitkin süjetə malik 12 boyun hər biri dastanın ümumi məzmunu və ideyasına bağlıdır. Təsvir olunan hadisələr Oğuzda cərəyan edir. Oğuzun sahibi müsəlman türkləridir. Oğuz həm dövlət, həm məkan, həm cəmiyyət, həm də xalqdır. İç Oğuz və Dış Oğuzdan ibarətdir. On ikinci boya qədər Oğuzun birliyindən danışılır. Oğuzların başçısı Bayandır xandır. Onun haqqında geniş məlumat verilmir. O, göstərişlər verir, məclislər qurdurur, məmləkətini qədim və müqəddəs ənənələrlə idarə edir. Boylar xalq həyatının müxtəlif sahələrini əhatə edir. Burada yalnız vətən yolunda mübarizə deyil, xalqın məişəti, adət-ənənəsi, sevgisi, nifrəti, məşğuliyyəti də öz bədii əksini tapır. Oğuzlar islamaqədərki yaşayış ənənələrini qoruyub saxlamaqla islamı qəbul edir, onu yayırlar. Döyüşdən qabaq namaz qılırlar. Qəhrəmanlar tez-tez ova çıxırlar, məclislərdə şərab içirlər. Düşmənə qarşı ayıqdırlar, onlarda yuxu yozumuna böyük inam var. Eposda şəxsiyyət azadlığına da böyük əhəmiyyət verilir. Qadınlar ictimai həyatda fəaldırlar. İslam dininə aid bəzi qadağalar hələ qadınların həyatına daxil olmamışdır. Qızlar həyat quracaqları igidi sınayır, onunla at çapır, güləşir, ox atırlar. Boylarda Bamsı Beyrəyin, Alp Aruzun, Qanturalının, Basatın, Qaraca Çobanın, Yeynəyin, Dəli Dondazın, Səgrəyin, Bəkilin, Bəkil oğlu İmranın, Qazan xanın qardaşı Qaragünənin, qardaşı oğlu və kürəkəni Qarabudağın, oğlu Uruzun qəhrəmanlığından da danışılır. Oğuz igidləri doğma yurdu qorumaq üçün hər cür fədakarlığa hazırdırlar.

Hadisələrin əfsanəvi səciyyə daşıdığı "Duxa Qoca oğlu Dəli Domrulun boyu" və "Basatın Təpəgözü öldürdüyü boy" çox qədim dövr təsəvvürləri ilə bağlıdır. Qalan boylarda tarixilik aparıcıdır. Bunu Dərbənd, Bərdə, Gəncə, Gürcüstan ağzı, Göyçə, Əlincə və digər yer-yurd adlarının sadalanması da sübut edir.



"Duxa qoca oğlu Dəli Domrulun boyu"na çəkilmiş illüstrasiya

(rəssamı: Mikayıl Abdullayev)

Eposun əsas ideyaları. "Kitabi-Dədə Qorqud" qəhrəmanlıq dastanı olmaqla əsas ideyaları qəhrəmanlığın tərənnümü, vətənin bütövlüyüdür. Qəhrəmanlıq ruhu ilə vətənsevərlik ayrılmaz vəhdətdədir. Oğuz igidləri üçün vətənin birliyi və bütövlüyü canlarından əzizdir.

Dastanda, Uruzun dilindən dəfələrlə deyildiyi kimi, "ana haqqı-Tanrı haqqı"na bərabər tutulur. Ana müqəddəs, uğrunda ölməyə layiq bir varlıq kimi təqdim olunur. Əsirlikdə olarkən Uruz anasının ləyaqətini, atasının şərəfini qorumaq üçün ölümdən belə qorxmur. Oğuz qadınları sədaqətli, mərd, qorxmazdırlar. Dəli Domrulun xatunu canını ərindən əsirgəmir. Əri döyüşə gedən qadınlar ömrü boyu ərlərinə sadiq qalacaqlarına söz verirlər.

İslam dinini qorumaq, onu yaymaq da eposun ideyaları içərisində özünə yer almışdır. Oğuz igidləri kafirlərlə döyüşdən qabaq abdəst alar, iki rükət namaz qılar, Məhəmməd peyğəmbərə salavat çevirərdilər. Müqəddimədə imamların adı çəkilir, Məhəmməd peyğəmbər Tanrı dostu adlandırılır, Qurana əhsən deyilir, Məkkənin gözəlliyindən danışılır. Əksər boyların sonunda Dədə Qorqudun dilindən deyilir: "Günahınızı adı gözəl Məhəmməd Mustafaya bağışlasın, xanım, hey!"

Eposun quruluşu. Orta əsr Azərbaycan dastanlarından fərqli olaraq, "Dədə-Qorqud" eposu ustadnamə ilə deyil, müqəddimə ilə başlayır. Müqəddimədə eposun əsas müəllifi olan Dədə Qorqud haqqında məlumat, onun dilindən deyilən atalar sözləri verilir, qadınların xasiyyətlərinə görə dörd cür olması göstərilir.

On iki boyun hər birinin özünün bitkin süjet xətti, mövzusu vardır. Əksər boylar Oğuz xanına "xanım, hey" müraciəti ilə başlayır. Dastanı söyləyən ozan yeri gəldikcə eposun ilk yaradıcısını – Dədə Qorqudu yada salır. Boylar mövzuca rəngarəngdir. Hər boyda bir igidin qəhrəmanlığından bəhs edilir. Bütün boyların finalı Dədə Qorqudun yum deməsi – xeyir-duası ilə tamamlanır: "Dədə Qorqud gəlibən boy boyladı, soy soyladı... Məndən sonra alp ozanlar söyləsin, alnıaçıq, comərd ərənlər dinləsin, – dedi, – yum verəyim, xanım, yerli qara dağların yıxılmasın, kölgəlicə qaba ağacın kəsilməsin..."

Bədii xüsusiyyətləri. Orta əsrlərdə yaranan Azərbaycan xalq dastanlarında nəsrlə şeir kəskin şəkildə bir-birindən fərqlənir. "Dədə Qorqud"da isə belə deyil. Qədim dövrlərdə, görünür, dastan nəzmlə olmuş və ozanlar onu qopuzun müşayiəti ilə oxumuşlar. Onu yazıya köçürən katiblər şeir misralarını alt-alta deyil, nəsr kimi ard-arda vermişlər. Ona görə də sonralar mətnin çox hissəsi nəsrləşdirilmişdir. Lakin eposun ritmi, poetik intonasiyası qorunmuş, bənd, misra quruluşu, ahəngi qədim türk-oğuz poeziyasına uyğun şəkildə əks olunmuşdur.

Eposun gəlib dövrümüzə çatan mətnindən aydın görünür ki, qədim türk şeirində qafiyə zəngin olmamış, ritm fonetik təkrarlarla, xüsusən alliterasiyalarla, assonanslarla yaranmışdır. Aşağıdakı nümunədə həm samitlərin, həm də saitlərin təkrarı aydın görünür:

Qaranqu axşam olanda qayğılı çoban,
Qarla yağmur yağanda çaqmaqlı çoban,
Südü, peniri bol, qaymaqlı çoban!...

Burada **q, ç** samitlərinin təkrarının yaratdığı ahəng alliterasiya, **a** saitinin təkrarının yaratdığı ahəng isə assonansdır .

Hey, ana! Ərəbi atlar olan yerdə
Bir qulunu olmazmı olur?!
Qızıl dəvələr olan yerdə
Bir köşəyi† olmazmı olur?!
Ağca qoyunlar olan yerdə
Bir quzucuğu olmazmı olur?!

Bu nümunədə axıcı intonasiya, canlı ahəng sözlərin və ifadələrin təkrarı ilə yaranır. Ümumiyyətlə, eyni səslərin, sözlərin, sintaktik vahidlərin təkrarı qəhrəmanların keçirdikləri hisləri, əhvali-ruhiyyələri, emosiyaları dinləyicilərə daha təsirli şəkildə çatdırır.

"Dirsə xan oğlu Buğacın boyu"na çəkilmiş illüstrasiya

(rəssamı: Mikayıl Abdullayev)



† Çətin sözlərin izahı üçün hissənin sonunda verilmiş lüğətə baxın

Dastanda qədim dövr türk – Azərbaycan epos təfəkküründün xarakteri barədə aydın təsəvvür yaradan bədii təsvir və ifadə vasitələri içərisində mübaliğələr zənginliyinə görə seçilir. Məclislərdə təpə kimi ət, göl kimi qımız verilməsi, qəhrəmanın acığı tutanda qara daşı kül eləməsi, yeddi başlı əjdahanı öldürməsi, atdığı daşın yerə düşməməsi, düşərsə, yerində üç il ot bitməməsi, ala ilan keçməyən ormanları keçməsi qədim dastan ənənəsinə uyğun olaraq, Oğuz elinin, Oğuz igidinin qüdrətini romantik bir vüsətlə əks etdirir. Təkrar olunan mübaliğələrin əksəriyyəti Oğuz qəhrəmanlarının əlamətlərinə çevrilmişdir: altmış min kafirə qan qusduran, ağ-boz atının yelisi üzərində qar durduran Şir Şəmsəddin, Dərbənddəki dəmir qapını təpib alan, altmış tutam ala göndərinin ucunda ər böyürdən, bir savaşda Qazanı üç kərə atdan yıxan Dəli Dondaz; əlli yeddi qalanın açarını alan Alp Ərən və s.

Dastanda istifadə olunan bədii xitablar qəhrəmanların əhvali-ruhiyyəsinin təsirli təqdiminə xidmət edir. Oğuz igidi düşmənə "itim kafir" deyə müraciət edir.

Dastan qəhrəmanlarının müəyyən keyfiyyətləri təbiət hadisələri ilə müqayisə edilir.

Beyrəyin bacısı qardaşının əsirlikdə olmasını qara dağların yıxılması ilə, ağacın kəsilməsi ilə müqayisə edərək xəbər verir. Eposda istifadə olunan təşbehlər fikrin bədii təsvir gücünü daha da artırır: Oğuz igidləri şahinə bənzədilir, "dəvə kimi kükrəyir", "aslan kimi nərə çəkir", düşmən qaza oxşadılır. Oğuz qadınının boyu sərv ağacına, çatma qaşları qurulu yaya, al yanaqları payız almasına bənzədilir, ağzının kiçikliyini göstərmək üçün "qoşa badam sığmaz" ifadəsi işlədilir. "Kimə baxsa, eşqi ilə oda yaxan" Trabzon təkurunun qızı Sarı donlu Selcan xatun Qanturalını görəndə "öysəl olmuş dana kimi ağzının suyu axır", "kedisi mavıldayır", oğuz igidinə aşiq olur.

Döyüş səhnələri, Oğuz igidlərinin cəsurluğu daha coşqun, daha həvəslə təsvir olunur: "... Bitəkələf kafirə at saldılar, qılınc vurdular. Ol gün cigərində olan yigitlər bəlirdi. Ol namərdlər səpa yerə gözətdi. Bir qiyamət savaş oldu, meydan dolu baş oldu. Qiyamətin bir günü oldu".

Eposda işlənmiş sözlərin böyük əksəriyyəti türk mənşəli sözlərdir. Bu da bizə gəlib çatan boyların yazıldığı vaxt dilimizin hələ ərəb, fars dillərinin təsirinə elə də məruz qalmaması ilə bağlıdır. Sonrakı dövrlərdə abidənin üzünü köçürən katiblər onun dilini müəyyən dərəcədə dəyişsələr də, Azərbaycan ədəbi dilinin qədim nümunələri saxlanılmışdır.

Salur Qazanın evinin yağmalanması boyu

Boyun məzmunu. Bir gün Ulaş oğlu Salur Qazan kef məclisi qurdurmuşdu. Məclisdə əsir alınmış kafir qızları Oğuz bəylərinə şərab paylayırdılar. Qazan xan ova çıxmaq təklifi verdi. Dəli Dondaz və Qaragünə oğlu Qarabudaq təklifə tərəfdar oldular. Aruz qoca Gürcüstan sərhədinə ova gedərkən qərargahda kimi qoyacağını soruşduqda Qazan xan cavab verdi:

– Oğlum Uruzla üç yüz igidi.

İgidlərin ova getməsini casus Şöklü Məliyə xəbər verdi.

Şöklü Məlik yeddi min kafirlə Qazanın düşərgəsinə hücum etdi. Kafirlər Qazan xanın bütün var-dövlətini talan etdilər. Anasını, qırx incə belli qızla Burla xatunu, üç yüz igidlə Uruzu əsir apardılar. Döyüşdə Sarı Qalmaş həlak oldu.

Qazanın bu işdən xəbəri yox idi. Kafirlərdən biri Şöklü Məliyə dedi ki, Qazanda bir heyfimiz qaldı. Şöklü Məlik bu heyfin nə olduğunu soruşanda kafir Qazan xanın Dərbənddən on min qoyununun gətirilməsini istədi. Şöklü Məlik qoyunları gətirmək üçün Dərbəndə altı yüz kafir göndərdi.

Qazan xanın Dərbənddəki qoyun sürülərinə Qaraca Çoban baxırdı. Gecə yatarkən o, "qara qayğılı" yuxular görür. Qabangücü və Dəmirgücü adlı iki qardaşını yanına çağırıb, ehtiyat tədbiri görür.

Altı yüz kafir qəflətən Qaraca Çobanın üstünə hücum etdi. Kafirlər Qazan xanın evini talan etdiklərini, arvadını, oğlunu əsir aldıqlarını bildirdilər. Qaraca Çobandan onlara təzim etməyi, Şöklü Məliyin yanına getməyi tələb edir, əvəzində ona bəylik verəcəklərini deyirlər.

Qaraca Çoban "itim kafir" dediyi düşməni məğlub edir. Lakin döyüşdə qardaşları həlak olurlar.

Ovda olan Qazan xan yuxuda bir şahinin onun quşunu əlindən aldığını, evinin üzərinə ildırım yağdığını, düşərgəsinin üstünü qara duman bürüdüyünü, quduz qurdların evini dəldiyini, qara dəvənin onu qapdığını, qara saçlarının uzanıb gözünü örtdüyünü, on barmağının qan içində olduğunu görür, qardaşından yuxusunu yozmağını istəyir. Qaragünə yuxunu belə yozur: "Qara bulud sənin taleyin, qar ilə yağmur qoşunundur. Saç qayğı, dərd-sərdir, qan-qanqaralıqdır. Qalanını yoza bilmərəm. Allah yozsun".

Qazan xan Qonur atını minib yola çıxdı. Gəlib yurduna çatdı. Yol boyu yurd, su, qurd və Qaraca Çobanın köpəyi ilə xəbərləşdi. Sonra Qaraca Çobanın yanına gəldi. Qaraca Çoban yurdunun kafirlər tərəfindən talan edildiyini, anasının, Burla xatunun, Uruzun, igidlərin əsir aparıldığını dedi. Qazan xan kafirlərin üstünə getmək istəyəndə Qaraca Çoban da getmək istədi. Qazan xan fikirləşdi ki, düşmən üstünə Qaraca Çobanla getsə, Oğuz bəyləri onu qınayacaqlar. Ona görə də Qaraca Çobanı bir ağaca bağlayıb yola düzəldi. Bir azdan Qazan baxıb gördü ki, Qaraca Çoban ağacı kökündən qopardıb onun dalınca gəlir. Ondan soruşdu ki, çoban, bu ağac nədir? Qaraca Çoban cavab verdi ki, sən kafirlərlə döyüşüb acanda sənə bu ağacla yemək bişirəcəyəm. Qazanın çobanın sözlərindən xoşu gəldi, çobanın əllərini açdı. Ona dedi ki, Allah mənim evimi bəladan qurtarsa, səni bütün ilxıçılarıma başçı qoyaram.

Bu vaxt Şöklü Məlik kefi kök halda Qazan xanı alçaltmaq məqsədilə Burla xatuna şərab paylatmaq istədiyini kafirlərə deyəndə Burla xatun eşidir. Eşitdiklərini qırx incə belli qıza çatdırır. Şöklü Məliyin göndərdiyi adam Burla xatunu soruşduqda qızlar onun tanınmasına imkan vermirlər. Hamısı deyir ki, Burla xatun mənəm. Kafir Uruzun ətindən qara qovurma bişirtdirib qızlara paylatmağı tapşırır. Kim yeməsə, deməli, Burla xatun odur. Oğlunu itirəcəyindən sıxılan, seçim qarşısında qalan Burla xatun Uruza deyir ki, ay oğul, sənin ətindən yeyimmi, yoxsa ağan Qazanın namusunu tapdayımmı?

Uruz anasına deyir ki, ana haqqı – Tanrı haqqı olmasaydı, ağ üzünü qara yerə çırpardım. Kafirlər səni tanımamaq üçün qızlar bir yeyəndə sən iki ye. Kafirlər Uruzu tutub qənarə ağacının dibinə gətirirlər. Uruz ağaca xitab edir. Məkkəni, Mədinəni, imamları xatırlayır, heyifsilənir. Bu zaman Qazan xan Qaraca Çobanla gəlib çıxır. Qaraca Çoban sapandını işə salır. Onun sapandı ilə atılan daş yerə düşməzdi. Düşsə də, düşdüyü yerdə üç il ot bitməzdi. Qazan xan Çobana deyir ki, qoy anamı kafirdən istəyim, at ayağı altında qalmasın. Ana torpaq, vətən rəmzi kimi Qazan xan üçün də müqəddəs idi. Bu həmişə bizim ədəbiyyatımızın ümumi ideya xətlərindən biri olub. Qazanın birinci anasını istəməsində də qəribə heç nə yox idi. Kafirlər deyirlər ki, anamı Yayxan keşiş oğluna verəcəyik. Ondan bır oğul doğar, sənə qarşı göndərərik. Qaraca Çobanın acığı tutur və kafirlərə deyir ki, könlünüzə cins toxum düşübsə, qızınızı Qazana verin. Bu zaman Oğuz bəylərindən Qazan xanın qardaşı Qaragünə, onun ardınca Dəli Dondaz, Qazanın kürəkəni Qaragünə oğlu Qarabudaq, Şir Şəmsəddin, Qazlıq qoca oğlu Yeynək, Beyrək, Aruz qoca, gedib peyğəmbərin üzünü görən

Bükdüz Əmən, Alp Ərən gəldilər və "Çal qılıncını, ağam Qazan, çatdım" dedilər. Qazan xan döyüşdə Şöklü Məliyin başını kəsdi. Qaragünə kafirin bayrağını qılınclayıb yerə atdı. On iki min kafir qılıncdan keçdi. Oğuz igidlərindən beş yüzü şəhid oldu. Qazan xan qaçanı qovmadı, "aman" deyəni öldürmədi. Ordusunu, anasını, arvad-uşağını, xəzinəsini geri aldı. Evinə qayıtdıqdan sonra verdiyi vədə əməl edib Qaraca Çobanı əmir-axur etdi. Şənlik oldu. Qoç igidlərə bəxşiş verildi. Dədə Qorqud gəlib bu oğuznaməni düzüb-qoşdu. Boyu belə tamamladı:

Allah verən ümidin üzülməsin!
Yığışdırsın, saxlasın günahlarını,
Adı gözəl Məhəmməd Mustafanın
Üzü suyuna bağışlasın, xanım, hey!...

"Bayburanın oğlu Bamsı Beyrək boyu"na çəkilmiş illüstrasiya

(rəssamı: Mikayıl Abdullayev)

Boyun ideyası. Vətən sevgisi boyun əsas ideyasıdır. Bu ideya düşmənin qəfil basqısından sonra oğuz igidlərinin Qazan xanın ətrafında birləşməsi ilə reallaşır. Oğuz igidləri üçün vətənin bütövlüyü canlarından əzizdir. Bu boyda göstərildiyi kimi, Oğuz elinin müdafiəsi uğrunda beş yüzdən çox igid şəhid olur.

Bu boyda ana-övlad məhəbbətindən, namus, ismət müdafiəsindən xüsusi bir ehtirasla bəhs olunur. Qazan xan öz anasını var-dövlətdən, hamıdan, öz canından da əziz sayır, birinci olaraq, düşməndən ağbirçəkli anasını tələb edir. Burla xatun Uruzu – oğlunu çox sevir. Onun ölümünə razı ola bilmir. Ancaq namus müqəddəsdir. Ona görə də Uruz anasına məsləhət görür ki, başqaları onun ətindən bir tikə yesələr, o, iki tikə yesin. Düşmənə baş əymək, ona təslim olmaq, namusu satmaq olmaz. Bu ideyaların epos təfəkküründə yer alması Azərbaycan xalqının qədim adət-ənənələrinin, dünyagörüşünün, mükəmməl bir dövlət qurmaq bacarığının nəticəsi idi.

Qazan xan surəti. Qazan xan Oğuz elində Bayandır xandan sonra ikinci nüfuz sahibidir. Salur Qazan eposda gah xan, gah bəy adlandırılır. Hərbi yürüşlər ancaq onun göstərişi ilə başlayır. O, mərddir, mübarizdir, səxavətlidir, tədbirlidir. Yaxşı övlad, bacarıqlı sərkərdə, namuslu ərdir. Düşmən üzərinə təkbaşına getməkdən qorxmur. Dastanı söyləyən ozan Qazan xana xüsusi rəğbət və məhəbbət bəsləyir. O, «Ulaş oğlu, Tülü quşun yavrusu, yazıqların ümidi, Amit soyunun aslanı, Qaraçuğun qaplanı, qonur atın yiyəsi, xan Uruzun ağası, Bayandır xanın göygüsü (kürəkəni), Qalın Oğuzun dövləti, qalmış yigit arxası» kimi təqdim olunur.

Eposun bizə gəlib çatan boylarının çoxunda Qazan xan ya birbaşa iştirak edir, ya da onun adı xatırlanır. Üç boy birbaşa onunla bağlıdır.

Düşmənə qələbə çaldıqdan sonra qaçanı qovmur, aman istəyəni öldürmür. Onun üçün Oğuzun birliyi, xalqın güzəranı əsasdır. Üç ildən bir ailəsini götürüb evdən çıxır, var-dövlətini könüllü olaraq camaata yağmaladır. Oğuzun birliyinə xəyanət etdiyinə, İç Oğuza düşmən kəsildiyinə,

Beyrəyi yaralayıb öldürdüyünə görə dayısı Aruzu bağışlamır, döyüşdə onun başını kəsir. Əsirlikdə olanda belə vüqarını sındırmır, dinini, peyğəmbərini uca tutur. Ondan tələb edəndə ki, kafirləri öysün, əvəzində Qazan onlara deyir:

Bir-bin ərdən yağı gördümsə, «oyunum» dedim,
Yigirmi bin ər yağı gördümsə, yiləmədim.
Otuz bin ər yağı gördümsə, ota saydım.
Qırx bin ər yağı gördümsə, qıya baxdım...
...Məhəmmədin dini eşqinə qılıc urdum,
Ağ meydanda yumru başı topca kəsdim,
Anda dəxi «ərəm, bəgəm» deyü ögünmədim,
Ögünən ərənləri xoş görmədim!...

Xalq ozanı Oğuz igidlərinin müsbət xasiyyətlərini Qazan xan surətində ümumiləşdirir, onun timsalında öz ideallarını ifadə edir.

Burla xatun surəti. «Dədə Qorqud» boylarında qadınlar mübariz, sədaqətli, namuslu, qorxmaz, cəmiyyətin tamhüquqlu bir üzvü kimi dəyərləndirilir. Dirsə xanın xatunu, Banıçiçək, Selcan xatun, Dəli Domrulun xatunu belə qadın obrazlarındandır. Bayandır xanın qızı, Salur qazanın xanımı boyu uzun Burla xatun isə öz mükəmməlliyi ilə daha çox seçilir.

«Salur Qazanın evinin yağmalanması» boyunda Burla xatun da düşmən tərəfindən əsir alınır. Düşmən Qazan xandan heyif almaq məqsədi ilə (Qazan xan əsir alınmış doqquz kafir qızına öz məclisində şərab paylatmışdı) Burla xatuna şərab paylatmaq istəyir. Lakin Burla xatunun tapşırığı ilə qırx incə belli qız onun tanınmasına imkan vermir. Onu tanımaq üçün Uruzun ətindən qaraqovurma bişirmək istəyirlər. Burla xatun dərin iztirab çəkir. «...Bıldır-bıldır gözünün yaşı rəvan oldu. Boyu uzun, beli incə Burla xatun boynuyla qulağın aldı düşdü. Güz alması kibi al yanağın dartdı, yırtdı. Qarğı kibi qara saçını yoldu. «Oğul! Oğul!» deyibən zarlıq qıldı, ağladı». Burla xatun buna mərdliklə dözür. O yalnız özünün yox, böyük bir elin namusunu, şərəfini uca tutur.

Dördüncü – «Qazan bəyin oğlu Uruz dustaq olduğu boy»da Uruz ilk dəfə atası ilə ova çıxır. Ana bundan sevinir. «Oğlancığımın ilk ovudur», – deyib oğlunun yolunu gözləyir. Qazanin tək qayıtdığını görüb həyəcanlanır:

Bəg igidim Qazan!
Qalxıban yerindən uru durdun,
Oğlunla yelisi qara Qazlıq atın bütün bindin,
Köksü gözəl qaba dağlar önünə ava bindin,
Boynu uzun bədəvi keyikin alıb yıqdın,
Semiz atın yüklətdin, geri döndün;
İki vardın, bir gəlirsən, yavrum qanı?...
Qaranqu dündə bulduğum oğlum qanı?
Bir bəgim görünməz, bağrım yanar!..

Uruz düşmən əsirliyində olduğu müddətdə Burla xatun rahatlıq tapmır. Qılıncını qurşayıb oğlunu xilas etməyə gedən Qazan xanın ardınca düşmən üzərinə gedir. Qazanı yaralanmış vəziyyətdə tapır. O da Oğuz igidləri kimi «Çal qılıncını, yetdim, Qazan!» deyib döyüşə girir, oğlunun azad olunmasında iştirak edir.

Uruz surəti. "Dədə Qorqud" boylarında ataların qəhrəmanlıq yolunu davam etdirən oğullardan biri də Qazan xanın oğlu Uruzdur. O, ailəsinin, elinin, obasının şərəfini hər şeydən üstün tutur. Bu yolda ölümdən qorxmur. Salur Qazan ovda olarkən kafirlər yeddi min qoşunla hücum edıb, Qazan xanın anasını, arvadını, Uruzu əsir alırlar. Bu zaman Oğuz elinin şərəfinin ayaqlar altına atılmaması Uruzun özünü məğrur, qorxmaz aparmasından asılı olur. Anası tərəddüd edəndə Uruz onu möhkəm, bir az da qəzəbli tərzdə danlayır: "Ağzın qurusun, ana! Dilin qurusun, ana! Ana haqqı – Tanrı haqqı deyilməsəydi, qalxıb yerimdən durardım, yaxandan, boğazından tutardım..."

Uruzun əsir alınması "Salur Qazanın evinin yağmalandığı boy"a çəkilmiş illüstrasiya

Böyük arzularla yaşayıb muradına çatmadığına heyifsilənsə də, namussuzluğa dözmür. Burla xatun namus və övlad məhəbbəti arasında qalanda Uruz tikə-tikə doğranmağına razı olur.

Başqa boylarda da onun igidliyindən bəhs olunur. "Salur Qazanın dustaq olub oğlu Uruz çıxardığı boy"da göstərilir ki, Qazan xan əsirlikdədir. Lakin bunu Uruzdan gizlədirlər. Sonradan məsələni bilən Uruz atasını xilas etmək üçün getmək istəyəndə Uruzun gəncliyinə qıymayan ana onu buraxmaq istəmir. Uruz qəzəblənərək anasına deyir:

Mərə ana, mən xan oğlu degilmişəm,
Xan Qazan oğlu imişəm.
Mərə, qavat qızı, munu mana
neçün deməzdin?
Ana haqqı – Tanrı haqqı deyilmişsə,
Qara polad uz qılıncım dartaydım,
Qafillicə görklü başın kəsəydim,
Alca qanın yer yüzünə tökəydim.

Uruz vuruşaraq Qazan xanı əsirlikdən qurtarır.

Uruz Oğuz elində cəsur, düşmən qarşısında məğrur dayanan yeganə igid deyil. O, məğlubedilməz Oğuz igidlərinin ən səciyyəvi xüsusiyyətlərini özündə birləşdirən ümumiləşdirilmiş surətdir.

Qazan xanın oğlu olması Uruza heç bir üstünlük qazandırmır. Məsələn, boyların birində Qazan xan narahatdır ki, indiyədək Uruzun heç bir igidliyini görməyib. Uruzsa sınaqdan çıxarılmasında təkid edərək deyir ki, oğul atadan öyrənər, məni də döyüşə apar, igidliyimi sına. Sonrakı hadisələr də göstərir ki, Uruz əsl igiddir. Ümumən, "Dədə Qorqud" dastanlarından çox aydın görünür ki, Oğuz igidləri kimin oğlu olmaqlarına görə yox, düşmən başı kəsdiklərinə, düşmən qanı tökdüklərinə görə məşhurdurlar. Elə Bayandır xanın, Qazan xanın məclislərində də ləyaqətlərinə, göstərdikləri hünərə görə yer tuturlar.

Qaraca Çoban surəti. Xalq qəhrəmanlığı ruhunda qurulmuş bu dastanda Qaraca Çoban surəti də diqqəti cəlb edir. O, adi bir çobandır. Lakin cəsarəti, sədaqəti, döyüşkənliyi ilə başqa boylarda göstərilən igidlər səviyyəsinə qalxmış, Salur Qazanın sevimlisi olmuşdur. O, qardaşları ilə birlikdə Qazan xanın Dəmirqapı Dərbənddəki qoyun sürülərini otarır. Bir gecə qara qayğılı yuxular görür və yuxusunu qardaşlarına danışır. Ehtiyat tədbiri görür. Üç təpə daş yığır. Onun döyüş silahı sapanddır. Qaraca Çoban qoyun sürülərini aparmağa gələn düşmənin Qazan xandan heyif almaq niyyətini puça çıxarır. Düşmənin bəylik təklifini rədd edir. Sədaqətli çoban altı yüz kafirin qarşısında mərdanə dayanır, onlara "itim kafir" deyə müraciət edir:

Boş-boş danışma, mərə, itim kafir,
İtimlə bir yalaqda yal içən azğın kafir,
Altındakı alaca atı nə ögərsən,

Ala başlı keçimcə gəlməz mana!
Başındakı tuğulğanı nə ögərsən, mərə, kafir,
Başımdakı börkümcə gəlməz mana!
Altmış tutam göndərini nə ögərsən, murdar kafir,
Qızılcıq dəyənəyimcə gəlməz mana!
Qılıncını nə ögərsən, mərə, kafir,
Əgri başlı çövkanımca gəlməz mana!...

Kafirlərlə qeyri-bərabər döyüşə girən Qaraca Çobanın yığdığı daş tükənir, qoyun, keçi demir, sapanda qoyub atır. Düşmənlərdən yüzlərlə kafir öldürür. Qalanları qaçıb güclə canlarını qurtarırlar. Qardaşları şəhid olsa da, düşmən əliboş qayıdır.

Çoban Qazanın başına gələnlərə ağlayır. Onun dərdinə şərik olur. Qazan xanla birlikdə onun ailəsini qurtarmaq və qardaşlarının intiqamını almaq üçün düşmən üzərinə gedir. Çalınan qələbədə onun da böyük payı olur. Qaraca Çoban cəmiyyətin aşağı təbəqələrindən olsa da, igidliyinə, ləyaqətinə, sədaqətinə görə Qazan xan onu əmir-axur təyin edir. Qaraca Çoban ancaq "Salur Qazanın evinin yağmalanması" boyunda göstərilsə də, "ərənlər ərəni" kimi yadda qalır.

Düşmən surətləri. Oğuzlar sülhsevər, dinə bağlı, zəhmətkeş bir xalq olub dinc yaşamağı sevsələr də, başqa torpaqlarda gözləri olmayan insanlar olsalar da, düşmənləri də vardır. Bu düşmənlərin əsas məqsədi ölkənin birliyini pozmaq, Oğuz dövlətinin bütövlüyünü zəiflətməkdir. Onlar oğuzlardan fərqli olaraq, qarətçi, hiyləgər, qorxaq, dinsiz, ikiüzlü insanlardır, torpaq hərisləridir. Bu düşmənlər oğuzlarla üz-üzə gəlməyə çəkinirlər, çox vaxt da işlərini oğuzlar yatanda, istirahət edəndə, oğuz eli mühafizəsiz qalanda, həm də casuslar vasitəsilə görməyə çalışırlar. Şöklü Məlik, Qıpçaq Məlik, Qara Məlik, Trabzon təkuru Oğuzun **xarici** düşmənləridir. Düşmənlər öz çirkin niyyətlərinə çatmaq üçün Oğuzun daxilindəki düşmənlərdən də istifadə edirlər. Dirsə xanın hiylə işlədərək onu düşmənə əsir aparmaq istəyən satqın qırx nökəri, casuslar, Qazan xanın dayısı Aruz **daxili** düşmənlərdəndir. Aruz Oğuz tayfaları arasında nifaq salır, ona görə də cəzalandırılır. Yarı insan Təpəgöz isə **mifik** düşməndir. Təpəgöz insanları qorxu altında saxlayır, gündə iki adamı, beş yüz qoyunu yeyir. Təpəgöz hiylə işlədib Basatı öldürmək istəsə də, Basat

onu öldürür. Oğuz igidləri ağıl, fərasət və bilik nümayiş etdirməklə həmişə düşmənə qalib gəlirlər. Bunların qoruyucusu Tanrı özüdür.

"Dədə Qorqud" oğuzların dastanlaşmış tarixidir. Artıq bəzi tarixçilərin türk-Azərbaycan tarixini, dövlət sistemini, türk idarə üsulunu "Dədə Qorqud" dastanları əsasında öyrənməyə başlamaları heç də təsadüfi sayılmamalıdır.

Qədim dövr anadilli Azərbaycan ədəbiyyatının əsas xüsusiyyətləri "Dədə Qorqud "da təzahür edir. Bu epos bütövlükdə dünya ədəbiyyatının nadir sənət abidələrindəndir. Türkdilli xalqların epos yaradıcılığında "Dədə Qorqud"un təsiri danılmazdır.

"Dədə Qorqud" eposu ilə bağlı yaddaş

- ✓ Qəhrəmanlıq dastanıdır.
- ✓ I minilliyin II yarısında daha çox Azərbaycanda formalaşmışdır.
- ✓ Əsas ideyaları Oğuz dövləti qurmaq, islam dinini yaymaqdır.
- ✓ Hər ikisinin üzü XV əsrdə köçürülən Drezden və Vatikan nüsxələrindən ibarətdir.
- ✓ Haqqında elm aləminə ilk məlumatı XIX əsrdə F.Dits vermişdir.
- ✓ Drezden nüsxəsi müqəddimə və 12 boydan ibarətdir.
- ✓ O.Ş.Gökyay, H.Araslı, M.Ergin dəfələrlə "Kitab"ı çap etdirmişlər.
- ✓ 1950-ci illərdə Azərbaycanda mürtəce abidə hesab olunmuşdur.
- ✓ 1999-cu ildə 1300 illik yubileyi YUNESKO tərəfindən qeyd edilmişdir.
- ✓ İlk yaradıcısı Dədə Qorqud, yaxud Qorqud ata olmuşdur.

- ✓ Rəvayətə görə, Dədə Qorqud Məhəmməd peyğəmbər zamanında yaşamış və ondan islamı qəbul etmişdir.
- ✓ Qopuz oğuzların müqəddəs musiqi alətidir.
- ✓ Qorqud atanın dilindən söylənilən atalar sözləri "Kitab"ın müqəddiməsində verilmişdir.
- ✓ Hadisələr, əsasən, İç Oğuzdan və Dış Oğuzdan ibarət olan Oğuzda cərəyan edir.
- ✓ Oğuz elinin başçısı Bayandır xandır.
- ✓ Əfsanəvi səciyyə daşıyan "Duxa Qoca oğlu Dəli Domrulun boyu", "Basat Təpəgözü öldürdüyü boy" çox qədim dövrlərin təsəvvürləri ilə bağlıdır.
- ✓ Dastanda Oğuzların həyat tərzi, məişəti, etnik psixologiyası geniş əks olunur.
- ✓ Ana haqqı – Tanrı haqqına bərabər tutulur.
- ✓ Əksər boylar Oğuz xanına "xanım, hey" müraciəti ilə başlasa da, "Salur Qazanın evinin yağmalanması boyu" bu müraciətlə başlamır.
- ✓ Nəsrlə şeir bir-birindən kəskin şəkildə fərqlənmir.
- ✓ Misralar alt-alta deyil, nəsr kimi ard-arda verilmişdir.
- ✓ On bir boyda (12-ci boydan başqa) oğuzların birliyindən danışılır.
- ✓ İgidlərin başçısı Qazan xandır. 8 boyda iştirak edir, xalq ozanının ona böyük rəğbəti var. 3 boy birbaşa onun haqqındadır.
- ✓ Evi yağmalananda Qazan xan elini ardıcıl olaraq yurddan, sudan, qurddan, köpəkdən, Qaraca Çobandan soruşur.
- ✓ Şöklü Məliyin adamları ilə döyüşdə bütün oğuz igidləri, hətta on ikinci boyda İç Oğuza düşmən olan Alp Aruz da Qazan xanla birlikdə döyüşür.
- ✓ Burla xatun, Banuçiçək, Dirsə xanın xatunu, Selcan xatun, Dəli Domrulun xatunu ləyaqətli qadın obrazlarıdır.
- ✓ Uruz Oğuzun gənc igidlərinin ümumiləşdirilmiş surətidir.
- ✓ Cəmi bir boyda iştirak edən Qaraca Çoban əməkçi təbəqənin nümayəndəsidir.

abdəst	namazdan qabaq əl-üzü yumaq
alp	igid
ayıtmaq	danışmaq
batman	Təxminən 8 kiloqrama bərabərdir.
buğra	erkək dəvə
bədəvi	köçəri
göndər	nizə, cida
kedi	pişik
keyik	dağ keçisi
köşək	dəvə balası
qara	böyük
qızılçıq	zoğal
qımız	at südü, at südündən hazırlanmış içki
mərə	ey (özündən aşağı bildiyi şəxs, qrup barədə işlədilir)
rükət	namaz duruşunun bir hissəsi
sası	murdar
səmiz	kök
tuğulğan	dəbilqə
yeli	yalman
yum	xeyir-dua



A variantı

1. "Dədə Qorqud" eposunun yazıya alınması ilə bağlı doğru fikirləri müəyyən edin.
   1. II minilliyin əvvəllərində ozanlar tərəfindən Azərbaycanda və Anadoluda yazıya alınmışdır.
   2. Türk-müsəlman katibləri, tarixçiləri II minilliyin əvvəllərində yazıb mühafizə etmişlər.
   3. İndiyədək elm aləminə yazıya alınmış iki nüsxəsi məlumdur.
   4. Yazıya alınmış Drezden nüsxəsi də "Dədə Qorqud" eposunu tam əhatə etmir.
   5. Drezden və Vatikan nüsxələri müxtəlif əsrlərdə yazıya alınsa da, hər ikisi əvvəlki əlyazmalarından köçürülmüşdür.

   A) 2, 3, 4 B) 2, 5 C) 3, 4, 5 D) 1, 2, 3 E) 1, 4

2. "Dədə Qorqud" eposuna görə, Oğuzlarda müqəddəs sayılırdı (***yanlış*** olanı müəyyən edin).
   A) qılınc B) ağac C) ana D) namus E) qopuz

3. "Dədə Qorqud" eposunun çox qədim dövrlərin dünyagörüşü ilə bağlı boyları üçün aşağıdakılardan biri ***səciyyəvi deyil***:
   A) tarixilik B) bədiilik C) təhkiyə D) qəhrəmanlıq E) əfsanəvilik

4. Aşağıdakı fikirlərdən ancaq biri "Dədə Qorqud" eposuna aiddir:
   A) Qədim dövrlərdə nəzmlə olduğundan qopuzun müşayiəti ilə avazla oxunmuşdur.
   B) Şeir misraları yarandığı dövrdən alt-alta verilmişdir.
   C) Çox hissəsi nəsrləşdirildiyindən türk – Azərbaycan eposunun poetik intonasiyası qorunmamışdır.
   D) Bütün boyları eyni yaradıcılıq dövrünün məhsuludur.
   E) Orta əsrlərdə yazıya köçürüldüyündən formasına görə o dövrün dastanlarından kəskin şəkildə fərqlənmir.

5. Hansı fikir doğrudur?
Oğuz elinin....
A) ağsaqqal bilicisi Bayandır xandır.
B) xarici düşməni Təpəgöz deyil.
C) sərkərdəsi Uruzdur.
D) başçısı Dədə Qorquddur.
E) qadınları ictimai həyatda fəal deyil.

6. Qardaşı düşmən əsirliyində olan kimdir?
A) Selcan xatun B) Banuçiçək C) Dəli Domrulun xatunu
D) Beyrəyin bacısı E) Burla xatun

7. Qədim türk şeirində zəngin qafiyələrdən o qədər də istifadə edilmədiyini nədən bilmək olur?
A) məişət nəğmələrindən
B) "Avesta"nın gəlib dövrümüzə çatan mətnindən
C) "Dədə Qorqud" eposunun mətnindən
D) əruz vəznində yazılan şeirlərdən
E) nəsr formasında olan atalar sözlərindən

8. Qadın surətlərinin hansının iştirak etdiyi boy daha qədim dövrün təsəvvürləri ilə bağlıdır?
A) Qazan xanın anasının
B) Selcan xatunun
C) Banıçiçəyin
D) Burla xatunun
E) Dəli Domrulun xatununun

9. "Dədə Qorqud" eposunda boyları birləşdirən ümumi cəhət nədir?
A) ideya və müəyyən qədər məzmun ümumiliyi
B) tarixiliyin aparıcı olması
C) Qazan xanın bütün boylarda iştirak etməsi
D) vahid süjet xəttinin olması
E) bütün boyların hər iki nüsxədə olması

10. Dərbənddəki dəmir qapını təpib alan Oğuz igidi kimdir?
A) Qaraca Çoban B) Dəli Dondaz C) Qanturalı
D) Şir Şəmsəddin E) Alp Ərən

B variantı

1. "Salur Qazanın evinin yağmalanması boyu"nda düşmən tərəfin Burla xatuna şərab paylatmaq niyyətini qırx incə belli qıza kim çatdırır?
   A) Burla xatunun özü B) Şöklü Məlik
   C) kafirlərdən biri D) casus
   E) Qızlar özləri kafirlərin söhbətindən öyrənirlər.

2. Qazan xanla bağlı verilən fikirlərdən biri ***yanlışdır:***
   A) Boyların birində oğlu Uruz tərəfindən dustaqlıqdan qurtarılır.
   B) Xalqın güzəranının yaxşı olması üçün öz var-dövlətindən keçməyə hazırdır.
   C) Bəzi işlərini öz yuxularına uyğun şəkildə həyata keçirir.
   D) Oğuz elində birinci nüfuz sahibidir.
   E) Dayısı Aruzu bağışlamır.

3. Burla xatunla bağlı səhv fikri müəyyən edin.
   A) Düşmən tərəfindən əsir alınmış oğlu Uruzun öldürüləcəyini qəbul edə bilmir.
   B) Bir boyda namus və övlad məhəbbəti qarşısında qalır.
   C) Bayandır xanın qızıdır.
   D) Digər qadınlar kimi döyüşlərdə iştirak edir.
   E) Haqqında bircə boyda danışılır.

4. "Salur Qazanın evinin yağmalanması boyu"nda düşmən əsirliyində olanlar sırasında verilənlərdən biri ***doğru deyil:***
   A) Qazan xanın qayınatası B) Burla xatunun qayınanası
   C) qırx incə belli qız D) Bayandır xanın nəvəsi
   E) Qazan xanın üç yüz igidi

5. "Salur Qazanın evinin yağmalanması boyu" üçün ***yanlış*** olanları müəyyən edin.
   1. Qazan xandan kafirləri öymək tələb olunur.
   2. Qazan xan əsirlikdən azad olunur.
   3. Ova getmək təklifini Aruz qoca irəli sürür.
   4. Qaraca Çobanın qardaşları həlak olurlar.
   5. Dar ağacı altına gətirilən Uruz ilk öncə ağaca müraciət edir.
   6. Qaragünə kafirin bayrağını qılınclayıb yerə atır.
   A) 2, 4, 5 B) 1, 4, 6 C) 5, 6 D) 2, 6 E) 1, 2, 3

6. "Salur Qazanın evinin yağmalanması boyu"nda "ərənlər ərəni" adlandırılır, yuxuya inanır, ova getmir. Söhbət kimdən gedir?
   A) Qaraca Çobandan B) Uruzdan
   C) Qaragünədən D) Alp Aruzdan E) Dəli Domruldan

7. Bu sürətlər içərisində Oğuz elinin qayda-qanunlarına axıra qədər əməl ***etməyəni*** hansıdır?
   A) Bamsı Beyrək
   B) Qanturalı
   C) Bəkil
   D) Basat
   E) Alp Aruz

8. "Dədə Qorqud" eposunda Oğuzların düşmənlərinin əsas məqsədi nə idi?
   A) Oğuzun dövlət bütövlüyünü zəiflətmək, daxili birliyini pozmaq
   B) qız-gəlini əsir aparmaq, Uruzu edam etdirmək
   C) Qazan xanın var-dövlətini talan etmək, ona oğul dağı çəkdirmək
   D) öz dinlərini oğuzlara qəbul etdirmək, islam dininin yayılmasının qarşısını almaq
   E) Burla xatuna məclisdə şərab paylatmaq, Qaraca Çobanın Dərbənddə otardığı qoyun sürülərini ələ keçirmək

9. "Dədə Qorqud" eposunda çox hallarda qəhrəmanların əlamətinə çevrilən bədii ifadə vasitələrindən biri daha zəngindir. Həmin ifadə vasitəsinin ***əksi*** aşağıdakılardan hansıdır?
   A) litota B) anafora
   C) epifora D) mübaliğə E) təzad

10. "Salur Qazanın evinin yağmalanması boyu"nda baş verən hadisələrin düzgün ardıcıllığını müəyyən edin.
    1. Dədə Qorqudun yum söylədiyi məclisin qurulması
    2. Qazan xanın ovda olduğu vaxt yatıb yuxu görməsi
    3. Kafirlərin Dərbəndə hücum etməsi
    4. Şöklü Məliyin Burla xatuna şərab paylatmaq istəməsi
    A) 2, 3, 4, 1 B) 1, 2, 3, 4 C) 1, 2, 4, 3
    D) 2, 4, 3, 1 E) 4, 3, 2, 1

Nizami Gəncəvi (1141 – 1209)

Nizami Gəncəvi kimi tanınan dahi Azərbaycan şairi və mütəfəkkirinin əsl adı İlyas, atasının adı Yusifdir. Doğulub boya-başa çatdığı yerə görə "Gəncəvi" (yəni Gəncəli) nisbəsi ilə tanınır. Nizami isə şairin təxəllüsüdür.

İlk süjetli poema onun adı ilə bağlıdır. Azərbaycan ədəbiyyatında bir intibah yaratmışdır. Daha çox "Xəmsə"si ilə məşhurdur.

Həyatı

Nizami Gəncəvi 1141-ci ildə Gəncə şəhərində anadan olmuşdur. Həmin dövrdə Gəncə şəhəri təkcə Azərbaycanın deyil, bütünlükdə Yaxın Şərqin mədəni mərkəzlərindən biri idi. Şərqlə Qərbi birləşdirən Böyük İpək Yolunun üstündə yerləşən bu şəhərdə Şərq və Qərb mədəniyyətləri də birləşirdi. Nizaminin əsərləri onun hər iki mədəniyyətə dərindən bələd olduğunu göstərir.

Nizami gənc yaşlarından öz ana dilini dərindən bilməklə yanaşı, o dövrün elm dili olan ərəb və şeir dili olan fars (dəri) dillərini mükəmməl öyrənmişdi. Şair ömrü boyu elmi biliklərə yiyələndiyindən dövrünün kamil bir aliminə çevrilmişdi. Buna görə də öz zəmanəsində şairi "həkim (həkim – hər şeyi kamil bilən alim) Nizami" adlandırırdılar. Nizaminin "Xəmsə"sinə daxil olan poemalarında müxtəlif elm sahələri ilə bağlı olan məlumatlar onun zəngin elmi dünyagörüşündən xəbər verir.

Nizami öz həyatı ilə bağlı faktları ilk dəfə "Xosrov və Şirin" poemasında vermişdir. Əsərin sonunda Şirinin ölümünü təsvir edən şair vaxtsız vəfat etmiş həyat yoldaşı Afaqı xatırlayır. Əsərdən məlum olur ki, qıpçaq gözəli Afaqı Nizamiyə Dərbənd hökmdarı kəniz kimi göndərmiş, şair isə onunla evlənmiş və ondan Məhəmməd adlı oğlu olmuşdu. Nizami "Xosrov və Şirin" poemasını bitirərkən (1181) Məhəmmədin yeddi yaşı olduğunu, "Leyli və Məcnun" poemasında (1188) on dörd yaşlı bir

yeniyetmə, "Yeddi gözəl" (1197) poemasında isə artıq həyatda özünə peşə seçməyə hazırlaşan bir gənc olduğunu göstərir. Məhəmmədin sonrakı taleyi haqqında əldə heç bir məlumat yoxdur.

Nizami özü haqqında daha ətraflı məlumatı "Leyli və Məcnun" poemasında vermişdir. Şair əsərin əvvəllərində atası Yusif Zəki Müəyyəd oğlunun, anasının və dayısı Xacə Ömərin həyatdan getdiklərini dərin bir kədərlə bildirmişdir.

Nizami dövrün ədəbi ənənələrinə uyğun olaraq öz poemalarını və lirik şeirlərinin bir qismini hökmdarlara həsr etmişdir. "Xəmsə"yə daxil olan poemaların giriş hissəsində həmin hökmdarlar və onlarla Nizaminin münasibətləri barədə məlumatlar verilmişdir. Nizaminin "Xəmsə"sinə daxil olan poemalar və onların ithaf olunduğu hökmdarlar aşağıdakılardır:

1. "Sirlər xəzinəsi" (1174) – Ərzincan hakimi Fəxrəddin Bəhram şaha həsr edilmişdir.

2. "Xosrov və Şirin" (1181) – Azərbaycan Atabəylərindən Məhəmməd Cahan Pəhləvanın sifarişi ilə yazılmışdır. Lakin əsər yazılandan az sonra hökmdar vəfat etdiyindən poemanın təqdimat mərasimi gecikir. Hakimiyyət başına gələn Cahan Pəhləvanın qardaşı Qızıl Arslan (hakimiyyət illəri: 1186-1191) Nizami ilə görüşmüş və "Xosrov və Şirin" əsərinə görə ona Həmdünyan adlı kənd bağışlamışdır. Nizami həmin görüşün təsvirini sonradan poemaya artırmış, Qızıl Arslana və Məhəmməd Cahan Pəhləvanın oğlu Nüsrətəddin Əbubəkrə də ithaflar vermişdir. Həmin görüşün təsvirindən aydın olur ki, Nizami artıq həmin vaxtlarda bir şeyx kimi böyük ehtiram sahibi olmuşdur.

3. "Leyli və Məcnun" (1188) – Şirvanşah Axsitanın sifarişi ilə qələmə alınmışdır. Şair əsərdə poemanı oğlu Məhəmməd vasitəsilə Şamaxıya göndərməsini və öz oğlunu Axsitana tapşırmasını göstərmişdir.

4. "Yeddi gözəl" (1197) – Marağa hakimi Əlaəddin Körpə Arslana həsr edilmişdir.

5. "İsgəndərnamə" (1203) – Poemanın birinci hissəsi olan "Şərəfnamə" Nüsrətəddin Əbubəkrə, ikinci hissəsi "İqbalnamə" isə Mosul hakimi Məlik İzzəddinə ithaf olunmuşdur.

Nizami "İsgəndərnamə" poemasında orijinal üslub işlədərək qəhrəmanının ölümünü təsvir etdikdən sonra öz ölümünü də təsvir etmişdir. Həmin beytlərdən poema yazıldığı dövrdə şairin xəstə olduğu və hər an ölümü gözlədiyi aydın olur. Lakin şair bundan sonra hələ altı il də yaşayaraq, 1209-cu il vəfat etmişdir. Bu tarix Nizaminin qəbir daşı üzərində qeyd edilmişdir.

Yaradıcılığı

Lirikası. Nizaminin bizə gəlib çatan ədəbi irsi farsca yazılmış lirik və epik əsərlərdən ibarətdir. O, bədii yaradıcılığa lirik şeirlə başlamış, ömrünün sonunadək bu sahədəki yaradıcılığını davam etdirmişdir. Nizaminin lirik şeirləri hələ onun sağlığında məşhur olmuş, məclislərdə müğənnilər tərəfindən oxunmuşdur. "Xosrov və Şirin" poemasında Qızıl Arslanla görüşünü təsvir edən şair şahın onun şərəfinə təşkil etdiyi məclisdə müğənnilərin Nizami qəzəllərini oxuduğunu göstərmişdir. Nizami qəzəllərində tez-tez zəmanə hökmdarlarından Qızıl Arslan və Şirvanşah Axsitanın adlarını çəkir ki, bu da həmin qəzəllərin onlara ithaf olunduğunu təsdiqləyir.

"Leyli və Məcnun" poemasının girişindən aydın olur ki, hələ 1188-ci ildə şairin lirik şeirlərindən ibarət mükəmməl bir divanı var imiş. Sonrakı qaynaqlar da şairin divanı olduğunu təsdiqləyir. Lakin həmin zəngin poetik irsdən cəmi 6 qəsidə, 120 qəzəl, 30 rübai günümüzədək gəlib çatmışdır. Şairin saf, səmimi bir məhəbbətin tərənnümünə həsr edilmiş qəzəlləri öz gözəl poetik dili, orijinal bədii təsvir vasitələri ilə seçilir. Dünyəvilik, real eşqin tərənnümü Nizami qəzəllərinin səciyyəvi xüsusiyyətlərindəndir.

Təsadüfi deyil ki, Ü.Hacıbəyov iki məşhur romansını ("Sənsiz" və "Sevgili canan") məhz Nizami qəzəllərinə bəstələmişdir.

Poemalar. Nizami bədii yaradıcılığa lirik şeirlə başlasa da, daha çox poemaları ilə məşhurdur. Onun 30 il ərzində, yəni 1174-1203-cü illər arasında yazdığı beş poema sonralar "Xəmsə" ("Beşlik") adı ilə tanınmışdır. Nizaminin özü "Xəmsə" adını heç bir yerdə çəkməmiş, yalnız

son poeması olan "İsgəndərnamə"nin "Şərəfnamə" hissəsində –girişdə əvvəlki əsərlərinin adlarını sadalamışdır:

Yorulmaq bilmədən gündüz və gecə
"Məxzənül-əsrar"ı yazdım əvvəlcə.
İncəlik, şirinlik yığaraq ondan,
"Xosrov və Şirin"çin düzdüm bir dastan.
Sonra başqa yerdə çadırı vurdum,
"Leyli və Məcnun"un eşqini qurdum.
Bitirdim dastanı, bir nəşə tapdım,
Atımı "Həft peykər" üstünə çapdım.
İndi söz mülkündə büsat quraram,
İsgəndər dövründən təbil vuraram.

"Sirlər xəzinəsi" (1174). Nizami Gəncəvi ilk iri həcmli əsəri olan "Sirlər xəzinəsi" ("Məxzənül-əsrar") poemasını Ərzincan hakimi Fəxrəddin Bəhram şaha həsr etmişdir. Əsər orta əsrlər epik şeir ənənəsinə uyğun olaraq, ənənəvi rəsmi başlanğıcla – Tanrının və Məhəmməd peyğəmbərin mədhi, Peyğəmbərin meracı, əsərin ithaf olunduğu hökmdarın tərifi və s. ilə başlayır. Poemanın vahid baş qəhrəmanı və vahid süjet xətti yoxdur. Əsərin əsas mətni müxtəlif ictimai, fəlsəfi, dini problemlərə həsr edilmiş iyirmi məqalət və bu problemlərin əyani təsvirini verən iyirmi mənzum hekayətdən ibarətdir. Şair əvvəlcə hər bir məqalətdə problemin qoyuluşunu verir, sonra isə ona uyğun ibrətamiz-nəsihətamiz məzmunlu bir hekayət təqdim edir. Məqalət və hekayətlərdə insan və onun mənəvi təmizliyi, onu şər işlərdən uzaqlaşdırıb kamil şəxsiyyətə çevirmək, ictimai ədalət, hökmdarları xalqla ədalətli rəftara çağırış əsas məsələlərdəndir. "Adəmin yaradılması haqqında" adlı birinci məqalətdə şair mötəbər qaynaqlardan istifadə yolu ilə Tanrının insanı yalnız xeyir işlər, xoş əməllər üçün yaratdığını ön plana çəkmişdir. Həmin məqalətlə bağlı verilmiş hekayətdə isə müəllif bir padşahın simasında pis əməllərdən uzaqlaşmağın heç vaxt gec olmadığını, insanın ömrü boyu daxilən təmizlənməsinin vacibliyini göstərmişdir. Poemadakı "Ədalətli Nuşirəvan və vəzirin hekayəsi", "Qarı və Sultan Səncər hekayəsi" və s. kimi hekayətlərdə isə Nizami zəmanəsinin hökmdarlarını nəsihət yolu ilə ədalətli olmağa, tabeliklərində olan insanlarla xoş rəftara çağırmışdır.



"Kərpickəsənin nağılı"

(Nizami Gəncəvinin "Sirlər xəzinəsi" əsərindən)

(rəssamı: Mikayıl Abdullayev)

"Sirlər xəzinəsi" poeması ana dilimizə bir neçə dəfə tam şəkildə tərcümə edilmişdir. Əsəri ilk dəfə Süleyman Rüstəm, sonra Süleyman Rüstəmlə Abbasəli Sarovlu birlikdə, daha sonra isə Xəlil Rza Ulutürk Azərbaycan dilinə çevirmişlər. Mir Cəlal "Kərpickəsən" hekayəsini bu əsərdəki bir mənzum hekayənin motivləri əsasında yazmışdır.

Bayquşların söhbəti

(Nizami Gəncəvinin "Sirlər xəzinəsi" əsərindən)

(rəssamı: Mikayıl Abdullayev)

"Xosrov və Şirin" (1181). Nizaminin ikinci epik əsəri olan "Xosrov və Şirin" təkcə onun yaradıcılığında deyil, eləcə də Azərbaycan ədəbiyyatında vahid süjet xəttinə və vahid baş qəhrəmanlara malik olan ilk poema hesab edilir. Romantik bir süjetə malik olan bu əsərdə baş qəhrəmanın anadan olmasından ölümünə qədər olan həyatının əsas epizodları öz bədii əksini tapmışdır. Bütün bunlar əsərdə geniş epik lövhələrlə əks etdirildiyinə görə, "Xosrov və Şirin" poemasını mənzum roman da adlandırırlar. Atabəy hökmdarı Məhəmməd Cahan Pəhləvan Nizamidən məhəbbət mövzusunda bir əsər – "həvəsnamə" (yüngül məhəbbət macəralarının təsvirini verən bir əsər) yazmağı xahiş etsə də, şair məhəbbətin ecazkar təsiri altında insanın mənəvi-əxlaqi təkamülünü göstərən ölməz bir poema yaratmağa nail olmuşdur. Nizami bu poemanı yazarkən müxtəlif qaynaqlara – Xosrov və Şirinlə bağlı müxtəlif əfsanə və rəvayətlərə, Bərdədəki bir əlyazmaya müraciət etmiş, tarixi abidələri öyrənmiş və əsas qaynaq kimi götürdüyü Firdovsinin "Şahnamə"sindəki Xosrov və Şirin əhvalatından fərqli bir süjet yaratmışdır.

"Xosrov və Şirin" poemasının əsas ideyasını saf məhəbbətin tərənnümü təşkil edir. Nizami bu əsərlə insanın mənəvi-əxlaqi təkamülündə məhəbbətin böyük tərbiyəvi rolu olduğunu göstərmişdir. Şair bu poemasında məhəbbət və dövləti idarə etmə məsələlərini yanaşı qoymuş, məhz bu yolla cəmiyyət üçün çox önəmli olan bir problemi dərin elmi-fəlsəfi müdrikliklə həll etmişdir. Poemanın əsas süjet xəttini Sasani şahzadəsi Xosrov Pərvizlə Azərbaycan-türk şahzadəsi Şirin arasında baş verən məhəbbət macərası təşkil edir.

Nizami Azərbaycan gözəli Şirinin mənəvi təsiri altında yüngül xarakterli, insani keyfiyyətləri ilə o qədər də seçilməyən Xosrovun kamil bir şəxsiyyətə çevrilməsinin təsvirindən açıq-aşkar milli qürur hissi keçirir. Ancaq bu tərbiyə prosesi Şirinə asanlıqla başa gəlmir. O, bir çox sınaqlardan, sarsıntılardan uğurla çıxır, bütün əzablara səbirlə dözür və nəticədə qarşıya qoyduğu ülvi məqsədə nail olur.

Poemada Nizami dövrü üçün müstəsna dərəcədə mütərəqqi bir ideya olan qadın azadlığı problemini də qoyur, qadının cəmiyyətdəki roluna görə heç də kişilərdən geri qalmadığını göstərir. Arran və Ərmən də daxil olmaqla bir ərazi kimi təqdim edilən Azərbaycana Şirinin bibisi Məhin Banu hökmdarlıq edir. Məhin Banunun ölümündən sonra isə hakimiyyət başına Şirin keçir və ölkəni ədalətlə idarə etməyə başlayır. Şair Şirini bütün sevinci-kədəri, ümidi-sarsıntısı ilə birlikdə canlı bir insan kimi təsvir və tərənnüm etmişdir. Bəzi ermənipərəst tədqiqatlarda Şirin "erməni

şahzadəsi" kimi təqdim edilir. Əslində isə poemada ərazi kimi göstərilən Ərmən də, Arran kimi Şirinin bibisi Məhin Banunun hökmranlığı altında olan Azərbaycan torpaqlarındadır və poemada hadisələrin böyük bir qismi məhz Azərbaycanda, onun paytaxtı Bərdə şəhərində cərəyan edir. Nizami poemada Şirini bir "türk", "türk gözəli" kimi təsvir edir. Şair Məhin Banunun Şirinə nəsihətində də Xosrovun İran şahı Keyxosrov, özlərinin isə qədim türk hökmdarı Əfrasiyab nəslindən olmasını açıq-aşkar bildirir:

Əgər o aydırsa, biz afitabıq,
O, Keyxosrov, bizsə Əfrasiyabıq.

Beləliklə, Nizami bu poemasında Xosrovla Şirinin simasında İran və türk əxlaqını qarşılaşdıraraq, bir Azərbaycan türkü kimi, üstünlüyü türk əxlaqına vermiş olur. Şirin Nizaminin sevə-sevə təsvir və tərənnüm etdiyi ilk ideal qadın obrazıdır. Nizami qadına münasibət cəhətdən özünün böyük İran-fars sələfi Firdovsidən daha irəli gedir. Şirin heç də yalnız məşuqə, zövq mənbəyi, bir gözəl qadın deyil, o həm də dərin əxlaq sahibidir, bir ictimai fərddir, Xosrovun – kişinin, hökmdarın tərbiyəsində, mənən kamilləşməsində xüsusi rolu olan bir şəxsiyyətdir. Onun saf eşqi bir tərbiyə vasitəsidir. Təsadüfi deyil ki, şair öz ilk eşqinə sadiq qalaraq Xosrovun cənazəsi üstündə özünü öldürən Şirinin hərəkətini alqışlayır və bu məqamda onu həyatdan vaxtsız getmiş həyat yoldaşı Afaqla müqayisə edir.

Şirinin Bisütuna – Fərhadın görüşünə getməsi

(Nizami Gəncəvinin "Xosrov və Şirin" əsərindən)

(rəssamı: Mikayıl Abdullayev)

Nizami "Xosrov və Şirin" əsərində sadə sənət adamı olan memar Fərhad obrazını da sevə-sevə yaratmış, onun da Şirini böyük bir məhəbbətlə sevdiyini qələmə almışdır. Fərhad bir fədakar aşiq, böyük bir əxlaq mücəssəməsi olaraq ən böyük məhəbbətə layiqdir. O, Şirinsiz həyatı qəbul edə bilmir, ölümü seçir. Xosrovla deyişmədə üstünlüyü ona verməklə Nizami mənən hökmdarın yox, eşq və sənət adamının tərəfində olduğunu demək istəmişdi.

Nizaminin "Xosrov və Şirin" poeması o qədər gözəl sənət örnəyidir ki, özündən sonra çoxsaylı əsərlərin yaranmasına güclü təsir göstərmişdir. Arif Ərdəbilinin "Fərhadnamə", Səməd Vurğunun "Fərhad və Şirin" əsərləri bu poemanın motivləri əsasında yazılmışdır.

Farsca yazılmış bu əsər Rəsul Rza tərəfindən ana dilimizə tərcümə edilmişdir.

"Leyli və Məcnun" (1188). Nizaminin qədim ərəb məhəbbət əfsanəsi əsasında yazdığı "Leyli və Məcnun" poemasının da əsas ideyasını saf məhəbbət təşkil edir. Şair bu əsəri Şirvanşah Axsitanın sifarişi, oğlu Məhəmmədin xahişi ilə qələmə almışdır. Nizami bu poemada şəxsiyyət azadlığı məsələsini qoyaraq, fərdlə cəmiyyət, valideynlə övlad, insanla təbiət arasında olan problemlərə diqqəti çəkmişdir. Əsərin baş qəhrəmanı olan Qeys nağıllarda olduğu kimi, çoxlu nəzir-niyazdan sonra dünyaya gəlmişdir. O, varlı bir qəbilə başçısının oğludur, öz ağlı və gözəlliyi ilə tay-tuşlarından seçilir. Ancaq bu seçilmə hələ ziddiyyət dərəcəsinə çatmamışdır. Yalnız məktəbdə Leyliyə vurulduqdan sonra bu seçilmə ziddiyyət dərəcəsinə çatır və onun cəmiyyətdə hökm sürən adətlərə boyun əymək istəmədiyi aydın olur. Artıq bir şəxsiyyət kimi formalaşan Qeys cəmiyyətdəki şərtiliklərə əməl etmək istəmir, Leyliyə qarşı olan məhəbbətini açıq-aşkar ifadə edir. Yaşadığı cəmiyyət şəxsiyyətin bu azadlığını qəbul etmədiyindən, onu "Məcnun" (dəli) adlandırır. Deməli, Məcnunun dəliliyi ruhi xəstəlik deyil; hamı kimi düşünmədiyinə görə onu dəli hesab edirlər. Məcnun da onun şəxsiyyət azadlığını qəbul etmək istəməyən cəmiyyətə etiraz əlaməti olaraq insanlardan uzaqlaşır, çöllərə düşür, riyakarlıq və ikiüzlülüyün nə olduğunu bilməyən təbiətin qoynuna sığınır. O, azadlığı cəmiyyətdə deyil, təbiətdə tapır.

Leyli və Məcnunun görüş səhnəsi (Nizami Gəncəvinin "Leyli və Məcnun" əsərindən)

(rəssamı: Mikayıl Abdullayev)

Əsərin ikinci qəhrəmanı olan Leyli də Məcnun kimi azad düşüncə tərəfdarıdır. O da Məcnunu ürəkdən sevir. Lakin Məcnundan fərqli olaraq, Leyli öz duyğularını ifadə etməkdə sərbəst deyil. O, zorla İbn Səlama ərə verilərkən ata-anasına etiraz edə bilməsə də, sevmədiyi bir adamın ona yaxınlaşmasına mane olmağa özündə güc tapır. Leylinin İbn Səlama vurduğu şillə orta əsrlərdə qadını alçaldan, onu aşağılayan bir cəmiyyətin üzünə vurulan şillə kimi səslənir. Nizami əvvəlki poemalarında qoyduğu qadın azadlığı problemini bu əsərində də Leylinin simasında davam və inkişaf etdirmişdir. Poemada Leyli kimi, digər qadın obrazlarının təsvirində də Nizami öz türklüyünü büruzə verir və onları ərəb geyimli türk adlandırır.

Poema, əfsanənin özündə olduğu kimi, faciə ilə nəticələnir; sevgililər bir-birinə qovuşmadan ölürlər. Bu ölüm insanların ürəyində mərhəmət, vaxtı keçmiş adətlərə, şəxsiyyət azadlığını boğan cəmiyyətə qarşı nifrət hissi oyadır. Bu ölüm məğlubiyyət deyil, iki sevən gəncin mənən, ruhən qələbəsidir.

Farsca yazılan bu əsər Səməd Vurğun tərəfindən ana dilimizə tərcümə edilmişdir.



Məcnun Leylinin qəbri üstündə

(Nizami Gəncəvinin "Leyli və Məcnun" əsərindən)

(rəssamı: Mikayıl Abdullayev)

"Yeddi gözəl" (1197). Nizami "Xosrov və Şirin" poeması kimi, "Yeddi gözəl" əsərinin mövzusunu da Firdovsinin "Şahnamə" əsərindən götürmüşdür. Poemanın baş qəhrəmanı V yüzillikdə hökmdarlıq etmiş Sasani şahı Bəhram Gurdur. Firdovsidən fərqli olaraq, Nizami tarixi bir obraz yaratmaq istəmirdi. Şairin məqsədi bədii sözün qüdrəti ilə zəmanə hökmdarlarını ölkəni ədalətlə idarə etməyə, xalqla ədalətli rəftara çağırmaq idi. Bu baxımdan Nizami keçmiş şahların ədalətini təsvir etməklə zəmanə hökmdarlarını onların idarəetmə üsullarından istifadə etməyə, onların diqqətini bu sahəyə yönəltməyə çalışırdı. Keçmişdə baş vermiş hər hansı bir yaxşı hərəkəti tərifləyən şair, eyni zamanda, onu daha qabarıq göstərmək üçün elə həmin dövrdə baş vermiş pis bir hərəkətlə müqayisə edir, bununla da zəmanə hökmdarlarına çatdırmaq istədiyi fikrin təsir qüvvəsini daha da artırırdı. Nizami bu məqsədlə "Yeddi gözəl" poemasının başlanğıcında təzad yaradaraq Bəhram Gurun ədalətini təsvir etməzdən öncə, onun atası Yəzdigirdin zülmünü və zorakılığını göstərir. Beləliklə, şair Bəhram Gurun ədalətini Yəzdigirdin zülmü fonunda daha parlaq göstərməyə nail olmuşdur. Poemanın süjeti iki hissəyə bölünür. Birinci hissədə Bəhram Gurun həyat və fəaliyyəti, ikinci hissədə isə onun yeddi sarayda yeddi ölkədən gətirilmiş şahzadə qızların nağıllarına qulaq asması təsvir edilir. Əgər şair birinci hissədə əsas etibarilə ədalətli hökmdar problemi qoyursa, ikinci hissədə isə, "Sirlər xəzinəsi" poemasında olduğu kimi, müxtəlif hekayətlərin köməyi ilə ayrı-ayrı

problemlərə bədii-fəlsəfi münasibət bildirir. Lakin "Sirlər xəzinəsi"ndən fərqli olaraq, bu poemadakı mənzum hekayələr əsərin ümumi məzmunu və süjet xətti ilə bağlıdır.

Bəhramın hünəri (Nizami Gəncəvinin "Yeddi gözəl" əsərindən)

(rəssamı: Mikayıl Abdullayev)

Bəhram və Əjdaha (Nizami Gəncəvinin "Yeddi gözəl" əsərindən)

(rəssamı: Mikayıl Abdullayev)

Nizami poemanın birinci hissəsində olduğu kimi, ikinci hissəsində də ictimai problemləri, insan talelərini diqqət mərkəzinə çəkərək maraqlı bir təzad yaratmışdır. Şair yeddi şahzadə qızın şirin nağılları ilə yeddi dustağın (məzlumun) sərt həyat həqiqətini əks etdirən hekayələrini qarşılaşdıraraq günlərini kef məclislərində keçirib rəiyyətin dərdlərindən xəbərdar olmayan hökmdarları tənqid etmişdir.

"Xosrov və Şirin"də olduğu kimi, bu poemada da öz ağlı, hazırcavablığı, cəsurluğu ilə seçilən türk qızı – şahın kənizi Fitnə Sasani hökmdarı Bəhram Gura "dərs" verir, onun bir insan kimi kamilləşməsinə nail olur. O, şaha sübut edir ki, insan məşq və vərdişlə hər şeyə qadir ola bilər. Sonda Bəhram Gurun öz səhvini etiraf etməsi, ondan üzr istəməsi və Fitnə ilə qanuni nikaha girməsi türk qızının mənəvi-əxlaqi qələbəsi kimi səslənir.

Fitnə

(Nizami Gəncəvinin "Yeddi gözəl" əsərindən)

(rəssamı: Mikayıl Abdullayev)

Nizami "Yeddi gözəl" poemasında, Fitnə ilə yanaşı, bir sıra başqa qadın obrazları da yaratmışdır. "Xeyir və Şər" hekayəsində Xeyiri ölümdən xilas edən kürd qızı, öz ağlı və biliyi ilə bir çox kişilərdən üstün olan Səqlab şahzadəsi belə obrazlardandır.

Nizaminin bu poemasının Azərbaycan dilinə iki bədii tərcüməsi vardır. Onlardan birincisi Məmməd Rahim, digəri isə Balaş Azəroğlu tərəfindən

edilmişdir. Mir Cəlal əsərin azərbaycanca nəsr variantını da hazırlayıb çap etdirmişdir. Dahi bəstəkarımız Qara Qarayev məşhur "Yeddi gözəl" baletini Nizaminin bu əsəri əsasında bəstələmişdir. Abdulla Şaiq bu poemanın motivləri əsasında "Fitnə" pyesini, Mir Cəlal isə "Xeyir və Şər" və "Fitnə" hekayələrini yazmışlar.

"İsgəndərnamə" poeması

"İsgəndərnamə" poeması Nizaminin otuz illik elmi və bədii yaradıcılıq axtarışlarının məntiqi yekunu kimi diqqəti cəlb edir. Şair bu əsəri 1203-cü ildə tamamlamışdır. "İsgəndərnamə" poeması iki hissədən – "Şərəfnamə" və "İqbalnamə"dən ibarət olub, "Xəmsə"nin son həlqəsini təşkil edir. "Şərəfnamə"də İsgəndərin hökmdarlığı və sərkərdəliyi, "İqbalnamə"də isə onun alimlik və peyğəmbərliyə çatması öz əksini tapmışdır. Nizami müxtəlif tarixi qaynaqlardan, fəlsəfi, elmi və bədii mənbələrdən topladığı materialları böyük bir sənətkarlıqla birləşdirərək, öz poetik qayəsinə cavab verəcək bir əsər yaratmışdı. Əvvəlki poemalarında olduğu kimi, bu əsərində də Nizami tarixi materiala yalnız zahiri qabıq kimi yanaşmış, onun köməyi ilə özünü düşündürən problemləri həll etməyə, insanlara doğru yolu göstərməyə çalışmışdır. Şair bu məqsədini açıqlayaraq poemanın əvvəlində yazırdı:

Hansı bir pərdədə doğru söz gördüm,
O sözün telini şeirimlə hördüm.
Şeirimdən atsaydım bəzəkli donu,
Azacıq zəhmətlə yazsaydım onu,
Bu böyük fatehin sərgüzəştindən
Bir vərəq yazmaqla bitirərdim mən.

Poemada qoyulmuş əbədi-bəşəri problemlər, yaradılmış monumental obrazlar, bu əsərin əbədi yaşayacağına və baş qəhrəmanın amal və arzularının da onu əbədi yaşadacağına zəmanət vermiş olur.

Poemanın quruluşu. Əsərin hər iki hissəsi ənənəvi girişlə başlayır. "Şərəfnamə"də süjet xətti daha bitkin xarakterə malikdir; vahid məqsəd ətrafında – İsgəndərin zülm və zorakılığa məruz qalan xalqları xilas etmək missiyası ətrafında birləşir. İkinci hissə olan "İqbalnamə" isə daha mozaik səciyyə daşıyır. Poemada əsas hadisələr İsgəndərin ətrafında cərəyan edir. Birinci hissədə əsas hadisələr İsgəndərin doğulması və təlim almasının təsviri ilə başlayıb, onun fatehlik yürüşlərini əks etdirir.

İsgəndərin ov səhnəsi

Nizami Gəncəvinin "İsgəndərnamə" əsərinə çəkilmiş miniatür

İkinci hissə olan "İqbalnamə" ("Tale kitabı") bəzən "Xirədnamə" ("Ağıl kitabı") da adlandırılır. Burada əvvəlcə İsgəndər haqqında müxtəlif rəvayətlər: onun dəllək və çobanla əhvalatı, eləcə də İsgəndərin ətrafında olan alimlərin başına gələn macəralar təsvir edilir. Görkəmli alim və filosoflarla bir müddət Rumda qalan İsgəndərə peyğəmbərlik verildikdən sonra o, son səfərinə çıxır və təktanrıçılığın əsaslarını dünya xalqları arasında yaymağa başlayır. Əsərin sonunda baş qəhrəmanın ölümü təsvir edilir.

İsgəndər və çoban

(Nizami Gəncəvinin "İsgəndərnamə" əsərindən)

(rəssamı: Mikayıl Abdullayev)

"Şərəfnamə"nin qısa məzmunu

"Şərəfnamə"də Makedoniyalı İsgəndərin anadan olması, təlim-tərbiyə alması, taxta çıxması, müxtəlif ölkələrə hərbi səfərləri təsvir edilir.

Makedoniya hökmdarı Feyləqusun (Filippin) oğlu olur. Uşağa İsgəndər adı verirlər. Padşah yeganə oğlunun təlim-tərbiyəsini alimlərə tapşırır. Məşhur alim Niqumaş, oğlu Ərəstu ilə birlikdə uşağın təlim-tərbiyəsi ilə məşğul olur, ona elm, bilik, mərifət öyrədir. Feyləqusun ölümündən sonra İsgəndər atasının yerinə taxta çıxır. Həmin dövrdə yunanlar İran padşahı II Daraya tabe olub ona vergi ödəyirdilər. İsgəndər də əvvəlcə bu qaydaya riayət edir. İsgəndərə xəbər çatır ki, Zəngibar şahı zəncilərdən ibarət böyük ordu toplayıb Misirə hücum etmək, oranı soyub-talamaq istəyir. İsgəndər misirlilərə kömək etmək üçün öz qoşunu ilə Misirə gedir. Nil çayı sahilində hər iki qoşun qarşılaşır. İsgəndər qan tökməmək, barışıq yaratmaq üçün öz elçisi Tutyanuşu Zəngibar şahının yanına göndərir. Zəngibar şahı İsgəndərin elçisini öldürür, qanını teştə tökərək içir. Bu xəbəri eşidən İsgəndər döyüşə başlayır, Zəngibar şahını məğlub edir.

Misir təhlükədən xilas olur. İsgəndər ölkədə əmin-amanlıq yaradır. İsgəndəriyyə adlı yeni şəhər tikdirir və zəncilərdən ələ keçirdiyi xeyli qənimətlə Ruma qayıdır.

İlk müharibəni qələbə ilə başa vuran İsgəndər ələ keçirdiyi qızıl, gümüş və pulun bir hissəsini Daraya hədiyyə göndərir. Sonra İsgəndər öz ölkəsində abadlıq işləri görür, xalqın qayğısına qalır, dövlət işləri ilə məşğul olur.

İran padşahı II Dara İsgəndərin zəncilər üzərində qələbə çalması xəbərini eşidəndə təşvişə düşür. O, İsgəndərin gələcəkdə onun üçün təhlükə yaradacağını düşünür. İsgəndərdən şübhələnən Dara yeni, daha ağır vergilər istəyir, onu müharibə ilə hədələyir, itaət etməsini tələb edir.

İsgəndər bu haqsız tələbləri qəbul etmir. O, II Daranın elçisinə rədd cavabı verir, müharibə üçün hazırlıq görməyə başlayır. Daranın 900 minlik qoşunu ilə İsgəndərin 600 minlik qoşunu döyüş meydanında qarşılaşır.

Qanlı döyüş zamanı İsgəndərin qoşunu düşmənə üstün gəlir. Bunu görən Daranın yaxın adamlarından iki nəfər ona xəyanət edir. Onlar Daranı öldürür, İsgəndərin yanına qaçırlar. İsgəndər onların öz hökmdarlarını xainliklə öldürdüklərini bildikdə hər ikisinin qətlinə əmr verir. Daranın məğlubiyyətindən sonra İsgəndər İran səltənətinə sahib olur. O, Daranın qızı Rövşənəklə evlənir. Rövşənəyi Ruma göndərən İsgəndər Ərəbistana gedib Kəbəni ziyarət edir.

Bir çox ölkələrdən keçən İsgəndər Azərbaycana gəlir. O, Bərdənin ədalətli, ağıllı hökmdarı Nüşabə haqqında eşidir, onu yaxından tanımaq istəyir. Nüşabə öz ölkəsini İsgəndərin hücumundan qorumaq üçün əvvəlcədən tədbirlər görür. O, elçi sifətində yanına gələn İsgəndəri tanıyır, özünün mərd, igid qadın olduğunu göstərir. Padşahın şərəfinə ziyafət düzəltdirir. Ziyafətdə İsgəndərin qarşısına yemək əvəzinə, daş-qaş qoyduran Nüşabə ona deyir: "Madam ki daş-qaşı yemək mümkün deyil, bu faydasız şeylər üçün qan tökmək nəyə gərəkdir?"

Nüşabə və İsgəndər
(Nizami Gəncəvinin "İsgəndərnamə" əsərindən)
(rəssamı: Mikayıl Abdullayev)

Bu ibrətamiz səhnə ilə Nüşabə İsgəndəri nahaq qan tökməkdən, başqa ölkələrə hücum etməkdən çəkindirmək istəyir.

Nüşabənin ağlına, müdrikliyinə heyran olan İsgəndər onunla əhd-peyman bağlayır, çətinliyə düşərsə, kömək etməyə hazır olduğunu bildirir və Bərdəyə ziyan vurmadan oradan uzaqlaşır.

İsgəndər şimala üz tutur, Dərbənd qalasını ələ keçirir. Sonra o, Elbrus dağına tərəf hərəkət edir. Səyir qalasına gedən İsgəndər Keyxosrovun qəbrini ziyarət edir.

İsgəndər Rey və Xorasandan sonra Hindistana gəlir. Burada əmin-amanlıq yaradıb Çinə gedir. O, Çin xaqanını tabe olmağa çağırır, ondan yeddi illik vergi tələb edir. Xaqan bu tələblərə razılaşmır, müharibəyə hazırlaşır. Alim libasında İsgəndərin yanına gələn xaqan onun qüvvəsini, bacarığını öyrənmək istəyir. İsgəndərin igid, qorxmaz sərkərdə olduğunu görən xaqan müharibə fikrindən çəkinir. Xaqan İsgəndərin şərəfinə ziyafət düzəldir. Bu məclisdə Çin və Rum nəqqaşları yarışır. Xaqan İsgəndərə qiymətli hədiyyələr, gözəl, qeyri-adi istedada malik kəniz bağışlayır.

Çindən geri dönərkən İsgəndər rus sərkərdəsi Kıntalın Bərdəyə hücum etdiyini, şəhəri dağıtdığını, Nüşabəni əsir aldığını eşidir. O, Kıntalın

üstünə qoşun çəkir. Şiddətli döyüş zamanı Kıntal məğlub olur, Nüşabə əsirlikdən qurtarır.

Əsərin sonunda İsgəndər dirilik suyu tapmaq üçün Zülmətə səfər edir. Burada o, çox əziyyətlərlə qarşılaşır, əliboş halda vətəni Ruma qayıdır.

"İqbalnamə"nin qısa məzmunu

İsgəndər bir çox ölkələri fəth etdikdən sonra Yunanıstana qayıdır. Elm və hikmət öyrənməklə məşğul olur. O, başqa dillərdə olan bir çox qiymətli kitabların yunan dilinə tərcümə edilməsi barədə əmr verir. İsgəndər dünyanın ən bilikli alimlərini saraya dəvət edir. Onlara qayğı göstərir ki, elm və fəlsəfə ilə dərindən məşğul olsunlar.

"İqbalnamə"nin "İsgəndərin yeddi alimlə xəlvətə çəkilməsi" hissəsində İsgəndər Ərəstunun, Sokratın, Əflatunun, Falisin, Belinasın, Fərfüryusun, Hörmüzün kainatın yaranması haqqındakı fikirlərinə diqqətlə qulaq asır və filosoflarla mübahisə edir.



İsgəndər və yeddi alim

(Nizami Gəncəvinin " İsgəndərnamə" əsərindən)

(rəssamı: Mikayıl Abdullayev)

İsgəndər dünyada insanların xeyirxahlıq və ədaləti dərk etmələri üçün səyahətə çıxır, hər yerdə yaxşılıq edir. O, İranı, Rumu, Hindistanı, Çini, Yaxın və Orta Asiya ölkələrini gəzir. Hər yerdə onu hörmətlə qarşılayır,

ayaqları altına qiymətli daş-qaş tökürlər. İsgəndər gəzdiyi ölkələrdə xaraba, dağılmış yer görürsə, onları təmir etdirir, yoxsul və aciz insanlara əl tutur. O, Şərq ölkələrini gəzib dolaşdıqdan sonra bir ay yol gedib Şimal torpağına çatır. Bu yerdə peyğəmbərə inanmayan tayfa yaşayır, lakin onlar İsgəndərin peyğəmbərliyini qəbul edib, ona öz dərdlərini deyirlər.

Uzun illərdən bəri həmin tayfaya yəcuclar adlanan başqa bir tayfa əziyyət verir, onların yaşadıqları yerə hücum edərək, var-yoxlarını talayıb aparır. İsgəndər bu tayfanı yəcucların əlindən xilas etmək üçün poladdan bir sədd çəkdirir. Bundan sonra həmin tayfa bir daha hücuma məruz qalmır.

İsgəndər bu yerdə bir qədər qaldıqdan sonra köçmək əmrini verir. Qoşun bir ay dağları, dərələri aşıb gözəl bir yerə gəlib çıxır. Onlar burada özlərinə məskən salırlar. Bu, İsgəndərin illər boyu arzuladığı səfalı, bərəkətli, gözəl bir diyar – Xoşbəxtlər ölkəsi idi. Buranın əhalisi əyrilik, haqsızlıq nə olduğunu bilməz, yalan danışmaz, acizlərə, əlsiz-ayaqsızlara kömək edər. Bu ölkədə hamının varı bərabərdir. Bütün sərvət əhali arasında bərabər bölünür. Şəhər əhalisi fitnə-fəsadın nə olduğunu bilmir. Birinin dərdi, qəmi varsa, hamı ona şərik olur. Şadlıqda hamı iştirak edir. Bu ölkədə bir nəfər də yaramaz adam tapılmaz, insanların hamısı safürəkli və təmizdir. Burada sağlamlığa böyük diqqət yetirilir, ölənlər yalnız çox yaşamış qocalardır. Ölən adama yas tutulmaz, çünki onlar bilirlər ki, yas tutmaq ölümə çarə deyildir. Şəhərin əhalisi kimsənin arxasınca danışmaz, lazım olan sözü açıq-aşkar deyər. Hamı birlikdə əkir, birlikdə yeyir. Bu ölkədə kin və ədavətdən əsər yoxdur. Şikəstlərə, acizlərə gülməzlər, onlara elliklə kömək edərlər. Şəhərin bu qanun-qaydasını pozan olarsa, onu öz aralarından qovarlar. Ölkə səadət və sevinclə qaynayır, burada əməyi sevməyən yoxdur. Şəhərin adamları qonaqsevərdirlər.

İsgəndər bu şəhərə daxil olanda şəhər sakinləri onu gülərüzlə qarşılayıb, şərəfinə ziyafət verirlər. İsgəndər gördüklərinə heyrət edir və bu nəcib insanlara həsəd aparır. Bu yerin camaatını Allah özü qoruyur, yaradanın nəzəri həmişə onların üstündədir.

İsgəndər öz fatehliyindən, dünyanı tutmaq niyyətindən peşman olur. Öz-özünə deyir ki, əvvəldən belə bir yerin olduğunu bilsəydim, bu səfalı diyara gələrdim, burada yaşayan insanların dinini qəbul edər və ömrümün sonunadək bunların içərisində qalardım.

Lakin İsgəndər bu ölkədə çox qalmır. Yunanıstana doğru hərəkət edir. O, Zur şəhərinə gəlib çatanda xəstələnir. Nə qədər bilikli və təcrübəli həkimlər varsa, hamısı onun ətrafına yığışır. Lakin xəstəliyini sağaldan olmur və İsgəndər həmin şəhərdə vəfat edir. Onu tabuta qoyub Misirə gətirir və İsgəndəriyyədə dəfn edirlər.

İsgəndər surəti. İsgəndər Nizaminin sevə-sevə qələmə aldığı ideal qəhrəmandır. Lakin Nizami bu qəhrəmanını tam ideallaşdırmır, o, bəzən yanıla bilən, bəzən bilmədən ədalətsizlik edən canlı bir insandır. Bunun nəticəsidir ki, bəzən İsgəndərin qadına yuxarıdan aşağı baxmasının, bəzən öz gücünə həddən artıq arxayın olub təhlükəli vəziyyətə düşərkən qorxmasının, bəzən insanlar içərisində ən böyük önəm verdiyi bir alim-filosofu təpikləyib yuxudan oyatmasının da şahidi oluruq. Ancaq bütövlükdə İsgəndər ümumbəşəri ədalət, xeyir, əmin-amanlıq, düzlük və rifah uğrunda mübarizə aparan bir obraz, böyük şəxsiyyətdir.

İsgəndəri yalnız öz xalqının xoşbəxtliyi düşündürmür. Dünyadakı əzilən insanlara, zülm görmüş xalqlara himayədarlıq edən bu hökmdar ümumbəşəri xeyir mücəssəməsi kimi canlanır.

Nizami öz qəhrəmanını poemanın ikinci hissəsində daha çox elmi problemlərlə məşğul olan, alim və filosofların əhatəsində, onların nəsihətamiz fikirlərinə qulaq asan bir alim –filosof kimi təsvir edir. Hərbi səfərlərdən Ruma qayıdan İsgəndər bir müddət maarifçi hökmdar kimi alimlərin əhatəsində yaşayıb fəaliyyət göstərir, müxtəlif elmi məclislərdə kainat, yaradılış, təbiət hadisələri barədə elmi dialoqlar aparır. Bu hissədə oxucuya Nizaminin antik fəlsəfə, qədim hind fəlsəfəsi və Yaxın Şərqin başqa fəlsəfi məktəbləri ilə tanışlığı məlum olur. Şair bir çox hallarda İsgəndərin dili ilə müxtəlif fəlsəfi görüşlərə öz münasibətini bildirir. Əsərin ən mühüm epizodlarından birini İsgəndərin xahişi ilə alimlərin ona nəsihətnamə yazmaları təşkil edir. Nizami bundan bədii vasitə kimi istifadə edir, ölkəni və əhalini idarə etmək, qorumaq, xalqın asayişini və rifahını təmin etmək barədəki qabaqcıl humanist fikirlərini öz çağının hökmdarlarına çatdırmış olur.

Poemanın sonunda İsgəndərin peyğəmbərliyə çatması və müxtəlif xalqları doğru yola dəvət etmək üçün səfərə çıxması təsvir olunur. Maraqlıdır ki, İsgəndər peyğəmbərliyə çatdıqdan sonra islam dininin

prinsiplərinə uyğun olaraq bir təktanrıçı kimi çıxış edir və əslində islam şəriətini dünya xalqları arasında təbliğ etməklə məşğul olur. Bu artıq tarixdəkindən tam fərqli İsgəndərdir. Hərbi yürüşlərdə olduğu kimi, peyğəmbərlik səfərində də İsgəndər şərə qarşı mübarizədə inandırma, təbliğatla yanaşı, fiziki qüvvədən də istifadə edir. İsgəndər bir əlində kitab, bir əlində qılınc tutması ilə də islam peyğəmbərini çox xatırladır. Nizaminin öz bədii təxəyyülünün məhsulu olan bu epizodlar şairin dünya xalqlarının birliyi və anlaşması barədə arzu və amallarının nəticəsi idi.

Poemanın sonunda Nizami öz qəhrəmanını Xoşbəxtlər ölkəsinə gətirməklə fatehlik və dünyanı tutmaq kimi işlərin mənasız olduğunu göstərməyə nail olur. İsgəndər bu ölkə ilə tanışlıqdan sonra özünün fatehliyindən və dünyanı tutmaq niyyətindən peşman olur. Nizaminin təsvir etdiyi bu Xoşbəxtlər ölkəsi əslində sidq-ürəklə Tanrıya tapınan və buna görə də Tanrı tərəfindən qorunan bir möminlər ölkəsidir. Həmin ölkənin ağsaqqalları öz xoşbəxtliklərinin sirrini belə izah edirlər:

Bizim uşaqları böyüdər Allah,
Naxıra şir, pələng toxunmaz əsla.
Bizim bir qoyuna dəysə canavar,
Ordaca gəbərib yerində qalar.
Kim dərsə bir sünbül bizim əkindən,
Qəfil bir ox dəyər düz ürəyindən.
Bizi hifz eyləyən Allahdır, Allah,
Biz yalnız Allaha gətirrik pənah.

Nüşabə surəti. Nizaminin sevə-sevə yaratdığı ideal qadın obrazlarından biri "İsgəndərnamə"nin birinci hissəsi "Şərəfnamə"dəki Bərdə hökmdarı Nüşabədir. Poemada Nüşabə ilə bağlı Bərdənin bənzərsiz tərifini verən Nizami şəhərin öz dövründəki vəziyyətinə acımış, X yüzillikdə rusların gəmilərlə Azərbaycana gəlməsi, Kür çayı boyunca yuxarı qalxaraq ölkəni viran qoya-qoya Bərdəyə çatması (Nizami əslində daha sonra, 944-cü ildə baş vermiş bu tarixi əhvalatı qəsdən İsgəndər dövrünə aparmışdır) və bu qədim şəhəri xarabalığa çevirməsini də ürək ağrısı ilə xatırlamışdır.

Nüşabəni ağıllı və ədalətli bir hökmdar obrazı kimi yaradan Nizami onun zahiri gözəlliyini də böyük ilhamla təsvir edir:

Erkəksiz yaşayan bu dişi ceyran
Gözəldi, göyçəkdi erkək tovuzdan.
Xoşsöhbət, urəyi saf, mətanətli,
Bir pəri əndamlı, xoş təbiətli.

Ölkəsi bolluq və nemət içərisində yaşayan Nüşabə həm də insan sərrafıdır. O, özünü elçi kimi təqdim edən İsgəndərin içəri daxil olarkən baş əyməməsini və digər məğrur hərəkətlərini görüncə onun hökmdar olduğunu anlayır və lazımi hörmət, ehtiram göstərir. Ancaq öz şərəf və ləyaqətini də İsgəndər qarşısında nümayiş etdirməkdən çəkinmir:

Erkək tinətliyəm, olsam da qadın,
Hər işi bəllidir mənə dünyanın.
Mən də bir aslanam, düşünsən bir az,
Aslanın erkəyi, dişisi olmaz.

Zəncilər və Dara üzərində parlaq qələbələrinin məğrurluğu başından getməmiş İsgəndəri Nizami bir növ tarixi həqiqəti pozaraq Bərdəyə gətirməklə onu müdrik və məğrur türk qızı Nüşabə ilə qarşılaşdırır. Bu qarşılaşdırmada Nüşabə ona dərs verir, qadın olmasına baxmayaraq, ağıl və müdriklikdə, qoçaqlıqda kişilərdən geri qalmadığını sübut edir. Bu ağıllı hökmdar İsgəndərin şərəfinə təşkil etdiyi ziyafətdə onun qarşısına yemək əvəzinə, daş-qaş qoymaqla onu nahaq qan tökməkdən, ölkələr fəth etməkdən çəkindirir.

Nüşabə gülərək söylədi şaha:
"Daşın ki boğaza yolu yox daha,
Faydasız, yaramaz belə daş üçün
Bu qədər vuruşmaq, çarpışmaq neçin?
İndi ki yeməyə yaramaz bu daş,
Onunla dünyada ucalarmı baş?.."

Başqa poemalarında olduğu kimi, "İsgəndərnamə" poemasında da şair öz xalqına və millətinə olan böyük məhəbbətini gizlədə bilməmişdir.

Nizami İsgəndər kimi bir dünya fatehinə ağıl öyrətmək missiyasını bir türk qızının – Nüşabənin üzərinə qoymaqla, burada yaşayan insanların hər cəhətdən böyük fəzilətlərə sahib olduğunu göstərmişdir.

Poemada türk qadınının gözəllik və sərbəstliyinin başqa bir təsvirinə İsgəndərin Qıpçaq çölünə səfəri zamanı rast gəlirik. Qadınların üzü örtülü gəzməsinin daha məqsədəuyğun olduğunu Qıpçaq ağsaqqallarına məsləhət görən İsgəndərə: "Əgər qadına baxmaq günahdırsa, sən gözlərini ört, qadını yox!" - deyə çox müdrik bir cavab verirlər.

İsgəndərin ruslarla müharibəsində də əsas həlledici zərbənin onun müttəfiqi olan türklər tərəfindən vurulması Nizaminin öz xalqına necə böyük məhəbbət bəslədiyini bir daha təsdiqləyir. Türklərə arxayın olduğunu ifadə edən İsgəndər deyir:

Xəzər dağlarından Çin dənizinə
Türklərlə doludur bu yerlər yenə.
Qohum olmasa da rumlara bu türk,
Ruslara kinləri rumdan da böyük.
Türklərin oxuyla yenə bu zaman
Qabar əskik olmaz rus ayağından.

Ümumiyyətlə, başqa xalqlara pis münasibət bəsləməyən Nizaminin poemada ruslara qarşı bu antipatiyasının səbəbi, heç şübhəsiz, öncə qeyd edildiyi kimi, rusların X əsrdə (944-cü ildə) Azərbaycanın bir sıra şəhərlərini, o cümlədən Bərdəni xarabalığa çevirməsi ilə bağlı idi.

"İsgəndərnamə" poemasının "Şərəfnamə" hissəsi Abdulla Şaiq, "İqbalnamə" hissəsi isə Mikayıl Rzaquluzadə tərəfindən Azərbaycan dilinə tərcümə edilmişdir. Abdulla Şaiq bu əsərin motivləri əsasında "Nüşabə" pyesini yazmışdır.

Nizami öz yaradıcılığı ilə təkcə Azərbaycanda deyil, Yaxın və Orta Şərqdə yeni bir ədəbi məktəbin əsasını qoydu, onun mövzu və süjetləri əsasında yeni-yeni "Xəmsə"lər yarandı. Onun ədəbi irsi elə bəşəri problemlərlə zəngindir ki, bu cəhətdən həmişə nümunə, örnək olaraq qalacaq.

A varianti

1. Nizaminin hansı poemasında məhəbbət və dövləti idarə etmə problemləri yanaşı qoyulub həll edilir?
   A) "Leyli və Məcnun" B) "Yeddi gözəl"
   C) "Xosrov və Şirin" D) "İsgəndərnamə"
   E) "Sirlər xəzinəsi"

2. Nizaminin lirik şeirlər divanından bizə gəlib çatan nümunələr hansı janrdadır?
   1. qəsidə 2. qitə 3. qəzəl
   4. rübai 5. tuyuq 6. müxəmməs
   A) 1, 3, 4 B) 3, 5, 6 C) 1, 2, 3 D) 4, 5, 6 E) 2, 4, 5

3. Nizaminin iki hissədən ibarət poeması:
   A) "Yeddi gözəl" B) "Sirlər xəzinəsi" C) "Leyli və Məcnun"
   D) "Xosrov və Şirin" E) "İsgəndərnamə"

4. "İsgəndərnamə" poemasındakı Nüşabə surəti ilə bağlı ***səhv*** fikri göstərin.
   A) Bərdə hökmdarıdır.
   B) Ağıl və müdriklikdə, qoçaqlıqda kişilərdən geri qalmır.
   C) Nizaminin yaratdığı ilk ideal qadın obrazıdır.
   D) Ruslar tərəfindən əsir götürülür və İsgəndər tərəfindən xilas edilir.
   E) İsgəndər kimi bir dünya fatehinə ağıl öyrədərək, ona dərs verir.

5. Fitnə surəti Nizaminin hansı poemasındadır?
   A) "Xosrov və Şirin"
   B) "Leyli və Məcnun"
   C) "Sirlər xəzinəsi"
   D) "Yeddi gözəl"
   E) "İsgəndərnamə"

6. Nizami hansı poemasını oğlu Məhəmməd vasitəsilə Şamaxıya – Şirvan şahlarının sarayına göndərmişdir?
   A) "Sirlər xəzinəsi"
   B) "Leyli və Məcnun"
   C) "Yeddi gözəl"
   D) "İsgəndərnamə"
   E) "Xosrov və Şirin"

7. Nizami hansı poemasını Marağa hakimi Əlaəddin Körpə Arslana göndərmişdir?
   A) "İsgəndərnamə"
   B) "Leyli və Məcnun"
   C) "Xosrov və Şirin"
   D) "Sirlər xəzinəsi"
   E) "Yeddi gözəl"

8. Nizaminin "İsgəndərnamə" əsərindəki əsas hadisələr necə başlayır?
   A) Allahın və Peyğəmbərin tərifi ilə
   B) İsgəndərin doğulmasının təsviri ilə
   C) İsgəndərin atası Feyləqusun ölümünün təsviri ilə
   D) İsgəndərin taxta çıxmasının təsviri ilə
   E) "Kitabın yazılma səbəbi" ilə

9. Nizami hansı poemasında həyat yoldaşı Afaqı xatırlamış və onun ölümünə təəssüflənmişdir?
   A) "Sirlər xəzinəsi"
   B) "Xosrov və Şirin"
   C) "Yeddi gözəl" və "Leyli və Məcnun"
   D) "Leyli və Məcnun"
   E) "Sirlər xəzinəsi" və "İsgəndərnamə"

10. Nizaminin hansı poemasında süjet xətti ilə bağlı nağıl-hekayələr də verilmişdir?
    A) "Sirlər xəzinəsi"
    B) "Yeddi gözəl"
    C) "Xosrov və Şirin"
    D) "Leyli və Məcnun"
    E) "İsgəndərnamə"

B varianti

1. Nizami hansı poemasında xəstə olduğunu, hər an ölümü gözlədiyini qeyd edir?
   A) "Sirlər xəzinəsi" B) "Yeddi gözəl"
   C) "Xosrov və Şirin" D) "İsgəndərnamə"
   E) "Leyli və Məcnun"

2. Nümunə Nizaminin hansı poemasındandır və nöqtələrin yerinə hansı söz qoyulmalıdır?
   Hansı bir pərdədə doğru söz gördüm,
   O sözün telini şeirimlə hördüm.
   Şeirimdən atsaydım bəzəkli donu,
   Azacıq zəhmətlə yazsaydım onu,
   Bu böyük ..... sərgüzəştindən
   Bir vərəq yazmaqla bitirərdim mən.
   A) "Xosrov və Şirin"; qadının B) "İsgəndərnamə"; fatehin
   C) "Leyli və Məcnun"; aşiqin D) "Yeddi gözəl"; Bəhramın
   E) "Sirlər xəzinəsi"; alimin

3. Nizami qəzəllərinin əsas mövzusu:
   A) fəlsəfi fikirlərin ifadəsi B) təbiət gözəlliklərinin tərənnümü
   C) eşqin tərənnümü D) hökmdarların mədh olunması
   E) qadın azadlığının təbliği

4. Nizaminin hansı poemasının baş qəhrəmanı V əsrdə hökmdarlıq etmiş Sasani şahıdır?
   A) "Xosrov və Şirin" B) "Leyli və Məcnun"
   C) "Yeddi gözəl" D) "İsgəndərnamə"
   E) "Sirlər xəzinəsi"

5. Nizaminin lirik şeirlər divanından ona aidliyi şübhə doğurmayan neçə poetik örnək günümüzədək gəlib çatmışdır?
   A) 6 qəsidə, 120 qəzəl, 30 rübai
   B) 5 qəsidə, 120 qəzəl
   C) 100 qəzəl, 5 qəsidə, 30 rübai
   D) 120 qəzəl, 20 rübai
   E) 3 qəsidə, 110 qəzəl, 10 rübai

6. Nizaminin lirikası ilə bağlı ***səhv*** fikri göstərin.
   A) Lirik şeirlərindən 6 qəsidə, 120 qəzəl, 30 rübai günümüzədək gəlib çatmışdır.
   B) "Leyli və Məcnun" poemasından şairin mükəmməl divan tərtib etdiyi məlum olur.
   C) "Xosrov və Şirin" poemasından məlum olur ki, Qızıl Arslanın düzəltdiyi məclisdə müğənnilər Nizaminin qəzəllərini oxuyurlar.
   D) Qəzəllərində dünyəvi və real eşqin tərənnümü əsas yer tutur.
   E) Yaradıcılığa lirik şeirlə başlasa da, poema yaradıcılığına keçəndən sonra daha lirik əsərlər yazmamışdır.

7. Nizaminin hansı poeması məhəbbətin ecazkar təsiri altında insanın mənəvi-əxlaqi təkamülündən bəhs edir?
   A) "İsgəndərnamə" B) "Yeddi gözəl"
   C) "Sirlər xəzinəsi" D) "Xosrov və Şirin"
   E) "Leyli və Məcnun"

8. Nizamiyə *Həmdünyan* adlı kənd bağışlayan hökmdar kim idi?
   A) Məhəmməd Cahan Pəhləvan B) Dərbənd hökmdarı
   C) Qızıl Arslan D) Şirvanşah Axsitan
   E) Marağa hakimi Əlaəddin Körpə Arslan

9. Nizaminin Şirvanşah Axsitanın sifarişi və oğlu Məhəmmədin xahişi ilə yazdığı poema:
   A) "Xosrov və Şirin" B) "Leyli və Məcnun"
   C) "Yeddi gözəl" D) "İsgəndərnamə"
   E) "Sirlər xəzinəsi"

10. Nümunə Nizaminin hansı poemasındandır?
   Xəzər dağlarından Çin dənizinə,
   Türklərlə doludur bu yerlər yenə.
   Qohum olmasa da rumlara bir türk,
   Ruslara kinləri rumdan da böyük.
   Türklərin oxuyla yenə bu zaman
   Qabar əskik olmaz rus ayağından.
   A) "Xosrov və Şirin" B) "Yeddi gözəl"
   C) "Leyli və Məcnun" D) "İsgəndərnamə"
   E) "Sirlər xəzinəsi"

C variantı

1. Nizami hansı əsərinin girişində əvvəlki poemalarının adını çəkir?
   A) "Xosrov və Şirin" B) "Leyli və Məcnun"
   C) "İsgəndərnamə" D) "Sirlər xəzinəsi"
   E) "Yeddi gözəl"

2. Nizaminin bu iki qadın obrazı Sasani hökmdarlarına "dərs" verir, onların bir insan kimi kamilləşməsinə təsir göstərir:
   1. Məhin Banu 2. Şirin 3. Nüşabə
   4. Fitnə 5. Səqlab şahzadəsi
   A) 1, 2 B) 2, 4 C) 3, 4 D) 3, 5 E) 1, 5

3. Nizaminin məhəbbət mövzusunda yazdığı ilk poema:
   A) "Leyli və Məcnun" B) "İsgəndərnamə"
   C) "Yeddi gözəl" D) "Sirlər xəzinəsi"
   E) "Xosrov və Şirin"

4. Verilən nümunə Nizaminin hansı əsərindəndir?
   Yorulmaq bilmədən gündüz və gecə
   "Məxzənül-əsrar"ı yazdım əvvəlcə.
   İncəlik, şirinlik yığaraq ondan,
   "Xosrov və Şirin"çin düzdüm bir dastan.
   Sonra başqa yerdə çadırı vurdum,
   "Leyli və Məcnun"un eşqini qurdum.
   Bitirdim dastanı, bir nəşə tapdım,
   Atımı "Həft peykər" üstünə çapdım...
   A) "Yeddi gözəl" B) "Xosrov və Şirin"
   C) "Leyli və Məcnun" D) "İsgəndərnamə"
   E) "Sirlər xəzinəsi"

5. *"Ədalətli Nuşirəvan və vəzirin hekayəsi"* Nizaminin hansı əsərindəndir?
   A) "Yeddi gözəl" B) "Sirlər xəzinəsi"
   C) "Leyli və Məcnun" D) "Xosrov və Şirin"
   E) "İsgəndərnamə"

6. Nizami öz poemalarını hansı illər arasında yazmışdır?
   A) 1174–1203 B) 1180–1203 C) 1174–1201
   D) 1188–1209 E) 1180–1201

7. Nizami hansı poemasında özü haqqında daha ətraflı məlumat verərək atası Yusif, dayısı Xacə Ömər və anasını itirdiyini dərin kədərlə bildirir?
   A) "Leyli və Məcnun"
   B) "Xosrov və Şirin"
   C) "Sirlər xəzinəsi"
   D) "Yeddi gözəl"
   E) "İsgəndərnamə"

8. *"Adəmin yaradılması haqqında"* adlı məqalət Nizaminin hansı poemasındadır?
   A) "Sirlər xəzinəsi"
   B) "Leyli və Məcnun"
   C) "Xosrov və Şirin"
   D) "Yeddi gözəl"
   E) "İsgəndərnamə"

9. Nizami hansı poemasında müğənnilərin onun qəzəllərini oxuduğunu göstərir?
   A) "Sirlər xəzinəsi"
   B) "Leyli və Məcnun"
   C) "Xosrov və Şirin"
   D) "Yeddi gözəl"
   E) "İsgəndərnamə"

10. "*Qarı və Sultan Səncər hekayəsi*" Nizaminin hansı əsərindədir?
   A) "Sirlər xəzinəsi"
   B) "Yeddi gözəl"
   C) "Xosrov və Şirin"
   D) "İsgəndərnamə"
   E) "Leyli və Məcnun"

D variantı

1. Nizaminin bizə gəlib çatmış lirik şeirlərində bu janrlardan hansına rast ***gəlmirik***:
   1. müxəmməs 2. qəzəl 3. rübai 4. qitə 5. qəsidə
   A) 1, 2, 5 B) 2, 3, 4 C) 1, 5 D) 1, 4 E) 2, 4, 5

2. Nümunə Nizaminin hansı poemasındandır?
   Bizim uşaqları böyüdər Allah,
   Naxıra şir, pələng toxunmaz əsla.
   Bizim bir qoyuna dəysə canavar,
   Ordaca gəbərib yerində qalar.
   Kim dərsə bir sünbül bizim əkindən,
   Qəfil bir ox dəyər düz ürəyindən...
   A) "Xosrov və Şirin" B) "Sirlər xəzinəsi"
   C) "İsgəndərnamə" D) "Yeddi gözəl"
   E) "Leyli və Məcnun"

3. Nizaminin hansı poemasından onun mükəmməl bir divan tərtib etdiyini öyrənirik?
   A) "Leyli və Məcnun"
   B) "Xosrov və Şirin"
   C) "Sirlər xəzinəsi"
   D) "Yeddi gözəl"
   E) "İsgəndərnamə"

4. "*Xeyir və Şər*" hekayəsi Nizaminin hansı poemasındandır?
   A) "İsgəndərnamə" B) "Xosrov və Şirin"
   C) "Yeddi gözəl" D) "Leyli və Məcnun"
   E) "Sirlər xəzinəsi"

5. Nizaminin vahid süjet xətti olmayan poeması:
   A) "Yeddi gözəl" B) "Xosrov və Şirin"
   C) "Leyli və Məcnun" D) "İsgəndərnamə"
   E) "Sirlər xəzinəsi"

6. Nizami "Xəmsə"sinə daxil olan poemaları yazılma tarixinə görə ardıcıllıqla düzün.
   1. "İsgəndərnamə"
   2. "Xosrov və Şirin"
   3. "Sirlər xəzinəsi"
   4. "Leyli və Məcnun"
   5. "Yeddi gözəl"

   A) 2, 3, 4, 5, 1 B) 3, 4, 1, 5, 2 C) 4, 2, 3, 1, 5
   D) 3, 2, 4, 5, 1 E) 1, 2, 3, 4, 5

7. Bu nümunə Nizaminin hansı qadın qəhrəmanının dilindəndir?
   Erkək tinətliyəm, olsam da qadın,
   Hər işi bəllidir mənə dünyanın.
   Mən də bir aslanam, düşünsən bir az,
   Aslanın erkəyi, dişisi olmaz.
   A) Şirinin
   B) Məhin Banunun
   C) Fitnənin
   D) Nüşabənin
   E) Səqlab şahzadəsinin

8. Nizami hansı poemasının sonunda Qızıl Arslanla görüşünü təsvir edir?
   A) "Xosrov və Şirin" B) "Leyli və Məcnun"
   C) "Yeddi gözəl" D) "Sirlər xəzinəsi"
   E) "İsgəndərnamə"

9. İsgəndər taxta çıxandan sonra kimi özünə vəzir təyin edir?
   A) Hürmüzü B) Sokratı C) Ərəstunu
   D) Əflatunu E) Niqumaşı

10. Nizaminin vahid süjet xətti olan son poeması:
    A) "Sirlər xəzinəsi"
    B) "Xosrov və Şirin"
    C) "Leyli və Məcnun"
    D) "İsgəndərnamə"
    E) "Yeddi gözəl"

ORTA DÖVR AZƏRBAYCAN ƏDƏBİYYATI
(XIII-XVI əsrlər)

XIII əsrdən Azərbaycan ədəbiyyatının orta dövrü başlayır. Bu dövrdə artıq Azərbaycanda ərəb və fars dilləri ilə yanaşı, ana dilində yazan sənətkarların da sayı get-gedə artmağa başlayır. Heç də təsadüfi deyil ki, yazılı ədəbiyyatın hələlik əldə olan ən qədim anadilli ədəbi örnəkləri də məhz həmin dövrə aiddir. İzzəddin Həsənoğlunun türkcə üç, farsca bir qəzəli, Şeyx Səfinin kiçik bir divanı bu dövrün anadilli ədəbiyyatı haqqında müəyyən təsəvvür yaradır.

İzzəddin Həsənoğlu Azərbaycan dilli klassik poeziyanın ilk məlum nümayəndəsidir. O, Azərbaycan və fars dillərində şeir divanları yaratsa da, hələlik şairin ədəbi irsindən ana dilində üç, farsca bir qəzəli elm aləminə məlumdur. Şair ana dilində olan şeirlərini "Həsənoğlu", farsca şeirini isə eyni anlamı verən "Pur Həsən" təxəllüsü ilə yazmışdır. Həsənoğlunun əldə olan qəzəlləri onun qüdrətli bir sənətkar olduğunu göstərir. Şairin qəzəllərində sufi-mistik ideya və obrazlar da özünü müəyyən dərəcədə göstərir.

Həsənoğlunun məşhur

Apardı könlümü bir xoş qəməryüz, canfəza dilbər,
Nə dilbər; dilbəri-şahid, nə şahid; şahidi-sərvər –

mətləli qəzəli həmin dövrün dili və ədəbiyyatı haqqında aydın təsəvvür yaradır.

Bu dövrdə poliqlot şair kimi tanınmış **Zülfüqar Şirvani** (1190-1304) altı dildə lirik əsərlər yaratmışdır. Lakin şairin təkcə farsca qələmə aldığı "Divan"ı günümüzədək gəlib çatmışdır. Həmin "Divan" 1934-cü ildə İngiltərədə nəşr edilmişdir. Divana daxil olan şeirlərin əsasını məhəbbət lirikası təşkil edir. Zülfüqar Şirvaninin ana dilində yazdığı ayrı-ayrı misra və beytlər də həmin divanın tərkibində bizə gəlib çatmışdır. Bu örnəklər onun ana dilində də çox gözəl əsərlər yaratmasından xəbər verir.

XIII yüzilliyin anadilli epik şeir örnəkləri içərisində **"Dastani-Əhməd Hərami"** və Qul Əlinin **"Qisseyi-Yusif"** (1233) poemalarını misal göstərmək olar. Müəllifi məlum olmayan "Dastani-Əhməd Hərami" poeması əruzun həzəc bəhrində, məsnəvi şəklində qələmə alınmışdır. Əsər 6 məclisdən ibarətdir. Əsərin "Yalvarış" hissəsində (3-cü məclisdə) bütöv məsnəvi əhatəsində bir qəzəl də verilir. Yaradana müraciətlə, yardım ümidi ilə müsbət qadın qəhrəmanın – Güləndamın dilindən verilən bu qəzəldə məzmunca bir qəsidə səciyyəsi də hiss olunur. Məsnəvi içərisində qəzəl ənənəsi, görünür, məhz bu əsərdən başlayır.

Poemada mənfi baş qəhrəman olan Əhmədin şəxsində insan xarakterindəki kin-küdurət kimi mənfi xüsusiyyətlər tənqid edilmişdir. "Avesta"dan gələn motiv – xeyirlə şərin mübarizəsi fonunda qurulan bu əsərdə Nizami epik şeirinin aydın təsiri hiss olunur.

XIV yüzilliyin anadilli epik poeziya örnəkləri içərisində **Suli Fəqih** və **Mustafa Zəririn** "Yusif və Züleyxa" poemaları xüsusi yer tutur. Hər iki əsər "Quran" motivləri əsasında yazılmışdır. **Yusif Məddahın** "Vərqa və Gülşa" poeması isə epik şeirin sonrakı inkişafında müəyyən rol oynamışdır.



XIII – XIV yüzilliklərdə anadilli ədəbiyyat sayca və sanbalca get-gedə güclənib farsdilli poeziyanı üstələsə də, fars dilində yazıb-yaratmaq ənənəsi davam edirdi. Həmin dövrdə farsca yazıb-yaratmış ***Nəsirəddin Tusinin*** (1201-1274) "Əxlaqi-Nasiri" kimi fundamental əxlaqi-didaktik əsəri ilə yanaşı, bir sıra elmi-fəlsəfi, ədəbi-bədii əsərləri də yaranır.

Fars dilində yazılmış epik şeir örnəkləri, əsasən, Nizami mövzularında, Nizami ənənələri əsasında yaranırdı.

Bu baxımdan ***Marağalı Övhədinin*** (1274-1338) "Cami-Cəm" və "Dəhnamə" poemaları diqqəti cəlb edir. Müəllifin həcmcə ən böyük əsəri olan beş min beytlik "Cami-Cəm" daha çox ensiklopedik səciyyə daşıyır. Əfsanəvi hökmdar olan Cəmşidin dünyanın hər yerindən xəbər verən camı kimi, Marağalı Övhədinin bu poeması da insan və cəmiyyət həyatının, eləcə də təbiət hadisələrinin çox cəhətlərini güzgü kimi əks etdirdiyindən şair öz əsərini "Cami-Cəm" adlandırmışdır. Şairin on min beytlik divanı da vardır.

Arif Ərdəbilinin (1311-?) "Fərhadnamə" poeması isə birbaşa Nizaminin "Xosrov və Şirin" əsərinin təsiri altında qələmə alınmışdı. Əsərin adından da göründüyü kimi, Arif Nizamidən fərqli olaraq, baş qəhrəman olaraq Xosrovu deyil, Fərhadı seçmişdir. Həm də Arif Ərdəbilinin qəhrəmanı, Nizamininkindən fərqli olaraq, adi bir sənət adamı deyil, Çin (Türküstan) hökmdarının oğludur. Arifin qəhrəmanları öz mənəviyyatları cəhətcə də Nizami qəhrəmanlarına çata bilmir. Görünür, A.Ərdəbili öz qəhrəmanını Nizamidə olan ideallıqdan endirib onu təbii bir vəziyyətdə – müsbət və mənfi cəhətləri ilə vermək istəmişdir.

Əssar Təbrizinin (1325-1390) fars dilində Nizaminin təsiri ilə qələmə aldığı "Mehr və Müştəri" poemasında iki gəncin dostluğundan bəhs edilir. Lakin mürəkkəb süjetə malik olan bu əsərdə Nizami səviyyəsində poetik bütövlük, aydınlıq və bitkinlik görmürük. Təsadüfi deyil ki, şairin özü də poemasının əvvəlində Nizami sənətinin uca və əlçatmaz olduğunu etiraf edir.

XIV yüzillikdə Azərbaycan ədəbiyyatı daha çox dünyəvi istiqamətdə inkişaf edir, ədəbiyyat ictimai və siyasi həyatın canlı

bir parçası kimi çıxış edirdi. Məhz bu cəhəti nəzərə alan ingilis şərqşünası Eduard Braun XIV əsr Azərbaycan ədəbiyyatında şair və hökmdar kimi tanınmış **Qazi Bürhanəddin** (1344-1398) yaradıcılığını türk ədəbiyyatında dünyəvi poeziyanın ilk örnəyi kimi qiymətləndirmişdir. Saray tarixçisi Astrabadi "Bəzm və rəzm" ("Məclis və döyüş") adlı salnaməsində Qazinin həyat və fəaliyyətini əks etdirmişdir. Qazi Burhanəddinin öz əlilə yazdığı lirik şeirlər toplusu ədəbiyyat tariximizdə hələ ki, ana dilində tam şəkildə bizə gəlib çatmış ilk "Divan"dır. Bu "Divan"la Həsənoğlu və Şeyx Səfi yaradıcılığında formalaşmağa başlayan Azərbaycan bədii dili yüksək səviyyəyə çatır. Şairin bu divanında əsas yeri qəzəl (1319 qəzəl) janrı tutur. Maraqlıdır ki, Qazi bu qəzəllərində öz təxəllüsünü işlətmir. Divanında qəzəllə yanaşı, rübai (20 rübai) və tuyuq (108 tuyuq) kimi şeir janrları da müəyyən qədər yer tutur. Qazi Bürhanəddin ədəbiyyat tariximizdə ilk dəfə məhz bu divanda sırf türk şeir janrı olan tuyuqdan istifadə etmiş, bu janrın bənzərsiz nümunələrini yaratmışdır. Bu janr sonradan Nəsimi yaradıcılığına və onun vasitəsilə özbək şairi Əlişir Nəvainin "Divan"ına keçmişdir. Bu dövrün ədəbiyyatında və ictimai-siyasi fikrində formalaşmış humanist ideyalar İmadəddin Nəsimi yaradıcılığında öz zirvəsinə çatır.

XV yüzillik Azərbaycan ədəbiyyatı istər xronoloji, istərsə də sənətkarlıq cəhətdən Qazi–Nəsimi zirvələri ilə Xətai – Füzuli zirvələri arasında keçid mərhələsidir. Qaraqoyunlu və Ağqoyunlu dövlətlərinin yaranması ədəbiyyatda müəyyən canlanmaya səbəb olmuş, anadilli şeirin mövzu və obraz baxımından inkişafına şərait yaratmışdı. Bu dövrdə Xəlili, Hamidi, Kişvəri, Həqiqi, Süruri kimi sənətkarlar, əsasən, Azərbaycan dilində, Şah Qasim Ənvar, Bədr Şirvani kimi sənətkarlar isə daha çox fars dilində yazıb-yaradırdılar. Bu şairlər içərisində Qaraqoyunlu hökmdarı **Cahanşah Həqiqi** (hakimiyyət illəri: 1436-1467) öz sələfi Qazi Bürhanəddin kimi qılıncla qələmi birləşdirərək "Divan" yaratmış, ədəbiyyatımızda hökmdar şair kimi yer tutmuşdur.

XV yüzillik Azərbaycan ədəbiyyatının ən tanınmış nümayəndələrindən biri **Nemətullah Kişvəridir**. O, Ağqoyunlu hökmdarı Sultan Yaqubun sarayında yaşamışdır. Kişvəri, əsasən, özbək şairi Əlişir Nəvainin təsiri ilə lirik şeirlər yazsa da, özünəməxsus orijinal poetik üslub nümayiş etdirmişdir.



XV yüzilliyin sonu, XVI yüzilliyin əvvəllərində yaşayıb-yaratmış ***Həbibi*** Ağqoyunlu sarayında məliküş-şüəra olmuş, ustad sənətkar kimi tanınmışdır. Sonralar Həbibi tarixi hadisələrlə bağlı Səfəvi və Osmanlı saraylarında yaşamalı olmuşdur. Füzuli onun yaradıcılığından bəhrələnmiş, bir qəzəlini təxmis etmiş, bir müsəddəsinə nəzirə yazmışdır.

XVI əsrdə poeziyanın inkişafında Bağdad ədəbi mühitində yetişmiş sənətkarlar xüsusi qeyd edilməlidir. XVI əsr müəllifləri Əhdi Bağdadinin "Gülşənüş - şuəra" ("Şairlər gülşəni") və Şah Abbasın kitabdarı Sadiq bəy Sadiqinin "Məcməül-xəvas" ("Seçilmişlər məclisi") təzkirələrində həmin dövrün Bağdad ədəbi mühitində yetişmiş Ruhi, Şahi, Tüfeyli, Xəzani, Zehni, Zəmiri, Elmi, Kalai, Səhabi, Bidari və başqa şairlərin adları çəkilir ki, onların Füzuli yaradıcılığına təsiri və onun yetişməsində oynadığı rol inkaredilməzdir. XVI əsrin birinci yarısında Səvəfilər sarayında yaşayan şairlərdən isə Şahqulu bəy, Süsəni bəy, Pəri Peykər kimi sənətkarların adlarını çəkmək olar. Lakin həmin sənətkarların ədəbi irsindən yalnız ayrı-ayrı örnəklər təzkirələrdə qorunub saxlanmış, günümüzədək gəlib çatmışdır. Həmin dövrdə, yəni Füzulidən əvvəl ana dilimizdə iki "Leyli və Məcnun" poeması yazılmışdır. Onlardan biri Zəmiriyə (daha əvvəl yazılanı), digəri isə Həqiri Təbriziyə (yazılma ili: 1525) məxsusdur.

Bu dövrün Xətai, Məhəmməd Əmani kimi sənətkarları orta dövrlər üçün xarakterik olan hər iki üslubda – həm klassik, həm də aşıq şeiri üslublarında yazıb-yaratmışlar.

XVI yüzillik xalq yaradıcılığının, aşıq şeirinin təşəkkülü və inkişafı ilə də əlamətdardır. Şah İsmayıl Xətainin hakimiyyəti illərində Səfəvilər sarayında xalq aşığı Dirili Qurbani (1483 – 1557) başda olmaqla aşıq yaradıcılığı himayə olunmuş, dövrün aşıqları saraya toplaşaraq fəaliyyət göstərmişlər. Xalq dastanlarının ilk nümunələri də məhz XVII əsrdə meydana çıxmağa başlamışdır.



A varianı

1. "Dastani-Əhməd Hərami" əsəri ilə bağlı ***səhv*** fikri göstərin.
   A) XIII əsrin epik şeir örnəyidir.
   B) Əruzun həzəc bəhrində yazılmışdır.
   C) Məsnəvi şəklində qələmə alınmış bu əsərdə bir qəzəldən də istifadə edilmişdir.
   D) Fars dilindədir.
   E) Əsərdə insan xarakterindəki kin-küdurət tənqid olunur.

2. Marağalı Övhədinin poemalarından ibarət cərgəni göstərin.
   A) "Qisseyi-Yusif", "Leyli və Məcnun"
   B) "Fərhadnamə", "Mehr və Müştəri"
   C) "Dəhnamə", "Yusif və Züleyxa"
   D) "Vərqa və Gülşa", "Dastani-Əhməd Hərami"
   E) "Dəhnamə", "Cami-Cəm"

3. Bağdad ədəbi mühitində yetişmiş şairlərdən bəhs edən "Gülşənüş-şüəra" ("Şairlər gülşəni") təzkirəsinin müəllifi:
   A) Sadiq bəy Sadiqi B) Əhdi Bağdadi C) Astrabadi
   D) Nəsirəddin Tusi E) Həbibi

4. *Azərbaycan ədəbiyyatında poliqlot şair kimi tanınmış, altı dildə lirik əsərlər yazmışdır. Ancaq həmin şairin təkcə farsca qələmə aldığı "Divan" bizə gəlib çatmışdır.* Söhbət hansı sənətkardan gedir?
   A) Qazi Bürhanəddin B) Marağalı Övhədi C) Əssar Təbrizi
   D) Arif Ərdəbili E) Zülfüqar Şirvani

5. İngilis şərqşünası Eduard Braun hansı şairin yaradıcılığını türk ədəbiyyatında dünyəvi poeziyanın ilk örnəyi kimi qiymətləndirmişdir?
   A) İmadəddin Nəsiminin B) Qazi Bürhanəddinin
   C) Şah İsmayıl Xətainin D) Nemətullah Kişvərinin
   E) Cahanşah Həqiqinin

6. Bu poemalardan biri iki gəncin dostluğundan bəhs edir:
   A) "Dastani-Əhməd Hərami"
   B) "Mehr və Müştəri" (Ə.Təbrizi)
   C) "Fərhadnamə" (A.Ərdəbili)
   D) "Yusif və Züleyxa" (S.Fəqih)
   E) "Qisseyi-Yusif" (Qul Əli)

7. "Əxlaqi-Nasiri" adlı əxlaqi-didaktik əsərin müəllifi kimdir?
   A) Zülfüqar Şirvani B) Əssar Təbrizi
   C Nəsirəddin Tusi D) Marağalı Övhədi
   E) Arif Ərdəbili

8. Ağqoyunlu hökmdarı Sultan Yaqubun sarayında yaşamış şair:
   A) Nemətullah Kişvəri B) Marağalı Övhədi
   C) Arif Ərdəbili D) Cahanşah Həqiqi
   E) İmadəddin Nəsimi

9. Bu şairlərdən biri azərbaycanca bizə məlum ilk "Leyli və Məcnun"un müəllifidir:
   A) Məhəmməd Füzuli
   B) Zəmiri
   C) Həqiri Təbrizi
   D) Nemətullah Kişvəri
   E) Şeyx Səfi

10. *Bu sənətkarlardan birinin türkcə (azərbaycanca) üç, farsca bir qəzəli, digərinin isə kiçik bir divanı XIII əsrin anadilli ədəbiyyatı haqqında müəyyən təsəvvür yaradır, gələcək böyük poeziyanın bünövrəsinin möhkəm təməl üzərində qoyulduğundan xəbər verir.*
    Söhbət hansı sənətkarlardan gedir?
    A) İzzəddin Həsənoğlu və Şeyx Səfi
    B) Suli Fəqih və Mustafa Zərir
    C) Yusif Məddah və Qazi Bürhanəddin
    D) Arif Ərdəbili və Əssar Təbrizi
    E) Nemətullah Kişvəri və Qazi Bürhanəddin

B variantı

1. "Mehr və Müştəri" poemasının müəllifini göstərin.
   A) Əssar Təbrizi B) Marağalı Övhədi C) Arif Ərdəbili
   D) Suli Fəqih E) Mustafa Zərir

2. *Bu şairin təkcə farsca "Divan"ı bizə gəlib çatmışdır. İngiltərədə nəşr edilmiş bu divandakı şeirlərin əsasını məhəbbət lirikası təşkil edir.* Söhbət hansı sənətkardan gedir?
   A) Zülfüqar Şirvani
   B) Bədr Şirvani
   C) Əssar Təbrizi
   D) Marağalı Övhədi
   E) Şah Qasım Ənvar

3. *XIII yüzilliyin epik şeir örnəyi olan bu poema həzəc bəhrində, məsnəvi şəklində qələmə alınmış, içərisində başqa janrdan – bir qəzəldən də istifadə edilmişdir.* Söhbət hansı əsərdən gedir?
   A) "Vərqa və Gülşa" (Y.Məddah)
   B) "Fərhadnamə" (A.Ərdəbili)
   C) "Dastani-Əhməd Hərami"
   D) "Mehr və Müştəri" (Ə.Təbrizi)
   E) "Dəhnamə" (Ş.İ.Xətai)

4. Bağdad ədəbi mühitində yetişmiş şairlərdən bəhs edən "Məcməülxəvas" ("Seçilmişlər məclisi") təzkirəsinin müəllifi:
   A) Sadiq bəy Sadiqi
   B) Əhdi Bağdadi
   C) Atsrabadi
   D) Nəsirəddin Tusi
   E) Həbibi

5. XIV yüzillikdə "Yusif və Züleyxa" mövzusunda ana dilində əsərlər yazmış sənətkarlardan ibarət cərgəni göstərin.
   A) Qul Əli, Yusif Məddah B) Suli Fəqih, Mustafa Zərir
   C) Əssar Təbrizi, Arif Ərdəbili D) Marağalı Övhədi, Zəmiri
   E) Bədr Şirvani, Cahanşah Həqiqi

6. "Cami-Cəm" və "Dəhnamə" poemalarının müəllifini göstərin.
   A) Nemətullah Kişvəri
   B) Arif Ərdəbili
   C) Əssar Təbrizi
   D) Marağalı Övhədi
   E) Bədr Şirvani

7. Saray tarixçisi Astrabadinin "Bəzm və rəzm" ("Məclis və döyüş") adlı salnaməsi hansı şairin həyat və fəaliyyətinə həsr edilmişdir?
   A) Qazi Bürhanəddinin
   B) Şah İsmayıl Xətainin
   C) Cahanşah Həqiqinin
   D) Nemətullah Kişvərinin
   E) Şah Qasım Ənvarın

8. Bu sənətkarlardan biri özbək şairi Əlişir Nəvainin təsiri ilə lirik şeirlər yazmışdır:
   A) Bədr Şirvani
   B) Nemətullah Kişvəri
   C) Qazi Bürhanəddin
   D) Cahanşah Həqiqi
   E) Şah Qasım Ənvar

9. Bu şairlərdən biri həm də Qaraqoyunlu hökmdarı olmuşdur:
   A) Nemətullah Kişvəri
   B) Qazi Bürhanəddin
   C) Cahanşah Həqiqi
   D) Bədr Şirvani
   E) Şah Qasım Ənvar

10. Bu sənətkarlardan biri 1525-ci ildə ana dilində "Leyli və Məcnun" poeması yazmışdır:
   A) Nemətullah Kişvəri
   B) Cahanşah Həqiqi
   C) Həqiri Təbrizi
   D) Əssar Təbrizi
   E) Zəmiri

Seyid İmadəddin Nəsimi

(1369 – 1417)

Orta dövr Azərbaycan ədəbiyyatının ən böyük nümayəndələrindən biri, ana-dilli şeirimizdə fəlsəfi qəzəlin yaradıcısıdır. Hürufizmin ən böyük mücahidlərindən olmuşdur. Qüdrətli lirik şairdir.

Həyatı

Orta dövr Azərbaycan ədəbiyyatının ən qüdrətli nümayəndələrindən biri Seyid İmadəddin Nəsimidir. Şairin əsl adı Əlidir. O, "Nəsimi" ilə yanaşı, daha əvvəllər "Hüseyni" və "Seyyid" təxəllüsləri ilə də yazıb-yaratmışdır. Nəsimi "Şirvani" (doğulduğu yerə görə) nisbəsi ilə də yad olunur. O, 1369-cu ildə Azərbaycanın qədim mədəni mərkəzlərindən olan Şamaxı şəhərində doğulmuşdur. Uşaqlıq və yeniyetməlik illəri doğma yurdunda keçmişdir. İmadəddin burada mükəmməl mədrəsə təhsili almış, dövrünün dini və dünyəvi elmlərini öyrənmiş, özünəqədərki Yaxın və Orta Şərq poeziyasına yaxından bələd olmuşdur.

Hələ yeniyetməlik dövründə Şərq fəlsəfəsini, dini və siyasi təriqətləri öyrənən, onların mahiyyəti ilə tanış olan Nəsimi 1386-cı ildə hürufiliyin banisi Fəzlullah Nəimi ilə görüşüb onun ideyalarını bəyənmiş və ömrünün axırına qədər həmin ideyaları müxtəlif xalqlar arasında təbliğ etməklə məşğul olmuşdur.

Hürufilik XIV əsrdə Azərbaycanda formalaşmış və özünə çoxlu tərəfdaş toplamış güclü bir siyasi-fəlsəfi cərəyan idi. Bu təlimə görə, dünyanı və insanı Allah yaratmışdır. Allah insan və söz (Quran) vasitəsilə

təzahür edir. Söz bütün kainatın əsasıdır və səslərdən ibarətdir. Səslər isə Quranda hərflər şəklində işarə olunmuşdur. Elə buna görə hürufilər ərəb əlifbasındakı 28 hərfi Allahın təzahür forması sayaraq, onları müqəddəsləşdirirdilər. Fəzlullah Nəimi və tərəfdarları ərəb hərfləri ilə insanın üz cizgiləri arasında oxşarlıq – eynilik görür, onun simasında "Allah" sözünün yazıldığını söyləyirdilər. "Hürufi" sözünün mənası da ərəb dilindən tərcümədə "hərflərə aid olan" deməkdir. Hürufiliyin əsasları F.Nəiminin "Cavidannamə" əsərində verilmişdi.

Allahın insanda olduğunu söyləyən hürufilər həyata fəal münasibət bəsləyir, mənasız ehkamlara, fanatizmə, ictimai bərabərsizliyə, zülmkarlığa və köləliyə qarşı çıxaraq sadə zəhmətkeş insanların hüquqlarını müdafiə edirdilər. Əhali arasında onların nüfuzu getdikcə artırdı. Bundan ehtiyatlanan hakim təbəqələr, xüsusilə fanatik ruhanilər hürufiləri təqib edir, ələ keçənləri cəzalandırırdılar. 1394-cü ildə təriqətin başçısı Fəzlullah Nəimi həbs edilib Əlincəyə gətirilir və ağır işgəncələrdən sonra Əmir Teymurun oğlu Miranşahın göstərişi ilə edam edilir.



Ərəb əlifbası ilə yazılmış "Ənəlhəqq" ifadəsi

Bu hadisədən bir qədər sonra onun müridləri (şagirdləri) təqiblərdən qurtarmaq üçün müxtəlif ölkələrə dağılaraq, hürufilik ideyalarını yaymağa başlamışlar.

Nəsimi də Şirvanı tərk edərək, Ruma – Anadoluya getmiş, bir müddət orada qalaraq, özünə çoxlu tərəfdar qazanmışdır. Ancaq Osmanlı sultanı I Murad da hürufiləri təqib etdiyinə görə şair İraqa, oradan da Suriyaya getməyə məcbur olmuş, bir müddət Hələb şəhərində yaşayıb fəaliyyət göstərmişdir. 1417-ci ildə hürufilik görüşlərinə görə onu həbs etmişlər.

Dörd – beş ay zindanlarda saxlandıqdan sonra şəriət məhkəməsinin qərarı ilə dərisi soyulmuş, əl-ayağı kəsilmişdir. Dözülməz əzablarla qətlə yetirilən şair Hələb şəhərində dəfn olunmuşdur. Qəbri indi də Hələbdə Nəsimilər məhəlləsindəki bir ailə qəbiristanlığında qorunub saxlanır və ziyarətgah sayılır.

Yazıçı İsa Hüseynov (Muğanna) Nəsimi haqqında "Məhşər" romanını, şair Qabil isə "Nəsimi" poemasını yazmışlar. İ.Hüseynovun ssenarisi üzrə "Nəsimi" bədii filmi çəkilmişdir.

Yaradıcılığı

Nəsimi yaradıcılığa erkən yaşlarında başlamış, Azərbaycan və fars dillərində mükəmməl şeir divanları yaratmışdır. O, əsərlərinin az bir qismini "Seyyid" və "Hüseyni", çox hissəsini "Nəsimi" təxəllüsü ilə yazmış, ədəbi-ictimai fikir tarixində "Nəsimi" təxəllüsü ilə məşhurlaşmışdır.

Nəsimi lirik şairdir. Onun başlıca tərənnüm obyekti məhəbbət və gözəllikdir. Orta dövr Azərbaycan şairlərinin bir çoxu kimi, Nəsiminin də əsərlərində tərənnüm olunan məhəbbət fəlsəfi mahiyyətdədir; şairin hürufi baxışlarının bədii ifadəsidir. Bu məhəbbət ilahi səciyyəlidir, yəni insanın Allaha olan eşqidir, daxilən saflaşmaq, kamilləşmək və Tanrıya çatmaq, ona qovuşmaq yoludur:

Eşq ilə gəldi cəmiyi-ənbiya,
Eşqdir seyrü süluki-övliya,
Eşq ilə yola girirlər biriya,
Eşq ilə vasil olurlar Tanrıya.

Nəsiminin məhəbbət mövzusunda yazdığı şeirlərdə işlətdiyi sözlər və tərənnüm etdiyi obrazlar daha çox rəmzi məna daşıyır. Onun lirik qəhrəmanı Aşiq insanın, Məşuq isə Tanrının simvoludur. Şair "dilbər", "günəş", "nigar", "dildar", "yar" dedikdə, ilk növbədə, Allahı, sonra da onun Yerdəki görüntüsü kimi qəbul etdiyi Fəzlullah Nəimini nəzərdə

tutur. Bütün hürufilərə, o cümlədən Nəsimiyə görə, daxilən saflaşmış kamil insan – Fəzl Allahın özüdür. Onun sözü Haqqın kəlamıdır. Fəzlullahı sevmək, ona könül vermək – Allaha məhəbbətdir. Şair rübailərinin birində bu fikri aydın şəkildə ifadə edərək yazır:

Bir əcaib şaha verdim könlümü,
Bədr üzlü maha verdim könlümü.
Ta ki Fəzlüllaha verdim könlümü,
Bigüman Allaha verdim könlümü.

Ancaq Nəsiminin şeirlərində dünyəvi gözəlin də tərənnümü vardır. Onun qəzəl, rübai və tuyuqlarının bir qismində təsvir edilən gözəl real həyat adamıdır. Şair onun boyunu sərvə, üzünü günəşə, bədirlənmiş aya, yanaqlarını gülə, qaşlarını mehraba, saçlarının ətrini müşkə bənzətməklə sevimli bir insan surəti yaradır. Nəsiminin lirik qəhrəmanı xoşbəxtliyi özünü həmin gözələ fəda etməkdə görür:

Könlümüz bir yar əlində xəstədir,
Gözü qara, qaşları peyvəstədir.
Naz edərsə, nazını çəkmək gərək,
Can fəda qılmaq gərək, növrəstədir.

Şairin məhəbbət duyğularını tərənnüm edən şeirlərindən biri **"Yanaram"** rədifli qəzəlidir. Bu şeirdə sevgilisindən ayrı düşmüş Aşiqin narahatlığı, əzab və iztirabları əks olunur. Səmimi bir məhəbbətlə sevən Aşiq məşuqəsindən uzaq düşdüyü üçün gecə-gündüz iztirab çəkir, fəraq – ayrılıq odunda yanır. Bu od maddi yox, mənəvi səciyyədədir; öz mənbəyini sevgilinin Aya və Günəşə bənzəyən camalından, bir də Aşiqin şövqündən – həvəsindən alır və insanın cismini yox, qəlbini yandırır. Aşiq sevgilisinin vüsalını arzuladıqca yanğısı daha da şiddətlənir və bütün canını bürüyür:

1-ci beyt — Səndən iraq, ey sənəm, şamü səhər yanaram,
Vəslini arzularam, daxi betər yanaram.

2-ci beyt — Eşq ilə şövqün odu canıma kar eylədi,
Gör necə tabından, ey şəmsü qəmər, yanaram.

Sevgilidən uzaq düşmək Aşiqin səbrini və aramını əlindən almış, ona güclü bir qəm gətirmişdir. Bu qəm onun yanğısını daha da şiddətləndirir. Aşiqin içindən çıxan tüstü bütün kainatı bürüyür və bu vəziyyət onun əzabları barədə aydın poetik informasiya verir:

"Yanaram" qəzəlində Aşiqin əzabları ilə bərabər, Sevgilinin gözəlliyi də bədii ustalıqla əks olunur. Lirik qəhrəmanın təsirli monoloqu kimi səslənən bu şeirdə Aşiqin qəlbinə od salan, onun içindən tüstü çıxaran bir də sevgilinin gözəlliyidir. Nəsimi metaforalardan istifadə etməklə həmin gözəli Aya və Günəşə bərabər tutur. Bu gözəlin Günəş kimi parlaq üzünün işığından Aşiqin vücuduna alov düşüb onu yandırır:

4-cü beyt Şəmi-ruxun surəti qarşıma gəlmüşdürür,
Şəşəəsindən mana şölə düşər, yanaram.

Aşiq sevgilisi yolunda əzab-əziyyət çəkməyi, onun könlü istədiyi qədər qəm odunda yanmağı qəbul edir. Çünki qəm odunda yananlar məhv olmur, onlar məşuqə tərəfindən sevilir, onların fədakarlığı həmişə qiymətləndirilir.

7-ci beyt Yandığımız yar üçün, gizli deyil, mən dəxi
Hər nə qədər kim, anın könlü dilər, yanaram.

Aşiq öz sevgilisinin məhəbbətini qəm odunda yanmaqla qazana bilər. Buna görə o, müddəinin – rəqibin tənəsindən qorxmayıb, məqsədə çatmaq üçün qəmdə yanmaq yolunu seçir:

məqtə beyt Müddəi yanar demiş qəmdə Nəsimi üçün,
(8-ci beyt) Qəmdə yanan yarı yar çünki sevər, yanaram.

Əruz vəzninin münsərih bəhrində (ölçüsü: müftəilün, failün; müftəilün, failün) yazılmış "Yanaram" qəzəlində "Nəsimi ustad bir sənətkar kimi insan qəlbinin gizli nöqtələrinə işıq salır, yarından ayrı düşmüş bir gəncin keçirdiyi həsrət və yanğı duyğularını mahir bir rəssam kimi əyani şəkildə

təsvir edir, yeri gəldikcə təbii yanma prosesi ilə müqayisələr aparmağı, mübaliğələrdən istifadə etməyi də unutmur" (T.Kərimli).

Səkkiz beytdən ibarət bu qəzəldə sevən gəncin təbii hiss, duyğu və düşüncələri yüksək səmimiyyətlə tərənnüm olunur. Beytlərin misraları bir-biri ilə möhkəm bağlanır və biri digərini tamamlayır. Aşiqin keçirdiyi mənəvi yanğının dözülməzliyi tədriclə ifadə edilir. Adi həyəcanın və narahatlığın söyləndiyi ilk beytlərdən fərqli olaraq, sonrakı beytlərdə hiss və duyğular daha qüvvətli şəkildə təzahür edir və altıncı beytdə özünün ən yüksək nöqtəsinə yüksəlir. Bu beyt bədii-estetik məzmun baxımından qəzəlin ən qüvvətli beyti – şah beytidir:

Çıxdı işimdən tütün, çərxi boyadı bütün,
Gör ki, nə atəşdəyəm, gör nə qədər yanaram.

Bu beytin birinci misrasında daxili qafiyələr də (*tütün, bütün*) vardır. Qəzəlin dili də aydındır. Bəzi misralarda ərəb-fars mənşəli söz və ifadələr ("şamü səhər" – axşam-səhər, "tab" – istilik, "xuni-ciyər" – ciyər qanı, "şəşəə" – parıltı, "müddəi" – rəqib, "şəmi-rüx" – üzünün işığı, "badi-həva"–yel) işlənsə də, fikirlər asan başa düşülür. Şair fikri daha təsirli çatdırmaq üçün mübaliğələrdən, sözlərin çoxmənalılığından və müxtəlif təkrirlərdən istifadə edir. Məsələn, şerin ilk misrasındakı "səndən iraq" sözləri ilə Aşiq, bir tərəfdən, sevgilisindən ayrı düşdüyünü bildirir, ikinci tərəfdən isə, ona həmişə əzab-əziyyətdən uzaq olmağı arzulayır. Sonuncu misrada isə "y" səsinin təkrarı yaxşı bir alliterasiya (Qəmdə yanan yarı yar çünki sevər, yanaram) yaratmışdır.

"Mən mülki-cahan..." qəzəli

Nəsimi irsinin mühüm bir qismini ictimai-fəlsəfi məzmunlu şeirləri təşkil edir. Onun zəmanədən şikayət, haqsızlığa etiraz, insanın qüdrətinə inam, mənəvi-əxlaqi kamilliyə çağırış ideyaları ifadə edən belə

əsərlərindən biri "Mən mülki-cahan..." sözləri ilə başlayan qəzəlidir. Bu qəzəl əslində məhz fəxriyyə üslubunda yazılmışdır və təbii ki, kiçik qəsidə təsiri bağışlayır.

Bu şerin lirik qəhrəmanı həyatı dərk edən kamil insandır. O, özünü kainatdakı bütün canlılardan şərəfli, qiymətli sayır, insanı Haqqın-Tanrının məkanı hesab edir. Nəsimiyə görə, insan bütün kainatın zinətidir. Onsuz dünyanın heç bir mənası yoxdur. Çünki Yerin də, göyün də bütün gözəllikləri insanda əks olunur və insan tərəfindən qiymətləndirilir. Aləmin bütün sirləri və bu sirlərin izahı insandadır.

Mən mülki-cahan, cəhan mənəm, mən!
Mən həqqə məkan, məkan mənəm, mən!
Mən ərşilə fərşü kafü nunəm,
Mən şərhü bəyan[1], bəyan mənəm, mən!

Şerin lirik qəhrəmanı özünü həm yaradan, həm də yaradılan, həm "gövhər", həm də "kan", həm "zaman", həm nişan, həm də məkan hesab edir. Hürufilər "gövhər" dedikdə ilahi varlığı, "kan" dedikdə insanlar arasına enmiş Allahı – Fəzlullahı, nişan dedikdə onun əlamətlərini nəzərdə tuturdular. Nəsimi bu rəmzi sözlərdən istifadə etməklə insanın Allah səviyyəsində bir varlıq olduğunu və Tanrının insanın simasında göründüyünü söyləyir. Onun lirik qəhrəmanı da bu dünyagörüşünə uyğun olaraq özünü Allaha bərabər tutaraq deyir:

Mən kövnü məkanü "kün - fəkan"əm,
Bilgil ki, nişan, nişan mənəm, mən!
Mən surəti-mənidə həqqəm, həqq,
Mən həqqi-əyan, əyan mənəm, mən!
Bir gövhəri - əqdəməm əzəldən,
Ey gövhərə kan, kan mənəm, mən!

On səkkiz beytdən ibarət olan "Mən mülki-cahan..." qəzəli əvvəldən axıra qədər Nəsiminin hürufilik düşüncələrinin ifadəsindən ibarətdir.

[1] *şərhü bəyan* – burada: görünən və görünməyənlər

Şeirin hər beytində Tanrının müqəddəs bir əlaməti göstərilir və həmin əlamətin insanın – lirik qəhrəmanın simasında təzahür etdiyi söylənir. Şairə görə, kainatdakı hər bir mövcudiyyət: görünən və görünməyən də, gizli və aşkar da, bütöv və zərrə də, dəniz və torpaq da, söz və hərf də, məna və surət də, ruh və can da, küfr və iman da – bütün bunlar hamısı insanda, onun zatında və mayasında birləşir:

Mən nəqşi-xəyalü xəttü xaləm,
Mən hərfü lisan, lisan mənəm, mən!
Mən gənci-nihani, "küntü kənz"əm,
Mən gənci-nihan, nihan mənəm, mən!
Mən zatü sifati-"kün-fəkan"əm,
Mən ruh ilə can, can mənəm, mən!

"Mən mülki-cahan..." şeiri əruz vəzninin həzəc bəhrində (ölçüsü: məfUlü məfAlün fəUlün) və təmtəraqlı üslubda yazılmışdır. Özünü öymə və təbliğat pafosu bədii mətnin bütün strukturunda aydın duyulur. Ancaq qəzəlin dili çətindir. Onun leksikasının mühüm hissəsi ərəb-fars mənşəli söz və birləşmələrdən ibarətdir. Bu sözlər hürufi məzmuna malik olub çox zaman simvolik funksiya daşıdığından fikirlərin başa düşülməsi daha da çətinləşir. Xüsusilə orta əsrlərin bədii-fəlsəfi düşüncə sistemindən xəbərsiz oxucu üçün misralardakı sözlərin mənası qaranlıqdır. Buna baxmayaraq, "Mən mülki-cahan..." şeiri humanist qayəsinə görə Azərbaycan fəlsəfi lirikasının orta əsrlərdə yazılmış klassik nümunələrindən biridir.

Sənətkarlıq xüsusiyyətləri. Böyük humanist fikirlər, bəşəri duyğular və dərin fəlsəfi ideyalar aşılayan Nəsimi poeziyası bədii gözəlliyinə görə nadir sənət incisidir. Yığcamlıq, dərin məzmun və yüksək ahəngdarlıq onların başlıca keyfiyyətləridir. Onun həm ictimai–fəlsəfi, həm də məhəbbət şeirlərində qüvvətli bədii məcazlar vardır. Şair insanın gözəlliyini canlı, yaddaqalan tərzdə əks etdirmək üçün onu təbiətlə

qarşılaşdırır. Yaxın Şərq poeziyasında gözəlin cazibədarlığını nəzərə çatdırmaq üçün, adətən, onun qaşlarını yeni çıxan nazik aya, yanağını gülə oxşadırlar. Nəsimidə isə bu müqayisə əks istiqamətdə aparılır: Ay özünü şairin təsvir etdiyi gözələ bənzətmək üçün hilalını nazikləşdirir, qızılgül rəngini və ətrini gözəlin yanağından alır:

Hilala döndü qəmər qaşların hilalından,
Boyandı qanə qızılgül yanağın alından.

Nəsimi şeirlərinin çox böyük hissəsini əruz vəznində yazmış, türk əruzunun təkmilləşməsi yolunda böyük xidmətlər göstərmişdir. Həzəc, rəməl və münsərih onun daha çox istifadə etdiyi bəhrlərdir. Lakin Nəsiminin heca vəznli şeirləri də vardır. Onun türkcə divanında təsadüf edilən heca vəznli şeirləri varsağı formasındadır:

Yüz min cəfa qılsan mənə,
Mən səndən üz döndərmənəm.
Canım ola qurban sənə,
Mən səndən üz döndərmənəm.

Sevdim səni mən can ilə,
Qul olmuşam qurban ilə,
Qoy and içim Fürqan ilə,
Mən səndən üz döndərmənəm.

İsamısan, Musamısan?
Ya Yusifi - Kənanmısan?
Vallah ki, canım canısan,
Mən səndən üz döndərmənəm.*

* Bu barədə bax: Azərbaycan klassik ədəbiyyatı kitabxanası. 20 cilddə. V cild. Bakı, "Elm" nəşriyyatı, 1985, səh. 152.

Şairin "Ey nuri-dilü didə" və "Tərk etmişəm din, əqlü canı" misraları ilə başlayan şeirləri də heca vəznindədir. Bu şeirlərdəki bədii məziyyətlər, xüsusilə poetik təkmillik göstərir ki, onlar Azərbaycan türklərinin yazılı ədəbiyyatında heca vəznli şerin ilk nümunələri deyil. Hələ Nəsimiyə qədər də Azərbaycan-türk divan müəllifləri heca vəznində şeirlər yazmışlar.

Nəsiminin sənətkarlıq qüdrəti fəlsəfi şeirlərində tamam başqa çalarda meydana çıxır. Həqiqi insanlıq himni kimi səslənən belə əsərlərində şair panteist fəlsəfənin müddəalarını yüksək bədiiliklə ifadə edir. Həmin fəlsəfəyə görə, bütün kainat Tanrıdan ibarətdir. Digər varlıqların hamısı, o cümlədən insanlar Tanrının zərrələridir. Bir vaxtlar Tanrı ilə vəhdətdə olan hissəciklər öz əsillərindən ayrı düşdükləri üçün dərin kədər hissi keçirir, ona qovuşmaq arzusu ilə çırpınırlar. Bu arzuya çatmaq üçün insan kamilləşməli, özünü çirkin ehtiraslardan, alçaq əməllərdən təmizləməlidir (T.Kərimli). Həmişə insanı dünyagirlikdən uzaq olub mənəvi ucalığa çağıran şair fani cahanın sevgisini "cəhənnəm odu" adlandıraraq yazır:

Yoxdur vəfası dünyanın, aldanma anın alına,
Rəngindən oldu münfəil, hər kim boyandı alına.

Nəqdi dəğəldir dünyanın, anınla bazar eyləmə,
Niçün ki hər kim qəlbilə eylərsə bazar, alına.

Fani cahanın sevgisi damu odudur, yandırır,
Qaç ol qarıdan, ey könül, aldanma zülfü xalına.

Lakin Nəsimi poeziyası bütövlükdə özünün nikbin pafosu ilə seçilir. Altı yüz il bundan əvvəl yaranmasına baxmayaraq, bu poeziya indi də öz bədii-estetik gözəlliyini qoruyub saxlayır.

cəmiyi-ənbiya peyğəmbərlərin hamısı

seyr süluki - övliya Sufilərə görə, insan tanrıya yüksələrkən bir sıra seyrü süluki – övliya – mənəvi – əxlaqi təkamül və sınaq mənzillərindən keçir; bu sınaq və kamillik yolları **seyr** və **süluk** adlanır. Misranın mənası: Müqəddəslərin Allaha yüksəlişi eşq ilədir.

biriya riyasiz, yalansız, səmimi

peyvəstə çatma

növrəstə yeniyetmə

şamü səhər gecə və gündüz

vəsl birləşmə, qovuşma, sevgiliyə çatma

şövq həvəs

tab işıq

şəmsü qəmər Günəş və ay

şəmi-rüx üzünün işığı

şəşəə parıltı

şölə işıq, alov

müddəi iddiaçı, rəqib

şərhü bəyan izah və bildirmə (burada: görünən və görünməyənlər)

kövnü məkan aləm, kainat

kün-fəkan 1) dünya aləm 2) **künfəyakün** mənasında: alt-üst etmək, xaraba qoymaq

surəti-məni burada: məna – haqq (həq), cövhər, kök, mahiyyət, əsil mənasında işlənib, **surəti-məni** isə mənanın surəti, yəni həqqin – tanrının surəti. Panteizm təliminə görə, bütün insanlar, yaradılış, xilqət mənanın – həqqin surətləridir.

kan	mədən, mənbə
lisan	dil
gənci-nihan	gizli xəzinə
kənz	dəfinə, xəzinə
zat	əsil, cövhər; mahiyyət
sifat	sifətlər
Fürqan	Quranın ikinci adı
al	hiylə (arxaik sözdür); qırmızı
al	rəng, boya
münfəil	təsirlənmiş, həyəcanlı; utancaq; xəcalətli
dəğəl	qəlp, saxta; hiylə, xəbislik
damu	cəhənnəm (arxaik sözdür)
zülf	saç
bədr	on dörd gecəlik ay, bütöv ay
mah/məh	ay
övliya	müqəddəslər, rəhbərlər
hilal	bir neçə gecəlik təzə ay, aypara; klassik poeziyada: gözəlin qaşı



A variantı

1. Nəsimi nə vaxt və harada doğulmuşdur?
   A) 1569-cu ildə Şamaxıda
   B) 1369-cu ildə Hələbdə
   C) 1417-ci ildə Bakıda
   D) 1317-ci ildə Təbrizdə
   E) 1369-cu ildə Şamaxıda

2. Aşağıdakı bir təxəllüsü İ.Nəsimi hürufiliyin banisi Fəzlullah Nəiminin şərəfinə götürmüşdür:
   A) Nəsimi B) Seyyid
   C) Hüseyni D) Şirvani
   E) Əli

3. Göstərilənlərdən biri İ.Nəsiminin nisbəsidir:
   A) İmadəddin B) Şirvani
   C) Nəsimi D) Seyyid
   E) Hüseyni

4. İ.Nəsiminin edam olunduğu ölkə:
   A) Türkiyə B) İran
   C) Azərbaycan D) Suriya
   E) Əfqanıstan

5. İ.Nəsiminin edam olunduğu şəhər:
   A) Dəməşq B) Hələb
   C) Təbriz D) Bakı
   E) Şamaxı

6. İ.Nəsiminin əsərlərini seçin.
   A) "Xosrov və Şirin", "Leyli və Məcnun"
   B) "Yanaram", "Mən mülki-cahan..."
   C) "Dəhnamə", "Cami-Cəm"
   D) "Qisseyi-Yusif", "Dəhnamə"
   E) "Fərhadnamə", "Leyli və Məcnun"

7. İ.Nəsiminin tərcümeyi-halı ilə bağlı ***səhv*** fikri göstərin.
   A) Şair 1369-cu ildə Şamaxıda doğulmuşdur.
   B) "Şirvani" adı onun nisbəsidir.
   C) Şeirlərinin çoxunu "Nəsimi" təxəllüsü ilə yazmışdır.
   D) Fəzlullah Nəiminin müridi olmuşdur.
   E) 1417-ci ildə Hələbdə taun xəstəliyindən ölmüşdür.

8. İ.Nəsimi şeirinin aparıcı janrı:
   A) məsnəvi
   B) qəsidə
   C) qəzəl
   D) tuyuq
   E) müstəzad

9. İ.Nəsimi hürufilik ideyalarını hansı ölkələrdə təbliğ etmişdir? Biri ***səhvdir:***
   A) Türkiyə
   B) Azərbaycan
   C) İraq
   D) Əfqanıstan
   E) Suriya

10. Göstərilən şeir janrlarından biri İ.Nəsimi yaradıcılığında ***yoxdur:***
   A) qəzəl
   B) rübai
   C) qoşma
   D) məsnəvi
   E) müləmmə

B variantı

1. İ.Nəsiminin "Yanaram" rədifli qəzəli əruz vəzninin hansı bəhrində yazılmışdır?
   A) həzəc B) rəməl
   C) səri D) münsərih
   E) mütəqarib

2. İ.Nəsiminin "Mən mülki-cahan ..." qəzəli əruz vəzninin hansı bəhrində yazılmışdır?
   A) həzəc B) rəməl
   C) münsərih D) mütəqarib E) səri

3. İ.Nəsiminin
   "Mən mülki-cahan, cahan mənəm, mən!
   Mən həqqə məkan, məkan mənəm, mən!"
   misralarında işlənmiş bədii ifadə vasitələrini seçin.
   A) mübaliğə, anafora, epifora
   B) mübaliğə, metafora, metonimiya
   C) bədii təzad, bədii xitab, bədii sual
   D) anafora, epifora, epitet
   E) epifora, epitet, təşbeh

4. "Yanaram" qəzəli barədə ***səhv*** fikri göstərin.
   A) Məhəbbət mövzusundadır.
   B) Şeirdə Aşiqin əzabları təsvir edilir.
   C) Qəzəl Aşiqin dilindən söylənir.
   D) "Yanaram" sözü rədifdir və bütün misralarda təkrar olunur.
   E) Münsərih bəhrində yazılmışdır.

5. İ.Nəsiminin "Yanaram" rədifli qəzəlində işlənmiş ifadələrdən birinin mənası ***səhv verilib:***
   A) şamü səhər – axşam-səhər, gecə-gündüz
   B) şəmsü qəmər – Günəş və Ay
   C) şəmi-rüx – üzün şamı, üzün işığı
   D) xuni-ciyər – ciyər qanı
   E) badi-həva – səhər mehi

6. İ.Nəsiminin *"Çıxdı içimdən tütün, çərxi boyadı bütün"* misrasında hansı məcaz növü vardır?
   A) mübaliğə B) metafora
   C) bədii sual D) metonimiya E) bədii təzad

7. İ.Nəsiminin aşağıda verilən misralarından biri ilə bağlı məşhur bir rəvayət yaradılmışdır:
   A) Səndən iraq, ey sənəm, şamü səhər yanaram.
   B) Çıxdı içimdən tütün, çərxi bürüdü bütün.
   C) Zahidin bir barmağın kəssən, dönüb həqdən qaçar.
   D) Mən surəti-mənidə həqqəm, həqq.
   E) Mən atəşi-eşqi-nuri-həqqəm.

8. Adları çəkilən şairlərdən ikisi İ.Nəsiminin ana dilində yazan sələflərindən hesab oluna bilər:
   1. Marağalı Övhədi 2. Arif Ərdəbili
   3. Qazi Bürhanəddin 4. Şah İsmayıl Xətai
   5. Qul Əli
   A) 1, 3 B) 2, 4 C) 3, 5 D) 4, 5 E) 3, 4

9. Adları çəkilən sənətkarlardan ikisi İ.Nəsiminin dövründən və həyatından bəhs edən epik əsər yazmışdır.
   1. B. Vahabzadə 2. İ. Hüseynov (Muğanna)
   3. Qabil 4. F. Kərimzadə 5. Ə. Kürçaylı
   A) 1, 2 B) 2, 3 C) 3, 4 D) 4, 5 E) 3, 5

10. İ.Nəsiminin həyat və fəaliyyəti ilə bağlı düzgün fikirləri seçin.
    1. XIV əsrin sonları, XV əsrin əvvəllərində yaşamışdır.
    2. İlk təhsilini Suriyada almışdır.
    3. "Yanaram" rədifli qəzəli həzəc bəhrindədir.
    4. Anadilli qəzəlin ilk nümunələrini yaratmışdır.
    5. Əsərləri Bakıda dəfələrlə nəşr edilmişdir.
    A) 1, 2 B) 1, 3 C) 1, 5 D) 3, 5 E) 4, 5

Şah İsmayıl Xətai
(1487 – 1524)

Şah İsmayıl Xətai dövlət xadimi, lirik və epik növlərdə gözəl əsərlər yaradan, heca vəzninin mövqeyini möhkəmləndirən, onu anadilli ədəbiyyatımız üçün sabitləşdirən, Azərbaycan dilini dövlət dili səviyyəsinə qaldıran hökmdar-şair olmuşdur.

Həyatı

Şah İsmayıl Xətai 1487-ci ildə Ərdəbildə təriqət başçısı ailəsində doğulmuşdur. Səfəvilər sülaləsindən olan babası Şeyx Cüneyd və atası Şeyx Heydər Ərdəbil hakimi olmuşlar. Anası Aləmşah bəyim Ağqoyunlu hökmdarı Uzun Həsənin qızı idi. Atası Şeyx Heydər Şirvanşahlarla müharibədə öldürülmüş, ailə üzvləri isə İstəxr qalasına salınmışdır. Həbsxanadan azad olunduqdan sonra İsmayıl Lahicanda görkəmli alim Şəmsəddin Lahicidən ərəb, fars dillərini və Quran oxumağı öyrənmişdir.

O, 1499-cu ilin avqustunda Lahicandan Ərdəbilə yola düşür. Yolda onun dəstəsinə bir çox türk tayfalarından olan tərəfdarları da qoşulur. 1500-cü ilin qışını Ərçivanda, yazını Göyçə gölü sahilində keçirib, Ərzincana gəlir. 1501-ci ildə Bakını tutur, Şərurda Ağqoyunlu Əlvənd Mirzəni məğlubiyyətə uğradıb, Təbrizə daxil olur və özünü şah elan edir. Onun şahlıq dövründə vahid Azərbaycan dövləti yaranmışdır. Sarayda, orduda və diplomatik yazışmalarda Azərbaycan türkcəsi işlədilirdi.

Şah İsmayıl hərbi yürüşlərini uğurla davam etdirib, Azərbaycan dövlətinin sərhədlərini xeyli genişləndirir. Get-gedə Səfəvilərin Osmanlı mperiyası ilə münasibətləri kəskinləşdi, nəticədə Çaldıran döyüşündə əfəvilər məğlub oldular.

Şah İsmayılın öz məğlubiyyətindən qəzəblənərək qılıncı ilə topun əsini qırmasını eşidən Sultan Səlim həmin qılıncı gətizdirir. O da

həmin qılıncla topun lüləsini qırmaq istəyir. Lakin topun lüləsi qırılmır. Sultan ona İsmayılın başqa qılınc verdiyini söylədikdə İsmayıl deyir: "Qılınc həmin qılıncdır, təəssüf ki, qol həmin qol deyil".

Çaldırandakı məğlubiyyətindən sonra Şah İsmayıl ölkənin daxili vəziyyətini sabitləşdirməklə bağlı müəyyən tədbirlər gördü. Elə 1523-cü ildə Şirvanşahın qızı ilə evlənməsi də belə tədbirlərdən biri idi. 1524-cü ildə vəfat edən Şah İsmayıl Ərdəbildə Şeyx Səfi məqbərəsində dəfn olunmuşdur.

Yaradıcılığı

Yeniyetməlik dövründə bədii yaradıcılığa başlayan Xətai ilk şeirlərini Y.İmrənin, Q.Bürhanəddinin, İ.Nəsiminin, N.Kişvərinin təsiri ilə yazmışdır. Poeziyasının formalaşmasında isə XVI yüzilliyin əvvəllərində yaşamış Həbibi, Şahi, Süruri kimi sənətkarların yaradıcılığı bədii zəmin rolunu oynamışdır.

Sələflərindən fərqli olaraq, ana dilində yazdığı **"Divan"**ına əruz vəznində şeirlərlə bərabər, ilk dəfə heca vəzninin qoşma, gəraylı, varsağı və bayatı janrlarını da daxil etmişdir. Əruz vəznindəki şeirlərini qəzəl, qəsidə, qitə, mürəbbe, tərcibənd janrlarında yazmışdır. Didaktik mənzumələrini, **"Nəsihətnamə"** və **"Dəhnamə"** poemalarını məsnəvi formasında yazmışdır. **"Nəsihətnamə"** epik əsər sayılsa da, bu əsərdə süjet xətti yoxdur. Bütövlükdə dini-fəlsəfi və əxlaqi-tərbiyəvi nəsihətlərdən ibarətdir.

Xətai əsərlərinin çoxunu Azərbaycan dilində, az bir qismini isə fars və ərəb dillərində yazmışdır.

Xətainin qoşma və gəraylılarının ana xəttini təşkil edən və ədalətsizliyə etiraz, bərabərliyə çağırış rəmzi olan şiə-qızılbaşlıq təriqətinin tərənnümü üç məqsədə xidmət edirdi:

1) **dövlət qurmağa;**
2) **qurduğu dövlətin siyasi-ideoloji əsaslarını möhkəmləndirməyə;**
3) **ölkənin əhalisini bir bayraq və bir ideya ətrafında birləşdirməyə.**

O, imam Əlini təriqət mürşidi, mərdlər şahı, Allahdan və Məhəmməd peyğəmbərdən sonra ən böyük qüdrət sahibi adlandırır.

Özünü Əlinin varisi adlandırır, qızılbaşları onun yolunda vuruşmağa, şəhid olmağa səsləyir:

Mənim yolumda yektalar gərəkdir,
Dini, imanı yəğmalar gərəkdir.
Mənəm Sultan Xətai Heydər oğlu,
Mənim yolumda qovğalar gərəkdir.

Xətai sufilik görüşlərinin təbliğinə həsr etdiyi şeirlərində fanatizmi, ehkamçılığı rədd edir, mənəvi azadlıq ideyaları yayır, bir növ, Nəsiminin "Ənəlhəq" fikrinə şərik çıxaraq özünü "həqqi-mütləq" adlandırır:

Ənəlhəq sirri uş könlümdə gizli
Ki, həqqi-mütləqəm, həq söylərəm mən.

Şair güzgüsü – daxili aləmi saf olan insanı yüksək qiymətləndirməklə onu Allaha bərabər tutur. Belə insanlara müraciətlə deyir:

Sufi isən, alıb-satma,
Halalına haram qatma,
Yolun əyrisinə getmə,
Doğru yola nəzər eylə.

Həm əruz, həm də heca vəznində məhəbbət mövzusunda yazdığı şeirlərdə eşqi mənəvi ucalıq yolu hesab edir, məhəbbəti "yerin, göyün dirəyi" kimi tərənnüm edir:

Məhəbbətdir yerin, göyün dirəyi,
Məhəbbət edənin yanar çırağı.
Aşiqə beytullah-məşuq durağı,
Həq nəzər etdiyi yerdir məhəbbət.

Qoşmalarının birində o, məhəbbəti Haqqın – Tanrının simvolu kimi mənalandırır, məhəbbəti saflığın göstəricisi kimi dəyərləndirir:

Məhəbbət dediyin xaslar xasıdır,
Məhəbbət olmayan haqqın nəsidir?
Dost Xətainin bu, haq nəfəsidir,
Məhəbbətdən keçən haqdan da keçər.

Xətainin də tərənnüm etdiyi məhəbbət Nizami, Nəsimi, Kişvəri, Həbibi və başqalarının əsərlərində olduğu kimi, ikili səciyyə daşıyır. Belə ki, onun lirik qəhrəmanı Aşiq, bir tərəfdən, ilahi məhəbbət yolçusu,

xoşbəxtliyi Tanrıya qovuşmaqda görən sufidirsə, ikinci tərəfdən, o, səadəti mövcud həyatda, real insanda görən bir gəncdir.

Xətainin **"Bahar oldu ki, aləm gülşən oldu"** mətləli qəzəli peyzaj lirikasının nümunəsi olmaqla, yazın gəlişi ilə canlanan təbiəti əks etdirir:

Bahar oldu ki, aləm gülşən oldu,
Gözün aç, gör cahan nə rövşən oldu.
Bəzəndi hər bir ağac bir gül ilə,
Ağaclar cümlə gülpirahən oldu.
Açıldı yazılər, bitdi çiçəklər,
Gül ilə şol bənəfşə, süsən oldu.
İrişdi vədəsi badi-xəzanın,
Bəhər su gəl həzəran xərmən oldu.

"Mövsimi-qış getdi..." misrası ilə başlayan qəzəlində Novruzun gəldiyi vaxtda baharın təbiətə gətirdiyi füsunkarlıq insan gözəlliyi ilə vəhdətdə təqdim olunur və insan həmin füsunkarlığı heyran qoyur:

Bağçayə seyranə çıxdı gəşt üçün ol gülüstan,
Gül xəcalətdən qızarıb, şərmsar oldu yenə.
Qamətindən bəhs edərdi daima ol sərvi-bağ,
Gör xəcalətdən ona mənzil-kənar oldu yenə.
Gül yüzünü görəli artdı fəğanı quşların,
Lal ikən bülbüllərin sövti hezar oldu yenə.

"Ayrılır" qəzəli

Nəsiminin eyni rədifli şeirinə nəzirə yazılmış bu qəzəl məhəbbət mövzusundadır.

Nəsimi kimi, Xətai də birinci beytdə **müsəlmanlara** xitabla başlayır. Aşiqə "yari-pünhan", "yari-sərdar" adlandırdığı sevgilisindən ayrılığı ruhun bədəndən uçması, ağlın başdan, ruhun candan çıxması qədər əzablı görünür. Bu ayrılıq iki dünyanın bir-birindən qopub hər birinin köməksiz qalmasıdır:

Ey müsəlmanlar, bu gün ol yari-pünhan ayrılır,
Uçdu ruhum, getdi əqlim, gövdədən can ayrılır.
Ayrılır ol yari-sərdarım, gedir, qoymuş məni
Səd həzəran dadü bidad, bəndədən can ayrılır.

Üçüncü beytdə **könlünə** müraciət edən Aşiq "şahi–sultan" adlandırdığı sevgilisinin könül şəhərindən ayrıldığını deyir. Dördüncü beytdə könlünü bülbül kimi göz yaşı tökməyə, gül kimi yaxasını cırmağa çağırır. Məşuqunu "yari-həmdəm" adlandırır:

Ey könül, fəryadü nalə vaxtıdır, eylə fəğan,
Şimdi şəhrindən sənin ol şahi–sultan ayrılır.
Zar qıl bülbül kimi, çak et yaxanı gül kimi,
Şol əzəldən yari-həmdəm, əhdü-peyman ayrılır.

Beşinci beytdə **gözlərinə** müraciət edərək ağlamağa çağırır və sevgilisini "gövhəri-kan" (daş-qaş mədəni) adlandırır.

Altıncı beytdə sevgilisinin ayrılığından axıtdığı göz yaşını dəryalara bənzədir.

Nəhayət, məqtə – yeddinci beytdə **özünə** müraciətlə Tanrıdan razılıq edir:

Ey Xətai, Tanrı sorsun bu şikəstə könlümü,
Zərd olubdur arizin, andan məgər qan ayrılır?

Şeirin ilk misrası, qafiyə sözlər Nəsiminin qəzəlindən götürülmüş, şeir əruzun rəməl bəhrində yazılmışdır. Nəsimidən fərqli olaraq, Xətai bu qəzəlində dörd obyektə (müsəlmanlara, könlünə, gözlərinə, özünə) müraciət etmişdir. Qəzəlin dili aydındır, ərəb-fars mənşəli sözlər nisbətən az işlənmişdir.

"Dəhnamə" poeması (1506)

Azərbaycan ədəbiyyatında "Dəhnamə" yazmaq ənənəsi olmuşdur. "Dəhnamə" on məktub deməkdir. Xətainin **"Dəhnamə"**sindən əvvəl Hümam Təbrizi, Marağalı Övhədi bu ad altında fars dilində əsərlər yazmışlar. Xətainin həcmcə ən iri əsəri olan və nikbin sonluqla bitən bu poeması onaqədərki "Dəhnamə"lərdən, xüsusən Övhədinin eyniadlı məsnəvisindən fərqlənir. Belə ki, Xətai bu əsərini Azərbaycan dilində yazmış, insanın pəriyə vurulmasını, öz dəyanəti, fədakarlığı sayəsində onu ram etməsini təsvir etmişdir. Əsərinə **Bağban, Huş, Ah** və **Göz yaşı** kimi simvolik surətlər də əlavə etmişdir.

Poemanın mövzusu məhəbbət, əsas ideyası məhəbbət uğrunda fədakarlıqdır. Müəllif bu ideyanı Aşiqin simasında əyaniləşdirir. Həqiqi aşiqlərin dözümlü olması, onların vüsala yüksək iradə ilə çatması,

xoşbəxtliyin real yolunun mənəvi saflıq olması, daxilən təmiz olanların həqiqi məhəbbətə layiq olması "Dəhnamə"də irəli sürülən əsas fikirlərdir.

Əsərin qəhrəmanı vəfalı, iradəli, dözümlü Aşiqdir. Bu xüsusiyyətlərinə görə o, pərilər məkanındakı Bağbanın rəğbətini qazanır. Səbanın, Huşun, Ahın və Göz yaşının yardımından, Bağbanın və məktəb yoldaşının məsləhətlərindən faydalanaraq, Məşuqəyə məktublar göndərir. Daha səbirli və inadkar olur. Məşuqəni məhəbbətinin həqiqiliyinə inandırmağı bacarır. Vüsala çatır.

Aşiqdən sonra ikinci surət Məşuqədir. O, pərilər bağında, cinlər gülzarında yaşayır. Ətrafında gəzənlər və qulluğunda duranlar hurilər, pərilər və insanlardır. Gözəlliyi və məğrurluğu ilə öyünən bu qız Aşiqin ilk məktubundan qəzəblənir, qasidi – Səbanı qovur, Bağbana acıqlanır, hətta yenidən onun yanına gələn Səbanı həbsə salır. Göz yaşının üçüncü elçiliyindən sonra ürəyi yumşalır, Aşiqin halını xəbər alır, Səbanı azad edir. Aşiqin dözümlü və iradəli olmağını yüksək qiymətləndirir, bu cəhətlərinə görə Aşiqi vüsal xoşbəxtliyi ilə mükafatlandırır: onu görüşə dəvət edir.

Bədii xüsusiyyətləri. Əsərdə mifik düşüncə məhəbbət haqqında sufi görüşlərlə vəhdətdə verilir. Burada təriflənən vəfa, sədaqət, sabitqədəmlik ilahi eşqin atributlarıdır. Sufizmə görə, ilahi eşqə yetişməyin yolu pərilər – mələklər aləmindən keçdiyindən Aşiqlər vəhdət məqamına mələklərlə görüşdükdən sonra yüksəlirlər. Ona görə də vüsala çatandan sonra Aşiq Məşuqədən halallıq istəyib ayrılır. Bu ayrılma özlüyündə Aşiqin həqqə yetmək yolunda bir mərhələni qurtarıb növbəti mərhələyə keçməsində körpüdür. Növbəti – son mərhələ isə həqqə – vüsala yetmək mərhələsidir. Aşiq həqqə doğru yolunu davam etdirməli olduğundan bu ayrılma labüddür.

"Dəhnamə" də həm əsatiri – mifik, həm ilahi – sufi, həm də real – dünyəvi sevginin əlamətlərini görmək mümkündür.

Süjet xəttində hadisələr aşağıdakı ardıcıllıqla inkişaf edir:

1. Aşiqin yatıb yuxuda Məşuqəni görməsi – bədii müqəddimə (ekspozisiya).
2. Aşiqin Bağbanla qarşılaşması – bədii düyün (zavyazka).
3. Göz yaşının özünün üçüncü dəfə Məşuqənin yanına gəlməsi – zirvə (kulminasiya nöqtəsi).

4. Həbsdən azad olan Səba vasitəsilə Məşuqənin Aşiqi vüsala dəvət etməsi – düyünün açılması (razvyazka).
5. Aşiqin vüsala çatıb, əhdü-peymanla Məşuqədən ayrılması – sonluq (final).

Əsərin kompozisiyası da maraqlı qurulmuşdur. Klassik ənənələrə uyğun olaraq, poemanın əvvəlində rəsmi giriş-minacat, nət və meracnamə verilir. Bunlardan sonra Əlinin və başqa imamların tərifinin verilməsi, **"Bahariyyə"** hissəsinin əlavə olunması poema yaradıcılığına Xətainin gətirdiyi yeniliklərdir. Yazın gəlişi və çöl-tərəkəmə həyatının əks olunduğu **"Bahariyyə"**də insanın eşqə düşməsi təbii görünür:

Qış getdi, yenə bahar gəldi,
Gül bitdivü laləzar gəldi.
Quşlar qamusu fəğanə düşdü,
Eşq odu yenə bu canə düşdü...

"Bahariyyə"dən sonra Aşiqin əhvalı, yuxuda Məşuqəyə vurulması, könlündən şikayəti, Tanrıya yalvarışları, Aşiqin bir-biri ilə əlaqələnən məktubları, Aşiqin və Məşuqənin dilindən deyilən qəzəllər verilir. "Dəhnamə"nin əsas janrı məsnəvi-poema olsa da, bu əsərə 26 qəzəldən başqa, Həzrət Əliyə ithaf olunan bir mürəbbe də daxil edilmişdir. Poemanın kompozisiyası əsərin yazılma tarixi, bitməsi və yazılma səbəbləri (Allahın birliyini və özünün ona bəndəliyini bildirmək; qəmli könülləri şadlandırmaq, özündən sonra bir nişanə qoymaq) haqda izahatla tamamlanır.

"Dəhnamə"nin leksikasında ərəb-fars mənşəli sözlərin, müqəddəs Qurandan götürülmüş ifadə və ayələrin olmasına baxmayaraq, dili nisbətən sadədir. Hətta başdan-başa türk sözlərindən ibarət misra və beytlər də var:

Hər gözüm əgər olursa yüz göz,
Bir yüzüm əgər olarsa yüz-yüz,
Səndən kəsəmən o gözlərimni,
Sallam ayağına yüzlərimni.

Poema əruz vəzninin həzəc bəhrində – məfUlü, məfAilün, fəUlün ölçüsündə yazılmışdır.

"Dəhnamə" poemasının qısa məzmunu

Eşqə biganə olan, sevənləri "əbləh" (ağılsız) adlandıran bir nəfər bağda yatarkən yuxuda bir gözəl görür və ona vurulur, aşiq olur. Qəmli, kədərli günlər keçirən Aşiq sevgilisinin kimliyini və harada olmasını bilmir. Allaha yalvararaq ondan kömək istəyir. Hatifdən gələn səs onun sevgilisinin pərilər bağında yaşayan pəri olduğunu bildirir. Hatifin göstərişi ilə pərilər bağına gələn Aşiq burada Bağbanın sərt müqavimətinə rast gəlir. Sonradan Aşiqi başa düşən Bağban ona Səbanı tapıb Məşuqəyə onunla məktub göndərməyi məsləhət görür. Aşiq Səbanı bir çəməndə tapır. Dərdini ona danışır. Səba birinci məktubu Məşuqəyə aparmağa razılıq verir. Birinci məktubda Aşiq Məşuqənin gözəlliyini təsvir edir.

Məşuqə birinci məktubu cırıb atır, Səbanı qovur, özünü öyür. Aşiq ikinci məktubla Səbanı yenə Məşuqənin yanına göndərir. Bu dəfə də Məşuqə məktubu cırıb atır. Öz bəxtindən gileylənən Aşiq Səbanı üçüncü məktubla Məşuqənin yanına göndərir. Məşuqə (Xətai bu yerdə Məşuqəni türki-tənnaz, yəni türk gözəli adlandırır) bu dəfə Səbanı həbs edir.



"Dəhnamə" poemasında Aşiqin Məşuqəyə ikinci məktubu

(rəssamı: Maral Rəhmanzadə)

Taleyindən şikayətlənən Aşiq öz halını könül dostu bildiyi məktəb yoldaşına danışır. Məktəb yoldaşı Aşiqə məsləhət görür ki, səbirli olsun, yenə Məşuqəyə məktub yazsın.

Aşiq dördüncü məktubu Huşla göndərir. Məşuqənin yenə acığı tutur. Beşinci məktubu da aparan Huş yenə Məşuqədən ürəkaçan bir xəbər gətirmir.

Taleyindən şikayətlənən Aşiq yenə dostuna üz tutur. Dostu bir məktub yazmağı da məsləhət görür. Altıncı məktub Ah vasitəsilə göndərilir. Ah məktubu Bağbana verir. Aşiq yeddinci məktubu Göz yaşı ilə göndərir. Bağban Məşuqəyə bildirir ki, Aşiq ona məktubla bərabər, töhfə də göndərib. Məşuqə Aşiqi əbləh və muradsız adlandırmaqla onun ünvanına ümidsizlik dolu şeir söyləyir. İkinci dəfə Məşuqənin yanına yollanan Göz yaşı səkkizinci məktubla birlikdə Aşiqin hədiyyələrini də aparır. Bağban Göz yaşının hədiyyələrlə gəldiyini Məşuqəyə deyir. Məşuqə Göz yaşını qəbul edir və Aşiqin fədakarlığını qiymətləndirir. Göz yaşı sevincək bu xəbəri Aşiqə çatdırır. Aşiq Göz yaşını və Məşuqəni tərifləyir.

"Dəhnamə" poemasında Məşuqədən Aşiqə məktub

(rəssamı: Maral Rəhmanzadə)

Doqquzuncu məktubdan sonra ürəyi yumşalan Məşuqə üçüncü dəfə onun yanına gələn Göz yaşını tərifləyir, Səbanı azad edir. Məşuqə Aşiqi vüsala dəvət edir. Bu müjdəni Aşiqə Səba verir.

Dördüncü dəfə Məşuqənin yanına gələn Səba Aşiqin onuncu məktubunu və şeir hədiyyəsini də gətirir.

"Dəhnamə" poemasında Aşiq ilə Məşuqənin görüş səhnəsi

(rəssamı: Maral Rəhmanzadə)

Aşiq vüsala çatır, Məşuqə onun səbrini tərifləyir. Sonda Aşiq halallıq istəyib Məşuqədən ayrılır.

"Dəhnamə" poemasında Məşuqənin Aşiqi yola salması

(rəssamı: Maral Rəhmanzadə)

Yaddaş

Ş.İ.Xətainin həyat və yaradıcılığı ilə bağlı yaddaş

- ✓ 1487-ci ildə Ərdəbildə təriqət başçısı ailəsində doğulmuşdur.
- ✓ Hələ uşaq ikən həbs olunaraq İstəxr qalasına salınmışdır.
- ✓ 1501-ci ildə özünü şah elan etmişdir.

- ✓ Hakimiyyət dövründə Azərbaycan ərazilərini genişləndirmiş, Azərbaycan türkcəsini dövlət dili səviyyəsinə qaldırmışdır.
- ✓ 1524-cü ildə vəfat etmiş və Ərdəbildə dəfn olunmuşdur.
- ✓ Qazi Bürhanəddin, Cahanşah Həqiqi kimi hökmdar şair olmuşdur.
- ✓ Lirik və epik növdə əsərlər yazmışdır.
- ✓ Y.İmrənin, Q. Bürhanəddinin, Nəsiminin, Kişvərinin təsiri ilə şeirlər yazmışdır.
- ✓ Əsərlərini Nəsimi, Füzuli kimi Azərbaycan, fars və ərəb dillərində yazmışdır.
- ✓ "Nəsihətnamə", "Dəhnamə", "Divan" və didaktik mənzumələr müəllifidir.
- ✓ Dövlət qurmuş, onu möhkəmləndirmək və əhalini birləşdirmək üçün şiəliyi təbliğ etmişdir.
- ✓ Allaha böyük inam bəsləmiş, sufi görüşlərinə, Nəsiminin "Ənəlhəq" fikrinə müsbət yanaşmışdır.
- ✓ Məhəbbəti həyatın mənası, "yerin-göyün dirəyi" kimi tərənnüm etmiş, onu Tanrının təzahürü kimi mənalandırmışdır.
- ✓ "Bahar oldu ki, ...", "Mövsimi-qış getdi ..." qəzəllərində, "Dəhnamə"nin "Bahariyyə" hissəsində peyzaj lövhələri yaratmışdır.
- ✓ Nəsiminin eyni rədifli şeirinə nəzirə yazdığı "Ayrılır" qəzəlində dörd varlığa (müsəlmanlara, könlünə, gözlərinə, özünə) müraciət etmişdir.
- ✓ Nikbin sonluqla bitirdiyi, həzəc bəhrində yazdığı "Dəhnamə" poemasında, M.Övhədidən fərqli olaraq, simvolik obrazlar da yaratmışdır.
- ✓ Aşiq məhz dözümlü olduğuna görə Məşuqənin qəlbini fəth edə bilir.
- ✓ Xətai "Dəhnamə"də 26 qəzəldən və 1 mürəbbedən də istifadə etmişdir.
- ✓ Poemada Qurandan götürülmüş ayələrdən istifadə edilmişdir.
- ✓ Poemanın başlıqları fars dilindədir.

ariz yanaq
badi-xəzan payız küləyi
beytullah Allahın evi (Kəbə və Məkkəyə verilən ad)
bəhər hər halda
bəhri-ümman dəniz
çak etmək yırtmaq, cırmaq
didaktik əxlaqi-tərbiyəvi
diplomatik xarici siyasətə aid
ənəlhəq Mən haqqam (Mənsur Həllacın dara çəkilərkən söylədiyi sözdür).
fəğan fəryad, nalə
firqət ayrılıq
gülşən güllük, gülüstan
gülzar güllük, gülüstan
gövhəri-kan daş-qaş mədəni (simvolik mənada)
gəşt gəzinti
hezar min
xas seçilmiş, ən yaxşı
qamu hamı
mifik əsatiri (sifət)
mövc dalğa
pirahən köynək
pünhan gizli
rövşən işıqlı
səd yüz
sədəf inci
süsən iri bənövşəyi, göy və ya sarımtıl gülləri olan bitki
sərdar başçı
sufi dindən, dini görüşlərdən əsla kənara çıxmayan adam, zahid
sufizm sufilik, eşqlə Allaha qovuşma təlimi
şərmsar utancaq, xəcalətli
şikəstə sınıq, xəstə
şol o
təriqət yeni məzhəb qəbul etmiş adamlardan ibarət cəmiyyət
zar qılmaq ağlamaq
zərd sarı
yazı çöl (qədim Azərbaycan sözüdür)



A varianti

1. Şah İsmayıl Xətai ərəb, fars dillərini və Quran oxumağı kimdən öyrənmişdi?
   A) babası Şeyx Cüneyddən
   B) atası Şeyx Heydərdən
   C) Əlvənd Mirzədən
   D) anası Aləmşah bəyimdən
   E) Şəmsəddin Lahicidən

2. Şah İsmayıl Xətainin həyat və fəaliyyəti ilə bağlı doğru fikri müəyyən edin.
   A) Çaldıran döyüşündən sonra ölkədə sabitləşmə ilə bağlı tədbirlər görə bilmədi.
   B) Onun şahlıq dövründə vahid Azərbaycan dövləti yaranmışdır.
   C) O, şahlıq dövründə Azərbaycan dilinin əhatə dairəsini ancaq bədii ədəbiyyat sahəsində genişləndirmişdir.
   D) Təsadüf nəticəsində ailə üzvləri ilə birlikdə İstəxr qalasına düşməkdən xilas olmuşdur.
   E) 1501-ci ildə Bakıda özünü şah elan etmişdir.

3. Xətainin yaradıcılığının formalaşmasında rolu olan sənətkarlardan biri ***doğru verilməmişdir:***
   A) N.Kişvəri
   B) İ. Nəsimi
   C) İ.Həsənoğlu
   D) Q.Bürhanəddin
   E) Y.İmrə

4. Vahid süjet xəttinin olmamağı baxımından Xətainin "Nəsihətnamə" məsnəvisi aşağıdakı əsərlərdən hansılara oxşayır?
   1. "Töhfətül-İraqeyn" (Ə.Xaqani)
   2. "Dastani-Əhməd Hərami"
   3. "Sirlər xəzinəsi" (N.Gəncəvi)
   4. "Xosrov və Şirin" (N.Gəncəvi)
   5. "Bəngü Badə" (M.Füzuli)
   A) 1, 3 B) 2, 5 C) 1, 3, 5 D) 3, 4 E) 2, 4, 5

5. Özünü "Həqqi-mütləq", Əlinin varisi adlandırılan sənətkar kimdir?
   A) Ş.İ.Xətai
   B) İ.Nəsimi
   C) N.Kişvəri
   D) Q.Bürhanəddin
   E) Həbibi

6. Ş.İ.Xətai bədii yaradıcılığında kimi Allaha bərabər tutur?
   A) ölkənin əhalisini bir bayraq, bir ideya ətrafında birləşdirməyə çalışanları
   B) səadəti mövcud həyatda görən gəncləri
   C) İmam Əlini təriqət mürşidi, mərdlər şahı adlandıranları
   D) daxili aləmi saf olan insanları
   E) ədalətsizliyə etiraz edənləri

7. Ş.İ.Xətai yaradıcılığı ilə bağı məntiqi ardıcıllığı tamamlayın:
   "Nəsihətnamə", "Dəhnamə", "Divan", ...
   A) didaktik mənzumələr
   B) bədii nəsr nümunələri
   C) alleqorik əsərlər
   D) heca vəznində yazılmış epik əsərlər
   E) müxəmməslər

8. Ş.İ.Xətai hansı janrda yazdığı şeirində məhəbbəti Haqqın-Tanrının simvolu kimi mənalandırır?
   A) qəsidə B) məsnəvi C) qoşma D) qəzəl E) gəraylı

9. *"Bəzəndi hər bir ağac bir gül ilə,*
   Ağaclar cümlə gülpirahən oldu", – deməklə Xətai nəyi əks etdirir?
   A) baharın gətirdiyi füsunkarlıqla insan gözəlliyinin vəhdətini
   B) insanın təbiət gözəlliyinə heyran qalmasını
   C) çöl-tərəkəmə həyatını
   D) yazın gəlişi ilə təbiətin canlanmasını
   E) Novruzun gəlişini

10. Aşağıdakı fikirlərdən ancaq biri doğrudur:
    Xətainin ...
    A) "Dəhnamə" poemasında təbiət təsvirinə yer ayrılmamışdır.
    B) Epik əsərlərində peyzaj lövhələrinə təsadüf olunmur.
    C) "Bahar oldu ki, aləm gülşən oldu" mətləli qəzəlində çöl-tərəkəmə həyatına yer ayrılmamışdır.
    D) "Mövsimi-qış getdi..." mətləli qəzəlində insan gözəlliyi təbiət gözəlliyindən üstün təqdim olunur.
    E) "Nəsihətnamə" məsnəvisində də peyzaj lirikası üstünlük təşkil edir.

B variantı

1. Şah İsmayıl Xətainin "Mövsimi–qış getdi..." misrası ilə başlayan qəzəli lirikanın hansı növünə daxildir?
   A) məhəbbət
   B) peyzaj
   C) fəlsəfi
   D) siyasi
   E) əxlaqi-tərbiyəvi

2. "Ayrılır" qəzəlinin hansı beytində Xətai Tanrıdan razılıq edir?
   A) mətlə
   B) məqtə
   C) ikinci
   D) üçüncü
   E) beşinci

3. Xətai "Ayrılır" qəzəlinin ... Nəsiminin eyniadlı şeirindən götürmüşdür. Bu cümlədə nöqtələrin yerinə hansı ifadələri əlavə etmək olar?
   A) müraciət olunan dörd obyekti, ərəb-fars sözlərini
   B) ilk beytini, qafiyə sözlərini
   C) sonuncu misrasını, rədifini
   D) ilk misrasını, qafiyə sözlərini
   E) ilk müraciət obyektini, ilk beytini

4. Xətainin "Ayrılır" qəzəli Nəsiminin eyniadlı qəzəlindən fərqlənir:
   A) dörd müraciət obyektinin olması ilə
   B) rəməl bəhrində yazılması ilə
   C) müsəlmanlara xitabla başlaması ilə
   D) məhəbbət mövzusunda olması ilə
   E) lirik qəhrəmanın dilindən deyilməsi ilə

5. Xətainin "Ayrılır" qəzəlində köməksiz qalan Aşiq aşağıdakı varlıqlardan birinə müraciət edir:
   A) Tanrıya B) yari-sərdara
   C) könlünə D) dostuna E) əğyara

6. "Ayrılır" qəzəlində Xətai dörd müraciət obyektindən istifadə etməklə nəyi dərindən bildirmək istəmişdir?
   A) aşiqin dözümlü və səbirli olduğunu
   B) aşiqin öz eşqinə sədaqətini
   C) vida zamanı Aşiqin keçirdiyi iztirabları
   D) sevgilisinin ondan ayrılmaq istəmədiyini
   E) insanlardan yardım istədiyini

7. Xətaiyə görə, kimlər Tanrını tanımır?
   A) baharın gəlişinə sevinməyənlər
   B) məhəbbətdən uzaq olanlar
   C) sufilər
   D) real məhəbbətə üstünlük verənlər
   E) aşiqinə əzab verənlər

8. Xətai dilbər, dost, məşuq dedikdə nəzərdə tutmuşdur:
   A) bülbülü B) pərini
   C) aşiqi D) gülü
   E) Allahı

9. Xətai, əsasən, hansı janrlarda yazdığı əsərlərində qurduğu dövlətin siyasi-ideoloji əsaslarını möhkəmləndirməyi təbliğ edirdi?
   1. qəsidə 2. qoşma 3. poema 4. qəzəl 5. rübai 6. gəraylı
   A) 2, 3, 4, 6 B) 1, 3, 4, 5
   C) 4, 5 D) 4, 5, 6 E) 2, 6

10. *"Ənəlhəq sirri üş könlümdə gizli*
    Ki, həqqi-mütləqəm, həq söylərəm mən".
    Bu nümunədə Xətai özünü "həqqi-mütləq" adlandırmaqla kimin fikrinə şərik çıxır?
    A) Nəsiminin
    B) Həbibinin
    C) Kişvərinin
    D) Həsənoğlunun
    E) Nizaminin

C variantı

1. Azərbaycan ədəbiyyatında Xətaidən əvvəl "Dəhnamə" müəllifi olan sənətkarları müəyyən edin.
   A) Hümam Təbrizi, İmadəddin Nəsimi
   B) Marağalı Övhədi, Nemətullah Kişvəri
   C) Hümam Təbrizi, Marağalı Övhədi
   D) Qazi Bürhanəddin, Yunis İmrə
   E) Yunis İmrə, Həbibi

2. "Dəhnamə" poemasındakı Məşuqə surətinə aid verilən fikirlərdən biri ***səhvdir:***
   A) Mifik surətdir.
   B) Səbanın üçüncü elçiliyindən sonra Aşiqi görüşə çağırır.
   C) Aşiqin ilk məktubunu gətirən elçini qovur.
   D) Aşiqin fədakarlığını gördükdən sonra yumşalır.
   E) Məğrur, gözəlliyi ilə öyünən pəridir.

3. Ş.İ.Xətainin məhəbbət lirikasına dair fikirlərdən biri ***doğru deyil:***
   A) Heca vəznində də şeirləri var.
   B) Eşqə ali hiss kimi baxır.
   C) Məhəbbəti birbaşa Tanrının simvolu, təzahürü adlandırır.
   D) Məhəbbətə insandakı keyfiyyətlərin ən yaxşısı kimi baxır.
   E) Bir çox klassiklərdən fərqli olaraq, tərənnüm etdiyi məhəbbət ancaq real səciyyə daşıyır.

4. "Dəhnamə" poemasında Aşiq kimin məsləhəti ilə Səbanı elçiliyə göndərir?
   A) Bağbanın B) məktəb yoldaşının
   C) hatifdən gələn səsin D) Huşun
   E) Göz yaşının

5. "Dəhnamə" poeması M.Övhədinin eyniadlı əsərindən fərqlənir:
   A) mövzusuna görə
   B) vəzninə görə
   C) dilinə görə
   D) janrına görə
   E) Aşiq və Məşuqə surətlərinin verilməsinə görə

6. Poema janrındadır, hökmdar surəti var. Bu fikrin ***aid olmadığı*** əsər hansıdır?
   A) "İsgəndərnamə" (N.Gəncəvi)
   B) "Dəhnamə" (Ş.İ.Xətai)
   C) "Xosrov və Şirin" (N.Gəncəvi)
   D) "Yeddi gözəl" (N.Gəncəvi)
   E) "Sirlər xəzinəsi" (N.Gəncəvi)

7. "Dəhnamə"nin süjet xəttindəki hadisələri düzgün ardıcıllıqla sıralayın.
   1. Aşiqin Bağbanla qarşılaşması
   2. Aşiqin yatıb yuxuda Məşuqəni görməsi
   3. Həbsdən azad olan Səba vasitəsilə Məşuqənin Aşiqi vüsala dəvət etməsi
   4. Göz yaşının üçüncü dəfə Məşuqənin yanına gəlməsi
   5. Aşiqin vüsala çatıb, əhdü-peymanla Məşuqədən ayrılması

   A) 4, 2, 1, 3, 5 B) 1, 2, 3, 4, 5
   C) 2, 3, 1, 4, 5 D) 2, 1, 4, 3, 5 E) 2, 4, 1, 3, 5

8. Məşuqənin vəfa qıldığını ilk dəfə Aşiqə kim bildirir?
   A) Göz yaşı B) Bağban
   C) Huş D) Ah E) Səba

9. "Dəhnamə" poemasında qəzəllər hansı surətlərin dilindən verilir?
   A) bütün surətlərin B) Səba və Göz yaşının
   C) Bağban və Ahın D) Huş və Ahın
   E) Aşiq və Məşuqənin

10. Aşağıdakı surətlərdən biri "Dəhnamə" poemasında qasid qismində ***çıxış etmir:***
   A) Səba
   B) Huş
   C) Bağban
   D) Ah
   E) Göz yaşı

Məhəmməd Füzuli
(1494 – 1556)

Məhəmməd Füzuli klassik Azərbaycan ədəbiyyatının inkişafında müstəsna xidmətləri olan, lirik və epik əsərləri ilə söz sənətimizi zənginləşdirən, Azərbaycan dilinə qəzəlləri və "Leyli və Məcnun" poemasına görə "nəzmi-nazik" şöhrəti qazandıran, yeni bir ədəbi məktəbin əsasını qoyan qüdrətli söz sənətkarıdır.

Həyatı

Şairin əsl adı Məhəmməd, atasının adı Süleyman, təxəllüsü Füzuli, nisbəsi isə Bağdadidir. Bir sıra qaynaqlarda şair Molla Məhəmməd Bağdadi kimi təqdim olunur. Bəzən hörmət əlaməti olaraq şairin təxəllüsünün qarşısında Mövlana (bizim ağamız) titulu da işlədilir. Füzuli 1494-cü ildə İraqda – Bağdad yaxınlığındakı Kərbəla şəhərində anadan olmuşdur. Şair qədim oğuz-türk tayfalarının məskən saldığı Kərkük mahalında yaşayıb-yaratmışdır. Qaynaqlar onun türklərin Bayat boyuna mənsub olduğunu göstərir. O, doğulduğu, yaşayıb-yaratdığı Kərbəla şəhəri haqqında qitələrindən birində yazmışdır:

Ey Füzuli, məskənim çün Kərbəladır, şeirimin
Hörməti hər yerdə vardır, xəlq onun müştağıdır.
Nə qızıldır, nə gümüş, nə ləl, nə mirvaridir,
Sadə torpaqdırsa, lakin Kərbəla torpağıdır.

Füzulinin doğulduğu və yaşadığı İraq 1508-ci ilə qədər Ağqoyunlular, 1534-cü ilə qədər Səfəvilər, sonra isə Osmanlı dövlətinin tərkibində olmuşdur. Şairin əsərlərindən onun sadə və təvazökar bir həyat keçirdiyi, öz böyük sələfi Nizami kimi heç bir sarayda yaşamadığı məlum olur. Bununla belə, şair dövrünün hökmdarları ilə əlaqəli olmuşdur. O, "Bəngü Badə" ("Tiryək və Şərab") poemasını Şah İsmayıl Xətaiyə, "Leyli və Məcnun" poemasını isə 1534-cü ildən İraqı öz hakimiyyəti altına alan Osmanlı hökmdarı Sultan Süleyman Qanuniyə ithaf etmişdir. Füzuli

"Bəngü Badə" alleqorik poemasında Tiryək və Şərabın timsalında Şah İsmayıl Xətai ilə Osmanlı hökmdarı Sultan Səlim arasında gedən hakimiyyət çəkişmələrini türkün qüdrətini zəiflədən, son nəticədə bütün türk və islam dünyasına dəyəcək bir zərbə kimi qiymətləndirirdi. "Leyli və Məcnun" poemasına görə Osmanlı hökmdarı Sultan Süleyman Qanuni Füzuliyə 9 axça (gümüş pul) məbləğində təqaüd müəyyən etmişdir. Təəssüf ki, Osmanlı dövlətinin bürokratik sistemi bu təqaüdü almağa şairə imkan verməmiş, o, öz qəzəb və nifrətini "Şikayətnamə" ("Nişançı Paşaya məktub") adlı məktubunda ifadə etmişdir.

Füzuli dövrünün mükəmməl təhsil almış şəxslərindən olmuşdur. Şairin qaynaqlarda "Molla Məhəmməd Bağdadi" və ya "Mövlana Füzuli" kimi qeyd olunması da bilavasitə bununla bağlıdır. Füzuli məslək və əqidəcə də bütöv bir şəxsiyyət olmuş, uzun müddət Kərbəla və Nəcəf şəhərlərində şiə müqəddəslərinin məqbərələrində – İmam Hüseyn və Həzrət Əli türbələrində xidmət etmiş, mömin bir şiə kimi öz insanlıq borcunu yerinə yetirmişdir.

Füzulinin ailə həyatı ilə bağlı məlumatlar azdır. Həmin məlumatlar içərisində yalnız Fəzli adlı bir oğlu olması vardır. Şair "Fəzliyə nəsihət" qəsidəsində öz övladı ilə bağlı qayğılarını ifadə etmişdir. Füzulinin oğlu Fəzli bir şair kimi Bağdad ədəbi mühitinin görkəmli nümayəndəsi olmuşdur. Onun bizə üç qəzəli, bir müstəzadı və bir qoşması gəlib çatmışdır.

Füzuli 1556-cı ildə taun xəstəliyindən Kərbəla şəhərində vəfat etmiş və öz vəsiyyətinə görə İmam Hüseyn məqbərəsinin astanasında dəfn olunmuşdur. Şairin vəfat tarixi çağdaşı olan Əhdi Bağdadinin "Gülşənüş-şüəra" ("Şairlər gülşəni") təzkirəsində əbcəd hesabı ilə "Köçdü Füzuli" sözləri ilə ifadə edilmişdir.

Yaradıcılığı

Füzuli yaradıcılığa çox gənc yaşlarından başlamış, tez bir zamanda məşhurlaşmışdır. Şair bir qitəsində bunu belə ifadə edir:

Seyti-fəsahət ilə sözüm tutdu aləmi,
Mən mədhi-etibardə tifli-zəbun hənuz.
Buyi-xoşumla oldu müəttər dimağlər,
Mən nafeyi-vücuddə bir qətrə xun hənuz.

Füzulinin bədii irsi islam Şərqinin üç aparıcı dilində – türk, fars və ərəb dillərindədir. Onun ədəbi irsi türk (Azərbaycan) və fars dillərində lirik şeir divanları, üç dildə yazılmış qəsidələrdən ibarət olan "Qəsidələr divanı", iki dildə (Azərbaycan və fars) yazılmış poema və nəsr əsərləri, "Hədisi-ərbəin" ("Qırx hədis") tərcüməsi, ərəb dilində yazılmış "Mətləül-etiqad" adlı fəlsəfi traktatdan ibarətdir.

Şeirdən sadəcə forma gözəlliyi deyil, həm də məzmun gözəlliyi və informativlik tələb edən Füzuli Şərq poeziyasının rəngarəng janrlarında əsərlər qələmə almışdır. Şair "Leyli və Məcnun" poemasının müqəddiməsində bu məsələyə toxunaraq yazırdı:

Gəh tərzi-qəsidə eylərəm saz,
Şahbazım olur büləndpərvaz.
Gəh dəbi-qəzəl olur şüarım,
Ol dəbə rəvan verər qərarım.
Gəh məsnəviyə olub həvəsnak
Ol bəhrdə istərəm düri-pak.

Füzuli burada adı çəkilən qəsidə, qəzəl, məsnəvi janrları ilə yanaşı, qitə, rübai, mürəbbe, müxəmməs, tərcibənd, tərkibbənd, təxmis kimi klassik şeir janrlarında da ölməz sənət inciləri yaratmışdır. Hansı janrda yazmasından asılı olmayaraq, həmin janrın verdiyi poetik imkanlar daxilində Füzuli öz sənətini maksimum yüksəkliyə qaldırmağa nail olmuşdur.

Qəsidələri. Klassik Şərq şeirinin ən qədim və dəbdəbəli üslubu ilə seçilən qəsidə janrı Füzuli yaradıcılığında xüsusi yer alır. Şairin üç dildə yazmış olduğu bu sənət örnəkləri ayrıca olaraq "Qəsidələr divanı"nda toplanmışdır. Füzuli həmin "Qəsidələr divanı"na yazdığı dibaçədə (müqəddimədə) bu janrın üstünlüklərini belə qeyd edir:

Məsnəvi üsulu, qəzəl sənəti
Qazanmış olsa da aləmdə şöhrət,
Ancaq bir eybi var: ifratla təfrit
Nə onda dad qoymuş, nə bunda ləzzət.
Təkcə qəsidədir, hər xeyir işdə
Cilvələr saçaraq sayılır sənət.

Füzulinin qəsidələr divanına 85 nümunə daxildir. Onların içərisində azərbaycanca qəsidələr üstünlük təşkil edir (43 azərbaycanca, 30 farsca,

12 ərəbcə). Füzuli qəsidələrində öz sələf və müasirləri kimi zəmanə hökmdarlarını deyil, daha çox islam dininin böyük şəxsiyyətlərini mədh etmişdir.

Şairin qəsidələrində yaşadığı dövrün bir sıra tarixi hadisə və şəxsiyyətləri də öz əksini tapmışdır. Füzulinin "Su", "Gül", "Xəncər" rədifli qəsidələri Azərbaycan dilində qələmə alınmışdır və yüksək bədii səviyyəsi, dərin fəlsəfi ümumiləşdirmələri ilə bu gün də öz əhəmiyyət və aktuallığını qoruyub saxlamaqdadır.

Qitələri. Füzulinin türk (Azərbaycan) divanında qitə janrında olan örnəklər xüsusi yer alır. Şair dərin həyati-fəlsəfi məzmunu ilə seçilən qitələrində bir sıra ictimai-fəlsəfi problemlər qoyaraq, onlar haqqında öz qənaətlərini yüksək bədii dillə ifadə edir. Şair qitələrində hər dəfə konkret bir bədii obyektə üz tutaraq onlara məsləhət və tövsiyələr verir. Bu məsləhət və tövsiyələrin çoxu bu günün özündə də öz aktuallığını saxlayır. Bu baxımdan şairin müəllimə müraciətlə başlayan qitəsi səciyyəvidir:

Ey müəllim, aləti-təzvirdir əşrarə elm,
Qılma əhli-məkrə təlimi-məarif, zinhar.
Hiylə üçün elm təlimin qılan müfsidlərə
Qətli-am üçün verir cəlladə tiği-abidar.
Hər necə cəhd etsə əhli-cəhl, ona olmaz səbat,
Məkri-əhli-elmdir əsli-fəsadi-ruzigar.

Bu qitədə Füzuli göstərir ki, məkr əhlinə elm öyrədən ona baş kəsmək üçün iti qılınc verir.

Qəzəlləri. "Bütün Yaxın Şərqdə dastan dedikdə Firdovsi, rübai dedikdə Xəyyam, əxlaqi-didaktik şeir dedikdə Sədi xatırlandığı kimi, qəzəl dedikdə də hər kəsdən əvvəl Füzuli yada düşür" (Mir Cəlal). Füzuli yaradıcılığının zirvəsini onun türk (Azərbaycan) divanı təşkil edir. Əsasən, qəzəllərdən ibarət olan bu divanda şair bədii sözün heyrətamiz örnəklərini yaratmışdır.

Füzuli qəzəllərinin əsas mövzusunu məhəbbət təşkil edir. Ancaq Füzuli məhəbbəti bu duyğu barədə bizim çağdaş anlayışlarımızdan bir qədər kənara çıxır. Şairin yaradıcılığında irfan–təsəvvüf ideyaları çox aydın görünür. Belə bir vəziyyət təkcə Füzuli yaradıcılığı üçün deyil, orta dövr

üçün səciyyəvi hal idi. Füzuli də daxil olmaqla, orta çağ müəlliflərinin yaradıcılığında ilahi eşqin tərənnümü də ayrıca yer alırdı. Ancaq Füzulinin sevdiyi, vəsf, təsvir və tərənnüm etdiyi gözəl nə qədər ilahi səciyyə daşısa da, yerdən üzülmür, canlı insan duyğuları və yaşantıları ilə əlaqəsini kəsmir. Füzuli qəzəllərindəki məhəbbətin yüzilliklər boyu öz təsir gücünü itirməməsi də elə bununla bağlıdır.

Füzuli "Bu gecə" rədifli qəzəlində məşuqənin itlərinə müraciətində onları mələikələrlə müqayisə etmişdir:

Parə-parə cigərim itlərinə nəzr olsun,
Ol səri-kuyə əgər düşsə güzarım bu gecə.

Füzuli qəzəllərinin estetik təsir gücü bir də şairin işlətdiyi poetik obraz və fiqurlarla müəyyən edilir. Füzuli, hər şeydən öncə, söz rəssamıdır. Rəssam rəngin müxtəlif çalarları ilə öz bədii təxəyyülünü boyaların dili ilə verirsə, Füzuli də sözün rəngarəng, incə məna çalarları ilə, Şərq poetikasına məxsus çeşidli bədii təsvir və ifadə vasitəsi ilə fikrin bənzərsiz ifadəsinə nail olur. Bu baxımdan aşağıdakı beyt diqqəti cəlb edir:

Bülbüli-qəmzədəyəm, bağü bəharım sənsən,
Dəhənü qəddü rüxün – qönçəvü sərvü səmənim.

Təqdim olunan beytdə bir-birindən gözəl beş təşbeh işlənmişdir. Beytin birinci misrasında lirik qəhrəman (şair) özünü qəmə tutulmuş, kədərli bülbülə, sevgilisini isə baharda çiçəklənmiş bağa bənzədir. Ancaq bu bənzətmə ilə poetik təsvir başa çatmır. Nümunənin ikinci misrasında bağçanın (sevgilinin) poetik detalları açıqlanır. Şair birinci misradan fərqli olaraq, bu misrada bənzəyənlə bənzədiləni yanaşı işlətmir, bənzəyənlər sıra ilə misranın bir tərəfinə cəmlənir, sonra isə misranın o biri tərəfində bu sıraya uyğun olaraq müvafiq ardıcıllıqla bənzədilənlər göstərilir. (Bu poetik fiqura Şərq poetikasında "ləffü nəşr" deyilir). Burada *dəhən* (ağız), *qədd* (boy) və *rüx* (üz) bənzəyən, *qönçə, sərv* və *səmən* (yasəmən gülü) isə bənzədiləndir, yəni şair gözəlin ağzını qönçəyə, boyunu sərvə, üzünü isə yasəmənə bənzətmişdir. Füzulinin bu beytindəki bənzətmələr riyazi dəqiqliklə qurulduğundan oxucuya hədsiz estetik zövq verir. Şairin poetik fiqurlarında özünü göstərən çoxmənalılıq isə bu həzzi daha da artırır. Füzulinin qəzəllərində özünü göstərən çoxmənalılıq əsas etibarilə hazırlıqlı oxucu üçün hesablanmışdır. Bu mənaları açan hər bir kəs

intellektual məmnunluq duyğusu keçirir. Örnək olaraq şairin aşağıdakı beytini nəzərdən keçirək:

Çıxma yarım gecələr əğyar tənindən saqın,
Sən məhi-övci-məlahətsən, bu, nöqsandır sana.

Nümunədə durğu işarələri məqsədli şəkildə qoyulmamışdır, çünki orijinalda, yəni ərəb əlifbası ilə yazılmış nüsxədə də durğu işarələri qoyulmur və onu oxucu özü təsəvvür etməlidir. Beytin ilk misrasının oxunuşunda sanki Füzulinin lirik qəhrəmanı öz yarına müraciət edərək onun gecələr evdən çıxmamasını xahiş edir. Ancaq ikinci misradakı bənzətmə bu fikrin yanlış olduğunu göstərir və oxucu bir qədər də dərinə getmək fikrinə düşür. İkinci misradakı bənzətmədən məntiqi əməliyyatlar vasitəsilə birinci misraya doğru gedəndə məlum olur ki, lirik qəhrəman (şair) məşuqəni aya bənzədərək onu "məhi-övci-məlahət" (incəlik zirvəsinin ayı) adlandırır. Ayın zirvəyə çatması onun dolması, bədirlənməsi deməkdir. Bütövlənmiş (bədirlənmiş) aya nöqsan gətirən isə, şübhəsiz, onun yarımçıqlığı ola bilər. Elə buradan da məlum olur ki, birinci misradakı "yarım" sözü xitab deyil, "yarımçıq" mənasında işlənmişdir. Füzulinin əksər beytlərində bu cür məntiqi asılılıq var və oradakı məna qatlarını açmaqdan oxucu həzz alır.

Bədii nəsri. Füzuli öz qələmini nəsr sahəsində də sınamış, Azərbaycan və fars dillərində bədii nəsrin gözəl nümunələrini yaratmışdır. Ana dilli bədii nəsrimizin əldə olan ilk nümunələri də onun adı ilə bağlıdır. Füzuli "Səhhət və Mərəz", "Rindü Zahid" əsərlərini fars, "Hədiqətüs-süəda", "Şikayətnamə" əsərlərini isə Azərbaycan dilində yazmışdır. "Hədiqətüs-süəda" fars nasiri Kaşifinin "Rövzətüş-şühəda" əsəri əsasında yazılmışdır, sərbəst tərcümə təsiri bağışlayır. Dini məzmunludur. Əsərdə şeir parçaları da vardır. Şairin türk (Azərbaycan) divanına yazdığı dibaçə də nəsrlə olub özünün elmi səciyyəsinə görə seçilir. "Dibaçə"də şair poetika, söz sənəti ilə bağlı elmi-nəzəri görüşlərini ifadə etmişdir. Həmin "Dibaçə"dən məlum olur ki, Füzuli şeirin, sənətin qarşısında da böyük vəzifələr qoyur.

Poemaları. Füzulinin dörd poeması vardır, onlardan üçü ("Bəngü Badə", "Söhbətül-əsmar", "Leyli və Məcnun") Azərbaycan, biri ("Həft cam" və ya "Saqinamə") isə fars dilində qələmə alınmışdır. Şairin poema sahəsində ilk qələm təcrübələrindən sayılan "Söhbətül-əsmar" ("Meyvələrin söhbəti") və "Bəngü Badə" ("Tiryək və Şərab"), eləcə də yetkinlik

dövrünün məhsulu olan "Həft cam" ("Yeddi cam") alleqorik formadadır. Şairin "Bəngü Badə" poemasını 1514-cü ildə Çaldıran döyüşündə məğlub olmuş Şah İsmayıl Xətaiyə həsr etdiyi ehtimal edilir. Füzulinin poema yaradıcılığının zirvəsini isə "Leyli və Məcnun" təşkil edir.

"Əql yar olsaydı ..." qəzəli

Füzulinin Azərbaycan (türk) divanına daxil olan ən gözəl qəzəllərindən biri "Əql yar olsaydı, tərki-eşqi-yar etməzmidim?" misrası ilə başlayan qəzəldir. Həmin qəzəli, onun hər beytinin nəsr variantını və şərhini veririk.

Əql yar olsaydı, tərki-eşqi-yar etməzmidim?
İxtiyar olsaydı, rahət ixtiyar etməzmidim?
Ləhzə-ləhzə surətin görsəydim ol şirinləbin,
Sən kimi, ey Bisütun, mən həm qərar etməzmidim?
Nişə məhrəm eylədin şəmi, məni məhrum edib,
Mən sənin bəzmində can nəqdin nisar etməzmidim?
Dərdimi aləmdə pünhan tutduğum naçardır,
Uğrasaydım bir təbibə, aşikar etməzmidim?
Yar ilə əğyarı həmdəm görməyə olsaydı səbr,
Tərki-qürbət eyləyib, əzmi-diyar etməzmidim?
Vaizin bəzmin mənim rüsvalığımdan qıl qiyas,
Onda sidq olsaydı, mən təqva şüar etməzmidim?
Ol güli-xəndanı görmək mümkün olsaydı mənə,
Səntək, ey bülbül, gülüstanə güzar etməzmidim?
Ey Füzuli, dağı-hicranilə yanmış könlümü
Laləzar açsaydı, seyri-laləzar etməzmidim?

1. Ağıl yardımçım olsaydı, yar eşqini tərk etməzdimmi? İxtiyarım olsaydı, rahatlığı seçməzdimmi?

Bu beytdəki "yar" və "ixtiyar" sözləri iki məna bildirir: "yar" sözü "yardımçı" və "sevgili", "ixtiyar" sözü isə "haqq, hüquq" və "seçim" anlamlarında işlənmişdir. Lirik qəhrəmanın – aşiqin dilindən deyilən bu beytdə şair eşq ilə ağılı qarşılaşdırır və bu qarşılaşdırmada eşqə daha çox üstünlük verir. Çünki əgər ağıl eşqin qarşısında tab gətirə bilsəydi, onda aşiq ağlın hökmünə görə yarın eşqini tərk edib rahatlığı seçərdi. Bu isə

mümkün deyil, ona görə ki, eşq aşiqin bütün ağlını və ixtiyarını əlindən alaraq, onu Məcnuna çevirmiş, aşiqin qarşısında heç bir seçim qalmamışdır.

2. Ey Bisütun, dəmbədəm o şirin dodaqlının üzünü görsəydim, mən də sənin kimi (bir yerdə) qərar tutmazdımmı?

Beytdəki "şirin" sözü həm xüsusi isim ("Xosrov və Şirin" əsərinin qəhrəmanı), həm də sifət (dad) kimi işlənmişdir. Şair Fərhadın öz sevgilisi Şirinin şəklini Bisütun dağına çəkməsini xatırladır. Bisütun hər an, hər dəm şirin dodaqlının (Şirinin) üzünü görüb öz yerində qərar tutur. Aşiq öz sevgilisinin üzünü görməyə həsrət qaldığı üçün narahatdır və bir yerdə qərar tuta bilmir.

3. Niyə məni məhrum edib şamı özünə məhrəm elədin, məgər mən sənin məclisində can nəqdimi qurban etməzdimmi?

Aşiq özünü şamla müqayisə edir. Şam sevgilinin (məşuqun) məclisində yanaraq damcı-damcı tökülür. Şamın gözündən tökülən damlalar onun can nəqdi (can bağışlaması) kimi dəyərləndirilir. Beytdə işlənən "məhrəm" və "məhrum" daxili fleksiya ilə yaranmış eyni köklü sözlərdir. Aşiq məşuqədən giley-güzar edir: "Məgər mən də şam kimi sənin məclisində canımın mayasını qurban (nisar) etməzdimmi?" Yəni mən heç də can qurban eyləməkdə şamdan əskik deyiləm ki, onu yaxına buraxırsan, məni yox.

4. Dərdimi aləmdə gizlətməyim çarəsizlikdəndir, Bir həkimlə rastlaşsaydım, dərdimi ona açmazdımmı?

Lirik qəhrəman öz dərdini gizli saxlayır, onun başqa əlacı da yoxdur. Çünki o, öz dərdini deyə biləcək, yaxud onun dərdini başa düşüb çarə edəcək bir həkimin olmayacağını yaxşı bilir. Lirik qəhrəmanın düşdüyü dərd eşqdir ki, onun həkimlər tərəfindən müəyyən olunmuş dərmanı yoxdur.

5. Yar ilə əğyarı (rəqibi) həmdəm (sirdaş) görməyə səbrim olsaydı, qürbəti tərk eyləyib vətənə getməzdimmi?

Şair beytdə "yar" və "əğyar", "qürbət" və "diyar" sözləri ilə iki təzad işlətmişdir. Aşiq ona görə doğma vətənini tərk edib qürbətə üz tutmuşdur ki, vətəndə sevgilisini əğyarla (rəqiblə) bir yerdə həmdəm görməyə səbri

çatmır. Qürbətə düşmək isə aşiq üçün iki cəhətdən dözülməzdir: o həm sevgilisindən, həm də vətənindən ayrı düşmüşdür.

6. Öyüd-nəsihət verənin (vaizin) söhbətlərini mənim rüsvaylığımla müqayisə et; onda səmimiyyət olsaydı, mən pis işlərdən çəkinməyi (möminliyi) özümə adət (vərdiş) etməzdimmi?

Şair beytdə vaizin söhbətləri ilə aşiqin vəziyyətini (rüsvaylığını) qarşılaşdırır və bu qarşılaşdırmada üstünlüyü aşiqə verir. Çünki vaizin söhbətləri quru, cansıxıcı və səmimilikdən uzaqdır, aşiq isə həqiqi aşiqdir, haqq aşığıdır.

7. Ey bülbül, mənim o açılmış gülü görməyim mümkün olsaydı, mən də sənintək gülüstana getməzdimmi?

Şair bu beytdə gözəl və ənənəvi bir qarşılaşdırma verir: Aşiq ilə bülbül, sevgili ilə gül arasında müqayisə aparır. Gülün eşqilə gülüstanda ötən bülbülə həsəd aparan aşiqin, öz sevgilisini – açılmış gülü görməyəcəyinə əmin olduğu üçün gülüstana getmir.

8. Ey Füzuli, ayrılıq dağı ilə yanmış (qaralmış) könlümü laləzar (çoxlu lalə olan yer, lalələk) açsaydı, seyri-laləzar etməzdimmi?

Füzuli bu beytdə aşiqin ayrılıq dağı ilə yanmış könlünü laləyə bənzədir. Bu bənzətmə heç də təsadüfi deyil, çünki lalənin də bağrında yanıq (dağ) var. Şair göstərir ki, əgər sevgilisindən ayrı düşmüş qəmgin aşiqin könlünü lalələr açsaydı, laləzarı seyr edərdi. Görünür, ayrılıq dağı ilə yanmış (qaralmış) aşiqin ürəyini laləzar seyri açmayacağından o, laləzara getmir, çünki o, özü kimi bağrı yanıq lalələri görüb bir də kədərlənəcək.

Füzulinin "Əql yar olsaydı..." qəzəli əruz vəzninin rəməl bəhrində, fAilAtün fAilAtün fAilAtün fAilün ölçüsündə yazılmışdır. Qəzəl bədii suallar üzərində qurulmuş, bütün beytlərində bədii təzad işlənmişdir.

"Leyli və Məcnun" poeması

Füzulinin poema yaradıcılığının zirvəsini "Leyli və Məcnun" təşkil edir. Əsər "Rum zərifləri"nin (Anadolu türk şeir bilicilərinin) xahişi ilə yazılmış, Osmanlı hökmdarı Sultan Süleyman Qanuniyə ithaf olunmuşdur. Poemanın yazılma tarixi sonda əbcəd hesabı ilə belə göstərilmişdir:

Tarixinə düşdülər müvafiq,
Bir olmaq ilə ol iki aşiq.

Buradakı "iki aşiq" ifadəsi əbcəd hesabı ilə 942 rəqəminə bərabərdir. Buna 1 əlavə edəndə 943-cü hicri qəməri ili alınır. Hicri tarixini milad tarixinə çevirərkən aylar göstərilmədikdə əmələ gələn 943-cü il miladi təqvimi ilə 1536/1537-ci ilə uyğun gəlir. Çünki hicri və miladi illərin başlanğıcı eyni aylara düşmür.

"Leyli və Məcnun" ənənəvi olaraq Nizami poemalarında gördüyümüz rəsmi girişlə başlayır. Burada həm Tanrıya, həm də Peyğəmbərə mədhiyyə, həm də islam Peyğəmbərinin meracı verilmişdir.

Füzuli əsəri yazarkən Nizaminin "Leyli və Məcnun" poemasını əsas götürsə də, əsərə bir sıra yeni epizodlar əlavə etmiş, bəzilərini ixtisar etmiş və ya dəyişdirmiş, nəticədə orijinal bir əsər ərsəyə gətirmişdir. Füzulinin "Leyli və Məcnun" poeması ilə Nizaminin eyni adlı əsərinin əsas fərqləri aşağıdakılardır:

1. Nizamidən fərqli olaraq, Füzuli əsərini ana dilində yazmışdır.

2. Füzulinin poeması daha çox sufi-irfani məzmunu ilə seçilir.

3. Nizamidən fərqli olaraq, Füzuli ən real və həyati epizodlara bir qeyri-adilik vermişdir. Məsələn, Qeysin doğularkən ağlaması, İbn Səlamın ölümünün Məcnunun ahı ilə əlaqələndirilməsi, səhrada Qeysi mələklərin mühafizə etməsi və s.

4. Füzulinin poeması quruluş və bədii tərtibatına görə də seçilir. Belə ki, Nizamidən fərqli olaraq, onun əsəri ana dilində nəsrlə yazılmış dibaçə (müqəddimə) ilə başlayır, sonra ənənəvi rəsmi giriş gəlir. Eləcə də Nizami poemasında lirik şeir janrlarından istifadə etmədiyi halda, Füzuli müxtəlif poetik məqsədlərlə lirik şeirin rəngarəng janrlarından (rübai, qəsidə, qəzəl, mürəbbe) istifadə etmişdir.

5. Nizamidən fərqli olaraq, Füzuli Zeyd və Zeynəb xəttini mümkün qədər kiçiltmiş, Zeydi Qeysi başa düşən, onu qiymətləndirən sadiq bir dost obrazı kimi saxlamışdır.

Hər iki əsər (demək olar ki, bütün "Leyli və Məcnun"lar) əruz vəzninin həzəc bəhrində yazılmışdır. Təsadüfi deyil ki, həzəcin bu növü "Leyli-Məcnun həzəci" adlanır.

Füzuli "Leyli və Məcnun"u, əsərin girişində qeyd edildiyi kimi, "kəlami-mövzun"un – şeirin "küfr oxunduğu" bir zamanda yazmışdı. Belə bir zamanda iki gəncin səmimi məhəbbətini qələmə alan şair dövrün ədəbi-bədii tələblərindən kənara çıxa bilməzdi. Füzuli poemasının sufi-irfani məzmunu ilə seçilməsi daha çox dövrün ədəbi ənənəsinə cavab vermək, o dövrün ədəbi-tənqidi fikri qarşısında bəraət qazanmaq məqsədi güdmüşdür.

Əsərin qısa məzmunu. Poema nağılvari bir süjetlə başlayır. Şan-şöhrətli, əsil-nəcabətli bir ərəb qəbilə başçısı həyatından ona görə narazıdır ki, övladı yoxdur, varissizdir:

Gər qılsa onu tələf həvadis,
Yox bir xələfi ki, ola varis.
Fərzəndsiz adəmi – tələfdir,
Baqi edən adəmi xələfdir.

Çox nəzir-niyazdan sonra Tanrı ona bir oğul payı verir. Adını Qeys qoyurlar. Qeyri-adi yolla doğulmuş övlad da qeyri-adi olmalıdır. Qeys dünyaya gələn günündən ağlamağa başlayır. Füzuli buna özünəməxsus bir şəkildə məna verir, yəni: Qeys həyatda başına nələr gələcəyini qabaqcadan yadına salır və azad insanlara cəmiyyətdə yerin olmadığını bilərək ağlayır. Belə bir başlanğıc Füzuli qəhrəmanının gələcəkdə qəm-kədər aşiqi olacağına işarə idi. Füzuli Qeysin dilindən bir sıra ictimai-fəlsəfi problemlər haqqında fikirlərini ifadə edir. Dünyaya müraciətlə deyilmiş aşağıdakı nümunədə Qeysin Füzuli dili ilə danışdığına şübhə yoxdur:

Bildim, qəmini sənin ki çoxdur,
Qəm çəkməyə bir hərif yoxdur.
Gəldim ki, olam qəmin hərifi,
Gəl təcrübə eylə mən zəifi.
Hər qanda qəm ola, qılma ehmal,
Cəm eylə, dili-həzinimə sal.

Zəmanənin qəmi çoxdur. Qeys bu dünyaya məhz insanlığın qəmini daşımaq üçün gəlib. Bu mənada, o, Füzulinin təbirincə desək, bir hərifdir, özü də qəmin hərifidir. Qeys bu dünyaya məhz fələyin sınağından keçməyə, bəşəriyyətin bütün qəmini öz həzin ürəyində daşımağa gəlib.

Bu qəmsevərlik xüsusiyyətinə görə, demək olar ki, Füzuli Məcnun obrazının timsalında öz avtoportretini yaratmışdır. Füzulinin lirik qəhrəmanı da qəm çəkməkdən bu qədər həzz alır və qəm çəkə-çəkə kamilləşir, bir aşiq kimi yetkinləşir.

10 yaşa çatdıqda Qeys məktəbə gedir. Məktəbdə digər qəbilə başçısının gözəl qızı Leyliyə aşiq olur.



Füzulinin "Leyli və Məcnun" poemasında Leyli ilə Məcnunun görüş səhnəsi (rəssamı: Mikayıl Abdullayev)

Gənclərin bir-birinə məhəbbəti dilə-dişə düşür. Leylinin anası məsələni eşidib qızını məzəmmət edir, məktəbə qoymur.



Füzulinin "Leyli və Məcnun" poemasında Leylinin məktəbdən çıxarılıb evdə oturması

(rəssamı: Mikayıl Abdullayev)

Sevgilisinin məktəbə gəlmədiyini görən Qeys öz dövrünün adət-ənənələrindən sarsılır, səhraya qaçır, vəhşi heyvanlar içərisində yaşayır. Bu, Qeysin cəmiyyətə, onun qaydalarına bir etirazıdır. Onu "Məcnun" adlandırırlar.

Cəmiyyətin daha "Məcnun" adlandırdığı Qeysi atası aldadıb, Leylinin qonaq gəldiyini deyərək evə qaytarır. Amma Qeys cəmiyyətə baxanda səhrada daha azad olduğunu fikirləşib səhranı seçir.

Füzulinin "Leyli və Məcnun" poemasında Məcnun səhrada – heyvanlar arasında (rəssamı: Mikayıl Abdullayev)

Qeys ata-anasının nəsihətlərinə qulaq asacaq halda deyil, öz həyatının mənasını yalnız Leyliyə qovuşmaqda görür. Atası elçi gedir. Lakin Leylinin atası öz qızını Məcnuna vermək istəmir. Deyir ki, əgər Məcnunun dərdinə, xəstəliyinə əlac tapılsa, yəni eşq deyilən şeydən qurtulsa, qızını ona verər. Qeysin dərdi, doğrudan da, eşqdir. O, bu eşqlə yaşayır.

Tiqi-qəm ilə kəsilsə başım,
Suzi-dil ilə tökülsə yaşım,
Candan çıxarıb həvayi-eşqi,
Tərk eyləməzəm bəlayi-eşqi –

ir. Atası Məcnunu həkimlərə göstərir, Kəbəyə aparır.

Füzulinin "Leyli və Məcnun" poemasında Atasının Məcnunu Kəbəyə aparması (rəssamı: Mikayıl Abdullayev)

Lakin Məcnun yenə səhraya qaçır. O, ovçuların tutduğu ceyran və göyərçini azad edir, vəhşi heyvanlarla dost olur.

Leyli öz dərdini ay, bulud, pərvanə, çıraq ilə bölüşür, öz hüquqsuz vəziyyətindən söz açır. Leylini ərəb zadəganı İbn Səlama nişanlayırlar. Məcnuna "Heyvanlardan yox, insanlardan al kamını", – deyən Novfəl ona kömək məqsədilə Leylinin atası ilə müharibəyə başlayır. Məcnun Leylinin atasının məğlub olmasını istəmir, ona kömək edir. Leylinin atası Novfələ qızının başqasına nişanlı olduğunu bildirir. Məcnunun hərəkətlərində qəribəlikləri görən Novfəl də belə cəmiyyətin mövcud düşüncəsini qəbul etməli olur. Beləliklə, xeyirxahlıq etməyi, Məcnunun dərdlərinə həmdəm

olmağı insanlıq borcu sayan Novfəl də o cəmiyyətin əxlaq və təfəkkür maraqları qarşısında aciz qalır. Novfəl öz niyyətindən əl çəkir. Leyli toydan sonra da öz məhəbbətinə sadiq qalır. İbn Səlamı yaxın qoymur, deyir ki, bir cin onun özünü də, ərə getdiyi adamı da öldürəcəkdir. Eşq üçün, Məcnundan fərqli olaraq, böyük fədakarlıqlara hazır olmayan İbn Səlam buna inanır, vahiməyə düşür.



Füzulinin "Leyli və Məcnun" poemasında Leylinin İbn Səlama ərə getməsi (rəssamı: Mikayıl Abdullayev)

Dostu Zeyd Məcnuna məktub yazır, ona Leylinin ərə getdiyini xəbər verir. Məcnun Leyliyə məktub göndərir, onu vəfasız adlandırır. Leyli cavab məktubu yazır. Özünün qul kimi satıldığından, hüquqsuz olduğundan şikayətlənir.

Məcnunun dərdinə dözməyən atası dünyasını dəyişir. İbn Səlam da Leyliyə yaxınlaşmağa cəsarət etmir, həsrətə dözməyərək xəstələnib ölür. Füzuliyə görə, İbn Səlamın ölümündə Məcnunun Tanrı qarşısındakı dualarının da müəyyən rolu vardır. Dərdini dağıtmaq bəhanəsi ilə gəzintiyə çıxan Leyli səhrada Məcnunu tapır. Ağır vəziyyətdə olan Məcnun onu tanımadığını, Leylinin xəyalı ilə yaşamaq istədiyini bildirir.

Sevgilisinin ayrılığına, onun düşdüyü böhranlı vəziyyətə dözməyən Leyli ölür. Məcnun da bu dərdə dözməyib Leylinin məzarı üstündə ölür. Məcnunu Leyli ilə bir məzarda dəfn etdikdən sonra Zeyd yuxuda onların cənnətdə bir yerdə olduğunu görür.



Füzulinin "Leyli və Məcnun" poemasında Leylinin ölüm səhnəsi və Məcnun Leylinin qəbri üstündə (rəssamı: Mikayıl Abdullayev)

Məcnun surəti. Məcnun poemanın əsas və mərkəzi surətidir. Əsərin süjet xətti onun doğulmasının təsviri ilə başlayıb ölümü ilə bitir. Füzuli, hər şeydən öncə, Nizamidə olduğu kimi, Məcnunun simasında şəxsiyyət azadlığı problemini qoymuşdur. Kütlənin qeyd-şərtsiz boyun əydiyi qayda-qanunlardan, adət-ənənələrdən boyun qaçırdığına görə onu "Məcnun" (dəli) elan edərək ictimai həyatdan təcrid edirlər. Halbuki o, ictimai mühitdə bir çoxlarından yüksəkdə durur. Təbii ki, Füzuli Məcnuna dəli kimi baxmaqdan və qiymətləndirməkdən çox-çox uzaqdır. Bunu Məcnunun təsvirində əyani şəkildə görmək mümkündür:

Şahənşəhi-mülki-möhnətü dərd,
Yəni ki, Məcnuni - dərdpərvərd
Bir pak idi ki, bu ərsəyi-xak
Onun kimi görməmişdi bir pak.
Çün nifrəti-şərri-nəsli-adəm
Qıldı ona vəhşəti müsəlləm.
Hər vəhşi donunda bir firiştə
Yar oldu ol adəmisirişdə.
Zahirdə rəfiqi-vəhşilə teyr,
Batində mələyik ilə həmseyr.

Füzuli burada göstərir ki, indi Qeysi Allahın özü, onun göndərdiyi, amma vəhşi görkəmində olan mələklər qoruyur.

Yaşadığı cəmiyyətdə haqsızlıq görən Məcnun azadlığı təbiətin qoynunda tapır, dərdini dağa, ceyrana və göyərçinə danışır. Ancaq yaşadığı mühitdə Məcnunu anlayanlar da vardır. Zeyd və Novfəl də belələrindəndir. Füzuli bu baxımdan Zeydin təsvirinə xüsusi yer vermişdir. Şairin onu dəfələrlə "Zeydi-vəfadar", "Zeydi-qəmxar" adlandırması da təsadüfi deyildir. Əsərin sonunda Zeyd Leyli ilə Məcnunu cənnətdə görür və oxucunu onların səadətinə inandıran yeganə şahid kimi çıxış edir. Bu baxımdan Zeyd Xətainin "Dəhnamə" əsərindəki Məşuqun məktəb yoldaşını xatırladır.

Füzuli Məcnunun simasında onun Leylinin xəyalı ilə yaşamaq istəməsi məqamı ilə aşiqin kamillik dərəcəsinə çatmasını və haqqa qovuşması ideyasını əks etdirmişdir. Bu, sufi dünyagörüşünün təzahürü idi.

Leyli surəti. Poemanın ikinci baş qəhrəmanı Leylidir. O, varlı bir qəbilə başçısının qızıdır. Füzulinin yaratdığı Leyli obrazı öz monumentallığı və canlılığına görə Məcnundan heç də geri qalmır, bir çox hallarda hətta ondan da irəli gedir. Əgər Məcnun cəmiyyətdəki çürük

adət-ənənələrə etiraz əlaməti olaraq öz hislərini aşkar ifadə edə bilirdisə, Leyli belə bir imkandan məhrumdur. O, öz hislərini ifadə etmək üçün yalnız əlverişli fürsət gözləməlidir. Bu cür fürsət onun əlinə yalnız adət-ənənələrə uyğun gələn anlarda düşür. İlk belə "fürsət" Leylinin əlinə rəyi soruşulmadan İbn Sələma ərə verilərkən düşür. Ərə gedən qızın ağlamağı cəmiyyət tərəfindən təbii qəbul edilir. Leyli də bundan istifadə edərək Məcnunun eşqindən duyduğu nalə və fəryadı başqa bir bəhanə altında təqdim edə bilir. İkinci belə bir "fürsət" İbn Sələmın ölümündən sonra ələ düşür. Yenə də Leyli adət-ənənəyə uyğun olaraq ölmüş ərinə yas saxlamaq bəhanəsi ilə öz eşqi üçün ah-nalə edir. Bütün bunlar isə cəmiyyətdəki çürük adətlərə qarşı Leylinin özünəməxsus etirazıdır.

Füzuli Leylinin insan şəxsiyyətini sıxan, əzən cəmiyyətə qarşı etirazlarını çox vaxt dolayı yolla verir. Məsələn, onun ayla, şamla, buludla, pərvanə ilə söhbətləri, gəlin aparılarkən özü ilə dəvə arasında bir uyğunluq görməsi belə dolayı məqamlardandır. Məsələn, Leyli şama deyir ki, sənə rəhmim gəlib dərdimi demək istəmirəm, çünki eşitsək, bir anın içində əriyib qurtararsan. Pərvanəyə deyir ki, sən heç olmasa, son anda öz sevdiyinlə qovuşursan, bir yerdə yanıb külə dönürsünüz. Çıraq isə yalnız gecələr yanır, Leyli isə gecə də, gündüz də yanır. Dərdimi bircə Qeysə dedim ki, o da eşitcək dağa-daşa düşdü.

Leylinin bu etirazları onu vəfasızlıqda qınayan Qeysə cavabında daha aşkar və birmənalıdır:

Mən gövhərəm, özgələr xiridar,
Məndə deyil ixtiyari-bazar.
Dövran ki məni məzadə saldı,
Bilməm kim idi satan, kim aldı.

Göründüyü kimi, Leyli gövhər, özgələr isə alıcıdır. Bu dünyada – hərracda bazarın ixtiyarı onda deyil. O, satanın da, alanın da kim olduğunu bilmir.

Gör Leyli nə qədər hüquqsuz və bədbəxtdir ki, özünü dəvə ilə yox, dəvəni özü ilə müqayisə edir:

Mən kimi yox əldə ixtiyarın,
Bir özgə əlindədir məharın.

Beləliklə, Füzuli bəzən dolayı, bəzən də açıq ifşa, ittiham üsulları ilə çox təbii yolla Leylinin yaşadığı cəmiyyətə, mühitə qarşı etirazlarını əyaniləşdirir.

İbn Səlamın ölümündən sonra atası evinə qayıdarkən Leyli səhrada Məcnunla rastlaşır. Lakin Məcnun onu tanımır və qəbul etmir. Öz aşiqi Məcnun tərəfindən "rədd edilən" Leylinin yeganə çıxış yolu ölümdür. Şair Leylinin ölümünü təsvir etmək üçün payız fəslini seçir. Əsərin canlı və həyati səhnələrindən biri də Leylinin ölməzdən əvvəl anasına vəsiyyəti və anasının onun məzarı üstündə göz yaşı tökməsidir.

M.Füzuli Məcnun və Leyli surətləri ilə insan arzularına zidd olan cəmiyyətdə ağıllı və nəcib insanların faciəsini göstərsə də, nə vaxtsa belə insanların xoşbəxt ola biləcəyinə, cəmiyyətin sözünü məhz onların deyəcəyinə inamını da ifadə etmişdir.

Köməkçi surətlər. Poemada bir sıra köməkçi surətlər də vardır. Məcnunla Leylinin ata-anası, Zeyd və Novfəl belə obrazlardandır. Bu obrazların heç biri mənfi planda verilməmiş, əksinə, onların hamısının qəhrəmanların xoşbəxtliyi üçün xoş məramları ifadə olunmuşdur. Əsərdə bu obrazların hər birinin özünəməxsus taleyi qələmə alınmışdır. Əgər Məcnunun ata-anası onun gözü qabağında həyatdan gedərək qəhrəmanı qəm-kədərə qərq edirsə, Leyli özü anasının gözləri önündə dünyanı tərk edərək ona övlad dağını vurur. Bu obrazlar içərisində Leylinin atası müəyyən mənfi çaları ilə seçilsə də, zəmanənin, mövcud cəmiyyətin əxlaq və təfəkkür normalarını ifadə edir. Bu mənada o, heç də qızının, Qeysin düşməni deyildir, zəmanə adamıdır.

Poemada Novfəl obrazı özünün dolğunluğu və canlılığı ilə seçilir. O, Məcnunu vüsala çatdırmağa can atan, ancaq buna nail olmayan bir obraz kimi təsvir edilir. Şair Novfəlin dilindən belə bir etiraf verir:

Bir sınmışa mumiya dilərdim,
Bir xəstə üçün şəfa dilərdim.
Gördüm, görünür bu əmr müşkil,
Bimar degil əlacə qabil.

Bu etirazında Novfəlin "Bimar deyil əlacə qabil" deməsi ilə Füzuli göstərmək istəyirdi ki, hətta Novfəl kimi mütərəqqi, ağıllı adamlar da zəmanənin, mühitin təzyiqləri, Qeysin dövr üçün qeyri-adi bəzi qəribəlikləri ucbatından mövcud zəmanədə Məcnunların – "ağıllı dəlilərin" müalicəsinin qeyri-mümkünlüyü qənaətinə gəlirlər. Bu isə olduqca təbii bir qənaət idi.

Şair bununla haqlı olaraq Leyli və Məcnunların faciəsində zəmanəni və cəmiyyəti günahkar bilir.

Poemanın bədii xüsusiyyətləri. "Leyli və Məcnun" sənətkarlıq baxımından Azərbaycan ədəbiyyatında tayı-bərabəri olmayan bir sənət əsəridir. Əsərdə əsas hadisələr təhkiyə yolu ilə məsnəvi şəklində verilmişdir. Məsnəviyə əlavə edilən 3 rübai, 2 qəsidə, 24 qəzəl və 2 mürəbbe əsərin bədiiliyini daha da artırmışdır. Poema qəliz ərəb-fars tərkibləri ilə yüklənmiş səcli (qafiyəli) nəsrlə yazılmış dibaçə ilə başlayır.

Əsər ilk dəfə Şərq şeirinə Nizami tərəfindən gətirilmiş "Leyli-Məcnun həzəci"ndə yazılmışdır.

Dahi Azərbaycan bəstəkarı Üzeyir Hacıbəyov Şərqdə ilk muğam operası olan "Leyli və Məcnun"u da Füzulinin bu əsəri əsasında yazmışdır. Xalq şairi B. Vahabzadə "Şəbi-hicran" poemasında Füzulinin bədii obrazını yaratmışdır.

Məşhur ədəbiyyatşünas Firudin bəy Köçərli yazırdı: "Azərbaycan türklərinin harada azacıq savadlısı varsa, Füzulinin əsərləri ilə az-çox tanışdır. Hətta bu axır vaxtlara kimi onun "Qəzəllər" divanı və "Leyli və Məcnun" hekayəsi* məktəblərdə təlim kitabı olub, uşaqlara ondan dərs verilirdi. İndi də köhnə məktəblərdə təlim almış adamlardan hər birisini dindirsən, "Leyli və Məcnun" hekayəsinin başlanğıcını başlayıb əzbərdən oxuyacaqdır."

Lüğət

seyti-fəsahət	gözəl və aydın danışmaq qabiliyyəti
mədh	tərif, öymə
tifli-zəbun	zəif uşaq
buy	ətir, iy
müəttər	ətirli
dimağ	əhval
nafə	ahunun göbəyindəki müşk vəzisi (xüsusi ətir saçan)

* Burada *"hekayə"* sözünü mənzum əhvalat, poema mənasında başa düşmək lazımdır.

xun	qan
hənuz	hələ, hələ ki
saz etmək	düzəltmək, yaratmaq; hazır etmək
büləndpərvaz	yüksəkdə uçan; qururlu
şahbaz	tərlan, şahin
ifrat	həddini aşma, mübaliğə etmək
təfrit	səhv, nöqsan; israfçılıq; səhlənkarlıq
aləti-təzvir	saxtalaşdırma, hiyləbazlıq aləti
əşrar	şər adamlar
əhli-məkr	məkrli, bic adamlar
təlimi-məarif	elm və savad təlimi
zinhar	Ay aman! Saqın! Nə badə!
müfsid	fəsad törədən, fitnəkar
qətli-am	ümumi qırğın, kütləvi qətllər
tiği-abidar	iti qılınc (xəncər, ülgüc)
səbat	dözüm, möhkəmlik, mətanət
səmən	yasəmən
ol səri-kuy	onun olduğu yer
bülbüli-qəmzədə	qəmə tutulmuş, kədərli bülbül
dəhən	ağız
rüx	üz
nəzr	nəzir, qurban
qədd	qamət, boy
əğyar	rəqib; yad, özgə
tən	tənə, qaxınc
saqın	qorun, özünü gözlə
məhi-övci-məlahət	məlahət bürcünün (zirvəsinin) ayı
şirinləb	şirindodaqlı
ləhzə	an, məqam
məhrəm etmək	kənarlaşdırmaq
nisar etmək	səpələmək, vermək, bağışlamaq

bəzm	məclis
vaizin bəzmi	vaizin məclisi
qiyas	müqayisə, bənzətmə
xəndan	gülən, şad, tamam açılmış gül
sidq	doğruluq, düzlük, səmimiyyət
hicran	ayrılıq, fəraq
həvadis	hadisələr
xələf	övlad
fərzənd	övlad, oğul
baqi edən	saxlayan, var edən
qanda	harada (arxaik sözdür)
ehmal	başısoyuqluq, ləngimə
dili-həzin	hüznlü, kədərli ürək
suzi-dil	ürək yanğısı
ərsəyi-xan	yer üzü
müsəlləm	tapşırılmış, şübhəsiz, etirazsız
firiştə	mələk, mələikə
adəmi-siriştə	adam kimi yaradılmış
teyr	quş
mələyik	mələklər
xiridar	alıcı
məzad	bazar
məhar	cilov
müşkil	mümkün olmayan
rövzə	bağça
xələf	övlad, oğul
ənis	dost, yoldaş
əqvam	qohumlar
neyrəng	hiylə
siyasət	siyasət, xətti – hərəkət; əziyyət, cəza

A varianti

1. M.Füzulinin yaradıcılığı ilə bağlı ***səhv*** fikri göstərin.
   A) Həm lirik, həm də epik əsərləri vardır.
   B) Üç dildə (türk-Azərbaycan, fars və ərəb) əsərlər yazıb-yaratmışdır.
   C) Həm əruz, həm də heca vəznində əsərlər yazmışdır.
   D) Nəzm əsərləri ilə yanaşı, nəsr əsərləri də vardır.
   E) Fəlsəfi traktat müəllifidir.

2. M.Füzuli bu əsərlərindən birini ana dilində yazmışdır:
   A) "Mətləül-etiqad"
   B) "Səhhət və Mərəz"
   C) "Yeddi cam"
   D) "Hədiqətüs-süəda"
   E) "Rindü Zahid"

3. M.Füzulinin "Leyli və Məcnun" poeması ilə bağlı ***səhv*** fikri göstərin.
   A) Sultan Süleyman Qanuniyə ithaf edilmişdir.
   B) Əsərdəki əsas hadisələr təhkiyə üsulu ilə verilmişdir.
   C) Əruzun həzəc bəhrində yazılmışdır.
   D) Bu əsər ana dilimizdə yazılmış ilk "Leyli və Məcnun"dur.
   E) Nizaminin "Leyli və Məcnun"undan fərqli olaraq, daha çox sufi-irfani məzmunu ilə seçilir.

4. M.Füzuli bu janrlardan birinin nümunələrini üç dildə yaratmışdır:
   A) qəzəl B) məsnəvi C) qəsidə
   D) müxəmməs E) rübai

5. M.Füzulinin tərcümə etdiyi əsər:
   A) "Hədisi-ərbəin" B) "Yeddi cam"
   C) "Bəngü Badə" D) "Səhhət və Mərəz"
   E) "Rindü Zahid"

6. M.Füzulinin hansı şeir janrlarında əsərləri ***yoxdur***?
   A) qitə, rübai, qəzəl
   B) müxəmməs, mürəbbe, təxmis
   C) məsnəvi, qəsidə, tərcibənd
   D) tərkibbənd, tərcibənd, müxəmməs
   E) gəraylı, qoşma, təcnis

7. Füzulinin "Şikayətnamə" əsəri ilə bağlı ***səhv*** fikri göstərin.
   A) Ana dilində yazılmış nəsr əsəridir.
   B) Dövlət idarələrindəki süründürməçilik tənqid olunur.
   C) Məktub şəklində yazılmışdır.
   D) Əsas adı ilə yanaşı, ikinci adı da vardır.
   E) Osmanlı hökmdarı Sultan Süleyman Qanuniyə məktub kimi yazılmışdır.

8. M.Füzulinin müasiri və ilk tədqiqatçısı olmuş Əhdi Bagdadinin təzkirəsi necə adlanır?
   A) "Təzkirətüş-şüəra"
   B) "Töhfeyi-Sami"
   C) "Gülşənüş-şüəra"
   D) "Məcməül-xəvas"
   E) "Məşahirüş-şüəra"

9. M.Füzulinin fars dilində yazdığı əsərləri göstərin.
   1. "Bəngü Badə" 2. "Yeddi cam"
   3. "Söhbətül-əsmar" 4. "Rindü Zahid"
   5. "Səhhət və Mərəz" 6. "Mətləül-etiqad"
   A) 1, 3 B) 2, 4, 6 C) 3, 5, 6 D) 2, 4, 5 E) 1, 2

10. M.Füzuli bu əsərlərdən birini ərəb dilində yazmışdır:
    A) "Rindü Zahid"
    B) "Səhhət və Mərəz"
    C) "Hədiqətüs-süəda"
    D) "Mətləül-etiqad"
    E) "Yeddi cam"

B variantı

1. M.Füzulinin yaradıcılığı ilə bağlı ***səhv*** fikri göstərin.
   A) "Mətləül-etiqad" əsəri ərəb dilindədir.
   B) Yaradıcılığında qəzəl janrı əsas yer tutur.
   C) "Fəzliyə nəsihət" adlı əsərini oğluna yazmışdır.
   D) Üç dildə (türk-Azərbaycan, fars və ərəb) yazılmış divan müəllifidir.
   E) Həm Azərbaycan, həm də fars dilində yazılmış nəsr əsərləri vardır.

2. M.Füzulinin həyatına aid faktları əks etdirən nəsr əsəri:
   A) "Hədiqətüs-süəda"
   B) "Səhhət və Mərəz"
   C) "Rindü Zahid"
   D) "Mətləül-etiqad"
   E) "Şikayətnamə"

3. M.Füzulinin qəsidələri ilə bağlı ***səhv*** fikri göstərin.
   A) Şair üç dildə (türk-Azərbaycan, fars və ərəb) yazdığı qəsidələri "Qəsidələr divanı"nda toplamışdır.
   B) Qəsidələrində dövrünün bir sıra tarixi hadisələri də öz əksini tapmışdır.
   C) Qəsidələr divanında fars və ərəbcə yazdığı qəsidələr üstünlük təşkil edir.
   D) Qəsidələr divanına yazdığı dibaçədə (müqəddimədə) bu janrın üstünlüklərindən bəhs edir.
   E) Qəsidələrində islam müqəddəslərinin mədhinə daha çox yer ayırmışdır.

4. M.Füzuli "Şikayətnamə" əsərini kimə məktub şəklində yazmışdır?
   A) Sultan Süleyman Qanuniyə
   B) Şah İsmayıl Xətaiyə
   C) oğlu Fəzliyə
   D) Nişançı Paşaya
   E) Sultan Səlimə

5. M.Füzulinin rəngarəng janrlarda əsərlər yazmasını əks etdirən bu misralar hansı əsərindəndir?
Gəh tərzi-qəsidə eylərəm saz,
Şəhbazım olur bülənd pərvaz.
Gəh dəbi-qəzəl olur şüarım,
Ol dəbə rəvan verər qərarım.
Gəh məsnəviyə olub həvəsnak,
Ol bəhrdə istərəm dürr-pak.
A) Qəsidələr divanının dibaçəsindən
B) "Leyli və Məcnun"dan
C) Türk (Azərbaycan) divanının dibaçəsindən
D) "Hədiqətüs-süəda"dan
E) "Şikayətnamə"dən

6. M.Füzulinin bu əsərlərindən biri fəlsəfi traktatdır:
A) "Hədiqətüs-süəda" B) "Mətləül-etiqad"
C) "Rindü Zahid" D) "Səhhət və Mərəz" E) "Yeddi cam"

7. M.Füzulinin "Su", "Gül", "Xəncər" rədifli şeirlərinin janrı:
A) qəzəl B) qitə C) mürəbbe D) müxəmməs E) qəsidə

8. M.Füzuli Həbibinin hansı janrda yazdığı şeirinə təxmis yazmışdır?
A) qəzəl B) qitə C) qəsidə D) müxəmməs E) rübai

9. Əhdi Bağdadinin "Gülşənüş-şüəra" təzkirəsində *"köçdü Füzuli"* sözləri ilə nə ifadə edilmişdir?
A) əbcəd hesabı ilə Füzulinin vəfat tarixi
B) əbcəd hesabı ilə Füzulinin doğum tarixi
C) əbcəd hesabı ilə "Leyli və Məcnun" poemasının yazılma tarixi
D) Füzulinin doqquz axça məbləğində təqaüdünü ala bilmədən vəfat etməsi
E) əbcəd hesabı ilə Füzulinin Kərbəla və Nəcəfdə İmam Hüseyn və Həzrət Əli türbələrində xidmət etmə tarixi

10. M.Füzulinin ana dilində yazdığı nəsr əsərləri:
1. "Rindü Zahid" 2. "Hədiqətüs-süəda" 3. "Səhhət və Mərəz"
4. "Şikayətnamə" 5. "Mətləül-etiqad"
A) 2, 4 B) 1, 2 C) 3, 4 D) 3, 5 E) 4, 5

C variantı

1. M.Füzulinin türkcə (azərbaycanca) divanı haqqında ***səhv*** fikri göstərin.
   A) Divanında yalnız klassik üslubda yazdığı şeirlər toplanmışdır.
   B) Divanının nəsrlə yazılmış "Dibaçə"si (müqəddiməsi) vardır.
   C) Divanına daxil olan bütün şeirlər əruz vəznindədir.
   D) Sarayların tələbini nəzərə alaraq burada qəsidə janrına üstünlük vermişdir.
   E) Divanına qitə, rübai, mürəbbe, müxəmməs janrlarında yazdığı əsərlər də daxildir.

2. M.Füzulinin Şah İsmayıl Xətaiyə həsr etdiyi əsər:
   A) "Leyli və Məcnun" B) "Yeddi cam" C) "Bəngü Badə"
   D) "Rindü Zahid" E) "Səhhət və Mərəz"

3. M.Füzuli bu qitəsində nəyə işarə edirdi?
   Seyti-fəsahət ilə sözüm tutdu aləmi,
   Mən mədhi-etibardə tifli-zəbun hənuz.
   Buyi-xosumla oldu müəttər dimağlər,
   Mən nafeyi-vücudda bir qətrə xun hənuz.
   A) yaradıcılığında qəzəl janrına üstünlük verdiyinə
   B) yaradıcılığa çox erkən başladığına və bir şair kimi hər yerdə tanınmasına
   C) rəngarəng janrlarda əsərlər yazmasına
   D) yaradıcılığında məhəbbət mövzusunun əsas yer tutmasına
   E) şeirlərində həm forma, həm də məzmun gözəlliyinin vəhdət təşkil etməsinə

4. Biri Füzulinin poemaları sırasında verilə ***bilməz***:
   A) "Leyli və Məcnun"
   B) "Yeddi cam"
   C) "Səhhət və Mərəz"
   D) "Bəngü Badə"
   E) "Söhbətül-əsmar"

5. M.Füzulinin "Leyli və Məcnun" poemasında Məcnun surəti ilə bağlı ***yanlış*** fikri göstərin.
   A) Varlı bir qəbilə başçısının oğludur.
   B) Köhnə qayda-qanunlara, adət-ənənələrə boyun əymir.
   C) "Məcnun" – dəli elan edilərək ictimai həyatdan təcrid edilir.
   D) İbn Səlamın ölüm xəbərini eşitdikdən sonra Leyliyə qovuşacağına ümid edir.
   E) Bəşərin bütün qəm yükünü çəkməyə hazırdır.

6. M.Füzuli hansı əsərini məktub şəklində yazmışdır?
   A) "Fəzliyə nəsihət"
   B) "Şikayətnamə"
   C) "Yeddi cam"
   D) "Söhbətül-əsmar"
   E) "Rindü Zahid"

7. Füzulinin bu əsəri həm də "Saqinamə" adlanır:
   A) "Bəngü Badə" B) "Şikayətnamə" C) "Yeddi cam"
   D) "Səhhət və Mərəz" E) "Hədiqətüs-süəda"

8. M.Füzulinin "Leyli və Məcnun" poemasında öz gücü ilə Məcnunu vüsala çatdırmağa can atan, ancaq buna nail ***olmayan*** obraz:
   A) Zeyd B) Nofəl C) Məcnunun atası
   D) Məcnunun dayısı E) Məcnunun məktəb yoldaşlarından biri

9. Bunlardan ikisi Füzulinin qəsidəsi ***deyil***:
   1. "Su" 2. "Bəngü Badə" 3. "Gül"
   4. "Xəncər" 5. "Əql yar olsaydı..."
   A) 1, 3 B) 4, 5 C) 2, 3 D) 2, 5 E) 1, 4

10. M.Füzulinin fars dilində yazdığı nəsr əsərlərini göstərin.
   1. "Mətləül-etiqad" 2. "Şikayətnamə"
   3. "Hədiqətüs-süəda" 4. "Rindü Zahid"
   5. "Səhhət və Mərəz"
   A) 4, 5 B) 2, 3, 5 C) 1, 4 D) 1, 4, 5 E) 1, 2, 3

D variantı

1. M.Füzulinin nəsr əsərləri ilə bağlı ***səhv*** fikri göstərin.
   A) "Şikayətnamə" əsərini məktub şəklində yazmışdır.
   B) Həm türk-Azərbaycan, həm də fars dilində yazılmış nəsr əsərləri var.
   C) Türk-Azərbaycan divanının nəsrlə yazılmış dibaçəsi (müqəddiməsi) daha çox elmi-nəzəri səciyyə daşıyır.
   D) "Səhhət və Mərəz", "Rindü Zahid" və "Şikayətnamə" əsərləri fars dilindədir.
   E) "Hədiqətüs-süəda" əsəri ana dilindədir.

2. Bunlardan ikisi M.Füzulinin qəsidəsidir:
   1. "Əql yar olsaydı..." 2. "Su" 3. "Yeddi cam"
   4. "Söhbətül-əsmar" 5. "Xəncər"
   A) 1, 5 B) 2, 5 C) 3, 4 D) 2, 4 E) 1, 3

3. M.Füzulinin "Leyli və Məcnun" poeması ilə bağlı ***səhv*** fikri göstərin.
   A) Şairin poema yaradıcılığının zirvəsi sayılır.
   B) "Rum zərifləri"nin xahişi ilə yazılmışdır.
   C) Şərq şeirinə ilk dəfə Nizami tərəfindən gətirilmiş "Leyli-Məcnun həzəci"ndə yazılmışdır.
   D) Lirik növün rübai, qəsidə, qəzəl və mürəbbe janrlarından da istifadə edilmişdir.
   E) Nizaminin "Leyli və Məcnun" poemasından fərqli olaraq, sufi-irfani məzmun öz geniş əksini tapa bilmir.

4. M.Füzulinin bu əsəri həm də "Nişançı Paşaya məktub" adlanır:
   A) "Bəngü Badə" B) "Şikayətnamə" C) "Yeddi cam"
   D) "Səhhət və Mərəz" E) "Rindü Zahid"

5. M.Füzulinin bu əsərlərindən biri fars dilində yazılmışdır:
   A) "Bəngü Badə" B) "Yeddi cam"
   C) "Mətləül-etiqad" D) "Hədiqətüs-süəda"
   E) "Söhbətül-əsmar"

6. M.Füzulinin müəllimə müraciətlə yazdığı bu şeirin janrı:
Ey müəllim, aləti-təzvirdir əşrarə elm,
Qılma əhli-məkrə təlimi-məarif, zinhar.
Hiylə üçün elm təlimin qılan müfsidlərə
Qətli-am üçün verir cəlladə tiği-abidar....
A) qəzəl B) qitə C) qəsidə D) rübai E) məsnəvi

7. M.Füzulinin "Leyli və Məcnun" poeması kimə ithaf olunmuşdur?
A) Nişançı Paşaya B) Şah İsmayıl Xətaiyə
C) Sultan Səlimə D) Sultan Süleyman Qanuniyə
E) "Rum zərifləri"nə

8. M.Füzulinin "Leyli və Məcnun" poeması necə başlayır?
A) özündən əvvəl bu mövzuda ilk poema yazmış Nizamiyə müraciətlə
B) Məcnunun anadan olmasının təsviri ilə
C) üç rübai ilə
D) nəsrlə yazılmış müqəddimə ilə
E) tanrıya və Peyğəmbərə yazılmış qəsidə ilə

9. M.Füzulinin "Leyli və Məcnun" poemasından götürülmüş bu parça kimin dilindəndir?
Bir sınmışa mumiya dilərdim,
Bir xəstə üçün şəfa dilərdim.
Gördüm, görünür bu əmr müşkil,
Bimar degil əlacə qabil.
A) Məcnunun atasının B) Zeydin C) Nofəlin
D) Məcnunun anasının E) İbn Səlamın

10. M.Füzulinin "Leyli və Məcnun" poemasında Leyli surəti ilə bağlı ***yanlış*** fikri göstərin.
A) Cəmiyyətdəki çürük adət-ənənələrə öz etirazını açıq-aşkar ifadə edə bilmir.
B) Rəyi soruşulmadan İbn Səlama ərə verilir.
C) İbn Səlam öləndən sonra Məcnuna məktub yazaraq onunla görüşmək istədiyini bildirir.
D) Məcnun tərəfindən "rədd ediləndən" sonra yeganə çıxış yolunu ölməkdə görür.
E) Şair Leylinin ölüm səhnəsini təsvir edərkən payız fəslini seçir.

YENİ DÖVR AZƏRBAYCAN ƏDƏBİYYATI

Azərbaycan ədəbiyyatının yeni dövrü XVII əsrdən başlayıb XX əsrin əvvəllərinə qədər olan bir dövrü əhatə edir. Bu dövr üç inkişaf mərhələsinə bölünür:

I mərhələ: XVII – XVIII əsrlər

II mərhələ: XIX əsr

III mərhələ: XX əsrin əvvəlləri (1900–1917-ci illər)

I mərhələ

XVII – XVIII ƏSRLƏR AZƏRBAYCAN ƏDƏBİYYATI

Bu mərhələdə aşıq şeirinin güclü inkişafı, çoxsaylı dastanların yaranması, yazılı ədəbiyyatın, xüsusilə poeziyanın xəlqiləşməsi ilə xarakterizə edilir. Bu isə özlüyündə XVII – XVIII əsrlər Azərbaycan ədəbiyyatını intibah dövrü kimi səciyyələndirməyə əsas verir.

Ədəbiyyatda həyata, varlığa real, gerçək baxışların güclənməsi, lirik qəhrəmanın real əsaslar üzərində təsviri, həyatilik, mövzuların Azərbaycan həyatından götürülməsi, xalq dilinin zəngin ifadə imkanlarının təzahürü onun intibahı demək idi. Azərbaycan ədəbiyyatının intibah dövrünün səciyyəvi əlamətləri aşağıdakılardır:

1. Ədəbiyyatın milliləşməsi
2. Ədəbiyyatın demokratikləşməsi
3. Ədəbiyyatın realistləşməsi

XVII – XVIII əsrlərdə Azərbaycan şifahi xalq ədəbiyyatının yazıya alınması daha diqqətdə olur. Azərbaycan dili təkcə Azərbaycanda deyil, qonşu xalqlar (gürcülər, ermənilər, dağıstanlılar, ...) arasında da sənət və

ünsiyyət dili kimi işləndiyindən Azərbaycan şifahi xalq ədəbiyyatı nümunələri həmin xalqlar tərəfindən də yazıya alınırdı. Bu isə XVII əsrdən bütün Qafqaz xalqlarının Azərbaycan intibahının təsiri altında olduğunu göstərir.

Bəlli nümunələrinin XVI əsrdə Qurbani tərəfindən yarandığı aşıq şeiri XVII əsrdə Aşıq Abbas Tufarqanlı, Sarı Aşıq, XVII əsrin sonu və XVIII əsrin əvvəllərindən isə Xəstə Qasım kimi el sənətkarlarının simasında özünün kamil bir mərhələsinə qədəm qoyur.

Aşıqlar tərəfindən "Şah İsmayıl", "Əsli və Kərəm", "Tahir və Zöhrə", "Abbas və Gülgəz", "Aşıq Qərib" və s. kimi məhəbbət, "Koroğlu" kimi qəhrəmanlıq dastanları yaranır. "Koroğlu" eposu Azərbaycan intibahının ən möhtəşəm abidəsi sayılır.

XVII – XVIII əsrlərdə orta dövr Azərbaycan ədəbiyyatı üçün səciyyəvi olan klassik poeziya ənənələri davam və inkişaf etdirilir. Bu dövrdə yaranan ədəbiyyat nümunələrinin bir qismi klassik şeir janrlarında (qəzəl, qəsidə, qitə, müxəmməs və s.), digər bir qismi isə xalq şeiri janrlarında (qoşma, gəraylı, təcnis, bayatı və s.) yaranırdı. Poeziyada Füzuli ənənələri əsas yer tuturdu. Ədəbiyyatın əsas nümunələri Azərbaycan, az bir qismi isə fars dilində yaranırdı.

Bu dövrdə poeziyanı həm klassik, həm də xalq şeiri janrlarında yazıb-yaratmış Məhəmməd Əmani (1536-1610), "Bəxtiyarnamə" poemasının müəllifi Fədai Təbrizi (XVII əsr), Füzuli ədəbi məktəbinin davamçıları olan Məsihi (1575-1656), Saib Təbrizi (1601-1676) və Qövsi Təbrizi (XVII əsr) təmsil edirdi.

Həmin şairlər içərisində Saib Təbrizi daha məşhur olmuş, o, ana dilində yazdığı şeirlərinə görə əsrinin Füzulisi, farsca şeirlərinə görə isə əsrinin Hafizi sayılmış, Səfəvilər sarayında "məliküş-şüəra" rütbəsinədək yüksəlmişdi. Daha çox farsca yazan S.Təbrizinin bizə Azərbaycan dilində cəmi 17 qəzəli məlumdur.

XVII – XVIII əsrlərdə klassik şeir janrlarının özündə həm məzmun, həm də forma baxımından xəlqiləşmə prosesi gedir, qəzəl janrı bir daha Nəsimi, Füzuli sənətkarlığı səviyyəsinə yüksələ bilmir. XVIII əsr Azərbaycan poeziyasında əsas yeri aşıq şeirinin ən geniş yayılmış forması olan qoşma janrı tutur.

Həmin dövrdə yazıya alınan xalq dastanı "Şəhriyar" müəllifli bədii nəsrin inkişafına kömək edir. Ədəbi dildə qəliz ərəb və fars tərkiblərini xalq dilindən gələn ifadələr əvəzləyir. Ədəbiyyatda gerçək düşüncə, real həyati lövhələrin təsviri, nikbin əhvali-ruhiyyə, şadlıq, sevinc hislərinin tərənnümü əsas yer tutur ki, bu da sonrakı mərhələlərdə satirik üslubun yaranmasına zəmin yaradır.

XVIII əsr Azərbaycan yazılı ədəbiyyatının xarakterik xüsusiyyətləri özünü Molla Vəli Vidadi və Molla Pənah Vaqifin yaradıcılığı timsalında daha aydın göstərir. Əsərlərini lirik növün klassik və xalq-aşıq şeiri janrlarında yazmış ***Molla Vəli Vidadi (1707-1808)*** daha çox qəm, kədər şairidir. Dövrün, zamanın ictimai-siyasi problemlərindən irəli gələn Vidadi kədəri dərin ictimai məzmun daşıyır. O, "Könlümü" rədifli qoşmasında qəm, kədər şairi olmasını məhz yaralı şair olması ilə izah edir:

Ey həmdəmim, səni qanə qərq eylər,
Gəl tərpətmə yaralanmış könlümü.

Şairin yaşadığı dövrdə dərəbəyliyin doğurduğu fəlakətlər "Müsibətnamə" mənzuməsində ətraflı əks olunmuşdur. O, müxəmməs şəklində olan bu mənzuməni dostu Şəki hakimi Hüseyn xan Müştağın öldürülməsi münasibətilə yazmışdır.

Vidadinin "Durnalar" rədifli qoşması çox məşhurdur. Eyni rədifli qoşmaya M.P. Vaqifin və Q. Zakirin yaradıcılığında da rast gəlirik. Ümumən, durnalar mövzusu lirik şeirimizin əsas mövzularından biri olmuşdur. Sonralar da bir sıra şairlər (S.Rüstəm, A.İldırım və b.) tərəfindən davam etdirilən bu mövzu şeirimizdə ayrılıq-hicran, vəfa-etibar motivlərinin əks etdirilməsi üçün çox əlverişli idi.

Vidadi ilə Vaqifin məşhur "Ağlarsan" rədifli deyişmələri həm ideya və məzmunca, həm də sənətkarlıq səviyyəsinə görə ədəbiyyatımızın dəyərli nümunələrindəndir. Bu deyişmədə hər iki sənətkarın həyata baxışı,

xarakterlərindəki özünəməxsusluqlar: Vidadinin təbiətən bədbin, Vaqifinsə nikbin bir insan olması aydın ifadəsini tapmışdır. Hər iki şairin tərcümeyi-halı ilə bağlı bəzi məqamları da məhz bu deyişmədən öyrənmək olur. Vidadi bu deyişmədə həyatın gözəlliklərindən zövq almağa çalışan, nikbin şeirlər yazan dostu Vaqifi dünya nemətlərinə aludə olmamağa, ümidlərini yalnız Allaha bağlamağa, şəriət hökmləri ilə oturub-durmağa çağırırdı.

Toy-bayramdır bu dünyanın əzabı,
Əqli olan ona gətirər tabı –

deyən Vaqifə Vidadi dünyanın faniliyi haqqındakı dini-fəlsəfi ehkamları xatırladırdı.

Bu deyişmədə Vidadi dostu Vaqifin öz tematikasında gözələ, gözəlliyə aludəçiliyini də ona açıq-aşkar irad tuturdu:

Gəl danışma müxəmməsdən, qəzəldən,
Şeiri-həqiqətdən, mədhi-gözəldən.
Sənin ki halını billəm əzəldən,
Elə deyib canan, dilbər, ağlarsan.

Vidadi ilə Vaqif dostluğu ədəbiyyat tariximizdə qələm dostluğunun parlaq təcəssümüdür. Təsadüfi deyil ki, Səməd Vurğun və Osman Sarıvəlli, Mikayıl Müşfiq və Rəsul Rza dostluğu məhz bu dostluqla müqayisə edilir. Xalq şairi S.Vurğun "Vaqif" dramında bu dostluğu sənətkarlıqla əks etdirmişdir.

A varianti

1. Həm klassik şeir, həm də xalq – aşıq şeiri formasında əsərlər yazmış şairlər:
   1. Məsihi 2. Saib Təbrizi
   3. Məhəmməd Əmani 4. Molla Vəli Vidadi
   5. Molla Pənah Vaqif 6. Qövsi Təbrizi
   A) 1, 3, 4, 5 B) 3, 4, 5 C) 2, 3, 6 D) 1, 2, 4, 5 E) 1, 4, 6

2. XVII əsrdə yaşayan sənətkarlar:
   1. Molla Pənah Vaqif 2. Məhəmməd Əmani
   3. Fədai Təbrizi 4. Molla Vəli Vidadi 5. Qövsi Təbrizi
   A) 2, 3, 5 B) 1, 4 C) 1, 2, 5 D) 3, 4, 5 E) 2, 3, 4

3. Azərbaycan ədəbiyyatının yeni dövrü ilə bağlı doğru fikirləri müəyyənləşdirin.
   1. Yeni dövr XVII əsrdən başlayır.
   2. Üç inkişaf mərhələsi var.
   3. I mərhələ XVII-XVIII əsrləri əhatə edir.
   4. II mərhələ XIX-XX əsrləri əhatə edir.
   5. III mərhələ XX əsrin ortalarından XXI əsrin əvvəllərinəcən davam edir.
   A) 2, 5 B) 1, 3, 4 C) 1, 2, 3 D) 2, 4, 5 E) 1, 4

4. XVII əsrdə yaşayıb-yaradan Azərbaycan aşıqları:
   1. Qurbani 2. Aşıq Abbas Tufarqanlı 3. Aşıq Ələsgər
   4. Aşıq Alı 5. Sarı Aşıq 6. Xəstə Qasım
   A) 2, 3, 5 B) 1, 2, 3 C) 1, 2, 6 D) 4, 6 E) 2, 5

5. XVII-XVIII əsrlərdə yazılı ədəbiyyatın, xüsusən poeziyanın xəlqiləşməsinə təsir göstərən başlıca amil:
   A) farsca yazmaq ənənəsinə son qoyulması
   B) romantik üslubda yazmaq ənənəsinin başa çatması
   C) əruz vəznli şeirlərə marağın azalması

D) şifahi xalq ədəbiyyatı nümunələrinin yazıya alınması
E) "Əsli və Kərəm", "Şah İsmayıl", "Tahir və Zöhrə", "Abbas və Gülgəz", "Aşıq Qərib" kimi məhəbbət dastanlarının yaranması və aşıq poeziyasının güclənməsi

6. XVI əsrin sonu, XVII əsrin əvvəllərində yaşayan, həm klassik şeir janrlarında (qəsidə, qəzəl və qitə), həm də xalq şeiri janrlarında (qoşma, gəraylı və bayatılar) yazan sənətkarımız:
A) Fədai Təbrizi B) Məsihi
C) Saib Təbrizi D) Məhəmməd Əmani
E) Qövsi Təbrizi

7. XVII-XVIII əsrlər Azərbaycan ədəbiyyatında ən çox istifadə olunan janr:
A) qoşma B) qəzəl C) qəsidə
D) gəraylı E) rübai

8. Bu misraların müəllifi kimdir?
Ey həmdəmim, səni qanə qərq eylər,
Gəl tərpətmə yaralanmış könlümü.
A) Molla Pənah Vaqif B) Məhəmməd Əmani
C) Xəstə Qasım D) Molla Vəli Vidadi
E) Aşıq Abbas Tufarqanlı

9. Orta dövrün sonları, yeni dövrün əvvəllərindən başlayan Azərbaycan intibahının ən möhtəşəm əsəri və ən böyük sənətkarı:
A) "Koroğlu"; Molla Pənah Vaqif
B) "Əsli və Kərəm"; Xəstə Qasım
C) "Şah İsmayıl"; Molla Pənah Vaqif
D) "Abbas və Gülgəz"; Aşıq Abbas Tufarqanlı
E) "Müsibətnamə"; Molla Vəli Vidadi

10. Azərbaycanca şeirlərinə görə dövrünün Füzulisi, farsca şeirlərinə görə dövrünün Hafizi adlandırılan şair:
A) Molla Pənah Vaqif B) Molla Vəli Vidadi
C) Məhəmməd Əmani D) Qövsi Təbrizi
E) Saib Təbrizi

B variantı

1. Azərbaycan ədəbiyyatının yeni dövrü ilə bağlı düzgün fikirləri müəyyənləşdirin.
   1. Bu dövrdə şifahi xalq ədəbiyyatı güclənərək yazılı ədəbiyyata əsaslı təsir göstərir.
   2. Yazılı ədəbiyyatda farsca yazmaq ənənəsinə son qoyulur.
   3. Xalq ədəbiyyatı nümunələri yazıya alınır.
   4. Klassik şeir janrlarında yazmaq ənənəsi tamamilə zəifləyir.
   5. Yazılı ədəbiyyatda, xüsusən poeziyada xəlqiləşmə prosesi gedir.

   A) 1, 2, 5 B) 1, 3, 5 C) 2, 4 D) 3, 4, 5 E) 1, 4

2. Bu əsərlərdən birində dərəbəyliyin doğurduğu fəlakətlər ətraflı əks olunmuşdur:
   A) "Şah İsmayıl" B) "Müsibətnamə" (M.V.Vidadi)
   C) "Əsli və Kərəm" D) "Aşıq Qərib"
   E) "Şəhriyar"

3. XVII-XVIII əsrlər Azərbaycan intibahının səciyyəvi əlamətləri hansılardır?
   1. Ədəbiyyatda yeni janrların yaranması
   2. Ədəbiyyatın milliləşməsi
   3. Ədəbiyyatın demokratikləşməsi
   4. Ədəbiyyatın realistləşməsi
   5. Ədəbiyyatda tarixi mövzuların geniş yer tutması

   A) 1, 4 B) 1, 2, 3 C) 2, 3, 5 D) 2, 3, 4 E) 4, 5

4. Kənd-elat mühitində yetişən və XVIII əsr Azərbaycan ədəbiyyatının ən görkəmli nümayəndəsi sayılan sənətkarımız:
   A) Məhəmməd Əmani B) Sarı Aşıq
   C) Molla Vəli Vidadi D) Molla Pənah Vaqif
   E) Qasım bəy Zakir

5. Bu aşıqlardan üçü XVII əsrdə ***yaşamamışdır***:
   1. Aşıq Abbas Tufarqanlı 2. Qurbani 3. Sarı Aşıq
   4. Aşıq Ələsgər 5. Aşıq Alı

   A) 1, 2, 5 B) 1, 2, 3 C) 2, 4, 5 D) 3, 4, 5 E) 2, 3, 4

6. "Bəxtiyarnamə" poemasının müəllifi:
   A) Məhəmməd Əmani B) Qövsi Təbrizi
   C) Saib Təbrizi D) Fədai Təbrizi
   E) Məsihi

7. Səfəvilər sarayında "məliküş-şüəra" rütbəsinə yüksələn şair:
   A) Saib Təbrizi B) Məhəmməd Əmani
   C) Qövsi Təbrizi D) Fədai Təbrizi E) Məsihi

8. XVII əsr aşıq poeziyası ilə bağlı ***səhv*** fikri müəyyənləşdirin.
   A) Ozan sənətinin varisidir.
   B) Aşıq Abbas Tufarqanlı və Sarı Aşıq bu poeziyanın əsas nümayəndələridir.
   C) Yazılı ədəbiyyatın xəlqiləşməsində mühüm rol oynayıb.
   D) "Koroğlu" və "Şah İsmayıl" kimi qəhrəmanlıq dastanları yaranır.
   E) XVII-XVIII əsrlər Azərbaycan intibahının formalaşmasına əsaslı təsir göstərib.

9. Bu misraların müəllifi kimdir?
   Toy-bayramdır bu dünyanın əzabı,
   Əqli olan ona gətirər tabı.
   A) Molla Vəli Vidadi B) Aşıq Abbas Tufarqanlı
   C) Sarı Aşıq D) Molla Pənah Vaqif
   E) Xəstə Qasım

10. M.P.Vaqiflə məşhur deyişmədə M.V.Vidadi öz dostuna nələri tövsiyə edir?
    1. Qarabağdan köçüb doğma kəndinə qayıtmağı
    2. Gənc nəslin təlim-tərbiyəsi ilə məşğul olmağı
    3. Dünya nemətlərinə aludəçilik göstərməməyi
    4. Ümidini Allaha bağlamağı
    5. Şəriətin hökmləri ilə oturub-durmağı
    A) 1, 4, 5 B) 2, 3, 4 C) 3, 4, 5 D) 2, 5 E) 1, 5

"KOROĞLU" EPOSU

Yeni dövr Azərbaycan ədəbiyyatının ən qiymətli nümunəsi "Koroğlu" eposudur. Bəzi epizodları XVI əsrin sonları, XVII əsrin əvvəllərində Şərqi Anadoluda baş vermiş ictimai-tarixi hadisələrlə, xüsusilə Cəlalilər üsyanı ilə səsləşən bu epos türk xalqlarının ən qədim, əsatiri dünyagörüşü və dastançılıq ənənələri əsasında yaranmışdır. Əsərin baş qəhrəmanı Koroğlunun qeyri-adi xüsusiyyətlərinin (nadir səs, yenilməz güc, coşqun ilham) ona su vasitəsilə verilməsi, Qıratın və Düratın dərya atından törəməsi, Misri qılıncın ildırım parçasından düzəldilməsi, qəhrəmanın əsl adı olan Rövşən sözünün odla, işıqla bağlı olması, onun dağlar qoynunda yaşaması və s. ən qədim düşüncələrlə bağlıdır.

Eposun yeni dövrdə yaradılmış bəzi qollarının biçimlənib ətə-qana dolmasında isə "Kitabi – Dədə Qorqud", "Şahnamə", "Vərqa və Gülşa" kimi əsərlərin, müxtəlif nağıl və rəvayətlərin müəyyən təsiri olmuşdur.

Lakin dastanda real həyat həqiqətləri, ictimai məzmun daha üstün mövqedədir. Bəzi epizodlar nəzərə alınmazsa, demək olar ki, eposdakı hadisələrin əksəriyyəti həyatidir. Qəhrəmanlar və onların fəaliyyəti çox görümlü, real təsvir olunur. Bəzən mifik təfəkkürdən süzülüb gələn "o dünya", "bu dünya" ifadələrinə təsadüf edilsə də, bütövlükdə eposun bədii məkanı realdır. Əhvalatlar konkret yerlərdə: Çənlibeldə, İstanbulda, Toqatda, Dərbənddə, Bağdadda cərəyan edir. Hadisə və surətlər, xüsusilə onların mənəvi aləmi: hiss, duyğu və düşüncələri olduqca inandırıcı göstərilir. Bədii zaman da bir çox cəhətdən tarixi və milli səciyyə daşıyır.

Koroğlu surəti. Vətənpərvərlik, humanizm və qəhrəmanlıq ideyaları aşılayan "Koroğlu" eposunda təsvir olunan hadisələrin mərkəzində Koroğlu surəti dayanır. Əsər başdan-başa onun fiziki və mənəvi-əxlaqi gözəlliyinin epik təsvir və tərənnümündən ibarətdir. Koroğlu kasıb, zəhmətkeş bir ailədə doğulmuşdur. Əsl adı Rövşəndir. Atası Alı kişi Həsən xanın ilxıçısı olmuşdur; ömrünü, gününü xana xidmətdə keçirmiş, saç-saqqalını onun qapısında ağartmışdır. Lakin bir gün Həsən xan qəzəblənərək böyük bir ədalətsizlik edir; haqsız olaraq Alı kişinin gözlərini çıxartdırır. Rövşən atasının intiqamını aldıqdan sonra onun məsləhəti ilə Çənlibeldə məskunlaşır, sehrli Qoşabulağın köpüklü suyundan içib yenilməz güc-qüvvət və aşıqlıq istedadı qazanır. Bundan sonra atası ona Koroğlu adı verir və çox keçmir ki, bu ad hər tərəfə yayılır. Haqq, ədalət tərəfdarları Koroğlu ilə fəxr edir, ona arxa dururlar. Zəhmətkeş camaatı, xalqı incidən bəylər, paşalar və xanlar isə onun adı gələndə qorxudan tük salırlar. Koroğlu özü isə həmişə və hər yerdə haqqın tərəfdarı, zəhmətkeş kütlənin müdafiəçisi olduğunu söyləyir:

Qul deyərlər, qulun boynun burarlar,
Qullar qabağında gedən tirəm mən.
Hesabıya dağ da olsam, əyilləm.
Bədhesaba yaman kinligirəm mən.

Koroğlunun fiziki gözəlliyi və mənəvi keyfiyyətləri haqqında yayılan söhbətlər hər yerdə ona dərin rəğbət və məhəbbət hisləri oyadır. Xotkar qızı Nigar xanım görməzə-bilməzə ona vurulur. Məktub yazaraq öz məhəbbətini Koroğluya bildirir və gəlib onu Çənlibelə aparmasını xahiş edir. Koroğlu tək-tənha İstanbula gedib Nigar xanımı Çənlibelə gətirir, onunla evlənir.

Epos yaradıcıları Koroğlunu zahirən çox mübaliğəli təsvir edirlər. O, hündür boylu, gen sinəli, qalın qaşlı, burma bığlı bir igid-bahadırdır. Zəhmli baxışları var. Qara, çatma qaşlarının altında gözləri elə işıldayır ki, qarşısındakının vücuduna üşütmə salır. Bir oturuma bir öküzün yarısını, yaxud yeddi batman düyünün aşı ilə yeddi qoyunun yarı şaqqasını yeyir. Nərəsindən qulaq tutulur. Ox atmaqda, əmud vurmaqda, qalxan tutmaqda, qılınc oynatmaqda tayı-bərabəri yoxdur. Döyüşə girəndə şir kimi qızır, aslan kimi cuşa gəlir. Mərdlə mərdanə vuruşur, basdığı adamlar aman

diləyəndə bağışlayır, namərdlərin başını kəsir, var-dövlətini götürüb kasıblara paylayır.

Fiziki cəhətdən çox sağlam, güclü və yenilməz olan Koroğlu mənəvi keyfiyyətlərinə görə də zəngin bir bahadırdır. Mərdlik, qorxmazlıq, insanpərvərlik, haqsızlığa, zora qarşı amansızlıq onu səciyyələndirən əsas məziyyətlərdir. Dostluqda möhkəm və sədaqətlidir. Vəfalı həyat yoldaşı, mehriban, qayğıkeş insandır. Onun ürəyi Vətən və xalq üçün döyünür. Koroğlu Çənlibeldən ayrı düşəndə qəlbi sıxılır, el-obasını yada salıb, durnalarla soraqlaşır:

Göynən gedən beş durnalar,
Bizim ellər yerindəmi?!
Bir-birindən xoş durnalar,
Bizim ellər yerindəmi?!

Koroğlu Çənlibel igidlərinin başçısıdır. Aşıq Cünun şəhərləri, kəndləri, obaları, oymaqları gəzib, harada bir nəcib, saf süd əmmiş igid görsə, gəlib Koroğluya xəbər verir. Koroğlu belə adamları Çənlibelə gətirib öz dəstəsinə qoşa biləndə sevinir. Çənlibelə özü gəlib ona qoşulmaq, Koroğlu dəlisi olmaq istəyən igidləri isə sınaqdan keçirir. İmtahandan üzü ağ çıxanları dəlilərin sırasına qəbul edir, onlara xələt verib mükafatlandırır. Bu igidlər Koroğlunu özlərinə böyük qardaş, ata, yolgöstərən hesab edirlər. Koroğlu da onlara dərin məhəbbət və qayğı ilə yanaşır. Hər hansı biri dara düşəndə, yağı əlinə keçəndə özünü hamıdan əvvəl yetirir. Onun bu keyfiyyəti eposun "Durna teli", "Bayazid səfəri", "Telli xanımın Çənlibelə gəlməyi" qollarında aydın görünür. Həmin qollarda dəlilərdən Dəmirçioğlu, Bəlli Əhməd, Eyvaz, Halaypozan və Toxmaqvuran düşmən əlinə keçirlər. Koroğlu bu xəbəri eşidən kimi dərhal atlanıb onların köməyinə tələsir. Hadisə yerinə hamıdan tez yetişir və böyük igidliklər göstərib dostlarını azad edir.

Yenilməz güc-qüdrət sahibi olan Koroğlu həm də çox ağıllı, tədbirli bir adamdır. Səbir və hövsələ, mövcud vəziyyəti, düşmənin gücünü, bacarığını öyrənib nəzərə almaq, şəraitə uyğun hərəkət etmək onun xarakterini səciyyələndirən xüsusiyyətlərdir. Koroğlu dostlarına da, düşmənlərinə də çox vaxt iti ağlı, ciddi təmkini ilə qalib gəlir. "Dəmirçioğlunun Çənlibelə gəlməyi" qolunda bu cəhət aydın görünür. O,

Dəmirçioğlunun güc və qüdrətinə, mərdliyinə və təəssübkeşliyinə onunla ilk görüşündə bələd olur və ondan xoşu gəlir. Buna görə Dəmirçioğlunu güclə yox, ağıl və tədbirlə ram edib, öz tərəfinə çəkir; Dəmirçioğlu Koroğlunun gücündən çox ağlına tabe olub Çənlibelə gəlir.

Eposda Koroğlu həm də bacarıqlı bir sərkərdə, qoşun başçısı kimi təsvir olunur. O, düşmənlə döyüşdə həmişə ön cərgədə vuruşur, hədəf kimi rəqibin güclüsünü seçir. Çənlibelə təzə gəlmiş təcrübəsiz dəlilərə döyüş üsullarını, silahdan istifadə qaydalarını, düşməndən qorunmaq yollarını öyrədir. Naşını, təcrübəsizi, bərkə-boşa düşməyəni qabağa buraxmır. Döyüşdən əvvəl kəşfiyyat aparır, öz adamlarını ən əlverişli mövqelərdə yerləşdirir, onlara çətin vəziyyətdə təmkinli olmağı məsləhət bilir. Qızğın döyüşlər həmişə Koroğlunun işarəsi (adətən, əlini bığına çəkməsi) ilə başlanır və qələbə ilə yekunlaşır.

Başqa igidlərdən Koroğlunu fərqləndirən əlamətlərdən biri də onun nərə çəkməyidir. Özünün dediyi kimi, o, döyüş meydanında nərəsindən tanınır. Bu səsdən dağ-daş titrəyir, düşmən qoşunu qorxusundan ağacda yarpaq kimi əsir, silahları əllərindən yerə tökülür. Çox zaman ən güclü, basılmaz qəhrəmanlar da Koroğlunun nərəsindən diksinib qorxduğunu, bu səsin qarşısında tab gətirə bilməyəcəyini etiraf edirlər. Dəmirçioğlu deyir: "Mən onun nə qılıncından, nə qalxanından, nə əmudundan qorxmuram. Amma deyirlər dava eləyəndə onun bir nərə çəkməyi var ... Qorxsam, qorxsam, bəlkə, bircə o nərəsindən qorxam".

Koroğlu daha çox düşmən qoşununa hücuma keçəndə, güləş zamanı rəqibin ayaqlarını torpaqdan üzüb arxasını yerə vuranda, bir də öz igidlərini ruhlandırmaq istəyəndə nərə çəkir. Onun nərəsi düşməni qorxudub çaşdırdığı halda, öz igidlərinin döyüş ruhunu, qələbə əzmini artırır, onlara yeni güc-qüvvət verir.

Kasıb camaatı incidən zülmkar, ədalətsiz adamlarla düşmənçilik edən Koroğlu yollar kəsir, karvanlardan bac alır, verməyəni soyub-soymalayır. Məğlub etdiyi paşaların, xanların bütün xəzinəsini qənimət kimi ələ keçirir. Lakin Koroğlu quldur, talançı, yaxud istilaçı deyil, onda qarət ehtirası, var-dövlət hərisliyi də yoxdur. Əldə etdiklərini ehtiyac içərisində yaşayan, kasıb adamlara paylayır, qalanını Çənlibelə gətirərək, yoldaşları

ilə yeyib-içir və dəlilər arasında bölüşdürür. Xarakterik bir nümunəyə diqqət yetirək. Dastanın əvvəlində, "Dəli Həsən" qolunda məğlub olmuş Dəli Həsən Koroğlunu aparıb öz xəzinəsini göstərir və bu xəzinəni Çənlibelə aparmağı təklif edir. Bu vaxt Koroğlu – Rövşən koroğluluğa təzə başlamışdı, bəlkə də, belə xəzinəyə ehtiyacı vardı. Lakin Koroğlu xəzinəni aparmağı lazım bilmir, onu Çənlibelin sonrakı günləri üçün saxlayır.

Koroğlu uzaq səfərlərə gedəndə dəlilərlə, xanımlarla görüşüb-halallaşır. Qələbə ilə geri dönüb Çənlibeli, adamlarını sağ-salamat, hamını öz yerində görəndə fərəhindən dili ağzına sığmır. Məclis qurdurur, qoyunlar kəsilir, kabablar çəkilir, badələr içilir. Belə məclislər təkcə yeyib-içmək, deyib-gülmək, qələbəni qeyd etmək məqsədini daşımır; daha çox Çənlibel igidlərinin daxili birliyinin, ünsiyyətinin qüvvətlənməsinə, onları bir-birinə bağlayan dostluq, məhəbbət və qardaşlıq tellərinin möhkəmlənməsinə xidmət edir. Məhz belə məclislərdə Koroğlunun da, dəlilərin və xanımların da kefi durulur, ürəyi açılır, bütün incikliklər, umu-küsülər aradan qalxır. Onlar bir-birinə daha doğma və məhrəm olur, bir-birinin qədir-qiymətini daha yaxşı bilirlər.

Koroğlunun xarakterini səciyyələndirən və qələbələrini təmin edən keyfiyyətlərdən biri də ehtiyatlı olmasıdır. O, həmişə düşmən tərəfin, qarşılaşacağı pəhləvanların gücünü nəzərə alır və buna uyğun hərəkət edir. Aşıq Cünunu şəhərlərə, kəndlərə göndərib paşaların fikir-niyyətindən əvvəlcədən xəbərdar olur və lazımi tədbirlər görür. Paşaların Çənlibelə hücum edəcəyini eşidəndə bəndərgahları bağlatdırır, məntəqələri yoxlayır, ətrafa gözətçilər qoyur. Düşmənin hansı tərəfdən hücum edəcəyini, onun ordusunda hansı pəhləvanların olacağını öyrənir. Elə buna görə düşmənlə qarşılaşanda o, heç bir itki vermir, qələbəni tez və asan qazanır.

Dastanda igid, bahadır Koroğlu həm də qüdrətli bir aşıq kimi təqdim edilir. Ümumiyyətlə, bu əsərdəki surətlərin əksəriyyətinin "söy söyləmək" – şeir demək qabiliyyəti var. Dəlilər də, xanımlar da, hətta naxırçı və qəssab da yeri gələndə saz çalıb oxuyur, öz fikirlərini poetik şəkildə ifadə edirlər. Koroğlu isə həqiqi aşıqdır. Bu istedadı ona mifik qüvvə - Qoşabulağın suyu bəxş edib. O, çox vaxt üstündə qılıncla birlikdə saz da gəzdirir; qılıncla görülə bilməyən işi saz vasitəsilə həyata keçirir. Hətta əyninə aşıq

paltarı geyinir, çiynində saz məclisə daxil olur, özünü məclis sahiblərinə aşıq kimi təqdim edir: saz çalır, söz qoşur, mahnı oxuyur, məclis aparır. Keçəl Həmzəyə aldandığına görə yaxınlarının, doğmalarının qınağına məruz qalanda isə aşıqlığına, sazına, sözünə güvənib təsəlli tapır:

Koroğluyam, deyim sənə,
Od tutub alışdı sinə.
Aşıqlığım bəsdi mənə,
Şad ol, könül, nə məlulsan?

Bütün bu epizodlarda Koroğlu hiyləgər, kələkbaz adam yox, mövcud vəziyyəti, hadisələrin gedişatını bilmək istəyən səmimi bir ağıl sahibidir. Onun aşıq paltarında düşmən içinə getməsi, saz çalıb oxuması qəhrəmanlığının tərkib hissəsidir, mərd, qorxmaz insanın xarakterini tamamlayan keyfiyyətləridir.

Koroğlu xalqa, vətənə, doğma el-obaya arxalanan, onları dəlicəsinə sevən bir qəhrəmandır. Yurdsevərlik, vətənpərvərlik onun səciyyəvi məziyyətləridir. Koroğlunun güvənc yeri, tapındığı məkan Çənlibeldir. Hər tərəfdən uca dağlarla əhatə olunmuş bu yer mərdlər oylağı, kişilər məskənidir. Koroğlunun nəzərində Çənlibel dünyanın cənnət guşəsi, öz ictimai-əxlaqi qayda-qanunları olan müqəddəs bir yerdir. O, bu yerin vurğunu və məcnunudur.

Qırram qayaları, yıxaram dağı,
Xanlar zəhər içər, sultanlar ağı,
Çənlibeldi qoç Koroğlu oylağı,
Şah da gəlsə, Çənlibelə qoymaram.

Dastanda Koroğlunun yeniyetməlik və gənclik illərindən başlamış qocalığına qədər bütün ömür yolu öz bədii əksini tapır. Gənclik və ahıllıq dövründə həyatını xanlar və paşalarla qovğalarda, haqq-ədalət uğrunda mübarizədə keçirən Koroğlu qoca yaşlarında vuruşmadan, davadan əl çəkib, qalan ömrünü sakit başa vurmaq istəyir. O, dəliləri başından dağıdır, Qıratın nallarını söküb çölə buraxır, günlərini Nigar xanımla birlikdə Çənlibelin ətəklərini gəzməklə keçirir. Odlu silahın-tüfəngin meydana çıxdığı, adi bir uşağın 30-40 metr məsafədən balaca bir qurşunla güclü bir pəhləvanı vurub-öldürə biləcəyini görəndə isə Misri qılıncı

belindən açıb yerə tullayır: "Namərd əyyamıdır, daha mən koroğluluğu yerə qoydum", – deyib Nigar xanımla birlikdə Çənlibeldən uzaqlaşır. Lakin ikiüzlü namərd paşalar onu rahat buraxmırlar.

İran şahı ilə bağlı əhvalatda yuxarı təbəqənin bir daha namərdliyini görən Koroğlu yenidən Çənlibelə qayıdır. Dəliləri başına toplayıb üstünə gələn düşmənlərlə vuruşur və qələbə çalır. Dəlilər və Koroğlu yenidən Çənlibelə yığışırlar. Koroğluluq davam edir. Bununla dastan yaradıcıları öz qəhrəmanlarına ölməzlik verir. Onların fikrincə, nə qədər ki yer üzündə şər və qaranlıq, bədxahlıq və namərdlik mövcuddur, onlarla əks qütbdə dayanan Koroğlu da, koroğluluq da yaşamalıdır. Əks halda şərin xeyir, zülmətin işıq üzərində təntənəsi baş verə bilər. Bu isə bütün türk xalqlarının, o cümlədən azərbaycanlıların humanist dünyagörüşünə, istək və arzularına yaddır.

Koroğlu dəliləri. Koroğlunun arxalandığı qüvvə xalqdır. Eposda bu qüvvəni baş qəhrəmanın igid, qəhrəman mənasında "dəli" adlandırdığı dostları, silahdaşları təmsil edirlər. Əsərdə onların 7777 nəfər olduğu göstərilir. Bu rəqəm çoxluq bildirir. Çənlibelə öz istəkləri, arzuları ilə gələn dəlilər Koroğlu kimi mərd, qorxmaz, dostluqda, qardaşlıqda sədaqətli, etibarlı, haqq-ədalət tərəfdarı olan gənclərdir. Onlar bir-birini doğma qardaş kimi sevir, Koroğlunu özlərinə ata, məsləhətçi hesab edirlər. Hamısı Çənlibelin – Vətənin vurğunudur. Düşmənə, yağıya qarşı vuruşanda vahid yumruq kimi birləşir, haqqı, ədaləti müdafiə edirlər.

Eposda Dəli Həsənin, Dəmirçioğlunun, Bəlli Əhmədin, Eyvazın, Giziroğlu Mustafa bəyin igidliyi daha görümlü təsvir olunur. Kosa Səfər, Halaypozan, Tanrıtanımaz, Tupdağıdan, İsabalı kimi gənclər də öz qəhrəmanlıqları ilə yadda qalırlar. Bu gənclərin hər biri gücünə, qüvvəsinə, mənəvi zənginliyinə görə bir-birinə bərabər igidlərdir. Koroğlu onların hər birini sevir, hər birinə dərin hörmət bəsləyir. Lakin Çənlibel mühitində bu igidlərin hərəsinin özünəməxsus yeri və statusu var. Həmin yeri və statusu dəlilər öz əməlləri, döyüş təcrübələri və dəlilik stajı ilə qazanmışlar.

Koroğludan sonra Çənlibel igidlərinin ən nüfuzlusu Dəli Həsəndir. O, Çənlibeldə yurd-yuva salmış birinci qəhrəmandır. Hələ Koroğlu ilə

rastlaşana qədər Dəli Həsən yeddi il Çənlibel ətrafındakı yollarda ağalıq etmiş, tacir və bəzirganlardan bac-xərac alaraq, çoxlu sərvət toplamış, adsan qazanmışdır. Elə buna görə Alı kişi son nəfəsində oğlu Rövşənə vəsiyyət edir ki, özünü Dəli Həsəndən gözləsin, bacarsa, onunla dost olsun.

Koroğlu ilə ilk qarşılaşmada ona məğlub olan Dəli Həsən öz əhdinə görə Koroğlunun qılıncının altından keçərək, ölənəcən ona qardaş olacağına, qulluğunda duracağına and içir və bu andına sadiq qalır. Koroğlu uzaq səfərlərə gedəndə Çənlibeli Dəli Həsənə tapşırır. Eposun yalnız iki qolunda Dəli Həsənin Çənlibeldən kənara çıxdığı qeyd edilir. Digər qollarda o, Çənlibelin ən etibarlı qoruyucusu kimi göstərilir. Hətta bir dəfə səfərə çıxmaq istəyərkən Koroğlu ona etiraz edib deyir: "Yox, Dəli Həsən, Çənlibeli yiyəsiz qoymaq olmaz".

Bütün gəncliyini haqq-ədalət uğrunda qovğalarda keçirən Dəli Həsən qoca vaxtlarına qədər öz gücünü, döyüş bacarığını saxlayır. Düşmənlərin Çənlibelə hücum edəcəyini eşidəndə qanı qaynayır, qəzəbi coşur. üzünü Dəmirçioğluya tutub deyir:

Yağı düşmənlərə qovğa açmağa
Hələ var qolumda qüvvətim mənim.
Qoşun gəlib Çənlibelə keçməyə,
Qəbul etməz namus, qeyrətim mənim.

Gürzüm işləyəndə dağları qırar,
Qorxusundan tapmaz düşmənlər qərar.
Paşanın, xotkarın bağrını yarar
Ac aslan yerişim, heybətim mənim.

Mən Dəli Həsənəm, ər havadarı,
Taparam Eyvazı, o namidarı,
Vuruşma vaxtında, dava bazarı
Olmaz heç insafım, mürvətim mənim.

Koroğlunun ən məşhur dəlilərindən biri də Dəmirçioğludur. O da gücdə, qüvvətdə başqa dəlilərdən geri qalan deyil. Koroğluya məğlub

olduqdan sonra onunla qardaşlaşıb Çənlibel igidlərinə qoşulur. "Koroğlunun Ərzurum səfəri", "Koroğlunun qocalığı" qollarında da Dəmirçioğlunun igidliyi və qorxmazlığı təsvir edilir. Bu baxımdan eposun "Koroğlunun Ərzurum səfəri" qolundakı bir epizod xüsusilə yaddaqalandır. Həmin epizodda deyilir: "Koroğlu başındakı dəlilərə Dəmirçioğlunun hünərli, güclü bir igid olduğunu bildirmək istədi. Koroğlu bir alma götürdü. Almanın üst tərəfinə bir üzük taxdı. Dəmirçioğlunun papağını götürdü, almanı onun başına qoydu. Almanı Dəmirçioğlunun başına elə qoymuşdu ki, orda üzüyün halqası görünürdü... Bir-birinin dalınca qırx ox atdı. Yaydan çıxan oxların hamısı üzüyün halqasından keçdi. Heç bir xata eləmədi. Yayınmadı. Koroğlu oxları atanda Dəmirçioğlu nə yerindən qımıldandı, nə rəngi qaçdı, nə gözləri qırpındı. Canından qorxmayan qoç igid kimi yerində mərdanə durdu. Bir yana tərpənmədi".

Koroğlu dəlilərinin ən cavanı Eyvazdır. Dastan yaradıcılarının igidlikdə Rüstəm Zaldan, gözəllikdə Yusifdən üstün bir gənc kimi təqdim etdikləri Eyvaz əslən Təkə-Türkman elindən olub, Qəssab Alının oğludur. Koroğlu onu atasının razılığı ilə Çənlibelə gətirmiş, oğulluğa götürmüşdür. Özünün igidliyinə, mərdliyinə, zahiri gözəlliyinə görə hələ Təkə-Türkmən elində hamının sevgisini qazanan Eyvaz Çənlibelə gəldikdən sonra Koroğlu dəlilərinin və xanımların böyük məhəbbətini qazanır. Onu dəlilər də, xanımlar da sevir, xətrini əziz tuturlar.

Eyvazın igidliyi və mənəvi keyfiyyətləri eposun "Turkman səfəri", "Ərəb Reyhan", "Durna teli", "Koroğlunun qocalığı" qollarında təsvir edilir. O, Ərəb Reyhan kimi güclü və təcrübəli bir pəhləvanla qarşılaşıb, ona qalib gəldikdən sonra həm Koroğlunun, həm də dəlilərin gözündə daha da ucalır.

Eposda Halaypozan, Tanrıtanımaz, Tüpdağıdan, İsabalı kimi igidlərin də qəhrəmanlığı təsvir edilir. Onların hamısı Çənlibeldə demokratik şəraitdə bir-birinə dərin hörmət və sayğılarla yaşayır, fəaliyyət göstərirlər. Dəlilər bir-birini sevməklə yanaşı, nöqsanlarını da göstərir və islah edirlər. Koroğlu onların hamısını silahdaş, doğma övlad, onlar da Koroğlunu böyük qardaş, ağsaqqal kimi sevir, hörmət edirlər.

Qadın surətləri. Nigar xanım. " Koroğlu" eposunda bir sıra qadın surətləri vardır: Telli xanım, Məhbub xanım, Mərcan xanım, Zərnişan xanım, Dünya xanım və başqaları. Bunların hamısı paşa, bəy, xan qızlarıdır. Doğulub-böyüdükləri saray mühiti onlara dar qəfəs kimi gəldiyindən hərəsi Çənlibel igidlərindən birini görüb sevmiş, könüllü surətdə, qarşılıqlı məhəbbət əsasında ərə getmişdir.

Çənlibeldə qadınlar yüksək hörmət sahibidirlər. Onlar azad, demokratik bir şəraitdə yaşayırlar. Kişilərlə bir məclisdə oturur, yeyib-içir, məsləhət və məşvərətlərində iştirak edirlər. Lazım gələndə silahlanıb döyüşlərdə olur, dəlilərə mənəvi güc, ilham verirlər.

Çənlibel xanımlarının ağbirçəyi Nigar xanımdır. O, İstanbul xotkarının qızıdır. Koroğlunun şan-şöhrətini eşidib ona vurulmuş, Koroğluya Bəlli Əhmədlə xəbər göndərmiş, Koroğlu da Nigar xanımı Çənlibelə gətirib onunla evlənmişdir. Mehribanlığı, gözəlliyi və qayğıkeşliyi ilə Nigar xanım Çənlibeldə hamının dərin hörmət və məhəbbətini qazanmışdır. Dəlilər və xanımlar onu özlərinə ana, böyük bacı hesab edirlər. Nigar xanım da bütün dəliləri doğma qardaş bilir, onların qayğısına qalır, dərdlərinə şərik olur. İgidlər, xanımlar bir-birindən inciyib küsəndə Nigar xanım onları barışdırıb incikliyi aradan qaldırır. Həmişə haqqın tərəfində durur, nahaqqı pisləyir. Dəlilər səfərə çıxanda, düşmən əlinə keçəndə Nigar xanım narahatlıq keçirir, həyəcanlanır. Dəmirçioğlunu yaralı görəndə ağlayır, Eyvazın, Bəlli Əhmədin tutulduğunu biləndə nalə çəkir, qan-yaş tökür. Onlar sağ-salamat Çənlibelə qayıdanda isə sevincindən yerə-göyə sığmır.

Eposda Nigar xanımın daxili-mənəvi aləmi, xüsusilə övlad həsrəti, övladsızlığın onda əmələ gətirdiyi nisgil çox canlı, təsirli verilir. Nigar xanım övladı olmadığı üçün qüssələnir, övladsız yaşamağı mənasız sayır. Onun ürəyi ana olmaq, körpəsinə layla çalmaq, balasını əzizləmək eşqi ilə çırpınır. Bir gün öz arzularını, könül çırpıntılarını və qəm-qüssə içində üzməsinin səbəbini Koroğluya bildirir:

Necə baxım ev-eşiyə,
Yaralı könlüm üşüyə.

Toz bürümüş boş beşiyə
Şirin layla çalan yoxdur.

Çənlibeli güllər bəzər,
Güllər saralsa, kim üzər?
Hər quş balasıynan gəzər,
Niyə sənin balan yoxdur?

Bundan sonra Koroğlu Aşıq Cünunun məsləhəti ilə Eyvazı Çənlibelə gətirir. Nigar xanım el adəti üzrə onu köynəyinin yaxasından keçirib oğulluğa qəbul edir və beləliklə, Koroğlunun da, Nigar xanımın da övladsızlıq dərdi aradan qalxır. Onlar Eyvaza doğma oğul kimi baxır və sevirlər.

Paşalar, xanlar, bəylər. Eposda Koroğlunun və onun dəlilərinin mübarizə apardığı əsas qüvvələr zülmkar paşalar, bəylər və xanlardır. Əsərdə onların böyük bir silsiləsi təsvir olunur: Həsən xan, Hasan paşa, Cəfər paşa, Aslan paşa, Mahmud paşa və başqaları. Dastan yaradıcıları bu adamların simasında yalançı, ədalətsiz, hiyləgər və qorxaq hakimiyyət sahiblərinin surətlərini yaratmışlar. Onlar əməllərinə görə xalqın qəzəbindən qorxur, buna görə xalqı müdafiə edən qəhrəman oğulları: Koroğlunu və onun tərəfdarlarını məhv etmək istəyirlər. Bundan ötrü müxtəlif yollara əl atır, hiylə işlədir, lakin məqsədlərinə nail ola bilmirlər.

"Koroğlu" ayrı-ayrı qollardan ibarət bitkin bir əsərdir. Onun ilk qolları müxtəlif rəvayətlər əsasında XVI əsrin sonu XVII əsrdə yaransa da, sonrakı əsrlərdə də zəngin yaradıcılıq yolu keçmiş, daha da təkmilləşmiş, XVII – XVIII əsrlərdə formalaşmışdır. Azərbaycanın hər tərəfində geniş yayılan və sevilən bu əsərin ayrı-ayrı qolları indiyə qədər bir neçə dəfə toplanıb yazıya alınmış və nəşr edilmişdir. Yazıya alınmış "Koroğlu" eposunun üç nüsxəsi məşhurdur. Onlardan biri Paris Milli kitabxanasında, ikincisi Tiflisdə Əlyazmalar İnstitutunda, üçüncüsü Bakıda AMEA Folklor İnstitutunun elmi arxivində saxlanılır. Paris və Tiflis nüsxələri XIX əsrdə, Bakı nüsxəsi isə XX əsrdə yazıya alınmışdır. Bu nüsxələrin üçü də Bakıda çap olunmuşdur. Paris nüsxəsi 13, Tiflis nüsxəsi 28 məclisdən (qoldan) ibarətdir. Bakı nüsxəsindəki qolların sayı daha çoxdur. Məşhur Azərbaycan folklorşünası Məmmədhüseyn

Təhmasib eposun 18, İsrafil Abbaslı ilə Bəhlul Abdulla isə 25 qoldan ibarət olan variantlarını çap etdirmişlər. "Koroğlu"nun bir variantı da görkəmli folklorşünas, AMEA-nın müxbir üzvü, professor Azad Nəbiyev tərəfindən nəşr olunmuşdur. Lakin əsərin hələ çap olunmamış qolları da vardır.

Azərbaycan xalq dastanlarının hamısı kimi, "Koroğlu"nun da "Alı kişi"dən başqa, bütün qolları quruluş etibarilə nəsr və nəzm hissələrindən ibarətdir. Hadisələr, əhvalatlar nəsrlə danışılır, qəhrəmanların daxili aləmi: hiss, duyğu və düşüncələri, sevinc və həyəcanları isə şeirlə ifadə olunur.

Dastanın nəsr dili olduqca təbii və canlıdır. Əhvalatları söyləyən aşıq dinləyiciləri maraqlandırmaq, onların diqqətini cəlb etmək, məclisi ələ almaq, söhbəti şirinləşdirmək, nəhayət, haqqında söhbət açdığı qəhrəmanı dinləyicinin gözündə ucaltmaq, onu sevdirmək üçün bədii müqayisələr aparır, təşbeh, metafora, mübaliğə kimi məcazlardan məharətlə istifadə edir. Məsələn, dastanın "Ərəb Reyhan" qolunda Koroğlunu dardan qurtarmaq üçün Qarsa gələn dəlilərin şəhərə doluşduğunu təsvir edən aşıq deyir: "Koroğlu hələ sözünü tam eləməmişdi ki, şəhərdə vurhavur qopdu. Ərəb Reyhan belə baxanda gördü, vallah, budu, bir dəstə siyirməqılınc atlı elə gəlir, elə gəlir ki, elə bil, bir dəstə tərlandı, ördəyə, qaza gəlir. Tez keçdi meydanın bu biri tərəfinə ki, qoşun böyüklərini çağırsın. Baxdı ki, bir belə dəstə də bu tərəfdən gəlir. Belə dönəndə gördü budu, bir dəstə atlı da bu biri küçədə, olar bir üç yüz – dörd yüz əsgəri qatıb qabağına qarğa-quzğun kimi qova-qova gətirir. Ərəb Reyhan özünü itirdi. Bilmədi nə eləsin".

Dastanın mətnində təhkiyəni tez-tez dialoqlar əvəz edir. Bədii nitqin bu tipindən dastan yaradıcıları, adətən, qarşılaşan tərəflərin gücünü, ağıl və düşüncəsini əyani göstərmək üçün istifadə edirlər. Bu dialoqlarda qarşılaşan tərəflər bir-birinə dov gəlir, rəcəz oxuyur, özlərinin üstün keyfiyyətlərini ortaya qoyur, yaxud rəqibin zəif yerini öyrənmək istəyirlər. Dastanın "Alı kişi", "Koroğluynan Dəli Həsən", "Dəmirçioğlunun Çənlibelə gəlməyi", "Koroğluynan Ərəb Reyhan", "Koroğlunun İstanbul səfəri" və s. qollarında maraqlı bədii dialoqlar vardır. Koroğlunun Dəli Həsənlə, Ərəb Reyhanla, Nigar xanımla, Dəmirçioğlu ilə qarşılaşdığı epizodlarda istifadə edilən belə dialoqlar, bir tərəfdən, qarşılaşan

surətlərin xarakterinin açılmasına xidmət edir, digər tərəfdən, əsərdə dramatizmin qüvvətlənməsinə təsir göstərir.

"Koroğlu" dastanında əhvalat və hadisələr surətlərin daxili yaşantıları ilə vəhdətdə təsvir olunur. Hadisələri nəsrlə danışan söyləyici (aşıq) qəhrəmanların hiss-həyəcanlarını görümlü şəkildə canlandırmaq üçün şeirdən istifadə edir. Ayrı-ayrı surətlərin dilindən söylənən bu şeirlər gözəl poeziya nümunələridir; qoşma, varsağı və gəraylı janrlarındadır. Qəhrəmanların vəziyyəti ilə həmahəng olub, onların psixoloji durumunu, könül dünyasını real, təsirli və emosional əks etdirir.

Dastanın şeir və nəsr hissələri bir-biri ilə möhkəm əlaqələnir. Yığcamlığı, axıcılığı və yüksək ahəngdarlığı ilə seçilən şeirlər həmişə nəsrlə danışılan əhvalatları tamamlayır və dinləyicidə igidlik, qəhrəmanlıq, humanizm ruhu yaradır. Həm nəsr, həm də nəzm hissələrinin dili bədii məcazlarla zəngindir. Əsərdə gözəl bənzətmələr, metafora və mübaliğələr vardır. Bu məcazlar dastanın nəsr hissəsində epik lövhələrin, vuruş səhnələrinin, bahadırlığın; şeir hissəsində isə lirik duyğuların canlandırılmasına xidmət edir.

Bütün bu gözəlliklər "Koroğlu" eposunu nadir bədii sənət nümunəsi hesab etməyə əsas verir. Azərbaycan türklərinin fəlsəfi-estetik, ictimai-tarixi, siyasi-hərbi və mədəni-iqtisadi düşüncələrinin bədii əksi kimi yaradılan bu əsər dünya xalqlarının "İliada", "Odisseya", "Manas", "Alpamış", "Nart", "Dədə Qorqud" kimi məşhur eposları ilə bir sırada durur.

"Keçəl Həmzənin Qıratı qaçırması"

"Koroğlu" eposunun xalq arasında ən geniş yayılmış və ən çox sevilən qollarından birincisi "Keçəl Həmzənin Qıratı qaçırması"dır. Bu qolda təsvir olunan əhvalat dastanın baş qəhrəmanı Koroğlunun xarakterini səciyyələndirən yeni xüsusiyyətləri üzə çıxarır. Düşmənlə mübarizədə həmişə ehtiyatlı davranan, Çənlibelə yalnız sınaqdan çıxmış, özünü doğrultmuş adamları buraxan, bir iş görəndə dəlilərlə məsləhətləşən, onların sözünə qulaq asan, saxta-qəlp adamı üz-gözündən tanıyan Koroğlu

bu qolda ehtiyatsız hərəkət edir, dəlilərin və xanımların məsləhətini boşuna buraxır və bunun nəticəsində çətin günlər yaşamalı olur.

"Həmzənin Qıratı qaçırması" qolunda mərdliklə namərdlik üz-üzə gəlir. Mərdliyi, kişiliyi Koroğlu, namərdliyi Keçəl Həmzə təmsil edir. Bu qolda Koroğlunun insanpərvərliyi və rəhmdilliyi yeni bir şəkildə üzə çıxır. O, Keçəl Həmzənin yazıq, miskin görkəminə və yalan sözlərinə inanıb, onun Çənlibeldə qalmasına icazə verir. Dəlilər və xanımlar bu işdən möhkəm narazı olurlar. Ancaq Koroğlu onları sakitləşdirib deyir: "Görürsünüz, yazığın birisidi. Sizə nə edəcək? Qoyun süfrəmizin qırıq-quruğundan yeyib qapıda-bacada dolansın".



Həmzənin Qıratı aparması

Bir tərəfdən, Həmzənin bicliyi, hiyləgərliyi, digər tərəfdən, özünün rəhmdilliyi Koroğluya Həmzənin içindəki xəyanəti görməyə, onun məqsədini başa düşməyə mane olur və Koroğlu ikinci dəfə daha böyük

səhv edir; dəlilərin, xanımların etirazına qulaq asmayıb Düratın buxov açarını Həmzəyə verir. Həmzə də gecələrin birində Düratı minib Çənlibeldən qaçır. Bunu bilən dəlilər və xanımlar Koroğlunu qınamağa başlayırlar. Səhvini başa düşən və Həmzənin əməlindən möhkəm qəzəblənən Koroğlu Qıratı minib onun arxasınca gedir. Həmzə Koroğlunun ona çatacağını bilib, özünü birtəhər yol kənarındakı dəyirmana yetirir. Əvvəlcə dəyirmançıya yalan satıb onu qorxudur. Onun paltarını geyinir, tanınmamaq üçün üz-gözünü una bulaşdırır. Koroğlu Həmzəni dəyirmançı bilib atı saxlamaq üçün Qıratın cilovunu ona verir, guya Həmzəni donuzluqdan çıxarmağa gedir. Həmzə Qıratı minir. Koroğlu aldandığını biləndə artıq gec olur: Öz əli ilə Qıratın cilovunu verdiyi Həmzəyə çatmaq artıq mümkün deyil. Həmzə Qıratı sürüb Toqata aparır.

Bütün bu epizodlarda Koroğlunun çətin vəziyyətə düşməsinə səbəb-onun insana inamı, rəhmdilliyi və möhkəm qəzəblənməsi olur. Əgər onun əvvəlki aldanışlarını dəlilərin və xanımların məsləhətindən çıxması, ehtiyatsızlığı şərtləndirirsə, dəyirmandakı aldanışını özünün qəzəbi şərtləndirir. Məhz möhkəm qəzəblənməsi Koroğlunun içindəki psixoloji gərginliyi elə artırır ki, o, Həmzəni dəyirmançı paltarında tanıya bilməyib, Qıratın yüyənini ona tapşırır.

Hirs və qəzəbi Koroğlunu daha böyük bir səhvə gətirib çıxarır: o, dəlilərin giley-güzarından əsəbiləşib onlarla kobud, acı danışır, dəlilərinə "Gedin",– deyir. Belə rəftarı ilə Nigar xanımı da özündən incik salır. Lakin hirsi, qəzəbi soyuyanda dostlarına acı söz dediyi üçün peşmançılıq çəkir, məclis qurdurub onların könlünü alır, kefini duruldur.

Eposda qəhrəmanın ata – Qırata məhəbbəti xüsusi ehtirasla tərənnüm olunur. Koroğlu atı igid üçün qardaş sayır. Həmzənin Qırata qamçı vurduğunu görəndə ürəyi yanır. Qırat əldən gedəndə isə könlü qübarlanır, üzünü Həmzəyə tutub deyir:

Həmzə, atı yaxşı saxla,
At iyidin qardaşıdı.
Gündə muğayat ol, yoxla,
At iyidin qardaşıdı.

Həmzə Qıratı aparandan sonra Koroğlu qüssədən, sıxıntıdan bir təhər olur. Bir tərəfdən, bir gədəyə aldanması, digər tərəfdən, dəlilərin tənəsi, üçüncü tərəfdən və ən əsası Qıratdan ayrı düşməsi onu haldan çıxardır. Üç gün, üç gecə tamam ac, susuz ağzı aşağı düşüb yatır. Yuxuda özünü Toqatda Qıratın belində görür. Ayılanda qəlbi təzədən qübarlanır. Məclisdə kefi bir qədər durulsa da, Qırat yadından çıxmır. Sazı sinəsinə sıxıb deyir:

Allahı çağırıb düşərəm yola,
Bu dərdi sinəmdə qala qoymaram.
Qıratım həsrətlə yolum gözləyir,
Düşmənin əlində qala qoymaram.

Ah çəkərəm, hərdən köysüm ötürrəm,
Yola düşüb mətləbimi bitirrəm.
Ya ölərəm, ya Qıratı gətirrəm,
Ayı dolansa da, ilə qoymaram.

Koroğlu dava libasının üstündən bir kürk geyinir, çiyninə saz asıb piyada Toqata gedir. Keçəl Həmzənin toy məclisinə daxil olub, özünü paşalara, xanlara, tacirlərə aşıq kimi təqdim edir, çalıb-oxuyur, nəhayət, Qıratı azad edib Çənlibelə gətirir. Bu işdən dəlilər də, xanımlar da sevinir, şadlıq edirlər. Məclis qurulur, keflər durulur, damaqlar çağlanır.

Eposda Koroğluya və koroğluluğa əks qütbdə Keçəl Həmzə dayanır. O, cəmiyyətdə sayılmayan, urvatsız bir adamdır. Mahmud paşanın təklifi ilə razılaşarkən bicliyinə, hiyləgərliyinə arxalanır. Çənlibelə gəlib özünü Koroğluya ilxıçı kimi təqdim edir, yazıq adam donuna girib Koroğluda özünə qarşı rəhm hissi oyadır. Guya yeddi il paşanın atlarını otarmış, axırda paşa onun haqqını verməndən qapıdan qovmuşdur.

Keçəl Həmzə Çənlibeldə süfrənin qırıq-quruğundan yeyib qapı - bacanı süpürür. Xanımlar, dəlilər nəyə buyururlarsa, gedir və getdiyi işi yaxşı yarıdır. Koroğlu onun diribaşlığını görüb adını Kaloğlan qoyur. Arıq bir yük yabısına baxmağı ona tapşırır. Keçəl Həmzə bu işin öhdəsindən yaxşı gəlməklə Koroğlunun da rəğbətini qazanır və bu yolla Dürata qulluq etmək, hətta onu açıq havada gəzdirmək şərəfinə nail olur. Lakin Həmzə bu şərəfi və etibarı qorumaq barədə düşünmür. O, Koroğluya xəyanət

edib, Düratı qaçırır, sonra Koroğlunun səhvi ucundan Qıratı ələ keçirib Toqata aparır.

Keçəl Həmzə üçün müqəddəs sayılan heç nə yoxdur. Onun namərdliyi yalançılıq, hiyləgərlik və xəyanət formasında təzahür edir. Həmzə Mahmud paşanı da aldatmaq istəyir, ona xəyanət edir. Paşanın qızı Dona xanımla evlənib bəy titulu alandan sonra Koroğlunun Toqata gələcəyi barədə heç kəsə heç nə demir. Günahsız bir adamın – dəyirmançının ölümünə bais olur. Koroğlu Toqatda Qıratı minərkən Keçəl Həmzənin üzəngini basması isə onun Koroğluya sədaqəti deyil, öz qohumlarına: arvadına və qayınatasına xəyanətidir. Elə buna görə Keçəl Həmzə özünə qarşı rəğbət deyil, ikrah və nifrət hisləri oyadır. Aydın duyulur ki, o, Dona xanımla da uzun müddət xoşbəxt yaşaya bilməyəcək.

Koroğlu və dəliləri



Beləliklə, Koroğlunun Həmzə və onun ilhamçıları üzərində qələbəsi bütövlükdə mərdliyin, kişiliyin namərdlik üzərində təntənəsi kimi mənalanır. Epos yaradıcıları sevdikləri qəhrəmana işıqla bərabər, həyatda zülmətin də olduğunu xatırlatmaqla onu həmişə ehtiyatlı olmağa, nəinki azman, nəhəng düşmənlərin siyasətindən, hətta balaca, cılız və qorxaq Keçəl Həmzələrin də hiyləsindən qorunmağa çağırır. Məhz bu baxımdan "Həmzənin Qıratı qaçırması" qolu bədii-estetik gözəlliyi ilə yanaşı, həm də ideya, siyasi-tərbiyəvi əhəmiyyətinə görə həmişəyaşar bir əsərdir.

Yoxlama testləri

A varianı

1. "Koroğlu" eposunun ilk qolları nə vaxt yaranmışdır?
   A) XVI əsrin sonu, XVII əsrin əvvəllərində
   B) XVII əsrin sonu, XVIII əsrin əvvəllərində
   C) XIX əsrdə
   D) XVIII əsrin sonrlarında
   E) eramızın VI-VII əsrlərində

2. "Koroğlu" eposunda təsvir və tərənnüm edilən əsas ideyalar hansılardır?
   1. Qəhrəmanlıq 2. Əməksevərlik
   3. Dini təəssübkeşlik 4. Vətənpərvərlik
   5. Humanizm 6. Qəsbkarlıq
   A) 1, 3 B) 1, 4, 5 C) 3, 4, 5 D) 4, 5, 6 E) 2, 4

3. Koroğlunun əsl adının mənası:
   A) gözəl B) igid C) işıqlı
   D) ildırım E) qoçaq

4. Koroğlunun qılıncını başqa qılınclardan fərqləndirən əsas əlamət:
   A) Misirdə hazırlanması
   B) daha kəsərli olması
   C) ildırım parçasından düzəldilməsi
   D) ağzının əyri olması
   E) çox parıltılı olması

5. Koroğlu dəlilərini seçin.
   1. Dəli Həsən 2. Dəli Dondaz
   3. Bəlli Əhməd 4. Dəli Domrul
   5. Halaypozan 6. Dəli Qarcar
   A) 1, 3, 5 B) 1, 2, 3 C) 2, 4, 5 D) 2, 3, 6 E) 1, 4, 6

6. Biri Koroğlunun istifadə etdiyi silahlar sırasına daxil edilə *bilməz:*
   A) qılınc B) qalxan C) əmud
   D) nizə E) zəncir

7. "Koroğlu" eposunda ən çox işlənən məcaz növləri:
   A) təşbeh və mübaliğə
   B) mübaliğə və metafora
   C) təşbeh və epitet
   D) epitet və metafora
   E) epitet və mübaliğə

8. Koroğlu öz dəlilərindən hansını fiziki güclə deyil, ağıl və tədbirlə ram edir?
   A) Dəli Həsəni
   B) Dəmirçioğlunu
   C) Bəlli Əhmədi
   D) Halaypozanı
   E) Tanrıtanımazı

9. Koroğlunu məğlubedilməz edən qüvvələr hansılardır?
   1. Xalqın məhəbbəti
   2. Qeyri-adi gücü
   3. Dəliləri
   4. Qoşabulağın suyu
   5. Qırat
   6. Misri qılınc
   7. Çənlibeldə məskunlaşması
   8. Dəli nərəsi
   A) 1, 5, 6, 8 B) 2, 4, 6, 7
   C) 3, 4, 5, 8 D) 1, 4, 7 E) 2, 3, 6

10. "Koroğlu" eposu əsasında opera yazmış bəstəkar:
   A) Üzeyir Hacıbəyov
   B) Müslüm Maqomayev
   C) Zülfüqar Hacıbəyov
   D) Fikrət Əmirov
   E) Arif Məlikov

B variantı

1. Adları çəkilən pəhləvanlardan ikisi Koroğlunun silahdaşları sırasına daxil edilə ***bilməz:***
   1. Dəli Həsən 2. Bəlli Əhməd 3. Kosa Səfər
   4. Bolu bəy 5. Ərəb Reyhan 6. Tüpdağıdan
   A) 1, 2 B) 3, 4 C) 4, 5 D) 5, 6 E) 4, 6

2. «Koroğlu» eposunun XIX əsrdə yazıya alınmış nüsxələri hansı şəhərlərdə saxlanılır?
   A) Bakıda və Tiflisdə B) Parisdə və Londonda
   C) Bakıda və Gəncədə D) Parisdə və Tiflisdə
   E) Drezdendə və Parisdə

3. Dəmirçioğlu Koroğlunun hansı xüsusiyyətindən qorxduğunu etiraf edir?
   A) qılınc çalmağından B) zəhmli baxışlarından
   C) əmud vurmağından D) nizə atmağından
   E) nərə çəkməyindən

4. "Koroğlu" eposundan götürülmüş aşağıdakı şeir parçası kimin dilindən söylənir?
   İgid gərək yar sevməyə
   Özü tək gedə, tək gedə.
   Müxənnət qəddin əyməyə
   Özü tək gedə, tək gedə.
   A) Koroğlu B) Dəli Həsən C) Dəmirçioğlu
   D) Bəlli Əhməd E) Eyvaz

5. Dəmirçioğlu Koroğlunun nərəsindən qorxduğunu hansı şəraitdə etiraf edir?
   A) dəmirçi dükanında Koroğlu ilə rastlaşarkən
   B) Çənlibelin ətəklərində Koroğlu ilə qarşılaşarkən
   C) Qıratın tövləsinin damını yararkən
   D) Qıratı tövlədən çıxardıb apararkən
   E) Çənlibelə gəldikdən sonra

6. Adları çəkilənlərdən biri Çənlibel xanımlarının sırasında verilə ***bilməz:***
   A) Nigar xanım B) Məhbub xanım
   C) Telli xanım D) Mərcan xanım E) Dona xatun

7. "Koroğlu" eposunda Nigar xanımı daxilən incidən, ona əzab verən səbəb:
   A) övladsızlıq
   B) dəlilərin bəzən Koroğludan inciməsi
   C) paşaların Koroğlu ilə düşmənçiliyi
   D) Koroğlunun Toqata tək getməsi
   E) ata-anasından ayrı düşməsi

8. "Koroğlu" eposu haqqında düzgün fikirləri seçin.
   1. Eposun ilk qolları XVI əsrin sonu və XVII əsrdə yaranmışdır.
   2. Bu əsərin türk xalqlarının qədim dastan ənənələri ilə heç bir əlaqəsi yoxdur.
   3. Əsərdə uydurma, fantastik obrazlar da iştirak edir.
   4. Dastandakı seirlər qoşma, gəraylı və varsağılardan ibarətdir.
   5. Eposun Tiflisdə saxlanılan əlyazma nüsxəsində 16 qol vardır.
   A) 1, 5 B) 2, 3 C) 1, 4 D) 4, 5 E) 3, 5

9. "Keçəl Həmzənin Qıratı qaçırması" qolunda dastan yaradıcılarının əsas məqsədi nəyi göstərmək olub?
   A) Həmzənin namərdliyini
   B) ehtiyatsızlığın, mənəmliyin igidə yaraşmadığını
   C) nə qədər igid, güclü, ağıllı olmağından asılı olmayaraq, çoxluğun, yan-yönənin məsləhətlərinə qulaq asmağın zəruri olduğunu
   D) həyatda hiyləgərliyin də, fürsət gözləməyin də, bütövlükdə qeyri-əxlaqi yollardan istifadənin də bəzən əhəmiyyətli olduğunu
   E) Koroğlunun aşıqlıq məharətinin bəzən ona çox böyük yardımçı ola bildiyini

10. Koroğlu nə üçün qocalanda da koroğluluğunu yerə ***qoymur?***
   A) Öz dəlilərinə alışmışdı, onlardan ayrılmaq istəmədi.
   B) Bunu Aşıq Cünün məsləhət görmədi.
   C) İran şahının namərdliyini görüb bu qərara gəldi ki, nə qədər xotkarlar, paşalar ... var, onlar namərdliklərini yerə qoymurlar, mən də koroğluluğumu yerə qoya bilməyəcəyəm.
   D) Dəlilər özləri onun yanından getmək istəmədilər.
   E) Belə fikirləşdi ki, o, dəlilərə çox lazımdır, onlardan, Çənlibeldən ayrılmaq namərdlik olar.

C varianti

1. "Koroğlu" dastanında aşıq şeirinin hansı janrlarından istifadə olunmuşdur?
   1. Qoşma 2. Divani 3. Müxəmməs
   4. Təcnis 5. Gəraylı 6. Bayatı
   7. Varsağı
   A) 1, 5, 6 B) 1, 5, 7 C) 2, 3, 4 D) 3, 4, 7 E) 2, 4, 6

2. Çənlibelə birinci gələn qadın kim oldu?
   A) Dünya xanım B) Nigar xanım C) Məhbub xanım
   D) Hürü xanım E) Mərcan xanım

3. Koroğlu aşağıdakılardan birində daha böyük ***səhvə*** yol verir:
   A) Dəmirçioğlunun atasına Qıratı nalladarkən
   B) Qoşabulağın suyundan içməkdə
   C) Həmzəni Çənlibelə götürməkdə
   D) Qəssab Alı və Ərəb Reyhanla razılaşmadan Eyvazı Çənlibelə, Nigar xanıma oğulluğa gətirməkdə
   E) hirslənib dəlilərə "Gedin!" – deməkdə

4. "Keçəl Həmzənin Qıratı qaçırması" qolundan hansı nəticə çıxa bilər?
   A) El üçün ağlayan gözsüz qalar.
   B) El sözünə baxmayan ağlar qalar.
   C) Ot kökü üstündə bitər.
   D) Məsləhətli don gen olar.
   E) Əsl dost dar gündə tanınar.

5. "Keçəl Həmzənin Qıratı qaçırması" qolundan təsvir olunan hadisələrin düzgün ardıcıllığını göstərin
   1. Keçəl Həmzə Çənlibelin ətəklərində Koroğlu ilə rastlaşır.
   2. Koroğlu Düratın buxov açarını Keçəl Həmzəyə verir.
   3. Keçəl Həmzə Mahmud paşadan badəni alıb içir.
   4. Koroğlu Qıratın yüyənini Keçəl Həmzəyə verir.
   5. Keçəl Həmzə Koroğluya özünün ilxıçı olduğunu deyir.
   A) 1, 3, 2, 4, 5 B) 2, 3, 4, 1, 5
   C) 5, 4, 1, 3, 2 D) 3, 1, 2, 5, 4 E) 3, 1, 5, 2, 4

6. Diribaşlığına görə Keçəl Həmzəyə Koroğlunun verdiyi ad:
   A) Güloğlan
   B) Xanoğlan
   C) Bəyoğlan
   D) Kaloğlan
   E) Qaroğlan

7. *... Ordan çıxıb evə gəldi. Bir parça çörək götürüb bir dəsmal ilə belinə bağlayıb yola düşdü... Pay-piyada ...neçə gündən sonra gəlib Çənlibelə çıxdı.*
   "Koroğlu" eposundan götürülmüş bu parçada söhbət kimdən gedir?
   A) Bəlli Əhməddən
   B) Aşıq Cünundan
   C) Keçəl Həmzədən
   D) Koroğludan
   E) Eyvazdan

8. *– Oğul, kimsən? Haradan gəlib haraya gedirsən?*
   – İlxıçıyam. Paşanın atına gedirdim. Yeddi il ona at otardım, axırda haqqımı verməyib qapısından qovladı.
   "Koroğlu" eposundan götürülmüş bu dialoqun iştirakçıları kimlərdir?
   A) Koroğlu ilə Dəmirçioğlu
   B) Koroğlu ilə Bəlli Əhməd
   C) Nigar xanımla Keçəl Həmzə
   D) Koroğlu ilə Keçəl Həmzə
   E) Dəli Həsənlə Koroğlu

9. Keçəl Həmzə Qıratı hansı şəhərə aparır?
   A) İstanbula
   B) Qarsa
   C) Toqata
   D) Bağdada
   E) Dərbəndə

10. Koroğlu Qıratı qaytarmaq üçün Toqata gəldikdən sonra hansı hadisələr baş verir? Ardıcıllığın ***pozulduğu*** bəndi göstərin.
   A) Bir qarıya qonaq olur.
   B) Aşıq libasında Keçəl Həmzənin toyuna gəlir.
   C) Koroğlunu Qıratın saxlandığı tövləyə salırlar.
   D) Əyanlar Koroğludan şübhələnirlər.
   E) Koroğlu Qıratı həyətə çıxardıb minir.

D variantı

1. "Keçəl Həmzənin Qıratı aparması" qolundan götürülmüş aşağıdakı şeir kimin dilindən və hansı şəraitdə söylənir?
   Utan, qoç Koroğlu, utan!
   Dağların damənin tutan!
   Sənin kimi başa çatan
   Elin qədrini nə bilər?!
   A) Nigar xanımın; Koroğlu dəlilərə "Gedin" deyəndə.
   B) Nigar xanımın; Koroğlu onun küsməyindən inciyib gileylənəndə.
   C) Eyvazın; Koroğlu yuxudan oyananda.
   D) Eyvazın; Koroğlu dəlilərin xətrinə dəyəndə.
   E) Nigar xanımın; Koroğlu Keçəl Həmzəyə aldanaraq, Qıratı ona verib, Düratla Çənlibelə qayıdanda.

2. "Koroğlu" eposundan götürülmüş aşağıdakı ifadələrdən biri xalq arasında məşhur məsələ çevrilmişdir:
   A) Sonra peşman olarsan. B) Söz dəyirmandakıdır.
   C) Heç igid yalqız olmasın. D) Koroğluyam, qoç oğluyam.
   E) Üzün məndən niyə döndü?

3. Keçəl Həmzə Qıratı kimin tapşırığı ilə qaçırdır?
   A) Xotkarın B) Həsən xanın
   C) Ərəb Reyhanın D) Cəfər paşanın E) Mahmud paşanın

4. *"Mənim yurduma, yuvama sahib olan, gözümün ağı, qarası bir qızım var. Hər kim gedib Çənlibeldən Koroğlunun Qıratını gətirsə, qızım Dona xatunu ona verib, özünü də dünya malından qəni edərəm".* Bu sözləri kim deyir?
   A) Xotkar B) Həsən xan
   C) Mahmud paşa D) Cəfər paşa E) Aslan paşa

5. *"Mən ölüm qoç Koroğlunun Qıratını gətirənə bir bax. Gedib başının keçəlinin dərdini çəkmir, gör nə qələtlər eləyir".* Bu sözləri kim söyləyir?
   A) Mahmud paşa B) Dona xatun
   C) Mahmud paşanın vəzirləri D) vəkillər
   E) Mehtər Murtuz

6. "Koroğlu" eposundan götürülmüş aşağıdakı cümlələrdən biri xalq arasında məşhur məsəl kimi söylənir:
   A) Gedib keçəlinin dərdini çəkmir ...
   B) Çünki oldun dəyirmançı,
      Çağır gəlsin dən, Koroğlu.
   C) Göynən gedən beş durnalar,
      Bizim ellər yerindəmi?
   D) Koroğluyam, qoç oğluyam.
   E) Üzün məndən niyə döndü?

7. Verilən bənddə hansı bədii təsvir vasitəsi vardır?
   Çənlibeldən səni deyib gəlmişəm,
   Alma gözlüm, qız birçəklim Qırat, gəl!
   Dəmir libas, polad geyib gəlmişəm,
   Alma gözlüm, qız birçəklim Qırat, gəl!
   A) metafora B) epitet C) metonimiya D) təşbeh E) sinekdoxa

8. Verilən bənddə hansı bədii təsvir vasitələri vardır? Ardıcıllığı ilə göstərin.
   Ceyrana bənzər qaçışın,
   Addımla, qurban qoluna!
   Tərlana bənzər uçuşun,
   Əl çatmaz ipək yalına!
   A) təşbeh, epitet B) metafora, metonimiya
   C) təşbeh, sinekdoxa D) epitet, təşbeh E) epitet, metafora

9. "Koroğlu" eposundan verilən bu bəndi kim və hansı şəraitdə söyləyir?
   Göynən gedən beş durnalar,
   Bizim ellər yerindəmi?
   Bir-birindən xoş durnalar,
   Bizim ellər yerindəmi?
   A) Koroğlu; Qarsda əsir olarkən
   B) Eyvaz; Bağdadda əsir olarkən
   C) Koroğlu; Qıratı Toqatdan Çənlibelə gətirərkən
   D) Bəlli Əhməd; vətəndən ayrılıb Çənlibelə gələrkən
   E) Nigar xanım; övladsızlıqdan ürəyi qubarlanarkən

10. "Həmzənin Qıratı qaçırması" qolunda hansı epizodu təsvir olunan hadisələrin kulminasiya nöqtəsi hesab etmək olar?
    A) Mahmud paşanın məclis qurması
    B) Keçəl Həmzəni Çənlibeldə dəlilərin narazılıqla qarşılaması
    C) Düratın buxov açarını Koroğlunun Keçəl Həmzəyə verməsi
    D) Keçəl Həmzənin Qırxdəyirmanda Koroğlunu aldatması
    E) Koroğlunun Toqata gedib Qıratı qaytarması

Molla Pənah Vaqif (1717 – 1797)

Azərbaycan ədəbiyyatı tarixində M.P.Vaqif yaradıcılığı ilə xalq ənənələri formalaşdı. Xalq-aşıq şeiri klassik ədəbiyyat üzərində üstünlük qazandı. M.P.Vaqif ədəbiyyatımız tarixində realizmin banisi hesab olunur. O, həyat gerçəkliklərini poeziyanın birbaşa tərənnüm obyektinə çevirən sənətkardır. Vaqifin şeiri ilə yazılı ədəbiyyata həm məzmun, həm də formaca demokratiklik və xəlqilik gəldi, yeni bir ədəbi məktəb – Vaqif ədəbi məktəbi yarandı.

Həyatı

M.P.Vaqif 1717-ci ildə Qazax mahalının Qıraq Salahlı kəndində anadan olmuşdur. Şairin əsl adı Pənah, atasının adı Mehdi ağadır, Vaqif şairin təxəllüsüdür. O, sonralar məktəbdarlıqla məşğul olduğundan Molla Pənah adı ilə xalq arasında tanınmışdır.

M.P.Vaqif uşaqlıq və gənclik illərində mükəmməl mollaxana təhsili almışdır. Vaqifin kamilləşməsində o dövrün tanınmış şəxsiyyəti, şairi və müəllimi Şəfi Əfəndinin də rolu böyük olmuşdur.

XVIII əsrin ortalarında Azərbaycanla Gürcüstan sərhədində baş verən münaqişələr nəticəsində bir çox ailələr Qazaxı tərk edir. Vaqif də ailəsi ilə birlikdə Qazaxdan köçür. O, əvvəlcə Gəncəyə, sonra Qarabağa – Şuşaya gəlir. O, Qarabağa, Şuşaya gələndə artıq bir şair kimi məşhurlaşmışdı. M.P.Vaqif çox keçmir ki, İbrahim xanın sarayına dəvət olunur. Əvvəlcə eşik ağası (xarici işlər vəziri), sonra isə xanlığın baş vəziri olur.

M.P.Vaqifin xanlığın idarə olunmasında böyük xidmətləri olmuşdur. O, bir neçə dəfə Qarabağ xanlığının Gürcüstan və Rusiya ilə münasibətlərini qaydaya salmaq üçün Tiflisə rəsmi səfər etmişdir.

Rəvayətə görə, 1795-ci ildə Qarabağ üzərinə hücuma keçən Ağa Məhəmməd şah Qacar İbrahim xana iki misradan ibarət farsca belə bir məktub göndərir: "Fələyin mancanağından bəla daşları yağır, sən isə əbləhcəsinə şüşə içərisində oturmusan".

İbrahim xan məktubu oxuyub Vaqifə verir. Vaqif də elə oradaca kağızın arxasına həmin dildə cavab yazır: "Əgər məni qoruyan mənim tanıdığımdırsa, şüşəni daş içərisində də salamat saxlar". Cavab Qacarı bərk qəzəbləndirir. O, Şuşanı 33 gün mühasirədə saxlasa da, istədiyinə nail ola bilmir. Tiflisə hücum edir.

Ağa Məhəmməd şah Qacar 1797-ci ildə yenidən Qarabağ üzərinə hücuma keçir. O zaman Qarabağda 2 ildən artıq quraqlıq və qəhətlik olduğundan xanlığı müdafiə edə bilməyən İbrahim xan Balakənə – Əmmə xanın yanına qaçır. Ancaq Vaqif Şuşada qalır.

Şuşanı tutan Qacar xanlığın rəsmi adamlarını, o cümlədən Vaqifi zindana saldırır. Şah öz sərkərdələri tərəfindən gecə yatağında öldürüldüyündən Vaqif həbsdən qurtulur. Qacarın qoşunları Şuşanı tərk edirlər. Xanlıqda qeyri-sabit vəziyyət yaranır. İbrahim xanın qardaşı oğlu Məhəmməd bəy Cavanşir bu vəziyyətdən istifadə edib hakimiyyəti ələ keçirir. Əvvəldən də Vaqiflə münasibəti pis olan Məhəmməd bəy Cavanşir onu aradan götürmək üçün bəhanə axtarır. Tezliklə belə bir fürsət yaranır. O, Vaqifin İbrahim xana yazdığı məktubu ələ keçirir. Şairi oğlu Əli ağa ilə birlikdə edam etdirir.

Şair edam edilərkən evi talan olunmuş, əlyazmaları itib – batmışdır.

XIX əsrin əvvəllərindən başlayaraq M.P.Vaqifin yaradıcılığına maraq güclənmiş, şeirləri müxtəlif mənbələrdən – cünglərdən, həvəskarların şeir dəftərlərindən yığılaraq nəşr olunmuşdur.

Yusif Vəzir Çəmənzəminli "İki od arasında" romanında, Səməd Vurğun "Vaqif" dramında şairin yaddaqalan obrazını yaratmışlar.

Yaradıcılığı

M.P.Vaqif yalnız lirik növdə yazıb – yaratmışdır. Yaradıcılığında aşıq şeirinin təsiri daha güclüdür. Şeirlərinin əksəriyyəti heca vəznində yazdığı qoşmalardan ibarətdir. Onun təcnisləri də vardır.

Poeziyasının bir qismini isə əruz vəznində yazdığı qəzəllər, müxəmməslər, müstəzadlar və müəşşərlər təşkil edir.

Vaqif yaradıcılığı ilə Azərbaycan şeiri tarixində yeni bir dövr başlayır. Poeziyada yeni bir səhifə açılır. Nikbin əhvali-ruhiyyə, gözəlliyə pərəstiş hisləri qüvvətlənir.

İ.Həsənoğlu, Q.Bürhanəddin, İ.Nəsimi, Ş.İ.Xətai, M.Füzuli, M.Əmani kimi sələflərindən fərqli olaraq, Vaqif bütünlüklə xalq şeirinin, aşıq yaradıcılığının təsiri altında olmuşdur. Onun yaradıcılığında mücərrəd ideyalar, obrazlar, mürəkkəb ifadələr, demək olar ki, yoxdur. Onda nə İ.Nəsimi üsyankarlığı, nə də Füzuli kədəri vardır. Vaqif hicran yox, vüsal şairidir. Yaradıcılığındakı xəlqilik, həyatilik, nikbinlik aşıq poeziyasından gəlmədir. Bu xüsusiyyət klassik janrlarda (əruz) qələmə aldığı əsərlərdə də özünü göstərir.

M.P.Vaqif poeziyasını mövzu baxımından iki yerə bölmək olar:

1. Gözəlliyin və məhəbbətin tərənnümünə həsr olunmuş şeirləri
2. İctimai məzmunlu şeirləri

Gözəlliyin və məhəbbətin tərənnümünə həsr olunmuş şeirləri. Yaradıcılığının əsas mövzusu qadın gözəlliyinin tərənnümüdür. Lakin bu gözəllik İ.Nəsimidə, M.Füzulidə olduğu kimi, panteist xarakter daşımır. O, gözəlliyə ilahi məzmun vermir. Onu real cizgilərlə ifadə edir. Şair gözəlliyə və məhəbbətin tərənnümünə həsr etdiyi şeirlərini həm heca, həm də əruz vəznində yazmışdır. Bunların içərisində qoşma janrında yazdıqları üstünlük təşkil edir.

Belə şeirlərində konkret gözəlləri, qadın gözəlliyinin konkret əlamətlərini təsvir və tərənnüm edir. Bu gözəllər zahiri gözəlliyi ilə

yanaşı, gözəl yerişi, duruşu, rəftarı və danışığı ilə də lirik qəhrəmanın ruhunu oxşayır. Bu konkretlik o həddə çatır ki, şair həmin gözəllərə adları ilə müraciət edir. Bu baxımdan onun "Zeynəb" və "Pəri" rədifli qoşmaları daha çox diqqəti cəlb edir:

Bənövşətək ənbər zülfün buy verir,
Hər yuyub sərəndə həvayə, Zeynəb!
Onun ətrin dimağımdan üzməsin,
Əmanət et badi – səbaya, Zeynəb!

Şair "Pəri" rədifli şeirində də gözəlin misilsiz bədii portretini yaradır. Onun təbii gözəlliyini alqışlayır. Şeir, eyni zamanda, dil və üslubunun təbiiliyi və axıcılığı ilə də seçilir:

Boyun sürahidir, bədənin büllur,
Gərdənin çəkilmiş minadan, Pəri!
Sən ha bir sonasan, cüda düşübsən
Bir bölük yaşılbaş sonadan, Pəri!

Vaqif bu bənddə işlətdiyi ***sürahi, büllur, mina, sona*** sözləri ilə mükəmməl təşbehlər yaratmış, təsvir etdiyi gözəlin zahiri portretinin müəyyən cizgilərini nəzərə çarpdırmışdır.

M.P.Vaqifin bir qrup qəzəl, müxəmməs və müstəzadlarında da real gözəlliyin və məhəbbətin tərənnümü öz bədii əksini tapmışdır.

M.P.Vaqifin qəzəlləri həm məzmununa, həm də ifadə tərzinə görə Füzuli qəzəllərindən fərqlənir. Bu qəzəllərdə mürəkkəb metaforalar, qəliz tərkiblər, demək olar ki, yoxdur.

Onun qəzəllərinin də əksəriyyəti qadın gözəlliyi, məhəbbət, həsrət haqqındadır. Vaqif Füzulinin xəyal göylərindəki gözəli yerə endirir, onu əlçatan edir, real cizgilərlə gözümüz önündə canlandırır. Bu baxımdan şairin "Küsmüşəm" rədifli qəzəli daha xarakterikdir:

Mehribanlıq görməyib bir məhliqadan küsmüşəm,
Gündə yüz al eyləyən qəlbi qaradan küsmüşəm.

Şəninə dedim şirin söz, bir şey ondan dadmadım,
Bu səbəbdən ağzı şəkkər dilrübadan küsmüşəm...

Çün "uman yerdən küsərlər" bir məsəldir xalq ara,
Küsdüyüm bica deyildir, aşinadan küsmüşəm.

Gördüm, əvvəl ki binasın yarlıq etmək deyil,
Vaqifa! Əsli budur, mən bu binadan küsmüşəm.

Vaqifin müxəmməsləri də qoşmaları, qəzəlləri kimi, əsasən, real məhəbbətin, qadın gözəlliyinin tərənnümünə həsr edilmişdir. Müxəmməsin həcmi imkan verdiyindən şair fikirlərini bu janrda daha geniş, əhatəli vermək imkanı qazanmışdır. Bu janrda yazdığı şeirlər içərisində Tiflisə həsr etdiyi müxəmməslər xüsusilə seçilir. Bunlardan biri də "Var" rədifli müxəmməsdir. "Var" rədifli müxəmməsində Tiflisdə gördüyü gözəllər şairin ruhunu oxşayır, ilhamını coşdurur:

Vəh, bu bağın nə əcəb sərvi-dilaraları var,
Hər tərəf tazə açılmış güli – rənaları var,
Qönçeyi – nərgisi -- tər laleyi – həmraları var,
Həm Tiflisin əcəb dilbəri – zibaları var,
Ey könül, seyr elə kim, türfə tamaşaları var.

Vaqifin qoşmalarında olduğu kimi, qəzəl, müxəmməs, müstəzad və müəşşərlərində də sadəlik, səmimilik hökm sürür. Ancaq heca vəznli şeirlərindən fərqli olaraq, əruz vəznli şeirlərinin dili bu vəznin tələbinə görə nisbətən çətindir.

"Bəri bax" rədifli qoşması. Vaqif yaradıcılığının əsas xüsusiyyətlərini özündə əks etdirən qoşmaları içərisində "Bəri bax" xüsusi yer tutur. Qoşma beş bənddən ibarətdir. Şeirdə tərənnüm olunan gözəl olduqca həyati və realdır.

Birinci bənddə gözəlin zahiri görkəmi təsvir olunur. Gözü ala, boyu sərvə bənzəyən bu gözəl aşiqi dərdə salmışdır. Lirik qəhrəman gecə – gündüz onun fikri ilə yaşayır. Ayrılığa taqəti yoxdur.

Ala gözlü, sərv boylu dilbərim,
Həsrətin çəkdiyim canan, bəri bax!
Gecə – gündüz fikrim, zikrim, əzbərim,
Üzüldü taqətim, aman, bəri bax!

Bəndin birinci misrasında *sərv boy* ifadəsi ilə gözəl epitet yaratmışdır. Bu, dilbərin zahiri gözəlliyi ilə bağlı konkret bir detaldır.

İkinci bənddə lirik qəhrəman ayrılıq atəşindən yandığını, möhnətə, əziyyətə, hicran xəyallarının dumanına düşdüyünü deyir. Halbuki o, bu qədər əzab çəkməməli idi. Onun sevgilisinə xoşbəxtlik gətirəcək eşqi cavabsız qalmamalı idi:

Kim dözər mənimtək belə firqətə,
Rəncü məşəqqətə, bari – möhnətə.
Haçandır düşmüşəm tari – zülmətə,
Çəkilsin üstümdən duman, bəri bax!

Üçüncü bənddə şair – lirik qəhrəman eşq qəminə düşəli ayrılıq odundan canı xəstədir. Ürəyinin sirrini, gizli çəkdiyi eşq dərdini heç kəsə deyə bilmir. Onu ürəyində gizli – gizli çəkir:

Payibəndəm, qəmi – eşqə giriftar,
Hicran atəşindən can oldu bimar,
Razi-dilim edə bilməm aşikar,
Çəkərəm dərdini pünhan, bəri bax!

Dördüncü bənddə lirik qəhrəmanın dərdi daha da artır. Ona təsəlli verən yoxdur. O, sevgilisi ilə deyib – gülə bilmir. Çünki ortada əğyar var. Aşiq həmin əğyarı sevgilisini ondan küsdürdüyünə görə yamanlayır:

Günbəgün könlümün artır qübarı,
Pərişandır, tapmaz o qəmküsarı.
Ölsün, itkin düşsün belə əğyarı,
Gəzməsin arada yaman, bəri bax!

Sonuncuda, yəni möhürbənddə şair sevgilisinin ayrılıq dərdini gecə və gündüz, səhər və axşam çəkən eşq xəstəsidir. Əgər birinci bənddə onu dərdə salan gözəlin ala gözləri, sərv boyu təsvir olunurdusa, bu bənddə onun lalə yanağı, püstə dodağı, şəkər dili, nabat ağzı tərənnüm olunur. Sonuncu bəndə şair bu ifadələrlə bənzərsiz təşbehlər və epitet (*şəkkər zəban*) yaratmışdır:

Çox çəkir hicrini Vaqifi – xəstə,
Leylü nahar, şamü səhər* peyvəstə.
Ey yanağı lalə, ləbləri püstə,
Ağzı nabat, şəkkər zəban, bəri bax!

Qoşma Vaqif yaradıcılığı üçün xarakterik olan müraciət formasında yazılmışdır. Şair üz tutduğu gözəlin adını çəkmir. Ancaq bu gözəl Füzuli qəzəllərindəki ilahi gözəl deyil. O, öz zahiri gözəlliyi ilə aşiqi dərdə salan real saray xanımıdır. Qoşmada xalq ifadələri ilə yanaşı, bir sıra ərəb – fars sözlərinə və izafət birləşmələrinə də təsadüf olunur:

firqət – ayrılıq
rənc – zəhmət, əziyyət
barı–möhnət – möhnət yükü
tarı–zülmət – zil qaranlıq
payibənd – ayağı bağlı
giriftar – tutulmuş
hicran – ayrılıq
razi–dil – ürək sirri
peyvəstə – həmişə
pünhan – gizli
qəmküsar – qəm dağıdan, təsəlli verən
bimar – xəstə

Qoşmada zəngin qafiyələrdən, xalq dilindən gələn ifadələrdən ustalıqla istifadə olunmuşdur. Şeir boyu işlənən "bəri bax" rədifi müraciət

---

* *"Leylü nahar, şamü səhər"* ifadələrində işlənən "*ü*" *və* bağlayıcısının klassik ədəbiyyatımızda daha çox işlənən variantıdır.

formasında işlənərək, ondan incimiş sevgilisinin obrazını əyani şəkildə təsəvvür etməyə də imkan yaradır.

İctimai məzmunlu şeirləri. Yeni dövrün böyük sənətkarı Vaqifin yaradıcılığında ictimai məzmunlu şeirləri də xüsusi yer tutur. Bu məzmunlu şeirlərini şair həm heca, həm də əruz vəznində yazmışdır. Həyata olduqca nikbin baxan şair ictimai motivli şeirlərində də əyilməzdir, mərddir, bəzən üsyankardır. O, həssas və qadir sənətkar kimi dövrünün ən mühüm hadisələrinə əsərlər həsr edir, sevincini, kədərini, nifrətini bildirir. Bu baxımdan şairin "Hayıf ki, yoxdur" rədifli qoşması daha maraqlıdır. Burada Vaqifi elin – obanın yoxsul həyatına, Kür qırağının acı taleyinə yanan və acıyan bir sənətkar kimi görürük. Vaqif həm dövlət xadimi, həm də elini, obasını sevən bir şair kimi Kür qırağının təbii imkanları, gözəllikləri ilə dolanışıqları arasındakı fərqi, geriliyi görür və bunu özünəməxsus şəkildə ifadə edir:

Qış günü qışlağı Qıraqbasanın
Gözüdür Aranın, cümlə cahanın.
Belə gözəl yerin, gözəl məkanın
Bir gözəl obası, hayıf ki, yoxdur!

Şair xanlıqlar dövrü Azərbaycan cəmiyyətinin iqtisadi, siyasi problemlərinə heç zaman biganə qalmamışdır. O, həyatının ahıl, müdrik çağlarında bu problemlərə öz münasibətini daha kəskin şəkildə bildirmişdir. Bu kəskinlik onun yaradıcılıq idealından dönməsi deyildi, əksinə, həyata, realizmə sədaqəti idi.

"Bax" rədifli qəzəli. M.P.Vaqifin ictimai məzmunlu şeirləri içərisində "Bax" rədifli qəzəli daha çox diqqəti cəlb edir. Qəzəli şair dostu M.V.Vidadiyə müraciətlə yazmışdır. Bu qəzəldə şair konkret tarixi hadisənin fəlsəfi şərhini vermişdir.

Qarabağ xanlığını tutub Şuşaya daxil olan Qacar Vaqifi zindana saldırır. Edamını gözləyən şair səhər Qacarın öldürülməsi xəbərini eşidir. Onu zindandan azad edirlər. Şair Allahın – "adil padişahi – qadiri qəhhar"ın hökmünün hər hansı hökmdarın hökmündən qat-qat yüksəkdə dayanması qənaətinə gəlir. O, bu qənaətini dostu Vidadi ilə bölüşür.

Qəzəl 9 beytdən ibarətdir.

Mətlə beytində şair dostuna üz tutub onu zamanın, dövranın pis rəftarına, həyatın işinə tamaşa etməyə çağırır:

Ey Vidadi, gərdişi – dövrani – kəcrəftarə bax!
Ruzigarə qıl tamaşa, karə bax, kirdarə bax!

İkinci beytdə isə zülm əhlinin hökmünün və özünün Allah tərəfindən bir göz qırpımında necə məhv edildiyi fikrini irəli sürür:

Əhli – zülmü necə bərbad eylədi bir ləhzədə,
Hökmü adil padişahi – qadiri (ü) qəhhara bax!

Üçüncü beytdə isə onun ölümünə hökm vermiş bir adamın gecəki bəxtini, səhərisi günkü bədbəxtliyini göstərir. Burada şair Qacarın səhərə yaxın öz adamları tərəfindən öldürülməsinə işarə edir:

Sübh döndü, şəb ki xəlqə qiblə idi bir çıraq,
Gecəki iqbalı gör, gündüzdəki idbarə bax!

Dördüncü beytdə öləndən sonra tacı başından düşüb, özü təpiklər altında qalan sərdarın – Qacarın aqibəti göstərilir:

Taci – zərdən ta ki ayrıldı dimağı – pürqürur,
Payimal oldu təpiklərdə səri – sərdarə bax!

Bu beytdə isə şair səhər öldürüləcəyinə hökm verən padşahın zülmündən onu qurtaran Allahın işinə heyrətini bildirir:

Mən fəqirə əmr qılmışdı siyasət etməyə,
Saxlayan məzlumu zalimdən o dəm qəffarə bax!

Aşağıdakı beytdə şair ölümdən qurtulmasını dəmirçinin zalım şahın cəzasından qurtarması ilə müqayisə edir:

Qurtaran əndişədən ahəngəri – biçarəni,
Şah üçün ol midbəri təbdil olan mismarə bax!

Vaqif burada maraqlı bir təlmih* yaratmışdır. Rəvayətə görə, bir şah dəmirçiyə səhərə qədər qırx min mıx hazırlamağı əmr edir. Hazırlamazsa,

* Bir sözü, bir ifadəni işlətməklə bütöv əhvalata, tarixi hadisəyə işarə etmə. Klassik ədəbiyyatın maraqlı bədii ifadə vasitələrindəndir.

onu da öldürəcəyini deyir. Dəmirçi səhərə qədər yatmır, ölümünü gözləyir, səhər tezdən isə şahın adamları ondan gecə ikən öldürülmüş şahın tabutu üçün cəmi 4 mismar hazırlamağı xahiş edirlər.

İbrət et Ağa Məhəmməd xandan, ey kəmtər gəda,
Ta həyatın var ikən nə şahə, nə xünxarə bax!

Yuxarıdakı beytdə Vaqif öz müasirlərini Ağa Məhəmməd şahın aqibətindən ibrət almağa çağırır. Sonrakı beytdə isə şair üzünü müasirlərinə tutub deyir ki, nə qədər həyatları var, nə şaha, nə də digər qaniçənlərə bel bağlamasınlar.

Baş götür bu əhli-dünyadan ayaq tutduqca qaç,
Nə qıza, nə oğula, nə dusta, nə yarə bax!

Şair dostuna məsləhət görür ki, əhli-dünyadan nə qədər uzaq olsan, bir o qədər yaxşıdır. Ona görə ki heç kəsdə vəfa, etibar, sədaqət qalmamışdır.

Sonuncu, yəni məqtə beytində şair dünyanın yaxşı-yamanına da göz yummağı məsləhət görür. Onun əyrisinə, düzünə baxmır, etiqadını peyğəmbərə, onun ali ocağına, nəslinə bağlayır:

Vaqifa, göz yum, cahanın baxma xubü ziştinə,
Üz çevir ali – əbayə, Əhmədi – Muxtarə bax!

"Bax" rədifli qəzəl *əruz* vəzninin *rəməl* bəhrində yazılmışdır.

FAilAtün	FAiLAtün	FAilAtün	FAilün
Ey Vidadi,	gərdişi–döv	rani-kəcrəf	tarə bax
Ruzigarə	qıl tamaşa,	karə bax, kir	darə bax

Şair "Bax" qəzəlində çoxlu ərəb, fars sözləri, izafət birləşmələri işlətmişdir. Bunun səbəbi şeirin dini – fəlsəfi məzmuna malik olmasıdır.

Qəzəldə işlənmiş bəzi söz və izafət tərkiblərinə diqqət yetirək:

gərdişi - dövran – zəmanənin gərdişi, hərəkətləri
kəcrəftar – pis rəftar edən
kar – iş
şəb – gecə

qəhhar – məhvedici, əzici
idbar – pis, murdar, alçaq
dimağı – pürqürur – qürurlu adam
payimal olmaq – ayaq altında qalmaq
qəffar – günahları bağışlayan (Allah)
siyasət – burada: cəza
kəmtər – aciz, yazıq
ahəngəri-bicarə – yazıq dəmirçi
xunxar – qaniçən, zalım
ruzigar – zaman, həyat
xubü -zişt – yaxşı və pis
midbər – mıx
təbdil – dəyişmə
ali-əba – peyğəmbərin övladları, yaxın ətrafı
Əhmədi – Muxtar – Məhəmməd peyğəmbərin tərifli adlarından biri

"Görmədim" müxəmməsi. Bu əsər şairin son dövr ictimai məzmunlu əsərləri içərisində mühüm yer tutur. "Görmədim" müxəmməsi Azərbaycan poeziyasının ən dəyərli nümunələrindən biridir. M.P.Vaqif bu müxəmməsi Məhəmməd bəy Cavanşirin hakimiyyəti illərində qələmə almışdır. Şeirdə Vaqif ittihamçı və inkarçı kimi çıxış edir. Güclü həyat sevgisinə, nikbin dünyagörüşünə malik sənətkar yaşa dolduqca dünyanın yalnız toy-bayram olmadığı qənaətinə gəlir. Dövrün mənəvi sarsıntılarını, təlatümlərini saf-çürük edir, dostların vəfasızlığını, deyilən sözlərin şər-böhtan olduğunu görür: Artıq cahan mülkünün ahəngi pozulmuşdur. Verilən qərarlarda dəyanət, sabitlik yoxdur. Xülasə, insanların vəfasızlığını, ehtiyac və arzularının yerinə yetirilmədiyini də buna əlavə edir:

Mən cahan mülkündə mütləq doğru halət görmədim,
Hər nə gördüm, əyri gördüm, özgə babət görmədim.
Aşinalar ixtilatında sədaqət görmədim,
Biətü iqrarü imanü dəyanət görmədim,
Bivəfadan lacərəm təhsili – hacət görmədim.

Şair ikinci bənddə sultanla gəda, varlı ilə yoxsul arasında fərqin olmadığı qənaətinə gəlir. Bu adamların hamısı dünya malına hərisdir. Dünyanı bürüyən səs-küyün, məkr, hiylə və müharibələrin səbəbi də məhz var – dövlət toplamaq hərisliyidir:

Xah sultan, xah dərvişü gəda bilittifaq,
Özlərin qılmış giriftari – qəmü dərdi – fəraq,
Cifeyi – dünyayədir hər ehtiyacü iştiyaq,
Munca kim etdim tamaşa, sözlərə asdım qulaq,
Kizbü böhtandan savayı, bir hekayət görmədim.

Müxəmməsin başqa bir bəndində şair düşüncə və müşahidələrini yekunlaşdırır. Xeyirin və şərin dolaşıq düşdüyü dünyadan baş götürüb getmək istədiyini bildirir. Bu mühitdə ağıl və fəzilət sahibləri alçaldılır, alçaq insanlar mötəbər sayılır. Var-dövlət sahiblərində kərəm, yaxşılıq etmək istəyən insanlarda var-dövlət yoxdur. Şair görülən işlərdə qanuniliyin və ləyaqətin olmadığını söyləyir. Buna qəti etirazını bildirir:

Müxtəsər kim, böylə dünyadan gərək etmək həzər,
Ondan ötrü kim deyildir öz yerində xeyrü şər.
Alilər xaki-məzəllətdə, dənilər mötəbər,
Sahibi-zərdə kərəm yoxdur, kərəm əhlində zər,
İşlənən işlərdə ehkamü ləyaqət görmədim.

Müxəmməsin sonuncu bəndində şair mövcud problemləri aradan qaldırmağın yolunu tapa bilməyib yalnız Allahdan kömək və mərhəmət umur. Dünyadan əl üzüb tanrıya sığınır:

Baş ağardı, ruzigarım oldu gün-gündən siyah,
Etmədim, səd heyf kim, bir mahi-rüxsarə nigah,
Qədirbilməz həmdəm ilə eylədim ömrü təbah,
Vaqifə, ya Rəbbəna, öz lütfünü eylə pənah,
Səndən özgə, kimsədə lütfü inayət görmədim.

"Görmədim" müxəmməsi faciələrlə dolu bir dövrün hadisələrinə Vaqifin etiraz və üsyanıdır. "Hər nə gördüm, əyri gördüm, özgə babət görmədim" deyən şair təsdiq ilə inkar arasında zahiri təzad yaratsa da, mahiyyətcə təsdiqi də məhz inkarın təsdiqi kimi işlədir.

"Görmədim" müxəmməsi 13 bənddən ibarətdir. Əruz vəzninin rəməl bəhrində yazılmışdır:

FAilAtün	FAilAtün	FAilAtün	FAilün
Mən cahan mül-	kündə mütləq	doğru halət	görmədim
Hər nə gördüm,	əyri gördüm,	özgə babət	görmədim

Şeirdə çətin anlaşılan ərəb və fars sözləri, tərkibləri də çoxdur:

halət – vəziyyət
ixtilat – söhbət, yığıncaq
iqrar – qərar vermək
biət – tabe olma, boyun qoyma
lacərəm – xülasə
təhsili – hacət – nəticə çıxarma, hasil olma
xah – istər, istərsə də (bölüşdürmə bağlayıcısı)
bilittifaq – ittifaq ilə (birlikdə)
cifeyi – dünya – dünyanın malı
kizb – yalan
xaki – məzəllət – zillət torpağı
dəni – alçaq
aşina – dost, tanış
giriftari-qəmü dərdi fəraq – ayrılıq dərd-qəminə tutulmuş
munca (bunca) – bu qədər
kərəm əhli – insaflı, mərhəmətli adamlar
sahibi-zər – qızıl sahibi, dövlətli adam
mötəbər – yüksək, hörmətli
siyah – qara
alilər – yüksək nəcabətli adamlar
təbah – puç
nigah – baxmaq, baxış, nəzər
inayət – kömək, mərhəmət
lütf – mehribanlıq, xeyirxahlıq, yaxşılıq
səd heyif – yüz heyif

ya Rəbbəna – ey Allah
mahi-rüxsar – ay üzlü
əksər-əqəl – az-çox
bəndə – insan
ehkam – hökmlər, qanunlar
iştiyaq – şövq, həvəs, meyil

Şeirin dili nəsr, hətta publisistik məqalə dilinə yaxındır. Burada obrazlılıq, canlı bənzətmələr, şux epitetlər, demək olar ki, yoxdur. Sözlər daha çox öz həqiqi mənalarında işlənmişdir.



Molla Pənah Vaqifin həyat və yaradıcılığı ilə bağlı yaddaş

- ✓ Azərbaycan ədəbiyyatında realizmin banisidir. Vaqif yaradıcılığı ilə Azərbaycan şeiri tarixində yeni bir dövr başlanır.
- ✓ 1717-ci ildə Qazax mahalının Qıraq Salahlı kəndində anadan olmuşdur.
- ✓ Kamil mədrəsə təhsili almış, dünyagörüşünün zənginləşməsində dövrünün görkəmli ziyalısı Şəfi əfəndinin böyük rolu olmuşdur.
- ✓ Bir müddət şair özü də müəllimliklə (məktəbdarlıqla) məşğul olmuşdur.
- ✓ Gürcüstan sərhədində baş verən münaqişələr nəticəsində ailəsi ilə birlikdə Qazaxı tərk etməli olur.
- ✓ Əvvəlcə Gəncəyə, sonra isə Qarabağa, Şuşaya gəlir.
- ✓ İbrahim xanın sarayında xanlığın baş vəziri olur.
- ✓ Xanlığın idarə olunmasında böyük xidmətləri olmuşdur.
- ✓ Rəvayətə görə, 1795-ci ildə Qarabağa hücuma keçən Qacara iki misradan ibarət fars dilində çox ibrətli bir cavab göndərmişdir.
- ✓ 1797-ci ildə Şuşada Məhəmməd bəy Cavanşir tərəfindən oğlu Əli ağa ilə birlikdə edam olunmuşdur.
- ✓ Y.V.Çəmənzəminli "İki od arasında" romanında, S.Vurğun "Vaqif" pyesində şairin yaddaqalan parlaq obrazını yaratmışlar.
- ✓ Yalnız lirik növdə yazıb-yaratmışdır.
- ✓ Həm heca, həm də əruz vəznindən istifadə etmişdir.
- ✓ Yaradıcılığında qoşmaları üstünlük təşkil edir. Təcnisləri də var.
- ✓ Heca vəznli şeirlərinin əsas mövzusu qadın gözəlliyi və

məhəbbətin tərənnümüdür.

- ✓ Yaradıcılığının bir qismini ictimai məzmunlu şeirləri təşkil edir.
- ✓ Poeziyasında nikbin əhvali-ruhiyyə, gözəlliyə pərəstiş hisləri qüvvətlidir.
- ✓ Əruz vəznli şeirlərini qəzəl, müxəmməs, müstəzad və müəşşər janrlarında yazmışdır.
- ✓ Yaradıcılığında mücərrəd ideyalar, obrazlar, mürəkkəb ifadələr, demək olar ki, yoxdur.
- ✓ "Zeynəb", "Pəri" rədifli qoşmalarında gözəlin real bədii portretini yaratmışdır.
- ✓ Əruz vəznli şeirlərindən "Küşmüşəm" rədifli qəzəlində və "Var" rədifli müxəmməsində də məhəbbətin və gözəlliyin tərənnümü əsas yer tutur.
- ✓ "Bəri bax" rədifli qoşması da məhəbbət mövzusunda yazılmışdır. Beş bənddən ibarət bu qoşma Vaqif yaradıcılığı üçün xarakterik olan müraciət formasında yazılmışdır.
- ✓ İctimai-məzmunlu şeirlərinin də bir qismini heca, bir qismini isə əruz vəznində yazmışdır.
- ✓ "Hayıf ki yoxdur" qoşmasında Vaqif elin-obanın yoxsul həyatına, Kür qırağının acı taleyinə yanan bir sənətkar kimi görünür.
- ✓ İctimai məzmunlu şeirləri içərisində son dövrdə yazdığı "Bax" qəzəli və "Görmədim" müxəmməsi xüsusi yer tutur.
- ✓ "Bax" qəzəli Vidadiyə müraciət formasında, rəməl bəhrində yazılmışdır. Doqquz beytdən ibarətdir.
- ✓ "Bax" qəzəlində şair konkret tarixi hadisənin fəlsəfi şərhini vermişdir.
- ✓ "Görmədim" müxəmməsi Məhəmməd bəy Cavanşirin hakimiyyəti illərində qələmə alınmışdır. Rəməl bəhrində yazılmışdır.
- ✓ "Görmədim" müxəmməsində şairin faciələrlə dolu bir dövrün hadisələrinə etiraz və üsyanı güclüdür.
- ✓ Müxəmməsin dili publisistik məqalə dilinə yaxındır, əsərdə obrazlılıq, şux epitetlər, demək olar ki, yoxdur.
- ✓ M.P.Vaqif ədəbi məktəb yaradan sənətkarlarımızdan biridir.

A variantı

1. M.P.Vaqif yaradıcılığına aid düzgün fikirləri seçin.
   1. M.P.Vaqif yaradıcılığı ilə xalq – aşıq şeiri yazılı ədəbiyyat üzərində üstünlük qazandı.
   2. O, əruz vəzninin yeni formalarını yaratmaqla onu ana dilli şeirimiz üçün doğmalaşdırdı.
   3. M.P.Vaqif həyat gerçəklərini poeziyanın birbaşa tərənnüm obyektinə çevirdi.
   4. M.Füzuli ədəbi məktəbinin ən ardıcıl və davamlı nümayəndəsi hesab olunur.
   5. Ədəbiyyata demokratiklik və xəlqilik gətirərək yeni bir ədəbi məktəb yaratdı.

   A) 1, 3, 5 B) 2, 4, 5 C) 3, 4 D) 1, 3, 4 E) 2, 5

2. Bunlardan biri M.P.Vaqifin həyat və yaradıcılığına aid ***edilə bilməz:***
   A) Şairin uşaqlıq və gənclik illəri Qazaxda keçmişdir.
   B) Şair Qarabağa gələndə artıq bir şair kimi məşhur idi.
   C) Vaqif Qarabağ xanlığının ictimai-siyasi işlərində fəal iştirak etmiş, bununla bağlı iki dəfə Gürcüstana səfər etmişdir.
   D) 1795-ci ildə Qarabağ üzərinə hücuma keçən Qacara onu alçaldıcı məktub göndərmişdir.
   E) 1797-ci ildə oğlu Əli ağa ilə birlikdə Şuşada edam edilmişdir.

3. Hansı fikir ***səhvdir?***
   A) M.P.Vaqif öldürülərkən evi talanmış, əlyazmaları itib-batmışdır.
   B) XIX əsrin əvvəllərindən başlayaraq, Vaqifin şeirləri müxtəlif mənbələrdən toplanaraq nəşr edilmişdir.
   C) Əsərlərini həm heca, həm də əruz vəznində yazmışdır.
   D) Yaradıcılığında nikbinlik, xəlqilik, həyatilik üstünlük təşkil edir.
   E) Onun poeziyasında İ.Nəsimidən gələn üsyankarlıq, M.Füzulidən gələn kədər güclüdür.

4. Düzgün fikirləri seçin.
   1. M.P.Vaqif poeziyasının bir qismini əruz vəznində yazdığı qəzəllər, müxəmməslər, müstəzadlar və müəşşərlər təşkil edir.
   2. M.P.Vaqif poeziyası əsas etibarilə xalq – aşıq şeirinin təsiri altında olmuşdur.
   3. İctimai məzmunlu şeirləri də az olmamışdır.
   4. Gözəlliyə və məhəbbətin tərənnümünə həsr olunmuş şeirləri, əsasən, əruz vəznində yazılmışdır.
   5. Son dövr yaradıcılığında heca vəznli şeirlərə: qoşma və təcnislərə üstünlük vermişdir.

   A) 1, 2, 3
   B) 4, 5
   C) 1, 4, 5
   D) 2, 4, 5
   E) 1, 5

5. Aşağıdakılardan birini seçməklə M.P.Vaqifin əruz vəznli şeirlərinin janrlarını davam etdirin.
   Qəzəl, müxəmməs, müəşşər ...
   A) qəsidə
   B) müstəzad
   C) qitə
   D) mürəbbe
   E) tərkibbənd

6. M.P.Vaqifin heca vəznli şeirlərinin janrını davam etdirin:
   Qoşma, ...
   A) dodaqdəyməz
   B) gəraylı
   C) təcnis
   D) bayatı
   E) cıyalı təcnis

7. Bu janrlardan birinə M.P.Vaqif şeirlərinin içində təsadüf ***edilmir:***
   A) qəzəl B) müxəmməs
   C) qoşma D) müstəzad E) gəraylı

8. M.P.Vaqifin heca vəznli şeirlərinə ***aid edilə bilməz:***
   A) Heca vəznli şeirlərində tərənnüm etdiyi məhəbbət sufi–panteist xarakter daşıyır.
   B) Vaqifin tərənnüm etdiyi gözəllər zahiri gözəlliyi ilə yanaşı, gözəl yerişi, duruşu, rəftarı ilə də ruh oxşayır.
   C) Gözələmələrində tərənnüm etdiyi gözəllərə bəzən adları ilə müraciət edir.
   D) Bu şeirlər dil və üslubunun təbiiliyi və axıcılığı ilə diqqəti cəlb edir.
   E) Belə şeirlərində mücərrəd ideyalar, obrazlar, mürəkkəb ifadələr, demək olar ki, yoxdur.

9. M.P.Vaqifin əruz vəznli şeirlərinin xüsusiyyəti kimi verilənlərdən biri ***səhvdir:***
   A) Bu şeirlərdə Füzuli şeirlərindən fərqli olaraq, mürəkkəb metaforalar, olduqca qəliz tərkiblər yoxdur.
   B) Vaqif qəzəllərində Füzulinin xəyal göylərindəki gözəli yerə endirir, onu əlçatan edir.
   C) Şairin müxəmməslərinin də, demək olar ki, əsas mövzusu məhəbbət və gözəlliyin tərənnümüdür.
   D) Şair "Var" rədifli müxəmməsində Tiflisdə gördüyü gözəlləri tərənnüm edir.
   E) "Küsmüşəm" qəzəli şairin ictimai məzmunlu fikirlərindən ibarətdir.

10. Vaqifin qəzəllərinə aid edilən fikirlərdən biri ***səhvdir:***
   A) Qəzəllərinin əsas mövzusu qadın gözəlliyinin tərənnümüdür.
   B) Qəzəllərində də, qoşmalarında olduğu kimi, real gözəlliyi və məhəbbəti tərənnüm edir.
   C) Məhəbbət məzmunlu qəzəllərində mücərrəd və qəliz tərkiblər, demək olar ki, yoxdur.
   D) "Bax" rədifli qəzəlində də məhəbbət tərənnüm olunur.
   E) "Küsmüşəm" qəzəlində dilbərdən mehribanlıq, vəfa uman şairin şikayətləri öz əksini tapmışdır.

B variantı

1. *Vaqif bu şeirlərində çox vaxt konkret gözəlləri, onların zahiri görkəmini, yerişini, danışığını bizə təqdim edir. Onlara adları ilə müraciət edir.* Söhbət nədən gedir?
   A) məhəbbət və gözəlliyin tərənnümünə həsr etdiyi qoşma və təcnislərindən
   B) məhəbbət və gözəlliyin tərənnümünə həsr etdiyi qəzəllərindən
   C) Tiflisə səfər edərkən yazdığı müxəmməslərdən
   D) Son dövr yaradıcılığında yer tutan şeirlərindən
   E) "Bax" qəzəlindən və "Görmədim" müxəmməsindən

2. Verilmiş bənd haqqında fikirlərdən biri ***səhvdir:***
   Boyun sürahidir, bədənin büllur,
   Gərdənin çəkilmiş minadan, Pəri.
   Sən ha bir sonasan, cüda düşübsən
   Bir bölük yaşılbaş sonadan, Pəri!
   A) Qoşmanın ilk bəndidir.
   B) "Pəri" sözü rədifdir.
   C) Şair bənddə mükəmməl təşbehlər yaratmışdır.
   D) Sonuncu misrada həm təşbeh, həm də metafora vardır.
   E) Şəklinə görə dördlükdür.

3. M.P.Vaqifin "Küsmüşəm" rədifli qəzəlindən götürülmüş beyt haqqında hansı fikir ***səhvdir?***
   ... Şəninə dedim şirin söz, bir şey ondan dadmadım,
   Bu səbəbdən ağzı şəkkər dilrubadan küsmüşəm...
   A) Qəzəlin ikinci beytidir.
   B) *Cc* şəklində qurulmuşdur.
   C) Həm birinci, həm də ikinci misrada epitet vardır.
   D) Şeir məhəbbət mövzusundadır.
   E) Cavabsız qalmış bir eşqə həsr olunmuşdur.

4. M.P.Vaqifin "Bəri bax" qoşması haqqında düzgün fikirləri seçin.
   1. Qoşma adı məlum konkret bir gözələ həsr olunmuşdur.
   2. Qoşmanın birinci bəndində gözəlin zahiri görkəmi təsvir olunmuşdur. Lirik qəhrəman gecə-gündüz onun fikri ilə yaşayır.
   3. İkinci bənddə ayrılığa dözümü olmayan aşiqin hicran dərdi təsvir olunur.
   4. Şeirdə çətin anlaşılan ərəb-fars tərkiblərinə də geniş yer verilmişdir.
   5. Dörd bənddə əğyar kimi təqdim olunan, iki aşiqin arasını vuran adam sonda onları barışdırır.

   A) 2, 3 B) 3, 4, 5 C) 2, 5 D) 1, 3, 4 E) 1, 4, 5

5. "Bəri bax" qoşması ilə bağlı hansı fikir ***səhvdir?***
   A) "Bəri bax" qoşması Vaqif yaradıcılığı üçün xarakterik olan müraciət formasında yazılmışdır.
   B) Qoşmada tərənnüm olunan gözəl aşiqi dərdə salan saray xanımıdır.
   C) "Bəri bax" qoşmasının lirik qəhrəmanının dərdi artır, çünki arada əğyar var.
   D) Möhürbənddə şair gözəl təşbeh və epitetlərdən istifadə etmişdir.
   E) Qoşmada işlənən "bəri bax" ifadəsi yalnız müraciət forması kimi düşünülmüşdür.

6. "Bəri bax" qoşmasından verilmiş birinci misradan sonra hansı misra işlənməlidir?
   Ala gözlüm, sərv boylu dilbərim, ...
   A) Həsrətin çəkdiyim canan, bəri bax!
   B) Çəkilsin üstündən duman, bəri bax!
   C) Çəkərəm dərdini pünhan, bəri bax!
   D) Gəzməsin arada yaman, bəri bax!
   E) Ağzı nabat, şəkkər zəban, bəri bax!

7. Şair "Bəri bax" qoşmasının hansı bəndində gözəlin zahiri gözəlliyinin bədii portretini yaratmışdır?
   A) həm ikinci, həm üçüncü
   B) ikinci
   C) birinci
   D) üçüncü
   E) dördüncü

8. M.P.Vaqifin ictimai məzmunlu şeirləri ilə bağlı hansı fikirlər ***səhvdir?***
   1. İctimai məzmunlu şeirlərini yalnız əruz vəznində yazmışdır.
   2. Bu məzmunlu şeirlərində şair mərd və üsyankardır.
   3. İctimai məzmunlu şeirləri onun yaradıcılığının son dövrlərinə aiddir.
   4. "Hayıf ki, yoxdur" şeirində şairi elin, obanın yoxsul həyatına, acı taleyinə yanan bir sənətkar kimi görürük.
   5. Tiflisə səfəri zamanı yazdığı müxəmməslərdə Vaqifin dövrün hadisələrinə kəskin etirazı öz əksini tapmışdır.

   A) 1, 3, 5 B) 2, 4 C) 1, 4
   D) 2, 3 E) 1, 4, 5

9. "Hayıf ki yoxdur" qoşması ilə bağlı hansı fikirlər düzgündür?
   1. İbrahim xanla Kür qırağına səyahətlə bağlı yazıldığı təxmin olunur.
   2. Şeirdə Vaqifin cəmiyyətin iqtisadi-siyasi problemlərinə diqqətli olması nəzəri cəlb edir.
   3. Şair şeirdə Kür qırağının təbii imkanları ilə xalqın dolanışığı arasındakı fərqi xana çatdırmaq istəyir.
   4. Şeir Vaqifin son dövr yaradıcılığının məhsuludur.
   5. Şeir konkret bir gözələ müraciətlə yazılmışdır.

   A) 1, 2, 3 B) 2, 4 C) 4, 5
   D) 1, 4, 5 E) 1, 3, 5

10. M.P.Vaqifin ictimai məzmunlu şeirlərini seçin.
   1. "Küsmüşəm" rədifli qəzəli
   2. "Bax" rədifli qəzəli
   3. "Bəri bax" rədifli qoşması
   4. "Var" rədifli müxəmməsi
   5. "Görmədim" rədifli müxəmməsi
   6. "Hayıf ki, yoxdur" rədifli qoşması

   A) 1, 3, 5 B) 2, 4 C) 2, 5, 6
   D) 1, 4, 6 E) 3, 4

C variantı

1. M.P.Vaqifin məhəbbətin və gözəlliyin tərənnümünə həsr olunmuş şeirləri:
   1. "Görmədim" rədifli müxəmməsi
   2. "Küsmüşəm" rədifli qəzəli
   3. "Bax" rədifli qəzəli
   4. "Pəri" rədifli qoşması
   5. "Zeynəb" rədifli qoşması
   6. "Hayıf ki, yoxdur" rədifli qoşması

   A) 2, 4, 5 B) 1, 3
   C) 1, 2, 6 D) 3, 4
   E) 3, 4, 5

2. Vaqifin "Bax" qəzəlində ***müşahidə olunmur:***
   A) həyata olduqca nikbin baxış və gələcəyə inam
   B) konkret tarixi hadisənin fəlsəfi şərhi
   C) etibarını itirmiş adamların Ağa Məhəmməd şahın aqibətindən ibrət almağa çağırılması
   D) şairin sonda ümidini peyğəmbərə, ali-əbaya bağlaması
   E) Allahın hökmünün hər hansı hökmdarın hökmündən çox-çox yüksəkdə dayanması

3. "Bax" qəzəli ilə bağlı hansı fikir ***səhvdir?***
   A) M.V.Vidadiyə müraciətlə yazılmış "Bax" qəzəlində konkret tarixi hadisənin özünəməxsus fəlsəfi şərhi verilmişdir.
   B) Şair bu qəzəldə "adil padişahı-qadirü-qəhhar"ın hökmünün hər hansı hökmdarın hökmündən yüksəkdə dayandığı qənaətinə gəlir.
   C) Qəzəldə tərki-dünyalığın təbliği şairin şəxsi faciəsindən, onun ruhunun dərinliyindən irəli gəlirdi.
   D) O, qəzəldə etibarını itirmiş adamları Ağa Məhəmməd şahın aqibətindən ibrət almağa çağırır.
   E) Şeirdə şair onu qəddar padşahın zülmündən qurtaran Allahın işinə heyrətini bildirir.

4. M.P.Vaqif hansı şeirində *"əhli-dünyadan nə qədər uzaq qaçsan, bir o qədər yaxşıdır, ona görə ki, heç kəsdə vəfa, etibar, sədaqət qalmamışdır"* qənaətinə gəlir?
   A) "Bax" qəzəlində
   B) "Küsmüşəm" qəzəlində
   C) "Görmədim" müxəmməsində
   D) "Hayıf ki, yoxdur" qoşmasında
   E) "Var" rədifli müxəmməsində

5. M.P.Vaqifin "Bax" qəzəlinin sonuncu beytində öz əksini tapmışdır:
   A) zülm əhlinin Allah tərəfindən bir göz qırpımında necə məhv edildiyi
   B) onun ölümünə hökm vermiş bir adamın gecəki bəxti və səhərki bədbəxtliyi
   C) etibarını itirmiş adamların Ağa Məhəmməd şahın aqibətindən ibrət almağa çağırılması
   D) öləndən sonra tacı başından düşüb, özü təpiklər altında qalan Qacar kimi hökmdarların aqibəti
   E) şairin dünyanın yaxşı-yamanına göz yumub ümidini peyğəmbərə, onun ocağına bağlaması

6. "Bax" qəzəlindən götürülmüş bu sözlərdən hansının izahı düzgün verilməmişdir?
   A) gərdişi-dövran –zəmanənin hərəkəti
   B) qəhhar – məhvedici, əzici
   C) dimağı-pürqürur – ayaq altına atılmış baş
   D) təbdil – dəyişmə
   E) ali-əba – peyğəmbərin yaxın ətrafı

7. "Bax" qəzəlində *"Əhli-zülmü necə bərbad eylədi bir ləhzədə"* misrasından sonra hansı misra gəlməlidir?
   A) Hökmü adil padişahi – qadirü – qəhharə bax!
   B) Payimal oldu təpiklərdə səri-sərdarə bax!
   C) Saxlayan məzlumu zalimdən o dəm qəffarə bax!
   D) Şah üçün ol midbəri təbdil olan mismarə bax!
   E) Nə qıza, nə oğula, nə dusta, nə yarə bax!

8. M.P.Vaqif "Bax" qəzəlinin hansı beytində özünün şahın zülmündən qurtarmasını dəmirçinin zalım şahın cəzasından qurtarmasına bənzədir?
   A) Əhli-zülmü necə bərbad eylədi bir ləhzədə,
      Hökmü adil padişahi-qadirü- qəhharə bax!
   B) Taci-zərdən ta ki ayrıldı dimaği-pürqürur,
      Payimal oldu təpiklərdə səri-sərdarə bax!
   C) Mən fəqirə əmr qılmışdı siyasət etməyə,
      Saxlayan məzlumu zalimdən o dəm qəffarə bax!
   D) Qurtaran əndişədən ahəngəri-biçarəni,
      Şah üçün ol midbəri təbdil olan mismarə bax!
   E) İbrət et Ağa Məhəmməd xandan, ey kəmtər gəda,
      Ta həyatın var ikən nə şahə, nə xünxarə bax!

9. Vaqifin "Görmədim" müxəmməsi ilə bağlı ***səhv fikir:***
   A) Şeirdə şair ittihamçı və inkarçı kimi çıxış edir.
   B) Dövrün mənəvi sarsıntılarını saf-çürük edir, dostların vəfasızlığını görür.
   C) Müxəmməsdə şair xeyiri və şəri yerində olmayan dünyadan baş götürüb getmək istədiyini bildirir.
   D) Yaxşı, xeyirxah adamların olacağına inanır.
   E) Şeirin sonunda şair mövcud problemləri aradan qaldırmağın yolunu tapa bilməyib yalnız Allahdan kömək umur.

10. "Görmədim" müxəmməsinin dili və bədii quruluşu ilə bağlı ***səhv fikir:***
   A) Müxəmməsin dili nəsr dilinə yaxındır.
   B) Publisist məqalə dilini xatırladır.
   C) Şeirdə obrazlılıq, canlı bənzətmələr, şux epitetlər də çoxdur.
   D) Ərəb-fars sözlərindən, tərkiblərindən gen-bol istifadə edilmişdir.
   E) Əruz vəzninin rəməl bəhrində yazılmışdır.

D variantı

1. "Görmədim" müxəmməsindən götürülmüş çətin anlaşılan hansı sözün mənası düzgün ***göstərilməmişdir?***
   A) təhsili-hacət – nəticə çıxma, hasil olma
   B) inayət – kömək
   C) təbah – puç
   D) dəni – mötəbər
   E) bilittifaq – ittifaq ilə, birlikdə

2. Molla Pənah Vaqif "Görmədim" müxəmməsinin hansı bəndində sultanla gəda, varlı ilə yoxsul arasında fərq ***görmür***?
   A) beşinci B) birinci C) ikinci D) dördüncü E) sonuncu

3. *"Hər nə gördüm, əyri gördüm, özgə babət görmədim"* misrasında şair təsdiqi hansı mənada işlədir?
   A) inkarın təsdiqi mənasında B) təsdiqin təsdiqi mənasında
   C) ziddiyyətlərin təzadı mənasında D) olaylara etiraz mənasında
   E) ictimai-siyasi duruma üsyan mənasında

4. Vaqifin bu əsərinin dili nəsr, hətta publisistik məqalə dilinə yaxındır:
   A) "Görmədim" müxəmməsi B) "Bax" qəzəli
   C) "Var" müxəmməsi D) "Hayıf ki, yoxdur" qoşması
   E) "Zeynəb" qoşması

5. Vaqifin "Görmədim" müxəmməsindən götürülmüş bu bəndin son misrasını göstərin.
   Müxtəsər kim, böylə dünyadan gərək etmək həzər,
   Ondan ötrü kim deyildir öz yerində xeyrü şər.
   Alilər xaki – məzəllətdə, dənilər mötəbər,
   Sahibi-zərdə kərəm yoxdur, kərəm əhlində zər,
   ... ...
   A) İşlənən işlərdə ehkamü ləyaqət görmədim.
   B) Bivəfadan lacərəm təhsili-hacət görmədim.
   C) Kizbü böhtandan savayı, bir hekayət görmədim.
   D) Bəndələrdə simü, bəylərdə ədalət görmədim.
   E) Səndən özgə, kimsədə lütfü inayət görmədim.

6. M.P.Vaqif bu əsərlərindən birində Məhəmməd bəy Cavanşirin hakimiyyəti dövründəki mənəvi sarsıntılarını, fəlakətlərini saf-çürük edir:
   A) "Görmədim" B) "Bax" C) "Hayıf ki, yoxdur"
   D) "Var" E) "Bəri bax"

7. Bənd haqqında fikirlərdən biri ***səhvdir:***
   Baş ağardı, ruzigarım oldu gün-gündən siyah,
   Etmədim, səd heyf kim, bir mahi-ruxsarə nigah,
   Qədirbilməz həmdəm ilə eylədim ömrü təbah,
   Vaqifə, ya Yəbbəna, öz lütfünü eylə pənah,
   Səndən özgə, kimsədə tütfü inayət görmədim.
   A) Birinci misrada təzad işlənmişdir.
   B) Şair mövcud problemləri aradan qaldıra bilmədiyindən yalnız Allahdan kömək və mərhəmət umur.
   C) Müxəmməs janrında yazılmışdır.
   D) Orta bənddir, ***bbbba*** şəklində qafiyələnmişdir.
   E) Rəməl bəhrində yazılmışdır.

8. M.P.Vaqifin Tiflis və onun gözəllərinə həsr etdiyi şeirlər hansı janrdadır?
   A) qəzəl B) qoşma C) müxəmməs D) müstəzad E) müəşşər

9. M.P.Vaqifin əruz vəznində yazdığı əsərləri ilə bağlı ***səhv fikir:***
   A) Şairin əruz vəznli şeirlərində də sadəlik və səmimilik vardır.
   B) Bu vəzndə yazdığı şeirlərinin dili heca vəznli şeirlərinə nisbətən çətindir.
   C) Əruz vəznində yazdığı şeirlərinin bir qismini Tiflisə həsr etdiyi müxəmməsləri təşkil edir.
   D) "Bax" qəzəli və "Görmədim" müxəmməsi – bu şeirlərin hər ikisi rəməl bəhrindədir.
   E) Əruz vəznində yazdığı bütün şeirləri ictimai-siyasi mövzudadır.

10. Vaqifin qadın gözəlliyinin tərənnümünə həsr edilmiş şeirləri ilə bağlı fikirlərdən biri ***yanlışdır:***
   A) Bu şeirlərin çoxu qoşma janrındadır.
   B) Bu şeirlər sufi-panteist düşüncədən uzaqdır.
   C) Daha çox konkret gözəllərin təsvirinə həsr edilmişdir.
   D) Bu gözəllərin təsviri mücərrədlikdən uzaqdır.
   E) Bu şeirlərdə Vaqif ayrılıq, hicran şairi kimi görünür.

XIX ƏSR AZƏRBAYCAN ƏDƏBİYYATI

Yeni dövr ədəbiyyatının II mərhələsi

Yeni dövr Azərbaycan ədəbiyyatının ikinci mərhələsi bütünlüklə XIX əsri əhatə etməklə bərabər, spesifik xüsusiyyətləri ilə də seçilir. Bu dövr ədəbiyyatında milli azadlıq ideyalarının, vətəndaşlıq duyğularının təsviri və tərənnümü güclənir. Dünya ədəbi prosesinə qoşulan Azərbaycan ədəbiyyatının ideya-məzmun və poetika-sənətkarlıq baxımından zənginləşməsi özünü açıqca hiss etdirir.

Bütün bu xüsusiyyətlər həmin dövrün son dərəcə əhəmiyyətli hadisəsi olan maarifçilik ideyalarının geniş yayılması və əməli hərəkata çevrilməsi ilə əlaqədar idi. Xalqı maarifləndirmək yolu ilə əsarətdən qurtarmaq maarifçilərin əsas məqsədi olmuşdur. Milli ruhlu vətəndaşlar tərbiyələndirmək üçün onlar məktəbə, teatra, mətbuata, ədəbiyyata xüsusi diqqət yetirir və eyni zamanda, məktəb və mətbəə açır, qəzet və kitab nəşr edir, teatr tamaşaları hazırlayırdılar.

1873-cü il mart ayının 10-da (köhnə stillə) ***Həsən bəy Zərdabinin*** və ***Nəcəf bəy Vəzirovun*** rəhbərliyi altında M.F.Axundzadənin «Sərgüzəşti-vəziri-xani-Sərab» əsərinin, aprel ayının 17-də isə yenə də M.F.Axund-zadənin «Hacı Qara» pyesinin Bakı real gimnaziyasının bir qrup tələbəsinin iştirakı ilə tamaşaları göstərildi. Beləliklə, Azərbaycan milli teatrının əsası qoyuldu.

Azərbaycan maarifçiləri mətbuat yaratmaq işində xeyli səy göstərdilər. 1858-ci ildə Cənubi Azərbaycanda – Təbrizdə aylıq «Azərbaycan» qəzeti nəşr edilməyə başladı, lakin Qacarlar sülaləsinin biganəliyi ucbatından qəzet bir neçə ildən sonra bağlandı.

Şimali Azərbaycanda isə bu işin təşəbbüskarı və ilk öncülü Həsən bəy Zərdabi oldu. Bakı real gimnaziyasının müəllimi, məhkəmə katibi, dövlət

məmuru kimi tanınan Həsən bəy Zərdabi 1870-ci ildən qəzet çıxarmağa icazə almaq istəsə də, buna yalnız 5 ildən sonra nail ola bildi. Nəhayət, 1875-ci il iyul ayının 22-də (yeni stillə) İstanbuldan gətirilmiş mətbəə hürufatı əsasında ilk milli Azərbaycan qəzeti «Əkinçi» çap edilməyə başladı. Qəzetin bağlanana kimi, yəni 1877-ci il sentyabr ayının 29-dək 56 nömrəsi çıxdı.

Əkinçi qəzetinin ilk səhifəsi

Demokratik imicə malik olan və öz ətrafında Mirzə Fətəli Axundzadə, Seyid Əzim Şirvani, Nəcəf bəy Vəzirov, Əsgər ağa Gorani, Əhsənül-Qəvaid, Məhbus Dərbəndi kimi qabaqcıl fikirli ziyalıları toplayan «Əkinçi» qəzeti gerilik və ətalətin səbəbini köhnə feodal münasibətlərində, çarizmin müstəmləkəçilik siyasətində görürdü və azadlıq yolunu göstərməyə çalışırdı.

«Əkinçi»dən sonra XIX əsrin sonları və XX əsrin əvvəllərində «Ziya», «Kəşkül», «Şərqi-Rus», «Həyat» qəzetləri və «Molla Nəsrəddin» jurnalı nəşrə başladı.

XIX əsrin 20-ci illərindən başlayaraq maarifçilik ideyaları bədii ədəbiyyatın janr-üslub modelini də yeni keyfiyyətlərlə zənginləşdirdi, yeni ədəbi növ və janrların meydana çıxmasına şərait yarandı. Satirik şeir sahəsində Qasım bəy Zakir və Baba bəy Şakir, nəsr sahəsində Abbasqulu ağa Bakıxanov və İsmayıl bəy Qutqaşınlı xüsusi xidmətlər göstərmişlər. Dramaturgiya sahəsinin inkişafı, o cümlədən komediya və dram

janrlarının, yeni tipli tənqidi-realist povestin əsasının qoyulması isə M.F.Axundzadənin adı ilə bağlı olmuşdur. Əsrin sonunda faciə (N.Vəzirov. "Müsibəti-Fəzrəddin"–1896) və roman janrının (N.Nərimanov. "Bahadır və Sona" – 1896-1899) ilk nümunələri yaranmışdı.

XIX əsrdə aşıq poeziyası yeni inkişaf pilləsinə qədəm qoyur, Azərbaycanın Göycə, Şəki, Urmu, Şəmkir kimi mahallarında ustad aşıqlar yetişir və aşıq yaradıcılığının janr-üslub xüsusiyyətləri daha da zənginləşir.

Abbasqulu ağa Bakıxanov

(1794-1846)

A.Bakıxanov ensiklopedik şəxsiyyət kimi məşhurdur və «Qüdsi» təxəllüsü ilə bədii əsərlər yazmışdır. Onun yaradıcılığında lirik şeirlərlə yanaşı, epik əsərlər – mənzum hekayələr və təmsillər də xüsusi yer tutur. A.Bakıxanovun həcm etibarilə ən böyük bədii əsərləri «Miratül-cəmal» və «Mişkatül-ənvar» məsnəviləridir.

«Miratül-cəmal» avtobioqrafik səciyyə daşıyır və A.Bakıxanovun Avropada – Polşada (Varşavada) keçirdiyi həyatı əks etdirir.

Əsərdə vətənpərvərlik ruhu güclüdür və müəllif doğma vətənini xatırlayır:

Qüdsi, xoşdur Əmsar adlı məskənin,
Şəhərlərdən çox üstündür öz kəndin.

İstər forma, istərsə də məzmun baxımından N.Gəncəvinin «Sirlər xəzinəsi» poemasını xatırladan «Mişkatül-ənvar» məsnəvisində mənzum hekayələr fonunda dövlətin idarə olunması, hökmdar və xalq, insan və cəmiyyət problemləri qoyulmuşdur. Şairin fikrincə, ölkənin taleyi hökmdardan asılıdır:

Şah bir etsə zülmü, onun xadimləri yüz edər,
Ölkənin hər iqtidarı, rövnəqi əldən gedər.
Bu halları görən zaman söyləmişdir atalar:
Ölkədə şah pis olarsa, xadimləri can alar.

Məsnəvidə nəsihətamiz fikirlərin ifadəsi olan, ictimai eyibləri, mütləqiyyət zülmünü tənqid edən və ictimai-əxlaqi məna daşıyan mənzum hekayə və təmsillər də verilmişdir.

A.Bakıxanovun bədii yaradıcılığının digər bir qolunu onun nəsr yaradıcılığı təşkil edir. O, «Riyazül-qüds» (1819), «Nəsihətlər» (1836) və «Kitabi-Əsgəriyyə» (1837) əsərləri ilə Azərbaycan ədəbiyyatı tarixində bədii nəsrin gözəl nümunələrini yaratmışdır.

"Riyazül-qüds" və "Kitabi-Əsgəriyyə" əsərlərində nəsrlə yanaşı, şeir parçaları da da verilmişdir. Buna görə də bu əsərlər öz formasına görə haradasa xalq dastanlarını xatırladır.

A.Bakıxanov bədii yaradıcılıqla yanaşı, elmi yaradıcılıqla da məşğul olmuşdur. Onun «Qanuni-Qüdsi», «Əsrarül-mələkut», "Kəşfül-qəraib", «Təhzibül-əxlaq», «Eynül-mizan», «Gülüstani-İrəm» əsərləri elmin müxtəlif sahələrinə həsr edilmişdir. O, "Gülüstani–İrəm" əsəri ilə Azərbaycan tarixşünaslığının əsasını qoymuşdur.

Mirzə Şəfi Vazeh (1794-1852)

Klassik poeziya ənənələrini davam etdirən, şair, müəllim, xəttat kimi tanınan M.Ş.Vazeh Şərq bədii fikrinin Rusiya və Avropaya (Almaniya, Fransa, İngiltərə) yayılmasında, Azərbaycan – Qərb ədəbi-mədəni əlaqələrinin yaranıb inkişaf etməsində mühüm rol oynamışdır.

M.Ş.Vazeh Tiflisdə «Divani-hikmət» ədəbi məclisini (1844) təşkil etmişdir. 1844-cü ildə Tiflis gimnaziyasında fransız və latın dillərini tədris etmək üçün dəvət edilən Fridrix Bodenştedt (1819-1892) bu ədəbi məclisin yığıncaqlarında iştirak edir, həmçinin Vazehdən Azərbaycan və fars dillərini, Şərq poetikasının sirlərini öyrənirdi.

F.Bodenştedt Qafqaza dair xatirələrini 1850-ci ildə Berlində «Şərqdə min bir gün» adı ilə çap etdirir. O, həmin kitaba Mirzə Şəfinin bir sıra şeirlərini də (əlbəttə, alman dilinə tərcümədə) daxil edir. Şeirlərin daha

çox oxunduğunu, məşhurlaşdığını görən alman şərqşünası həmin şeirləri naşirin məsləhəti ilə 1851-ci ildə «Mirzə Şəfinin nəğmələri » adı ilə ayrıca kitab kimi çap etdirir. Bu şeirlər tezliklə əksər Avropa dillərinə tərcümə edilir. Sonradan (daha çox 1873-cü ildən) F.Bodenştedt Mirzə Şəfini bir müəllif kimi inkar etmiş, onun bütün şeirlərini öz adına çıxmışdır.

Beləliklə, Mirzə Şəfinin şeirləri bizə əksərən alman dilinə tərcümədə çatmışdır. Lakin onun bizə, az da olsa, orijinal əsərləri də gəlib çatmışdır: bir neçə qəzəli və təkbeyti, «Məktubun intizarında» adlı lirik məsnəvisi (farsca), nəsr və nəzmlə yazmış «Həsbi-hal» əsəri.

İsmayıl bəy Qutqaşınlı (1809-1861). İ.Qutqaşınlı Azərbaycan maarifçiliyinin təşəkkül dövrünün nümayəndəsidir. Onun «Rəşid bəy və Səadət xanım» hekayəsi 1835-ci ildə Varşavada fransız dilində çap edilmiş və milli ədəbiyyatın maarifçilik ideyaları ilə zənginləşməsində, eyni zamanda, Azərbaycan nəsrinin təşəkkülündə mühüm rol oynamışdır.

Hekayə mənəviyyatdakı və məişətdəki geriliyə və köhnəliyə qarşı ciddi etirazın bədii ifadəsidir.

M.F.Axundzadə bu əsəri yüksək qiymətləndirmişdir.

İ.Qutqaşınlının "Səfərnamə" adlı Məkkəyə birinci səfəri əsasında yazılmış yol qeydləri də vardır.

Xurşidbanu Natəvan (1832-1897)

X.Natəvan bədii yaradıcılığa 50-ci illərdə başlamışdır. M.Füzuli ənənələrinin davamçısı kimi tanınır. Lirikada insanın daxili dünyasının həm real, həm də romantik boyalarla inikası və təbiət gözəlliklərinin təsviri onun yaradıcılığının əsas xüsusiyyətləridir. O, Qarabağ xanı İbrahim xanın nəvəsi, Mehdiqulu xanın qızı idi. *Xan qızı* kimi tanınan X.Natəvan yalnız qəzəl janrında əsərlər yazmışdır.

Onun qəzəllərində insanpərvərlik, xeyirxahlıq, dostluq ideyaları tərənnüm olunur. «Ey dust», «Xudahafiz» rədifli qəzəllərində isə xain və

yaramaz adamların əməlləri pislənir, eyni zamanda, o, müasirlərini rəqib fitnəsindən qorunmağa çağırır.

Şairənin «Gülün», «Bülbül», «Bənövşə», «Qərənfil» adlı şeirlərində təbiət gözəllikləri insanın mənəvi dünyası və qayğıları ilə əlaqələndirilir.

Şifahi xalq ədəbiyyatından və klassik irsdən ustalıqla bəhrələnən X.Natəvan şeirdə ifadə yığcamlığına, fikir əlvanlığına və məna dərinliyinə nail olmaqla bədii sənətkarlıq baxımından kamil şeir nümunələri yaratmışdır. Bədii təsvir və ifadə vasitələri, xüsusilə bədii sual, xitab və təkrirlər, təşbeh və metaforalar, eləcə də qoşaqafiyələr, daxili qafiyələr, rədiflər onun əsərlərinin təsir gücünü artırmışdır. Lirik qəhrəmanın daxili aləmi, onun heyrət, həyəcan, yalvarış və təəssüfləri Natəvanın şeirlərində çox təsirli şəkildə ifadə olunmuşdur.

X.Natəvan həm də öz dövrünün realist üslublu gözəl rəssamı olmuşdur.

Nəcəf bəy Vəzirov (1854-1926)

N.Vəzirov Şuşada doğulmuş, bədii yaradıcılığa 70-ci illərin əvvəllərində (1873-cü ildən) başlamışdır. M.F.Axundzadə ənənələrinin davamçısı kimi dramaturgiyanı inkişaf etdirmiş, onu təzə mövzular və faciə janrı ilə zənginləşdirmişdir. N.Vəzirov 1896-cı ildə yazdığı "Müsibəti-Fəxrəddin" (əvvəlki adı: "Çəkmə, çəkə bilməzsən, bərkdir fələyin yayı") əsəri ilə Azərbaycan ədəbiyyatı tarixində faciə janrının əsasını qoymuşdur.

O, Bakıda real gimnaziyanı bitirmiş və Moskvada Petrovski-Razumovski Akademiyasında ali təhsil almışdır. Təhsildən qayıtdıqdan sonra Yelizavetpol (indiki Gəncə) və İrəvan quberniyalarında meşəbəyi, İrəvanda və Qazaxda dövlət məmuru, Bakı Dumasında katib vəzifələrində çalışmışdır.

N.Vəzirov "Ev tərbiyəsinin bir şəkli" (1875), «Daldan atılan daş topuğa dəyər» (1890), «Adı var, özü yox» (1891), «Yağışdan çıxdıq, yağmura düşdük» (1895), «Pəhləvanani-zəmanə» (1898-1900) kimi komediyaların müəllifidir.

Mövzusu XIX əsr Azərbaycan mülkədarlarının həyatından alınan "Müsibəti-Fəxrəddin" faciəsində işıqla zülmətin, xeyirlə şərin, yeniliklə köhnəliyin mübarizəsi təsvir olunmuşdur. Əsərin əsas surətləri Rüstəm bəy, Fəxrəddin bəy, Mələk xanım və Səadət xanımdır. Müəllif onların simasında iki böyük ictimai qüvvə (yeniliklə köhnəlik) arasındakı tragik toqquşmanı əks etdirmişdir.

N.Vəzirov əsası M.F.Axundzadə ilə ("Hekayəti-xırs quldurbasan" – 1851) başlayan və N.Nərimanovla ("Nadanlıq" – 1893) davam və inkişaf etdirilən dram janrında da əsərlər yazmışdır: "Keçmişdə qaçaqlar" (1912), "Nə əkərsən, onu biçərsən" (1914), "Təzə əsrin ibtidası" (1922).

A varianti

1. XIX əsrə aid olan ədəbi faktları müəyyənləşdirin.
   1. Milli teatrın əsası qoyuldu.
   2. Ədəbiyyatda milliləşmə prosesi başlandı.
   3. İlk milli Azərbaycan qəzeti çap edildi.
   4. Dramatik növün əsası qoyuldu.
   5. Mənzum faciənin ilk nümunələri yarandı.

   A) 1, 2, 3 B) 1, 3, 4 C) 2, 3 D) 3, 4, 5 E) 2, 5

2. XIX əsrə aid olan ədəbi faktları müəyyənləşdirin.
   1. Ədəbiyyatımızda ilk satira nümunələri yarandı.
   2. Komediya, dram və faciə janrlarının əsası qoyuldu.
   3. Mənzum hekayənin ilk nümunələri meydana çıxdı.
   4. Maarifçilik ideyalarını əks etdirən ilk hekayə çap edildi.
   5. Mənzum dram janrı nümunələri yarandı.

   A) 1, 2, 3 B) 2, 4 C) 1, 3, 4 D) 3, 4, 5 E) 4, 5

3. Aşağıdakılardan hansılar XIX əsrə aid olan ədəbi faktlar sırasında verilə ***bilməz?***
   1. Epik, lirik və dramatik növdə əsərlərin yaranması
   2. Satirik mətbuatın əsasının qoyulması
   3. Povest janrının ilk nümunəsinin yaranması
   4. Azərbaycan-Avropa ədəbi əlaqələrinin genişlənməsi
   5. Realizm və romantizm ədəbi cərəyanlarının yanaşı yaşaması

   A) 1, 2, 3 B) 1, 3 C) 2, 3, 4 D) 3, 4, 5 E) 2, 5

4. Məsnəvi formasında yazılan əsərləri seçin.
   1. "Miratül-cəmal" (A.Bakıxanov)
   2. "Eylər" (Q.Zakir)
   3. "Mişkatül-ənvar" (A.Bakıxanov)
   4. "Necə həmtay tutum hər büti-zibayə səni" (S.Ə.Şirvani)
   5. "Məktubun intizarında" (M.Ş.Vazeh)

   A) 1, 3, 5 B) 1, 3, 4 C) 2, 3 D) 3, 4, 5 E) 1, 2

5. Aşağıdakı sənətkarlardan biri ensiklopedik şəxsiyyət kimi tanınır:
A) M.Ş.Vazeh B) İ.Qutqaşınlı
C) A.Bakıxanov D) N.Vəzirov E) X.Natəvan

6. A.Bakıxanovun nəsr əsərlərini seçin.
1. "Miratül-cəmal" 2. "Riyazül-qüds"
3. "Mişkatül-ənvar" 4. "Kitabi-Əsgəriyyə"
5. "Nəsihətlər"
A) 1, 2 B) 2, 3, 4 C) 3, 4, 5 D) 2, 4, 5 E) 1, 4

7. Aşağıdakı sıraların ikisində A.Bakıxanovun yalnız elmi əsərləri verilmişdir:
1. "Qanuni-Qüdsi", "Əsrarül-məlәkut"
2. "Miratül-cəmal". "Mişkatül-ənvar"
3. "Təhzibül-əxlaq", "Eynül-mizan", "Gülüstani-İrəm"
4. "Riyazül-Qüds", "Qanuni-Qüdsi"
5. "Riyazül-Qüds", "Kitabi-Əsgəriyyə", "Nəsihətlər"
A) 1, 2 B) 1, 3 C) 3, 4 D) 3, 5 E) 2, 5

8. A.Bakıxanovun "Miratül-cəmal" məsnəvisi haqqında ***səhv*** fikri müəyyənləşdirin.
A) Avtobioqrafik səciyyə daşıyır.
B) Əsərin əsas ruhunu vətənpərvərlik, yurd sevgisi təşkil edir.
C) Müəllif bu əsərində "Qüdsi" təxəllüsünü işlətmişdir.
D) Aşağıdakı beyt həmin məsnəvidəndir:
"Şah bir etsə zülmü, onun xadimləri yüz edər,
Ölkənin hər iqtidarı, rövnəqi əldən gedər"
E) Şairin Varşavada keçirdiyi həyat, iştirak etdiyi məclislər təsvir olunmuşdur.

9. M.Ş.Vazehin şeirləri Almaniyada ayrıca kitabça kimi hansı adla nəşr edilmişdir?
A) "Şərqdə min bir gün" B) "Divani-hikmət"
C) "Mirzə Şəfinin nəğmələri" D) "Həsbi-hal"
E) "Məktubun intizarında"

10. M.Ş.Vazehin Tiflisdə təşkil etdiyi "Divani-hikmət" ədəbi məclisində fəal iştirak edən əcnəbi ziyalı kimdir?
A) Fridrix fon Dits B) Eduard Braun
C) Fridrix Bodenştedt D) baron Rozen E) General Şellinq

B varianti

1. M.Ş.Vazehin həyat və yaradıcılığı ilə bağlı ***səhv*** fikri müəyyənləşdirin.
   A) Klassik poeziya ənənələrinin davamçısıdır və şeirləri "Mirzə Şəfinin nəğmələri" adı altında Almaniyada çap edilmişdir.
   B) Müasirləri arasında şair, müəllim və xəttat kimi tanınmışdır.
   C) "Həsbi-hal" və "Məktubun intizarında" adlı əsərləri də vardır.
   D) "Divani-hikmət" ədəbi məclisini təşkil etmişdir.
   E) Məktəbdə müəllimlik etmiş və öz yerini tələbəsi M.F.Axundzadəyə vermişdir.

2. Aşağıdakı fikirlərdən biri M.Ş.Vazehə aiddir:
   A) N.Gəncəvinin "Sirlər xəzinəsi" əsərinin təsiri ilə poema yazmışdır.
   B) Həm əruz, həm də heca vəznində əsərləri vardır.
   C) 1850-ci ildə Berlində çap edilən "Şərqdə min bir gün" adlı kitaba onun xeyli şeirləri daxil edilmişdir.
   D) Bir hekayəsi fransız dilində nəşr olunmuşdur.
   E) Satirik şeirin inkişafında xüsusi rolu vardır.

3. Azərbaycan maarifçiliyinin erkən dövründə bədii yaradıcılığa başlayan sənətkar kimdir?
   A) X.Natəvan B) N.Vəzirov C) C.Məmmədquluzadə
   D) İ.Qutqaşınlı E) M.P.Vaqif

4. Aşağıdakı əsərlərdən biri 1835-ci ildə Varşavada fransız dilində nəşr olunmuşdur:
   A) "Miratül-cəmal" (A.Bakıxanov)
   B) "Rəşid bəy və Səadət xanım" (İ.Qutqaşınlı)
   C) "Müsyö Jordan və dərviş Məstəli şah" (M.F.Axundzadə)
   D) "Mirzə Şəfinin nəğmələri"
   E) "Mişkatül-ənvar" (A.Bakıxanov)

5. Aşağıdakı sıraların birində X.Natəvanın insanlar arasında nifaq salan xain və yaramaz adamların əməllərini pisləyən şeirləri verilmişdir:
   A) "Gülün", "Bülbül" B) "Ey dust", "Bənövşə"
   C) "Xudahafiz", "Qərənfil" D) "Ey dust", "Xudahafiz"
   E) "Bülbül", "Bənövşə"

6. Aşağıdakı şeirlərdən biri X.Natəvana aiddir:
   A) "Dağlar" B) "Yaylaq"
   C) "Qərənfil" D) "Durnalar" E) "Könlümü"

7. Həm komediya, həm də faciə janrlarında yazan sənətkarı müəyyənləşdirin.
   A) C.Məmmədquluzadə
   B) H.Cavid
   C) M.F.Axundzadə
   D) C.Cabbarlı
   E) N.Vəzirov

8. N.Vəzirovun 1890 və 1891-ci illərdə yazılmış əsərləri hansılardır?
   1. "Daldan atılan daş topuğa dəyər"
   2. "Yağışdan çıxdıq, yağmura düşdük"
   3. "Adı var, özü yox"
   4. "Müsibəti-Fəxrəddin"
   5. "Pəhləvanani-zəmanə"
   A) 1, 2 B) 2, 3 C) 3, 4 D) 4, 5 E) 1, 3

9. N.Vəzirovun 1895 və 1896-cı illərdə yazılmış əsərləri hansılardır?
   1. "Daldan atılan daş topuğa dəyər"
   2. "Yağışdan çıxdıq, yağmura düşdük"
   3. "Adı var, özü yox"
   4. "Müsibəti-Fəxrəddin"
   5. "Pəhləvanani-zəmanə"
   A) 1, 2 B) 2, 3 C) 2, 4 D) 3, 4 E) 1, 3

10. Rüstəm bəy və Fəxrəddin bəy surətləri hansı əsərə aiddir?
    A) "Anamın kitabı" (C.Məmmədquluzadə)
    B) "Dəli Kür" (İ.Şıxlı)
    C) "Müsibəti-Fəxrəddin" (N.Vəzirov)
    D) "Rəşid bəy və Səadət xanəm" (İ.Qutqaşınlı)
    E) "Kitabi-Əsgəriyyə" (A.Bakıxanov)

Qasim bəy Zakir

(1784 – 1857)

Həm klassik, həm də aşıq şeir üslublarında şeirlər yazmış, Azərbaycan ədəbiyyatında satirik üslubun banisi olmuşdur. XIX əsr tənqidi realizminin əsas nümayəndələrindən biridir. Epik şeirin (təmsil və mənzum hekayənin) də bir sıra parlaq örnəklərini yaratmışdır.

Həyatı

Q.Zakir Şuşa şəhərində doğulmuşdur, Pənah xan, İbrahim xan, Natəvan kimi şəxsiyyətlərin çıxdığı Cavanşirlər nəslindəndir. İlk təhsilini mollaxanada almış, ərəb və fars dillərini öyrənmişdir. Şərqin Firdovsi, Nizami, Sədi, Hafiz kimi sənətkarlarının əsərlərini oxuyub-öyrənmişdir.

Qacarın 1795-ci ildə Şuşanı mühasirədə saxlaması, 1797-ci ildə Qacarın özünün Şuşada qətli, şair M.P.Vaqifin oğlu ilə birlikdə Cıdır düzündə öldürülməsi, XIX əsrin əvvəllərində isə İbrahim xanın, onun ailəsinin Qarabağda vəhşicəsinə güllələnməsi kimi əhvalatları Q.Zakir ya öz gözləri ilə görmüş, ya da onlar haqqında eşitmişdir. Bu hadisələr onun dünyagörüşünün formalaşmasına ciddi təsir göstərmişdir.

Q.Zakir 1806-1813, 1826–1828-ci illərin Rusiya – İran müharibələrində iştirak etmiş, Abbas Mirzənin başçılıq etdiyi İran qoşununa qarşı vuruşan qüvvələrin tərkibində olmuş və döyüşlərdə fərqləndiyinə görə 1828-ci ildə gümüş medalla təltif edilmişdir. O, 1830-cu illərin sonlarından ilin çox hissəsini Xurşidbanu Natəvanın atası Mehdiqulu xanın ona bağışladığı Xındırıstan kəndində keçirirdi.

Q.Zakirin dostları da, düşmənləri də çox idi. M.F.Axundzadə, İ.Qutqaşınlı, B.Şakir, X.Natəvan, gürcü knyazı İliko Orbeliani, Bakı general-qubernatoru Mixail Kolyubakin onun dostları, məktublaşdığı, əlaqə saxladığı şəxslər, Cəfərqulu xan Nəva, Şuşa qazisi Mirzə Əbülqasım, yerli çar hakimi Konstantin Tarxan-Mouravov, kapitan

Hüseyn bəy onun düşmənləri idilər. Şair öz düşmənlərini həmişə satirik tənqid hədəfinə tutmuşdur. Onlar isə Zakiri ləkələməyə, ona şər atmağa çalışırdılar. Nəhayət, belə bir fürsət tapılır. Yerli sözbazların, araqarışdıranların təhriki ilə K.Tarxan-Mouravov Zakiri hökumətdən qaçaq düşmüş qardaşı oğlu Behbud bəy Cavanşiri evində saxlamaqda günahlandırır. 1849-cu ilin oktyabrında Xındırıstan kəndinə hücum çəkərək Zakiri, ailəsini, yaxın qohumlarını, o cümlədən oğlu Nəcəfqulu bəyi və qardaşı oğlu İsgəndər bəyi həbs edib Şuşa qalasına gətirir və həbsxanaya salır.

Bir ilə qədər Şuşa həbsxanasında qaldıqdan sonra şairi mühakiməsiz Bakı şəhərinə sürgün edirlər. Oğlu və qardaşı oğlu isə əvvəlcə Voronejə, sonra isə Kaluqaya sürgün edilir. Onlar 3 il Rusiyada sürgündə qalırlar.

Q.Zakir bir neçə ay Bakıda sürgün həyatı keçirdikdən sonra dostlarının (M.F.Axundzadə, İ.Qutqaşınlı, İliko Orbeliani, Mixail Kolyubakin) köməkliyi ilə sürgündən azad olunub Şuşaya qayıdır.

Q.Zakir ömrünün sonlarında maddi ehtiyac içərisində yaşamışdır. Yalnız dostlarının səyi nəticəsində şairin gənclik illərindəki fəaliyyəti nəzərə alınaraq, 1857-ci ildən, yəni ömrünə çox az qalmış rus dövlətinə göstərdiyi xidmətlərinə görə ona ayda 36 manat təqaüd təyin edilmişdir. Lakin təqaüd kağızı Şuşaya çatanda şair artıq dünyasını dəyişmişdi.

Q.Zakir 1857-ci ildə vəfat etmiş və Şuşada Mirzə Həsən qəbiristanlığında dəfn olunmuşdur.

Yaradıcılığı

Q.Zakir ədəbiyyatımızda lirik şeirləri, satiraları və epik əsərləri - mənzum hekayə və təmsilləri ilə məşhurdur. O, əsərlərini həm klassik şeir (qəzəl, müxəmməs, müstəzad, tərkibbənd, tərcibənd), həm də aşıq şeiri (qoşma, gəraylı, təcnis) formalarında yazmışdır. Onun klassik üslubda yazdığı şeirlərdə M.Füzuli təsiri aydın hiss olunur. Q.Zakir daha çox aşıq şeiri tərzində yazdığı şeirləri ilə məşhurdur. Məhz belə şeirlərində Vaqif yolunu davam etdirməklə özünün poetik üslubunu müəyyənləşdirmişdir.

Lirik şeirləri. Zakirin lirikası həm məhəbbət, həm ictimai mövzuludur.

Onun məhəbbətə dair şeirlərində insan gözəlliyinin, təmiz insani hislərin, sevgi duyğularının tərənnümü aparıcıdır. O, sevdiyi gözəldə vəfa, etibar, yüksək əxlaqi xüsusiyyətlər görmək istəyir. Zakir sevgini insan üçün böyük insanlıq məziyyəti, kamillik nümunəsi hesab etsə də, bəzi şeirlərində məhəbbətə dair mülahizələri ziddiyyətlidir. O, bir tərəfdən, eşqi son dərəcə müsbət mənəvi keyfiyyətlərin səbəbi hesab edir, digər tərəfdən də, sələfi M.Füzuli kimi, onu canın bəlası sayır və iztirab gətirən bir qüvvə kimi mənalandırır. Bəzən Zakir eşqin "afəti-can" olduğunu əsaslandırmaq üçün böyük sələfi M.Füzulinin "Can vermə qəmi-eşqə ki, eşq afəti-candır" misrasını nümunə gətirirdi. Halbuki bu, Füzulinin öz qənaəti yox, oğlu Qeysə öyüd-nəsihət verən, onu eşq bəlasından uzaqlaşdırmaq istəyən ananın qənaəti idi. Və öz dövrünə, o dövrün təfəkkür normalarına görə bu, təbii qənaət idi. Görünür, Q.Zakir eşqin bəlasından danışanda belə bir mülahizədən də faydalanmalı olurdu. Bu, eşq aləminin özünün ziddiyyətləri ilə bağlı idi.

Şair məhəbbət sayəsində insanda mərdlik, qorxmazlıq, daxili saflıq kimi keyfiyyətlərin formalaşdığını ifadə edən qoşma, gəraylı və müxəmməs janrında olan şeirlərində «dilbər», «dilbəri-sadə» kimi təqdim olunan cazibəli gözəl qadın surətləri yaradır ki, onların, demək olar ki, hamısı real həyat adamlarıdır, Azərbaycan - Qarabağ qızlarıdır.

Q.Zakir qoşma və gəraylılarında insanın zahiri gözəlliyindən bəhs edərkən sadəliyə, təbii keyfiyyətlərə üstünlük verir, ənlik, kirşan və başqa boyalara qarşı çıxır:

Sən sadə gözəlsən, qoyma, sevdiyim,
Məşşatələr bəzək taxa üzünə.
Bərgi-gülə bənzər üzari-alın,
Nə lazımdır ənlik yaxa üzünə.

Gözəlin mənəvi keyfiyyətlərinə gəldikdə isə Zakir qeyrət və namusla yaşamağı, vəfa və sədaqəti, daxili nəciblik və zənginliyi mühüm şərt hesab edir.

«Badi-səba, söylə mənim yarıma» qoşması. Q.Zakir lirik qəhrəmanın dilindən səhər mehinə müraciətlə söylənən və «Badi-səba, söylə mənim yarıma» misrası ilə başlayan qoşmasında öz sevgilisini təbiət qoynunda, gözəllər arasında görmək istəyir:

Badi-səba, söylə mənim yarıma,
Gözəllər çıxıbdı seyranə, gəlsin.
Təğafül[1] etməsin, işrət çağıdır,
İçilir hər yerdə peymanə, gəlsin.

Şübhəsiz, bu qız seyrana çıxanda gül-çiçəyi heyran qoyacaq və bülbülü əfğana gətirəcək:

Bənövşələr başın salsın aşağa,
Nərgiz olsun gözlərinə sadağa,
Gül, cəmalın görüb düşsün torpağa,
Bülbülü gətirsin əfqanə, gəlsin.

Beləliklə, bu qızın gözəlliyindən bənövşə başını aşağı salıb utanacaq, nərgiz bu gözlərə sadağa olacaq. Gül onun camalını görüb torpağa düşəcək. Bu isə onun aşiqi bülbülü həyəcanlandıracaq. Q.Zakir ahəstə, nazlı yerişi, oğrun baxışı olan gözəli ovçu görmüş marala bənzədir.

Şeirin son bəndində Aşiqin mənəvi keyfiyyətlərindən danışılır və bu Aşiq məhəbbətin iztirab və çətinliklərindən qorxmur, hətta gündə yüz dəfə yarının başına dolanmağa hazırdır və eşq oduna yanmaqda özünü pərvanədən daha cürətli hesab edir:

Sürmə çəksin gözlərinə, qaşına,
Gündə yüz yol mən dolanım başına.
Zakir tək yanmağa eşq ataşına
Cürəti var isə, pərvanə gəlsin.

Qoşmada Aşiqin hiss və duyğuları, arzu və istəkləri, Məşuqənin isə gözəlliyi real boyalarla tərənnüm edilmişdir. Aşiq təmiz qəlbli bir gənc, Məşuqə isə sevilməyə layiq azərbaycanlı - türk qızıdır.

Bu qoşma çox zaman rədifinə görə "Gəlsin" adı ilə tanınır.

İctimai motivli şeirləri. Q.Zakirin «Dost yolunda cəfa çəkdim, can üzdüm», «Gözüm yolda qaldı, könül intizar», «Dost yolu bağlandı, ümid kəsildi», «Qələtdir qocaya növcavan sevmək» misraları ilə başlayan qoşmalarında, bəzi qəzəl və müxəmməslərində şikayət, etiraz və mənəvi-əxlaqi naqisliklərin tənqidi güclüdür.

[1] təğafül – özünü bilməməzliyə qoymaq, yaddan çıxartmaq; qəflət

«Eylər» müxəmməsi. İdeya-məzmun və bədiilik baxımından Q.Zakir ictimai lirikasının ən gözəl nümunələrindəndir. Müxəmməsdə zəmanədən şikayət və eybəcərliklərə qarşı etiraz motivləri əks olunmuşdur. Məzmun baxımından M.P.Vaqifin «Görmədim» müxəmməsi ilə səsləşir.

Şeirin qəhrəmanı mövcud həyatın və ictimai mühitin ziddiyyətlərini yaşayan kədərli bir insandır. Bu həyat naqisləri qaldırır, namuslu adamları isə alçaldır. İnsanlar şeytana uyublar və hər yerdə şərin xeyir, eybəcərliyin gözəllik üzərində qələbəsi hökmfərmadır:

Açıb ibrət gözü ilə bir nəzər qılsam bu dövranə,
Hücumi-məsiyət[1] rəxnə salıbdır mülki-imanə.
Olub şeytanə tabe, baxmaz insan hurü qılmanə[2],
Pərilər taət eylər sidq ilə quli-biyabanə[3],
Görən fərzanəvü aqil[4] necə səbrü qərar eylər?!

Şairi narahat edən bir də budur ki, cəmiyyətdə yaxşı ilə pis fərqlənmir, insanlar şər qüvvələrin, Əhrimən qoşununun ayaqları altında qalıb məhv olur, şahbazları, şahinləri isə qarğa və dolaşalar ovlayırlar.

«Eylər» rədifli müxəmməs əruz vəzninin həzəc bəhrində – dörd məfAİlün ölçüsündə yazılmışdır. Şeirdə çoxlu ərəb və fars sözləri vardır ki, bu da müxəmməsin dilini xeyli çətinləşdirmişdir.

«Durnalar» qoşması. Q.Zakirdən xeyli qabaq xalq dastanlarında, aşıq şerində, M.P.Vaqif və M.V.Vidadi yaradıcılığında durnalara müraciətlə şeirlər yazılmışdır. Bunların hamısında vətən məhəbbəti, qürbət sıxıntısı, ayrılıq hisləri əsas yer tutmuşdur. Q.Zakirin qoşmasının da əsas məzmununu qürbət sıxıntısı, vətən həsrəti təşkil edir. Çünki şair bu şerini Bakıda sürgündə, doğma Qarabağından uzaqda olarkən yazmışdır.

Qoşma 5 bənddən ibarətdir və XIX əsrin əvvəllərinə aid Azərbaycan lirikasının gözəl nümunələrindəndir.

---

[1] hücumi-məsiyət – günahların hücumu
[2] hurü qılman – cənnət mələkləri; gözəl qızlar
[3] quli-biyaban – qulyabanı, burada; çirkin adam
[4] fərzanəvü aqil – bilici və ağıllı adam

Qoşmada Aşiqin qürbət sıxıntısı ilə yanaşı, canan həsrəti də verilmişdir. Qəriblikdə xəstə hala düşmüş lirik qəhrəman durnaların simasında özünə həmdərd tapır:

Diyari-qürbətdə müddətdi varam,
Gecə-gündüz canan deyib ağlaram.
Mən də sizin kimi qəribü zaram,
Eyləməyin məndən haşa, durnalar!

Şair getdikcə ondan uzaqlaşan və vətənə doğru uçan durnalara baxan lirik qəhrəmanın daxili təlatümlərini belə ümumiləşdirir:

Zakirəm, od tutub alışıb cigər,
Var isə canandan sizdə bir xəbər,
Təğafül etməyin, Allahı sevər,
Dönməsin bağrınız daşa, durnalar!

«Durnalar» qoşmasında fikir aydın və yığcamdır, misralar axıcı və poetikdir, bütün misralardakı sözlər və fikirlər bir-birinə möhkəm tellərlə bağlanır.

Satiraları. Azərbaycan ədəbiyyatında yeni satirik üslubun, öldürücü bədii-estetik gülüşün formalaşması Q.Zakirin adı ilə bağlı olduğu üçün o həm də görkəmli satirik şair kimi məşhurdur. Birbaşa ifşa, kəskin tənqid və kinayəli gülüş Zakir satirasının başlıca xüsusiyyətləridir.

Zakirin satira yaradıcılığına keçməsinin iki əsas səbəbi vardır:

1) cəmiyyətdəki eybəcərliklər; 2) şəxsi həyatı ilə bağlı narazılıqlar.

Neçələr silsileyi-təbimə təhrik verir.
Rişteyi-nəzmə[1] çəkəm yenə düri-qəltanı[2].
Budu xahişləri kim, baxmayıb ağu bozuna,
Eyləyim həcv təmam bəyü gədavü xanı.

Zakir satirasının əsas tənqid hədəfi çarizmin müstəmləkəçilik siyasətinə xidmət edən qanun-qaydalar, vəzifə sahiblərinin ədalətsizliyi, rüşvətxorluğu, əxlaqi naqisliyi, eləcə də idarə və məhkəmələrdəki süründürmələrdir. Şair dövlət xadimlərinin rüşvətxorluğunu açıb göstərirdi:

[1] riştə – sap, ip
[2] düri-qəltan – dəyirmi, yumru, inci, mirvari

Yüz təşnələbi-qəhr olasan, xadimi-dövlət
Verməz bir içim su sana, ta almaya dərya.
Simu zər ilə doldurasan ta gərək ovçun,
Ondan sora zahir qıla şayət yədi-beyza[1].
Hər kimsə ki düşdü tora, müşküldü xilası,
Çəkməzlər əl ondan şirəsin sormayalar ta.

Hakimlər yaramaz işlərlə məşğul olur, öz nəfslərini güdürlər. Vilayətdə oğurluq, talançılıq baş alıb gedir, xalqın, namuslu, ədalətli adamların haqlı şikayətlərinə məhəl qoyulmur. Ruhanilər isə dini fanatizmi təbliğ edir, xalqın avamlıq və nadanlığına əsaslanaraq onu itaətdə, mənəvi əsarətdə saxlayırlar. Şair «Qarabağ qazisi», «Şuşa mollaları haqqında», «Üsuli və şeyxi təriqət mollalarının həcvi» kimi şeirlərində ruhaniləri tənqid edir və geniş xalq kütlələrinin gözünü açmağa çalışırdı.

«Bax» rədifli məktubu. Q.Zakir M.F.Axundzadəyə yazdığı «Bax» rədifli məktubunda bir çox əxlaqi naqisliklәri, o sıradan vaizlərin ikiüzlülüyünü ifşa edir:

Vaiz bizə söylər şəri-Mustafa,
Hərama mürtəkib olmayın əsla!
Özü lum-lum udur batində, amma
Zahirdə dediyi mənaya bir bax!

Həmin şeirdə şair «yaxşısı yamanından, doğrusu yalanından seçilməyən» cəmiyyətin mənəvi-əxlaqi eybəcərliklərini kəskin tənqid edir. Vilayətdə şərin hakim olmasından və ixtiyar sahiblərinin ədalətsizliyindən gileylənir:

Həddən aşıb bu vilada şərarət,
Hər kim hər iş görsə, puluna minnət.
Mu qədəri yoxdur ədlü ədalət,
Və lakin şöhrəti-bicaya bir bax!

XIX əsrin 40-cı illərində qəbul edilən «Kəndli əsasnamələri»nə əsasən, kəndlilər müəyyən sərbəstlik əldə edir və bəzi vergilərdən azad olunurdular; kəndlilərə bir sahibkarın yanından başqasının yanına köçmək hüququ verilirdi. Lakin bəylərin zülmü daha da çoxalır, qanunlara əhəmiyyət verilmir. Bunu görən humanist şair kinayə ilə yazırdı:

[1] yədi-beyza – ağ əl (Musanın möcüzə göstərdiyi ağ əl), bacarıqlı əl

Palayeniya nəqli ta olub möhkəm,
Gərək bəy azalda zülmün dəmadəm.
Dəxi də artırır bu əhli-sitəm,
Yanında çalınan zurnayə bir bax.

Bu satirada Q.Zakir qanunların yalnız bir söz olaraq qaldığına, konkret bir işə çevrilmədiyinə "Yanında çalınan zurnaya bir bax" misrası ilə işarə etmişdir.

«Vilayətin məğşuşluğu haqqında». Q.Zakirin satirik əsərlərinin ən yaxşı nümunələrindəndir. Bu şeir də M.F.Axundzadəyə məktub şəklində yazılmışdır. İlk misrası belədir: «Xəbər alsan bu vilanın əhvalın» və şeir bəzən bu misra ilə də adlandırılır. Müəllif Qarabağda gördüyü «keyfiyyətləri» nəzmə çəkmiş, ölkədəki qarışıqlığı satira atəşinə tutmuşdur.

Şeir məktub – epistolyar üslubda başlasa da, ilk bənddən sonra açıq ifşa – birbaşa tənqid üsulu bütün aydınlığı ilə görünür. O, ölkəni bürüyən quldurluq və yolkəsənlik haqqında yazır:

Qüttəüttəriqin[1] vüfuru[2] vardır,
Yaylaqda, aranda qatar-qatardır.
Yenə ötür-ötür, apar-apardır,
Bizim başımızda çatdadı çanaq.

Şeirdə oğurluq halları da tənqid olunur. Şairi daha çox təəssüfləndirən odur ki, ölkədə hamı oğruların tərəfini saxlayır:

Zərgər, Drağarda aləmi-aşkar,
Bir ucdan oğurlar, bir ucdan satar.
Vay odur sahibi at başı tutar,
Yüz yerdən tökülər üstünə çomaq.

Şair cəmiyyətdəki ictimai yaramazlıqların səbəbini dövlət məmurlarının çirkin əməllərində və rüşvətxorluğunda görür. Zakir hökumət murovlarını oğrularla, əyri adamlarla həmfikir sayır. Eyni zamanda, bunları açıb-ağardan Zakir məktubun sonunda dostundan – M.F.Axundzadədən sirri möhkəm saxlamağı da xahiş edir:

---

[1] qüttəüttəriq – yolkəsən
[2] vüfur – bolluq, çoxluq

Gərçi vilayətdə çox idi əhval,
Müyəssər olmadı şərh edim əlhal[1];
Bir parasın yazıb elədim irsal[2],
Bu şərt ilə nə diş bilsin, nə dodaq.

Bəyləri, xanları, fırıldaqçı, dələduz ruhaniləri tənqid edən Q.Zakir həmişə haqqın, ədalətin tərəfində, humanist mövqedə dayanır.

Sənətkarlığı. Q.Zakir həm klassik şeir, həm də aşıq şeiri üslubunda şeirlər yaratmışdır. O, qəzəl, müxəmməs, müstəzad, tərkibbənd, tərcibənd janrında olan şeirlərini klassik ənənələrə uyğun olaraq əruz vəznində qələmə almışdır. Qoşma, gəraylı, təcnis, bayatı janrlarında olan şeirlərini isə xalq şeiri üslubunda, heca vəznində yazmışdır.

Şairin əruz vəzni ilə müqayisədə heca vəznində yazdığı şeirlərinin dili çox sadədir. O, bu nümunələrdə xalq danışıq dilindən, atalar sözləri və məsəllərdən məharətlə faydalanmışdır. Qoşma, gəraylı və təcnislərində xəlqilik ruhunda olan aşağıdakı obrazlı ifadələrə tez-tez rast gəlmək olur: «intizar çəkməkdən çıxdı canımız», «alıcı quş kimi toxudu», «dərd-qəm çəkməkdən qan olub cigər», «ömür keçdi yarıdan», «qul xətasız olmaz», «dəli yola gedər el arasında».

Zakirin qəzəl, müxəmməs, müəşşər, müstəzad janrlarında yazdığı şeirlərinin dili mürəkkəbdir. Onlarda alınma sözlərdən, ərəb-fars tərkiblərindən geniş istifadə edilmişdir. Lakin bu şeirlərdə də məzmun və forma vəhdəti, bədii dilin səlisliyi, sözlərin dəqiq seçilməsi, qafiyələrin ahəngdarlığı yerli-yerindədir. Şairin öz şeirlərində «zakon», «znakom», «polojeniya», «kvartal», «podrat», «poşol», «ustupay», «sadis» kimi rus sözlərini işlətməsi də təsadüfi olmamışdır. Bu xüsusiyyət Q.Zakirin satirik şeirləri üçün daha səciyyəvidir. Görünür, belə sözlər Zakirə çar idarələrində işləyən rüşvətxor, süründürməçi məmurların real, canlı obrazını yaratmaq üçün lazım olmuşdur.

Beləliklə, Q.Zakir Azərbaycan ədəbiyyatı tarixində incə ruhlu lirik və qüdrətli satirik şair kimi məşhurdur.

---

[1] əlhal – indicə, bu saat
[2] irsal – göndərmə, yollama

A variantı

1. Aşağıdakılardan biri Q.Zakirin həyatına aid ***deyil:***
   A) 1784-cü ildə Şuşa şəhərində doğulmuşdur.
   B) Rusiya-İran müharibələrində iştirak etmişdir.
   C) 1830-cu illərin sonlarından vaxtının çoxunu ona bağışlanmış Xındırıstan kəndində keçirmişdir.
   D) Bakı şəhərində sürgün həyatı yaşamışdır.
   E) Hökumət qarşısındakı xidmətlərinə görə "Za userdie" medalı ilə təltif olunmuşdur.

2. Q.Zakir aşağıdakı faktlardan birinin şahidi ***olmamışdır:***
   A) Qacarın Qarabağa hücum edib Şuşanı mühasirədə saxlaması
   B) Qacarın Şuşada qətli
   C) Vaqifin öz oğlu ilə birlikdə Cıdır düzündə öldürülməsi
   D) İbrahim xanın Qarabağda vəhşicəsinə güllələnməsi
   E) M.F.Axundzadənin hökumət əleyhinə fəaliyyətdə günahlandırılaraq işdən çıxarılması

3. Q.Zakirə bağışlanmış Xındırıstan kəndinin qarət olunmasına kim başçılıq etmişdir?
   A) Mixail Kolyubakin
   B) Tarxan-Mouravov
   C) Kapitan Hüseyn bəy
   D) Cəfərqulu xan Nəva
   E) Mirzə Əbülqasım

4. Q.Zakirin gümüş medalla təltif olunmasının səbəbi:
   A) ərəb, fars dillərini yaxşı bilməsi
   B) Cavanşirlər nəslindən olması
   C) Rusiya – İran müharibəsindəki döyüşlərdə fərqlənməsi
   D) Rusiya qarşısında təmənnasız xidmətləri
   E) Bakı general-qubernatoru Mixail Kolyubakinlə dostluq əlaqəsi

5. Aşağıdakılardan biri Q.Zakirin dostluq əlaqəsi saxladığı şəxsiyyətlər sırasında verilə ***bilməz:***
   A) M.F.Axundzadə
   B) İliko Orbeliani
   C) Mixail Kolyubakin
   D) Konstantin - Tarxan Mouravov
   E) Baba bəy Zakir

6. Q.Zakir epik növün hansı janrlarında əsərlər yazmışdır? Tam cavabı göstərin.
   A) hekayə və povest
   B) hekayə və poema
   C) mənzum hekayə
   D) təmsil
   E) mənzum hekayə və təmsil

7. Q.Zakirin məhəbbətlə bağlı mülahizələrindəki ziddiyyət özünü ən çox nədə göstərirdi?
   1. Saf mənəvi aləmin tərənnümündənsə, şair daha çox gözəlin zahiri görkəmini qabardırdı.
   2. Zakir, bir tərəfdən, eşqi canın bəlası, ona iztirab gətirən bir qüvvə kimi qiymətləndirir, o biri tərəfdən də, onu insan həyatının, insanlığın zəruri şərtlərindən sayırdı.
   3. Zakir əxlaqi mükəmməlliyi, bir tərəfdən, gözəlin işvə-nazında, şuxluğunda, o biri tərəfdən də, onun başıaşağı olmasında axtarırdı.
   4. Zakir eşqin əzablarından yox, daha çox vüsaldan danışır, bəzən o, tez ələ gələn, "mərhəmət" göstərən gözəldən daha rəğbətlə bəhs edirdi.
   5. Bəzən o, Füzulinin "Can vermə qəmi-eşqə ki, eşq afəti-candır" misrasını böyük şairin öz fikri, öz qənaəti kimi alırdı, halbuki bu, "Leyli və Məcnun"da anasının Qeysə nəsihətindəndir, yəni Füzulinin yox, ananın qənaətidir.
   6. Konkret bir gözəldən yox, daha çox mücərrəd gözəllərdən danışırdı.

   A) 1, 4, 6 B) 2, 4, 5 C) 2, 4, 6
   D) 1, 3, 5, 6 E) 3, 4, 5, 6

8. Q.Zakirin bu şeirlərindən biri öz məzmunu cəhətdən o biri şeirlərlə eyni qrupa aid edilə ***bilməz:***
   A) "Dost yolu bağlandı, ümid kəsildi"
   B) "Dost yolunda cəfa çəkdim, can üzdüm"
   C) "Badi-səba, söylə mənim yarıma"
   D) "Gözüm yolda qaldı, könül intizar"
   E) "Eylər"

9. Q.Zakirin "Badi-səba, söylə mənim yarıma" misrası ilə başlayan şeiri haqqında doğru fikir hansıdır?
   A) Gəraylı janrındadır.
   B) Gözələ müraciətlə başlayır.
   C) Rədifsizdir.
   D) Son bənddə əsas diqqət Aşiqin mənəvi keyfiyyətlərinin təqdiminə yönəlmişdir.
   E) Gözəlin zahiri görkəmi haqqında heç bir məlumat verilmir.

10. Aşağıda cəmiyyətin eybəcərlikləri ilə bağlı Q.Zakirin "Eylər" müxəmməsində göstərilən faktlar verilmişdir. Biri ***yanlışdır:***
    A) İnsanlar mənən pozulmuşlar.
    B) Adamlar yalan danışır, bir-birlərinə böhtan atırlar.
    C) Yaxşı və pis fərqləndirilmir.
    D) Nadanlar əllərinə pul toplayıb, həmin pulun köməyi ilə ixtiyar sahibi olurlar.
    E) Ruhanilər dini fanatizmi təbliğ etməklə camaatı aldadır, itaətkarlıq əhvali-ruhiyyəsi təbliğ edirlər.

B variantı

1. Q.Zakirin "Durnalar" şeiri ilə bağlı doğru fikir hansıdır?
   A) Gəraylı janrındadır.
   B) Şeirdə rədif yoxdur.
   C) Əruz vəznindədir.
   D) Qürbət sıxıntısı xüsusi bədii vurğu ilə qeyd olunmuşdur.
   E) Ədəbiyyatımızda durnalara müraciətlə yazılmış ilk nümunədir.

2. Q.Zakir yaradıcılığına aid olanları seçin.
   1. Azərbaycan ədəbiyyatında satirik üslubun əsasını qoymuşdur.
   2. İlk süjetli satirik şerləri yazmışdır.
   3. Öldürücü bədii estetik gülüşün formalaşması onun adı ilə bağlıdır.
   4. İlk dəfə satirik tipi öz dili ilə danışdırmışdır.
   5. Xeyli lirik məzmunlu qoşmaları vardır.
   A)1, 2 B) 1, 3, 5 C) 2, 3, 4 D) 3, 4 E) 2, 4, 5

3. Q.Zakir "Kəndli əsasnamələri"ndə göstərilənlərin real həyatda yerinə ***yetirilməməsini*** hansı şeirində tənqid edir?
   A) "Qarabağ qazisi" B) "Vilayətin məğşuşluğu haqqında"
   C) "Bax"rədifli məktub D) "Eylər" müxəmməsi
   E) "Durnalar" qoşması

4. Q.Zakir Qarabağdakı vəziyyətə istinad edərək ölkədəki qarışıqlığın daha ciddi tənqidi-satirik təsvirini hansı şeirində vermişdir?
   A) "Qarabağ qazisi"
   B) "Şuşa mollaları haqqında"
   C) "Vilayətin məğşuşluğu haqqında"
   D) "Eylər"
   E) "Qələtdir qocaya növcavan sevmək"

5. Q.Zakir aşağıdakı şeir janrlarının birində əsər ***yazmamışdır:***
   A) qoşma B) təcnis C) dodaqdəyməz D) gəraylı E) bayatı

6. Q.Zakir aşağıdakı klassik şeir janrlarının birində əsər ***yazmamışdır:***
   A) qəzəl B) müxəmməs C) qitə D) tərkibbənd E) müstəzad

7. Q.Zakirin "Vilayətin məğşuşluğu haqqında" şeiri ilə bağlı ***səhv*** fikir hansıdır?
   A) Şeir "Xəbər alsan bu vilanın əhvalın" da adlanır.
   B) M.F.Axundzadəyə məktub şəklində yazılmışdır.
   C) Bu şeirdə Zakir düşdüyü vəziyyətə görə Qafqaz canişinindən kömək gözləyir.
   D) Açıq ifşa və birbaşa tənqid üsulundan istifadə edilmişdir.
   E) Qoşma tərzində yazılmışdır.

8. Q.Zakirin "Vilayətin məğşuşluğu haqqında" şeiri ilə bağlı ***səhv*** fikir hansıdır?
   A) Şeirdə ölkənin hər tərəfini bürümüş yolkəsənlik və qoluzorluluq haqqında məlumat verilir.
   B) Ölkədə baş alıb gedən qarışıqlığın tənqidi-satirik şərhi verilmişdir.
   C) Qarabağ kəndlərində geniş yayılmış oğurluq halları tənqid olunur.
   D) Dövlət məmurlarının çirkin əməlləri və rüşvətxorluğu ifşa edilir.
   E) Zakir M.F.Axundzadədən xahiş edir ki, onun bu məktubda yazdıqlarını canişinə çatdırsın.

9. Q.Zakirin "Bax" rədifli şeiri ilə bağlı ***səhv*** fikir hansıdır?
   A) Epistolyar üslubda yazılmışdır.
   B) Ən məşhur satiralarından biridir.
   C) Məktub şəklindədir.
   D) Qəzəl şəklində yazılmışdır.
   E) İctimai motivli şeirlər sırasına daxildir.

10. Q.Zakirin "Bax" rədifli şeiri ilə bağlı ***səhv*** fikir hansıdır?
   A) Vaizlərin ikiüzlülüyü və yalançılığı ifşa edilir.
   B) Cəmiyyətin sosial bəlaları, mənəvi-əxlaqi naqisliklərı daha kəskin tənqid olunur.
   C) İxtiyar sahiblərinin ədalətsizliyi, var-dövlət yığmaq ehtirasları satirik hədəfə çevrilir.
   D) Real həyatda " Kəndli əsasnamələri"nə əhəmiyyət verilməməsini kinayə ilə qarşılayır.
   E) Zakir bu şeirdə belə güman edir ki, kiçik məmurların əcaib hərəkətləri yuxarılara çatdırılsa, daha belə əməllər baş verməz.

Mirzə Fətəli Axundzadə

(1812 – 1878)

M.F.Axundzadə Azərbaycan ədəbiyyatında yeni bir eranın başlanğıcını qoymuşdur. O, ictimai maarifçilik hərəkatının ideoloqu, ədəbi tənqidimizin banisi, əlifba islahatçısıdır. O, Azərbaycan dramaturgiyasının, yeni tipli bədii nəsrin banisidir. Azərbaycan teatrının əsası 1873-cü ildə onun "Sərgüzəşti-vəziri-xani-Lənkəran" komediyası ilə qoyulmuşdur. Bu mənada, XIX əsrin bəzən "M.F.Axundzadə əsri" adlandırılması da təsadüfi sayılmamalıdır.

Həyatı

M.F.Axundzadə 1812-ci il iyun ayının 30-da Şəkidə anadan olmuşdur. Onun kətxuda olan və bir müddət isə çərçilik edən atası Mirzə Məhəmmədtağı Təbriz vilayətinin Xamnə qəsəbəsindən idi. Sonralar Şəkiyə gəlib Axund Ələsgərin qardaşı qızı Nanə xanımla evlənmişdir. Ailə 1814-cü ilə qədər Şəkidə yaşayır. Həmin il əsli Xoydan olan Şəki hakimi Cəfərqulu xan vəfat etdiyindən, cənubi azərbaycanlıların əksəriyyəti kimi, Məhəmmədtağının da ailəsi Xamnəyə qayıdır.

Xamnədə Nanə xanımın vəziyyəti çox ağır keçir. Ərinin birinci arvadı ilə tez-tez didişmələr olur. 4 ildən sonra oğlu Fətəli ilə birgə Qaracadağ mahalında yaşayan əmisi Axund Ələsgərin yanına gəlir və Fətəli 7 yaşından 13 yaşına qədər burada yaşayır. Elə bu vaxtdan da Mirzə Fətəli Axund Ələsgəri özünün ikinci atası hesab edir. 1825-ci ildə isə Axund Ələsgər Gəncəyə köçür və 1 il sonra başlanan Rusiya – İran müharibəsi nəticəsində Gəncə talan edildiyindən o, Şəkiyə qayıtmalı olur.

Fətəli təhsilə başlayarkən bir il Xamnədə, mollaxanada oxumuşdur. Sonra isə Axund Ələsgər özü Fətəliyə həm Quran oxutmuş, həm də fars və ərəb dillərini öyrətmişdir. Şəkiyə gələndən sonra dini təfsirləri[1],

[1] Şərh, izah

risalələri[1] mənimsəmiş, ərəbcə danışıq vərdişlərinə yiyələnmiş və artıq yazmağı, oxumağı bacardığı üçün ona Mirzə Fətəli deməyə başlamışlar.

1832-ci ildə Axund Ələsgər Məkkəyə ziyarətə getdiyi vaxt Fətəlini Gəncəyə gətirib, molla Hüseyn Pişnamazzadədən xahiş edir ki, ona dini elmlərdən dərs versin. Mirzə Fətəli burada şair və xəttat Mirzə Şəfi Vazehlə tanış olur, ondan nəstəliq yazısını öyrənir və bu tanışlıq onun dünyagörüşünə müsbət təsir göstərir. Bu barədə o, öz tərcümeyi-halında yazır: «Bir gün bu möhtərəm şəxs məndən soruşdu:

– Mirzə Fətəli, elmləri təhsil etməkdə məqsədin nədir?

Cavab verdim ki, ruhani olmaq istəyirəm.

Dedi:

– Sən də riyakarmı olmaq istəyirsən?

Təəccüb elədim və heyrət etdim ki, bu nə sözdür!

Mirzə Şəfi mənim halıma baxaraq dedi:

– Mirzə Fətəli, öz həyatını bu qaragüruhun içərisində puç etmə! Başqa bir məşğuliyyət qəbul et!»

Ruhanilikdən əl çəkən Mirzə Fətəli 1833-cü ildə Şəkidəki ibtidai rus məktəbinə daxil olur və rus dilini öyrənməyə başlayır. 1834-cü ildə Axund Hacı Ələsgər Mirzə Fətəlini Tiflisə gətirib Qafqazın baş hakimi baron Rozenin dəftərxanasında Şərq dilləri üzrə mütərcim şagirdi düzəldir. O, işin xüsusiyyətlərini öyrəndikdən sonra elə həmin il mütərcim vəzifəsinə keçirilir və ömrünün sonuna qədər də bu vəzifədə çalışır. M.F.Axundzadə Rusiya-İran, Rusiya-Türkiyə dövlətləri arasında aparılan bəzi diplomatik danışıqlarda iştirak edir.

Tiflis mühiti onun ictimai baxışlarının və bədii yaradıcılığının formalaşmasına müsbət təsir göstərmişdir. O burada rus dilini, Qərbi Avropa ədəbiyyatını və estetik-fəlsəfi fikrini öyrənir, geniş ictimai fəaliyyətə başlayır.

M.F.Axundzadə 1836-cı ildən 1840-cı ilin yazına qədər Tiflis qəza məktəbində türk dili üzrə müəllim işləmiş, sonra isə öz yerini müəllimi Mirzə Şəfi Vazehə vermişdir.

---

[1] 1. Məktub, namə, kağız. 2. Hər hansı məsələyə dair kiçik kitab, jurnal, məcmuə

1848-ci ilin noyabr ayında o, Nəsrəddin şahın taxta çıxması münasibətilə general Şellinqlə birlikdə I Nikolayın şəxsi məktubunu ona aparmışdır. Həmin vaxt M. F. Axundzadə Təbriz və Tehran şəhərlərini gəzmiş, Xamnədə yaşayan qohumları ilə görüşmüşdür.

M.F.Axundzadə dramaturji yaradıcılığa 1850-ci ildən başlamışdır. O, 1850–1855-ci illərdə 6 orijinal pyesi ilə Azərbaycanda, ümumiyyətlə, Yaxın Şərq ədəbiyyatında dramaturgiyanın əsasını qoymuşdur. 1857-ci ildə «Aldanmış kəvakib», yaxud «Hekayəti-Yusif şah» əsəri ilə yeni tipli realist bədii nəsrin əsasını qoymuşdur.

«Aldanmış kəvakib» əsəri Azərbaycan ədəbiyyatı tarixində povest janrında yazılmış ilk əsərdir.

M.F.Axundzadə Tiflisdə çıxan «Kavkaz» qəzeti ilə fəal əməkdaşlıq etmiş, komediyalarını, «Zakirə məktub» şerini, «Aldanmış kəvakib» povestini və bir sıra digər tərcümələrini orada nəşr etdirmişdir.

O, 1857-ci ildə ərəb qrafikası əsasında yeni əlifba layihəsi tərtib etmişdir. 1863-cü ildə İstanbula getmiş və bu layihəni Türkiyənin baş naziri Fuad paşaya təqdim etmişdir. Müsəlman ölkələri üçün nəzərdə tutulmuş bu layihə «Cəmiyyəti-Elmiyyeyi-Osmaniyyə»də müzakirə edilmiş, lakin qəbul olunmamışdır. Sonradan M.F.Axundzadə latın qrafikası əsasında yeni əlifba layihəsi hazırlamışdır. Bu mənada, o, indiki latın qrafikalı Azərbaycan əlifbasının ilk təşəbbüskarı, banisi sayılır.

M.F.Axundzadə 1865-ci ildə «Kəmalüddövlə məktubları» adlı bədii-fəlsəfi əsərini yazmış, onu 1866-cı ildə dostu Mirzə Yusif xanla fars dilinə, 1874-cü ildə isə Adolf Berje ilə rus dilinə çevirmiş, lakin ciddi ictimai-siyasi məzmunu, böyük təsiredici gücü olan bu əsəri sağlığında çap etdirə bilməmişdir.

O, 1842-ci ildə Axund Hacı Ələsgərin qızı Tubu xanımla evlənmişdir. Onların 13 övladı olmuş, bu uşaqlardan 11-i çox tez vəfat etmiş, bir oğul, bir qız olmaqla yalnız 2-si müəyyən ömür sürə bilmişdir.

40 ildən artıq Qafqaz canişinliyində tərcüməçi işləməklə Rusiya dövlətinə xidmət edən M.F.Axundzadə ömrünün axırlarında əsassız yerə hökumət əleyhinə fəaliyyətdə günahlandırılmış, bir müddət qulluqdan uzaqlaşdırılmış, 1877-ci ildə ağır ürək-astma xəstəliyinə tutulmuş və 1878-ci il fevral ayının 28-də vəfat etmişdir. Vəsiyyətinə görə Tiflisdə müsəlman qəbiristanlığında öz müəlliminin – Mirzə Şəfi Vazehin yanında dəfn olunmuşdur.

Yaradıcılığı

M.F.Axundzadə bədii yaradıcılığa şeirlə başlasa da, ədəbiyyat tarixində daha çox dramaturq kimi tanınır. Azərbaycan ədəbiyyatında yeni bir ədəbi növün – dramatik növün əsasını qoymuş, komediya və dram janrlarının ilk nümunələrini yaratmışdır. Bundan başqa, M.F.Axundzadə yeni tipli bədii nəsrin, Azərbaycan ədəbi tənqidinin banisi, Azərbaycan ədəbiyyatında povest janrında ilk əsərin ("Aldanmış kəvakib", 1857) müəllifi, görkəmli filosof, əlifba islahatçısıdır. Azərbaycan teatrının əsası onun əsərləri ilə ("Sərgüzəşti-vəziri-xani-Lənkəran" və "Hacı Qara", 1873) qoyulmuşdur.

M.F.Axundzadə şair kimi də tanınır. O, bir şair kimi daha çox fars dilində yazdığı "Matəm qəsidəsi" ("Puşkinin ölümünə Şərq poeması", 1837) ilə tanınır. Bu əsər əslən qəsidə janrında yazılsa da, sonralar daha çox poema kimi tanınmışdır. "Matəm qəsidəsi" M.F.Axundzadənin özünün rus dilinə sətri tərcüməsində 1837-ci ildə Moskvada "Moskovskiy nablyudatel" məcmuəsinin 11-ci sayında dərc olunmuşdur.

M.F.Axundzadə şeirlərini "Səbuhi" (*sübh adamı* deməkdir) təxəllüsü ilə yazırdı.

Dramaturgiyası

"Hekayəti-Molla İbrahimxəlil kimyagər" komediyası. 1850-ci ildə yazılmış və ədəbiyyatımızda ilk komediyadır. Ümumən, Azərbaycan ədəbiyyatında dramatik növün əsası məhz bu əsərlə qoyulmuşdur. Müəllif əsərdə, bir tərəfdən, avamlıq və geriliyi, digər tərəfdən isə, fırıldaqçılığı tənqid edir. Komediyanın əsas tənqid hədəfləri Molla İbrahimxəlillə yanaşı, həm də Hacı Kərim, Ağa Zaman, Molla Salman, Məşədi Cabbar, Səfər bəy kimi «nuxulular»dır. Onların şəxsində Azərbaycan cəmiyyətinin asan və qeyri-halal yolla var-dövlət əldə etmək istəyən, fırıldağa əl atdıqları üçün nüfuzdan düşən, müflisləşən imtiyazlı nümayəndələri ümumiləşdirilmişdir. Bisavad, eyni zamanda, tamahkar olan bu adamlar yalançı kimyaya, iksir vasitəsilə misi gümüşə çevirməyin mümkünlüyünə inanırlar.

Komediyanın əsas gülüş hədəfi, satirik obrazı isə, şübhəsiz ki, Molla İbrahimxəlildir. Onun simasında yalançı kimyagərliyin səciyyəvi xüsusiyyətləri ümumiləşdirilmişdir. O, mahir bir kələkbaz olaraq özünü mötəbər bir din xadimi və kimyagər alim kimi təqdim edir, avam və tamahkar nuxulları ələ salır, aldadır, onların pullarına sahib çıxır.

Hacı Nuru bu əsərdə yeganə müsbət obrazdır. M.F.Axundzadə onun timsalında öz maarifçi görüşlərini ifadə etmişdir. Bu mənada, Hacı Nuru rezenyor obrazdır, belə ki sanki danışan Hacı Nuru yox, M.F.Axundzadə özüdür.

Müəllif Hacı Nuru surəti ilə ağıllı, namuslu, vətənpərvər ziyalıların səciyyəvi keyfiyyətlərini ümumiləşdirmiş, onu həm avam və həm də fırıldaqçı adamlara qarşı qoymuş, beləliklə, zəmanənin ictimai eyiblərini bu obrazın dili ilə ifşa etmişdir. Ümumiyyətlə, feodal cəhalətpərəstliyi əleyhinə yazılmış bu pyes oxucuları nadanlığın pəncəsindən xilas olub, namuslu əməyə, elmə və maarifə yiyələnməyə çağırır.

Bu komediyada qadın obrazı yoxdur.

"Hekayəti-müsyö Jordan həkimi-nəbatat və dərviş Məstəli şah caduküni-məşhur" komediyası. 1850-ci ildə yazılmışdır.

Bu əsər öz məzmunu, tənqid hədəfləri baxımından "Molla İbrahimxəll kimyagər" əsərinə çox yaxındır. Hər iki əsər maarifçilik ruhunda, fırıldaqçıları tənqid istiqamətində yazılmışdır.

«Hekayəti–xırs quldurbasan" dramı 1851-ci ildə yazılmışdır və ədəbiyyatımızda dram janrında olan ilk əsərdir. Mövzusu kənd həyatından alınmışdır. Əsərin fabulası (hadisələr) kasıb bir gənclə – Bayramla dövlətli bir qız olan Pərzadın sevgi macərası üzərində qurulmuşdur. Pərzadın əmisi Məşədi Qurban öz qardaşının varidatına yiyələnmək üçün bu qızı oğlu Tarverdiyə nişanlayıb toy etmək istəyir. Bayram Pərzad əldən çıxmasın deyə, kələyə əl atmalı olur. Ovçu Namaz vasitəsilə Tarverdinin başını doldurur ki, guya sən indiyəcən bir sərçə də vurmamısan, oğurluq, quldurluq eləyib özünü göstərməmisən deyə, Pərzad sənə getmək istəmir. Bu yolla maymaq Tarverdini öyrədib quldurluğa, poçt yolunda karvan soymağa göndərirlər.

M.F.Axundzadə dramda həm qadın hüquqsuzluğuna qarşı çıxır, həm də bərabərlik və qarşılıqlı məhəbbət ideyalarını müdafiə edir. Pərzad öz hüquqsuzluğundan şikayətlənərək deyir: «Nə eləyim, əlimdən nə gəlir?

Atam ölübdür, bir anam ilə qalmışam əmimin ixtiyarında; qardaşım yox, bir köməyim yox».

Əsərdəki hadisələr açıqürəkli, alicənab, mərd, namuslu Bayramın öz sevgilisinə çatmaq üçün gördüyü tədbirlər ətrafında cəmləşərək, bir xətt üzrə inkişaf edir. Sonda isə Bayram Tarverdinin tutulduğunu görəndə onu xilas etmək üçün müəyyən kələk düzəltməyə məcbur olması barədə həqiqəti açıb söyləyir və günahını boynuna alır.

Əsər M.F.Axundzadənin dramatik əsərləri üçün səciyyəvi olan xoşbəxt sonluqla tamamlanır. Bayramla Pərzad bir-birinə qovuşurlar.

"Hekayəti-vəziri-xani-Lənkəran" komediyası. 1851-ci ildə yazılmışdır. Əsərin mövzusu Azərbaycan xanlıqlar dövründən alınmış, süjeti ailə-məişət macəraları üzərində qurulmuşdur. Süjetlə mövzu bir-biri ilə əlaqələndirilmiş, əsərdə hakimlərin bacarıqsızlığı və despotizmi, saray əyanlarının əfəlliyi və yaltaqlığı əks etdirilmişdir.

Komediyanın əsas gülüş hədəfləri Lənkəran xanı və onun vəziri Mirzə Həbibdir. Onların simasında feodal-istibdad quruluşunun tipik xüsusiyyətləri ümumiləşdirilmişdir. Əsərdə məhdud düşüncəli Xan surəti despotizmin, özbaşınalığın və ədalətsizliyin timsalıdır. Əslində o, hakimiyyəti qəsb etmişdir. Buna görə də xanlığın əsl varisi olmalı olan qardaşı oğlu Teymur ağanı öldürməyə fürsət gəzir. O, şikayət edən ərizəçiləri dinlədikdən sonra gülünc hökmlər verir. Məsələn, atının gözünün qonşu tərəfindən vurulub çıxarılmasından şikayət edən kəndliyə deyir: «Sən də get vur onun atının bir gözünü çıxar». Bu cür gülünc hökmlər çıxarmaqla guya dövləti idarə edən, insanların halını "yaxşılaşdıran" xan bu işin ağırlığından da şikayətlənib deyir: «Ah, xanlıq, səndən əzablı dünyada nə var?! Hər kəs ancaq öz əhli-əyalının qəmini çəkir, mən gərək min-min adamın qəmini çəkəm, dərdinə yetişəm». Bu sözlər Xanın sözü ilə işi, danışığı ilə hərəkətləri arasındakı ziddiyyəti göstərir və bir gülüş hədəfi olmaqla Xanın həqiqi simasını açır.

Milli Azərbaycan teatrının əsası bu komediya ilə (1873, mart) qoyulmuşdur. Əsərin əvvəlki adı olan "Hekayəti-vəziri-xani-Sərab"da sonralar ***Sərab*** sözü ***Lənkəran*** sözü ilə əvəz olunmuşdur*.

* Əsərdə dəniz qırağında olan şəhərdən söhbət gedir. İranda olan Sərab şəhəri isə dəniz qırağında yerləşmədiyindən dramaturq bu adı sonralar *Lənkəran* sözü ilə əvəz etməli olmuşdur.

«Hekayəti-mərdi-xəsis» komediyası. 1852-ci ildə yazılmış, ikinci adı komik baş qəhrəmanın adı ilə «Hacı Qara»dır. Mövzusu xəsislikdən götürülmüşdür.

Komediyanın əsas gülüş hədəfi və baş qəhrəmanı Hacı Qaradır. Onun əsas xüsusiyyəti xəsislikdir. Arvadı Tükəz bu barədə deyir: «Uşaq aşıq yığan kimi, bu qədər pulu yığıb nə eləyəcəksən? Yüz il ömrün ola, yeyəsən, geyəsən, içəsən, sənin pulun tükənməz... Öz malını nə özün yeyib-içirsən, nə əyalına məsrəf edirsən. Sən ölsən, heç olmazsa, arvad-uşağın doyunca çörək yeyər».

Hacı Qaranın ikinci mənfi xüsusiyyəti acgöz və tamahkar olmasıdır. Bolluca pulu olmasına baxmayaraq, 100 manat zərərin dərdini çəkir, nəyin bahasına olur-olsun, bu itkinin yerini doldurmağa çalışır.

Əlbəttə, Tükəz Hacı Qaranın var-dövlətini acığından çox şişirdir. Əslində Hacı Qara arvadı Tükəzin dediyi qədər də böyük dövlət sahibi deyil. O, hələ yığmaqla, mal-dövlətini artırmaqla məşğuldur. Bir qəpiyini də itirmək istəmir. Ona görə də yüz manat onun üçün böyük ağrı mənbəyidir. Ancaq, görünür, o təkcə yüz manatını yox, həm də insanlığını, şəxsi ləyaqətini itirmişdir.

Hacı Qaranın üçüncü xüsusiyyəti yalançılıq, ikiüzlülük və qorxaqlıqdır. Lazım olanda o, bəzən mehriban və qonaqpərvər görünür, bəzən də kobud və nəzakətsiz bir adam olur.

Hacı Qara həmişə komik planda göstərilir. Onun danışığı ilə hərəkətləri arasında ziddiyyət vardır. Qaçaq mal alverinə gedəndə qoçaqlıqdan dəm vuran Hacı Qara Araz çayını keçərkən atın üstündən suya yıxılır və onu Təbrizə qaçaq mal alverinə dəvət edənləri lənətləyir. Bu isə həqiqi gülüş vəziyyəti yaradır. Çox aydın görünür ki, "Hacı Qara"da gülüş məqamları, gülüş obyektləri təbiidir.

Komediyanın maraqlı surətlərindən biri də Heydər bəydir. O, mülkədar-bəy nəslindən olmasına baxmayaraq, maddi iflasa uğramışdır. 2 ildir ki, nişanlıdır, amma toy xərci düzəldə bilmir. Dostları qızı götürüb qaçırmağı məsləhət bilsələr də, o, bunu özünə sığışdırmır və bu iş ona «ölümdən betər görünür». Çünki hamı deyəcək ki, «Qurban bəyin oğlu pul tapmadı toy edə, nişanlısını götürdü qaçdı».

Heydər bəy Hacı Qaradan fərqli olaraq, komik planda yox, dramatik planda təqdim edilir. Erməni yasavulları ilə qarşılaşanda onların hamısını qorxudub, yollarındakı maneəni aradan götürən Heydər bəy ciddi, mərd və cəsur bir gəncdir.

Heydər bəy torpaqda çalışmağı, zəhmətlə yaşamağı sevmir və keçmiş həyat tərzini – köhnə feodal-patriarxal adətləri müdafiə edir: «Pərvərdigara, bu necə əsrdir? Bu necə zəmanədir? Nə at çapmağın qiyməti var, nə tüfəng atmağın hörməti var!.. Ah, ah, keçən günlər! Hər həftədə, hər ayda bir karvan çapmaq olurdu, bir ordu dağıtmaq olurdu».

Heydər bəy "İş tapılmır" deyəndə məhz keçmişdəki kimi oğurluğa, quldurluğa, qaçaqmala getməyə, yəni dərəbəyliyə daha imkan olmadığını nəzərdə tutur. Məhz buna görə də keçən günlərin sevdası ilə yaşayır, o günlərin xiffətini çəkir.

«Mürafiə vəkillərinin hekayəti» komediyası. 1855-ci ildə yazılmışdır. Əsərin bir adı da "Şəhri-Təbrizdə"dir. Mövzusu Cənubi Azərbaycan həyatından götürülmüşdür. Təbrizin varlı tacirlərindən olan Hacı Qafur ölərkən var-dövlətini bacısı Səkinə xanıma vəsiyyət etsə də, onun sığə arvadı Zeynəb tacir Ağa Həsənin, vəkil Ağa Mərdan Halvaçı oğlunun təhriki ilə mirası ələ keçirmək üçün məhkəməyə şikayət edir. Həqiqətdə, bu, tacir Ağa Həsənin öyrətməsi ilə olan iş idi. Ağa Həsən varidata şərik olmaq üçün Səkinə xanıma elçi düşmüş, qız isə razı olmamışdı. Ağa Həsən pula şərik olmaq istəyini indi bu yolla davam etdirirdi. Beləliklə, Səkinə xanımla Zeynəb, əslində isə Ağa Həsən arasında ixtilaf başlayır və bu, xeyirlə şər arasında mübarizəyə çevrilir. Əsərdə haqqı, xeyiri Səkinə xanım və onun tərəfdarları, nahaqqı, şəri isə tacir Ağa Həsən, Zeynəb və vəkil Ağa Mərdan Halvaçı oğlu təmsil edirlər.

Səkinə xanım öz hüquqlarını müdafiə edən bir qızdır. Bibisi Zübeydə xanım onu istəmədiyi Ağa Həsənə ərə vermək istəyəndə o etiraz edərək deyir: «Yaxşı deyil, bibi! Sənə mən nə zaman izn vermişəm ki, məni Ağa Həsənə verəsən? Mənim bu saatda nə atam var, nə anam, nə qardaşım; özüm öz vəkiliməm». Məhz bu mənada, Səkinə xanım öz müstəqilliyi və cəsarəti ilə "Hekayəti-xırs quldurbasan"dakı eyni taleli Pərzaddan seçilir.

Ağa Həsən rədd cavabı aldıqda onu hədələyir, Səkinə xanım isə deyir: «Get bildiyini elə! Eləməsən, səndən əskik adam yoxdur... Əlindən gələni beş qaba çək!»

Komediyada əsas tənqid hədəfi Ağa Mərdan Halvaçı oğludur. Onun simasında hiyləgər, fırıldaqçı vəkillərin xüsusiyyətləri ümumiləşdirilmişdir. Müxtəlif kələklər qurmağı bacaran, haqqı nahaqqa verən, haram pullar qazanan Ağa Mərdan hiyləgərliklə Səkinə xanımın mirasını əlindən çıxarmaq üçün Hacı Qafurun yeddi aylıq bir oğlu olmasını təsdiq etməli olan yalançı şahidlər düzəldir. Lakin məhkəmədə şahidlər həqiqəti açıb söyləyir və Ağa Mərdan, eləcə də Səkinə xanımın vəkili olan, əslində isə tacir Ağa Həsənin, vəkil Ağa Mərdanın planlarının icrasına çalışan Ağa Səlman Ələkçi oğlu ifşa olunurlar. Əsər yalançı, rüşvətxor, ikiüzlü, satqın adamların ifşası və Səkinə xanımın qələbəsi ilə sona çatır. Bu əsərdə də M.F.Axundzadənin bəzi dram əsərləri üçün xarakterik olan *kənardan müdaxilə* məsələni yoluna qoyur. M.F.Axundzadənin o biri səhnə əsərlərində olduğu kimi, burada da haqq şər üzərində qələbə çalır. Əsər xoşbəxt sonluqla bitir.

«*Hekayəti – müsyö Jordan və dərviş Məstəli şah*» komediyası

1850-ci ildə yazılan bu komediya M.F.Axundzadənin maarifçi ideyalarını əks etdirən ən məşhur dramatik əsərdir. Bu əsər də, müəllifin digər pyesləri kimi, bir sıra səciyyəvi xüsusiyyətlərə malikdir: həyat həqiqətlərinin dolğun təsviri, obrazların canlı bədii inikası, xarakterlərin tipikləşdirilməsi, necə deyərlər, tipik şəraitdə tipik xarakterlər yaradılması.

Komediyanın ideyası avamlığın və cadugərliyin tənqididir. Konfliktin bir tərəfində yazıçının maarifçi idealı, digər tərəfində isə gerilik və avamlığın tərəfdarları dayanır. Bu cəhətdən "Müsyö Jordan" komediyası dramaturqun birinci komediyası ilə çox yaxındır.

Əsərin fabulası belədir: Hatəmxan ağanın qardaşı oğlu, böyük qızının nişanlısı Şahbaz bəy Qərb adətləri ilə tanış olmaq və fransız dilini öyrənmək üçün müsyö Jordana qoşulub Parisə getmək istəyir. Bu isə Şahbaz bəyin nişanlısı olan Şərəfnisəni möhkəm narahat edir. Şahbaz bəyin qayınanası Şəhrəbanu xanım qızı Şərəfnisə xanımın həyəcanlarına son qoymaqda əri Hatəmxan ağadan bir kömək olmadığını görüb Xanpərinin vasitəçiliyi ilə cadugər Məstəli şaha müraciət edir. Cadugər onları Parisi dağıdıb Şahbaz bəyi yoldan saxlayacağına inandırır. Cadu

oyununa başlayır. Əsl qəribəlik də məhz indi baş verir. Müsyö Jordan həyəcan, təşviş içərisində gəlib Parisin dağıldığını, təcili Araz çayının o tayına keçməli olduğunu deyir. Sən demə, bir az əvvəl Parisdə inqilab baş vermiş, Fransa kralı Londona qaçmağa məcbur olmuşdur. Nəticədə müsyö Jordan kralın və öz canının hayına qalıb təcili Londona tələsməli olur. Təbii ki, Şahbaz bəyi Parisə apara bilmir. Zahirən elə görünür ki, məhz Məstəli şahın hesabına Şəhrəbanu istədiyinə nail olur. Amma əsl həqiqət, göründüyü kimi, tamam başqadır.

Dərviş Məstəli şah surəti. Komediyanın satirik gülüş hədəfi dərviş Məstəli şahdır. Məstəli şahın simasında camaatın avamlığından istifadə edərək onları aldadıb, pullar qazanan tüfeylilərin ümumiləşdirilmiş obrazı yaradılmışdır.

Məstəli şah hiyləgər, fırıldaqçı bir dərvişdir. O, müxtəlif donlara girir: əvvəlcə özünü hər şeyə qadir bir şəxs kimi göstərir, sonra isə onun işi barədə heç kəsə bir söz deməmək haqqında qadınlara tapşırıq verir. Bildirir ki, başqaları xəbər tutsa, guya cadunun təsiri olmayacaq.

Məstəli şahın həqiqi siması isə öz köməkçisi Qulaməli ilə söhbətində açılır. Məstəli şah deyir: «Bu böyük xanım bu iş üçün mənə 100 təzə bacaqlı verəcəkdir və 10 gün də cadunun əsər etməsi üçün vaxt var. Bir adam da bu sirri bilmir və bilməyəcək də. Bacaqlıları alandan sonra əl-ayaq açıb, 10 günə qədər özümü Arazın o tayına sala bilərəm. Məni orada kim tapacaqdır? Məndən sonra hər nə olacaqsa, olsun».

Başqa bir replikasında isə Məstəli şah qadınların avamlığına istehza edərək deyir: «Bu qadın tayfası nə yazıq və sadəlövhdürlər, düşünüb-daşınmadan inanırlar ki, mən Qarabağda oturub, Pariji bir anda alt-üst edəcəyəm və ya mənim Mərrixim Arazın o biri tərəfində müsyö Jordanın boynunu vura bilər».

Dramaturq Məstəli şahın daxili mahiyyətini bu şəkildə, yəni öz dili ilə faş edir və bu yolla o vaxt Azərbaycanda çox yayılmış yalançı, fırıldaqçı, hiyləgər dərvişləri ifşa edir.

Qadın surətləri. Komediyanın qadın surətləri bunlardır: Şəhrəbanu, Şərəfnisə, Xanpəri və hadisələrin mahiyyətinin açılmasında elə də bir rol oynamayan, Hatəmxan ağanın kiçik qızı olan Gülçöhrə. Bu qadınlar da (Gülçöhrə istisna olmaqla) gülüş hədəfi olmalarına baxmayaraq, müəllif

onlara rəğbət bəsləyir, onların mənəvi keyfiyyətlərini, daxili saflıqlarını təqdir edir.

Təmiz ürəkli, sadəlövh bir qız olan Şərəfnisə dərin məhəbbətlə sevdiyinə görə Şahbaz bəyi bərk qısqanır. O, nişanlısının qızlarla oğlanların bir məclisdə oturduğu, rəqs etdiyi Paris şəhərinə getmək istədiyini bildikdə iztirab çəkir və ağlayır. Guya Şahbaz bəy «firəng qızlarının havasına yellənib uçur». Əslində isə Şərəfnisə Qərbi daha yaxından tanımaq, şöhrətlənmək və ucalmaq, canişinlikdə vəzifə tutmaq istəyən Şahbaz bəyin istək və arzularını görə bilmir.

Şəhrəbanu xanım da sadə, açıqürəkli, lakin avam bir qadındır. O da daxilən saf və təmizdir. Qızının iztirablarına dözə bilmir və bu, təbiidir. Buna görə də Şahbaz bəyin Qarabağdan çıxmasına razı ola bilmir. Ancaq Şəhrəbanu xanım qızı Şərəfnisə kimi göz yaşı tökmür, tədbirlidir. Şahbaz bəydən məsələnin məğzini öyrənib əri Hatəmxan ağaya bildirir və ondan Şahbaz bəyin başına ağıl qoymağı tələb edir. Ərinin "qətiyyətsizliyini" gördükdə isə özü fəaliyyətə başlayır və elə çıxır ki, istədiyinə də nail olur.

Komediyada qadınların gülüş doğuran xüsusiyyəti Şahbaz bəyi səfərdən saxlamaq niyyətlərində reallaşır. Onlar Məstəli şahın yalan cadularına aldanaraq, Parisin dağılacağına inanırlar. Sanki birdən-birə bu ümid də reallaşır: Şahbaz bəy "Paris dağıldığına" – inqilab baş verdiyinə görə Parisə gedə bilmir. Beləliklə, qadınların öz qələbələri arxasındakı məğlubiyyətlərini görə bilməmələri, aldandıqlarını dərk etməmələri pyesin gülüş doğuran mahiyyətini təşkil edir.

Müsyö Jordan surəti. Müsyö Jordan təsvir edilən əsas hadisələrin mərkəzində dayanır. Əsərdə Məstəli şaha qarşı dayanan müsyö Jordan Azərbaycan ədəbiyyatında ilk qərbli obrazıdır.

O, nəbatat alimidir və Fransadan Qarabağa bu yerlərin bitki aləmini araşdırmaq üçün gəlmişdir. Müsyö Jordan Qarabağda bitən otların tibbi-müalicəvi əhəmiyyətini aşkar edir və müəyyənləşdirir ki, Alp dağlarında, Amerika və Afrikada yetişdiyi güman edilən dərman bitkilərinin çoxu Qarabağda mövcuddur.

Müsyö Jordan Hatəmxan ağanın ailəsinə hörmətlə yanaşır, Şahbaz bəylə dostluq edir, onu Qərb mədəniyyətini öyrənməyə həvəsləndirir və hətta özü ilə Parisə aparıb orada Qərb mədəniyyətini və fransız dilini

öyrətmək istəyir. Dramaturq müsyö Jordanı danışdırmaqla vətənin gözəllikləri barədə məlumat verir və aydın olur ki, bitkiləri toplayıb öyrənməklə də xalqa mənfəət gətirmək olar.

Eyni zamanda, müsyö Jordan, bir fransiz olaraq, çox vətənpərvərdir. Onun Şahbaz bəyə fransız dilini və fransız adət-ənənələrini öyrətmək təşəbbüsü də bunu təsdiq edir. Bundan başqa, onun inqilab xəbərini eşidən kimi özünü təcili krala çatdırmaq istəyi də, bir monarxpərəst olmaqla yanaşı, həm də vətənpərvərlik və dosta sədaqət duyğuları ilə bağlıdır.

Komediyada müsyö Jordan və Şahbaz bəy surətləri işığı – inkişafı, gələcəyi, Azərbaycana öz "cin-əcinnələri" ilə təşrif buyurmuş Məstəli "şah" isə qaranlığı – köhnəliyi, ətaləti, əsarəti, yalanı təmsil edirlər.

Hatəmxan ağa surəti. Əsərdəki hadisələrin cərəyan etdiyi Təklə-Muğan obasının mülkədarı Hatəmxan ağa da müəyyən məhdud cəhətlərinə baxmayaraq, müsbət surətdir. Dramaturq onun simasında XIX əsrin 40-cı illərindəki inkişafa, müasirliyə meyilli mülkədarların səciyyəvi xüsusiyyətlərini ümumiləşdirmişdir.

Hatəmxan ağa ağıllı və fərasətlidir, öz təsərrüfatını bacarıqla idarə edir, yaxşı ailə başçısıdır, qonaqpərvərdir, müasirliyə, təhsilə meyillidir, qardaşı oğlu Şahbaza ərəb, fars və rus dillərində savad vermişdir. Lakin bunlara baxmayaraq, köhnə dədə-baba qaydaları ilə yaşayır. Onun dünyəvi elmlər, xüsusilə Avropa ölkələri haqqında təsəvvürü azdır. O, belə düşünür ki, fransız xalqının həyat tərzini, mədəniyyətini öyrənmək üçün orada yaşamaq vacib deyil və bunun üçün müsyö Jordanı dinləmək kifayətdir. Hatəmxan ağa fransızlarla azərbaycanlıları belə fərqləndirir: «Bizdə hər adət və xasiyyət var isə, əksi Parij əhlindədir. Məsələn, biz əlimizə həna qoyuruq, firənglər qoymazlar; biz başımızı qırxırıq, onlar başlarına tük qoyarlar; biz papaqlı oturarıq, onlar başıaçıq oturarlar; biz başmaq geyərik, onlar çəkmə geyərlər; biz əlimiz ilə körək yeyərik, onlar qaşıq ilə yeyərlər; biz aşkara peşkəş alarıq, onlar gizli alarlar; biz hər zada inanırıq, onlar heç zada inanmazlar; bizim arvadlarımız gödək libas geyər, onların arvadları uzun libas; bizdə çox arvad almaq adətdir, Parisdə çox ər almaq».

Hatəmxan ağa Şahbazı, müsyö Jordanı dinlədikdən sonra dövrün, yeniliyin meylini tutan Şahbaz bəyin yolunda bir əngəl ola bilməyəcəyini,

daha doğrusu, yeniliyin, gələcəyin yolunda bir əngəl, maneə olmağın yaxşı iş olmadığını dərk edir. O həm də gəncliyin daha qətiyyətli olduğunu, onlara əngəl yox, ağıllı böyük olmağın gərəkliyini başa düşür. Şəhrəbanu xanımdan fərqli olaraq, Hatəmxan ağanı başa salmaq, inandırmaq olur.

Şahbaz bəy surəti. Şahbaz bəy ağıllı gəncdir. Onun simasında yeni həyat tərzi barədə düşünən və Qərb mədəniyyəti ilə tanış olmaq istəyən gənclərin xüsusiyyətləri ümumiləşdirilmişdir.

Şahbaz bəy Hatəmxan ağanın qardaşı oğludur. Hatəmxan ağa həmişə onun təhsilinin qayğısına qalmışdır. Lakin aldığı təhsil ad-san qazanmaq üçün ona kifayət etmədiyinə görə müsyö Jordanla Parisə gedib fransız dilini öyrənmək, Qərb mədəniyyəti ilə daha yaxından tanış olmaq istəyir. Şahbaz bəyin Parisə getmək niyyəti iki səbəblə bağlıdır: birincisi, özünün «qamışlıq» adlandırdığı süst və geridə qalmış mühitdən uzaqlaşmaq, ikincisi, ad-san qazanmaq, Tiflisdə, canişinlikdə işə düzəlmək. O, bu barədə nişanlısı Şərəfnisəyə deyir: «Mənim tay-tuşlarım tamam mərifət sahibi olub, qulluq edib, hörmət-izzət tapıb, xoşbəxt olublar. Mən qalmışam elə bu qamışlıqda adsız, sansız».

Əlbəttə, Şahbaz bəyin Qərb mədəniyyəti ilə tanış olmaqda, fransız dilini öyrənməkdə əsas məqsədi yeni dünyagörüşü ilə seçilmək, Tiflisdə canişin yanında qulluğa girməkdir. Yüksəlmək, yeni vəzifə tutmaq, ad-san sahibi olmaq, müasirləri olan digər gənclər kimi, Şahbazın da arzusudur. Həm də bu, təbii arzudur.

Lakin Parisdə baş vermiş inqilab Şahbaz bəyin arzusunu gözündə qoyur. O, Parisə gedə bilmir. Ola bilsin ki, onun Parisə getmək arzusu heç də uzaqda olmayan başqa bir vaxtda bir də baş qaldıracaq. Və onu bu vaxt daha heç cür saxlamaq mümkün olmayacaq. Yəqin, o vaxt əngəllər də azalacaq. Bu, təbii ki, inkişafın öz diktəsi ilə olacaq. Şahbaz bəy Azərbaycan dramaturgiyası tarixində avamlar mühitinə qarşı çıxan və qabaqcıl dünya mədəniyyəti ilə maraqlanan gəncləri təmsil edən ilk surətdir.

Komediyadakı hadisələr müəllif tərəfindən zahirən 1846-cı ildə baş vermiş kimi göstərilsə də, əslində burada 1848-ci il Fransa burjua inqilabına işarə edilir. Müəllif əsərin sonunda Xanpərinin Şəhrəbanu

xanımla dialoqunda bunu belə ifadə etmişdir: "Mən hələ ondan qorxuram ki, Parisin yıxılmağının zərbindən özgə şəhərlər də bərbad ola. Naxçıvan, Şərur mahallarının zərbindən Ağrı dağının bir parçası qopub tökülən kimi, necə ki dərviş deyirdi". Bu sözlərdəki mətnaltı məna budur ki, Parisdə, Fransa paytaxtında baş vermiş inqilabın təsiri başqa ölkələrə də keçə bilər. Digər tərəfdən, müəllif bəzən təsadüflərin fırıldaqçıların, riyakarların işinə yaradığına da işarə etmiş, insanları ayıq olmağa, hər hansı təsadüflərə qarşı hazırlıqlı olmağa, xüsusən qadınları evlərin küncündən geniş ictimai həyata atılmağa çağırmışdır.

Komediya ciddi bədii xüsusiyyətlərə malikdir. Əsərin oxucuları intizarda saxlayan dramatik süjeti və yığcam kompozisiyası vardır. 4 məclisdən ibarət olan komediyada surətlərin xarakteri əhvalatların tədrici inkişafı prosesində açılır.

Əsərin dili canlı və koloritlidir. Dramaturq surətləri bir-birindən onların nitqi, danışığı vasitəsilə fərqləndirir. Komediyada dramatik növün xüsusiyyətlərinə uyğun olaraq bədii nitqin, əsasən, dialoq və remarka tiplərindən istifadə olunmuş və onlar bir-biri ilə ustalıqla əlaqələndirilmiş, nitq ardıcıllığı təmin edilmişdir.

Komediya yazılandan az sonra dramaturqun özü tərəfindən rus dilinə tərcümə edilmiş və hissə-hissə «Kavkaz» qəzetində çap edilmişdir. Əsər 1852-ci ildə Sankt-Peterburqda bir ailə teatrında da tamaşaya qoyulmuşdur. Sonralar komediya Azərbaycan, Qafqaz, Rusiya, İran, Türküstan və Dağıstanın müxtəlif teatrlarında oynanılmışdır.

Xalq yazıçısı Elçin əsərin motivləri əsasında ssenari yazmış və «Dərviş Parisi partladır» filmi çəkilmişdir.

«Aldanmış kəvakib» povesti

İkinci adı «Hekayəti-Yusif şah» olan bu əsər 1857-ci ildə yazılmışdır. Bu əsər Azərbaycan ədəbiyyatı tarixində yeni tipli bədii nəsrin və müasir povest janrının ilk nümunəsidir.

Povestin məzmunu İsgəndər bəy Münşinin I Şah Abbasın hakimiyyətindən bəhs edən «Tarixi-aləmarayi-Abbasi» ("Dünyanı bəzəyən Abbasilərin tarixi") kitabından götürülmüşdür. Həmin kitabda deyilir ki,

münəccim mövlana Cəmaləddin Yəzdi bir gün iki ulduzun – Mərrix ilə Əqrəbin bir-birinə yaxınlaşaraq İrana və onun şahına bədbəxtlik gətirəcəyini Şah Abbasa xəbər verir. Bundan xilas olmaq üçün 3 günlüyə hakimiyyətdən əl çəkmək və cəzaya layiq olan bir adamı səltənət başında oturtmaq tövsiyə olunur. Səltənət başına cəzaya layiq hansı adamı gətirmək üçün çöp atırlar və çöp Yusif Sərraca düşür. Şah Abbas səltənətdən əl çəkir, öz xidmətçiləri ilə gizlənir. Yusif Sərracın başına tac qoyur, ona şahlığa layiq paltar geyindirir, onu dəvəyə mindirib əmirlərin və ordunun müşayiəti ilə şahlıq mənsəbinə gətirirlər. 3 gün sonra Yusifin evində axtarış aparıb şərab tapırlar və onu dinsiz kimi edam edirlər. Beləliklə, I Şah Abbas öz yerinə Yusif Sərracı qoymaqla guya ulduzların gətirdiyi bəladan qurtulmuş olur.

Povestin mərkəzində bu tarixi əhvalat dayansa da, M.F.Axundzadə həmin hadisəni öz maarifçilik ideallarına uyğunlaşdıraraq müasir bir əsər yaratmışdır. Povestin ideyası Şərq istibdad üsuli-idarəsinin eybəcərliklərini göstərməklə gələcək nəsillərə zəruri ibrət dərsi vermək idi.

Beləliklə, M.F.Axundzadə bu əsərində də onun yaradıcılığına xas olan maarifçi-realist mövqedən çıxış edir. Hətta bu əsərdə maarifçi-realist mövqe dövlət həyatına, siyasi hakimiyyət məsələsinə tətbiq edilməklə daha da siyasiləşdirilmişdir.

Əsərin əvvəlində müəllif dövlət adamlarını – vəzir Mirzə Möhsünü, müstövfi Mirzə Yəhyanı, sərdar Zaman xanı, mollabaşı Axund Səmədi danışdırmaqla daxili ifşa üsulundan istifadə edir, bu yolla Şah Abbas rejiminin gülünclüyünü, hakimiyyət adamlarının heç nəyə yaramadıqlarını ifşa edir. Bu despotik rejim yalnız cəlladlar, başkəsənlər, yetirməyə qadirdir. Şah Abbasın dövlət adamları özlərinin heç nəyə yaramadıqlarını yaxşı başa düşürlər. Onlar layiq olmadıqları vəzifələri saxlamaq üçün yaltaqlanmağa məcburdurlar. M.F.Axundzadə Şah Abbasın ətrafında olan dövlət adamlarını danışdırmaqla sanki belə bir ciddi sual vermiş olur: "Bu yaramazlar, bu nadanlar, bu məsləksizlər adi bir məsələnin həllində belə çaş-baş qalırlarsa, bəs onda dövlətin taleyi üçün daha ciddi məsələlərin həllində nə edə bilərlər?" Bu sualdan, onun cavabından çıxacaq nəticə isə olduqca təbii və məntiqidir: "Bu rejim məhvə məhkumdur. Bu rejim ağıllı bir iqtidarla – xalqın içindən çıxan və onun mənafeyini güdməli olan bir maarifçi hakimlə əvəz olunmalıdır".

Şah Abbas surəti. Povestdə əsas tənqid hədəfi Şah Abbasdır. O, ölkənin müqəddəratını düşünməyən, əhalinin qayğısına qalmayan, günlərini eyş-işrətlə keçirən nadan və qabiliyyətsiz bir padşahdır. Ölkədə ticarət pozulmuş, körpülər, karvansaralar uçulub dağılmış, şəhərlər, kəndlər viran olmuş, ədalətsiz məmurlar isə əhaliyə zülm etməklə məşğuldurlar. Onlar öz siyasi ömürlərini uzatmaq üçün hər cür fənalıqlara, yaramazlıqlara gedə bilərlər və gedirlər də.

Şah Abbas hakimiyyəti əldə saxlamaq üçün insanları dar ağacına çəkir, onları şaqqalatdırıb qala qapısından asdırır. Hətta o, oğlanlarından birini öldürür, digərinin isə gözünü çıxartdırır.

Şah Abbasın nadanlığı, iqtidara ləyaqətsizliyi isə ondan bilinir ki, o, ölkənin idarə olunması işini bacarıqsız adamlara tapşırmış və öz ətrafına ikiüzlü, yaltaq adamları toplamışdır. Onlar xalqın vəziyyətini yaxşılaşdırmaq əvəzinə, öz vəzifələrini əldə saxlamaq xətrinə şaha yaltaqlanır və şahın pis əməllərinə bəraət qazandırırlar. Bunun da nəticəsində xəzinə tükənir, əhalinin vəziyyəti isə getdikcə pisləşir.

Müəllif Şah Abbasın nadanlığını və eybəcərliyini daha bariz şəkildə göstərmək üçün saray əyanlarının öz dili ilə özlərinin eybəcərliyini göstərmək üsulundan istifadə edir. Bu məqsədlə o, saray adamlarının özlərini danışdırır. Məsələn, vəzir Mirzə Möhsün xalqdan uzaq və rüşvətxor bir vəzifə sahibidir. O, ölkənin maliyyə işlərinə rəhbərlik edir, boş olan xəzinəni doldurmaq adı ilə məmurlardan müxtəlif bəhanələrlə peşkəş alır və vəzifələri varlı adamlara satır. Beləliklə, rüşvətxorluq və soyğunçuluq artır.

Povestdə ağılsız, bacarıqsız, küt adamlar təsiri bağışlayan digər saray xadimlərinin təsviri Şah Abbasın dövlət aparatının gülünclüyünü, məmurların isə onun özü kimi nadan olmasını sübut edir. Başqa sözlə, vəzir Mirzə Möhsün, müstövfi Mirzə Yəhya, qoşun başçısı Sərdar Zaman xan, mollabaşı Axund Səməd, münəccimbaşı Mirzə Sədrəddin kimi mənsəb sahiblərinin fəaliyyəti Şah Abbas hakimiyyətinin daxili mahiyyətini açır və bu hakimiyyətin yarıtmaz, gülünc xarakterini tam şəkildə nümayiş etdirir.

Yusif Sərrac surəti. Yusif Sərracın simasında M.F.Axundzadənin maarifçi ideallarına uyğun olaraq ağıllı, uzaqgörən və ədalətli şah surəti

yaradılmışdır. Əsərdə başqa surətlərlə müqayisədə, xalqdan uzaq feodal hakimiyyətinə müxalif, yəni xalqçı hakimiyyətin rəmzi olan Yusif Sərrac haqqında geniş məlumat verilir.

Dindar və mömin bir kəndli ailəsində böyüyən Yusif Sərracı atası ruhani etmək istəmiş və ona görə də Qəzvin şəhərində oxutdurmuşdur. Sonra İsfahan və Kərbəlada təhsilini davam etdirərək dini elmləri öyrənmiş, lakin sonralar kələkbaz ruhanilərdən uzaq olmaq üçün «özünü onların zümrəsinə daxil etmək» fikrindən daşınmışdır. Həmədana gələrək Xəlil adlı bir ustadan at yəhəri düzəltmək (sərraclıq) sənətini öyrənmiş və işləmək üçün Qəzvinə qayıtmışdır.

Əyanların Yusif Sərracdan xoşları gəlmədiyi üçün onu Şah Abbasın əvəzinə müvəqqəti taxt-tac sahibi seçirlər ki, ulduzlardan gələcək xəta ona toxunsun. O, taxta çıxan kimi aşağıdakı islahat işlərini aparır: rüşvətxor, yaltaq, satqın vəzirləri zindana salır, onların vəzifələrini namuslu adamlara tapşırır, münəccimbaşılığı tamam ləğv edir, hər vilayətə xüsusi baxıcılar göndərir, vilayət hakimlərinə tapşırır ki, heç kəsə nahaq cəza verməsinlər. Din xadimlərinə dövlət xəzinəsindən ayrıca maaş təyin etməklə onları dövlətə daha möhkəm bağlayır, onların hər cür özbaşınalıqlarının qarşısını almağa çalışır. Məhkəmə işləri ruhanilərin əlindən alınır. Yusif şah yeni vergi qanunları elan edir. Vergi məbləği orta miqdaradək azaldılır. Hakim təbəqə nümayəndələrindən də vergi alınması barədə qərar çıxarır. Kəndlilərdən alınası vergiləri lap azaldır, bu verginin miqdarı gəlirlərin iyirmidə biri qədər müəyyən edilir.

Yusif şah xiyabanların genişləndirilməsi və səliqəyə salınması haqqında göstəriş verir, küçələri çirkli saxladıqları üçün kətxudaları vəzifədən qovur. Dağılmış yolları, körpüləri düzəltmək, susuz yerlərə su çəkdirmək, karvansaralar, məktəblər, xəstəxanalar tikmək barədə sərəncam verir, yetimlərə, şikəstlərə və korlara ianə paylatdırır. Bunlar Yusif şahın ölkəni abadlaşdırmaq və milləti maarifləndirmək proqramına daxil idi.

Yusif şahın 2 həftəlik şahlığı İran üçün «səadət əyyamı»na çevrilir. Lakin zülmə öyrəşən əhali «yaxşı günə dözmür», bu xeyirxah, alicənab hakimiyyət, alicənab hakim onların ağlına batmır, zülmə, müxtəlif zülm və cəza formalarına adət etdiklərindən Yusif Sərracı bir hakim, bir padşah

kimi qəbul edə bilmir. Bundan istifadə edən fitnəkarlar xalqı üsyana qaldırıb Yusif Sərracı taxtdan salırlar.

M.F.Axundzadə xalqın qiyamı epizodu ilə demək istəyirdi ki, yalnız hökmdarı dəyişməklə, hətta ağıllı, xalqpərəst bir adamı hakimiyyətə gətirməklə hər şey düzəlmir. Xalqın, kütlənin də şüurunda inqilab olmalı, o, ağıllı hökmdarın islahatlarını başa düşməli, lazım gəldikdə onu müdafiə etməyi də bacarmalıdır. Bəlkə də, maariflənməni məhz kütlədən başlamaq lazımdır. Bu, yoxdursa, hər cür islahat tamamlanmamış qala bilər.

Əsərdəki I Şah Abbas surəti kimi, Yusif Sərrac da tarixi şəxsiyyətdir.

Şərq despotizminin tənqidini verən povest bədii xüsusiyyətləri, fabulası, süjet və kompozisiyası baxımından yüksək sənət əsəridir. Əsərdə tarixi əhvalat müasir həyatla, mifik təfəkkür real hadisələrlə əlaqələndirilmişdir. Povestin aydın bir təhkiyəsi vardır. Obrazların özünəməxsus keyfiyyətləri onların söhbətlərində və qarşılıqlı münasibətlərində açılır.

Əsər başdan-başa kinayə üslubunda yazılmışdır. Həm də bu kinayə elə əsərin adından başlayır. Əslində aldanan ulduzlar deyil, iranlıların özləridir. Onlar münəccimlərə inanmaqla, Şah Abbasların – despotların hakimiyyətinə dözməklə, zülmə, qəddarlığa alışmaqla aldanırlar. Bu aldanışları ilə məzlum iranlılar Şah Abbasların müttəfiqi olurlar.

Fabulanı təşkil edən hadisələrin bir qismi Şah Abbas, ikinci qismi isə Yusif Sərracla bağlı cərəyan edir. Buna görə də povestin fabulası iki hissəyə bölünür: birinci hissə Mirzə Sədrəddinin ulduzların novruzdan 15 gün sonra toqquşacağından şaha xətər yetiriləcəyi barədə Şah Abbasa xəbər verməsi ilə başlayıb, Yusif Sərracın hakimiyyətə gətirilməsi ilə tamamlanır. İkinci hissə isə mollabaşı Axund Səmədin Yusif Sərrac haqqında məlumatı ilə başlayıb onun taxtdan salınması, itkin düşməsi ilə davam edir və köhnə şahın öz yerinə qaytarılması ilə sona çatır.

«Aldanmış kəvakib» povesti XIX-XX əsrlərdə milli ədəbiyyatın inkişafına mühüm təsir göstərmiş, Z.Marağayi, M.Ə.Talıbov, S.M.Qənizadə kimi yazıçılar həmin əsərdən bəhrələnmiş və yeni bədii nəsr nümunələri yaratmışlar.

A variantı

1. M.F.Axundzadənini həyat və yaradıcılığı ilə bağlı ***səhv*** fikri göstərin.
   A) 1812-ci ildə iyun ayının 30-da Şəki şəhərində anadan olmuşdur.
   B) Uşaqlıqdan anasının əmisi Axund Ələsgərin himayəsində böyümüşdür.
   C) Fars, ərəb və rus dillərini mükəmməl bilirdi.
   D) Mirzə Şəfi ilə tanışlıq onun həyata baxışında yenilik əmələ gətirmişdir.
   E) Ömrünün sonlarında canişinlikdəki işindən çıxarılmış, daha öz işinə bərpa oluna bilməmişdir.

2. M.F.Axundzadənin həyat və yaradıcılığı ilə bağlı ***səhv*** fikri göstərin.
   A) 1833-cü ildə Şəkidə açılan ibtidai rus məktəbində oxumuşdur.
   B) 1834-cü ildən ömrünün sonuna qədər şərq dilləri mütərcimi vəzifəsində çalışmışdır.
   C) 1836-cı ildən Tiflis qəza məktəbində müəllim işləmişdir.
   D) 1848-ci ildə İrana gedərək Təbriz və Tehran şəhərlərini gəzmişdir.
   E) Dramatik əsərlərini 1850–1857-ci illərdə qələmə almışdır.

3. M.F.Axundzadənin həyat və yaradıcılığı ilə bağlı ***səhv*** fikri göstərin.
   A) 1850-ci ildə yazdığı "Hekayəti-Molla İbrahimxəlil kimyagər" komediyası ilə Azərbaycanda dramaturgiyanın əsasını qoymuşdur.
   B) 1857-ci ildə "Aldanmış kəvakib" povestini qələmə almışdır.
   C) 1863-cü ildə İstanbula getmiş və yeni əlifba layihəsini Türkiyənin baş naziri Fuad paşaya təqdim etmişdir.
   D) "Kəmalüddövlə məktubları" əsərini özü 1866-cı ildə fars dilinə çevirmişdir.
   E) 1865-ci ildə "Kəmalüdövlə məktubları" adlı bədii-fəlsəfi əsərini tamamlamışdır.

4. M.F.Axundzadənin həyat ilə bağlı ***səhv*** fikri göstərin.
   A) 1832-ci ildə Axund Ələsgər Fətəlini dini təhsil almaq üçün Gəncəyə gətirmişdir.

B) 1836-cı ildən Tiflis qəza məktəbində müəllim işləməyə başlamışdır.
C) 1842-ci ildə Axund Hacı Ələsgərin qızı Tubu xanımla evlənmişdir.
D) 1877-ci ilin axırlarında ağır ürək-astma xəstəliyinə tutulmuşdur.
E) 1877-ci ilin sonlarında vəfat etmişdir.

5. M.F.Axundzadənin dram janrında yazdığı əsər hansıdır?
A) "Hekayəti - xırs quldurbasan"
B) "Hekayəti-molla İbrahimxəlil kimyagər"
C) "Sərgüzəşti-vəziri-xani-Lənkəran"
D) "Hacı Qara"
E) "Mürafiə vəkillərinin hekayəti"

6. M.F.Axundzadə hansı əsəri ilə yeni tipli realist nəsrin əsasını qoymuşdur?
A) "Aldanmış kəvakib" B) "Kəmalüddövlə məktubları"
C) "Matəm qəsidəsi" D) "Mürafiə vəkillərinin hekayəti"
E) "Hekayəti-Molla İbrahimxəlil kimyagər"

7. M.F.Axundzadənin aşağıdakı əsərlərindən biri nə epik, nə də dramatik növdə ***deyil:***
A) "Hekayəti-Molla İbrahimxəlil kimyagər"
B) "Aldanmış kəvakib"
C) "Zakirə məktub"
D) "Hacı Qara"
E) "Hekayəti-xırs quldurbasan"

8. Aşağıdakılardan hansına ədəbiyyatımız tarixində ilk dəfə olaraq M.F.Axundzadə yaradıcılığında rast gəlirik?
A) təhkiyəyə B) remarkaya C) tərənnümə D) dialoqa E) peyzaja

9. Bunlardan birini ədəbiyyatımıza ilk dəfə M.F.Axundzadə gətirmişdir:
A) fədakar aşiq obrazı B) nakam aşiq obrazı
C) qərbi avropalı obrazı D) bəy obrazı E) ziyalı obrazı

10. M.F.Axundzadənin bu əsərlərindən biri teatr tariximizdə tamaşaya qoyulmuş ikinci pyesdir:
A) "Sərgüzəşti-vəziri-xani Lənkəran"
B) "Mürafiə vəkillərinin hekayəti"
C) "Hacı Qara"
D) "Hekayəti-Molla İbrahimxəlil kimyagər"
E) "Müsyo Jordan və dərviş Məstəli şah"

B variantı

1. M.F.Axundzadənin iki adı olan əsərlərinin seçin.
   1. "Hekayəti-Molla İbrahimxəlil kimyagər"
   2. "Aldanmış kəvakib"
   3. "Hekayəti-xırs quldurbasan"
   4. "Hekayəti-mərdi-xəsis"
   5. "Mürafiə vəkillərinin hekayəti"
   6. "Matəm qəsidəsi"
   7. "Müsyö Jordan və dərviş Məstəli şah"
   8. "Hekayəti-vəziri-xani-Lənkəran"

   A) 1, 2, 6, 7 B) 2, 3, 7 C) 2, 4, 5, 6
   D) 3, 4, 8 E) 4, 5, 8

2. Aşağıdakı cərgələrin birindəki surətlər M.F.Axundzadənin "Lənkəran xanının vəziri" komediyasındadır:
   A) Molla İbrahimxəlil kimyagər, Hacı Nuru
   B) Bayram, Pərzad
   C) Mirzə Həbib, Teymur ağa
   D) Müsyö Jordan və dərviş Məstəli şah
   E) Hacı Qara, Tükəz

3. Aşağıdakı cərgələrin birindəki surətlər M.F.Axundzadənin mövzusu Cənubi Azərbaycan həyatından alınmış pyesinə aiddir:
   A) Hacı Kərim, Ağa Zaman
   B) Molla Salman, Məşədi Cabbar
   C) Səkinə xanım, Zeynəb
   D) Məşədi Qurban, Tarverdi
   E) Lənkəran xanı, Mirzə Həbib

4. M.F.Axundzadənin yaratdığı Hacı Nuru surəti aşağıdakılardan birinə malik ola ***bilmir:***
   A) şairdir
   B) ağıllı insandır

C) namuslu şəxsdir
D) vətənpərvər ziyalıdır
E) "nuxuluları" ayıltmaq gücünə malikdir.

5. Aşağıdakılardan biri M.F.Axundzadənin "Hekayəti-xırs quldurbasan" dramına aid ***deyil:***
A) Mövzusu kənd həyatından alınmışdır.
B) Fabulası sevgi macərası üzərində qurulmuşdur.
C) Dramda hadisələr bir neçə xətt üzrə inkişaf edir.
D) İctimai bərabərlik, azad, qarşılıqlı məhəbbət ideyaları müdafiə edilir.
E) Qadın hüquqsuzluğuna qarşı yazılmışdır.

6. M.F.Axundzadənin "Hekayəti-vəziri-xani-Lənkəran" komediyasına aid fikirlərdən biri ***səhvdir***:
A) Mövzusu Azərbaycan xanlıqlar dövründən alınmışdır.
B) Süjeti ailə-məişət macəraları üzərində qurulmuşdur.
C) Ölkəni idarə edən ali hakimlərin bacarıqsızlığı, despotizmi əks etdirilmişdir.
D) Lənkəran xanının danışığı ilə hərəkətləri arasında gülünc bir ziddiyyət vardır.
E) Lənkəran xanının vəziri atının gözü qonşusu tərəfindən çıxarılan şikayətçiyə deyir: "Sən də get vur onun atının bir gözünü çıxar".

7. M.F.Axundzadənin "Sərgüzəşti-mərdi-xəsis" komediyasına aid edilmiş fikirlərdən biri ***səhvdir***:
A) Əsər çox zaman qəhrəmanın adı ilə "Hacı Qara" adlanır.
B) Hacı Qara dramatik planda göstərilir.
C) Əsərin komik qəhrəmanı və əsas gülüş hədəfi Hacı Qaradır.
D) Hacı Qara tamahkar və acgöz tacirdir.
E) Xəsislik mövzusunda yazılmışdır.

8. M.F.Axundzadənin "Mürafiə vəkillərinin hekayəti" komediyasına aid fikirlərdən biri ***səhvdir***.
   A) Dramaturqun sonuncu komediyasıdır.
   B) Mövzusu Cənubi Azərbaycan həyatından alınmışdır.
   C) Əsərdə haqqı Səkinə xanım və tərəfdarları, nahaqqı Ağa Həsən və tərəfdarları təmsil edirlər.
   D) Haqsızlıq Səkinə xanımın qələbəsinə imkan vermir.
   E) Pyesdə əsas tənqid hədəfi Ağa Mərdan Halvaçı oğludur.

9. Aşağıdakılardan biri M.F.Axundzadənin "Hekayəti-müsyö Jordan və dərviş Məstəli şah" komediyası üçün doğru sayıla ***bilməz***:
   A) Komediyanın ideyasını avamlığın və cadugərliyin tənqidi təşkil edir.
   B) Əsərin satirik gülüş hədəfi dərviş Məstəli şahdır.
   C) Dramaturq Hatəmxan ağanın simasında XX əsrin əvvəllərində yaşayan Azərbaycan mülkədarlarını ümumiləşdirmişdir.
   D) Pyesdəki əsas hadisələrin mərkəzində müsyö Jordan surəti dayanır.
   E) Məstəli şahın həqiqi siması öz köməkçisi Qulaməli ilə söhbətində açılır.

10. M.F.Axundzadənin "Aldanmış kəvakib" povesti ilə bağlı ***səhv*** fikri müəyyənləşdirin.
   A) Ədəbiyyatımızda yeni tipli realist nəsrin əsası bu əsərlə qoyulmuşdur.
   B) Əsərin məğzi "Tarixi-aləmarayi-Abbasi" kitabından götürülmüşdür.
   C) Povestdə əsas tənqid hədəfi Şah Abbasdır.
   D) Yusif Sərrac islahatçı bir surət kimi verilmişdir.
   E) Əsər "Hekayəti-Şah Abbas" adı ilə də tanınır.

C variantı

1. Yusif şah nə üçün bütün ruhanilərə xəzinədən maaş təyin etdi?
   A) Bütün ruhanilərin rəğbətini qazanmaq istəyirdi.
   B) İstədi ki, mollabaşı və bütün ruhanilər dövlətdən asılı olduqlarını hiss etsinlər.
   C) İstədi ki, bütün ruhanilər əsl allah adamı olsunlar.
   D) İstədi ki, bütün mollalar ilahiyyat elmi ilə daha yaxından məşğul olsunlar.
   E) İstədi ki, din xadimləri sabahkı günlərindən arxayın olsunlar.

2. M.F.Axundzadə "Hekayəti-müsyö Jordan və dərviş Məstəli şah" komediyasında müsyö Jordanın Şahbaz bəyi Parisə apara ***bilməməsinin*** səbəbi nədir?
   A) nişanlısının umu-küsü edib Şahbaz bəydən inciməsi
   B) qayınanasının təsiredici məsləhətləri
   C) Parisdə inqilabın baş verməsi xəbəri
   D) dərviş Məstəli şahın cadusunun təsiri
   E) Hatəmxan ağanın hədə-qorxusu

3. Aşağıda M.F.Azundzadənin yaratdığı obrazlarla bağlı müxtəlif fikirlər verilmişdir. Onlardan hansı dərviş Məstəli şaha aiddir?
   A) Hiyləgər, fırıldaqçı, kələkbaz vəkillərin nümayəndəsidir.
   B) Camaatın avamlığından istifadə edib onu aldadan tüfeylilərin ümumiləşmiş surətidir.
   C) Avam camaatı aldadan yalançı kimyagərlərin səciyyəvi xüsusiyyətlərini əks etdirən obrazdır.
   D) Feodal-istibdad quruluşunun hakim təbəqələrinin tipik xüsusiyyətlərinin təmsilçisidir.
   E) Xəsis, tamahkar və acgöz tacirlərin ümumiləşmiş nümayəndəsidir.

4. Dərviş Məstəli şahın əsl siması əsərin hansı məqamında tam şəkildə açılır?
   A) Şəhrəbanu ona güvəndiyini bildirəndə

B) Şərəfnisənin ondan nicat istəməsində
C) Köməkçisi Qulaməli ilə söhbətində
D) Xanpərinin onunla dialoqunda
E) Özünün monoloqunda

5. Aşağıdakı fikirlərdən hansını M.F.Axundzadənin yaratdığı Hatəmxan ağa surətinin ("Hekayəti-müsyö Jordan və dərviş Məstəli şah") əsas xüsusiyyəti kimi götürmək olar?
A) yaxşı ailə başçılığı və qonaqpərvərlik
B) köhnə ata-baba qaydaları ilə yaşamaq
C) ağıllı və fərasətli kişi kimi tanınmaq
D) müasirliyə və təhsilə meyil göstərmək
E) XIX əsrin 40-cı illərində yaşayan Azərbaycan mülkədarlarının nümayəndəsi olmaq

6. Aşağıdakı surətlərdən biri çox az görünməyinə baxmayaraq, M.F.Axundzadənin "Hekayəti-müsyö Jordan və dərviş Məstəli şah" komediyasındakı əsas hadisələrin mərkəzində dayanır:
A) Hatəmxan ağa
B) Dərviş Məstəli şah
C) müsyö Jordan
D) Şahbaz bəy
E) Şəhrəbanu xanım

7. M.F.Axundzadənin "Hekayəti-müsyö Jordan və dərviş Məstəli şah" komediyasındakı müsyö Jordan tədqiqat nəticəsində hansı qənaətə gəlir?
A) Azərbaycan xörəkləri Avropadakından çox üstündür.
B) Fransız dilini öyrətmək Fransanı təbliğ etmək deməkdir.
C) Gözəllikdə Azərbaycan torpağının tayı-bərabəri yoxdur.
D) Alp dağlarında, Amerikada, Afrikada mövcud olan dərman bitkilərinin çoxu Qarabağda vardır.
E) Qərb ölkələri, o sıradan Fransa Azərbaycanla ticarət əlaqələri qursalar, bu, onlar üçün çox faydalı olar.

8. Aşağıdakı fikirlərdən biri M.F.Axundzadənin "Hekayəti-müsyö Jordan və dərviş Məstəli şah" komediyasındakı Şərəfnisə surətini Şəhrəbanudan fərqləndirir:
   A) sadəlik və açıqürəklik
   B) avamlıq və dardüşüncəlilik
   C) saflıq və təmizlik
   D) Şahbaz bəyin Qarabağdan kənara çıxmasına razı olmamaq
   E) ağlayıb göz yaşı axıtmaq

9. M.F. Axundzadənin yaratdığı Şahbaz bəy surətində ("Hekayəti-müsyö Jordan və dərviş Məstəli şah") hansı xüsusiyyətlər ümumiləşmişdir?
   1. Yeni həyat, yeni yaşayış tərzi və adətlər barədə düşünmək
   2. Avropa ölkələrinə gedib qızlarla bir məclisdə oturmaq, rəqs etmək
   3. Qabaqcıl dünya, o cümlədən qərb mədəniyyəti ilə tanış olmaq istəyi
   4. Bir neçə dil öyrənib əmisinin mülkünü idarə etmək
   5. Həyatda yaxşı mövqe tutmaq üçün geniş təhsil almaq
   A) 1, 2, 3 B) 2, 3, 4 C) 3, 4, 5
   D) 1, 2, 4 E) 1, 3, 5

10. "Müsyö Jordan" pyesində Şahbaz bəy "qamışlıqdan çıxmaq" ifadəsi ilə nəyə işarə edirdi?
   A) fransız dilini öyrənib çoxlu dil bilməsi ilə öz dostlarından fərqlənə bilməsinə
   B) Təklə Muğan obası kimi cansıxıcı, geridə qalmış bir mühitdən çıxıb Tiflisdə canişin yanında işə düzələ bilməsinə
   C) nişanlısı Şərəfnisə xanımın daha müasir görünməsinə
   D) Təklə Muğanlıdan çıxıb Tiflisdə, şəhərdə yeni iqtisadi-ticari əlaqələr qura bilməsinə
   E) həm Tiflisdə, həm Parisdə yeni dostlar tapa bilməsinə

D variantı

1. Aşağıdakı fikirlərdən hansılar M.F.Axundzadənin "Aldanmış kəvakib" povestinə deyil, məhz İsgəndər bəy Münşinin "Tarixi-aləmarayi-Abbasi" kitabına aiddir?
   1. Səltənətə sahib olmaq üçün çöpün Yusif Sərraca düşməsi
   2. Axtarış zamanı Yusif Sərracın evindən şərab tapılması və onun dinsiz kimi edam edilməsi
   3. Yusif Sərracın dəvəyə mindirilib şahlıq məqamına gətirilməsi
   4. Əsərin "Hekayəti-Yusif şah" adı ilə tanınması
   5. Ulduzların toqquşması xəbərinin şaha mövlana Cəmaləddin Yəzdi tərəfindən verilməsi
   6. Yusif Sərracın iki həftəlik hakimiyyəti

   A) 1, 2, 3, 5 B) 2, 3, 4, 6 C) 1, 3, 4, 5 D) 1, 2, 4 E) 1, 3, 6

2. "Aldanmış kəvakib" povestində Şah Abbasın nadanlığı və eybəcərliyi hansı məqamda tam şəkildə açılır?
   A) saray xadimlərinin özünü təqdimində
   B) oğlanlarından birini öldürməsi, ikincisinin gözünü çıxartmasında
   C) günlərini eyş-işrətlə keçirməsində
   D) əhalinin qayğıları ilə maraqlanmağında
   E) ölkənin müqəddəratını düşünməməyində

3. Şah Abbasın insanları dar ağacına çəkməsində, onları şaqqaladıb qala qapısından asdırmasında məqsədi nə idi?
   A) ölkədə bir intizam və sabitlik yaratmaq
   B) saray xadimlərinə dərs vermək
   C) qohumlarını gərgin vəziyyətdə saxlamaq
   D) ölkəni ağır vəziyyətdən çıxarmaq
   E) qorxu yolu ilə hakimiyyəti əlində saxlamaq

4. "Aldanmış kəvakib" povestində aşağıdakı surətlərdən hansı haqqında daha geniş məlumat vardır?
   A) Şah Abbas B) Yusif Sərrac
   C) Mirzə Möhsün D) Axund Səməd
   E) Mirzə Sədrəddin

5. Yusif Sərrac hansı şəhərlərdə təhsil almışdır?
   1. Təbriz 2. Qəzvin 3. Ərdəbil
   4. İsfahan 5. Kərbəla 6. Həmədan
   A) 1, 2, 3, 4 B) 2, 3, 4, 5 C) 3, 4, 5, 6
   D) 2, 4, 5, 6 E) 1, 3, 5, 6

6. Yusif Sərrac hakimiyyətə gəldikdən sonra hansı vəzifəni ləğv edir?
   A) qoşun başçısı B) mollabaşı
   C) münəccimbaşı D) maliyyə işləri üzrə vəzir
   E) vilayətlər üzrə baxıcı

7. "Aldanmış kəvakib" povestində ulduzlardan "qurtulmaq" yolunu kim göstərdi?
   A) Sərdar Zaman xan B) mövlana Cəmaləddin
   C) mollabaşı axund Səməd D) müstovfi Mirzə Yəhya
   E) vəzir Mirzə Möhsün

8. Yusif Sərrac özü ilə bağlı qərarın – hakimiyyətə gətirilməsinin səbəbini kimdən soruşub öyrəndi?
   A) münəccimbaşı Mirzə Sədrəddindən B) Sərdar Zaman xandan
   C) mollabaşı axund Səməddən D) xacə Mübarəkdən
   E) şahın arvadı Səlma xatundan

9. "Aldanmış kəvakib" povestinin birinci hissəsinə aid hadisələr hansılardır?
   1. Mirzə Sədrəddinin ulduzların toqquşması barədə xəbəri şah Abbasa çatdırması
   2. Yusif Sərracın hakimiyyətə gətirilməsi
   3. Axund Səmədin Yusif Sərrac haqqında məlumat verməsi
   4. Fitnəkarların qiyamı nəticəsində Yusif Sərracın taxtdan salınması
   5. Köhnə şahın öz yerinə qaytarılması
   A) 1, 5 B) 1, 2, 3 C) 3, 4, 5 D) 4, 5 E) 1, 3, 4

10. "Aldanmış kəvakib" povestinin ikinci hissəsinə aid hadisələr hansılardır?
   1. Mirzə Sədrəddinin ulduzların toqquşması barədə xəbəri Şah Abbasa çatdırması
   2. Yusif Sərracın hakimiyyətə gətirilməsi
   3. Axund Səmədin Yusif Sərrac haqqında məlumat verməsi
   4. Fitnəkarların qiyamı nəticəsində Yusif Sərracın taxtdan salınması
   5. Köhnə şahın öz yerinə qaytarılması
   A) 1, 2, 3 B) 1, 2 C) 4, 5 D) 2, 5 E) 1, 3, 4

Seyid Əzim Şirvani

(1835 – 1888)

S.Ə.Şirvani Azərbaycan ədəbiyyatında Füzuli ənənələrinin ən güclü davamçısıdır. Satirik şeiri də məzmun və forma baxımından inkişaf etdirmişdir. O, pedaqoji fikir tariximizdə də müəyyən yer tutur.

Həyatı

Seyid Əzim Seyid Məhəmməd oğlu Şirvani 1835-ci il iyul ayının 10-da Şamaxı şəhərində doğulmuş, atası vəfat etdiyindən 7 yaşından anası Səkinə xanımın himayəsində olmuşdur. Uşaqlıq və yeniyetməlik dövrünün 11 ilini isə Dağıstanın Yaqsay kəndində ana babası Molla Hüseynin himayəsində keçirmişdir. O, burada ibtidai təhsil almış, ərəb və fars dillərini, bir neçə Dağıstan ləhcəsini öyrənmişdir.

1853-cü ildə anası ilə birgə Şamaxıya qayıtmışdır. Dini biliyini dərinləşdirmək üçün Bağdada getmiş, sonra isə Şama köçmüşdür.

1857-ci ildə vətənə qayıtmış, az sonra yenə səfərə çıxmışdır. Məkkə və Mədinədən keçərək, Misir və Suriyanı səyahət etmişdir. 50-ci illərin sonlarında isə Şamaxıya dönmüşdür. Dini-sxolastik elmlərə həvəsi sönən S.Ə.Şirvani ruhani olmaqdan əl çəkir və məktəbdarlıq işinə başlayır. O, məhəllə məktəblərindən başqa, dövlət məktəblərində də müəllim kimi çalışır.

S.Ə.Şirvani 1875-ci ildə Bakıda «Əkinçi» qəzetinin nəşrə başlamasını sevinclə qarşılayır və şeirlərinin bəzilərini bu qəzetin səhifələrində çap etdirir. «Əkinçi» bağlandıqdan sonra öz şeirlərini və müxbir məktublarını «Ziya» və «Ziyayi-Qafqaziyyə» qəzetlərinə göndərir.

1877-ci ildə Şamaxı məclis məktəbinə Azərbaycan dili və şəriət müəllimi düzəlmiş, qısa fasilə ilə ömrünün sonuna qədər həmin vəzifədə çalışmışdır. O, şagirdlərinə Nizami, Sədi, Hafiz, Füzuli kimi böyük klassiklərdən etdiyi tərcümələri və özünün şeirlərini oxuyurdu. Bu

əsərlərdə cəhalət və nadanlığa qarşı mübarizə, maarifə və azadlığa rəğbət ideyaları təbliğ olunurdu.

1879-cu ildə S.Ə.Şirvani «siyasi cəhətdən şübhəli müəllim» kimi ittiham olunaraq Şamaxı şəhər (məclis) məktəbi müəllimliyindən azad edilir. Şair Tiflisə şikayətə gedib günahsız olduğunu sübuta yetirir və yenidən öz vəzifəsinə qayıdır.

Tiflisə gedərkən yolüstü Gəncədə Nizaminin qəbrini ziyarət edir, şairin dağılmış məzarını görüb təəssüf hissi ilə deyir:

Ey Şeyx Nizami, ey nizamı dağılan,
Ey Gəncədə izzü ehtişamı dağılan,
Olmuşmu sənlə mən kimi aləmdə
Beyti, evi, məktəbi, kəlamı dağılan?

Bir az sonra isə əleyhdarları şairin şəxsi məktəbini bağlatdırırlar. Bu, onun iradəsini sındırmır. Əksinə, S.Ə.Şirvani pedaqoji fəaliyyətini daha geniş şəkildə davam etdirir. 1878-ci ildə «Rəbiül-ətfal» («Uşaqların baharı») dərsliyini tamamlayır.

1887-ci ildə maarif sahəsindəki xidmətlərinə görə «Za userdiye» medalı ilə təltif olunur. Lakin medal üçün tələb olunan 7 manat 50 qəpiyi tapa bilməmiş, yalnız ölümünə 10 gün qalmış – 1888-ci il may ayının 10-da medalı ala bilmişdir.

S.Ə.Şirvani 1888-ci il may ayının 20-də vəfat etmiş və vəsiyyətinə əsasən Şamaxının Şaxəndan qəbiristanlığında dəfn olunmuşdur.

Yaradıcılığı

S.Ə.Şirvani ədəbiyyatımızda incə ruhlu lirik şair, cəmiyyətin bəlalarını cəsarətlə tənqid edən satirik şeirlər müəllifi, ciddi ictimai məzmunlu epik əsərlər – mənzum hekayə və təmsillər yaradıcısı kimi məşhurdur. O, ədəbiyyatşünas-təzkirəçi kimi də tanınır. S.Ə.Şirvani XIX əsr Azərbaycan ədəbiyyatında daha çox qəzəl ustadı kimi sevilir. Bu cəhətdən XIX əsrdə, hətta sonrakı dövrdə də M.Füzulinin ən böyük davamçısı odur.

O, lirik şeirlərini qəzəl, qəsidə, rübai, qitə, müxəmməs (o cümlədən təxmis), müsəddəs, müstəzad, tərcibənd, tərkibbənd, mürəbbe janrlarında, mənzum hekayə, təmsil, öyüd və nəsihətlərini məsnəvi formasında yazmış və Füzuli ədəbi məktəbinin ənənələrini davam etdirmişdir.

Şairin lirikasının əsasını məhəbbət mövzusu təşkil edir. Bu mövzulu şeirlərinin əsas iki lirik surəti vardır: birincisi Məşuqə, ikincisi Aşiq.

Zahirən gözəl olan Məşuqə daxilən də təmiz və zəngindir. Onun xarici gözəlliyi ilə daxili-mənəvi saflığı arasında vəhdət vardır. Məşuqə qadına məxsus ən yaxşı sifətləri özündə cəmləşdirmişdir. Tərbiyəli və əxlaqlı bir qız olan Məşuqənin ən böyük idealı təmiz sevgi və həqiqi məhəbbətdir. Mənəvi keyfiyyətlərinə görə vəfalı, sədaqətli, doğruçul, zahiri əlamətlərinə görə isə günəş üzlü, nərgiz gözlü, yaqut dodaqlı, qönçə ağızlı bir qızdır.

Aşiq də nikbin, dözümlü, öz məhəbbətinə sadiq bir gəncdir. Bəzən o, təəssüf və peşmançılıq hissi keçirsə də, bu hislər ötəridir. Aşiq sevgilisinin etinasızlığından, ona verdiyi əzabdan şikayətlənsə də, məhəbbətindən dönmür. Aşiq öz Məşuqəsini dünya nemətlərindən üstün, bütün gözəllərin şahı hesab edir.

«Necə həmtay tutum hər büti-zibayə səni» qəzəli. Qəzəl 7 beytdən ibarətdir, əruz vəzninin rəməl bəhrindədir. Aşiqin dilindən söylənir və gözəllik tərənnüm olunur. Aşiq sevgilisini hər cür bəşər övladından da, əfsanəvi bütlərdən də üstün hesab edir. Onu gözəlliyinə görə Aydan üstün tutur:

Necə həmtay tutum hər büti-zibayə səni?
Vermərəm, tanrı bilir, cümlə bu dünyayə səni.

Bu qızı aya oxşatmaq da azdır, şair qorxur ki, onu aya bənzətsə, bu müqayisəni naqis hesab edələr:

Qorxuram ki, nəzər əhli deyə naqisdi bu söz,
Oxşadam hüsndə hərçənd tamam aya səni.

Gözəlin yanaqları gün kimi parlaq və işıqlıdır, mələklər bu gözəli göyə qaldırsalar, hər tərəf nura boyanar. Dirilik suyu axtaran əfsanəvi Xızır onu görsə, axtardığını tapmış olar, İsa peyğəmbər onu görsə, günəşi arzulamaz:

Arizin gün əvəzi, aləmi nurani edər,
Gər mələklər çəkələr ərşi-müəllayə səni.

İstəməz abi-bəqa Xızrü Məsiha xurşid,
Göstərə bir kəs əgər Xızrü Məsihayə səni.

Məşuqə o qədər incədir ki, hətta gül budağının kölgəsi də onu incidə bilər. Ona görə də Aşiq sevgilisini bəd nəzərlərdən, eyni zamanda, gül budağının kölgəsindən də qorunmağa çağırır:

Şaxi-gül qoyma sala sayə sənə bağ içrə,
Bu nəzakətlə, gülüm, incidər ol sayə səni.

Aşiq bəyan edir ki, tərənnüm etdiyi gözəli ona versələr, o, cənnətin nə gülzarını, nə də mələklərini arzu etməz, çünki Aşiqin gözəli daha üstündür:

Nə edir arizuyi-hur, nə gülzari-behişt,
Versələr gərçi ki bu Seyyidi-şeydayə səni.

Şeirdə klassik ənənələrdən gələn «büti-ziba», «ərşi-müəlla», «abi-bəqa» kimi birləşmələr Azərbaycan dilinin doğma ahənginə, melodiyasına qovuşur. Xızır, Məsiha kimi dini-mifik adlar Məşuqənin gözəlliyini təqdim etmək üçün vasitəyə çevrilir. Qafiyə və rədif fikrin aydın başa düşülməsinə, beytlərin daha möhkəm rabitələnməsinə xidmət edir.

İctimai-fəlsəfi məzmunlu şeirləri. Bu şeirlərdə zəmanədən narazılıq və şikayət ruhu vardır. İnsanların bir-birlərinə düşmənçiliyini görən və «həzin ürəyinə yüz yara dəyən» şair kədərlənir. Bu, ictimai kədərin əlaməti idi. O, insanların vəfasızlığından şikayətlənirdi:

Bir əhli-hal tapmadım aləmdə, ey könül,
Şamü səhər bu halətə bihalət ağlaram.

Əxlaqi-didaktik əsərləri. S.Ə.Şirvaninin XIX əsrin 70-80-ci illərində məktəb, əxlaq, tərbiyə, mədəniyyət mövzularında yazdığı şeirləri didaktik poeziyanın ən gözəl nümunələridir. Bu nümunələrdə bilikli, tərbiyəli vətəndaşların yetişdirilməsinə xüsusi diqqət yetirilir. Maarifçi dünyagörüşünə malik şair-pedaqoq cəmiyyətin təkamül yolu ilə dəyişməsinə inanır və insanların mənəvi-əxlaqi kamilləşməsini vacib hesab edir.

Onun əxlaqi-didaktik əsərlərinin ana xəttini də məhz maarifçilik ideyalarının təbliği təşkil edir. «Əkinçi» qəzetində çap etdirdiyi şeirlərində geriliyi, cəhaləti pisləyir və millətin geridə qalmasının səbəblərini savadsızlıq və elmsizlikdə görürdü. Şair nadanlığı ictimai bəla hesab edir,

ondan xilas olmaq yolunu elmdə, bilikdə tapırdı. O, "Qafqaz müsəlmanlarına xitab" adlı mənzum məktubunda yarırdı:

Dadü fəryad, ey güruhi-izam,
Oldu zaye bu milləti-islam.
Günü – gündən zəlilü xar olduq,
Möhnətü qüssəyə düçar olduq.
Bu qədər dərd kim, olur hadis,
Ona bielmlik olur bais.
Bir bəladır bu dərdi-nadani
Ki, onun elm olubdu dərmanı.

S.Ə.Şirvani bu məktubda, eləcə də «Əkinçi» qəzetinin redaktoru Həsən bəy Zərdabiyə göndərdiyi digər mənzum məktublarda mətbuatın faydası haqqında da danışır, müasir mədəniyyətə yiyələnməkdə qəzetin rolunu yüksək qiymətləndirirdi. Qəzetdə yazılanları başa düşmədən «tamam pul tələsi» hesab edən cahil adamlara qarşı çıxaraq qəzeti qaranlıq mühitə işıq saçan bir vasitə sayır, bunun üçün də müasirlərini «Əkinçi»nin nəşrinə kömək etməyə çağırırdı:

Bəs «Əkinçi» cəlalımızdı bizim,
Nasehi-xoşməqalımızdı bizim.
Səy edin, ey güruhi-niksifat,
Etməsin ta «Əkinçi» vəfat.

Şair qəzet bağlandıqdan sonra da bədii yaradıcılığında elmin, təhsilin səmərəsi, başqa dilləri öyrənməyin əhəmiyyəti barədə danışırdı.

Mənzum hekayələr S.Ə.Şirvaninin əxlaqi-didaktik əsərlərinin müəyyən hissəsini təşkil edir. Sayı 100-dən artıq olan bu mənzum hekayələrin çoxunu şair Azərbaycan xalq nağıllarından, lətifə və rəvayətlərdən istifadə yolu ilə qələmə almışdır. Mənzum hekayələrinin bir hissəsi N.Gəncəvinin «Sirlər xəzinəsi», «İqbalnamə», bir hissəsi Sədinin «Gülüstan» və «Bustan» əsərlərindən alınmışdır. Bir mənzum hekayə isə – «Musa və çobanın hekayəti» Cəlaləddin Ruminin «Məsnəvi»sindən iqtibas edilmişdir.

Satiraları. Məşhur satirik kimi tanınan S.Ə.Şirvani «xalqın qanını şişə tutan» çar çinovniklərinə, mülkədar və bəylərə, təriqət başçılarına etiraz etmiş, onları kəskin satira atəşinə tutmuşdur. Onun tənqid hədəfləri əhalini «qurd kimi soyanlardan» ibarətdir: xan, bəy, rəis, qazı, məhkəmə üzvləri,

vəkil, polis və s. Şair bu «sahibi-ixtiyarları» «Əkinçinin hadisəsi», «Padşah və əkinçi», «Şamaxının yeni bəyləri haqqında həcv», «Şamaxının yeni vəziyyətindən şikayət», «Şamaxı-Şirvan bəylərindən Əli Əsgər bəyə şikayət» adlı satirik əsərlərində tənqid və ifşa etmişdir.

«Şirvanın təzə bəyləri» adlı satirik əsərində rüşvətxor çar məmurları, onların yerli əlaltıları ifşa olunur. Əhalini aldadan məhkəmə işçiləri və vəkillər acı kinayə ilə təsvir edilir.

«Tələbənin hadisəsi», «Müctəhidin təhsildən qayıtması», «Elmsiz alim», «Fəqih ilə oğlu», «Köhnə elmdən şikayət», «Avam ata ilə alim oğul» şeirlərində dini və şəriəti quldurluq silahına çevirmiş yalançı ruhani və müctəhidlərin ümumiləşdirilmiş surətləri yaradılmışdır.

Eləcə də tipik ruhani surətləri «Köpəyə ehsan», «Allaha rüşvət», «Yerdəkilərin göyə şikayəti», «Riyakar abid», «Münəccimlər yalançıdırlar», «Dəli şeytan» satirik şeirlərində qələmə alınmışdır.

Ümumiyyətlə, S.Ə.Şirvaninin müxtəlif mövzularda yazılan satirik şeirlərinin ana xəttini xalqın avamlığından istifadə edərək onları aldadan molla, vaiz, müctəhid, axund və tələbələrin fırıldaqçılığının tənqidi təşkil edir.

Dil və sənətkarlığı. Şair satirik şeirlərində xalq danışıq dilinə çox yaxınlaşır. Aşağıdakı nümunələr buna sübut ola bilər: «Dedilər kim, at ölüb, itlərə oldu bayram», «Eylə kəs var ki, çox yaxşıdır ondan eşşək», «Yekə bəylər pul alıb bir neçə alçaq bəydən», «Pul ki gəldi araya, bardağa səhəng dedilər», «Gühən atlar necə ki arpa qapar eşşəkdən», «Tikdi hakim bizə hər həftədə bir sarsağı», «Yaxşı eşşəkdi, vəli yoxdu onun palanı», «Nənəsi saxlar idi bir sürü Təbriz toyuğu», "Gözü göy, burnu yekə, boyu uzun, saqqalı ağ" və s.

Klassik poeziya ənənələri əsasında yazan S.Ə.Şirvaninin başlıca sənətkarlıq keyfiyyəti əsərlərindəki məzmun zənginliyindən doğur. Onun elə təkcə lirik şeirlərinin mövzuları bunlardır: aşiqin daxili-mənəvi dünyasının təsviri, Məşuqənin zahiri gözəlliyinin tərənnümü, həyatın mahiyyəti və yaşamağın mənası, zahidin zövqsüzlüyü, meyxananın tərifi və məscidin tənqidi və s. Əxlaqi-didaktik əsərlərinin və satiralarının məzmun dairəsi isə daha genişdir.

S.Ə.Şirvani əsərlərində metafora, mübaliğə, epitet, cinas, eyham, kinayə kimi bədii təsvir və ifadə vasitələrindən yerli-yerində istifadə etmişdir.

A variantı

1. S.Ə.Şirvaninin həyatı ilə bağlı ***səhv*** fikri göstərin.
   A) 1835-ci il iyul ayının 10-da Şamaxı şəhərində anadan olmuşdur.
   B) İbtidai təhsilini Dağıstanda almışdır.
   C) Bir neçə il Bağdadda və Şamda yaşamış, Məkkə və Mədinədən keçərək Misir və Suriyanı səyahət etmişdir.
   D) Bəzi şeirlərini "Əkinçi" qəzetində çap etdirmişdir.
   E) Uzun zəhmətdən sonra "Rəbiül-ətfal" dərsliyini çap etdirə bilmişdir.

2. S.Ə.Şirvaninin həyatı ilə bağlı ***səhv*** fikri göstərin.
   A) Fars və ərəb dillərinin öyrənmişdir.
   B) Həm məhəllə, həm də dövlət məktəblərində müəllim işləmişdir.
   C)1877-ci ildə Şamaxı məktəbinə Azərbaycan dili və şəriət müəllimi düzəlmiş və ömrünün axırına qədər həmin vəzifədə çalışmışdır.
   D) 1878-ci ildə "Rəbiül-ətfal" dərsliyini tamamlamışdır.
   E) Maarif sahəsindəki xidmətlərinə görə gümüş medalla təltif edilmişdir.

3. S.Ə.Şirvaninin həyatı ilə bağlı ***səhv*** fikri göstərin.
   A) Uşaqlıq və yeniyetməlik dövründə dini elmlərə maraq göstərmişdir.
   B) "Ziya" və "Ziyayi-Qafqaziyyə" qəzetlərinə şeir və müxbir məktubları göndərmişdir.
   C) 1879-cu ildə "siyasi cəhətdən şübhəli müəllim" kimi ittiham olunaraq vəzifədən azad edilmişdir.
   D) Müəllimlikdən çıxarılanda Tiflisə şikayətə gedir.
   E) Tiflisdə bəraət qazanıb öz vəzifəsinə qayıda bilmir.

4. S.Ə.Şirvani aşağıdakı janrların birində əsər yazmamışdır:
   A) qəzəl B) qəsidə C) qoşma D) müxəmməs E) qitə

5. S.Ə.Şirvani hansı sənətkarın adı ilə bağlı ədəbi məktəbin ənənələrini davam etdirmişdir?
   A) N.Gəncəvinin B) M.P.Vaqifin
   C) M.F.Axundzadənin D) M. Füzulinin E) Ö.Xəyyamın

6. S.Ə.Şirvaninin "Necə həmtay tutum hər büti-zibayə səni" misrası ilə başlayan şeiri haqqında ***səhv*** fikir hansıdır?
   A) Qəzəl janrındadır və 7 beytdən ibarətdir.
   B) Müəllif axırıncı beytdə adını çəkməmişdir.
   C) Məhəbbət mövzulu lirik şeirlərdəndir.
   D) Şeirdə işlənən "səni" sözü rədifdir.
   E) Rəməl bəhrindədir.

7. S.Ə.Şirvaninin "Necə həmtay tutum hər büti-zibayə səni" misrası ilə başlayan şeiri haqqında ***səhv*** fikir hansıdır?
   A) Aşiqin dilindən söylənilir.
   B) Sevgilinin gözəlliyi tərənnüm olunur.
   C) Şeir rədifsiz olduğundan birinci misra ilə adlandırılmışdır.
   D) Aşiq sevgilisini gözəlliyinə görə Aydan da üstün tutur.
   E) Aşiq sevgilisini əfsanəvi bütlərdən də cazibədar sayır.

8. Aşağıdakılardan biri S.Ə.Şirvaninin əxlaqi-didaktik əsərlərinin mövzusu ***deyil:***
   A) məktəb B) təlim C) tərbiyə D) mədəniyyət E) məhəbbət

9. Aşağıdakılardan biri təkamül yolu ilə insanın mənəvi kamilləşməsini vacib şərt hesab edən S.Ə.Şirvaninin pedaqoji və bədii fəaliyyətinə aid ***deyil:***
   A) elmin inkişafı
   B) mədəniyyətin təbliği
   C) bilikli adamların formalaşması
   D) tərbiyəli vətəndaşların yetişdirilməsi
   E) inqilabçı mübarizlərin çoxalması

10. S.Ə.Şirvaninin istifadə etdiyi aşağıdakı janrlardan birində daha çox şairin əxlaqi-didaktik görüşləri verilir:
    A) qəzəl
    B) qəsidə
    C) qitə
    D) müxəmməs
    E) mənzum hekayə

B variantı

1. "Necə həmtay tutum hər büti-zibayə səni" misrası ilə başlayan qəzəli əruzun hansı bəhrindədir?
   A) münsərih B) rəməl C) həzəc D) xəfif E) səri

2. S.Ə.Şirvaninin mənzum hekayələrinin iqtibas olunduğu əsərlərdən biri ***yanlış*** göstərilmişdir:
   A) N.Gəncəvi. "Sirlər xəzinəsi"
   B) N.Gəncəvi. "İqbalnamə"
   C) Əssar Təbrizi. "Mehr və Müştəri"
   D) Sədi. "Bustan"
   E) Sədi. "Gülüstan"

3. Aşağıda S.Ə.Şirvaninin satiralarının tənqid hədəfləri verilmişdir. Biri ***yanlışdır:***
   A) xan, bəy
   B) müəllimlər
   C) məhkəmə üzvləri, vəkillər
   D) polis
   E) rəis, qazı

4. Aşağıdakılardan biri S.Ə.Şirvaninin satirik əsərləri sırasında verilə ***bilməz:***
   A) "Musa və çobanın hekayəti"
   B) "Padşah və əkinçi"
   C) "Şamaxının yeni bəyləri haqqında həcv"
   D) "Şamaxının yeni vəziyyətindən şikayət"
   E) "Əkinçinin hadisəsi"

5. S.Ə.Şirvaninin mənzum hekayəsini müəyyənləşdirin.
   A) "Köhnə elmdən şikayət"
   B) "Şamaxının yeni bəyləri haqqında həcv"
   C) "Şamaxının yeni vəziyyətindən şikayət"
   D) "Musa və çobanın hekayəti"
   E) "Şamaxı-Şirvan bəylərindən Əli Əsgər bəyə şikayət"

6. S.Ə.Şirvaninin tipik ruhani surətləri yaradılmış satiraları hansı sıralarda verilmişdir?
   1. "Allaha rüşvət", "Münəccimlər yalançıdırlar"
   2. "Əkinçinini hadisəsi", "Padşah və əkinçi"
   3. "Köpəyə ehsan", "Dəli şeytan"
   4. "Şamaxının yeni bəyləri haqqında həcv", "Şirvanın təzə bəyləri"
   5. "Riyakar abid", "Yerdəkilərin göyə şikayəti"

   A) 1, 2, 3 B) 2, 3, 4 C)1, 3, 5 D) 2, 5 E) 2, 4

7. Dini və şəriəti quldurluq silahına çevirmiş yalançı müctəhidlərin ümumiləşmiş surəti S.Ə.Şirvaninin hansı sırada verilmiş satiralarında yaradılmışdır?
   1. "Tələbənin hadisəsi", "Müctəhidin təhsildən qayıtması"
   2. " Elmsiz alim", "Avam ata ilə alim oğul"
   3. "Köhnə elmdən şikayət", "Fəqih ilə oğul"
   4. "Əkinçinini hadisəsi", "Padşah və əkinçi"
   5. "Şirvanını təzə bəyləri", "Şamaxının yeni vəziyyətindən şikayət".

   A) 1, 4, 5 B) 2, 4 C) 1, 2, 3 D) 2, 3, 5 E) 1, 4

8. S.Ə.Şirvani aşağıdakılardan birindən istifadə ***etməmişdir:***
   A) mənzum hekayə B) təmsil C) öyüd D) nəsihət E) poema

9. S.Ə.Şirvaninin "Musa və çobanın hekayəti" mənzum hekayəsi aşağıdakı əsərlərin birindən iqtibas edilmişdir:
   A) N.Gəncəvi. "Sirlər xəzinəsi"
   B) N.Gəncəvi. "İsgəndərnamə" ("İqbalnamə")
   C) Sədi Şirazi. "Bustan"
   D) Sədi Şirazi. "Gülüstan"
   E) C.Rumi. "Məsnəvi"

10. S.Ə.Şirvaninin bu misralarının izahı hansı variantda daha dəqiqdir?
    Bir bəladır bu dərdi - nadani
    Ki, onun elm olubdu dərmanı.
    A) Nadan din xadimlərinə qarşı mübarizə aparmaq vacibdir.
    B) Nadanlıq özü də dərddir.
    C) Nadanlığı bəzi ruhanilər yaradır.
    D) Hər bəlanın səbəbi elmsizlikdir.
    E) Nadanlıq böyük ictimai bəladır və ondan xilas olmaq üçün elmə, biliyə yiyələnmək lazımdır.

Aşıq Ələsgər

(1821 – 1926)

Aşıq Ələsgər Azərbaycan aşıq yaradıcılığının ustad sənətkarlarındandır. O, aşıq sənətini ideya, məzmun, forma və sənətkarlıq baxımından zənginləşdirmişdir. Aşıq şeirində dodaqdəyməz təcnisin yaranması Aşıq Ələsgərin adı ilə bağlıdır.

Həyatı

Aşıq Ələsgər 1821-ci ildə Qərbi Azərbaycanın Göyçə mahalının Ağkilsə kəndində Alməmməd kişinin ailəsində anadan olmuşdur. Təhsil ala bilməsə də*, Aşıq Alıya şəyirdlik etdiyi dövrdə ondan aşıqlıq sənətinin sirlərini öyrənmişdir. Ustadı Aşıq Alıya ehtiramını aşağıdakı sözlərlə ifadə etmişdir:

Bir şəyird ki ustadına kəm baxa,
Onun gözlərinə qan damar, damar.

XIX əsrin 50-ci illərindən başlayaraq müxtəlif mahalları gəzib-dolaşmış, şadlıq məclisləri keçirmiş, gəzdiyi yerlərdə xalqın həyat tərzi ilə yaxından tanış olmuşdur. Yalnız Azərbaycanda deyil, Türkiyədə, İranda və Dağıstanda da məşhur olmuşdur. Ustad aşıq kimi şöhrət qazandıqdan sonra ətrafına toplaşan şəyirdlərə sənətin sirlərini öyrətmiş, şeirlərinin birində bunu qeyd etmişdir:

Adım Ələsgərdi, mərdi-mərdana,
On iki şəyirdim işlər hər yana.

Səhnəbanıya olan ilk sevgisi uğursuz olmuşdur. 40 yaşında Kəlbəcərin Yanşaq kəndindən olan Anaxanımla evlənmişdir.

---

* Aşıq Ələsgərin savadı, oxuyub-oxuya bilməməsi, hərfləri tanıyıb-tanıya bilməməsi məsələsi barədə bir-birindən tam fərqli fikirlər də mövcuddur.

1918–1919-cu illərdə erməni daşnaqlarının türklərə qarşı törətdiyi soyqırımı nəticəsində Göyçə mahalının əhalisinin də var-yoxu talanmışdır. Erməni terroruna məruz qalan Ələsgər bir müddət ailəsi ilə Kəlbəcərin Yanşaq kəndində və Tərtərdə məcburi köçkün həyatı yaşadıqdan sonra 1921-ci ildə Ağkilsəyə qayıtmışdır. Ömrünün sonlarını bədbin keçirən aşıq şeirlərinin birində demişdir:

Səksəni, doxsanı keçibdir yaşım,
Əzrayıl həmdəmim, məzar yoldaşım.
Gor deyə tərpənir bəlalı başım,
Daha köç təbilin çal, qoca baxtım.

Aşıq Ələsgər 1926-cı ildə Ağkilsə kəndində vəfat etmiş və orada da dəfn olunmuşdur. 1972-ci ildə 150 illik yubileyi təntənə ilə qeyd olunmuş, Azərbaycan Elmlər Akademiyası tərəfindən əsərləri iki cilddə çap edilmişdir.

Yaradıcılığı

Aşıq Ələsgərin zəngin ədəbi irsi, əsasən, qoşma, gəraylı, təcnis və müxəmməs janrlarında olan lirik şeirlərdən ibarətdir. Aşığın bədii irsinin əsasını təşkil edən lirik şeirləri, əsasən, bu mövzulardadır:

1. Məhəbbətin tərənnümü
2. El gözəllərinin tərifi
3. Təbiət gözəlliklərinin tərənnümü
4. Əxlaqi-tərbiyəvi fikirlərin təbliği
5. İctimai zülmə etiraz

Ustad sənətkarın yaradıcılığında əsas yeri məhəbbət şeirləri tutur. Onun məhəbbətə aid şeirlərinin lirik qəhrəmanı səadət və xoşbəxtliyini sevgilisinə qovuşmaqda görən bir gəncdir. Lakin arzusuna çata bilməyən bu gəncin işi "dərd alıb qəm satmaq"dır:

Ala gözlüm, səndən ayrı düşəli
Hicranın qəmiylə kef eyləmişəm.

Ah-vayınan günüm keçib dünyada,
Dərd alıb, qəm satıb nəf eyləmişəm .

Məhəbbət şeirlərində mənəvi əsarətə, ədalətsizliyə qarşı çıxır, Aşiqlə Məşuqənin nakam qalmasına etiraz edir, sevənlərin bir-birinə qovuşmasını arzulayır:

Fələk, mərdin işin salma müşkülə,
Əhli-dili yetirsən əhli-dilə,
Bülbülü gülə yaz, gülü bülbülə,
Qönçənin üstündə xar oynamasın.

Ələsgərin meyarına görə, zahiri gözəllik gözəlliyin mühüm şərtlərindən biri olsa da, əsas və həlledici deyil. Gözəl daxilən də gözəl olmalıdır. Burada isə kamal əsasdır. Aşıq ancaq o gözələ gözəl deyir ki:

Hüsndə Züleyxatək,
Loğmana bənzər kamalı.

Onun məhəbbətə dair şeirlərində dünyəvi gözəllik, real insanın göz oxşayan varlığı tərənnüm edilir.

O, hər yetəni gözəl saymır. Söz fırçası ilə gözəlin canlı portretini əks etdirir:

Hər yetən gözələ gözəl demərəm,
Gözəldə gərəkdir, işvə-naz ola,
Buxağından ətri-bənövşə gələ,
Qoynu gülşən ola, bahar, yaz ola.

Gözəlin canlı bədii təsvirini verən Ələsgər də, M.P.Vaqif kimi, onu yerli etnoqrafik xüsusiyyətləri, milli bəzək və geyimləri ilə təsvir etmişdir. "Zər kəmər", "gümüş kəmər", atlaz külçə, "xara köynək", "Herat kəlağay", "şirmayı şana", "çit tuman", "xatəm corab", "gül başmaq", "darayı paltar", "qanovuz köynək" və s. ifadələrini tez-tez işlətməklə XIX əsr Azərbaycan qızlarının, gəlinlərinin istifadə etdiyi milli bəzək və geyimlərini xatırladır.

Aşığın yaradıcılığında **el gözəllərinin tərifinə** həsr edilən və **gözəlləmə** adlanan qoşmaları çoxluq təşkil edir. Ələsgər gözəlləmələrində gözəlin sözlə çəkilmiş rəsmi cazibədarlığı ilə insanı heyran edir:

Qabaq ayna – çəkilibdi varağa,
Dodaq qaymaq, gül yapışıb yanağa.

Dolanır gözləri canlar almağa,
Şölə salır xanlıq fanarı kimi.

Bu bənd zəngin təşbehlər sistemi ilə diqqəti cəlb edir.

Azərbaycanın müxtəlif yerlərində tanıdığı, gördüyü el qızlarının, gəlinlərinin adlarını "Bəyistan", "Güləndam", "Sarıköynək", "Gülpəri", "Müşgünaz", "Telli", "Maral", "Xurşud" və s. qoşmalarında rədif kimi vermiş, onların nəcib xüsusiyyətlərini ümumiləşdirmişdir. Eləcə də müxəmməslərindən birini Mələk adlı bir el gözəlinə həsr etmiş, bu adı rədif kimi işlətmişdir.

Aşıq Ələsgərin **əxlaqi-tərbiyəvi** fikirlərin təbliğinə həsr etdiyi şeirlərində insanlığın əsas göstəricisi kimi mərdlik təriflənir, namərdlik lənətlənir. Məsələn, "Olmaz" rədifli qoşma – ustadnaməsində olduğu kimi:

Bu dünyanı mən təcrübə eylədim,
Namərd körpü salsa, onda ad olmaz.
Bir mərdinən ağı yesən, şirindi,
Yüz namərdnən şəkər yesən, dad olmaz.

"Olar" rədifli digər qoşma – ustadnaməsində igidlikdən mücərrəd yox, konkret anlayış kimi söhbət açan aşıq namusu, ilqarı, düzlüyü igidi səciyyələndirən əlamətlər kimi qeyd edir:

İgid odur, namusunu atmasın,
Dost ölüncə, dosta yalan satmasın,
Bir baş ki ilqara qurban getməsin,
Onu bir qarpıza dəyişmək olar.

Aşıq Ələsgər **təbiət gözəlliklərinin** tərənnümünə həsr etdiyi şeirlərdə doğma yurdu insanın ilk məskəni – anası və beşiyi kimi mənalandırır. Təbiəti insanla vəhdətdə poetikləşdirir:

Axşam-sabah, çeşmə, sənin başına
Bilirsənmi, necə canlar dolanır?!
Büllur buxaq, lalə yanaq, ay qabaq,
Şahmar zülfü pərişanlar dolanır.

Ana təbiəti məhəbbətlə tərənnüm edən aşığın şeirlərində dağ obrazı xüsusi yer tutur. Bunun əsas səbəbi onun bütün ömrünün dağlarla əhatə olunan bir yerdə keçməsi, ona ilham – şairlik bəxş edən ilk məhəbbətinin bu dağlarda olmasıdır.

Aşığın dağların tərənnümünə həsr etdiyi və "Bahar fəsli, yaz ayları gələndə" misrası ilə başlayan **"Dağlar"** rədifli qoşmasında ilin dörd fəslində dağların görkəmi təsvir olunur. Vüqarı, əzəməti ilə də heyranedici olan dağlar varlıya da, kasıba da qoynunda yer verir, nə sərdara söz deyir, nə şaha baş əyir:

Bahar fəsli, yaz ayları gələndə
Süsənli, sünbüllü, lalalı dağlar.
Yoxsulu, ərbabı, şahı, gədanı
Tutmaz bir-birindən aralı dağlar.

...Gahdan çiskin tökər, gah duman eylər,
Gah gəlib-gedəni peşiman eylər.
Gahdan qeyzə gələr, nahaq qan eylər,
Dinşəməz haramı, halalı dağlar.

"Bir ay yarım novbahardan keçəndə" misrası ilə başlayan **"Dağlar"** rədifli ikinci qoşmasında birincidən fərqli olaraq, qəm-kədər, qubar əhvali-ruhiyyəsi var. Bu da namərd ermənilərin soyqırımı siyasətinə məruz qalan Göyçə elinin ətraf bölgələrə səpələnməsi ilə bağlıdır. İki ildən sonra Göyçəyə qayıdan aşıq bu dağların çal-çağırlı günlərini yadına salaraq kövrəlir:

Hanı mən gördüyüm qurğu-büsatlar?
Dərdməndlər görsə, tez bağrı çatlar,
Mələşmir sürülər, kişnəmir atlar,
Niyə pərişandı halların, dağlar?!

"Xaçpərəstlə bund inqilabı" düşəndə vaxtılə bu yerlərdə at oynadan igidlərin çıxıb getməsi, kişi nərəsinin eşidilməməsi də lirik qəhrəmanın qəlbini ağrıdır.

Qoşmanın möhürbəndində aşıq elsiz yaşamağın mümkün olmadığı qənaətinə gəlir:

Həsənnənə, Həsənbaba qoşadı,
Xaçbulaq yaylağı xoş tamaşadı.
Arsız aşıq elsiz niyə yaşadı?
Ölsün Ələsgərtək qulların, dağlar.

Bu şeirlərdə dağlar kişilik, əyilməzlik simvolu kimi mədh olunur.

Aşıq Ələsgərin mövcud cəmiyyətdə **ictimai zülmə etiraz motivləri** ifadə edən şeirlərinin əksəriyyəti ustadnamə, şikayətnamə, həcv, divani üstündə qoşulmuşdur.

Aşığın xalqa müraciətlə başlanan ictimai motivli **"Çıxıbdı"** qoşmasında ədalətsizliklər real faktlar əsasında göstərilir. Qoşmanın ilk bəndində aşıq dünyada xəyanətin çoxaldığına, insafın, mürvətin azaldığına təəssüflənir::

Ay həzərat, gəlin sizə söyləyim,
Bu dünyanın xəyanatı çıxıbdı.
İnsaflar azalıb, mürvət gödəlib,
Qazıların mazarratı çıxıbdı.

İctimai zorakılığın tənqid olunduğu sonrakı bəndlərdə qoçu və quldurların insanları incitməsi, hökumət məmurlarının: pristavın, naçalnikin hüquqlarını müdafiə etməli olduqları insanları incitmələri ifşa olunur:

Pristav, naçalnik gələndə kəndə,
Obanı, oymağı vururlar bəndə.
Xərc üstə çoxları düşdü kəməndə,
Qamçıda belinin qatı çıxıbdı.

Havalı gəzən bəylərin, qan-tər içində çalışan naxırçı-nökərin, kəndliləri istismar edən koxa və kattaların timsalında ictimai bərabərsizlik açıq göstərilir.

"Görmədim" rədifli qoşması şeirləri içərisində **ictimai-əxlaqi** məzmun daşımağı ilə seçilir. Şeir lirik qəhrəmanın – zəngin həyat təcrübəsi olan aşığın özünün dilindən söylənilir. Bu şeirdə aşığın cəmiyyət üzvlərində görmək istədiyi, çoxunda görə bilmədiyi keyfiyyətlər sadalanır:

Bivəfanın, müxənnətin, nakəsin
Doğru sözün, düz ilqarın görmədim.
Namərdin dünyada çox çəkdim bəhsin,
Namusun, qeyrətin, arın görmədim.

Lirik qəhrəman söyüddən saldığı bağdan bar görmədiyi kimi, özünə dost bildiyi namərd adamlardan da bir xeyir görmür:

Namərdi özümə mən dost eylədim,

Yolunda canıma çox qəsd eylədim,
Söyüddən bağ saldım, peyvəst eylədim,
Almasın, heyvasın, narın görmədim.

"Görmədim" qoşması aşığın – lirik qəhrəmanın faciəvi monoloqudur. Bu qəhrəman nəfsə uyaraq xain, vəfasız adamların zəhmətini çəkib. İndi aşıq – lirik qəhrəman öz aldanışlarının faciəsini yaşayır, həyatının o məqamlarına acıyır.

Təcnisləri. Ustad sənətkarın qafiyələri eyni cür səslənən, lakin məzmunca bir-birindən fərqlənən sözlərdən – cinaslardan təşkil olunan şeirləri – təcnisləri də məzmunca müxtəlifdir. Lakin onların çoxu məhəbbət mövzusundadır. **"Ay üzə-üzə", "A yana-yana", "Dal-dala", "Narın üz", "Çataçat", "De bir üz, bir üz"** şeirləri təcnis janrındadır.

Ustadlar içərisində ona xüsusi şöhrət gətirən dodaqdəyməz təcnislərdə qoşadodaq samitlərdən **(m, b, p)** istifadə etməmişdir:

Qışda dağlar ağ geyinər, yaz qara,
Sağ dəstinlə ağ kağıza yaz qara.
Əsər yellər, qəhr eyləyər yaz qara,
Daşar çaylar, gələr daşlar çataçat!

Dodaqdəyməz təcnis, dildönməz gəraylı Aşıq Ələsgərin adı ilə bağlıdır.

Maraq üçün Aşıq Ələsgərin 3 bəndlik "Bax, bax" adlı məşhur dildönməz gəraylısını bütünlüklə veririk:

Əyi, biya, biya, bequ,
Bequ, biqof, ağa, bax, bax.
Həyyi, həqqü hakim sənsən,
Həyyə bax, bu bağa bax, bax.

Gözüm sağı, sübh ayağı,
Geyək ağı, gəzək bağı,
Hamı sevib bu sayağı,
Qaymağa, həm yağa bax, bax.

Əziz ayə, müəmmayə,

Gərək sayə bu məvayə.
Səbəb sənsən bu qovğayə,
Böyük Ağa, sağa bax, bax.

Aşıq Ələsgərin bu dildönməzi onun başqa qoşma və gəraylıları ilə müqayisədə, təbii ki, bir qədər qüsurludur. Bu isə dildönməz yaratmağın öz çətinlikləri ilə bağlıdır.

Aşıq Ələsgərin cığalı təcnislər də çox maraqlıdır. Belə təcnislərdə hər bənddə ikinci misra ilə üçüncü misra arasında bir bayatı salınır ki, buna da **cığa bəndi** deyirlər.

A bimürvət, həsrətini çəkməkdən
İllər ilə xəstə düşdüm başa-baş.
Mən aşiqəm başa-baş,
Oxu dərsin başa-baş.
Eşqindən səməndərəm,
Oda yandım başa-baş.
"Can" deyənə "can" deginən mərdana,
Baş qoyanın qoy yolunda başa baş.

Bədii sənətkarlığı. Aşıq Ələsgərin əsərləri içərisində aşıq şeirinin gəraylı, qoşma, təcnis, müxəmməs, müsəddəs, divani, deyişmə, bayatı kimi janrları vardır. O, qoşma, gəraylı və təcnisin ədəbiyyatda az təsadüf olunan qoşma – müstəzad, cığalı təcnis, ayaqlı təcnis, qoşayarpaq qoşma, dildönməz kimi çətin növlərini yaratmışdır. Sözlə portret çəkmək üsulundan məharətlə istifadə etmiş, təsvir etdiyi gözəli bütün incəlikləri ilə oxucunun gözləri qarşısında canlandırmışdır:

Gümüş kəmər, incə belii,
Ağ biləkli, nazik əlli,
Ay qabaqlı, siyah telli,
Ürəyimi üzən gözəl.

Aşıq Ələsgər sözü elə seçib işlədir, sözün elə yeganə işlənmə məqamını tapır ki, həmin sözün başqa cür işlənə biləcəyini təsəvvür edə bilmirsən.

Aşıq Ələsgərin həyat və yaradıcılığı ilə bağlı yaddaş

- ✓ 1821-ci ildə Qərbi Azərbaycanın Göyçə mahalının Ağkilsə kəndində anadan olmuşdur.
- ✓ Ustadı Aşıq Alıdan sənətin sirlərini öyrənmiş, ağdabanlı Aşıq Qurbanın məclislərində olmuşdur.
- ✓ Şeir qoşduğuna, saz havaları bəstələdiyinə, dastan yaratdığına və bunları el məclislərində məharətlə ifa etdiyinə görə yaradıcı aşıqdır.
- ✓ İlk məhəbbəti uğursuz olsa da, Anaxanımla qurduğu ailənin qayğıkeş başçısı olmuşdur.
- ✓ Erməni terroruna məruz qalmış, məcburi köçkün həyatı yaşamışdır.
- ✓ Azərbaycan Elmlər Akademiyası tərəfindən ikicildlik əsərləri nəvəsi, folklorşünas İslam Ələsgərli tərəfindən çap edilmişdir.
- ✓ Şeirlərinin lirik qəhrəmanı aşığın özüdür.
- ✓ Erməni fitnəkarlığı ilə bağlı "Dağlar" rədifli qoşması var.
- ✓ Lirikası aşağıdakı mövzulardadır:
- ✓ 1. Məhəbbətin tərənnümü ("Eyləmişəm", "Oynamasın" qoşmaları)
- ✓ 2. El gözəllərinin tərifi ("Bəyistan", "Güləndam", "Sarıköynək", "Gülpəri", "Müşgünaz", "Telli", "Maral", "Xurşud", "Kimi", "Olar" qoşmaları)
- ✓ 3. Əxlaqi-tərbiyəvi fikirlərin təbliği ("Olmaz", "Olar" qoşmaları)
- ✓ 4. Təbiət gözəlliklərinin tərənnümü "Dolanır", "Dağlar" qoşması, iki "Yaylaq" şeiri – biri qoşma, biri gəraylı
- ✓ 5. İctimai zülmə, qeyri-əxlaqi davranış hallarına etiraz ("Çıxıbdı", "Görmədim" qoşmaları)
- ✓ Təcnisləri ("Ay üzə-üzə", "A yana-yana", "Dal-dala", "Narın üz", "Çataçat", "De bir üz, bir üz")

- ✓ M.P.Vaqif kimi, o da bəzi şeirlərində gözəllərin etnoqrafik xüsusiyyətlərinə diqqət yetirmişdir.
- ✓ Sözlə portret yaratmaq üsulundan məharətlə istifadə etmişdir.
- ✓ Aşıq Ələsgərin "Məni", "Başa-baş" rədifli cığalı təcnisləri, "Bax, bax" rədifli dildönməz gəraylısı da məşhurdur.

arxalıq	yaxası büzməli, beli büzməli, ya büzməsiz üst paltarı
ağı	zəhər
bihudə	faydasız
Buxara papaq	qaragül dərisindən tikilmiş papaq
çuxa	beli büzməli, mahuddan tikilən üst kişi geyimi
dərdmənd	dərdli
dəst	əl
etnoqrafik	xalqa mənsub olan məişət, adət, mədəniyyət xüsusiyyətləri
əndam	bədən
fəraq	ayrılıq
hədis	peyğəmbərin, imamların kəlamları, dini rəvayətlər
həzarat	ağalar, cənablar
xar	tikan
kətta, koxa	keçmişdə əhali tərəfindən seçilən və kəndin inzibati işlərini idarə edən şəxs
mazarrat	pislik edən
müxənnət	müxənnəs – etibarsız
müşkül	çətin
nakəs	alçaq
peyvəst	calaq
şəyird	ustad aşıqdan aşıqlıq sənətini öyrənən, şagird
zərnişan	qızıl nişanlı

Yoxlama testləri

A variantı

1. Aşıq Ələsgərin həyatı ilə bağlı doğru fikir hansıdır?
   A) Ömrünün çox hissəsi Kəlbəcərin Yanşaq kəndində və Tərtərdə keçmişdir.
   B) Kəlbəcərin Yanşaq kəndində doğulmuşdur.
   C) Köçkün həyatı yaşamışdır.
   D) Ömrü boyu nikbin həyat keçirmişdir.
   E) Anaxanımla uğursuz məhəbbətindən sonra Səhnəbanı ilə evlənmişdir.

2. Aşağıdakılardan biri mövzu baxımından Aşıq Ələsgərin yaradıcılığına ***aid deyil:***
   A) azadlıq ideyalarının təbliği
   B) el gözəllərinin tərifi
   C) ictimai ədalətsizliyə etiraz
   D) peyzaj lirikası
   E) əxlaqi fikirlərin təbliği

3. Gözəllərin canlı bədii təsvirini etnoqrafik geyimləri ilə təsvir etməsi baxımından Aşıq Ələsgər hansı sənətkarla müqayisə oluna bilər?
   A) Xəstə Qasımla
   B) M.V.Vidadi ilə
   C) Aşıq Alı ilə
   D) M.P.Vaqifə
   E) Ş.İ.Xətai ilə

4. Aşıq Ələsgərin:
   Axşam – sabah, çeşmə, sənin başına
   Bilirsənmi, necə canlar dolanır?! –
   misraları ilə başlayan qoşması hansı mövzudadır?
   A) tərbiyəvi fikirlərin təbliği
   B) el gözəllərinin tərənnümü
   C) təbiət gözəlliklərinin tərənnümü
   D) saf məhəbbətin tərənnümü
   E) ictimai zülmə etiraz

5. Dağ obrazı hansı sənətkarın yaradıcılığında daha mühüm yer tutur?
A) Aşıq Ələsgərin B) M.P.Vaqifin
C) Ş.İ.Xətainin D) M.Əmaninin E) Dirili Qurbaninin

6. Ş.İ.Xətai, M.Əmani və Aşıq Ələsgər yaradıcılığı üçün ortaq cəhət kimi göstərilən xüsusiyyətlərdən ancaq biri doğrudur:
A) üç dildə şeir yazmaları
B) təcnis janrına üstünlük vermələri
C) klassik şeir üslubunda da yazmaları
D) "Nəsihətnamə" müəllifi olmaları
E) heca vəznində şeir yazmaları

7. *Bir mərdilən ağı yesən, şirindi,*
Bir namərdnən şəkər yesən, dad olmaz.
Bu misraların aid olduğu şeir haqqında doğru fikri müəyyən edin.
A) Əxlaqi-tərbiyəvi mövzudadır, orta dövr Azərbaycan ədəbiyyatına aid nümunədir.
B) Qoşma janrındadır, məhəbbət mövzusundadır.
C) Müəllifi Aşıq Ələsgərdir, əxlaqi-tərbiyəvi mövzudadır.
D) Şeir Xəstə Qasımındır, ictimai zülmə etiraz ifadə olunur.
E) Qurbaninin qoşmasıdır, Şah İsmayıla müraciətlə yazılmışdır.

8. "Bəyistan", "Telli", "Maral" adlı şeirlər üçün ortaq cəhət nədir?
A) Hər üçü qoşma janrındadır, konkret gözələ həsr olunmuşdur.
B) Saf məhəbbətin tərənnümünə həsr olunub, gəraylı janrındadır.
C) El gözəllərinin tərənnümünə həsr olunub, gəraylı janrındadır.
D) Hər üçündə Əğyar obrazı var, bədbin ruhdadır.
E) Üçü də müxəmməs janrındadır, heca vəznində yazılmışdır.

9. Aşıq Ələsgərin meyarına görə, zahiri görkəm gözəlliyin mühüm şərtlərindən biri olsa da, ...
A) geyim əsasdır. B) gözəl daxilən gözəl olmalıdır.
C) gözəl zəhmətkeş olmalıdır. D) gözəldə işvə, naz olmalıdır.
E) bəzəyi-düzəyi yerində olmalıdır.

10. Məntiqi ardıcıllığı tamamlayın.
Dirili Qurbani, Abbas Tufarqanlı, Xəstə Qasım ...
A) Aşıq Ədalət B) Aşıq Ələsgər C) Aşıq Əmrah
D) Aşıq Kamandar E) Aşıq Hüseyn Cavan

B variantı

1. Aşıq Ələsgərlə bağlı fikirlərdən biri ***doğru deyil:***
   A) Bayatı janrında da şeirləri var.
   B) Əxlaqi-tərbiyəvi fikirlərin təbliğinə həsr etdiyi şeirlərində namərdlik lənətlənir.
   C) Təbiəti insanla vəhdətdə poetikləşdirir.
   D) "Olar" rədifli qoşmasında igidlikdən konkret anlayış kimi söhbət açır.
   E) El gözəllərinin tərifinə həsr etdiyi qoşmaları həm də gözəlləmə adlanır.

2. "Çıxıbdı" rədifli qoşması ilə bağlı aşağıdakı fikirlərdən biri doğrudur:
   A) Son bəndində dünyada xəyanətin çoxaldığından söhbət açılır.
   B) Müxtəlif insanlarda görmək istədiyi, lakin görə bilmədiyi keyfiyyətləri sadalayır.
   C) Xalqa müraciətlə başlanır.
   D) Ustadnamədir.
   E) Lirik qəhrəmanın faciəvi monoloqudur.

3. *"Xurşud", "Maral", "Müşgünaz"...*
   Bu sırada aşağıdakılardan biri yer ***almaz:***
   A) "Gülpəri"
   B) "Telli"
   C) "Çataçat"
   D) "Sarıköynək"
   E) "Bəyistan"

4. *Bir ay yarım novbahardan keçəndə* misrası ilə başlayan şeirlə bağlı hansı fikir doğrudur?
   A) Divani üstündə qoşulmuşdur.
   B) İlin dörd fəslində dağların görkəmi təsvir olunur.
   C) İnsafın, mürvətin azaldığından söhbət açılır.
   D) Ermənilərin soyqırımı siyasəti ilə bağlıdır.
   E) Hökumət məmurlarının insanları incitmələri tənqid olunur.

5. Çoxlarının xərc üstə kəməndə düşməsi Aşıq Ələsgərin hansı şeirinin məzmunu ilə bağlıdır?
   A) "Çıxıbdı" B) "Çataçat" C) "Narın üz"
   D) "Dağlar" E) "Görmədim"

6. "Görmədim" şeirinin lirik qəhrəmanı kimi söyüddən salınmış bağa bənzədir?
   A) bəzi din xadimlərini B) vəfasızları
   C) insafsızları D) yalançıları E) namərdləri

7. Hansı sənətkar erməni fitnəkarlığına şeir həsr etmişdir?
   A) Dirili Qurbani B) Aşıq Ələsgər
   C) Abbas Tufarqanlı D) M.P.Vaqif E) Aşıq Alı

8. Hansı xüsusiyyət həm Q.Zakir yaradıcılığına, həm də Aşıq Ələsgər yaradıcılığına aiddir?
   A) eyni ədəbi dövrdə yaşamaları
   B) həm Füzuli, həm Vaqif ədəbi məktəbinin davamçıları olmaları
   C) sürgün həyatı yaşamaları
   D) erməni fitnəkarlığı ilə bağlı əsər yazmaları
   E) ictimai satira sahəsində nüfuz qazanmaları

9. Aşıq Ələsgərin təcnislərinin çoxu hansı mövzudadır?
   A) nəfsinin qulu olanların tənqidi
   B) ictimai bərabərsizliyin tənqidi
   C) vətən həsrəti
   D) məhəbbət
   E) əxlaqi-tərbiyəvi fikirlərin təbliği

10. "Çataçat" şeiri nə üçün təcnis sayılır?
   A) hər misrası on bir hecadan ibarət olduğuna görə
   B) qafiyələri cinaslardan ibarət olduğuna görə
   C) qoşadodaq samitlərdən istifadə edilmədiyinə görə
   D) dördlük şəklində yazıldığına görə
   E) 4+4+3 təqtisində yazıldığına görə

XX ƏSRİN ƏVVƏLLƏRİNDƏ AZƏRBAYCAN ƏDƏBİYYATI

Yeni dövr ədəbiyyatının III mərhələsi (1900 – 1917-ci illər)

Dövrün ədəbi-mədəni xülasəsi. Azərbaycan ədəbiyyatının həm zəngin, həm də mürəkkəb dövrlərindən biri XX əsrin əvvəlləridir: 1900-1917-ci illər. Bu dövr Azərbaycanın ictimai həyatında kapitalizmin inkişafı, zəhmətkeşlərin istismarı, sinfi ziddiyyətlərin kəskinləşməsi və milli azadlıq uğrunda mübarizələrin geniş vüsət alması ilə səciyyələnir.

Tarixi şəraitin mürəkkəbliyi və çətinliyi Azərbaycan ziyalılarının milli mədəniyyəti inkişaf etdirmək əzmini daha da qüvvətləndirdi. Onların səyi nəticəsində Bakıda müəllimlərin birinci (1906) və ikinci (1907) qurultayları keçirildi. Həm Şimali, həm də Cənubi Azərbaycanda yeni teatr özəkləri yarandı, məktəblər, kitabxanalar açıldı, dərsliklər yazıldı. 1908-ci ildə Bakıda ilk opera tamaşası (Ü.Hacıbəyovun "Leyli və Məcnun" operası) göstərildi. «Həyat», «Molla Nəsrəddin», «Füyuzat», «İrşad», «Zənbur», «Şələlə», «Açıq söz» kimi qəzet və jurnallar çap olunmağa başladı. Ədəbi tənqid və publisistika yeni inkişaf mərhələsinə yüksəldi.

Dövrün ən maraqlı mətbuat orqanı «Molla Nəsrəddin» jurnalı idi. Həftədə bir dəfə nəşr olunan bu jurnal rəngli və şəkilli satira jurnalı idi. Onun səhifələrində ictimai bəlaların tənqid və ifşası əsas yer tuturdu. Hər sayı 8 səhifə olan jurnalda rəngli karikaturalara geniş yer verilirdi. Naşirlər cəmiyyətdəki kəsirləri açıb göstərməklə doğma xalqın ictimai-siyasi şüurunu inkişaf etdirmək, onu dünyanın ən qabaqcıl, mədəni xalqları sırasına çıxarmaq istəyirdilər.

«Molla Nəsrəddin» jurnalının ilk sayı 1906-cı il aprel ayının 7-də Tiflisdə çıxmışdır. Bu sayın üz qabığında verilən şəkildə möhkəm yuxuya getmiş bir dəstə müsəlman təsvir olunur. Şərqin müdrik ağsaqqalı Molla Nəsrəddin onların yanında durub yatanları oyatmaq istəyir. Bu karikaturanı Tiflisdə yaşayan alman rəssamı Oskar Şmerlinq çəkmişdir.

Jurnalın ikinci səhifəsini «Sizi deyib gəlmişəm» məqaləsi bəzəyir. Sonrakı səhifələrində satirik xəbərlər, teleqramlar, atalar sözləri, «Dəllək» hekayəsi, «Lisan bəlası» və dörd karikatura çap olunmuşdur.

Cəlil Məmmədquluzadə «Molla Nəsrəddin» jurnalının redaksiyasında

Zahirən ciddi təsir bağışlayan teleqramlar, atalar sözləri, hesab məsələləri də kinayəli bir ruhda, gah satira, gah yumor səciyyəli idi.

Müəyyən fasilələrlə 25 il nəşr olunan (Tiflisdə, Təbrizdə və Bakıda) «Molla Nəsrəddin» jurnalının gülüş – tənqid hədəfi çox idi: Şərq istibdadı, müsəlman ətaləti və geriliyi, avamlıq, maarifsizlik, təriqətçilik, müstəmləkəçilik və s. Bütün bu naqisliklərı məhvedici gülüşün hədəfinə çevirmək üçün jurnalın əməkdaşları müxtəlif bədii formalardan – satirik hekayə, felyeton, şeir və məqalələrdən istifadə edirdilər. Bunlardan başqa, jurnalın səhifələrində gülməli xəbərlər, məktublar, elanlar, atalar sözləri, məsəllər, atmacalar geniş yet tuturdu.

Səhifələrində beynəlxalq hadisələrə, imperialist dövlətlərin müstəmləkəçilik siyasətinin tənqidinə, Şərq xalqlarının azadlıq uğrunda mübarizəsinə geniş yer verən «Molla Nəsrəddin» jurnalının şöhrəti Rusiyanın, Qafqazın, Orta Asiyanın hər yerinə yayılmış, türk və müsəlman xalqlarının ictimai-siyasi inkişafında əhəmiyyətli rol oynamışdır. Jurnal İran, Türkiyə, Misir, Hindistan, Mərakeş kimi ölkələrə də yayılaraq, oradakı xalqların sosial-mədəni tərəqqisinə böyük təsir göstərmişdir.

Dünya şöhrəti qazanmış «Molla Nəsrəddin» jurnalının müdiri və baş redaktoru Cəlil Məmmədquluzadə, onun ən yaxın köməkçisi və məsləkdaşı Ömər Faiq Nemanzadə idi. Jurnalın ilk saylarını onlar birlikdə hazırlamışlar. Az sonra jurnala görkəmli yazıçı və şairlər dəstəsi cəlb olunmuşdu: Mirzə Ələkbər Sabir, Əli Nəzmi, Əliqulu Qəmküsar. Mirzəli Möcüz Şəbüstəri, Əbdürrəhim bəy Haqverdiyev, Məmməd Səid Ordubadi və b. Bu sənətkarların fəaliyyəti nəticəsində Azərbaycan ədəbiyyatında mollanəsrəddinçilər adlanan yeni bir ədəbi məktəb formalaşmışdır. Ümumən, «Molla Nəsrəddin» jurnalı Azərbaycanda ədəbi məktəb yaratmış ilk mətbu orqan idi.

«Şərqi-Rus» qəzeti

«Molla Nəsrəddin»in ikinci redaktoru sayılan **Ömər Faiq Nemanzadə** (1872-1941) İstanbulda təhsil almış, cavanlığında inqilabçılarla əlaqə saxladığına görə iki dəfə həbs edilmişdi. XX əsrin

əvvəllərində «Şərqi–Rus» qəzetinin redaksiyasında işləyərkən o, C.Məmmədquluzadə ilə tanış olmuş, tezliklə bu tanışlıq böyük səmimi dostluğa çevrilmişdi. Ömər Faiq C.Məmmədquluzadə ilə birlikdə «Qeyrət» mətbəəsini açmış, sonra da «Molla Nəsrəddin» jurnalını çap etmişlər. Ömər Faiqin «Dəvət» adlanan ilk kitabı da «Qeyrət» mətbəəsində nəşr olunmuşdu.

Ömər Faiq Nemanzadə

İctimai tərəqqi yolunu maarif və mətbuatın inkişafında görən Ömər Faiq «Molla Nəsrəddin» jurnalının saylarının hazırlanmasında, rəsmlərinin çəkilməsində, mətbəə çətinliklərinin aradan qaldırılmasında, jurnalın maddi cəhətdən yaşadılmasında yorulmadan çalışırdı. Onun «Xanpəri bacıya cavab», «Qəribə qutu», «Xortdana məktub», «Cəhrəçi xala» «Hicab məsələləri və cavabımız», «Ətiqə» «Oyun-oyuncaq» və s. kimi məqalə və felyetonları «Molla Nəsrəddin» jurnalının səhifələrində çap olunmuşdur.

Eyni zamanda, «İrşad», «Tərəqqi», «Açıq söz», qəzetləri ilə əməkdaşlıq edən jurnalist «Dərdimiz və dərmanımız», «Dilimiz və imanımız», «Alınan azadlığı nə cür saxlamalı?», «Müəllimlərimiz nə üçün Bakıya qaçırlar?», «Mən kiməm?», «Milliləşmək», «Ağacı qurd içindən yeyər» məqalələrində Azərbaycan ziyalılarını düşündürən problemlərdən bəhs edirdi. O, XX əsrin əvvəllərində «Bizə hansı elmlər lazımdır?», «Yazımız, dilimiz, «İkinci il»imiz» mövzuları ətrafında gedən müzakirələrdə də fəal iştirak etmişdi.

Ö.F.Nemanzadə öz məqalə və oçerklərini «Ümidvar», «Lağlağı», «Mozalan» və şair imzalarla yazırdı.

«Molla Nəsrəddin» jurnalı Azərbaycan ədəbiyyatı tarixində yeni tipli satirik şeir, tənqidi-realist nəsr, kəskin ittihamçı publisistika məktəblərini formalaşdırmış, karikaturaçılığın əsasını qoymuşdur. Satirik şeir məktəbinin başçısı **Mirzə Ələkbər Sabir** olmuşdur.

Cəlil Məmmədquluzadə onu «həqiqi «Molla Nəsrəddin» şairi» adlandıraraq yüksək qiymətləndirmişdir. Əli Nəzmi, Əliqulu Qəmküsar, Mirzəli Möcüz kimi şairlər isə M.Ə.Sabirin şeir yolunu davam etdirirdilər.

Əli Nəzmi (1878-1946) – «Molla Nəsrəddin» jurnalında «Məşədi Sijimqulu» və «Kefsiz» imzaları ilə çıxış etmiş, məqalə, felyeton, satirik şeirlər yazmışdır. Cəlil Məmmədquluzadə onu «ikinci Sabirimiz» adlandırmışdır.

Əliqulu Qəmküsar (1880-1919) jurnalın fəal əməkdaşlarından biri idi. 1913-14-cü illərdə «Molla Nəsrəddin»in ikinci redaktoru olmuşdur. Şeir və felyetonlarını, əsasən, «Cüvəllağı bəy» imzası ilə dərc etdirmişdir. Məşhur nasir və dramaturq Əbdürrəhim bəy Haqverdiyev onu «Molla Nəsrəddin» jurnalının ürəyi» adlandırmışdır. Əsərlərində M.Ə.Sabir ənənələrini davam etdirən şair «İranlılar» , «Ey Məmdəli», «Bizə nə?» şeirlərində, bir tərəfdən, İrandakı azadlıq hərəkatından, xalqın göstərdiyi rəşadətdən, Rusiyadakı burjua-demokratik inqilabından danışır, ikinci tərəfdən, milli azadlıq hərəkatına xəyanət edənləri lənətləyirdi.

«Molla Nəsrəddin»in Cənubi Azərbaycanda ən fəal müəllifi **Mirzəli Möcüz** (1873-1934) olmuşdur. İlk təhsilini mollaxanada alan, gəncliyində maddi ehtiyac üzündən bir müddət İstanbulda yaşayıb ticarətlə məşğul olan şair vətənə qayıtdıqdan sonra mətbuatı, M.Ə.Sabirin əsərlərini oxuyub öyrənmiş, «Molla Nəsrəddin» ədəbi məktəbinin ənənələrini davam etdirmişdir. Onun şeirlərində fanatizm, cəhalət, yerli ağaların

qudurğanlığı tənqid edilirdi. «Ey Vilhelm», «Prussiya şahı», «Şah Firəngistandadır», «Nikolay» satiralarında isə beynəlxalq imperializmin cinayətləri ifşa olunurdu.

«Molla Nəsrəddin» jurnalının Təbriz saylarında (1921) M.Möcüzün «Hamamlarımız», «Olsun gərək» satirik şeirləri çap olunmuşdur. Onun «Bikarlara nəsihət» şeiri C.Məmədquluzadənin «Bikarlar məhəlləsi» felyetonunun təsiri ilə qələmə alınmışdır.

Möcüzün şeirlərində forma yeniliyi də nəzərə çarpır. Şair klassik lirikanın qəzəl, qitə, məsnəvi və başqa janrlarında yeni satirik məzmun ifadə edir. Bu cəhətdən o, Sabir ənənələrinə sadiq qalırdı. Eləcə də Sabir kimi, onun əsərlərinin çoxu birinci şəxsin dilindən söylənir. Onun şeirlərində məktublaşma, dialoq və xitabnamələrə (bir şəxsə müraciətlə yazılmış şeir) də təsadüf olunur.

«Molla Nəsrəddin» ədəbi məktəbinin nümayəndələri ilə yaxın əlaqə saxlayan, əsərlərini bu jurnalın səhifələrində dərc etdirən görkəmli realist sənətkarlardan biri ***Əbdürrəhim bəy Haqverdiyev (1870-1933)*** idi. Azərbaycan mədəniyyətinin inkişafında xüsusi xidmətlər göstərmiş Ə.Haqverdiyev Qarabağda – Şuşada bəy ailəsində anadan olmuş, doğma şəhərində real məktəbin altıncı sinfini bitirmişdir. Orta təhsilini Tiflisdə tamamlayan gənc Əbdürrəhim bəy 1891-ci ildə ali təhsil almaq üçün Peterburqa getmiş, Yol Mühəndisləri İnstitutuna qəbul olunmuşdur. O, eyni zamanda, azad dinləyici kimi Peterburq Universitetinin şərq fakültəsində dil və ədəbiyyata dair mühazirələrə qulaq asmış, müsəlman tarixi və mədəniyyəti ilə maraqlanmışdır.

Ə. Haqverdiyev ədəbi fəaliyyətə Şuşa real məktəbində oxuduğu zaman başlamış, M.F.Axundzadənin təsiri ilə «Hacı Daşdəmir» adlı kiçik bir pyes yazmışdır. Peterburqda təhsil alarkən onun bədii yaradıcılığa meyil və marağı daha da çoxalır. O, burada olarkən «Yeyərsən qaz ətini, görərsən ləzzətini» (1892) komediyasını və «Dağılan tifaq» (1896)

faciəsini yazır. 1899-cu ildə Azərbaycana qayıdan Ə.Haqverdiyev bir müddət Bakıda yaşayır. O, burada müəllimliklə məşğul olur, teatrlarda verilən tamaşalara rejissorluq edir, eyni zamanda, «Bəxtsiz cavan» (1900), «Pəri cadu» (1901), «Ağa Məhəmməd şah Qacar» (1907) faciələrini yazmaqla milli dramaturgiyanı ideya və poetika-sənətkarlıq baxımından daha da zənginləşdirir.

«Pəri cadu» faciəsində ailə-məişət zəminində baş verən mürəkkəb hadisələr, o cümlədən varlanmaq ehtirasının insana heç də rahatlıq gətirmədiyi, əsl səadətin qarşılıqlı məhəbbətdə və əməkdə olduğu göstərilmiş, «Ağa Məhəmməd şah Qacar» tarixi faciəsində Azərbaycanın parçalanmasının doğurduğu fəlakətlərin dəhşəti ifadə edilmişdir.

Ə. Haqverdiyev 1906-cı ildə «Həyat» qəzetində «Ata və oğul», «Ayın şahidliyi» kimi lirik-psixoloji hekayələrini çap etdirir. 1907-ci ildə «Molla Nəsrəddin» jurnalında onun «Cəhənnəm məktubları» povesti, 1909–1910-cu illərdə isə «Marallarım» başlığı altında silsilə hekayələri dərc edilir: «Mütrüb dəftəri», «Şikayət», «Qiraət», «Dəccəlabad», «Şəbih», «Tənqid», «Acından təbib» və s.

Məzmun baxımından cəmiyyətdəki naqisliklərə, mənəvi-əxlaqi eybəcərliklərə qarşı çevrilmiş bu hekayələr, eyni zamanda, özlərinin yığcamlığı, gözəl üslubu və dilinin aydınlığı, zənginliyi ilə diqqəti cəlb edir. Yazıçı təsvir etdiyi tipləri «maral» adı altında ümumiləşdirərək, incə bir ironiya ilə yazırdı: «Hər yer mənim marallarımla doludur. Gözəl marallarım, göyçək marallarım. Hər biri bir can marallarım, hacı marallarım, kərbəlayı marallarım, məşədi marallarım, molla, rövzəxan, bəy-xan marallarım. Keçəl marallarım, qotur, bitli marallarım. Başları qapazlı, üzləri tüpürcəkli marallarım».

Ə.Haqverdiyevin «Mirzə Səfər», «Şeyx Şəban», «Qiraət», «Bomba», «Həmşəri pasportu» kimi hekayələri hekayənin – bu kiçik janrın ən uğurlu nümunələrindən sayılır. Bu cür hekayələri ilə o, C.Məmməqduluzadə ilə yan-yana dayanır.

1920–1930-cu illərdə Ə.Haqverdiyev bir sıra yeni dram əsərləri («Qırmızı qarı», «Padşahın məhəbbəti», «Vaveyla», «Köhnə dudman», «Kamran», «Yoldaş Koroğlu» və s.) yazmış, «Cəhənnəm məktubları»

povestini yenidən işləyərək, onu «Xortdanın cəhənnəm məktubları» adı ilə çap etdirmişdir.

XX əsrin əvvəlləri (1905–1917-ci illər) Azərbaycan ədəbiyyatında həyatı bədii idrak və inikas üsullarına görə realist-mollanəsrəddinçi yazıçılardan fərqli üslubda göstərən başqa sənətkarlar da fəaliyyət göstərirdilər. Bu sənətkarlar romantiklər, onların mənsub olduqları bədii yaradıcılıq metodu* isə **romantizm** adlanır. Həyatı tipik surətlərdə təsvir edən realist sənətkarlardan fərqli olaraq, romantiklər onu öz arzu və istəklərinə uyğun şəkildə canlandırırdılar. Onlar hər gün gördükləri real cəmiyyəti və insanları deyil, arzuladıqları ideal cəmiyyəti və insanları təsvir edirdilər.

Romantiklərin dil və üslubunda müəyyən bir təntənə, təmtəraq hiss olunurdu. Onlar alınma sözlər işlətməyə daha meyilli idilər.

Azərbaycan ədəbiyyatında romantizmin görkəmli nümayəndələri Məhəmməd Hadi, Hüseyn Cavid, Əli bəy Hüseynzadə, Abbas Səhhət, Abdulla Şaiq, Səid Səlmasi, Abdulla Sur, Əbdülxaliq Cənnəti, Yusif Ziya Talıbzadə və başqaları idi. Bunlardan başqa, Əlabbas Müznib, Səməd Mənsur və Cəfər Cabbarlı da əsərlərinin bir qismini romantik üslubda yazmışlar. Bu sənətkarların yaradıcılığında azadlıq, vətənpərvərlik və millətsevərlik ideyaları yüksək ehtirasla təbliğ olunurdu. Xalqı, ölkəni əsarətdən qurtarmaq, müstəqil yaşamaq – onları hər zaman düşündürən, ilhamlandıran arzular, xəyallar idi.

Azərbaycan romantik şeirinin ən qüdrətli nümayəndəsi **Məhəmməd Hadidir** (1879-1920). Onun yaradıcılığında milli azadlıq, vətənpərvərlik və humanizm ideyaları mühüm yer tutur. Hər bir millətin və ölkənin, ümumiyyətlə, bəşəriyyətin tərəqqisini ictimai azadlıqda görən şair yazırdı:

Hürriyyət ilə millət edər kəsbi-məali,
Hürriyyət ilə mümkün olur qiyməti-ali,
Avropalı hürriyyət ilə tapdı kəmali.
Əlbəttə, əsarətdə olur məhz əhali,
Hürriyyət sərbəstlik imranı-vətəndir.

* Bir çox məqamlarda **romantizm** və **realizm** ədəbi cərəyan kimi verilir.

XX əsrin əvvəllərində M.Hadinin «Firdovsi – ilhamat» (1908) və «Şüküfeyi– hikmət» (1914) adlı şeir kitabları çapdan çıxmış və dövrün ədəbi hadisəsi kimi qarşılanmışdır. Şairin «Əlvahi-intibah» poeması (1919) romantik ədəbiyyatın şah əsərlərindən biri idi.

Romantik şeirin görkəmli nümayəndələrindən biri də ***Abbas Səhhətdir (1874-1918).*** Onun da şeirlərinin ana xəttini vətənpərvərlik, milli oyanış və tərəqqi ideyalarının tərənnümü təşkil edir. «Şair, şeir pərisi və şəhərli» poemasında cəmiyyətdə gedən proseslər romantik üslubda mənalandırılmışdır.

Azadlıq, bərabərlik, humanizm, ümumi məhəbbət ideyalarını böyük ehtirasla təbliğ və tərənnüm edən Azərbaycan romantikləri milli ədəbiyyatı bədii janrlarla da zənginləşdirdilər. Onların fəaliyyəti nəticəsində himn, sonet, marş, romans kimi, əsasən, Avropa ədəbiyyatına məxsus şeir janrları Azərbaycan poeziyasında da vətəndaşlıq hüququ qazandı. Şərqi, nəğmə kimi janrlar isə yeni üslub çeşidlərinin yaranmasına səbəb oldu. Poema, mənzum dram, yeni tipli hekayə və povest nümunələri yarandı.

Romantik sənətkarların əsas mətbuat orqanı **«Füyuzat»** jurnalı idi. «Bolluq», «bərəkət», «xeyir», «ləzzət», «səadət» kimi mənalar verən «Füyuzat» adını jurnala seçməklə onun redaktoru Əli bəy Hüseynzadə doğma xalqına uğur, fayda, səadət gətirmək, oxuculara bədii estetik zövq vermək niyyətində olduğunu bildirirdi. Redaktor yazırdı: «Füyuzat» sözünün əsl mənası həqiqi zövq və səfalardan ibarət bir səadəti-mənəviyyədir».

Bakıda böyük mütəfəkkir ədib Əli bəy Hüseynzadənin redaktorluğu, mesenat [1] H.Z.Tağıyevin pulu və mənəvi himayəsi ilə nəşr edilən «Füyuzat» ictimai-siyasi, ədəbi-bədii jurnal idi. Onun ayda 2, bəzən də

[1] Xeyriyyəçiliklə məşğul olan şəxs

3 sayı çap olunurdu. İlk nömrəsi 1906-cı il noyabr ayının 1-də buraxılan bu jurnal 1907-ci il noyabrın 1-nə qədər, yəni düz bir il yaşamışdır: onun 32 sayı çıxmışdır.

Jurnalın ana xəttini «türkləşmək, islamlaşmaq və avropalaşmaq» ideyası təşkil edirdi. Ə. Hüseynzadə təkcə azərbaycanlıları yox, bütün türk xalqlarını mədəni-siyasi tərəqqi yoluna çıxarmaq istəyir, bundan ötrü onların arasında birlik yaratmağa, maarif, elm, sənət və mədəniyyətin inkişaf etdirilməsinə böyük əhəmiyyət verirdi. Ədib yazırdı: «Maarif, ittihad və hürriyyət nə qədər gözəl nemətdir! Bunları unutmayalım. Çünki əsl nicat bu uç qüvvədədir».

Başqa bir əsərində – «Nicat məhəbbətdədir» məqaləsində Ə.Hüseynzadə türk xalqlarının azadlıq, tərəqqi yolunu belə göstərirdi: «Nicat məhəbbətdədir. Məhəbbət isə hürriyyət və ədalət olan yerdə mümkündür. Ədl olursa, hürriyyət də olur, hürriyyət olursa, məhəbbət və məvəddət də olur».

«Füyuzat» özünün baş xəttinə uyğun olaraq, «hüdudi-Çindən Ağ dənizə qədər bütün türklərin şükufeyi-ruhu olacaq» nəhəng bir ədəbiyyat yaratmaq istəyirdi. Bu məramını həyata keçirmək üçün jurnalın redaktoru cahanşümul klassik sənətkarların (Nizami, Sədi, Füzuli, Şekspir, Bayron, Höte, Tolstoy və b.) əsərlərini tərcümə edir, onların həyatı barədə məlumat verir, öz ətrafına bilikli, istedadlı müəlliflər toplayırdı. Hüseyn Cavid, Məhəmməd Hadi, Abbas Səhhət, Abdulla Sur, Əbdülxaliq Cənnəti, Yusif Ziya Talıbzadə, İbrahim Tahir, Nəsib Qüdsi və başqaları «Füyuzat» jurnalının ətrafında idilər. Bunlardan başqa, Türkiyədən Əhməd Kamal, Abdulla Cövdət, Mahmud Əkrəm Rəcaizadə, Şimali Kiprdən Əhməd Raiq, Krımdan Həsən Səbri Ayvazov, Kazandan Sənətulla İbrahimov da jurnalın fəal müəlliflərindən sayılırdılar. Bu yazıçıların başçısı və yolgöstərəni isə jurnalın redaktoru Əli bəy Hüseynzadə idi.

Azərbaycan mədəniyyətinin və ictimai-siyasi fikrinin inkişaf tarixində böyük mütəfəkkir, yazıçı, şair, jurnalist, rəssam, həkim, tərcüməçi və müəllim kimi tanınan Əli bəy milli azadlıq və istiqlal ideyasının, türkçülüyün banisidir. Azərbaycan Respublikasının Dövlət Bayrağını bəzəyən üç rəng – göy, qırmızı, yaşıl onun «türkləşmək, islamlaşmaq və avropalaşmaq» düsturunun rəmzləridir.

Əli bəy Hüseynzadə 1864-cü il fevral ayının 24-də Salyan şəhərində doğulmuşdur. Uşaqlıqdan anasını itirən Əli bəy babası Axund Əhmədin himayəsində böyümüşdür. O, Tiflisdə molla məktəbində və gimnaziyada təhsil almış, rus, latın, yunan, ərəb və fars dillərini öyrənmişdir. 1885-ci ildə gənc Əli bəy təhsilini davam etdirmək üçün babasının məsləhəti ilə Peterburqa gedib, universitetin fizika və riyaziyyat fakültəsinə qəbul olunmuşdur. Universitetdə təhsilini başa vurduqdan sonra Türkiyəyə getmiş, İstanbulda hərbi tibb məktəbini dəri həkimi ixtisası üzrə bitirmişdir.

1903-cü ildə Bakıya qayıdan Ə.Hüseynzadə burada ictimai-siyasi və ədəbi-bədii fəaliyyətini davam etdirmişdir. O, «Həyat» (Əhməd bəy Ağayevlə birlikdə) qəzetinin və «Füyuzat» jurnalının redaktoru olmuş, «Səadət» məktəbində müəllim və müdir işləmişdir. Doğma xalqının siyasi azadlığı və mədəni tərəqqisi uğrunda yorulmadan çalışan Ə.Hüseynzadə imperiyanın təzyiq və təqiblərindən 1910-cu ildə yenidən Türkiyəyə getmiş, ömrünün axırına qədər İstanbulda yaşamışdır. Ə.Hüseynzadə 1926-cı ildə Bakıda keçirilən I türkoloji qurultayın çox hörmətli və nüfuzlu iştirakçısı olmuşdur. O, 1940-cı ildə İstanbulda vəfat etmişdir.

Əli bəy Hüseynzadənin zəngin ədəbi-bədii, elmi-fəlsəfi və publisistik irsi qalmışdır. Bu irsin mühüm bir qismi onun şeirləridir. Lirik üslubda yazılmış bu şeirlərin mayasında humanizm, türkçülük, vətənpərvərlik ideyaları durur. Türk xalqlarının qövmi-mənşə birliyinə həsr etdiyi «Turan» dördlüyündə o deyirdi:

Sizlərsiniz, ey qövmi-macar, bizlərə ixvan.
Əcdadımızın müştərəkən mənşəyi Turan.
Bir dindəyiz biz, həpimiz haqpərəstan,
Mümkünmü ayırsın bizi İncil ilə Quran?

Ə.Hüseynzadənin «Arslan ağzı», «Kələbək», «Bağçamın ağacları», «Yurd qayğusu», «Ondan əvvəl və sonra» şeirlərinin də leytmotivində bəşəri duyğuların təsvir və tərənnümü dayanır. Həzin və nisgilli bir dillə yazılmış «Hali-vətən» şeiri isə onun vətənpərvərlik amalının, yurdsevərlik hislərinin poetik zirvəsidir:

Ucundadır dilimin həqiqətin böyüyü,
Nə qoydular deyəyim, nə kəsdilər dilimi.
Bilirmisiz, cühəla nə etdilər vətənə?
Nə qoydular uyuya, nə qoydular yürüyə.
Ədu qırar qapıyı, biz evdə bixəbəriz,
Nə başqa-başqalarız, nə ittihad edəriz.
Ayıltmadı qələmim şu türk ilə əcəmi,
Nə qoydular yazayım, nə qırdılar qələmi.

Ə.Hüseynzadənin nəsr əsərləri də vardır. Onun həcmcə ən böyük, mənaca ən zəngin əsəri «Siyasəti-fürusət»dir*. Yazıçının sosial-fəlsəfi düşüncələrinin, həyati müşahidələrinin məhsulu olan bu əsər Bakıda yazılmış və 1908-1910-cu illərdə hissə-hissə «İrşad», «Tərəqqi» və «Həqiqət» qəzetlərində çap edilmişdir. Əsər 30 hissədən ibarətdir.

«Siyasəti-fürusət»in başlıca ideyası istibdadın tənqidi, azadlığın tərənnümüdür. Əsərin satirik tənqid hədəfi şərq xalqlarının milli azadlıq hərəkatını qan dənizində boğan çarizm və onun müstəmləkəçilik siyasətidir. Əli bəy çarizmin siyasi eybəcərliyini ustalıqla yaratdığı Pruşkeviç surətində göstərir.

Ə.Hüseynzadə irsinin bir qismi də elmi-publisistik əsərləridir. Çoxu «Həyat» qəzetində və «Füyuzat» jurnalında çap olunan bu məqalə və oçerklər ədəbiyyat, sənət və sosiologiyanın müxtəlif problemlərindən bəhs edir. Onların içərisində «Həyat və meyli-füyuzat», «Milliyyət və insaniyyət», «Vəlvələ və zümzümə», «Nicat məhəbbətdədir», «Məcnun və Leylayi-İslam», «Qırmızı qaranlıqlar içərisində yaşıl işıqlar» kimi publisistik şedevrlər vardır.

1905-ci ildə «Həyat» qəzetində çap olunmuş «Türklər kimdir və kimlərdən ibarətdir» məqaləsində türk xalqlarının qədim tarixi haqqında dərin elmi məlumat verilir.

XX əsrin əvvəllərində Azərbaycanda realist ədəbiyyatın **maarifçi realizm** istiqaməti də inkişaf tapmışdı: Nəriman Nərimanov (1870-1925), Süleyman Sani Axundov (1875-1939), Sultanməcid Qənizadə (1866-1937), Rəşid bəy Əfəndiyev (1863-1942) və başqaları. Bu yazıçılar cəmiyyəti maarifləndirmək, elm və tərbiyə yolu ilə inkişaf etdirmək, islah etmək yolunu əsas tuturdular.

---

* At çapmaq sənəti

XX əsrin əvvəllərində Azərbaycanda **sentimentalizm*** də müstəqil ədəbi cərəyan kimi çıxış edirdi. Abdulla bəy Divanbəyoğlu, Ələkbər Qərib Naxçıvanlı bu cərəyanın ən görkəmli nümayəndələri idilər.

Bu dövrdə uşaq ədəbiyyatı da inkişaf edirdi. Abbas Səhhət (1872-1918) və Abdulla Şaiq (1881-1959) Azərbaycan uşaq şeirinin əsas yaradıcıları oldular.

XX əsrin əvvəllərində sosial-mədəni həyatı canlandıran mühüm sahələrdən biri ədəbi tənqid idi. O, öz üzərinə bədii ədəbiyyatın, sənətin funksiyasını müəyyənləşdirmək, yaxşı əsərləri pis əsərlərdən fərqləndirmək vəzifəsini götürmüşdür. Əli bəy Hüseynzadə «Füyuzat» jurnalında yazırdı: «Hər şeirin yaxşılığını, ya fənalığını tənqid sayəsində meydana qoymaq olar». Bundan ötrü qəzet və jurnal səhifələrində «Tənqid», «Teatr və musiqi», «Teatro və bədaye» rubrikaları açılmışdı. Həmin rubrikalarda tez-tez ədəbiyyatın müxtəlif problemlərindən bəhs edən məqalə, rəy, xəbər və söhbətlər dərc edilirdi.

1900–1917-ci illərin mətbuatında bədii ədəbiyyatın mahiyyətindən, vəzifəsindən, yeni çap olunan, yaxud tamaşaya qoyulan əsərlərin keyfiyyətindən, teatr tamaşalarından söz açan, onları qiymətləndirmək istəyən müəlliflər çox idi: Firudin bəy Köçərli, Seyid Hüseyn, Abdulla Sur, Hacı İbrahim Qasımov və b. Bu tənqidçilərin ən görkəmlisi **Firudin bəy Köçərli** (1863-1920) idi.

Qırx ildən artıq doğma xalqının ictimai-mədəni tərəqqisi yolunda çalışan ədəbiyyatşünas, pedaqoq və tənqidçi F.Köçərli Şuşada doğulmuş, doğma şəhərində rus məktəbini, sonra Qori Müəllimlər Seminariyasını bitirmişdir. Bir müddət İrəvan gimnaziyasında ana dili və şəriətdən dərs deyən ədib 1895-ci ildən Qori Müəllimlər Seminariyasında işləmişdir.

Müəllimliklə yanaşı, Azərbaycan ədəbiyyatının tədqiqinə başlayan alim 1903-cü ildə Tiflisdə «Azərbaycan tatarlarının ədəbiyyatı» kitabçasını çap etdirmişdir. Sonralar F.Köçərli «M.F.Axundzadə» (1911) və «Balalara hədiyyə» (1912) kitablarını yazmışdır. «Balalara hədiyyə» kitabı Azərbaycan uşaq ədəbiyyatının inkişafında xüsusi hadisə idi. Uşaq ədəbiyyatına dair müəyyən materialları toplayıb nəşr etdirməklə, onları

* «Sentiment» (hiss) sözündən olub, bədii surətləri daha çox fərdiləşdirmək, insan psixologiyasını, hissiyyatını daha qabarıq əks etdirmək yolunu əsas götürən ədəbi cərəyan. Azərbaycan ədəbiyyatında bir elə də yayılmamışdır.

səliqə ilə işləməklə məşhur ədəbiyyat tarixçisi və tənqidçisi böyük bir borcunu yerinə yetirmişdi. Alimin ən böyük və sanballı əsəri isə **«Azərbaycan ədəbiyyatı»** kitabıdır. Böyük zəhmət sayəsində meydana gələn bu kitabda o, 130-dan artıq şair haqqında məlumat vermiş, onların çoxunun həyatı, əsərləri, yaradıcılıq keyfiyyətləri, ədəbiyyat haqqında mövqeyi barədə söhbət açmışdır. Bu sənətkarlar arasında Əbül-üla, Xaqanı, Nizami, Nəsimi, Füzuli, Vaqif, Seyid Əzim və başqa klassiklər vardır. Əsəri yüksək qiymətləndirən Y.V.Çəmənzəminli yazmışdı: «Bütün Azərbaycan ədəbiyyatını ətraflı tədqiq edən təkcə bir adam varsa, o da Firudin bəy Köçərlidir».

Firudin bəy Köçərlinin bu kitabı 1925 – 1926-cı illərdə «Azərbaycan ədəbiyyatı tarixi materialları» adı altında 4 cilddə çap olunmuşdur.

Doğma Azərbaycan ədəbiyyatı ilə yanaşı, F.Köçərli başqa xalqların da ədəbiyyatına məhəbbətlə yanaşır, onların klassik yazıçılarını öz həmvətənlərinə tanıtmağa çalışırdı. O, Puşkin, Lermontov, Qoqol, Tolstoy, Çexov, Sereteli kimi sənətkarların əsərlərindən tərcümələr edir, məqalələr yazır, onları da azərbaycanlılara tanıdır və sevdirirdi. F.Köçərli M.F.Axundzadə haqqında kitab da yazmış, onun «Aldanmış kəvakib» povestini rus dilinə tərcümə etmişdir.

1918-ci ildə F.Köçərli Qori Müəllimlər Seminariyasının Azərbaycan şöbəsini Qazaxa köçürərək, orada çalışır, millətin övladlarını savadlandırmaq üçün bütün bilik və bacarığını sərf edir (Səməd Vurğun, onun qardaşı professor Mehdixan Vəkilov, şair Osman Sarıvəlli F.Köçərlinin rəhbərlik etdiyi bu seminariyanı – pedaqoji texnikumu bitirmişdilər).

F.Köçərli Müsavat partiyasının fəal üzvlərindən biri olmuşdur. 1918-ci il mayın 28-də Azərbaycan Milli Şurasının üzvü seçilmiş, 1919-cu il fevralın 1-dən Müsavatın Qazax şöbəsinin sədri olmuşdur. 1920-ci ilin mayında Qazax İnqilab Komitəsinin Gəncə Fövqəladə Komitəsinə təqdimatına əsasən F.Köçərli «xalqa xəyanətdə, milli nifaq törətməkdə ...» ittiham olunaraq həbs edilmiş, şahidlər dindirilmədən, verilmiş izahatlar nəzərə alınmadan güllələnməsi haqqında qərar çıxarılmış, hökm tezliklə yerinə yetirilmişdir*.

* Azərbaycan Xalq Cümhuriyyətinin ensiklopediyası. 2 cilddə. II cild, "Lider nəşriyyat", B., 2005, səh. 84-85.

A varianti

1. Mollanəsrəddinçilərlə bağlı doğru cavabları seçin.
   1. Tənqidi-realistlər idi.
   2. Azərbaycan ədəbiyyatına felyeton, satirik marş, taziyanə kimi janrlar gətirdilər.
   3. Ədəbi məktəb yaratmışdılar.
   4. Hacı Zeynalabdin Tağıyevin ianəsi ilə nəşr olunan «Molla Nəsrəddin» jurnalının ətrafında toplaşmışdılar.
   5. M.Ə.Sabir, M.Hadi, Ə.Nəzmi, Ə.Qəmküsar, A.Səhhət, A.Şaiq bu ədəbi məktəbin nümayəndələridir.

   A) 1, 2, 3 B) 1, 2, 5 C) 4, 5 D) 1, 5 E) 2, 4, 5

2. Füyuzatçılarla bağlı doğru cavabı seçin.
   1. Onlar romantiklər idi.
   2. Sonet, marş, türkü kimi janrları Azərbaycan ədəbiyyatına gətirmişdilər.
   3. Ə.Hüseynzadə, Ə.Nəzmi, Ə.Qəmküsar, M.Hadi, H.Cavid əsas nümayəndələridir.
   4. Türkləşmək, islamlaşmaq, müasirləşmək kimi ideyaların carçısıdırlar.
   5. 1906–1917-ci illərdə kiçik fasilələrlə çap olunan «Füyuzat» jurnalından xitabət kürsüsü kimi istifadə edirdilər.

   A) 1, 3 B) 1, 2, 4 C) 3, 5 D) 2, 4, 5 E) 2, 3, 5

3. Bu sənətkarlar Azərbaycan uşaq şeirinin əsas yaradıcıları kimi tanınırlar:
   1. A.Səhhət 2. M.Hadi 3. Ə.Nəzmi
   4. A.Şaiq 5. H.Cavid 6. Ə.Qəmküsar

   A) 5, 6 B) 2, 3 C) 1, 4 D) 4, 5 E) 1, 3

4. H.Cavid və M.Hadi üçün ortaq cəhət sayıla bilər:
   A) hər üç ədəbi növdə yazmaları
   B) yaradıcılığa şeirlə başlamaları
   C) mənzum dramlar müəllifi olmaları
   D) 1937-ci il repressiyası qurbanı olmaları
   E) marş və sonet kimi janrları ədəbiyyata gətirmələri

5. M.Hadiyə aid olanları seçin.
   1. «Bürhani-tərəqqi», «Həyat», «Füyuzat», «İrşad» kimi mətbuat orqanları ilə əməkdaşlıq etmişdir.
   2. Uşaq şeirinin əsas yaradıcılarından biridir.
   3. «Firdovsi-ilhamat», «Şükufeyi-hikmət» şeir kitabları var.
   4. Mənzum faciənin əsasını qoyub.

   A) 3, 4 B) 1, 2 C) 1, 3 D) 2, 4 E) 1, 4

6. Əlibəy Hüseynzadənin yaradıcılığı ilə bağlı ardıcıllığı tamamlayın.
   «Kələbək», «Nur və Cahil», «Hali-vətən»...

   A) «Nicat məhəbbətdədir» B) «Əhvali-intibah»
   C) «Şair, şeir pərisi, şəhərli» D) «Ey Vilhelm» E) «Arslan ağzı»

7. XX əsrin əvvəllərində ədəbiyyatşünaslıqla bağlı ***səhv*** cavabı göstərin.
   A) Firudin bəy Köçərlinin Azərbaycan ədəbiyyatına aid sistemli əsəri «Balalara hədiyyə» kitabıdır.
   B) Abdulla Sur «Füzuliyə bir nəzər» məqaləsinin müəllifidir.
   C) Seyid Hüseynin «Ölülər haqqında təəssürat» məqaləsi ədəbiyyatşünaslıqda yüksək dəyərləndirilir.
   D) F.Köçərlinin «Mirzə Fətəli Axundov» adlı kitabı M.F.Axundzadənin 100 illik yubileyi ərəfəsində çıxmışdı.
   E) Azərbaycanda ilk sistemli ədəbiyyat tarixini F.Köçərli yaratmışdır.

8. 1905-ci ildə «Həyat» qəzetində nəşr olunmuş «Türklər kimlərdir və kimlərdən ibarətdir» məqaləsinin müəllifi:

   A) A.Sur B) F.Köçərli C) Ə.Hüseynzadə
   D) S.Hüseyn E) Ö.F. Nemanzadə

9. Bu sənətkar satirik şairdir və 1913 – 1914-cü illərdə «Molla Nəsrəddin» jurnalının ikinci redaktoru kimi fəaliyyət göstərmişdir:

   A) Ə.Nəzmi B) Ə.Qəmküsar C) M.Ə.Sabir
   D) M.Möcüz E) M.Hadi

10. Ə.Haqverdiyevin hansı dramatik əsərlərində monarxist rejimin daxili çürüməsi prosesi əks olunur?
    1. «Dağılan tifaq» 2. «Bəxtsiz cavan»
    3. «Pəri Cadu» 4. «Yeyərsən qaz ətini, görərsən ləzzətini»

    A) 2, 4 B) 1, 3 C) 1, 4 D) 1, 2 E) 3, 4

B variantı

1. Ə.Haqverdiyevin yaradıcılığı ilə bağlı məntiqi ardıcıllığı tamamlayın.
   «Bomba», «Həmşəri pasportu», «Mirzə Səfər» ...
   A) «Şeyx Şəban»
   B) «Xortdanın cəhənnəm məktubları»
   C) «Pəri cadu»
   D) «Dağılan tifaq»
   E) «Bəxtsiz cavan»

2. Bunlardan biri tarixi faciədir:
   A) Ə.Haqverdiyev. «Ağa Məhəmməd şah Qacar»
   B) H.Cavid. «Şeyx Sənan»
   C) C.Məmmədquluzadə. «Ölülər»
   D) C.Məmmədquluzadə. «Dəli yığıncağı»
   E) Ə.Haqverdiyev. «Bəxtsiz cavan»

3. Ə.Haqverdiyevin yaradıcılığı ilə bağlı doğru cavabları seçin.
   1. Nasir və dramaturqdur.
   2. «Marallarım» silsilə hekayələri 1909 – 1910-cu illərdə «Molla Nəsrəddin»də nəşr olunmuşdur.
   3. Satirik şeirlər də yazmışdır.
   4. Yaradıcılığa nəsr əsəri ilə başlamışdır.
   5. «Cəhənnəm məktubları» povesti 1907-ci ildə «Molla Nəsrəddin» jurnalında çap olunmuşdur.

   A) 1, 3, 5 B) 3, 4 C) 1, 2, 5 D) 2, 4 E) 3, 4, 5

4. Mirzəli Möcüz haqqında olan fikirləri seçin.
   1. Cənubi Azərbaycanda ən fəal mollanəsrəddinçi kimi tanınıb.
   2. Onu «Molla Nəsrəddin» jurnalının ürəyi» kimi qiymətləndirmişlər.
   3. «Prussiya şahı», «Nikolay» şeirlərində beynəlxalq imperializmi tənqid edir.
   4. «Məşədi Sijimqulu», «Kefsiz» imzaları ilə yazmışdır.
   5. «Bikarlara nəsihət» şeiri C.Məmmədquluzadənin «Bikarlar məhəlləsi» felyetonunun təsiri ilə yazılmışdır.

   A) 1, 3, 5 B) 2, 4 C) 2, 4, 5 D) 1, 2, 3 E) 4, 5

5. Uyğunluğu müəyyən edin.
   1. «Məşədi Sijimqulu», «Kefsiz» imzaları.
   2. «Cüvəllağı bəy» imzası
   3. «həqiqi «Molla Nəsrəddin» şairi»
   4. Mollanəsrəddinçilərin «ağsaqqal yoldaşı»

   I – M.Ə.Sabir II – Ə.Qəmküsar
   III – Ə.Nəzmi IV – C.Məmmədquluzadə

   A) 1 – II, 2 – III, 3 – I, 4 – IV B) 1 – III, 2 – II, 3 – I, 4 – IV
   C) 1 – II, 2 – IV, 3 – III, 4 – I D) 1 – III, 2 – IV, 3 – III, 4 – I
   E) 1 – IV, 2 – III, 3 – IV, 4 – I

6. Romantik cərəyanın nümayəndələri:
   1. M.Hadi 2. M.Ə.Sabir
   3. H.Cavid 4. Ə.Qəmküsar
   5. Ə.Nəzmi 6. A.Səhhət
   7. M.Möcüz 8. Ə.Hüseynzadə

   A) 1, 6, 7 B) 3, 4, 5, 6 C) 1, 3, 6, 8
   D) 2, 6, 7 E) 3, 4, 5, 8

7. Ömər Faiq Nemanzadənin ilk çap olunmuş kitabı:
   A) «Milliləşmək» B) «Mən kiməm?»
   C) «Qəribə qutu» D) «Dəvət» E) «Ətiqə»

8. «Hamamlarımız», «Olsun gərək» satirik şeirlərinin müəllifi:
   A) Ö.F. Nemanzadə B) Ə.Qəmküsar
   C) Ə.Nəzmi D) M.Ə.Sabir E) M.Möcüz

9. Maarifçi realistlər:
   1. N.Nərimanov 2. S.M.Qənizadə
   3. S.S.Axundov 4. Ö.F.Nemanzadə
   5. Ə.Haqverdiyev 6. R.Əfəndiyev
   7. Ə.Q.Naxçıvanlı 8. A.Divanbəyoğlu

   A) 3, 4, 5, 8 B) 1, 2, 4, 7
   C) 1, 2, 3, 6 D) 1, 4, 5, 7 E) 2, 4, 6, 8

10. Sentimentalizmin nümayəndələrini göstərin.
    1. A.Divanbəyoğlu 2. Ə.Q.Naxçıvanlı
    3. N.Nərimanov 4. R.Əfəndiyev
    5. Ö.F.Nemanzadə 6. S.S.Axundov

    A) 1, 3, 5 B) 3, 4, 5 C) 1, 2 D) 2, 6 E) 1, 4, 6

Cəlil Məmmədquluzadə

(1869 – 1932)

Mollanəsrəddinçilər ədəbi məktəbinin banisi Cəlil Məmmədquluzadə qüdrətli vətəndaş yazıçı, publisist və ictimai xadimdir. Onun əsərləri Azərbaycan ədəbiyyatının milli mənəvi sərvəti, dünya bədii mədəniyyətinin nadir inciləridir.

Həyatı

Cəlil Məmmədquluzadə 22 fevral 1869-cu ildə Azərbaycanın qədim mədəni-siyasi mərkəzlərindən sayılan Naxçıvan şəhərində anadan olmuşdur. O, 1873–1878-ci illərdə mollaxanada təhsil almış, ərəb, fars dillərini öyrənmiş, şərq tarixi və ədəbiyyatı haqqında ilkin məlumatlar əldə etmişdir. Sonra Naxçıvan şəhər üçsinifli məktəbində ibtidai təhsil almış, buranı bitirib Qori Müəllimlər Seminariyasına qəbul olunmuşdur. 1882–1887-ci illərdə orada oxumuşdur.

Cəlil Məmmədquluzadə 1887–1897-ci illər arasında pedaqoji fəaliyyətlə məşğul olmuşdur. O, 1887-ci ilin sentyabr-oktyabr aylarında İrəvan quberniyasının Uluxanlı kənd məktəbində, 1887-ci ilin 13 oktyabrından Baş Noraşen məktəbində işləmiş, xalq arasında savadlı müəllim kimi hörmət qazanmışdır. Daha sonra Nehrəm kənd ikisinifli məktəbində pedaqoji fəaliyyətini davam etdirən C.Məmmədquluzadə bu mərhələdə (1890-1897) əsl xalq müəllimi kimi tanınmışdır. Bu dövrdə, eyni zamanda, yerli həvəskarlarla birlikdə Naxçıvanda teatr tamaşaları hazırlayıb göstərən C.Məmmədquluzadə milli oyanış və mədəni tərəqqi yollarında yorulmadan çalışmışdır.

Moskvaya və Peterburqa səfər edən (1895) Cəlil Məmmədquluzadə imperiya daxilində gedən prosesləri izləmiş, xalqını daha geniş miqyasda maarifə cəlb etmək üçün yollar axtarmış, latın əlifbasına keçmək barədə danışıqlar aparmışdır.

İrəvanda və Naxçıvanın hüquq orqanlarında keçən qısamüddətli fəaliyyət dövrü (1897-1903) Cəlil Məmmədquluzadənin həyatı, cəmiyyət hadisələrini, müxtəlif taleli insanları öyrənməsi baxımından mühüm əhəmiyyət kəsb edir. Məşhur «Poçt qutusu» hekayəsi 1903-cü ildə cavan yazıçının dərin həyatı müşahidələrinin məhsulu kimi meydana çıxmışdır.

Cəlil Məmmədquluzadə 1903-cü ilin dekabr ayından etibarən Qafqazın inzibati və mədəni mərkəzi sayılan Tiflis şəhərində yaşayıb işləmişdir. Tanınmış publisist və ictimai xadim Məhəmməd ağa Şahtaxtlının (1846-1931) Tiflisdə nəşr etdirdiyi «Şərqi-Rus» qəzetində əməkdaşlıq etməklə mətbuat dünyasına qədəm qoymuşdur. «Şərqi-Rus» qəzeti bağlandıqdan sonra publisist Ömər Faiq Nemanzadə və tacir Məşədi Ələsgər Bağırovla birlikdə o, Məhəmməd ağa Şahtaxtlıya məxsus mətbəəni almış və «Qeyrət» mətbəəsi adlandıraraq işlətmişdir.

Böyük ədibin redaktorluğu ilə birinci sayı 7 (20) aprel 1906-cı ildə Tiflis şəhərində nəşr olunan məşhur «Molla Nəsrəddin» jurnalı Qafqaz xalqlarının, geniş mənada, müsəlman Şərqinin, xüsusən Azərbaycan türklərinin milli oyanışı və dirçəlişində mühüm rol oynamışdır.

C.Məmmədquluzadə 1920-ci ilin sentyabrından 1921-ci ilin mayınadək Cənubi Azərbaycanın Təbriz şəhərində yaşayıb fəaliyyət göstərmişdir. Burada çətin şəraitdə «Molla Nəsrəddin» jurnalının səkkiz sayının nəşr edilməsi böyük əks-səda doğurmuşdur. «Ölülər» əsəri 1 may 1921-ci ildə Təbriz səhnəsində uğurla göstərilmişdir. Nəticədə Cənubi Azərbaycanda realist-satirik ədəbiyyat və mətbuat inkişaf etmiş, karikatura sənətinin meydanı genişlənmişdir.

Azərbaycanda Sovet hakimiyyətinin qurulmasını C.Məmmədquluzadə rəğbətlə qarşılamışdır. Onun redaktorluğu ilə nəşr olunan «Yeni yol» qəzeti latın əlifbasının tətbiq olunması yollarında əsl fədakarlıq göstərmişdir. C.Məmmədquluzadə Azərbaycan Mərkəzi İcraiyyə Komitəsi üzvlüyünə namizədliyə qəbul edilmişdir (1926).

Lakin yeni cəmiyyətə bəslənilən ümid və inam uzun sürməmişdir. C.Məmmədquluzadə 1928-ci ildən başlayaraq sovet cəmiyyətinin sərt ideoloji təzyiqi ilə üz-üzə gəlmiş, mənəvi terrora məruz qalmışdır. Belə ki, Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin 9 aprel 1929-cu il tarixli plenumunda «Molla Nəsrəddin» jurnalını Mübariz Allahsızlar İttifaqının orqanına çevirmək haqqında qəbul edilmiş qərar baş redaktoru

dərindən sarsıtmışdır. Azərbaycan SSR Baş Mətbuat İdarəsinin 1931-ci ildə rəsmi təşkilatlara göndərdiyi məlumatda Cəlil Məmmədquluzadə və redaksiyanın digər əməkdaşları «siyasi cəhətdən geri qalmış, bisavad və siyasətlə maraqlanmayan adamlar» adlandırılmışlar. Bütün bunların nəticəsində C.Məmmədquluzadə 1931-ci ildə «Molla Nəsrəddin» jurnalının baş redaktoru vəzifəsindən imtina etmişdir.

Cəlil Məmmədquluzadə 4 yanvar 1932-ci ildə Bakı şəhərində vəfat etmiş, Fəxri xiyabanda dəfn olunmuşdur.

Yaradıcılığı

Cəlil Məmmədquluzadə bədii yaradıcılığa XIX əsrin 80-cı illərinin sonlarında başlamış, sonralar ədəbiyyat tarixində nasir, dramaturq və publisist kimi məşhurlaşmışdır. Onun ilk əsərləri «Çay dəsgahı» (1889) adlı mənzum alleqorik pyes və «Kişmiş oyunu» (1892) adlı birpərdəli vodevildir. Hər iki əsərdə şirin bir yumor vardır; gənc yazıçı məişətdə təsadüf etdiyi ümumi mədəni geriliyə və tüfeyli həyat sürən adamlara gülür.

Nəsr əsərləri. 1894-cü ildə C.Məmmədquluzadə «Danabaş kəndinin əhvalatları» povestini yazır. Bu, onun ilk nəsr əsəri sayılır. Mövzusu kənd həyatından alınan bu əsərdə cəmiyyətdəki sosial-ictimai bərabərsizliyin, qanunsuzluğun və özbaşınalığın törətdiyi faciələr təsvir olunur. Müəllif böyük sənətkarlıqla yaratdığı Xudayar bəy, Məhəmmədhəsən əmi, Zeynəb, Şərəf, Əhməd, Ziba kimi surətlərin timsalında həm ədalətsiz, istismarçı təbəqənin: kətxuda, qlava, naçalnik, qazı və mollaların qəddarlığını, həm də onların zülmü altında əzilən, məhv olan zəhmətkeş kəndlilərin, kölə qadınların, günahsız gənclərin və məsum uşaqların faciəsini canlandırır. Surətlərin tipik şəraitdə və tipik xarakterlər kimi təqdim olunduğu bu əsərdə bütün faciələrin səbəbkarı hakim idarə üsulu və bu hakimiyyətin meydan verdiyi Xudayar «bəy»dir. Povestin süjeti başdan-başa Xudayar bəyin fəaliyyəti ilə bağlıdır.

Xudayar bəy Danabaş kəndinin kattası – kətxudasıdır. Ancaq o, əsilsiz, nəcabətsiz adamdır. Əvvəllər kasıb kəndli olan Xudayar bəy bir müddət qlava yanında çavuşluq edib. İki il əvvəl qlava onun anasını özünə siğə eləmiş, bundan sonra Xudayar bəy «çox asan vəchlə», yəni qanunsuz, seçkisiz katta təyin olunmuşdur.

O, vəzifəyə keçən kimi əvvəlcə libasını dəyişir; əyninə təzə paltar geyinib, əlinə yekə bir zoğal ağacı alır. Bildirir ki, bu gündən hamı ona «Xudayar bəy» deməlidir. Kətxuda ona bəy deməyənləri həbs edir, incidir. Kəndlilər də şərə düşməmək üçün onu «bəy» – deyə çağırırlar.

Xudayar bəy yalançı, ikiüzlü, xudbin, zalım və namərd adamdır. Dostu Kərbəlayı Heydər öləndən sonra öz ailəsi, arvad-uşağı ola-ola, dostunun dul qadınını almaq fikrinə düşür. Üzdə özünü elə göstərir ki, guya mərhum dostunun – Kərbəlayı Heydərin ailəsinin qeyrətini çəkir, onun yetim qalmış uşaqlarının taleyi üçün narahatlıq keçirir. Əslində isə Xudayar bəy Zeynəblə ona görə evlənmək istəyir ki, onun ərindənqalma var-dövlətini və torpağını əlindən alsın, yetimlərin çörəyinə sahib çıxsın. Bundan ötrü o, çox tədbirlərə əl atır. Axırda şəhərə gedib, qazıya rüşvət verməklə və yalançı şahidlərlə Zeynəbin kəbinini özünə kəsdirir və məcburi surətdə evinə gətirdir. Altı ay müddətində Zeynəbin bütün var-yoxunu zorla əlindən alıb, onu və uşaqlarını ac-yalavac vəziyyətində qoyur.

Yazıçı Xudayar bəyin amansızlığını, vəhşiliyini və zülmkarlığını onun kimsəsizlərlə, özündən gücsüzlərlə rəftarı zamanı açıb göstərir. Köməksiz, arxasız adamların qənimi olan Xudayar bəy arvadı Şərəfin saçlarını əlinə dolayıb, onu evin içində o tərəf – bu tərəfə sürüyür. Məhəmmədhəsən əminin oğlunun – balaca Əhmədin kürəyinə ağacla vurur, kişinin eşşəyini öz malı kimi satır, Zeynəbi «bir qaranlıq dama qatıb ac və susuz saxlayır», onun 7 yaşlı qızı Zibanın üstünə hücum çəkib, uşağın başını, gözünü yumruqlayır, ağız-burnunu qanadır, qoca sövdəgər kişini insafsızcasına əzişdirir.

Kimsəsiz adamları vəhşicəsinə incidən Xudayar bəy qazı, naçalnik, qlava qarşısında qorxaq və kölədir. O, Danabaş kəndinin sakinləri yanında nə qədər hökmlü və sözükeçəndirsə, şəhərdə özündən güclülər yanında bir o qədər cılız və üzüyoladır. Xudayar bəy adi karvansaraçıdan, tacirdən tutmuş hökumət adamlarına qədər hamıya yaltaqlanır. Şəhərdə çubuğunu (qəlyanını) yandırmaq üçün tacir Karapetdən kibrit istərkən tacir ona qeyzlə: «İtil cəhənnəmə burdan, supa oğlu supa! İtil!» – deyəndə Xudayar bəy qorxub kənara çəkilir. Nisyə qənd almaq istəyəndə isə Karapet onu qovur: «Çıx get! Tez ol, get burdan! Elə bu saat çıx get!» Bu sözlərin qabağında Xudayar bəy heç nə deyə bilmir, dinməz-söyləməz dükandan çıxıb gedir.

Daxilən çox eybəcər olan Xudayar bəy zahirən də çirkin və iyrəncdir. Yazıçı onun zahiri görkəmini – portretini belə təqdim edir: « Xudayar bəyin ancaq otuz yeddi, otuz səkkiz sinni olar; artıq olmaz, bəlkə, əskik ola. Boyu ucadı, çox ucadı ... saqqalı, qaşları tünd qaradı. Üzü də qaradı, çox qaradı. Gözləri lap qaradı, bir tikə ağ yoxdu gözlərində. Belə ki, bəzi vaxt Xudayar bəy papağını basır gözünün önünə: papaq qara, gözlər qara, üz qara. Papağın altdan gözlər belə işarır ki, adamın canına vahimə ötürür. Bəs deyəsən ki, çim altından qurbağa baxır. Bunlar hamısı ötər. Xudayar bəyin bir böyük qüsuru var. Burnu əyridi, əyridi, amma pis əyridi. Əyri də var, əyri var. Mən çox gözəllər görmüşəm ki, burunları əyridir. Amma Xudayar bəyin burnu pis əyridi. Burnunun yuxarı tərəfindən bir sümük dikəlib. Sümük düzdü, amma aşağısının əti xoruz pipiyi kimi düşüb sol yana. Bilmirəm anadanolmadı, ya sonra olubdu. Amma çox pis burundu, vəssalam. Xudayar bəyə göyçək kişi demək olmaz».

C.Məmmədquluzadə Xudayar bəyin zahiri çirkinliyi ilə mənəvi eybəcərliyini vəhdətdə təsvir edir. Ədib onun simasında öz-özünü «bəy» adlandıran, lakin əslində-kökündə, damarında bəylikdən heç bir əsər-əlamət olmayan və buna görə evlər yıxan, insanlara göz yaşları, bədbəxtlik gətirən cinayətkar bir gəda tipini canlandırır.

Xudayar bəyin əksinə olaraq, Məhəmmədhəsən əmi mənəvi-əxlaqi saflıq, insanlıq mücəssəməsidir. C.Məmmədquluzadənin böyük rəğbətlə təsvir etdiyi bu surət sadə, ürəyitəmiz, dindar və yoxsul bir kişidir. Səciyyəvi xüsusiyyətləri xeyirxahlıq, mehribanlıq, gözütoxluq, əliaçıqlıqdır. Əgər «birisi gedə deyə: Məhəmmədhəsən əmi, mənə üç-dörd manat pul lazımdı, özündə olsa, əlüstü çıxardıb verəcək, olmasa, çalışacaq hər tövrnən olmuş-olsa, özgəsindən tapsın, sənin işini düzəltsin».

Mömin, dünya malına etinasız olan Məhəmmədhəsən əminin bircə arzusu var: üç-dörd ildir ki, Kərbəla ziyarətinə getmək istəyir. Amma kasıblıq onun arzusunu gözündə qoyur. Hər dəfə ziyarətə gedənlərin yola çıxmaq, səfərdən qayıtmaq xəbərini eşidəndə Məhəmmədhəsən əminin qəlbi çırpınır, zəvvarların arxasınca baxanda gözlərindən yaş çeşmə kimi axır.

Nəhayət, miladi tarixin 1894-cü ilində o, Kərbəla ziyarətinə getməyi qərarlaşdırır. Bundan ötrü ailəsi üçün bəzi tədarük görür, özündən, özgədən pul toplayıb, bir ulaq alır ki, səfərə çıxanda minsin. Ancaq

Xudayar bəy onun eşşəyini şəhərə aparıb satır və Məhəmmədhəsən əmi yenə arzusuna çata bilmir.

Məhəmmədhəsən əmi Azərbaycan ədəbiyyatı tarixində yeni, orijinal bir surətdir. Bu surətin timsalında ədib XIX əsrin ictimai münasibətləri şəraitində Azərbaycan kəndlisinin ağır, dözülməz vəziyyətini canlandırır və insana məhəbbət ideyasının yeni formasını təqdim edir.

Povestdə Azərbaycan qadınlarının hüquqsuzluğu, onların cəmiyyətdəki yeri, acınacaqlı, faciəli yaşayış tərzi Zeynəb və Şərəf kimi surətlərin simasında əks olunur. Yazıçının böyük məhəbbətlə təsvir etdiyi Zeynəb Xudayar bəyin təklifini rədd edir; elçilərə deyir ki, «qoy Xudayar bəy anqırsın tayını tapsın, Zeynəb onun tayı deyil, onu qapısında heç nökər də saxlamaz». Ancaq hər tərəfdən ona təzyiqlər göstərilir və Zeynəb bu təzyiqlərə davam gətirə bilməyib Xudayar bəyin evinə getməyə məcbur olur.

Yüksək insani fikirlər, humanist ideyalar təbliğ edən «Danabaş kəndinin əhvalatları» povesti öz bədii keyfiyyətləri baxımından da seçilən sənət əsəridir. Surətlərin bitkinliyi, təhkiyə aydınlığı, obrazların fərdiləşdirilməsi, kompozisiya bütövlüyü bu əsərin başlıca məziyyətləridir. Povestin əsas leytmotivini Xudayar bəy – Zeynəb xətti təşkil edir, başqa xətlər isə həmin ana xətlə möhkəm əlaqələndirilir.

Əsər «Bir yüngülvari müqəddimə» adlanan girişlə başlanır. Bu, proloqdur. Sonra əsas əhvalat – «Eşşəyin itməkliyi» verilir, nəhayət, «Xitamə» ilə sona çatır. «Bir yüngülvari müqəddimə»də əhvalatları nağıl edən lağlağı Sadıq və onları yazıya alan qəzetçi Xəlil barədə məlumat verilir. «Eşşəyin itməkliyi» hissəsində Xudayar bəy tərəfindən Məhəmmədhəsən əmi, Zeynəb və Şərəfin başına gətirilən müsibətlər nağıl olunur. «Xitamə»də isə hadisələrin sonu: Məhəmmədhəsən əminin eşşəyinin tapılması, Zeynəbin Xudayar bəydən ayrılıb öz evinə getməsi, Şərəfin ölməsi, Xudayar bəyin yenidən evlənməsi, Zeynəbin uşaqlarını öz qapısında nökər və qulluqçu saxlaması haqda məlumat verilir.

«Danabaş kəndinin əhvalatları» povestinin dili aydın və səlisdir. Yazıçının təhkiyəsində və surətlərin danışığında xəlqilik və təbiilik asanlıqla duyulur. Ədib hadisələri və surətləri təsirli, yaddaqalan göstərmək üçün Azərbaycan türkcəsinin incəliklərindən, xüsusilə onun

məcazlar sistemindən ustalıqla bəhrələnmiş, gözəl bir sənət əsəri yaratmışdır.

Ümumən, C.Məmmədquluzadə iki povestin müəllifidir: 1) «Danabaş kəndinin əhvalatları» (1894); 2) «Danabaş kəndinin məktəbi» (1896).

XX əsrin əvvəlindən başlayaraq C.Məmmədquluzadə kiçik hekayələr ustası kimi məşhurlaşır. 1904-cü ildə «Şərqi-Rus» qəzetində çap olunan «Poçt qutusu» (1903) hekayəsi Azərbaycan ədəbiyyatına tamam yeni – təkrarsız bir bədii istedad sahibinin gəldiyini xəbər verir və bütövlükdə XX əsrin bədii nəsri bu hekayə ilə başlayır; onun yeni qəhrəmanı, üslub sistemi və ideyalar aləmi «Poçt qutusu» ilə müəyyənləşir. «Poçt qutusu» C.Məmmədquluzadənin ilk mətbu nəsr əsəridir. Bu hekayə 1905-ci ildə «Qeyrət» mətbəəsində ayrıca kitab kimi də nəşr olunmuşdur.

C.Məmməqduluzadə 1904-cü ildə «Şərqi-Rus» qəzetində daha bir hekayəsini – «Kişmiş oyunu» hekayəsini dərc etdirir. Bu hekayəni C.Məmmədquluzadə vaxtilə (1892-ci ildə) yazmış olduğu birpərdəli «Kişmiş oyunu» vodevilinin motivləri əsasında işləmişdi. Ümumən, C.Məmmədquluzadə bəzən bu yoldan istifadə edirdi. Belə ki, 1896-cı ildə yazmış olduğu «Danabaş kəndinin məktəbi» povestinin motivləri əsasında 1921-ci ildə «Danabaş kəndinin məktəbi» komediyasını yazmış, bu komediyanı 1923-cü ildə «Danabaş kəndinin müəllimi» adı ilə teatra təqdim etmişdi.

«Poçt qutusu»nda təsvir olunan hadisələrin mərkəzində Novruzəli surəti dayanır. O, sadə, mömin və avam bir kəndlidir. Olduqca saf, səmimi bir insandır. Başlıca idealı ağasına sədaqətlə xidmət etmək, ölənə qədər onun qulluğunda durmaqdır. Ədib onun daxili saflığını və səmimiyyətini sonsuz məhəbbətlə, avamlığını isə böyük mənəvi ağrı ilə təsvir edir. Novruzəli o qədər avamdır ki, poçt qutusunun nə olduğunu da bilmir. Ağasının məktubunu ora salandan sonra dolaşıb qalır: görəsən, qayıdıb getsin, yoxsa qutunun yanında durub kağızın keşiyini çəksin?! Elə bu vaxt poçt işçisinin qutunu açıb, məktubları oradan götürdüyünü görür. Güman edir ki, o, kağızları oğurlayır. Tez qaçıb poçt işçisinin qolundan yapışır: «Aşna, hara aparırsan kağızları?.. Adam özgənin malına tamah salmaz», – deyə onu tənbeh edir, doğru yola çağırır. Poçt işçisi onun sözlərindən heç nə anlamayıb, öz vəzifəsini yerinə yetirmək istədikdə Novruzəli daha da qəzəblənir. Bu qəzəb öz mənbəyini, bir tərəfdən, Novruzəlinin

avamlığından, onun poçt məmurunu tanımayıb, onu oğru hesab etməyindən götürürsə, digər tərəfdən, onun öz ağasına hədsiz sədaqətindən mayalanır: «Novruzəli hələ ölməyibdir ki, sən onun ağasının kağızını aparasan».

Məhz ağasına sədaqət hissi onun ehtiraslarını və qəzəbini coşduraraq, hökumət məmurunu yerə çırpmaq dərəcəsinə qədər yüksəldir: «Gördüm ki, hərif istəyir qoya qaça. Vallah hirs vurdu təpəmə, ikiəlli yapışdım kafirin çiynindən, bunu üzüstə elə gətirdim yerə ki, heybətdən ağzı qanadı. Sonra nəçərnik divanxanasından soldatlar tökülüb məni döyə-döyə aparıb saldılar dama».

Avam, sadəlövh Novruzəli həm də itaətkar bir adamdır. O, xana xidmət etməkdən, ağasının qulluğunda durmaqdan həzz alır və bunu daxili bir məmnunluqla dilə gətirir: «Başına dönüm, xan... Qadanı alım... Mən ölənə kimi sənə qulam... Qurban olsun sənə mənim yetim-yesirim! Sənsiz mənim bir günüm olmasın! Sənin qədəmlərinə mən qurban olum...» və s.

Qəribədir ki, həbsə düşəndə də, hadisələrin lap sonunda da Novruzəli səhv elədiyini, poçt xidmətçisini təhqir etməklə günah işlətdiyini anlaya bilmir. Bu isə dəhşətdir.

Hekayədə bədii gülüşü doğuran və onun tipini səciyyələndirən – Novruzəlinin öz hərəkətlərinə bəraət qazandırmasıdır. O, işlətdiyi qəbahəti tamamilə təbii bir iş hesab edir; özünü deyil, məktubu yığışdırıb aparmaq istəyən vəzifə sahibini müqəssir bilir və özünün haqlı olduğunu sübut etməyə, inandırmağa çalışır.

Novruzəli C.Məmmədquluzadə gülüşünün obyektidir. Bu gülüşü ifa edən, həyata keçirən surət isə Vəli xandır. Hekayədə Novruzəli kimi, o da yüksək yazıçı səmimiyyəti ilə təsvir olunur. Novruzəli başına gələn əhvalatı danışdıqca xan qah-qah çəkib gülür. Lakin bu gülüş rişxənd və istehza deyil, təsvir olunan situasiyanın doğurduğu şən gülüşdür. Vəli xan Novruzəliyə qarşı etinasız adam deyil. Onun içərisində Novruzəliyə qarşı müəyyən rəğbət vardır. Elə buna görə Novruzəlinin tutulub «dustaqlığın damına» salındığını eşidəndə dərhal pristavın yanına gedib onu zaminə götürür.

C.Məmmədquluzadə Novruzəli surəti ilə Azərbaycan ədəbiyyatında adi adamın yeni səciyyəvi xüsusiyyətlərini təqdim edir. Yazıçını narahat edən başlıca məsələ vətəndaşın ictimai şüur baxımından geridə qalmasıdır.

Bu məsələ yazıçının «İranda hürriyyət» (1906) hekayəsində də diqqət mərkəzindədir. Lakin «Poçt qutusu»ndan fərqli olaraq, «İranda hürriyyət» hekayəsində bədii təhkiyənin mərkəzinə kəndlinin yox, fəhlənin avamlığı gətirilir. Əsərin qəhrəmanı – İrandan çörəkpulu qazanmaq üçün Qafqaza gəlmiş fəhlə Kərbəlayı Məmmədvəli də kəndli Novruzəli kimi savadsız, avam bir adamdır. O, İranda camaata hürriyyət – azadlıq verildiyini eşidəndə uşaq kimi sevinir, padşaha dua edir. Lakin Kərbəlayı Məmmədvəlinin «hürriyyət» haqqında heç bir təsəvvürü yoxdur. O, belə güman edir ki, hürriyyət nə isə, maddi nemətdir. Buna görə həmin hürriyyətdən özünə pay umur və anasına məktub yazaraq, ona çatacaq hürriyyət payını tezliklə göndərməyi xahiş edir.

Mənəvi kasıblıq və miskinlik yazıçının «Qurbanəli bəy» (1907) hekayəsinin də başlıca gülüş hədəfidir C.Məmmədquluzadəni narahat edən budur ki, ölkənin kəndlisi, fəhləsi kimi, bəyi də avam və cahildir. Köləlik, nökərçilik psixologiyası Qurbanəli bəyi də səciyyələndirən xüsusiyyətdir. O, mahal pristavının arvadına deyir: «Nə qədər mənim canım sağdır, sənə mən nökərəm.»

Qurbanəli bəy eyni fikri naçalnikə də deyir: «Naçalnik ağa, sən bizim başımızın sahibisən. Nə qədər ki bizim mahalda camaat var, onlar hamısı sənin yolunda başlarından keçərlər, mən özüm sənin yolunda oda girərəm. Qurban sənə mənim canım. Nə qədər ki mən sağam, nökərəm sənə.».

Dediklərini sübut etmək üçün o, pristavın xanımının qulluğunda durur, onun sağlığına dolu badələr içir, həyətdə yallı gedənlərə qoşulub rəqs edir. Naçalnikə yarınmaq üçün xoş sözlər deyir, atlarını tərifləyir və birini ona bağışlayacağına and içir.

Nökərçilik psixologiyası Qurbanəli bəyi daxilən cılızlaşdırır. O, ağaların və xanımların hər birinin şərəfinə badə qaldırır, «hərənin barəsində bir nitq söyləyir, bir dolu stəkan içir.» Qonaqlar onun sağlığını qeyd edəndə Qurbanəli bəy fərəhindən yerə-göyə sığmır, şadlığından az qalır özündən getsin. Ağalara və xanımlara minnətdarlıq əlaməti olaraq, onları öz evinə qonaq çağırır, onlara dadlı bir «müsəlman plovu» vəd edir. Lakin möhkəm kefləndiyindən vədlərini unudur. Səhəri gün qonaqların

gəldiyini eşidəndə isə vəziyyətdən çıxmaq üçün mələfəyə bürünərək at axurunda gizlənir və bununla da gülünc vəziyyətə düşür. Qurbanəli bəyin tərifladiyi atına baxmaq üçün tövləyə girən məmurlar orada Qurbanəli bəyi görüb uğunurlar. Qurbanaəli bəy öz ağalarına – pristava, naçalnikə, onların xanımlarına qarşı nə qədər cılız və itaətkardırsa, nökəri Kəblə Qasıma qarşı bir o qədər qəddardır. Ağalarına xoş gəlsin deyə, kərbəlayi olan bir adama zorla şərab içirtmək istəyir. Müəllif Qurbanəli bəyi hekayənin sonunda axurda göstərməklə əslində bu tipli adamların həyatdakı yerinə və «şəxsiyyətinə» işarə edir.

C.Məmmədquluzadənin XX əsrin əvvəllərində yazdığı digər hekayələrində də (məsələn, «Saqqallı uşaq», «Quzu», «Nigarançılıq», «Konsulun arvadı» və s.) o dövrkü cəmiyyətin müxtəlif sosial problemləri realistcəsinə əks olunmuşdur.

C.Məmmədquluzadə hekayə yaradıcılığını Azərbaycanda Sovet hakimiyyəti qurulandan sonra da davam etdirmişdir. Onun 1920-ci illərdə yazdığı «Bəlkə də, qaytardılar», «Taxıl həkimi», «Şeir bülbülləri», «Zırrama», «Şəhər və kənd», «Proletar şairi», «Oğru inək», «Şərq fakültəsi» kimi hekayələrində yeni quruluşun insanlarda əmələ gətirdiyi çaşqınlıq, cəmiyyətdəki bürokratiya, özbaşınalıq, ayrı-ayrı fərdlərin keçmişlə bağlı xiffət hissi təsvir edilir. İlk hekayələrində olduğu kimi, yazıçını yenə də Azərbaycan vətəndaşının ictimai taleyi, onun düşüncə kasıblığı və cəmiyyətdə mövqeyi maraqlandırır.

C.Məmmədquluzadə bu dövrdə yazdığı hekayələrdə sovet cəmiyyətindəki qüsurları, insan psixologiyasındakı əyintiləri, bu cəmiyyətin yaratdığı vahimə və çaşqınlığı daha cəsarətlə göstərməyə çalışmışdı. Məsələn, «Oğru inək» hekayəsində göstərirdi ki, bu yeni quruluşda «oğurluq darülfununundan» təkcə insanlar yox, onların pis əməllərinə öyrəşmiş inəklər də çıxır. «Hamballar» hekayəsində göstərir ki, Sovet hakimiyyəti məmləkəti düzəltməyə nə qədər güc sərf etsə də, ölkədə yenə süründürməçilik, özbaşınalıq, hərc-mərclik davam edir, hətta bu, bir növ qarşısıalınmazdır. Həm də bütün bunlar daha çox adi adamlara – yoxsullara zərbə vurur. «Bəlkə də, qaytardılar» hekayəsində köhnə cəmiyyətdə az-çox mövqeyi, imkanı olan adamlardakı təbii nostalji hislərə toxunur, bununla da göstərirdi ki, bu cəmiyyətdə sinfi fərqlərin çox kəskin şəkildə qabardılması, şişirdilməsi özü də bir ictimai eybəcərlikdir. Təbii ki, C.Məmmədquluzadənin belə tənqidi hekayələri sovet rejimi rəhbərlərini

heç cür təmin edə bilməzdi. Onlar yazıçıdan tamam başqa əsərlər gözləyirdilər.

Cəlil Məmmədquluzadənin nəsr əsərləri, xüsusilə «Danabaş kəndinin əhvalatları» povesti və «Poçt qutusu», «Usta Zeynal», «Qurbanəli bəy» kimi hekayələri Azərbaycan ədəbiyyatının gözəl nümunələri olmaqla bərabər, bir sıra dünya xalqlarının da dərin marağına səbəb olmuşdur.

C.Məmmədquluzadə şeir yaradıcılığına da biganə olmamışdır. O, ilk bədii əsəri olan «Çay dəsgahı»nı şeirlə (mənzum dram formasında) yazmışdır. Yeri gəlmişkən deyək ki, «Çay dəsgahı» milli uşaq dramaturgiyamızın ilk nümunəsi kimi diqqətçəkən əsərdir. Bu əsər alleqorik formada yazılsa da, ədəbiyyatımızda ilk mənzum dramdır. Elə bu ilk əsəri C.Məmmədquluzadənin tənqidə, bədii gülüşə böyük meylini, müsəlman mədəniyyətindəki qüsurlara qarşı amansızlığını sübut etmiş oldu. Sonralar C.Məmmədquluzadə «Molla Nəsrəddin» jurnalının nəşrinə başlayanda bu jurnalın ilk nömrələrindəki bəzi şeirləri də özü yazmışdı.

Dramaturgiyası. C.Məmmədquluzadənin bədii irsinin mühüm hissəsi dram əsərlərindən ibarətdir. Əslində o, ilk qələm təcrübələrini də («Çay dəsgahı», «Kişmiş oyunu») dramaturji formada yazmışdır. Sonralar nasir kimi məşhurlaşmasına baxmayaraq, yenidən dramaturgiya ilə məşğul olmuş, «Ölülər» (1909), «Kamança» (1920), «Anamın kitabı» (1920), «Danabaş kəndinin məktəbi» (1921), «Dəli yığıncağı» (1926) kimi səhnə əsərləri yaratmışdır.

«Ölülər» tragikomediyası Azərbaycan dramaturgiyasının klassik nümunələrindən biridir. İlk dəfə 1916-cı ildə Bakıda tamaşaya qoyulan bu əsərdə yazıçı müsəlman dünyasında hökm sürən mənəvi ölülüyün: fanatizmin, cəhalət və mövhumatın törətdiyi ictimai faciələri əks etdirmişdir. Vətəndaş ədib böyük sələfi M.F.Axundzadədən sonra hələ heç kəsin edə bilmədiyi bir cəsarət göstərib, cəmiyyətdə, ictimai həyatda hökm sürən mənəvi ölülüyə qarşı çıxır; bütün müsəlman aləmini bürüyən ətaləti və gülünc vərdişləri tənqid edir. Təsadüfi deyil ki, müəllif əsərin əlyazmasında hadisələrin baş verdiyi mühiti nəzərə alaraq «Ölülər»i faciə adlandırmışdı.

Əsərdə təsvir və ifşa olunan ölülər olduqca geniş və dərin bir məzmun daşıyır. Bu ad altında dramaturq bir fırıldaqçının sözlərinə inanıb, onun bütün istəklərini yerinə yetirən əfəl, maymaq möminlərdən daha çox, öz

arvadlarını yumruqla öldürən və əvəzində 9-10 yaşlı bir qız alan, ölən qardaşlarının arvadlarına evlənən, ölən dostlarının yetimlərinin malına yiyələnən, 9 yaşlı qızlarının yalvarışlarına, hıçqırıqlarına baxmayıb onları Şeyx Nəsrullahın otağına göndərən, zahirdə isə möminlikdən dəm vuran müsəlmanları ümumiləşdirir.

Pyesin konflikti həmin ölülərlə İsgəndər arasında başlanır və davam edir. Öz tipinə görə bu konflikt tragik səciyyəlidir. İsgəndər komik qəhrəman deyil. O, ağlı, kamalı, işığı təmsil edən radikal maarifçi surətidir. Lakin onun fəaliyyət göstərdiyi şərait tragikomik şəraitdir və bu şəraitdə İsgəndərin arxalandığı ən güclü silah gülüşdür. «Ölülər» və «ölülük» mühitini o, təkrarsız, orijinal bir estetik gülüşlə ifşa edir. Bu keyfiyyət İsgəndəri Azərbaycan dramaturgiyasında özünəqədərki Hacı Nuru, Yusif Sərrac, Fəxrəddin bəy, Fərhad kimi klassik maarifçi surətlərindən fərqləndirir.

Ölülərə qarşı keflilik – İsgəndəri başqa maarifçi surətlərindən fərqləndirən spesifik əlamətlərdən biri də budur. Müsbət qəhrəmanın xarakterinə bir qədər mürəkkəblik gətirməsinə baxmayaraq, bu xüsusiyyət tamamilə yenidir; müsbət qəhrəmanla tipik şərait arasındakı əlaqələrin mahiyyətini əks etdirir. Özünəqədərki maarifçi surətlərinin hamısından fərqli olaraq, İsgəndər ümumi geriliyi, nadanlığı, ölülər mühitini məhv etmək üçün ağıl, savad, mədəniyyət kultlarını artıq səmərəsiz sayır: «Mən dünyada heç bir şeyəm. Əgər mən bir şey olsaydım, cibimdən bir bomba çıxarıb (əlini uzadıb cibindən araq şüşəsini çıxardır) bu evi bir saniyənin içində havaya dağıdıb, İsfahan lotusunu kərpiclərin altında diri-diri dəfn edərdim. Amma qorxmayın, mənim əlimdən elə şeylər gəlməz... Yox, yox, o, mənim işim deyil. O, igid işidir. Siztək camaatın da igidi mənimtək olar».

İsgəndər Avropada ali təhsil almış, işləmək, böyük işlər görmək, müasirlərini maarifləndirmək arzusu ilə vətəninə qayıtmışdır. Lakin vətənində tamam başqa bir mühitin olduğunu gördükdə ümidsizləşmiş, «ölülər» adlandırdığı bu mühitdə çarəni araq şüşəsində tapmışdır. O, yaşadığı bu mühiti «ölülər» adlandırır, ancaq İsgəndərə heç də yad olmayan bu mühit də onu ölü bilir. Cəmiyyət onu da mənən şikəst etmişdir. O, bu «ölülər» mühitinə ayıq başla baxa bilmir. Heç olmasa, içəndə, müvəqqəti də olsa, bu mühitdən uzaqlaşıb tamam başqa bir aləmə düşür. İsgəndər özü də öz gücsüzlüyünü, bu cəmiyyət üçün artıq adama

çevrildiyini yaxşı bilir, ona görə də deyir ki, yox, mən o «igidlərdən» deyiləm. İsgəndər «ağıllı dəlilər»dəndir. Bədbəxtliyi də elə orasındadır. Onun dərdi, yazıçı Anarın göstərdiyi kimi, anlamaq dərdidir.

«Ölülər» tragikomediyasında İsgəndər müəllif ideyasını ifadə edən ifşaçı surətidir. Yazıçının gülüş obyekti isə həm ölülər – avamlar və fanatiklər mühiti, həm cəmiyyətdə bu ölülüyü yaradan ictimai-dini psixologiya, həm də həmin psixologiyadan məharətlə faydalanıb öz çirkin əməllərini həyata keçirən fırıldaqçılardır. C.Məmmədquluzadə öz satira neştərini bu hədəflərin hər üçünə birdən və eyni dərəcədə qəzəblə tuşlasa da, ən kəskin gülüş hədəfi kimi Şeyx Nəsrullahı seçir.

Şeyx Nəsrullah ruhani cildinə girmiş İsfahan lotusudur; qatı fırıldaqçıdır. O, satirik gülüş hədəfidir. Guya ömrünü həmişə Allaha ibadətlə keçirdiyindən müqəddəslik dərəcəsinə yüksəlmiş, ölü diriltmək qüdrəti qazanmışdır. Əslində isə dramaturq onun simasında müsəlman aləmində xalq kütlələrinin avamlığından istifadə etməklə onları aldadıb öz çirkin niyyətini həyata keçirən ikiüzlü ruhanilərin tipik obrazını yaratmışdır.

Şeyx Nəsrullah camaat arasında dünya təamlarından uzaq olduğunu, «gündə bir xurma» yeməklə dolandığını söyləyir. Amma camaatı başından dağıdandan sonra cücə-plov istəyir. O, möminlərə dünya nemətlərinin puçluğundan, axirətin gözəlliyindən, siğənin faydasından danışır, siğədən məhrum olan kişi və qadınların cəhənnəmdə yanacağını bildirir. Bu söhbətləri qadınların da eşitməsini vacib sayaraq deyir ki, qoy qadınlar da gəlib pərdə arxasından onun moizələrini dinləsinlər.

Şeyx Nəsrullah möminləri heyrətləndirmək və özünün əsl simasını gizlətmək üçün ərəbcə danışır. O, elmin səmərəsini tərifləyir. Bu elm isə guya ölü diriltmək elmidir. Öz «elmi» ilə ölmüş insanları dirildəcəyini bildirir. Möminlər yalanlarına inanıb onu müqəddəs din xadimi hesab edir və bu riyakarın, idbarın bütün istəklərini yerinə yetirirlər. Şeyx Nəsrullah hər gecə bir qızla evlənir. Məsələnin üstünün açılacağını hiss edəndə isə şəhərdən qaçıb gedir. Bununla da bütün möminlər, xüsusilə də onların seçilmiş, nüfuzlu nümayəndələri gülünc vəziyyətdə qalırlar.

Əsər əvvəldən axıra qədər komik üslubda yazılmışdır. Onun süjeti və kompozisiyası komizmin açılmasına , müsəlman aləmində hökm sürən gülünclüyün estetik mahiyyətinin aşkarlanmasına xidmət edir. Pyesdə

bədii gülüş çox kəsərli və yandırıcı olmaqla bərabər, həm də aparıcı mövqedədir. Avamlığa, mədəni geriliyə, yalançılığa, hər cür mövhumata, fanatizmə, ümumiyyətlə, nadanlığa «baltanı dibdən vuran» (Ü.Hacıbəyov) bu əsər bu gün də müasirdir.

«Danabaş kəndinin məktəbi» (1921) komediyasında təsvir olunan hadisələr 1895-ci ildə İrəvan quberniyasının Danabaş* kəndində baş verir və dramaturq bədii gülüşün istiqamətini yenə avamlar mühitinə yönəldir. Lakin «Ölülər»dəkindən fərqli olaraq, bu əsərdə gülüşü avamların hökumət məmurlarına inamsızlığı yaradır. Camaatın xeyri üçün hökumətin yeni tipli məktəb açmasını camaat özü yalan, fırıldaq sayaraq rədd edir, çünki bu hökumətdən yaxşı iş gözləmir.

Əsərdə gülüş doğuran bir amil də uçitel Həsənovun təlim üslubudur. Xalqın dilində düz-əməlli danışa bilməyən Həsənov əhalinin məişətindən və psixologiyasından da xəbərsiz olduğundan uşaqlara heç nə öyrədə bilmir. Əksinə, onun yeni və səmərəli hesab etdiyi dərs üsulu hamıda gülüş doğurur.

Avamlığa və nadanlığa qarşı C.Məmmədquluzadə gülüşünün satirik tündlüyü, acılığı və zəhəri ən çox «Dəli yığıncağı» (1926) tragikomediyasında duyulur. Əsərdə təsvir olunan hadisələr Cənubi Azərbaycanın uzaq şəhərlərindən birində baş verir. Dini xurafata, uydurma əfsanələrə şübhə etdikləri üçün Molla Abbası, Farmasyon Rüstəmi, Sərsəm Salmanı, Həmzad Qurbanı və Pırpız Sonanı hər yerdə «dəli» adlandırırlar. Əslində isə onlar mühitin ən ağıllı adamlarıdır; ətrafda baş verənləri hamıdan yaxşı başa düşürlər. Bu adamları dəli hesab edib hiylə və yalan yolu ilə onların arvadlarını siğə edirlər. Yerli ruhani Fazil Məhəmməd avamlara deyir: «Dünyanı bürüyən bədbəxtliklərin səbəbi bu dəli kişilərin övrətlərinin sahibsiz qalmağındadır».

Pyesdə «möminlərin» fırıldaqları, mənəvi eybəcərliyi Molla Abbas və Pırpız Sona surətləri vasitəsilə ifşa olunur. Arvadını qorumaq üçün özünü dəliliyə vurmuş Molla Abbas gözüaçıq, iti zehinli bir şəxsdir. O, hər yerdə

*Ümumən, "Danabaş kəndi", "danabaşlılar" C.Məmmədquluzadənin yaradıcılığında ümumiləşmiş obrazlardır, heç də konkret bir kəndi, konkret bir şəxsi ifadə etmir. Müəllif saf, təmiz adamlardan ibarət olsalar da, geridə qalmış, ətalətli, möhkəm yatmış kənd mühitini ironiya ilə *Danabaş*, bu mühitin sakinlərini isə *danabaşlılar* adlandırır. Başqa sözlə, Danabaş və danabaşlılar simvolik adlardır. (***Elmi redaktordan***)

fırıldaqçı ruhanilərin dediklərinə istehza edir, onları lağa qoyur. Pırpız Sona isə onların əxlaqi çirkinliyini ifşa edir. Son dərəcə saf, təmiz mənəviyyatı olan Sona əsərin final səhnəsində əxlaqsız adamların hərəkətlərindən heyrətlənir və onlara öz nifrətini bildirib deyir: «Molla Abbas, o arvadlar ki öz ərlərini tullayıb, ərlərinin qardaşlarına qoşulub gedirlər, o arvadların ucundan qorxuram dünya və aləm dağıla, küllikufan ola. Molla Abbas, qorxuram ulduzlar yerə tökülə (titrəyir). Vay, nələr görürəm?!» Molla Abbasın artıq bu mühitin dözülməzliyinə qarşı çıxartmış olduğu nəticə də çox ibrətamizdir: «Vallah, billah, dəli yığıncağına düşmüşük».

Əsərdə Həzrət Əşrəf, Doktor Lalbyuz surətləri də satirik gülüş hədəfləridir. Onların komizmi yad ölkədə yad xalqa zorla rəhbərlik (ağalıq) etmək istəyən istilaçının düşdüyü vəziyyətdən doğur. «Pul» kəlməsindən başqa yerli xalqın dilində heç bir söz bilməyən, onun tarixi keçmişindən, adət-ənənələrindən xəbərsiz Həzrət Əşrəf ölkəni və onun əhalisini zor gücünə idarə edir. Doktor Lalbyuz isə millətin psixologiyasından, dilindən, düşüncə tərzindən xəbərsiz olduğu halda, onun «dəlilləri»ni sağaldacağını güman edir. «Cünun azarına tutulmuşlar» isə yad, uzaq mühitdən gəlmiş doktora qətiyyən inanmır, onun özünü gülünc vəziyyətdə qoyurlar.

Beləliklə, C.Məmmədquluzadənin «Ölülər», «Danabaş kəndinin məktəbi» və «Dəli yığıncağı» əsərləri ideya-üslub və bədii qayə baxımından bir-birinə bağlı əsərlərdir. Hər üç əsərdə cəmiyyətin ictimai yaraları satirik tənqidə məruz qalır. Avamlıq, mədəni gerilik, riyakarlıq, fırıldaqçılıq kimi mənəvi-əxlaqi qüsurları pisləyən yazıçı həmvətənlərini mədəni tərəqqiyə çağırır. Bu ideya – bədii qayəni ədib yaradıcılığının son dövründə yazdığı «Lal», «Oyunbazlar», «Lənət» kimi pyeslərində də davam etdirmiş, avamlığın və mövhumatın tənqidinə mühüm yer ayırmışdır. Bu pyeslərdən «Ər» daha böyükdür.

C.Məmmədquluzadənin yaradıcılığında «Kamança» (1920) dramı da müəyyən yer tutur. Həcmcə bir pərdədən ibarət olan bu əsərdə Azərbaycan türklərinin humanist təbiəti böyük sənətkarlıqla əks etdirilir. Dramaturq bütün qəzəbini boğub günahsız ermənini – kamançaçı Baxşını öldürməkdən vaz keçən Qəhrəman yüzbaşının simasında əsl insanpərvərin yaddaqalan surətini yaradır. «Kamança» Azərbaycan dramaturgiyasında erməni-azərbaycanlı münaqişəsinə həsr olunmuş ilk əsərdir.

Cəlil Məmmədquluzadənin dramatik əsərləri humanist-bəşəri məzmunu və bədii keyfiyyətləri baxımından bu gün də müasirdir. Elə buna görə Azərbaycan teatrları, görkəmli rejissorlar bu əsərlərə tez-tez müraciət edir, onların yeni tamaşalarını hazırlayırlar.

Publisistikası. C.Məmmədquluzadə irsinin böyük bir hissəsini publisist əsərləri təşkil edir. Hər çeydən əvvəl, C.Məmmədquluzadə Azərbaycan satirik publisistikasının yaradıcısı idi. «Sizi deyib gəlmişəm», «Necə qan ağlamasın?», «Niyə məni döyürsünüz?», «Millət», «Firqələr davası» və s. kimi məqalə və felyetonlarda o dövrün bir sıra ictimai-siyasi məsələləri (millət, dil və ziyalı məsələsi, bəzi din xadimlərinin – mollaların riyakarlığı və nəyin bahasına olur-olsun qazanc hərisliyi, milli istiqlalın əzəməti və şirinliyi və s.) çox cəsarətlə, müdrik uzaqgörənliklə, detalları ilə ifadə olunurdu. O, bədii yaradıcılığında olduğu kimi, publisist əsərləri ilə də böyük vətəndaşdır; publisist əsərlərinin də baş mövzusu Vətən, Dil və Millətdir.

Vətəni və Dili Millətin varlığı sayan böyük ədib bu anlayışların üçünü də ayrılmaz bir tam, vahid hesab edir, onların hər üçünə eyni dərəcədə böyük sevgi, dərin və tükənməz məhəbbət aşılayırdı. O, hələ «Molla Nəsrəddin» jurnalının ilk sayında «Sizi deyib gəlmişəm» məqaləsində özünə məxsus yumorla yazırdı: «Ey mənim türk qardaşlarım, mən sizinlə türkün açıq ana dili ilə danışıram. Mən onu bilirəm ki, türk dili danışmaq eyibdir və şəxsin elminin azlığına dəlalət edir. Amma hərdən bir keçmiş günləri yad etmək lazımdır: salınız yadınıza o günləri ki, ananız sizi beşikdə yırğalaya-yırğalaya sizə türk dilində lay-lay deyirdi və siz qulaq ağrısı səbəbinə sakit olmurdunuz. Axırda biçarə ananız sizə deyirdi:

– Bala, ağlama, xortdan gələr, səni aparar! – Və siz dəxi canınızın qorxusundan səsinizi kəsib, ağlamaqdan sakit olurdunuz.

Hərdənbir ana dilini danışmaqla keçmişdəki gözəl günləri yad etməyin nə eybi var?!»

C.Məmmədquluzadə ana dilini bəyənməyib ünsiyyət zamanı başqa dilləri üstün tutan, danışıqda zərurət olmadan yad sözlər işlətməkdən xoşlanan savad sahiblərini kinayə ilə «obrazovannılar» adlandırır və onların gülünc surətini «Bizim obrazovannılar» (1906) felyetonunda yaradır. «Meymunlar» (1906) felyetonunda isə yazıçı ana dilinə biganə olan, doğma ünsiyyət vasitəsini bir yana qoyub, əcnəbi dildə danışan həmin «obrazovannıları» publisist ustalıqla lağa qoyur: «Mən indiyədək

heç bir yanda görməmişəm ki, iki obrazovanni müsəlman bir-biri ilə görüşəndə müsəlmanca danışsınlar. Amma hökumətin qanun və qərardadlarının içində heç belə bir qərardad yoxdur ki, iki müsəlmanın bir-birilə müsəlmanca danışmasına mane olsun».

Yazıçı əcnəbi dildə danışanların mənəvi yoxsulluğunu, vətəndaş kasıblığını və heysiyyətsizliyini xüsusi intonasiya və görümlü faktlarla nəzərə çatdırır: «Bir saatlığa tutaq ki, hökumət qoymur məktəblərdə ana dilimizi oxuyaq... Bəs kim bizi öz dilimizdən utanmağa və öz dilimizlə danışmağa ar bilməyə vadar edir? Məgər bunu da hökumət edir?

Bir təbrizli Tiflisə gəlib bir həftə burada qalmaqnan adının axırında «of» qondarır. Məgər bunu da hökumət edir?.. Hökumət nə vaxt müsəlmanı məcbur edib qızının adını «Fatma» əvəzinə «Fatya» qoysun və oğlunun «Həsən» adını dəyişdirib «Qasanka» eləsin?..

C.Məmmədquluzadənin vətəndaşlıq ehtirası və narahatlığı, vətən sevgisi ən çox «Azərbaycan» məqaləsində görünür. Bu məqalə böyük publisistin 1914-cü ildə yazılmış «Millət» məqaləsi ilə hər cəhətdən yaxın idi. «Molla Nəsrəddin» jurnalının 1917-ci il 27 noyabr tarixli sayında dərc olunmuş «Azərbaycan» məqaləsində böyük publisist emosional bir üslubda öz həmvətənlərinə doğma dilin adını öyrədir, vətənin hüdudlarını tanıdır: «Dilimin adı türk – Azərbaycan dilidir...Vətənim də Azərbaycan vilayətidir... Azərbaycanın çox hissəsi İrandadır ki, mərkəzi ibarət olsun Təbriz şəhərindən; qalan hissələri də Gilandan tutub qədim Rusiya hökumətilə Osmanlı hökuməti daxilindədir».

Ədib eyni dil, din, qan və gen, tarixi-mənəvi yaddaş daşıyıcıları olan, lakin bir-birindən xəbərsiz, pərakəndə qalan insanların əsarətdən nicat yolunu vətən, dil və millətin vəhdətində görür. Buna daxili bir yanğı ilə onları vahid məkanda birləşib müstəqil yaşamağa çağırır: «Dünya və aləm dəyişildi, mənalar özgə təbir əxz elədi, yəni bizim dilcə söyləsək, o şeylər ki əsl mənalarını itirmişdi, qayıdıb əslini tapdı; amma buna hamı qail oldu ki, vətən, vətən, vətən, dil, dil, dil, millət, millət, millət!.. Dəxi bu dairələrdən kənar bəni-noi bəşər üçün nicat yolu yoxdur».

C.Məmmədquluzadənin bu məqaləsində «Ax, unudulmuş vətən, ay yazıq Vətən!» sözləri bir leytmotiv, qırmızı xətt kimi keçir. O, milləti yan-yörəsindəki hadisələrdən ibrət alıb oyanmağa, milli istiqlal uğrunda mübarizəyə qalxmağa, bir para yalançı millət başçılarına etibar etməməyə

çağırır. Bu cəhətdən məqalənin sonluğu xüsusilə səciyyəvidir: «Gəlin, gəlin, ey unudulmuş vətənin cırıq-mırıq qardaşları! Gəlin görək beşikdə yad millətlərin südünü əmmiş, vətənimizdən yadırğamış və millətimizin ruhundan xəbərsiz bir para millət başçılarımız sizə nə gün ağlayacaqlar?

Niyə sakitsiniz, ey mənim lüt-üryan vətən qardaşlarım?!»

C.Məmmədquluzadə «Azərbaycan» məqaləsindəki milli istiqlal, vətənçilik, birliyin zəruriliyi ideyalarını bir daha 1920-ci ildə yazdığı «Anamın kitabı» tragikomediyasında daha konkret şəkildə qaldırır.

Fəxrlə «böyük demokrat» adlandırılan C.Məmmədquluzadə cəmiyyətşünas ədib və ictimai xadim idi. Bunu onun "Təzə partilər", "Azadeyi-vicdan", "Xoşbəxtlik", "Firqələr davası", "Cümhuriyyət" məqalələri çox aydın şəkildə sübut edirdi. Bu məqalələrdə o, məsələyə tam bələd olan bir cəmiyyətsünas alim kimi çoxpartiyalı sistem, insanın konstitusiya hüquqları, demokratik seçki və onun keçirilməsi məsələlərini qoyur, konkret nəticələr çıxarırdı. "Cümhuriyyət" (1917) məqaləsi bu böyük demokratın cəmiyyətşünaslıq qənaətlərinin zirvəsidir. C.Məmmədquluzadə ilk növbədə respublika tipli dövlətin nə demək olduğunu anlatmağı lazım bilirdi: "Cümhuriyyət, yəni latınca "Respublika" elə bir hökumətə deyirlər ki, orada məmləkətin idarəsi camaatın öz idarəsində və ixtiyarındadır".

C.Məmmədquluzadə respublika idarə üsulunun əsas prinsipləri ilə də vətəndaşları tanış etməyi vacib bilirdi: məmləkət qanunlar gücü ilə idarə olunur, bu qanunları yazan və təsdiq edənsə millətin vəkilləridir. Məmləkətin rəisi prezidentdir. Prezidenti ya millət, ya da parlament seçir. Prezident isə özünə köməkçi hesabına vəzirləri (nazirləri) təyin edir.

C.Məmmədquluzadə cümhuriyyət idarəsi seçkisinin dörd əsas şərtini göstərirdi: ümumilik (cəmiyyətdə yaşayanların hamısının seçkidə iştirak etməsi), səslərin bərabərliyi, seçkinin düzbədüz olması və nəhayət, seçkinin gizli olması.

C.Məmmədquluzadənin "cümhuriyyətin vacib şərtləri" adlandırdığı bu prinsiplər müstəqil hüquqi dövlətini formalaşdıran bir xalq üçün bu gün daha müasir və aktual səslənir.

C.Məmmədquluzadənin publisistikası məzmunca çox zəngindir. Onun əsərlərində beynəlxalq siyasətə, Şərq xalqlarının tarixi taleyinə, mövcud ictimai-iqtisadi durumuna, dini mövhumatın və məişətdəki geriliyin

tənqidinə, elmin, mədəniyyətin təbliğinə, yazı-əlifba məsələsinə dair maraqlı publisist fikir və mülahizələr vardır. Bu əsərlər forma, üslub, janr baxımından da rəngarəngdir: məqalə, felyeton, icmal, elan, məktub, xəbər və s. Lakin yazıçının publisist əsərlərinin böyük qismi felyeton və məqalə janrlarında yazılmışdır. Öz tipinə görə bu əsərlərin əksəriyyəti bədii publisistika nümunələridir.

Felyeton janrı Azərbaycan publisistikasında C.Məmmədquluzadənin adı ilə bağlıdır.

«Anamın kitabı» tragikomediyası

Azərbaycan dramaturgiyasının şah əsərlərindən olan bu əsərini C.Məmmədquluzadə 1920-ci ildə tamamlamışdır. Pyesin mövzusu XX əsrin əvvəllərində Azərbaycan xalqının milli istiqlaliyyət və siyasi azadlıq uğrunda gərgin mübarizə apardığı kəşməkəşli bir dövrdən götürmüşdür. Lakin dramaturq bədii-dramaturji təsvirin mərkəzinə həmin mübarizənin zahiri tərəflərini deyil, onun mənəviyyatda, psixologiyada əmələ gətirdiyi əyintiləri gətirmişdir.

Milli qeyrət, birlik və həmrəylik şüurunun kasıblığı – əsərdə irəli sürülən və aradan qaldırılması zəruri sayılan əsas məsələ budur. Pyesdə təsvir olunan qardaşları bir-birindən ayıran, onların düşüncələrindəki qütbləşməni ciddi narazılıq, düşmənçilik dərəcəsinə qaldıran məhz birlik və həmrəylik şüurunun yoxluğudur. Həmin «yoxluğu» dramaturq bir atanın və bir ananın övladı olan üç qardaşın timsalında canlandırır.

Həm Rüstəm bəy, həm Mirzə Məhəmmədəli, həm də Səməd Vahid güzəran baxımından təmin olunmuş adamlardır. Onların birincisi rus darülfünununda elm təhsil eləmiş, ikincisi İranda ilahiyyat öyrənmiş, üçüncüsü isə İstanbulda ədəbiyyat dərsi almışdır. Lakin aldıqları tərbiyə qardaşların milli düşüncəsini, vətəndaş təəssübkeşliyini tamam öldürmüşdür. Onlar bir otağı üç guşəyə bölürlər və hərə öz guşəsində bir-birinə yad adamlar kimi «yaşayıb yaradırlar». Rüstəm bəy guya lüğət yazır, Mirzə Məhəmmədəli «xüsuf-küsuf» duası oxuyur, Səməd Vahid isə «elmi-qafiyə» öyrənib nəzm quraşdırır. Boş-boşuna mübahisələr edir, bir-birinə irad tutur, savaşırlar.

Fərdi xasiyyət və geyimləri, danışıq ədaları baxımından bir-birindən fərqlənən bu qardaşların üçü üçün də «milli mənafe» anlayış yoxdur.

Bunu əyaniləşdirmək üçün yazıçı xeyriyyə cəmiyyətinin iclasını təsvir edir. İclasda dörd məsələ müzakirə olunur: 1) il hesabının təsdiqi; 2) məktəb proqramı; 3) acların ərzi-halı; 4) elmi-ilahi dərsləri. Bunlar zahirən vacib məsələlərdir. Lakin müzakirə zamanı qardaşlar həmişə biri digərinə əks fikirlər söyləyir. Çox aydın hiss olunur ki, onlar bir-birinə yad adamlardır.

İclasda məlum olur ki, cəmiyyətin illik gəlirləri «bal» qonaqlarına xərclənib; ölkədə acların, yoxsulların sayı gündən-günə artır; proqramlarda ədəbiyyat dərsləri çətinləşib, Azərbaycan dili nəzərdən salınıb; valideynlər ilahiyyat müəllimlərinin dörd ay şagirdlərə «xüsuf-küsuf» barədə moizə oxumalarından şikayətlənirlər. Bütün bu eybəcərliklər qardaşları narahat etmir. Onlar deyilənləri özünəməxsus boşboğazlıqla yola verir, acların məsələsini isə növbəti iclasa saxlayırlar, çünki cəmiyyətin sandığında olan pulları ehtiyat fonda qoymaq məsələsi qaldırılıb. Beləliklə, acların ərizəsinə bu dəfə də baxa bilmirlər. Halbuki bu cəmiyyətin adı xeyriyyə cəmiyyətidir...

Qardaşların guya «söz bir və həmfikir» olub, Şimali və Cənubi Azərbaycan vilayətlərini birləşdirmək, «Müstəqil Azərbaycan hökuməti» yaratmaq, kütlələr arasında azadlıq və bərabərlik təbliğatları aparmaları barədə şayiələri eşidib, onların mənzilini yoxlamağa gələn senzor Mirzə Cəfər bu qardaşların kitablarına baxandan sonra arxayın nəfəs alıb deyir: «Mən bir saat bundan əqdəm sizin üçünüzün də barəsində bir özgə xəyalda idim. Amma kitablarınızı görəndən sonra fikrimi bilmərrə dəyişdim. İndi özümə fərz bilirəm hökumətə ərzi-hal edib sizi ümənayi-dövlət yanında ən səlamət və zərərsiz bəndələr cümləsində hesab edəm».

Bəli, hakimiyyət, onların nümayəndəsi senzor Mirzə Cəfər bəy tam razı qala bilər ki, bu «savadlılar» millət və xalq üçün heç bir faydalı iş görmürlər. Onlar birləşmək əvəzinə, tam ayrı-ayrı qütblərdə dayanıblar.

Bu hadisədən sonra Rüstəm bəy özünün də, qardaşlarının da məsləksizliyinə gülüb deyir: «Hələ indiyə kimi xalq bir şeyi başa düşmürdü. İndiyə kimi xalq deyirdi: mərhəba Əbdüləzimin övladlarına! Maşallah, biri Peterburqda elm təhsil edib, biri İstanbulda, biri Nəcəfül-əşrəfdə. Üçü də, maşallah, oxuyub alim olub. Amma bundan sonra ağızlarda söylənəcək ki, haman üç alimlərin biri (Mirzə Məhəmmədəliyə işarə edir) xüsuf-küsuf duası yazır; biri (Səməd Vahidə baxır) məfailün,

fəilatün; biri də... (özünə baxır), vallah, mən özüm də heç başa düşmürəm ki, mən nəçiyəm. Qah-qah-qah! (qah-qah çəkir)».

Qardaşların vətənə, millətə biganəliyi ailəyə, doğma bacılarına və analarına münasibətlərində də aydın görünür. Onlar bacıları Gülbahanı kimə vermək barədə məsləhətləşmək istəyərkən yenə mübahisə edir, bir-birinin sözünü narazılıqla qarşılayıb vahid fikrə gələ bilmirlər: Rüstəm bəy Gülbahanı rus təhsilli Aslan bəyə, Mirzə Məhəmmədəli İran təhsilli Mirzə Baxşəliyə, Səməd Vahid isə İstanbulda təhsil almış Hüseyn Şahidə verməyi üstün tutur.

«Anamın kitabı» dramında qardaşların əksinə olaraq, Gülbahar və Zəhrabəyim ana surətləri yazıçının vətəndaşlıq ideallarının təmsilçiləridir. Əsərdə Zəhrabəyimi narahat edən, həyəcanlandıran və ölümə aparan başlıca səbəb oğlanlarının əqidə və məsləkcə bir-birindən ayrı düşməsidir. O, müxtəlif ölkələrdə və ayrı-ayrı dillərdə təlim-tərbiyə almış övladlarının vahid məkanda, eyni məslək və əqidə məhvərində birləşməsini istəyir. Zəhrabəyim ana da, Gülbahar da xalqa yaxındırlar. Qardaşlardan fərqli olaraq, onlar xalqın nümayəndələri olan çobanlarla söhbət etməkdən həzz alırlar. Çobanların yaxınlığı, əqidə birliyi, mehribançılığı onların ürəyini açır. Ana da, Gülbahar da məhz bu adi adamların əhatəsində olanda özlərini rahat hiss edir, dərdlərini unudurlar. Ancaq ana məqsədinə nail ola bilmir. Dünyadan arzusu gözündə köçür.

Yazıçı Gülbahar surətini də böyük məhəbbətlə təsvir etmişdir. O, gözəl, savadlı, anasını nəhayət dərəcədə sevən, mehriban, səmimi bir qızdır. Qardaşlarının faydasız əməlləri, bir-biri ilə kobud rəftarı onu da incidir, daxilən sarsıdır. Vətən övladlarının hamısının bir istiqamətə, eyni amala doğru deyil, ayrı-ayrı tərəflərə getdiyini görəndə Gülbahar fikrə gedib hambaldan (əslində müstəqil düşünə bilən insanların hamısından!) soruşur: «Bir mənə de görüm, axır adamlar niyə hərə bir yana gedir?.. Niyə hamısı bir yerə getmir?.. Yəqin ki, dəli olublar... Nə səbəbə axır hamı bir tərəfə getmir? Yox, yox, bu, pis işdi, vallah, pis işdi».

Gülbahara görə, həmin «pis iş»in səbəbkarı yad fikirlərin, kənar düşüncələrin, kosmopolit ideyaların toplandığı zərərli kitablardır. Qardaşlarının vətəndaşlıq şüurunu korşaldan, məhv edən həmin kitabların hamısını Gülbahar cırıb yandırır və yalnız bundan sonra qismən rahat nəfəs alıb deyir: «Qaldı bircə kitab: bu da anamın kitabı!»

Azərbaycan xalq artisti Fatma Qədri «Anamın kitabı» tamaşasında Gülbahar rolunda

Əbdüləzimin yazdığı həmin kitabda Zəhrabəyimin övladlarının doğum tarixi və atanın vəsiyyəti qeyd edilib. Gülbaharın bu kitabdan oxuduğu ata vəsiyyəti isə belədir: «Yer, göy, aylar və ulduzlar göylərdə seyr edib gəzə-gəzə genə əvvəl-axır Günün başına dolanırlar, çünki bunlar hamısı qədim əzəldə Gündən qopub ayrılmış parçalardır... Mən etiqad edirəm ki, mənim də balalarım dünyada hər yanı gəzib dolansalar, genə əvvəl-axır anaları Zəhranın (əlini anasına tərəf tutur) ətrafında gərək dolanalar, çünki Ay və ulduz Şəmsin parçaları olan kimi, bunlar da analarının ayı və ulduzlarıdır. Vay o kəsin halına ki, təbiətin həmin qanununu pozmaq istəyə! Onun insafı və vicdanı ona müdamül-həyat əziyyət edəcək, nə qədər canında nəfəs var, peşman olacaq.» C.Məmmədquluzadə bu əsəri vasitəsilə bir növ xəbərdarlıq edirdi: Ananın kitabı vətənin kitabıdır. Bu kitab oxunmayanda, ananın – Vətənin hislərinə, amalına, istəklərinə biganə olanda, fəryadlarını eşitməyəndə ananın – Vətənin məhvi labüddür. Vətənin səadəti yolu onun-bunun ağuşuna yıxılmaqda, hansı dövlətinsə tərkibində olmaqda

deyil, milli istiqlaldadır. Müəllif üç qardaşın timsalında XX əsrin əvvəllərində Azərbaycanda mövcud olan üç sosial təbəqəni – ruspərəstləri, iranpərəstləri və türkpərəstləri nəzərdə tutaraq deyirdi: «Birləşmək, çəkicləri bir zindana vurmaq lazımdır». Məhz bu mənada, «Anamın kitabı»ndakı ailə də bir cəmiyyətin – nəinki yad ölkələr tərəfindən, hətta öz övladları tərəfindən də bölüşdürülən, parçalanan, bir ola bilməyən Azərbaycanın rəmzidir. «Anamın kitabı» dramı C.Məmmədquluzadənin vətəndaşlıq qeyrətinin və duyğularının canlı bədii emblemidir. Vətənə, doğma xalqa sonsuz məhəbbətin, dərin sevginin yüksək pafosu pyesin, demək olar, bütün strukturunda, bədii-dramaturji mətnin hər parçasında duyulur. Pyes özünün bədii-estetik dəyərini, müasirlik ruhunu bu gün də saxlayır. Yazıçının ədəbi irsinin çağdaş tədqiqatçısı akademik İsa Həbibbəyli çox haqlı olaraq bu əsəri «milli ədəbiyyatımızın ən mükəmməl Azərbaycannaməsi» adlandırır.

«Anamın kitabı» tragikomediyasının qısa məzmunu

«Anamın kitabı» əsəri 4 məclisdən ibarətdir. Birinci məclis Zəhrabəyimin oğlanlarının ümumi kabinəsində baş verir. Zəhrabəyimin böyük oğlu Rüstəm bəy yerində oxuyub-yazmaqla məşğuldur. İçəri qapı açılır və Zəhrabəyim qorxa-qorxa soruşur:

– Bala, görəsən, uşaqlar niyə yubandılar?

Rüstəm bəy deyir: – Ana, məni danışdırma, lüğət yazıram.

Anası sakitcə çəkilib gedir. Bu zaman içəri otaqda uşaq ağlayır. Rüstəm bəy tez ayağa qalxıb həmin otağın qapısına yaxınlaşır və deyir:

–Ay uşaq, səs eləməyin, mən lüğət yazıram.

Sonra Rüstəm bəyin dilmancı (tərcüməçisi) Mirzə Həsən qardaşların otağına daxil olur. Rüstəm bəylə hal-əhval tutandan sonra onlar lüğət üzərində işi davam etdirirlər. Bu zaman Mirzə Məhəmmədəli otağa daxil olur. Salam verib başmaqlarını çıxardır, keçib yerində oturur və öz kitablarını açıb baxır.

Rüstəm bəylə Mirzə Həsən «almas» sözünü izah edirlər. Rüstəm bəy deyir ki, almas çox qiymətli daşdır. Kimya aləmində bundan bərk və möhkəm daş hələ tapılmayıb. Almas cavahiratın ən bərkidir. Mirzə Məhəmmədəli bu fikirlə razılaşmır. Deyir ki, bu fikirlər Rusiya və

Avropa kitablarında yazılıb. Həqq-təala bizə on şey buyurub ki, bir-birindən bərkdir. Bunların birincisi daş, ikincisi dəmirdir. Çünki bu iki əşyanı bir-birinə vuranda dəmir daşı sındırır. Dəmirdən bərk olan oddur; çünki dəmiri əridir. Oddan bərk olan sudur; sudan bərk olan buluddur; buluddan bərk olan yeldir; yeldən bərk olan mələkdir ki, yelləri idarə edir; mələkdən bərk olan mələkül-mövtdür; mələkül-mövtdən bərk olan ölümdür; ölümdən bərk olan xudavəndi – aləmin əmridir.

Rüstəm bəy və Mirzə Həsən Mirzə Məhəmmədəlinin dediklərinə gülürlər. Mirzə Məhəmmədəli qəzəblənir və çıxıb getmək istəyir. Rüstəm bəylə Mirzə Həsən onun qabağını kəsib getməyə qoymurlar. Bu vaxt Səməd Vahid də gəlir, öz yerində oturub kağız-qələmini çıxardır. Zəhrabəyim içəri girir. O, Gülbahanı kimə vermək barədə oğlanları ilə məsləhətləşmək istəyir. Ancaq qardaşlar vahid fikrə gələ bilmirlər; Rüstəm bəy Gülbahanı Aslan bəyə, Mirzə Məhəmmədəli Mirzə Baxşəliyə, Səməd Vahid isə Hüseyn Şahidə verməyi məsləhət bilir və hərə öz namizədini tərifləyib, digər namizədləri pisləyir.

Nəhayət, Rüstəm bəyin təklifi ilə qərara gəlirlər ki, Gülbahar kimi bəyənsə, ona getsin. Ancaq Gülbahar deyir ki, mən hələ ərə getmək istəmirəm, çünki bilirəm ki, biriniz bir adamı desəniz, o biriniz onu bəyənməyəcək. Təki siz mehriban olun, vacib olanı budur. Həm də Gülbahar qardaşlarının məsləhət bildiyi adamların heç birini görməyib, onları tanımır. Buna görə belə qərara gəlirlər ki, cəmiyyəti-xeyriyyənin iclasında iştirak edəcək həmin adamları Gülbahar pərdə arxasından müşahidə etsin və kimi bəyənsə, ona getsin.

İkinci məclisdə cəmiyyət-xeyriyyənin iclası təsvir olunur. Gülbahar da anası ilə otağın bir küncündə – onları heç kəsin görmədiyi bir yerdə oturub məclisə baxır. Burada 4 məsələ müzakirə edilir: 1. İl hesabının təsdiqi; 2. Məktəb proqramı; 3. Acların ərzi-halı; 4. Elmi-ilahi dərsləri.

Rüstəm bəyin evində keçirilən iclasda (Rüstəm bəy cəmiyyəti-xeyriyyənin sədridir) guya bütün məsələlər müzakirə olunur. İl hesabı məsələsi – cəmiyyətin pullarının necə xərclənməsi məsələsi əslində aydın olmur. Aslan bəy məlumat verirdi. İkinci məsələ ilə bağlı Rüstəm bəy məlumat verib deyir ki, ikinci sinifdə ədəbiyyat dərsləri çox çətinləşib, Azərbaycan dili dərcləri bilmərrə nəzərdən salınıb. Elmi-ilahi dərsləri əvəzinə, xüsuf-küsuf duaları artıq vaxt aparır. Həm də bunları təftiş

komissiyası yoxlayıb meydana çıxarıb. Vəziyyəti düzəltmək tapşırılsa da, heç bir nəticə yoxdur. Keçən dəfəki iclasda olduğu kimi, bu iclasda da acların ərizəsinə baxılmır. Səbəb də o olur ki, cəmiyyətin sandığında olan pulları ehtiyat fonda qoymaq məsələsi ortalığa çıxıb. Yazıq aclar ağlaşırlar, belə olanda mal həkimindən məsləhət almaq üçün buraya gəlmiş çobanlar torbalarından çörək çıxarıb aclara verirlər.

İclasda Gülbaharı istəyənlərin üçü də: həm Aslan bəy, həm Mirzə Baxşəli, həm də Hüseyn Şahid çıxış edir. Amma Gülbahar, eləcə də anası Zəhrabəyim onların heç birinin danışdığından heç nə başa düşmürlər. İclasdan sonra qardaşlar Gülbaharın yanına gəlib biri Aslan bəyi, digəri Mirzə Baxşəlini, üçüncüsü isə Hüseyn Şahidi tərifləyir. Gülbahar isə gülüb deyir ki, iclasda çobanlardan başqa, heç kəsin danışığını başa düşməyib. Yenə qardaşlar bir-biri ilə mübahisə edir, savaşır və çıxıb gedirlər.

Üçüncü məclis də Rüstəm bəyin kabinetində davam edir. Gülbaharla çobanlar qoyunlar barədə danışırlar. Çobanlar qoyunların xəstələnməyindən narahatdırlar. İstəyirlər ki, mal həkimindən məsləhət alsınlar. Çobanların onların evində olmağından narahat olan Rüstəm bəy onlara mal həkiminin ünvanını nişan verir. Çobanlar gedirlər.

Əvvəlcə Mirzə Məhəmmədəli, sonra Səməd Vahid içəri girib kitablarını yığışdırırlar. Onlar köçmək istəyirlər. Ana onların hərəkətlərinə etiraz edir. Oğlanlar Zəhrabəyimin etirazına baxmayıb yığışırlar. Bu vaxt senzor və polis məmurları gəlirlər. Onlar qardaşların kitablarını siyahıya alıb, məzmunu ilə tanış olmaq istəyirlər. Polisə məlumat verilibmiş ki, guya qardaşlar birləşib Rusiya müsəlmanlarını Türkiyəyə tərəf çəkməklə müsəlmanların birliyi cəmiyyəti yaratmaq, müstəqil Azərbaycan hökuməti qurmaq və camaat arasında azadlıq və bərabərlik ideyalarını yaymaqla məşğuldurlar. Qardaşların kitabları içərisində azərbaycanca bir kitab da tapılmır, nəinki «hökuməti-aliyyənin politikasına xətər yetirən mətləblər». Senzor qardaşlara deyir ki, mən indiyədək sizdən bədgüman idim, amma indi gördüm ki, siz çox salamat və təhlükəsiz bəndələrsiniz. Senzor və polislər gedəndən sonra Rüstəm bəy deyir ki, indiyədək camaat Əbdüləzimin oğlanlarını alim sayırdı. Amma onlardan biri xüsuf-küsuf duaları yazır, biri qafiyə elmi, şeiriyyatla məşğuldur. Mən isə heç özüm də

bilmirəm ki, nə işlə məşğulam. Bunları deyib bərkdən gülür. Qardaşlar yenə bir-biri ilə mübahisə edir, savaşırlar.

Zəhrabəyim içəri girir, qoltuğundan bayazını çıxardıb, gah Rüstəm bəyin, gah da Mirzə Məhəmmədəlinin qabağına tutur. Onlar Zəhrabəyimi itələyib deyirlər: «Sən də cəhənnəm ol başımızdan!» İkisi də Zəhrabəyimin bayazını tullayır. Qardaşlar bir-birini yamanlaya-yamanlaya çıxıb gedirlər. Zəhrabəyim yıxılaraq bihuş qalır.

Dördüncü məclis yenə həmin otaqda davam edir. Zəhrabəyim ana huşsuz halda uzanıb. Yanında duran oğlanlarına vəsiyyət edir ki, bir-birindən ayrılmasınlar. Oğlanlar isə bildirirlər ki, ananın söylədiyi mümkün deyil. Çünki oxuduqları kitablar onların əqidəsini tamam dəyişib, onları bir-birinə yadlaşdırıb. Qardaşların hərəsi bir tərəfə gedir. Ananın vəziyyəti daha da pisləşir. Huşu özünə gələndə qoltuğundan bayazını çıxarıb Gülbahara verir. Gülbahar qardaşlarının bir-birindən ayrı düşməsinə səbəb olan kitabların hamısına od vurub yandırır. Qalır bir kitab – ananın kitabı (bayaz). Məlum olur ki, ananın kitab dediyi bayazdır. Kitabın bir yerində Əbdüləzim kişi ölümündən iki gün əvvəl, naxoş vəziyyətdə, əlləri titrəyə-titrəyə öz vəsiyyətini yazıb. İndi də uşaqlar savaşanda, yola getməyəndə narahat ana bu kitabı onların qabağına tutur ki, bu kitaba hörmət edib sakit olsunlar. Övladlarınsa bu kitaba baxmağa vaxtları yoxdur, çünki «mühüm» işlərlə məşğuldurlar. Anasının xahişi ilə Gülbahar bayazda yazılanları oxuyur. Orada ananın övladlarının hamısının doğum tarixi yazılıb. Bu bayazda ata vəsiyyət edir ki, Zəhrabəyimin cismindən ayrılan bu uşaqlar gərək analarının ətrafında dolansınlar. Çünki Ay və ulduzlar Günəşin parçaları olan kimi, övladlar da analarının Ayı və ulduzlarıdır: «Vay o kəsin halına ki, təbiətin bu qanununu pozmaq istəyə! Onun insafı və vicdanı ona həyatı boyu əziyyət verəcək, nə qədər canında nəfəs var, peşman olacaq».

Gülbahar bu sözləri oxuyub qurtaranda Zəhrabəyim oturduğu yerdə yıxılır. Qardaşlar onun yanına tökülürlər. Mirzə Məhəmmədəli anasını can üstə görüb durur onun başı üstə və başlayır «Fatihə» surəsini oxumağa. Hamı qalxır ayağa. Rüstəm bəy, Səməd Vahid və Zivər xanım dəsmallarını gözlərinə sıxıb sakitcə ağlayırlar. Gülbahar mat-mat baxır gah anasına tərəf, gah çölə tərəf. Mirzə Məhəmmədəli avazla «Fatihə» surəsini oxumaqda davam edir.

Bununla da əsər tamamlanır.

A varianti

1. C.Məmmədquluzadənin adı çəkilən pyeslərindən birində milli müstəqillik və azadlıq ideyaları təbliğ olunur:
   A) «Anamın kitabı» B) «Dəli yığıncağı» C) «Ölülər»
   D) «Danabaş kəndinin məktəbi» E) «Kamança»

2. «Anamın kitabı» əsərində acından ağlaşan insanlara kim çörək verir?
   A) Gülbahar B) Mirzə Məhəmmədəli
   C) cəmiyyəti-xeyriyyə üzvləri D) Zəhrabəyim
   E) çobanlar

3. Adları çəkilən əsərlərdən biri C.Məmmədquluzadənin vətəndaşlıq qeyrətinin və duyğularının canlı bədii emblemidir:
   A) «Anamın kitabı» B) «Ölülər»
   C) «Kamança» D) «Dəli yığıncağı»
   E) «Danabaş kəndinin məktəbi»

4. ***Aclar*** *(çobanlara). Ay qardaşlar, Allah sizə kömək olsun, Allah atanıza rəhmət eləsin.*
   Zaman*. Nuş-can olsun, qardaşlar. Doyunca yeyin. Doymasanız, yenə verərik.*
   Bu dialoq C.Məmmədquluzadənin hansı əsərindədir?
   A) «Ölülər» B) «Dəli yığıncağı»
   C) «Anamın kitabı» D) «Kamança»
   E) «İranda hürriyyət»

5. Verilən dialoq C.Məmmədquluzadənin hansı əsərindədir?
   Aslan bəy. *Bir mənə deyin görüm, qoyun yaralananda onun temperaturasını ölçürsünüzmü?*
   Qənbər*. Qanmadıq, həkim ağa.*
   Qurban*. Başa düşmədik, qurbanın olum.*
   Zaman*. O nə sözdü, başına dolanım?*
   A) «Anamın kitabı» B) «Dəli yığıncağı» C) «Ölülər»
   D) «Kamança» E) «Danabaş kəndinin məktəbi»

6. «Anamın kitabı» haqqında fikirlərdən biri ***səhvdir:***
   A) Əsər 1920-ci ildə tamamlanmışdır.
   B) Bu əsəri «milli ədəbiyyatımızın Azərbaycannaməsi» adlandırırlar.
   C) Pyesdə dramatik nitqin bütün növlərindən istifadə edilmişdir.
   D) «Anamın kitabı» Əbdüləzim kişinin övladlarına vəsiyyətidir.
   E) Əsər mənzum formadadır.

7. Verilən parçada dramaturji nitqin növünü müəyyənləşdirin.
   Aslan bəy. *Bir mənə deyin görüm, qoyun yaralananda onun temperaturasını ölçürsünüzmü?*
   Qənbər. *Qanmadıq, həkim ağa.*
   Qurban. *Başa düşmədik, qurbanın olum.*
   Zaman. *O nə sözdü, başına dolanım?*
   A) poliloq B) dialoq C) monoloq
   D) remarka E) təhkiyə

8. *«İstanbulda ədəbiyyat dərsi almış. Başında qırmızı fəs, əynində pidjak, jilet, ağ yaxalıqlı köynək və qalstuk, gözlərində eynək».*
   Bu sözlərlə «Anamın kitabı» əsərinin hansı personajı təsvir edilir?
   A) Mirzə Məhəmmədəli B) Rüstəm bəy
   C) Səməd Vahid D) Aslan bəy E) Mirzə Həsən

9. *«İran ürəfası libasında, yəni uca İran börkü, uzun İran arxalığı, üstündən qurşaq ... Həmişə əlində təsbeh».*
   C.Məmmədquluzadənin «Anamın kitabı» əsərindən verilmiş bu parçada bədii surətin hansı əlaməti təsvir edilir?
   A) ümumi xarakteri B) mənəvi aləmi
   C) anasına münasibəti D) məsləksizliyi E) portreti

10. «Anamın kitabı» tragikomediyası necə tamamlanır?
    A) Gülbaharın monoloqu ilə
    B) qardaşların bir-birindən küsüb getməsi ilə
    C) Zəhrabəyimin cənazəsi üzərində Mirzə Məhəmmədəlinin dua oxuması ilə
    D) Gülbaharın lazımsız kitabları yandırması ilə
    E) çobanların mahnı oxuması ilə

B variantı

1. «Anamın kitabı» neçə məclisdən ibarətdir?
   A) 1 B) 2 C) 3 D) 4 E) 5

2. Göstərilən şeir janrlarından biri Səməd Vahidin kitablarında ***yoxdur:***
   A) qoşma
   B) mürəbbe
   C) məsnəvi
   D) müxəmməs
   E) qəsidə

3. «Anamın kitabı» əsərində Qənbərin oxuduğu «Çobanlar» rədifli şeirin şəkli:
   A) dördlük
   B) beşlik
   C) altılıq
   D) yeddilik
   E) onluq

4. Göstərilən şəxslərdən biri «Anamın kitabı» tragikomediyasının personajları sırasında verilə ***bilməz:***
   A) Məşədi Cəfər
   B) Aslan bəy
   C) Zivər xanım
   D) Teymur bəy
   E) Əbdüləzim

5. «Anamın kitabı» tragikomediyasında yazıçını narahat edən əsas məsələ:
   A) Azərbaycan ziyalısının milli qeyrət, birlik və həmrəylik şüurunun yoxluğu
   B) milli ədəbi dilin korlanması
   C) övladların öz analarına etinasızlığı
   D) aclara, yoxsullara xeyriyyə cəmiyyətlərinin biganəliyi
   E) XX əsrin əvvəllərində Azərbaycanda müxtəlif sosial təbəqələrin mövcudluğu

6. C.Məmmədquluzadənin tərcümeyi-halına dair verilənlərdən biri ***səhvdir:***
   A) 1869-cu il fevral ayının 20-də Naxçıvan şəhərində doğulmuşdur.
   B) 1873-78-ci illərdə mollaxanada təhsil almışdır.
   C) 1886-87-ci illərdə Qori Müəllimlər Seminariyasında təhsil almışdır.
   D) 1887-97-ci illərdə müəllimlik etmişdir.
   E) 1895-ci ildə Peterburqa səfər etmişdir.

7. C.Məmmədquluzadənin tərcümeyi-hal faktlarının düzgün ardıcıllığını müəyyənləşdirin.
   1. Qori Müəllimlər Seminariyasında təhsil almışdır.
   2. Həlimə Nağı qızı ilə evlənmişdir.
   3. İrəvanda və Naxçıvanda hüquqşünaslıq etmişdir.
   4. «Şərqi-Rus» qəzetinin redaksiyasında çalışmışdır.
   A) 1, 2, 3, 4 B) 2, 3, 4, 1
   C) 3, 1, 2, 1 D) 4, 3, 2, 1
   E) 2, 4, 3, 1

8. «Molla Nəsrəddin» jurnalının nəşrə başlanması tarixini göstərin.
   A) 7 aprel, 1906
   B) 7 may, 1906
   C) 7 aprel, 1903
   D) 15 aprel, 1903
   E) 7 aprel, 1907

9. «Şərqi-Rus» qəzetinin redaktoru kim olmuşdur?
   A) Məhəmməd ağa Şahtaxtlı
   B) Cəlil Məmmədquluzadə
   C) Ömər Faiq Nemanzadə
   D) Məşədi Ələsgər Bağırov
   E) Əliqulu Qəmküsar

10. C.Məmmədquluzadənin ilk mətbu hekayəsi hansıdır?
   A) «Poçt qutusu» B) «Usta Zeynal»
   C) «Qurbanəli bəy» D) «İranda hürriyyət»
   E) «Quzu»

C variantı

1. Adları çəkilən hekayələrdən biri C.Məmmədquluzadənin ***deyil.***
   A) «Usta Zeynal» B) «Şeir bülbülləri»
   C) «Oğru inək» D) «Hamballar»
   E) «Qoca tarzən»

2. Adları çəkilən əsərlərdən ikisi C.Məmmədquluzadənin hekayələri sırasında verilə ***bilməz:***
   1. «Bəlkə də, qaytardılar»
   2. «Oyunbazlar»
   3. «Oğru inək»
   4. «Şərq fakültəsi»
   5. «Lənət»
   A) 2, 5 B) 1, 3
   C) 3, 4 D) 1, 4 E) 2, 4

3. C.Məmmədquluzadənin dram əsərlərini göstərin.
   A) «Lənət», «Oyunbazlar», «Lal»
   B) «Dəllək», «Pirverdinin xoruzu», «Saqqallı uşaq»
   C) «Quzu», «Nigarançılıq», «Konsulun arvadı»
   D) «Taxıl həkimi», «Şeir bülbülləri», «Proletar şairi»
   E) «Şərq fakültəsi», «Səhər və kənd», «Sirkə»

4. *«Qurban, Allah sənə lənət eləsin! Ermənin küpəsində su gətirib gec qayırdın və dünya-aləmi murdar elədin».*
   Bu parça C.Məmmədquluzadənin hansı əsərindədir?
   A) «Quzu» B) «Qurbanəli bəy»
   C) «İranda hürriyyət» D) «Usta Zeynal» E) «Taxıl həkimi»

5. C.Məmmədquluzadənin bu hekayələrindən biri «Molla Nəsrəddin» jurnalının ilk sayında çap edilmişdir:
   A) «Dəllək»
   B) «Poçt qutusu»
   C) «Qurbanəli bəy»
   D) «Poçt qutusu»
   E) «Zırrama»

6. *Avam, mömin, bir mala və bir xurcundan savayı, özgə bir mal-dövləti olmayan, kasıb, halal və pak insandır.*
Bu fikir C.Məmmədquluzadənin hansı hekayəsinin qəhrəmanı üçün səciyyəvidir?
A) «Poçt qutusu» B) «Usta Zeynal»
C) «İranda hürriyyət» D) «Quzu»
E) «Nigarançılıq»

7. *Danabaş kəndinin kattasıdır. Əsilsiz və nəcabətsiz adamdır. Əvvəllər kasıb kəndli olmuş, sonra bir müddət qlava yanında çavuşluq etmişdir.*
Söhbət hansı surətdən gedir?
A) Xudayar bəydən
B) Qurbanəli bəydən
C) Vəli xandan
D) Məşədi Cəfərdən
E) Kərbəlayi Məmmədvəlidən

8. «İranda hürriyyət» hekayəsinin baş qəhrəmanı kimdir?
A) Kərbəlayi Məmmədvəli
B) Məşədi Cəfər
C) Novruzəli
D) Qurban
E) Kərbəlayi Qasım

9. *Arvadı Şərəfin saçlarını əlinə dolayıb, onu evin içində o tərəf – bu tərəfə sürüyür.*
Söhbət hansı surətdən gedir?
A) Vəli xandan
B) usta Zeynaldan
C) Kərbəlayı Məmmədvəlidən
D) Xudayar bəydən
E) Vəliquludan

10. «Ölülər» əsərində fırıldaqçı din xadimlərinin ümumiləşdirilmiş surəti:
A) Hacı Həsən B) Məşədi Baxşəli
C) Şeyx Əhməd D) Mir Bağır ağa
E) Şeyx Nəsrullah

Mirzə Ələkbər Sabir

(1862 – 1911)

M.Ə.Sabir ədəbiyyatımızda yeni tipli satiranın əsasını qoyan, tənqidi realizmin yaradıcılarından olan bir sənətkardır. Molla-nəsrəddinçi satirik şeir məktəbinin əsasının qoyulması da onun adı ilə bağlıdır.

Həyatı

M.Ə.Sabir 30 may 1862-ci ildə Şamaxıda anadan olmuşdur. İlk təhsilini mollaxanada almışdır. 1874–1883-cü illərdə Seyid Əzim Şirvaninin dərs dediyi yeni üsullu quberniya məktəbində oxumuşdur.

Sabirin bədii yaradıcılıq yolunun müəyyənləşməsində Seyid Əzimin rolu böyük olmuşdur. Hələ məktəbdə oxuduğu illərdə şeirlər yazmaqla bərabər, Sədi Şirazinin «Gülüstan» əsərindən bir parçanı fars dilindən Azərbaycan dilinə tərcümə etmişdir.

1884–1886-cı illərdə Şərq ölkələrinə səyahət etmiş, Kərbəla ziyarətgahlarında olmuşdur. Səyahət zamanı rastlaşdığı hadisələr və insanlar onun həyatında məktəb rolunu oynamışdır.

Şamaxıya qayıtdıqdan sonra 1887-ci ildə yaxın qohumu olan Billurnisə ilə evlənmiş, ailəsini dolandırmaq üçün sabun bişirib satmağa məcbur olmuşdur. 1902-ci ildə Şamaxıda baş verən zəlzələ onun həyatını daha da çətinləşdirmişdi. Məhrumiyyətlərə boyun əyməyən Sabir Abdulla Şaiqlə söhbətlərinin birində demişdi: «Bir çox adamın batini kirini təmizləmək əlimizdən gəlmir. Zahiri kirini təmizləmək üçün sabun bişirmək peşəsini qəbul etmişəm». Abbas Səhhətlə dostluq etməsi onun şeirə marağını artırmış, Firudin bəy Köçərli və Həsən bəy Zərdabi ilə tanışlığı dünyagörüşünü zənginləşdirmişdir. M.Ə.Sabir Ağəli bəy Naseh və Məhəmməd Tərrahla birlikdə Şamaxıda kiçik bir ədəbi məclis təşkil etmişdir.

«Şərqi –Rus «qəzetində dərc olunan mənzum təbriknaməsi (1903) onu mətbuat aləminə bağlamışdır. «Beynəlmiləl» şeirinin 1905-ci ildə «Həyat» qəzetində çap edilməsi Sabirin dünyagörüşündən, bədii istedadından soraq verirdisə, onun ruhuna və məsləkinə daha uyğun bir mətbuat orqanı – **«Molla Nəsrəddin»** jurnalı ilə əməkdaşlığı yeni tipli satiranın meydana gəlməsinə və Mirzə Cəlillə möhkəm dostluğuna səbəb olmuşdur. 1908-ci ildə imtahan yolu ilə Bakı quberniya ruhani idarəsindən diplom almışdır. Sonra Şamaxıda yeni tədris üsuluna əsaslanan ibtidai **«Ümid»** məktəbini açmışdır. 1910-cu ilin əvvəlində iş axtarmaq üçün yenidən Bakıya gəlmiş və **«Zənbur»** jurnalı ilə əməkdaşlıq etmişdir. Balaxanı məktəbində, **«Günəş» və «Həqiqət»** qəzetləri redaksiyalarında çalışmışdır. «Günəş» qəzetinin **«Palanduz»** adlı həftəlik gülüş səhifəsində **«Çuvalduz», «Nizədar»** imzaları ilə şeirlərini dərc etdirməsi Sabiri xeyli məşhurlaşdırmışdır.

1911-ci ilin 4 fevralından martın axırlarına qədər o, C.Məmmədquluzadənin köməyi ilə Tiflisdə qaraciyər xəstəliyindən müalicə almışdır. Sabir C.Məmmədquluzadə və onun həyat yoldaşı Həmidə xanımın ona qayğısını dostu A.Səhhətə yazdığı məktublarında minnətdarlıqla xatırlamışdır. M.Ə.Sabir 12 iyul 1911-ci ildə Şamaxıda vəfat etmişdir. Şeirləri kitab şəklində ilk dəfə **«Hophopnamə»** adı ilə A.Səhhətin və M.Mahmudbəyovun təşəbbüsü və həyat yoldaşı Büllurnisə xanımın iştirakı ilə 1912-ci ildə işıq üzü görmüşdür. Sonradan dəfələrlə nəşr edilən «**Hophopnamə**» Avropa və Şərq dillərinə də çevrilmişdir.

Yaradıcılığı

M.Ə.Sabir bədii yaradıcılığa ibtidai məktəbdə oxuduğu vaxt S.Ə.Şirvaninin təsiri ilə klassik üslubda şeir yazmaqla başlamışdır. Mərsiyələr, lirik şeirlər, epik əsərlər yazmış, bədii tərcüməçiliklə məşğul olmuşdur. Sabir milli satirik şeirimizə ilk dəfə olaraq taziyanə, qırmanc, satirik marş, bəhri-təvil, sual-cavab və s. janrlar gətirmişdir. O, felyeton və məqalələr də yazmışdır.

Mərsiyələri. Mərsiyələrində daha çox Kərbəla faciəsi, dini şəxsiyyətlər və hadisələr öz əksini tapmışdır.

O, Həsən bəy Zərdabinin, Müzəffərəddin şahın, Şamaxının ən hörmətli adamlarından olan Hacı Məcid əfəndinin vəfatı münasibətilə də

mərsiyələr yazmışdır. Bu mərsiyələrində ictimai, milli ideyalar ifadə edildiyindən həmin mərsiyələrindən birini «**Növheyi – milli**» (milli ağı) adlandırmışdır.

Onun mərsiyələri lirik üslubdadır.

Şairin mərsiyələrindən az bir qismi gəlib bizə çatmışdır.

Sabir bütün bədii yaradıcılığı boyu həm satirik əsərlər, həm də lirik şeirlər yazmışdır. Lirika baxımından onun şeirlərini aşağıdakı kimi qruplaşdırmaq olar:

1. Klassik üslubda yazdığı qəzəlləri
2. İctimai–siyasi şeirləri
3. Uşaq şeirləri

«Ey dil, amandı, sirrimi biganə bilməsin», «İstəsən, könlüm kimi zülfi-pərişan olmasın» misraları ilə başlayan, eləcə də **«Var»** rədifli qəzəlləri məhəbbət mövzusundadır.

Qəzəl yaradıcılığında klassik ədəbiyyatla bərabər, Seyid Əzimin də təsiri hiss olunur. Qəzəlləri üçün Leyli, Məcnun kimi klassik ədəbiyyat qəhrəmanlarının yad edilməsi səciyyəvidir:

Şəru hər muyidə min aşiqi – nalanım var,
Məgər, ey şux ki, bir cismidə min canın var?

...Hər mərəz çarəsini eyləmək asandı, təbib,
Mərəzi-eşqə nə tədbir, nə fərmanın var.

Sabirə, qərq edər axır səni bu seyli –bəla,
Olma qafil belə kim, dideyi-giryanın var.

İctimai-siyasi şeirləri. Bu mövzuda **«Fəxriyyə»**, **«Ruhum»**, **«Səttarxana»** şeirləri xüsusi yer tutur.

Klassik ədəbiyyatda şairlərin özlərinin tərifinə həsr etdikləri fəxriyyələrdən fərqli olaraq, Sabir **«Fəxriyyə»** («Molla Nəsrəddin», 1907) şeirində millətimizi dindaxili ayrıseçkiliyə son qoymağa, milli birliyə çağırmışdır.

«Ruhum» («Yeni füyuzat», 1910) şeirini həyatının ən acı günlərində, xəstəlik dövründə yazmış, mövcud cəmiyyətə ictimai etirazını ifadə

etmişdir. Şeir azadlıq idealına bütün ruhu ilə bağlı olan şairin vəsiyyətnaməsi təsiri bağışlayır:

Mən gedərsəm, var olsun amalım!
Yaşasın Şəhriyari – hürriyyət!
Yaşasın Şəhriyari – hürriyyət!
Mən gedərsəm, var olsun amalım!

«Səttarxana» müsəddəsi. «Molla Nəsrəddin» jurnalının proqramında Cənubi Azərbaycanda 1906–1911-ci illərdə baş verən siyasi hadisələr xüsusi yer tuturdu.

M.Ə.Sabir **«İran özümündür»**, **«Satıram»**, **«Doğrudan da, Məmdəli, qeyrət halal olsun sənə»**, **«Nədir, ayə, yenə üsyanları iranlıların?»**, **«Avropada Məmdəlinin eşqbazlığı»**, **«Səbəb boynu yoğun oldu»**, **«Müxbirüssəltənəyə»** şeirlərində Cənubu Azərbaycandakı milli azadlıq hərəkatına sonsuz rəğbətini bildirmiş, inqilabın düşmənlərini lənətləmişdir. A.Səhhət bu haqda yazırdı: «Sabir əfəndinin əşarı bu beş ilin müddətində İran məşrutəsinə bir ordudan artıq xidmət etmişdir». Sabir ictimai-siyasi məzmunlu «Səttarxana» müsəddəsini (20 sentyabr 1908-ci il) 1906–1911-ci illərdə baş vermiş məşrutə hərəkatının öndəri Səttarxana həsr etmişdir. Şeirin birinci bəndində müəllifin tarixi zəfərdən doğan sevinci ifadə olunmuşdur. Şeirdə şair Tehranda Məclisin buraxılmağa məcbur edilməsindən sonra Cənubi Azərbaycanda nikbin ovqatın tərənnümünü önə çəkmişdir. Uğurları azərbaycanlıların birliyində görmüş, Səttarxanın şah qoşunları üzərində qələbəsini azərbaycançılığın qələbəsi kimi dəyərləndirmişdir:

Ta ki Millət Məcməin Tehranda viran etdilər,
Türklər Səttarxan ilə əhdü peyman etdilər,
Zülmü istibdadə qarşı nifrət elan etdilər,
Millətə, milliyyətə can nəqdi qurban etdilər,
Ayeyi-»zibhi-əzim» itlaqı ol qurbanədir,
Afərinim himməti-valayi-Səttarxanədir...

Azərbaycan poeziyasında Səttarxanın milli qəhrəman obrazını ilk dəfə Sabir yaratmışdır. O, ustalıqla ictimai-siyasi lirikada da portret yaratmışdır. Sabir Səttarxanı oddan qorxmayan pərvanəyə bənzədir. Onun milliyyət etibarilə azərbaycanlı olmasından qürur duyur, Səttarxanın

xidmətlərinin insanlıq üçün, islam dünyası üçün xüsusi əhəmiyyətə malik olduğunu vurğulayır:

Afərin, tərbiziyan, etdiz əcəb əhdə vəfa!
Düstü düşmən, əl çalıb, eylər sizə səd mərhəba!
Çox yaşa , dövlətli Səttarxan əfəndim, çox yaşa!
Cənnəti-əlada peyğəmbər Sizə eylər dua.
Çün bu xidmətlər bütün islamədir, insanədir,
Afərinim himməti-valayi-Səttarxanədir.

Səttarxançıların Eynüddövlənin başçılıq etdiyi şah qoşununu qaçmağa məcbur etməsindən qürur hissi keçirən Sabir yazırdı: «İndi dünyanın təvəccöh nöqtəsi İranədir».

Göründüyü kimi, «Səttarxana» şeiri satirik şeir nümunəsi deyil, bu şeir ictimai lirika nümunəsidir, tərənnüm formasında yazılmışdır, bir növ, mədhiyyədir.

Şeir Cənubi Azərbaycanda milli azadlıq hərəkatı dövründə marş kimi oxunmuş, azadlıq hərəkatının himninə çevrilmişdir.

«Səttarxana» müsəddəsi əruzun rəməl bəhrində yazılmışdır. Dilindəki ərəb-fars mənşəli sözlərin mövcudluğu onun ümumi ruhunun başa düşülməsinə bir elə də mane olmur.

Uşaq şeirləri. Sabirin **«Uşaq və buz»**, **«Yaz günləri»**, **«Cütcü»**, **«Yalançı çoban»** şeirləri Azərbaycan uşaq ədəbiyyatının dəyərli nümunələrindəndir. O, uşaqlar üçün yazdığı şeirlərdə **«Hər işin ibtidası tərbiyədir»** qənaətinə gəlmiş, uşaqları elmə, təhsilə həvəsləndirmişdir:

Məktəbdə var şərafət,
Dəftərdə var lətafət.
Cari olur qələmdən
Şirin-şirin hekayət.

Sabir yeni nəsil üçün faydalı və ibrətli mətləblər ifadə edən **«Hörümçək və ipəkqurdu»**, **«Ağacların bəhsi»**şeirlərini təmsil, **«Camış və sel»**, **«Molla Nəsrəddin və oğru»**, **«İsgəndər və fəqir»** əsərlərini isə mənzum hekayə formasında yazmışdır.

İ.A.Krılovun eyniadlı əsərinin motivi əsasında **«Qarğa və tülkü»** təmsilini yazmış, Firdovsinin **«Şahnamə»**sindən, Sədi Şirazinin **«Gülüstan»** əsərindən bir parçanı Azərbaycan dilinə tərcümə etmişdir.

Satiraları. M.Ə Sabir Azərbaycan ədəbiyyatında özünəqədərki satirik ənənələri forma, məzmun və ideya baxımından zənginləşdirib inkişaf mərhələsinə çatdırmışdır. O, əruz vəzninin əsas bəhrlərinin hamısında satira nümunələri yaratmışdır. O, əruz vəznini Azərbaycan poeziyası üçün doğmalaşdırmış bir şairdir. Sabir ilk dəfə olaraq milli satirik şeirimizə taziyanə, qırmanc, satirik marş, bəhri-təvil, sual-cavab və s. kimi janrlar gətirmişdir. O, Azərbaycan şeirində yeni tipli satiranın – inqilabi satiranın banisidir. Tipi öz dilində danışdırmaq (satirik monoloq) üsulunu da Azərbaycan şeirinə məhz Sabir gətirmişdir.

XX əsrin əvvəllərində Rusiyada və Cənubi Azərbaycandakı ictimai-siyasi vəziyyət Sabirin Vətən, millət, milli oyanış və tərəqqi ilə bağlı satirik şeirlər yazması üçün əsas olmuşdur. Onun satirik şeirləri daha çox Azərbaycan xalqının konkret tarixi şəraitdəki vəziyyətinin bədii ifadəsindən ibarətdir. O, çətin məqamlarda belə haqq sözü deməkdən çəkinməmişdir:

Mən belə əsrarı qana bilmirəm,
Qanmaz olub da dayana bilmirəm.
... Derlər utan, heç kəsə bir söz demə,
Haqq sözü derkən utana bilmirəm!
Neyləməli, göz görür, əqlim kəsir,
Mən günəşi göydə dana bilmirəm.

İctimai-siyasi çətinliklər, xalqın mədəni geriliyi, mövhumat və cəhalətə qarşı barışmaz mübarizə, qadın azadlığı Sabir satiralarının başlıca mövzularındandır. **«Dindirir əsr bizi», «Millət şərqisi», «İstiqbal bizimdir», «Pah atonnan, nə ağır yatdı bu oğlan, ölübə», «İstiqbalımız lağlağıdır», «Ayılma», «Bizə nə», «Kim nə deyər bizdə olan qeyrətə», «Qoyma, gəldi», «Adəmi adam eyləyən paradır»** və s. kimi satirik şeirlərində cəhalət və geriliyin, qadın hüquqsuzluğunun, sinfi fərqlərin acı təzahürləri əks olunmuşdur. Satira yaradıcılığında şairin əsas məqsədi xalqı qəflət yuxusundan oyatmaq, ona öz hüquqlarını başa salmaq, bütün bunlara səbəb olan rejimi dağıtmaq olmuşdur. Elə aşağıdakı nümunələrdə də bu fikirləri aydın görmək olar:

Açsan gözünü, rəncü məşəqqət görəcəksən,
Millətdə qəm, ümmətdə küdurət görəcəksən ,
Qıldıqca nəzər millətə heyrət görəcəksən,
Çək başına yorğanını, nikbətdən ayılma!

Laylay, bala, laylay!
Yat qal dala, laylay!

Yaxud:

Pah atonnan, nə ağır yatdı bu oğlan, ölübə!
Nə də tərpənməyir üstündəki yorğan, ölübə!
Bu qədər qışqırığa durdu qonum-qonşu təmam,
Dəbərişməz də, veribdir, deyəsən, can, ölübə!
... Hansı bir doktora ərz etdim onun illətini,
Dedi: Çək bundan əlin, boşla, bu, çoxdan ölübə!

«Dindirir əsr bizi, dinməyiriz» taziyanəsindən bu misralara diqqət yetirək:

Dindirir əsr bizi, dinməyiriz,
Atılan toplara diksinməyiriz.
Əcnəbi seyrə balonlarla çıxır,
Biz hələ avtomobil minməyiriz.

Sabirin yaradıcılığında mənəvi əsarətin əsas səbəbkarlarından olan, yalançı, yad ölkələrin maraqlarını həyata keçirən missionerlərlə həmfikir olan üzdəniraq din təmsilçilərinin tənqidi də mühüm yer tutur:

Mollalar, taleyiniz oldu əcəb yar bu gün,
Misyonerlər də bizə çıxdı həmvar bu gün.

Dini əqidəsinə görə, Sabir islam dininə ehtiram göstərən, əsl din xadimlərinə ehtiramla yanaşan bir şairdir. O, «A şirvanlılar» satirasında islamın bütövlüyünə, onun qorunub saxlanmasına tərəfdar olduğunu, din içərisində sünni–şiə ayrı-seçkiliyinin əleyhinə çıxdığını bildirir, eyni zamanda, onu dinsiz adlandıranlardan özünü müdafiə etməyə çalışır, Qurana qail olduğunu bəyan edir:

Əşhədü billahi-əliyyül-əzim
Sahibi-imanəm, a şirvanlılar!
Yox yeni bir dinə yəqinin mənim,
Köhnə müsəlmanəm, a şirvanlılar!

...Şiəyəm, əmma nə bu əşkalədən,
Sünnüyəm, əmma nə bu əmsalədən,
Sufiyəm, əmma nə bu əbdalədən,
Haqsevən insanam, a şirvanlılar!

Göründüyü kimi, bu şeir dördlük şeir şəklindədir və qafiyə quruluşuna görə qoşmaya oxşayır. Lakin əruz vəznində olduğu üçün qoşma sayıla bilməz.

Sabir ancaq haqqı tapdanan öz xalqının deyil, eyni taleyi yaşayan digər xalqların da istiqlalına xidmət etmişdir. Bu baxımdan onun adı dünya ədəbiyyatında insan haqları uğrunda mübarizə aparan, əsarət əleyhinə çıxan görkəmli sənətkarlarla bir sırada çəkilməyə layiqdir. Müraciət və bədii sual formasında yazılmış «Daş qəlbli insanları neylərdin, ilahi?!» (1908) satirasında Sabir insanlığın taleyini təhlil edir.

Satirada irəli sürülən suallar Azərbaycanda, türk–müsəlman aləmində və digər ölkələrdə də aktual səslənirdi:

Bir dövrdə kim, sidqü səfa qalmayacaqmış,
Bilməm belə dövranları neylərdin, ilahi?!
Məzlumların göz yaşı dərya olacaqmış,
Dəryaları, ümmanları, neylərdin, ilahi?!
.... Hökm eyləyəcəkmiş bütün aləmdə cəhalət,
Dildadeyi-irfanları neylərdin, ilahi?!

Böyük satirik burada göz yaşları dərya olan məzlumların tərəfində dayandığını bəyan edir.

«Amalımız, əfkarımız ifnayi-vətəndir» satirası (1907, 10 mart) Sabirin vətən və millət motivləri üstündə köklənmiş şeirlərindəndir. Türk şairi Namiq Kamalın «Vətəndir» şeirinə bir cavab olaraq yazılmışdır. Şeirdə yol kəsmək, qoçuluq, lovğalıq, vətənin dərdinə qalmamaq tənqid olunur:

Qafqazlı adı aləmə ikrah – rəsandır,
Quldur, qoçumuz zülmdə məşhuri-cahandır.

Şair vətənin tərəqqidən qalmasının bir səbəbini də yerli imkanlıların xarici təsirlərə uymasında, rütbə, ikram almağı vətənə xidmətdən üstün tutmalarında görür:

Əqrəb kimi neştər gücü var dırnağımızda,
İslam susuz olsa, su yox bardağımızda ,
Hər küncdə min tülkü yatıb çardağımızda,
Min hiylə qurub, rütbəvü ikram alarız biz,
Qafqazlılarız, yol kəsiriz, nam alarız biz!

Avropalıların maariflənməklə öz millətlərini tərəqqiyə çatdırdıqlarını deyən şair millətinin də gələcəyini maariflənməkdə, haqqa qovuşmaqda görür. İmtiyaz, sərvət sahiblərinin meyxanalarda içkiyə aludə olmaqdansa, dünyada gedən işlərdən nəticə çıxarıb maarifə qayğı göstərməyini, məktəb açmağını vacib sayır:

Biz xoşlamanıq dərsi ki, min məktəb açılsın,
Gər min də maarif sözü dünyaya saçılsın,
Məktəbdə nə hörmət ki, o samanə qaçılsın?
Meyxanədə votqa vurarız, kam alarız biz,
Qafqazlılarız, məst olarız, nam alarız biz!

Sabir «qafqazlı» ifadəsi ilə müəyyən ümumiləşdirmə yaratmaqla yanaşı, həm də bu ad altında mənsub olduğu milləti nəzərdə tutmuşdur. Satirada vətənimizin, xalqımızın dirçəlişi, inkişafı ilə bağlı bəzi problemlər aydın göründüyündən şeir bu gün də aktual motivlidir.

Maarifçi-satirik şeirləri. Sabir maariflənməni, qadına ictimai inkişaf üçün azadlıq verməyi, demokratik hüquqlar uğrunda mübarizə aparmağı çox vacib hesab edirdi. Sabirin **«Uşaqdır», «Müəllimlər syezdi», «Oxutmuram, əl çəkin», «Ürəfa marşı»** və s. kimi satiralarında maarifə köhnəpərəst münasibət tənqid olunduğundan, elmsizliyin, savadsızlığın bəlaları ifşa olunduğundan həmin əsərlər maarifçi-satirik şeirlərdəndir.

Belə şeirlərdə şair milli oyanışa nail olmağın yolunu təhsilə yiyələnməkdə, dünya işlərindən baş çıxarmaqda görür. Bu məqsədlə satiralarından biri üçün seçdiyi oyanmış qəhrəman hakim təbəqənin «Qanma!» əmrinə «Qabili–imkanmı olur qanmamaq?» cavabını verir.

Başqa bir satirasında isə elm öyrənməyi dövrü üçün mühüm məsələ sayır. Sabir avam, laqeyd atanın dilindən kinayə ilə deyirdi:

.... Bəsdir oxudun, az qala canın tələf oldu,
Bu kardan əl çək!
Yazmaq, oxumaq başına əngəl – kələf oldu,
Əşardan əl çək!

Sabir satiralarında hər tipi öz dilində danışdırmaqla onun daxili aləmini açmağı bacarır. O, satiralarında bədii portret yaratmaqda da böyük ustalıq nümayiş etdirən sənətkardır. Uşaq vaxtında ərə verilmiş zavallı bir

qızın bibisinə müraciəti formasında yazılmış "Qoyma, gəldi" satirasından bir bəndə diqqət yetirək:

Dudkeş kimi bir papaq başında,
Ağ tükləri bəllidir qaşında.
Gərçi qocadı – babam yaşında ,
Xortdandı, xoxandı, qoyma, gəldi!
Kirdarı yamandı, qoyma, gəldi!

Satiralarında dialoqlardan da istifadə etmişdir. Bu da onun satiralarına süjet əlaməti gətirir. Dialoq formasında süjetli satirik şeiri Azərbaycan ədəbiyyatına ilk dəfə Sabir gətirmişdir. Epik təsvirin əsas olduğu mənzum hekayələrdən fərqli olaraq, əhvalatlar Sabirin satiralarında bir çox məqamlarda mükalimə (dialoq) formasında təqdim edilir.

M.Ə.Sabir satirada dialoqun ən mükəmməl nümunəsini «Əhvalpürsanlıq, yaxud qonuşma» şeirində yaratmışdır.

M.Ə.Sabirin yaradıcılığına aid yaddaş

- ✓ Tənqidi realizmin əsas yaradıcılarından biridir. **«Tutdum orucu iramazanda»** şeirini mollaxanada oxuduğu vaxt yazmışdır.
- ✓ Seyid Əzim Şirvaninin şagirdi olmuşdur.
- ✓ Sədinin «Gülüstan», Firdovsinin «Şahnamə»sindən bir parçanı Azərbaycan dilinə tərcümə etmişdir.
- ✓ 1903-cü ildə «Şərqi-Rus» qəzetində mənzum təbriknaməsi dərc olunmuşdur. Bu, onun ilk mətbu şeiri hesab olunur.
- ✓ Əsərlərini «Həyat», «Həqiqət», «Günəş» qəzetlərində, «Zənbur», «Yeni füyuzat», daha çox isə «Molla Nəsrəddin» jurnalında çap etdirmişdir.

- ✓ Yaradıcılığa S.Ə.Şirvaninin təsiri ilə başlamışdır. Dini mərsiyələr, lirik şeirlər, satiralar, felyetonlar, məqalələr yazmış, tərcüməçiliklə məşğul olmuşdur.
- ✓ Lirik şeirləri içərisində qəzəllər xüsusi yer tutur.
- ✓ «Var», «İstəsən, könlüm kimi zülfi-pərişan olmasın», «Ey dil, amandı, sirrimi biganə bilməsin» şeirləri qəzəl janrındadır.
- ✓ «Fəxriyyə», «Ruhum», «Səttarxana» şeirləri ictimai-siyasi məzmunlu lirik şeirlərdir.
- ✓ «Hər işin ibtidası tərbiyədir» fikrinə möhkəm inam bəsləmişdir.
- ✓ Vətən, millət, milli tərəqqi ilə bağlı satirik şeirlər yazmasına Rusiyada və Cənubi Azərbaycanda XX əsrin əvvəllərindəki ictimai-siyasi vəziyyətin təsiri çox olmuşdur.
- ✓ Satiralarında mövcud vəziyyətdən çıxış yolu kimi tərəqqini, milli-mənəvi özünüdərki görür.
- ✓ «Uşaqdır», «Uçitellər», «Oxutmuram, əl çəkin» şeirləri maarifçi-satirik şeirlərdir.
- ✓ «A şirvanlılar» şeirində islam dini içərisindəki parçalanmaya qarşı çıxılır, islamın bütövlüyü təbliğ edilir.
- ✓ «Daş qəlbli insanları neylərdin, ilahi?» satirasında haqqı tapdalanan məzlum insanların tərəfində durduğunu göstərir.
- ✓ «Əhvalpürsanlıq» şeiri mükalimə (dialoq) əsasında qurulan süjetli satira nümunəsidir.
- ✓ Azərbaycan satirik şeirində taziyanə, qırmanc, satirik marş, bəhri-təvil, sual-cavab janrlarının ilk nümunələrini Sabir yaratmışdır.
- ✓ «Amalımız, əfkarımız ifnayi–vətəndir» satirasını Namiq Kamalın «Vətəndir» şeirinə cavab olaraq yazmışdır. Bu şeir Vətən, millət motivləri üzərində köklənmişdir.
- ✓ «Satiram», «İran özümündür», «Səbəb boynu yoğun oldu» və s. şeirləri ilə Cənubi Azərbaycandakı milli-azadlıq hərəkatının düşmənlərinin iç üzünü açmışdır.
- ✓ «Səttarxana» şeirində Azərbaycan ədəbiyyatında Səttarxanı ilk dəfə milli qəhrəman kimi təqdim etmiş, onu «oddan qorxmayan pərvanəyə» bənzətmişdir.

ayeyi-zibhi-əzim Quranda ayə
batin gizli iç tərəf
bəhri-təvil əruzun nəsr kimi yazılıb, müəyyən vəzndə oxunan və daxili qafiyələrlə qurulan növü
bəxl paxıl
dudkeş tüstü borusu
əfkar fikirlər, niyyətlər
əliyyül-əla yüksək, ali
əsrar sirlər
əşar şeirlər
əşkal şəkillər
ifna məhv etmək
kirdar 1) iş, 2) güc, 3) qayda
küfr 1) kafirlik, 2) söyüş
qabil qəbul edən, mümkün ola bilən
qövm millət
məğfur rəhmətə getmiş, bütün günahları bağışlanmış
məcməri-nar od içində
missioner xristian olmayan xalqlar arasında xristianlığı təbliğ edən və yayan şəxs
növheyi-milli milli ağı
rənc zəhmət
pəkey çox yaxşı
rəsnə çatan, vüsala yetən
silq yol
şeiri-tər təzə şeir
taəti-məzbur itaət haqqında danışılmış
təvəccöh hüsnrəğbət
ümməti-mərhumə rəhm edilmiş millət

A varianti

1. M.Ə.Sabirin tərcüməçilik fəaliyyəti ilə bağlı doğru fikri müəyyən edin.
   A) Azərbaycanda bədii tərcümənin ilk nümunələri onun adı ilə bağlıdır.
   B) N.Gəncəvinin «Xəmsə»sindən tərcümələr etmişdir.
   C) İ.A.Krılovun «Qarğa və tülkü» təmsilini rus dilindən Azərbaycan dilinə tərcümə etmişdir.
   D) «Həyat» qəzeti ilə əməkdaşlığa tərcümələrini dərc etdirməklə başlamışdır.
   E) Firdovsinin «Şahnamə» dastanından bir parçanı Azərbaycan dilinə çevirmişdir.

2. M.Ş.Vazeh və M.Ə.Sabirin fəaliyyəti dairəsinə aiddir:
   A) Tiflis mühitində pedaqoji sahədə çalışmaq
   B) maarifçi-satirik şeirlər yazmaq
   C) eyni ədəbi dövrün eyni mərhələsində yazıb-yaratmaq
   D) ədəbi məclis təşkil etmək
   E) M.F.Axundzadə ilə əməkdaşlıq etmək

3. M.Ə.Sabir haqqında hansı fikir ***doğru deyil?***
   A) Məhəmmədəli şahın vəfatı münasibətilə də mərsiyə yazmışdır.
   B) Qəzəllərində özünəqədərki poeziyanın təsiri hiss olunur.
   C) Uşaqlar üçün yazdığı şeirlərdə «hər işin ibtidaisi tərbiyədir» qənaətinə gəlmişdir.
   D) «Yalançı çoban» əsəri uşaq şeirlərinə aiddir.
   E) «A şirvanlılar» şeirində sünni-şiə ayrı-seçkiliyinə qarşı çıxmışdır.

4. Leyli və Məcnun kimi klassik ədəbiyyat qəhrəmanlarını xatırlatması Sabirin hansı janrda yazdığı əsərlərinin səciyyəvi xüsusiyyətlərindəndir?
   A) mənzum hekayə B) mərsiyə
   C) qəzəl D) müstəzad E) bəhri-təvil

5. M.Ə.Sabirin lirik şeirlərini necə qruplaşdırmaq olar?
   A) satirik əsərlər ,uşaq şeirləri, tərcümələr
   B) qəzəllər, ictimai-siyasi şeirləri, uşaq şeirləri
   C) mərsiyələr, mənzum hekayələr, təmsillər
   D) ictimai-siyasi şeirlər, satirik əsərlər, uşaq şeirləri
   E) qəzəllər, uşaq şeirləri ,mənzum hekayələr

6. M.Ə.Sabirin satiralarında bəzən süjeti əmələ gətirir:
   A) nağılvarilik B) monoloqlar
   C) kinayələr D) ictimai ziddiyyətlər E) dialoqlar

7. Məntiqi ardıcıllığı tamamlayın.
   «Uşaqdır», «Uçitellər», «Urəfa marşı»...
   A) «Oxutmuram, əl çəkin» B) «Bizə nə?»
   C) «Ayılma» D) «A şirvanlılar» E) «Var»

8. Sabir bədii portret yaratmaq qabiliyyətini hansı sahədə ustalıqla nümayiş etdirmişdir?
   A) mənzum hekayələrində
   B) uşaq şeirlərində
   C) satirik şeir yaradıcılığında
   D) ictimai-siyasi şeirlərində
   E) klassik üslubda yazdığı şeirlərində

9. M.Ə.Sabirin mərsiyələri ilə bağlı doğru fikirləri müəyyən edin.
   1. Milli ideyalar da ifadə etmişdir.
   2. İctimai motivlər də əks olunmuşdur.
   3. Özü bir neçəsini «Növheyi-milli» adlandırmışdır.
   4. S.Ə.Şirvaninin vəfatı münasibəti ilə də yazılmışdır.
   5. Dini şəxsiyyətlər haqqında da yazılmışdır.
   A) 3, 4 B) 1, 2, 3, 5 C) 1, 2, 5 D) 2, 3, 4 E) 1, 2, 4, 5

10. M.Ə.Sabirin həyat və fəaliyyəti ilə ***bağlı deyil:***
    A) «Şərqi-Rus» qəzetində «Həyat» qəzeti ilə bağlı təbriknamə dərc etdirmişdir.
    B) Firdovsinin və Sədinin yaradıcılığından tərcümələr etmişdir.
    C) «İsgəndər və fəqir «əsərini mənzum hekayə janrında yazmışdır.
    D) Azərbaycan poeziyasında satira dilinin ən zəngin nümunələrini yaratmışdır.
    E) «A şirvanlılar» şeirində Qurana qail olduğunu bildirir.

B variantı

1. Aşağıdakı şeirlərin birində Sabirin azadlıq duyğuları ifadə olunmuşdur:
   A) «İstiqbalımız lağlağıdır» B) «Qoyma, gəldi»
   C) «Bizə nə?» D) «Fəxriyyə «
   E) «A şirvanlılar»

2. «Səttarxana» şeirinin bəhri ilə eyni olan şeirləri müəyyən edin.
   1. «Görmədim» (M.P.Vaqif)
   2. «Eylər» (Q.Zakir)
   3. Tuyuqlar
   4. «Ayrılır» (Ş.İ.Xətai)
   5. «Əql yar olsaydı...» (M.Füzuli)
   6. «Dəhnamə» (Ş.İ.Xətai)
   7. «Yanaram» (İ.Nəsimi)
   8. «Mən mülki-cahan» (İ.Nəsimi)

   A) 3, 4, 5, 6, 8 B) 2, 3, 6, 7 C) 2, 3, 4, 7
   D) 1, 3, 4, 5 E) 1, 2, 4, 5, 8

3. Sabirin yaradıcılıq bağlantısı olduğu və Azərbaycan dilində əsər yazan həmkarını müəyyən edin.
   A) Q.Zakir B) N.Gəncəvi
   C) S.Ə.Şirvani D) Ş.İ.Xətai
   E) M.P.Vaqif

4. Ruhuna görə «Amalımız, əfkarımız ifnayi-vətəndir» şeiri aşağıdakı əsərlərdən hansına yaxındır?
   A) «Cütcü»
   B) «Kim nə deyər bizdə olan qeyrətə?»
   C) «Ey dil, amandı, sirrimi biganələr bilməsin»
   D) «Yaz günləri»
   E) «Var»

5. Aşağıdakılardan biri Sabirin yaradıcılığında «Vətən namusunu yüz qat uca tutan» şəxsiyyət kimi təqdim olunur:
   A) Səttarxan B) S.Ə.Şirvani
   C) H.Zərdabi D) Hacı Məcid Əfəndi
   E) C.Məmmədquluzadə

6. Janrına görə biri digərlərindən fərqlənir:
   A) «Səttarxana» (M.Ə.Sabir)
   B) «Əql yar olsaydı...» (M.Füzuli)
   C) «Mövsümi-qış getdi...» (Ş.İ.Xətai) D) «Yanaram» (İ.Nəsimi)
   E) «Necə həmtay tutum hər büti-zibayə səni?» (S.Ə.Şirvani)

7. Hansı fikir doğrudur?
   A) Sabirin mətbuata ilk gəlişi Bakıda nəşr olunan «Həyat» qəzeti ilə bağlıdır.
   B) Sabir ancaq lirik şeirlərində millət, vətən haqqında duyğularını ifadə etmişdir.
   C) Sabir satirik şeirlərini ancaq «Molla Nəsrəddin» jurnalında dərc etdirmişdir.
   D) Azərbaycan ədəbiyyatında Səttarxanın milli qəhrəman obrazını ilk dəfə Sabir yaratmışdır.
   E) Sabirin «Amalımız, əfkarımız ifnayi-vətəndir» şeiri Türkiyədə gedən proseslərdən bəhs edir.

8. Sabirin satirik əsərlərinin ruhuna uyğundur:
   A) tərənnüm B) maarifçilik
   C) kinayə D) siyasətdən uzaq olmaq
   E) sözü ehtiyatla demək

9. Cənubi Azərbaycandakı milli azadlıq hərəkatına ruh və qüvvət verdiyinə görə *«Sabir İran inqilabına bir ordudan ziyadə xidmət göstərmişdir»* deyən Azərbaycan ziyalısı kimdir?
   A) C.Məmmədquluzadə B) A.Səhhət
   C) M.Ş.Vazeh D) Ə.Haqverdiyev
   E) M.Möcüz

10. «Səttarxana» şeiri ilə bağlı doğru fikri müəyyənləşdirin.
   A) «Beynəlmiləl» şeirinin dərc olunduğu mətbuat orqanında işıq üzü görüb.
   B) Satirik ruhda olduğu üçün tez məşhurlaşmışdır.
   C) Bəhrinə görə rübailərə oxşayır.
   D) Bəndlərindəki misraların sayı Q.Zakirin «Eylər» şeirinin bəndlərindəki misraların sayı ilə eynidir.
   E) Tərənnüm üsulunda yazılmışdır.

ƏN YENİ DÖVR AZƏRBAYCAN ƏDƏBİYYATI

I mərhələ (XX əsrin 10-cu illərinin sonlarından 50-ci illərə qədər)

Bu dövr Azərbaycan Xalq Cümhuriyyətinin qurulduğu ildən (1918) başlayır.

Azərbaycan ədəbiyyatı tarixinin ən yeni dövrü iki mərhələyə bölünür:

I mərhələ: 1918-ci ildən 50-ci illərə qədər

II mərhələ: XX əsrin 50-ci illərindən bu günə qədər.

I mərhələ.

I. Xalq Cümhuriyyəti dövrü (1918-1920)

Bu dövrdə ictimai-siyasi həyatla yanaşı, mədəni-ədəbi həyatda da canlanma duyulurdu:

Bakı Dövlət Universiteti yarandı.

Azərbaycan Xalq Cümhuriyyətinin parlamenti Azərbaycan türkcəsini dövlət dili elan etdi.

Azərbaycan gəncləri xarici ölkələrə təhsil almağa göndərildi və s.

Ədəbiyyatda vətənpərvərlik hisləri təbliğ olunur, türkçülük, cümhuriyyətçilik, milli dövlətçilik ideyalarının tərənnümü daha çox diqqəti cəlb edirdi.

F.Köçərli, H.Cavid, C.Cabbarlı, Ə.Cavad, Ü.Hacıbəyli, S.Hüseyn, A.Şaiq, Y.V.Çəmənzəminli, M.Ə.Rəsulzadə kimi sənətkarlar əsərlərində Azərbaycanın milli varlığının təsdiqi uğrunda mübarizəni ön plana çəkirdilər.

İlk yaradıcılıq təşkilatları Xalq Cümhuriyyəti dövründə yarandı: "Yaşıl qələm"*, "Qırmızı qələm"**. Yaşıl rəng türkçülüyün, müsəlmançılığın, qırmızı isə inqilabın, müasirliyin ifadəsi idi.

II. Azərbaycan Xalq Cümhuriyyətinin süqutundan sonrakı dövr. Sovet ədəbiyyatı dövrü. Ölkədə ictimai-siyasi, ideoloji ovqat dəyişməyə başladı. Sovet hakimiyyəti qurulduqdan sonra bütün sahələrdə, eləcə də ədəbiyyatın özündə də sovetləşmə siyasəti aparılırdı. Kommunist ideologiyası milli məfkurəyə qarşı qoyulurdu.

Həmin dövrdə H.Cavid, N.Vəzirov, S.S.Axundov, Y.V.Çəmənzəminli, S.Hüseyn, C.Məmmədquluzadə və başqa sənətkarları kommunistləşdirmək əslində mümkün deyildi. Onlar öz yaradıcılıq qayələrinə sadiq qalır, yeni dövr ideologiyasına boyun əymirdilər.

1925-ci ildə Bakıda yaradılan "Qızıl qələmlər" cəmiyyəti gənc yazıçılardan ibarət idi və yaşlı ədəbi nəslə qarşı qoyulurdu. Onların əsərləri sovet ədəbiyyatının ilk nümunələri sayılırdı.

1928-ci ildə Azərbaycan Yazıçılar Cəmiyyəti yaradıldı. Cəmiyyət bütün nəsillərdən olan yazıçıları sovet ideologiyası ətrafında birləşdirməyə çalışırdı. Bu ideologiyaya boyun əyməyənlər kəskin tənqidə məruz qalırdılar.

1934-cü ildə Azərbaycan Yazıçılar İttifaqı yaradıldı. İttifaqda 1920–1930-cu illərdə formalaşan Azərbaycan sovet yazıçıları fəaliyyət göstərirdi. Onlar sovet ədəbiyyatının yaradıcıları idilər. Sovet ədəbiyyatı "formaca milli, məzmunca sosialist" ədəbiyyatı idi. Onun əsas yaradıcılıq metodu sosializm realizmi idi. Bu, sənətkarların yaradıcılıq imkanlarını məhdudlaşdırırdı. Sovet cəmiyyətinin nöqsanlarından danışmaq, fərdi yaşantıları əks etdirmək, insanın daxili aləminə enmək qadağan edilirdi.

---

* *"Yaşıl qələm"* ədəbi cəmiyyət 1919-cu ilin 26 avqustunda təsis edilmişdir. Xalq Cümhuriyyəti dövründə çox fəal olan bu ədəbi cəmiyyətin sədri Seyid Hüseyn seçilmişdi. Cəmiyyətin əsasnaməsində göstərilirdi ki, yaşıl rəng baharı andırır, yaşıl rəng "ümid və nicat işarələrini ehtiva edir". Seyid Hüseyn, Məhəmməd Ağaoğlu, Ümmügülsüm (S.Hüseynin həyat yoldaşı, şairə), Əli Yusif, Mirzə Bala Məmmədzadə bu cəmiyyətin ilk idarə heyətinin üzvləri olmuşlar. M.Ə.Rəsulzadə, H.Ağayev, Ü.Hacıbəyli, Ə.Gövdət, Ş.Rüstəmbəyli, N.Vəzirov, H.Cavid, Ə.Cavad, A.Şaiq, C.Cabbarlı, Ə.Müznib, S.Mümtaz və başqaları "Yaşıl cəmiyyət"in iclaslarında fəal iştirak edirdilər.

** *"Qırmızı qələm"* (1919) bolşevik ideyalarına xidmət edən ədəbi cəmiyyət olmuşdur.

Bir sözlə, sovet gerçəkliyinin təsvir və tərənnümündən kənara çıxmaq olmazdı.

Ümumən, Azərbaycan sovet ədəbiyyatı aşağıdakı mərhələlərdən keçmişdir:

1) ***təşəkkül mərhələsi*** (1920-ci illərin ortalarından 30-cu illərin əvvəllərinə qədər)

2) ***təkamül mərhələsi*** (30-cu illərin əvvəllərindən 50-ci illərin ortalarına qədər)

3) ***süqut mərhələsi*** (50-ci illərin ortalarından 80-ci illərə qədər)

Sovet ideologiyasının milli məfkurəyə qarşı qoyulması aşağıdakı istiqamətlərdə özünü göstərirdi:

a) azərbaycançılığın əsas əlaməti olan türkçülük millətçilik hesab edilir, milli tarixi mövzu və ideyalara yer verilmir, milli mənafe əvəzinə, sinfi mənafelərin mübarizəsindən danışılır, vulqar beynəlmiləlçilik təbliğ olunurdu;

b) azərbaycançılığın ikinci əlaməti olan müsəlmançılıq, ümumiyyətlə, dini dünyagörüşü və onun mənəvi-əxlaqi dəyərləri inkar edilirdi;

c) azərbaycançılığın üçüncü əlaməti olan müasirlik vulqarlaşdırılaraq sosializmin, sosialist inqilabının, sovet gerçəkliyinin, Kommunist Partiyasının tərənnümü ilə məhdudlaşdırılır, dünyaya yeni pəncərə açılmasına icazə verilmirdi.

Ədəbiyyatda siyasi amiranəlik, vulqar müdaxilələr mövcud idi. Ədəbiyyatımız siyasi repressiyalar hesabına Hüseyn Cavid, Əhməd Cavad, Mikayıl Müşfiq, Yusif Vəzir Çəmənzəminli, Ömər Faiq Nemanzadə, Seyid Hüseyn, Salman Mümtaz, Atababa Musaxanlı, Hacı Kərim Sanılı, Əli Nazim, Mustafa Quliyev, Bəkir Çobanzadə, Hənəfi Zeynallı, Əlabbas Müznib, Qafur Qantəmir, Əmin Abid, Sultan Məcid Qənizadə, Tağı Şahbazi (Simurq) kimi yaradıcılarını – oğullarını itirdi. Qeyd edək ki, bunların bəziləri (M.Quliyev, Ə.Nazim və b.) bu ədəbiyyatın əsl ideoloqları, mübarizləri olmuşdular, hətta yoldaşlarının tək-tük ideoloji qüsurlarına, müəyyən tərəddüdlərinə dözə bilməmişdilər, onları ciddi tənqid etmişdilər. "İnqilab", repressiya aparatı, necə deyərlər, öz "balalarına" da rəhm etməmişdi, yemişdi.

II Dünya müharibəsi illərində sovet ədəbiyyatı alman faşizminə qarşı döyüşürdü. "Hər şey cəbhə üçün, hər şey qələbə üçün!" şüarı mədəniyyət və ədəbiyyata da aid idi.

1945-ci ildən sonra müharibə mövzusu ilə yanaşı, "dinc quruculuq", istehsalat, təsərrüfat mövzuları da ədəbiyyatda geniş yer tuturdu.

Cənubi Azərbaycanda da həmin dövrdə ədəbi proses gedirdi. Cənubi Azərbaycan sənətkarları orta əsrlərin ədəbi ənənələrini davam etdirməklə yanaşı, ictimai-siyasi məsələlərə də diqqət yetirirdilər. Yaradıcılıqda əsas yeri poeziya tuturdu.

40-cı illərin sonlarında Cənubdan Şimala mühacirət edən Balaş Azəroğlu, Hökumə Bülluri, Mədinə Gülgün, Əli Tudə, Söhrab Tahir kimi şairlərin yaradıcılığında Cənubi Azərbaycan, Təbriz həsrəti, Vətənin bütövlüyü ideyaları başlıca yer tuturdu.

Ən yeni dövrün I mərhələsində Azərbaycan ədəbiyyatının üçüncü qolunu mühacirət ədəbiyyatı təşkil edirdi. Xalq Cümhuriyyəti devrildikdən sonra Türkiyədə, Qərbi Avropada məskunlaşan mühacir yazıçılar, əsasən, milli ruhu təmsil edir, sovet ideologiyasından uzaq Azərbaycan ədəbiyyatı yaradırdılar.

50-ci illərdən sonra sovet rejimindəki yumşalma ictimai düşüncəyə təzyiqin azalması ilə nəticələnir və Azərbaycan ədəbiyyatının I mərhələsi başa çatır.

Poeziya

1. Xalq Cümhuriyyəti dövründə əsas yeri poeziya tuturdu. Vətənpərvərlik və cümhuriyyətçiliyin tərənnümü artır, siyasi-publisistik şeirin meydanı genişlənirdi.

2. Sovet hakimiyyətinin ilk illərindən, elə XX əsrin 20-ci illərindən başlayaraq kommunist ideologiyası və sovet vətənpərvərliyinin təbliği başlanır, 30-cu illərdə inkişaf etdirilir. "Yeni dünya", "xariqələr yaradan sovet adamı", "sosialist kəndi", "fəhlə əməyi" və s. tərənnüm olunurdu.

II Dünya müharibəsi illərində faşizmə qarşı mübarizəyə çağırış, qələbəyə inam, müharibədən sonrakı dövrdə isə ədəbiyyatın ənənəvi mövzuları ilə yanaşı, xalqlar dostluğu, sosialist beynəlmiləlçiliyi, beşilliklər və beynəlxalq məsələlərdən də bəhs olunurdu.

Xalq şeiri, heca vəzni poeziyanın əsasında durmaqla, əruzun fəaliyyəti məhdudlaşırdı. Rus poeziyasının təsiri altında sərbəst vəzndən də istifadə olunurdu.

30-cu illərdə Azərbaycan poeziyası formalaşır, azərbaycançılıq ideyaları poeziyaya gəlir. Həmin poeziyanı yaradanların önündə S.Vurğun gedirdi.

O dövrkü Azərbaycan poeziyasının əsasında sovet-kommunist ideyaları dayansa da, 1930 – 1950-ci illərdə Azərbaycan şairləri milli mövzulara müraciət etməkdən çəkinmir, Azərbaycan tarixi, təbii gözəlliklər, milli vətənpərvərlik hisləri tərənnüm olunurdu.

Bu dövr poeziyasının ən məşhur nümayəndələri:

Əhməd Cavad (1892-1937). Cümhuriyyət dövrünün alovlu tərənnümçüsü olmuşdur. Ə.Cavad Azərbaycan Demokratik Respublikasının Dövlət himninin sözlərinin müəllifidir. Gənc yaşlarından böyük bir türk vətənpərvəri olan şair məşhur "Çırpınırdı Qara dəniz" (1914) şerini yazmışdır. İlk kitabları: "Qoşma" (1916), "Dalğa" (1919).

Ə.Cavad Ş.Rustavelli, V.Şekspir, F.Rable kimi dünya şöhrətli sənətkarların əsərlərini Azərbaycan dilinə tərcümə etmişdir.

Sovet dövründə, əsasən, müəllimlik etmişdir. Vətənpərvər şeirlər yazan şair təqiblərə məruz qalaraq 1937-ci ildə güllələnmişdir.

Süleyman Rüstəm (1906-1989). Azərbaycan sovet poeziyasının yaradıcılarından biridir. Kommunist ideologiyasının tərənnümçüsü kimi tanınır. 1927-ci ildə çap olunmuş "Ələmdən nəşəyə" kitabı yaradıcılığının manifestidir.

"Partbiletim sol cibimdə, ürəyimin başındadır" misrası ilə Azərbaycan sovet şairinin poetik şəxsiyyətini müəyyənləşdirmişdi.

XX əsrin 70-ci illərindən başlayaraq gözəl lirik şeirlər (qəzəllər) də yazmışdır. Şairin Cənub mövzulu şeirləri onun yaradıcılığının mühüm bir qolunu təşkil edir.

"Qaçaq Nəbi" mənzum pyesinin müəllifidir.

Məmməd Rahim (1907-1977). Azərbaycan sovet poeziyasının görkəmli nümayəndələrindən biridir. Müxtəlif mövzulu lirik şeirlər yazmışdır. Müharibə dövründə yazdığı ən məşhur əsəri "Leninqrad göylərində" poeması azərbaycanlı təyyarəçi Hüseynbala Əliyevə həsr olunmuşdur.

Mikayıl Müşfiq (1908-1938). Yaradılıcılığa 20-ci illərin ortalarında "Bir gün" şeiri ilə başlamışdır. "Küləklər" (1930), "Günün səsləri" (1930), "Vuruşmalar" (1932), "Bir may" (1932), "Şeirlər" (1934) və s. şeir kitabları çap olunmuşdur. Alovlu, coşqun təbiətli lirik şair kimi tanınan M.Müşfiq sovet quruculuğunu tərənnüm etməklə yanaşı, gəncliyin saf, səmimi duyğularını da qələmə almışdır.

Onun ideologiyaya sığmayan ilhamı, poetik şəxsiyyəti sovet rejiminin tələblərinə uyğun gəlmədiyi üçün repressiyaya məruz qalmış, 1937-ci ildə həbs olunmuş, 1938-ci ilin əvvəllərində güllələnmişdir.

Osman Sarıvəlli (1905-1990). Yaradıcılığa 20-ci illərin sonu 30-cu illərin əvvəllərində başlamışdır. Azərbaycan sovet poeziyasının xalq ruhlu aşıq sənəti ilə bağlı qolunun nümayəndəsi olmuşdur. S.Vurğunla dostluğu M.V.Vidadi ilə M.P.Vaqifin dostluğunu xatırladır.

Əliağa Vahid (1895-1965). Yaradıcılığa 1910-cu illərin ortalarından başlamış, qəzəlləri, meyxanaları, satirik şeirləri ilə xalqın sevimli şairi olmuşdur. Bir növ "ideologiyasız" poeziyanın bariz nümayəndəsi idi.

Əruz vəzninin sadələşməsində Ə.Vahidin böyük xidmətləri vardır.

Mirvarid Dilbazi (1912-2001). 30-cu illərdə yaradıcılığa gələn şairənin Azərbaycan sovet poeziyasının formalaşmasında özünəməxsus rolu olmuşdur. Lirik şeirlərində sovet gerçəkliyini tərənnüm etməklə yanaşı, adi insanın hislərini, duyğularını da təsvir etmişdir.

Nigar Rəfibəyli (1913-1981). Azərbaycan sovet poeziyasının görkəmli nümayəndələrindən olan şairə 30-cu illərdə sənətə gəlmişdir. Səmimi lirik şeirlər müəllifidir.

Nəsr

Ən yeni dövrün I mərhələsində nəsrdə aparıcı janr hekayə olsa da, povest, roman, hətta epopeya da yazılırdı.

1920–1930-cu illərdəki nəsr əsərlərində "yeni həyatın", sosialist inqilabının, sovet həyat tərzinin təntənəsi, ictimai geriliyin ifşası əsas mövzulardan idi. Bununla yanaşı, həmin dövrdə tarixi mövzulara da müraciət olunur, tarixi romanlar da yazılırdı.

1940–1950-ci illərdə isə nəsrdə əsas mövzu müharibə və dinc quruculuq problemləri idi.

Bu əsərlərdə, qəhrəmanın daxili aləmindən daha çox, ictimai-siyasi, sinfi mövqeyi ön plana çəkilirdi.

Bu dövr nəsrinin əsas nümayəndələri:

Seyid Hüseyn (1887-1937). 1920–1930-cu illərdə yazdığı hekayələrdə, əsasən, köhnə və yeni həyat müqayisə olunur. O dövrdə "Yeni həyat yollarında"(1928), "İki həyat arasında" (1930, 1934) hekayə kitabları çap olunmuşdur. Tənqidçi kimi də fəaliyyət göstərmişdir (daha çox inqilabdan əvvəl, Kazımoğlu imzası ilə yazırdı).

1937-ci ildə sovet quruluşunun düşməni kimi güllələnmişdir.

Məmməd Səid Ordubadi (1872-1950). Yaradıcılığa XIX əsrin sonu XX əsrin əvvəllərində başlamışdır. Qələmini müxtəlif sahələrdə (publisistika, şeir, nəsr, dramaturgiya və s.) sınasa da, tarixi romanlar ustası kimi tanınmışdır. Azərbaycan ədəbiyyatında tarixi romanın ilk nümunəsini M.S.Ordubadi yaratmışdır ("Dumanlı Təbriz", I cild – 1933). 1930–1940-cı illərdə nəşr olunmuş "Dumanlı Təbriz", "Gizli Bakı", "Döyüşən şəhər", "Qılınc və qələm" romanları Azərbaycan tarixi nəsrinin dəyərli nümunələridir.

Yusif Vəzir Çəmənzəminli (1887-1943). Ən yeni dövr Azərbaycan ədəbiyyatının məşhur nümayəndələrindən biridir. İxtisasca hüquqşünas olan Yusif Vəzir Azərbaycan Xalq Cümhuriyyətinin Türkiyədə ilk səfiri olmuşdu. Azərbaycanın bolşevikləşməsindən sonra mühacirətdə yaşamış, 1926-cı ildə vətənə qayıtmışdır. O, tarix, ədəbiyyat, folklor, etnoqrafiya sahələrində də çox səviyyəli araşdırmaların müəllifi idi.

Üç romanın, xeyli sayda hekayənin, "Həzrəti-Şəhriyar" komediyasının müəllifidir.

Romanları: "Studentlər" (I hissə - "Günah" 1931-ci ildə, ikinci hissə – "1917-ci ildə" 1935-ci ildə yazılmışdır), "Qızlar bulağı" (1934), "İki od arasında" (1936–1937).

Yusif Vəzirin romanlarındakı faktlar tarixi gerçəkliyə daha uyğun idi. Onun yazdığı "İki od arasında" ("Qan içində") tarixi, "Qızlar bulağı" isə tarixi-fəlsəfi romandır.

Süleyman Rəhimov (1900-1983). İlk qələm təcrübəsi "Şamo" romanı (ilk variantı 1930-cu ildə nəşr olunmuşdu). Sonralar dördcildlik bir epopeyaya çevrilən bu roman üzərində S.Rəhimov, demək olar ki, bütün yaradıcılığı boyu işləmişdir. Əsərdə əyalət kəndindən başlayan inqilabi hərəkatın sosialist inqilabına çevrilməsi kimi ictimai-siyasi proseslər əks olunmuşdur.

S.Rəhimov "Saçlı", "Ağbulaq dağlarında", "Qafqaz qartalı", "Ana abidəsi" və s. kimi romanlarla yanaşı, povest və hekayələr də yazmışdır.

Əli Vəliyev (1901-1983) Yaradıcılığa 20-ci illərin sonu 30-cu illərin əvvəllərində başlamışdır. Publisistik məqalə, hekayə, povest və romanlarında sosializm quran Azərbaycan kəndinin ictimai ovqatını əks etdirmişdir. Əsərlərində yerli kolorit güclü idi.

"Qəhrəman", "Çüçəkli", "Budağın xatirələri" kimi romanların, "Gülşən" povestinin bir sıra hekayələrin müəllifidir.

Mehdi Hüseyn (1909-1965). Yaradıcılığa 20-ci illərdə publisistik yazılarla başlamışdır. Hekayə, povest, roman və dramları ilə yanaşı, ədəbi-tənqidi məqalələr, oçerklər yazmışdır. Məşhur tənqidçi idi.

Onun "Kin", "Komissar" povestləri, "Səhər", "Abşeron", "Qara daşlar", "Yeraltı çaylar dənizə axır" romanları ideoloji tələblərə uyğun yazılsa da, müəllifin ədəbi istedadını, geniş ictimai-siyasi dünyagörüşünü əks etdirir.

Mirzə İbrahimov (1911-1993). Ədəbiyyata şeirlə gəlmiş, 30-cu illərdən etibarən roman, povest, hekayə, dram, oçerk və ədəbi – tənqidi məqalələr yazmış, zəngin bir yaradıcılıq yolu keçmişdir. Böyük elm adamı, Azərbaycan EA-nın həqiqi üzvü idi.

M.İbrahimovun "Gələcək gün", "Böyük dayaq", "Pərvanə" romanları Azərbaycan nəsrinin dəyərli nümunələridir.

Dramaturgiya

Ən yeni dövrün I mərhələsində dramaturgiya mövcud ənənələri davam etdirməklə yanaşı, həm ideya-məzmun, həm də forma baxımından inkişaf edir. XX əsrin 30-cu illərində H.Cavid, C.Cabbarlı, S.Vurğun Azərbaycan dramaturgiyasında möhtəşəm əsərlərini qələmə alırlar.

Təkcə peşəkar dramaturqlar deyil, şairlər, nasirlər də bu sahəyə müraciət edirdilər (M.S.Ordubadi, S.Vurğun, M.İbrahimov, M.Hüseyn, C.Məcnunbəyov və b.). Sonrakı illərdə S.Rəhmanın komediyaları, İ.Əfəndiyevin lirik-romantik pyesləri meydana çıxır.

Ədəbiyyatşünaslıq

1920-ci illərdən etibarən Azərbaycan ədəbiyyatşünaslığı inkişaf edir, F.Köçərlinin yaratdığı məktəbin davamçıları yetişirdilər.

Salman Mümtaz, Vəli Xuluflu və Hümmət Əlizadə Azərbaycan folklorşünaslığının əsasını qoymuşlar.

S.Mümtaz xalq ədəbiyyatı ilə yanaşı, yazılı ədəbiyyatın bir sıra nümayəndələrinin əsərlərini də toplayıb nəşr etdirmişdir. 1937-ci ildə həbs olunmuş, sürgündə vəfat etmişdir.

30-cu illərdən başlayaraq, Azərbaycan ədəbiyyatı tarixinin öyrənilməsi işini Məmməd Arif Dadaşzadə, Məmmədhüseyn Təhmasib, Həmid Araslı, Feyzulla Qasımzadə, Mir Cəlal və b. davam etdirmişlər.

Ən yeni dövrün əvvəllərindən Azərbaycanda ədəbi tənqid də formalaşıb inkişaf edirdi. S.Hüseyn, M.Hüseyn kimi yazıçı-tənqidçilər, Məmməd Arif Dadaşzadə, Məmməd Cəfər, Əkbər Ağayev və başqa peşəkar tənqidçilər fəaliyyət göstərirdilər.

A variantı

1. Ədəbi təşkilatlar haqqında ***səhv*** fikri göstərin.
   A) Ədəbi təşkilatlar ilk dəfə Sovet hakimiyyəti dövründə yaranmışdır.
   B) Azərbaycan Yazıçılar Cəmiyyəti 1928-ci ildə yaradılıb.
   C) "Qızıl qələmlər" cəmiyyəti gənc yazıçılardan ibarət olub yaşlı ədəbi nəslə qarşı qoyulmuşdu.
   D) Azərbaycan Yazıçılar İttifaqı 1934-cü ildə yaradıldı.
   E) "Yaşıl qələm", "Qırmızı qələm" təşkilatlarının adında "yaşıl" türkçülüyün, müsəlmançılığın, "qırmızı" inqilabın, müasirliyin rəmzidir.

2. Bu dövrdə hansı sənətkarlar öz yaradıcılıq qayələrinə sadiq qalır, yeni ideologiyaya boyun əymirdilər?
   1. H.Cavid 2. S.Vurğun 3. Y.V.Çəmənzəminli
   4. S.Hüseyn 5. S.Rüstəm 6. C.Məmmədquluzadə
   7. S.Rüstəm 8. M.S.Ordubadi
   A) 2, 5, 7, 8 B) 1, 2, 5, 6
   C) 1, 3, 4, 6 D) 3, 4, 7, 8 E) 1, 4, 6, 7

3. 40-cı illərin sonunda Cənubdan Şimala mühacirət edən sənətkarlar:
   1. B.Azəroğlu 2. Şəhriyar 3. M.Gülgün 4. Ə.Tudə
   5. S.Rüstəm 6. S.Tahir 7. H.Bülluri 8. Almas Yıldırım
   A) 1, 3, 4, 6,7 B) 2, 4, 6, 7, 8
   C) 3, 5, 7, 8 D) 1, 4, 5, 7 E) 2, 5, 6, 7, 8

4. Ən yeni dövrün I mərhələsi hansı dövrü əhatə edir?
   A) 1918 – 1920-ci illəri B) XX əsrin 50-ci illərindən bu günə qədər
   C) 1900 – 1918-ci illəri D) 1918-ci ildən 50-ci illərə qədər
   E) 1920-ci illərdən bu günə qədər

5. Ən yeni dövrün I mərhələsində poeziya haqqında verilənlərdən biri ***yanlışdır:***
   A) Sovet dövründə əruzun fəaliyyəti məhdudlaşır, rus şeirinin təsiri ilə sərbəst şeirdən istifadə olunurdu.

B) Ə.Cavad və S.Rüstəm Azərbaycan sovet poeziyasının yaradıcılarıdırlar.
C) Ə.Vahidin əruz vəzninin sadələşməsində, xalq dilinə yaxınlaşmasında böyük xidməti vardır.
D) 30-cu illərdə azərbaycançılıq ideologiyasının önündə S.Vurğun dururdu.
E) 20-ci illərdən başlayaraq sovet vətənpərvərliyi təbliğ olunurdu.

6. *Ədəbiyyata şeirlə gəlsə də, bu sənətkar nasir kimi tanınmış, "Gələcək gün", "Böyük dayaq", "Pərvanə" romanları nəsrimizin dəyərli nümunələri sayılmışdır.*
A) Ə.Vəliyev B) M.Hüseyn
C) S.Rəhimov D) S.Hüseyn E) M.İbrahimov

7. Bu sənətkarlardan biri yaradıcılığa romanla başlamış, daha çox irihəcmli romanlar müəllifi kimi tanınmışdır:
A) S.Rəhimov B) M.Hüseyn
C) M.İbrahimov D) Mir Cəlal E) S.Hüseyn

8. Uyğunluğu göstərin.
I "Şamo", "Saçlı", "Qafqaz qartalı"
II "Kin", "Komissar"
III "Yeni həyat yollarında", "İki həyat arasında"
1. M.İbrahimov 2. S.Rəhimov 3. M.Hüseyn 4. S.Hüseyn
a) romanlar b) hekayələr kitabı c) povestlər
A) I-1-a; II-2-a; III-3-c B) I-3-a; II-2-b; III-1-c
C) I-2-b; II-3-a; III-a-c D) I-2-a; II-3-c; III-4-b
E) I-4-b; II-1-a; III-2-b

9. 30-cu illərdə Azərbaycan dramaturgiyasında hansı sənətkarlar monumental əsərlər qələmə alırdılar?
A) S.Vurğun, M.İbrahimov B) H.Cavid, C.Cabbarlı
C) M.Hüseyn, C.Cabbarlı D) İ.Əfəndiyev, H.Cavid
E) S.Vurğun, S.Rəhman

10. Azərbaycan folklorşünaslığının əsasını qoymuşlar:
A) Məmməd Cəfər, Məmməd Arif Dadaşzadə, Vəli Xuluflu
B) Məhəmmədhüseyn Təhmasib, Həmid Araslı
C) Feyzulla Qasımzadə, Mir Cəlal, Həmid Araslı
D) Seyid Hüseyn, Mehdi Hüseyn, Hənəfi Zeynallı
E) Vəli Xuluflu, Hümmət Əlizadə, Salman Mümtaz

B variantı

1. Məntiqi ardıcıllığı tamamlayın.
   "Yeni həyat yollarında"...
   A) "İki həyat arasında"
   B) "Gələcək gün"
   C) "Yolumuz hayanadır"
   D) "Saçlı"
   E) "Qara daşlar"

2. M.İbrahimovun romanları:
   1. "Böyük dayaq" 2. "Qafqaz qartalı"
   3. "Ağbulaq dağlarında" 4. "Pərvanə"
   5. "Gələcək gün" 6. "Yolumuz hayanadır"
   A) 1, 2, 4 B) 2, 3, 6
   C) 1, 4, 5 D) 3, 4, 5 E) 2, 4, 6

3. M.Hüseynin əsərləri:
   A) "Dumanlı Təbriz", "Gizli Bakı"
   B) "Gələcək gün", "Pərvanə"
   C) "Bir gəncin manifesti", "Yolumuz hayanadır"
   D) "Saçlı", "Şamo"
   E) "Abşeron", "Qara daşlar"

4. Yaradıcılığa XIX əsrin sonu XX əsrin əvvəllərində başlamış, qələmini publisistika, şeir, nəsr və dramaturgiyada sınasa da, tarixi romanlar müəllifi kimi tanınmışdır:
   A) M.S.Ordubadi B) S.Hüseyn
   C) S.Rəhimov D) Ə.Vəliyev E) M.Hüseyn

5. 30-cu illərdən başlayaraq Azərbaycan ədəbiyyatı tarixinin öyrənilməsi işini davam etdirmişlər:
   1. M.Təhmasib 2. S.Mümtaz
   3. F.Köçərli 4. H.Araslı 5. F.Qasımzadə
   A) 2, 4 B) 1, 4, 5 C) 1, 3, 5
   D) 2, 3 E) 3, 4, 5

6. *Cümhuriyyət dövrünün alovlu tərənnümçüsü olmuş, sovet dövründə, əsasən, müəllimlik etmiş, tərcümə sahəsində xüsusi xidmətləri olmuş, repressiyaya məruz qalmışdır.* Söhbət hansı sənətkardan gedir?
A) M.Rahim B) H.Cavid
C) M.Müşfiq D) Y.V.Çəmənzəminli
E) Ə.Cavad

7. Alovlu, coşqun təbiətli lirik şair kimi tanınan bu şair "Küləklər", "Günün səsləri", "Vuruşmalar", "Bir may" və s. kitabların müəllifidir:
A) O.Sarıvəlli B) Ə.Cavad
C) S.Rüstəm D) M.Müşfiq
E) M.Rahim

8. *"Partbiletim sol cibimdə, ürəyimin başındadır"* misrası ilə o, Azərbaycan sovet şairinin poetik şəxsiyyətini müəyyənləşdirirdi:
A) S.Rüstəm B) M.Müşfiq
C) M.Rahim D) O.Sarıvəlli
E) Ə.Cavad

9. 1927-ci ildə nəşr olunmuş "Ələmdən nəşəyə" kitabı yaradıcılığının manifestidir:
A) M.Rahim B) M.Müşfiq
C) S.Rüstəm D) O.Sarıvəlli
E) Ə.Cavad

10. Bu sənətkarlar repressiya qurbanları olmuşlar:
1. Ə.Cavad 2. M.Müşfiq 3. Ə.Vahid
4. M.Rahim 5. S.Hüseyn 6. M.Hüseyn
A) 1, 2, 6
B) 1, 2, 5
C) 3, 4, 6
D) 1, 2, 3
E) 4, 5, 6

Hüseyn Cavid

(1882 – 1941)

Azərbaycan ədəbiyyatında romantizm ədəbi cərəyanının əsas nümayəndələrindən olan H.Cavid milli romantik şeirin və mənzum faciənin banisidir. Hüseyn Cavidin ölməz sənəti dünya romantizminin tərkib hissəsidir.

Həyatı

Hüseyn Molla Abdulla oğlu Rasizadə 24 oktyabr 1882-ci ildə Naxçıvanda anadan olmuşdur. İlk təhsilini Naxçıvan şəhərindəki mollaxanada almışdır. Ərəb-fars dillərini öyrənmiş, Şərq tarixi və ədəbiyyatına dair ilkin biliklər əldə etmişdir. Sonra Naxçıvanda "Tərbiyə" məktəbində oxuyan H.Cavid dünyəvi elmlərə yiyələnmiş və həmin məktəbin müdiri və müəllimi Məhəmməd Tağı Sidqinin təsirilə "Gülçin" təxəllüsü ilə şeirlər yazmağa başlamışdır. H.Cavid "Salik" təxəllüsü ilə də lirik şeirlər yazmışdır. 1898-1903-cü illərdə Təbrizdəki "Talıbiyyə" məktəbində təhsilini davam etdirmişdir. 1906-1909-cu illərdə İstanbul Universitetində oxumuşdur. Cavid bu ali təhsil ocağında Türkiyənin tanınmış alimlərindən dərs almış, Rza Tofiq, Tofiq Fikrət kimi görkəmli şairlərdən faydalanmışdır.

Hələ 1903-cü ildən "Şərqi-Rus" qəzetində ara-sıra məqalələrlə çıxış edən H.Cavidin İstanbulda tələbə olarkən "İrşad" qəzetində **"Növhə"** şeiri, "Füyuzat" jurnalında **"Bir ahi-məzlumanə"** adlı poeması çap olunmuşdur.

Universiteti bitirdikdən sonra 1909-1910-cu illərdə Naxçıvanda müəllim işləmiş, bir sıra şeirlərini və "Ana" mənzum faciəsini (1910) yazmışdır.

1911-1917-ci illərdə H.Cavid Tiflisdə yaşamış, pedaqoji fəaliyyətini və bədii yaradıcılığını davam etdirmişdir.

İlk şeirlər kitabı olan **"Keçmiş günlər"** 1913-cü ildə Tiflisdə "Şərq" mətbəəsində çap olunmuşdur. 1918-1919-cu illərdə Naxçıvandakı "Rüşdiyyə" məktəbində dərs demiş, Müşkinaz xanımla ailə həyatı qurmuş (1918), sonra Bakıya köçmüşdür. H.Cavidin **"Bahar şəbnəmləri"** adlı ikinci şeir kitabı 1917-ci ildə Bakıda çap olunmuşdur.

H.Cavid "Yaşıl qələm" dərnəyinin üzvü kimi fəaliyyət göstərmişdir. Yazdığı pyesləri, xüsusilə "İblis" faciəsinin (1918) uğurlu tamaşası onun şöhrətini daha da artırmışdır.

Azərbaycanda sovet hökuməti qurulduqdan sonra, əsasən, müəllim kimi fəaliyyət göstərən H.Cavid Müəllimlər İnstitutunda, Bakı Teatr Texnikumunda da dərs demişdir.

1922-ci ildə "Hüseyn Cavid axşamı" təşkil olunmuş;

1926-cı ildə müalicə olunmaq üçün Almaniyaya göndərilmiş;

1927-ci ildə ona fərdi təqaüd təyin olunmuşdur.

1931-ci ildən etibarən dövri mətbuatda haqqında tənqidi ruhlu məqalələr görünməyə başlamış, 1934-cü ildən Azərbaycan Yazıçılar İttifaqının yığıncaqlarında "burjua yazıçısı", "müasir həyatı əks etdirməyən" sənətkar kimi damğalanmışdır. 1937-ci ildə günahsız yerə həbs olunmuş, "gizli millətçi əksinqilabi təşkilat"da iştirak bəhanəsi ilə 8 illik həbs cəzasına məhkum edilmişdir.

1938-1940-cı illərdə keçmiş SSRİ ərazisində həbs düşərgəsi olan Maqadan şəhərində cəza çəkmişdir. 1941-ci ildə Sibirdəki Tayşet rayonunun Şevçenko qəsəbəsində həbsdə ikən vəfat etmişdir.

Hüseyn Cavidə 1956-cı ildə bəraət verilmişdir. Görkəmli dövlət xadimi H.Əliyevin təşəbbüsü ilə Cavidin cənazəsi 1982-ci ildə Sibirdən Vətənə gətirilmiş və Naxçıvanda torpağa tapşırılmışdır.

Anadan olmasının 100 illiyi dövlət səviyyəsində qeyd olunmuşdur. Naxçıvanda türbəsi, Bakıda heykəli ucaldılmış, ev-muzeyləri təşkil edilmişdir.

Yaradıcılığı

Poeziyası. H.Cavid poeziyası romantik şeirlər və poemalardan ibarətdir. O, yaradıcılığa klassik üslubda yazdığı qəzəllərlə başlamışdır. Yaradıcılığının ilk dövründə dünyəvi eşqi tərənnüm edən şair sonralar daha çox ictimai mövzulara müraciət etmişdir. Yaşadığı həyatdakı ziddiyyətlər, ölkədə baş verən ədalətsizliklər şairin şeirlərinə bir hüzn gətirmişdir.

Cavid poeziyasının lirik qəhrəmanı filosof xarakterli aşiqdir. Şairin idealı ilə real həyat arasındakı ziddiyyətlər, həqiqət axtarıcılığından yaranan lirik-fəlsəfi düşüncələr onun şeirlərinin başlıca məzmununu təşkil edir. Şair klassik üsluba müraciət etdiyi üçün yaradıcılığının birinci dövründə şeirlərinin dilində ərəb-fars tərkiblərinə rast gəlinir.

Sonrakı illərdə İstanbul təhsili, türk poeziyası ilə bağlılıq onun şeirlərində Anadolu şivəsinə məxsus ifadələri artırır.

Anadolu şivəsinin əlamətləri nəzərə çarpan şeirləri: **"Rəqs", "Pəmbə çarşav", "Uyuyur", "Ah, yalnız sən", "Keçmiş günlər"** şeir kitabında toplanan nümunələr və s.

İstanbul mühitindən ayrıldıqdan sonra şairin əsərlərində Anadolu şivəsinə məxsus əlamətlər azalmış və getdikcə təxminən aradan qalxmışdır.

H.Cavid həm klassik üslubda qəzələ, həm də aşıq şeiri tərzində qoşma və gəraylıya müraciət etmişdir:

"Get", "Könlümü" rədifli şeirləri, **"Hər yer səfalı, nəşəli"** şeirləri qəzəl, **"Xuraman-xuraman"** qoşma, **"Rəqs", "Uyuyur"** və s. şeirləri müxəmməs və müsəddəslərin müəyyən əlamətləri olan şeirlərdir.

H.Cavid yaradıcılığının ilk dövründə həmçinin fərdi üslub axtarışında olmuş, yeni formalı orijinal şeirlər yazmışdır.

Türkiyədə təhsil alarkən yazdığı **"Yadi-mazi", "Bir ahi-məzlumanə"** bu cəhətdən diqqəti cəlb edir. Bu əsərlərində müəllif klassik üslubla xalq şeiri üslubunu qovuşdurmuşdur. Şeirlər 4 misralı bəndlərdən ibarətdir və çox vaxt çarpaz qafiyələnir (*abab*). Bəndlərin arasında isə məsnəvi şəklində qafiyələnən klassik üslubda beytlər verilir:

Ey Vətən! Ey könül pərəstarı!
Var ümidim, qüsura bakmayasan.
Bizə tərcih edib də əğyarı,
Burakıb nari-hicrə yıkmayasan.

Səni bu hala saldı qəflətimiz,
Daha əhv et! Yetər nədamətimiz.

Sonrakı dövrlərdə də Cavid bu quruluşlu şeirlərə müraciət etmiş, **"Otuz yaşında", "Bir rəsm qarşısında", "Dəniz tamaşası"** şeirlərini də həmin formada yazmışdır.

H.Cavid həmçinin Azərbaycan şeirinə sonet, türkü, marş kimi yeni janrlar gətirmişdir. Şairin **"Mən istərim ki", "Çəkinmə, gül"** şeirləri italyan soneti formasında yazılmışdır.

Daha çox əruz vəznində yazan şair bu vəznin xəfif, həzəc, rəməl, müctəss, müzare, mütəqarib bəhrlərində şeirlər yazmış, həm də həzəcin yeni növünü (məsələn, "İblis" faciəsində) yaratmağa müvəffəq olmuşdur. Əruzşünaslar həmin növü "Cavid həzəci" adlandırırlar.

XX əsrin əvvəllərində heca vəznli şeirə yol açmaqla, Cavid bu vəznin Azərbaycan yazılı poeziyası üçün daha da doğmalaşmasına xidmət etmiş və heca vəznində müxtəlif şəkillərdə qiymətli şeirlər yazmışdır.

Orijinal təşbeh və metaforalar, epitet və təkrirlər, monoloq və dialoqlar Cavid şeirlərinin bədii gözəlliyindən xəbər verir:

Bu keşakeşdə möhtəşəm, məğrur,
Qoca, səksən yaşında bir sima;
Uca bir dağ möhnətilə vüqur,
Qoca bir türk edib namazı əda.
Vird oxur, Həqqə eylər ərzi-niyaz,
Bəlkə, dağ sarsılar, o sarsılmaz.

Bu nümunədə şair təbiətlə insanı müqayisə etmiş, Qara dəniz sahillərində təsvir etdiyi səksən yaşlı qocanın məğrurluğunu canlandırmaq üçün onu ulu bir dağa bənzətmiş, bədii obrazın dolğun poetik rəsmini çəkmişdir.

Monoloqlar Cavidin romantik şeirlərində qüvvətli poetik əlamətlərdir. Monoloqlar lirik qəhrəmanın duyğu və düşüncələrinin açılmasına imkan yaradır və şeirlərə fəlsəfi vüsət gətirir.

Başdan-başa monoloqlardan ibarət şeirləri: **"Sevinmə, gülmə, quzum", "Məyus bir qəlbin fəryadı", "Uyuyur", "Məzlumlar üçün", "Neçin".**

Dialoqlardan istifadə Cavid lirikasına süjet əlaməti verir.

Dialoqlar əsasında yazılan şeirləri: **"Qış məktəbində", "Öksüz Ənvər", "Çiçək sevgisi"**. "Qız məktəbində" Azərbaycan şeirində süjetli lirikanın ən gözəl nümunəsi sayılır.

– Quzum, yavrum! Adın nədir?
– Gülbahar.
– Pəki, sənin anan, baban varmı?
– Var.
– Nasıl, zənginmidir baban?
– Əvət, zəngin, bəyzadə...
– Öylə isə geydiyin geyim neçin böylə sadə?..

Şeirdəki poetik mükalimə Gülbaharın və onun timsalında Azərbaycan qızlarının nəciblik və ülviliyini mənalandırmağa xidmət edir.

Öksüz Ənvərlərin, kiçik sərsərilərin faciəsini görən şair təmizliyi, biliyi əsl zinət sayan, sadəliyi, zəngin mənəviyyatı ilə fərdiləşən Gülbahar obrazını romantik arzularının davamı, gələcək nəsillərə nümunə, mənəvi, əxlaqi dəyərlərin idealı kimi yaradır.

Şairin şeirlərindəki fəlsəfi ümumiləşmələr bəzən aforizm səviyyəsinə yüksəlir:

Yaşadan kainatı qüvvətdir,
Gücsüzün hər nəsibi zillətdir.
... Kim ki biganədir hüquqə, əvət,
Xain əllərdə məhv olur, əlbət.
... Yaşamaq istərsən, çalış, çabala,
Rəd olub gurla, bərq olub parla!

Bütün deyilənlər Cavid lirikasının novatorluğundan xəbər verir.

Poemaları. H.Cavid ilk poemalarını XX əsrin əvvəllərində qələmə almışdır. Müəllifin ilk poemaları lirik-romantik və ya romantik-fəlsəfi

məzmun daşıyır. Onların əksəriyyətində süjet əlamətləri və obrazlar yox dərəcəsindədir. Lirik-romantik monoloqlar əsasında qurulan bu poemaların əsas qayəsini həyata və insana romantik münasibət, fəlsəfi ümumiləşdirmələr təşkil edir.

"Bir ahi-məzlumanə" (1907) poemasında "künci-möhnətdə" bəlaya düçar edilmiş, "ayaq altında paymal olmuş" vətənin acı halına dərin təəssüf hisləri ifadə edən şair qeyrət və himmət göstərməyə çağırış motivlərini ön plana çəkmişdir.

"İştə bir divanədən bir xatirə" (1912) poemasında isə şairin lirik-romantik düşüncələri öz əksini tapmışdır.

"Hübuti-Adəm" (1913) poemasında Adəm peyğəmbərlə Həvvanın münasibətlərindən alınmış məqamın kiçik epik təsvirini verən şair nəfsin fəlakətləri ətrafında poetik mülahizələrini irəli sürmüşdür.

H.Cavidin ən kamil poeması **"Azər"** əsəridir. Bu poemanı H.Cavid 1926-cı ildə Almaniyada müalicə olunarkən yazmağa başlamış, 1928-ci ildə tamamlamışdır.

Əsərin əsas qəhrəmanı Azər real həyatdan alınmış bədii obrazdır. O, şairin müasiridir, daha doğrusu, Cavid özü Azərin proobrazıdır. "Azər" lirik-epik poemadır. Poemada vahid süjet xətti yoxdur. Əsər ayrı-ayrı hissələrdən ibarətdir. Bu hissələrdə Azər Qərbə və Şərqə səyahət edərək gördüklərini və fəlsəfi qənaətlərini təqdim edir. Azərin Qərbə və Şərqə səyahətləri zamanı müşahidələri, baxışları müəllifin şəxsi düşüncələrinin ifadəsidir. Müəllif Şərqlə Qərbi yaxınlaşdıraraq yeni tarixi mərhələdə sivilizasiyaları sintez etmək, inkişafın ən məqbul yolunu seçmək məqsədini izləmişdir. Poemada həmin ölkələrin fərqli xüsusiyyətlərinə diqqəti yönəldən müəllif mənsub olduğu xalqı və ölkəni mədəni millətlərin cərgəsində görmək arzusu ilə oxucusunu düşündürür, seçim qarşısında qoyur.

Əsərdə H.Cavid Azərbaycanda qurulmuş yeni cəmiyyətə də öz münasibətini ifadə edir. "Səlmanın səsi", "İnqilab xırsızı", "İsyan" bölmələrində yeni cəmiyyətin dərki məsələləri önə çəkilir. Səlmanın dilindən deyilən:

Hər gülşənə vardım, çiçəklər güldü,
Sevdalı bülbüllər salama gəldi...
Susmuş kamançalar ilhama gəldi –

kimi nikbin misralar şairin yeni cəmiyyətə yaxşı tərəfdən baxmaq niyyətindən irəli gəlir.

Bununla bərabər, H.Cavid cəmiyyətin mövcud ziddiyyətlərindən xilas olmaq zərurətini də nəzərə çarpdırırdı. "İnqilab xırzısı" bölməsində şura sədrinin törətdiyi özbaşınalıqların təsviri buna misal ola bilər. "İnqilab kürkünə girmiş" şura sədrinin alova bürünmüş evini göstərməklə şair əslində yeni quruluşun yaşamasının mümkünsüz hala düşdüyünü ifadə etmək istəmişdir. Şura sədrinə aid edilən "Balıq başdan qoxarmış" qənaəti, şübhəsiz, həmin cəmiyyətin yuxarı təbəqələrinin mənəvi-siyasi iflasına işarə idi. Epiloq kimi düşünülən "Üsyan" bölməsindən verilən aşağıdakı misraları heç də yeni quruluşun təsdiqi mənasında deyil, gəncliyin quracağı daha işıqlı, daha qüsursuz gələcəyə inam kimi mənalandırmaq olur:

Bu gün gəncliyə baksan,
Bir sel kimi hər an
Sağlam, yeni məfkurələr izlər.
Bizlər?
... Bizlər yeniləşsək belə, daim,
Bir əskilik az-çox bizə hakim...
... Onlar qoşacaq, çırpışacaqlar,
Bir çox uçurumlar aşacaqlar.
Lazımsa cəhalətlə güləşmək,
Bir çarə var: ancaq yeniləşmək!
Onlardakı himmət və mətanət
Qırmaclayacaq Şərqi nihayət.
Onlardakı qüdrət və məharət
Er-gec verəcək xalqa səadət.
... Onlar güləcək, güldürəcəklər,
Bizdən daha çox gün görəcəklər!

H.Cavidin poemaları Azərbaycan ədəbiyyatında romantik-fəlsəfi poemanın inkişafında mühüm rol oynamışdır.

Dramaturgiyası

H.Cavidi ədəbiyyatımızda daha çox məşhurlaşdıran dramatik əsərləri olmuşdur. O, Azərbaycan romantik mənzum dramaturgiyasının, mənzum faciə janrının yaradıcısı və banisidir.

Ədibin ilk dramatik əsəri **"Ana"** mənzum faciəsidir (1910). Mövzusu Dağıstan həyatından alınmış əsərin əsas qəhrəmanı Səlma anadır. Yeganə oğlu Qanpolad İsmət adlı çərkəz qızına nişanlıdır. Bu qıza könül salan Orxan Qanpoladı qarşısında maneə kimi görür. İsmət kasıb ailəni təmsil edən Qanpolada sadiq qalaraq Orxanı, onun cah-cəlalını rədd etdiyi üçün Orxan dostu Muradın vasitəsilə Qanpoladı öldürtdürür. Murad kimliyini bilmədən Səlma ananın evinə sığınır. Dərin sarsıntı keçirən Səlma ana sığınacaq verdiyi şəxsin oğlunun qatili olduğunu bildikdə böyük insanlıq və humanizm naminə qəlbindəki qəzəbə, inqitam hissinə qalib gələrək, Muradı evindən uzaqlaşdıraraq deyir:

Get, namərd qonaq, get! Alçaq mültəci!
Get, miskin hərif, get! Cəllad, yırtıcı!
Get, vicdansız, kəndini qurtar, yaşa!
Ancaq vicdansızları bəslər dünya!
Get, gözüm görməsin! Uzaqlaş, dəf ol!
Nə haqsızlıq etdinsə, Allahdan bul!
Get, çəkil get! Dinsiz, allahsız xain!
Murdar izin bu torpaqdan silinsin!

Xalq adət-ənənəsinə dərin və möhkəm etiqad – qonağa, sənə pənah gətirənə hörmət Səlma anamı intiqam hissindən uzaqlaşdırır.

Humanist duyğuların mücəssəməsi olan ana hər cür alçaq, qeyri-insani hislərdən yüksəklərdə duraraq hətta caniyə belə dərs verir. Qafqaz xalqlarının adət-ənənəyə sədaqəti Səlma anamı insanlıq zirvəsinə yüksəldir. Övladının qatilini bağışlamağı bacaran Səlma surəti dünya ədəbiyyatı üçün təkrarsız bədii obraza çevrilir.

Göründüyü kimi, humanizm, bəşərilik, ümumi məhəbbət və mərhəmət ideyaları H.Cavidin elə ilk dramatik əsərində də aparıcı xətt olmuşdur.

H.Cavidin ikinci pyesi olan "Maral" (1912) nəsrlə yazılmış faciədir. Ailə-məişət planında yazılmışdır. Mövzusu Dağıstan həyatından alınmış

bu əsərdə pulun, sərvətin cəmiyyətdə törədə biləcəyi bəlalar əks etdirilir. Dünyanın bütün səadətini pulla ala biləcəyi fikrində olan Turxanbəy yaşca çox kiçik olan Maralı altun gücünə özünə arvad etmişdir. Sərvət içində nisgilli tale yaşayan Maral ər evində dustağa çevrilir. Ərinin gənc qohumu Arslanbəyə təmiz sevgisi ona fəlakət gətirir. Turxanbəyin Maralı vəhşicəsinə öldürməsi həmin cəmiyyətdə azad sevgiyə, saf mənəviyyata yer olmadığı qənaətinə gətirib çıxarır.

Əsərdə Nadirbəy – Turxanbəy xətti cəmiyyətdə yenilik və köhnəlik arasında gedən proseslərin çətinliyini təqdim edir. Turxanbəy Nadirbəyin mənəviyyat, tərbiyə, sağlam düşüncə haqqındakı fikirlərini qəbul etmir. Turxanbəyin oğlu Cəmil də atasından fərqlənir, məhəbbəti, səadəti hər şeydən uca tutur. Cəmilin mənəvi dəyərləri qarşısında Turxanbəy miskin görünür.

H.Cavid Cəmillə Humay arasındakı qarşılıqlı məhəbbətə rəğbətini ifadə etməklə yeniliyin köhnəlik üzərində qələbə çalacağına ümid və inam hislərini ifadə edir.

H.Cavid yaradıcılığının ilk mərhələsində yazılmış ən məşhur əsəri **"Şeyx Sənan"** (1914) mənzum faciəsi Azərbaycan dramaturgiyasının şah əsərlərindən biridir.

Əsər dini-əfsanəvi şəxsiyyət olan Sənanın məhəbbəti ilə insanın mənəvi ucalığa yüksəlməsi haqqında yazılmış dramatik uvertüra təsiri bağışlayır. Əsərdə saf, əsl eşqin dini etiqad üzərindəki təntənəsi, hər cür buxovları qırmaq qüdrəti nümayiş etdirilir.

Görkəmli din xadimi Şeyx Kəbirin ölümündən sonra Şeyx Sənan müridlərin önündə gedən mürşid olur. İslam dinini yayan Quranı təbliğ etmək niyyəti ilə uzaq səfərə çıxaraq Gürcüstana gəlir. Burada rastlaşdığı dərviş onu sarsıdır. Dərvişin dediyi:

Din bir olsaydı yer üzündə əgər,
Daha məsud olurdu cinsi-bəşər –

misraları Şeyx Sənanı düşündürür.

Daima xəyalında canlanan Xumarı real həyatda gördükdən sonra qarşısına qoyulan maddi tələblərə gülür. Bütün bunların onun qəlbindəki Tanrı eşqini silə bilməyəcəyini nümayiş etdirir. Maddiliyi deyil, mənəvi bütövlüyü ilə Xumarı da öz etiqadına inandırır. Şeyx Sənanın saf etiqadı

məhz onu hər cür təqiblərdən qoruyur. Allah, haqqın özü onun mühafizəçisi, qoruyucusudur. H.Cavid bəşərin fövqündə duraraq insanın mənəvi dəyər və kamilliyinin ayrı-ayrı dini etiqadlarla deyil, ulu tanrıya sidqi-ürəklə bağlı olması ilə ölçüldüyü fikrini aşılayır. Əsərdə Şeyx Sənanın dilindən deyilmiş aşağıdakı misralar ülvi, uca eşqin Tanrı eşqinə bərabər olduğunu isbat edir:

Kim ki eşq atəşilə oldu hədər,
Onu yandırmaz öylə atəşlər.
Bəni öldürsələr də, bən yaşarım,
Tərk edib xəlqi xaliqə qoşarım.
Əbədiyyət bənim məzarımdır,
Çünki sultani-eşq yarımdır.
Eşq üçün can nisan edən ərlər
Əbədi bir həyat içində gülər.

İndi Şeyx Sənana insanları dini əqidələrinə görə ayıran, onları parçalayan din yox, birləşdirən din gərək olur. Dini mənsubiyyətindən, sinfindən asılı olmayaraq, hamı ən böyük mürşidin –Allahın müridləri olmalıdır. Şeyx indi məhz belə bir dinin təmsilçisi kimi çıxış edir.

Bakı mətbəə işçilərinin həyatından bəhs edən **"Şeyda"** (1916) pyesi də nəsrlə yazılmış faciədir. Cavid digər dram əsərlərindən fərqli olaraq, bu əsərdə realist, həyati məsələlərə geniş yer ayırmışdır. Əsərdə ağır həyat, azadlıq düşüncəsi önə çəkilir. Mətbəə işçisi Şeydanın azadlıq arzusu ilə çıxış etməsi, fəhlələrə öz hüquqlarını başa salması dramaturqun ictimai mübarizə haqqındakı qənaətlərini ifadə edir. İnqilab ruhlu marşları fəhlələr arasında oxunduğu üçün işdən qovulan, həbs edilən Şeyda Rəmzinin ruh düşkünlüyünə qapılması, dərvişvari həyat keçirməsi mübarizənin axıra çatdırılmasına imkan verməyən bir amil kimi dəyərləndirilir.

Qardaşı vərəm xəstəliyindən ölən, ağır iş şəraitində qolunun birini itirən, meydanda tək qalan Qara Musanın intiqam hisləri də cəmiyyəti irəli apara bilmir. Beləliklə, "Şeyda" pyesi real mübarizə yollarını tapa bilməyən insanların faciəsini ümumiləşdirir.

"Uçurum" (1919) mənzum faciəsi ilə H.Cavid yaradıcılığının birinci mərhələsi başa çatır. Mövzusu Türkiyə həyatından alınmış bu əsərdə öz ailəsini, körpəsini buraxıb fransız qızı Anjelin dalınca Parisə gedən

Cəlalın – türk rəssamının mənəvi-əxlaqi iflasa uğraması təsvir olunmuşdur. Dramaturq süni avropalaşmanın, yad təsirlərin milli mənəviyyata vurduğu zərbəni və bundan doğan faciəni ümumiləşdirmişdir.

H.Cavidin Sovet hakimiyyəti illərində yazdığı ilk dram əsəri **"Afət"** (1922) də, "Şeyda" kimi, nəsrlə yazılmış faciədir. Bu əsərin də mövzusu Türkiyə həyatından alınmışdır. Burada kübar cəmiyyətin meşşan əxlaqının mənəvi puçluğu açılıb göstərilmişdir. Afət doktor Qaratayın yalan vədlərinə aldanaraq kobud, mənəviyyatca kasıb olan əri Özdəmiri öldürür. Mənəvi böhran keçirən Afətin daha sonra özünü məhv etməsi meşşan həyata alışan kübar cəmiyyətin faciəsi kimi verilir.

H.Cavid yaradıcılığında mənzum **"Peyğəmbər"** (1923) və nəsrlə yazılmış **"Topal Teymur"** (1925) əsərlərinin özünəməxsus yeri var. Hər iki əsər faciə yox, dramdır və tarixi məzmun daşıyır. Müəllif bu əsərlərdə tarixə müasir mövqedən yanaşmışdır. Əsərlər dövrün ədəbi tənqidi tərəfindən mövcud cəmiyyətlə bağlı yozulduğundan H.Cavid müəyyən çətinliklərlə qarşılaşmışdır. Cavid Teymurləng kimi fatehi və Məhəmməd peyğəmbəri ideallaşdırmaqda günahlandırılmışdır. "Topal Teymur"da, bir tərəfdən, tiranlığı əks etdirən H.Cavid, digər tərəfdən, Topal Teymuru dünyaya hökmranlıq edən türkün qəhrəmanına çevirir. H.Cavid iki türk bahadırının – İldırım Bəyazidlə Teymurləngin toqquşmasını türk dünyasının faciəsi kimi təqdim edir. Türkün böyüklüyünü, gücünü göstərməyə çalışan ədib gənc nəsli tarixdən dərs almağa – birləşməyə, zərbəni bir zindana vurmağa çağırır.

"Peyğəmbər"də isə müəllif insanın müqəddəsliyə yüksəlməsini əks etdirmişdir. İslam əqidəsi uğrunda mübarizəsindəki əzmkarlığı, dönməzliyi, mənəvi bütövlüyü və Allah eşqi Məhəmməd Peyğəmbəri müqəddəslik zirvəsinə qaldırır. Hər iki əsərdə dramatik vasitələrlə yanaşı, təhkiyə və təsvirlərə də yer verildiyi üçün onların səhnəyə qoyulması çətinləşir. "Peyğəmbər" dramı bütövlükdə səhnə üçün nəzərdə tutulmamışdı.

"Knyaz" (1929) mənzum faciəsində Cavid müasirliyə, şübhəsiz, daha yaxın idi. Əsərdə gurlayan inqilabın nəticəsində Avropaya qaçan zadəgan nəslin mühacir həyatı və faciəsi Knyazın və onun ailəsinin timsalında öz əksini tapır.

Knyazın zorla özünə arvad etdiyi kəndli qızı Jasmenin qulluqçuları Marqonun oğlu bolşevik Antonu seçməsi və ona qovuşması haradasa azad sevginin görüntüsü kimi səslənsə də, Knyazın, xüsusilə də Knyazın qızı məsum Lenanın faciəsi inqilabın bəzən günahsız insanların qəlbində sarsıntılar yarada biləcəyi qənaətini ümumiləşdirir.

İran şairi Əbülqasım Firdovsinin anadan olmasının 1000 illik yubileyi münasibətilə keçirilən müsabiqədə iştirak edən H.Cavid 1933-cü ildə **"Səyavuş"** mənzum faciəsini yazdı. Əsər Firdovsinin "Şahnamə" dastanının motivləri əsasında yazılmışdır. Ədib Firdovsidən fərqli olaraq, heç də İran-Turan qarşıdurmasını təsvir etmək niyyətində olmamışdı. Dramaturq bu faciədə insanlar arasındakı münasibətlərin yaxşılaşdırılması yolundakı maneələrin aradan qaldırılmasından söz açmışdır. Sülh, əmin-amanlıq, doğruluq, ədalət, barışıq tərəfdarı olan Səyavuşun, eləcə də Firəngizin – Turan hökmdarı Əfrasiyabın qızının timsalında H.Cavid insanları humanizmə, paklığa və nəcibliyə səsləmişdir.

H.Cavid 1935-ci ildə yazdığı **"Xəyyam"** mənzum dramının mövzusunu böyük şair və mütəfəkkir Ömər Xəyyamın həyat və fəaliyyətindən almışdır. Xəyyamın həyata ayıq münasibəti, həyat eşqi Cavidə sənətkar və cəmiyyət probleminə münasibətini ifadə etmək üçün zəmin yaratmışdır. Yalnız Alp Arslan və onun oğlu Məlikşah kimi böyük türk hökmdarlarının yaratdığı münbit mühitdə Xəyyam kimi sənətkarların yetişə biləcəyi qənaəti əslində sovet dövründə rejimə, repressiyaya bir işarə idi. Xəyyamın timsalında Cavidin yaradıcılıq qayəsinə, əqidəsinə sədaqəti öz əksini tapırdı.

"İblisin intiqamı" (1936) pyesi nəsrlə yazılmışdır. Burada H.Cavid vaxtilə yazdığı "İblis" əsərinin (1918) əsas qəhrəmanlarının – Arifin, Rənanın sonrakı həyatı fonunda bir ideal, humanizm axtaran insanların yolunu izləyir. Böyük dramaturq bir daha bu qənaətə gəlir ki, yalnız yüksək mənəviyyatla, ədalətli və humanist qüvvələrin bir məqsəd naminə birləşməsi yolu ilə İblislərə, iblisləşməyə qalib gəlmək olar.

"İblis" faciəsinin təhlili

"İblis" (1918) mənzum faciəsi şərə qarşı qüvvətli etirazın ifadəsi olan Cavid dramaturgiyasının ən dəyərli əsərlərindən biridir.

Müəllif XX əsrin əvvəllərində gedən ictimai-siyasi proseslərin fəlsəfi nəticələrini ümumiləşdirərək, bu əsərdə:

a) bir tərəfdən, müharibə və onun yaratdığı fəlakətləri;

b) ikinci bir tərəfdən, müharibəni yaradan səbəblər və onun faciəsini;

c) üçüncü bir tərəfdən, bütün yaradıcılığı boyu onu narahat edən türk dünyası və bəşəriyyətin faciəsi haqqında fəlsəfi düşüncələri ön plana çəkir.

Əsərin əsas surətlərindən biri Arifdir. Bu obrazla müəllif romantik bir şəkildə, bir tərəfdən, insanların iblisləşməsini, digər tərəfdən, türk xalqlarının, Şərq dünyasının fəlsəfi düşüncə tərzini ümumiləşdirir.

Əsərin əvvəlində kiçik ikən İstanbulda evi yanan, nəsli məhv olan, kiçik qardaşı Vasifdən ayrı düşən Arif gələcəyə şübhə ilə yanaşır. Mühiti ilə arzuları arasında uçurum görən bu obraz daha çox hissə qapılır. Mühiti dəyişdirmək gücünü özündə görmədiyindən cəmiyyətdən uzaqlaşır. Bəşəriyyətin, insanlığın zülm, şər qüvvə əlində çeynəndiyini gördükcə göylərə, Allaha xitab edir:

İnsanları xəlq etmədə var, bəlkə də, hikmət,
İblisə nə hacət?

Bu sual şərə, İblisə bir etiraz kimi səslənir. Əsərin əsas konflikti də buradan başlayır.

Arifin ittihamından qəzəblənən İblis həqiqəti göstərmək, İblisin, iblisliyin insanların xislətində olduğunu sübut etmək üçün səhnəyə atılır.

İblis ayıq şüur sahibi olduğundan soyuq mühakimələri ilə diqqəti cəlb edir. Qədim məhəbbət fəlsəfəsi ilə yaşayan hissiyyatlı, xəyalpərvər şərqlinin zəif damarından yapışaraq onu məhvə sürükləyir. Rəna səhnəyə çıxana qədər Arifin faciəsi şəxsi mahiyyət daşımır, ümumidir. Lakin Rənaya məhəbbəti mənəvi dəyərləri məhv edir. İblisin təsiri ilə "nəfsiləim", maddi ehtiras Arifi dəyişdirir. Yaşadığı mühitin çirkabına girir, caniyə çevrilir. Yol yoldaşı olduğu yəhudini, Xavəri və rəqib gözündə

gördüyü qardaşı Vasifi öldürür. Müəllif Arifin timsalında insanın iblisləşə bildiyini göstərir. Nəfsinə sahib ola bilməyən insanın maddilik ucbatından iblisliyə sürüklədiyini açıqlayır.

Arifə qarşı qoyulan İblis mürəkkəb obrazdır. İblis əsərin əvvəlində Mələklə qarşılaşdırılarkən, təbii ki, şər bir qüvvə kimi təqdim olunur. Mələyin dili ilə "İblisəmi uymuş bəşəriyyət?" ittihamına etiraz olaraq İblis bütün fəlakətlərin səbəbinin insanda, onun daxilindəki nəfsdə olduğunu söyləyir. Bu fikir əslində əsərin əsas fəlsəfi mahiyyətidir.

İblis, bir tərəfdən, Arifi cinayətə sürükləyən şər qüvvə, ikinci bir tərəfdən, Arifin yatmış şüurunu oyadan, əsl həqiqəti göstərən qüvvədir. Bu mənada, haradasa ifşaçı obrazdır.

"Qüvvətə, altuna tabe dünya", - deyən İblis nəfsini təmin etmək üçün hər cür cinayətlər törədən əsl iblisliyin insanın xislətində olduğunu qabardır:

Siz nə qədər məndən uzaqlaşsanız,
Yerə yox, əflakə uçub qaçsanız,
Qarşılaşıb birləşiriz daima,
Ayrı deyil, çünki biriz daima.

İblis gözüaçıqdır, realistdir, soyuq mühakiməyə, ağıla söykənir. Arif isə gözübağlıdır, idealistdir, hissə qapılır.

Cavid hər iki qəhrəmanın mənfi cəhətlərini açmaqla, onların heç birinə bəraət qazandırmır. Bəlkə də, Şərq və Qərb fəlsəfəsini qarşılaşdıraraq çıxış yolunu Elxan obrazında tapır. Cavidə görə, insanların səadəti ağıl və qəlb arasında olan ahəng və uyğunluqdadır. Görünür, qəlbi və ağlı ilə yaşayan Elxan Cavidin türk dünyası üçün arzuladığı simadır. Elə buna görə də onun ədalət məhkəməsində bəşəriyyətin səadətinə mane olan qüvvələr önə çəkilir və məhvə məhkum edilir. Papaslar, xaxamlar, İbn Yəmin, şeyxlər, xəstə qadın və uşaq rəmzi surətlərdir. Müharibə törədiciləri, faciələr yaradan qüvvələrin məhvi üçün Elxanlar labüddür.

Əsərdəki qadın surətləri Rəna və Xavər müəllifin sevərək yaratdığı obrazlardır. Hər ikisi müharibənin, şərin qurbanıdır.

Vasif vəzifə borcunu ləyaqətlə yerinə yetirməyə çalışan türk zabitidir. Türkün mədəni inkişafına üstünlük verən bu gənc zabit də sonda şərin qurbanına çevrilir.

Cavidin sonda gəldiyi nəticə budur ki, İblislər öz nəfsinə məğlub olan insanlardır. Nə qədər ki onlar var, bəşəriyyət rifah və səadətə çata bilməz.

H.Cavid əsərin sonunda İblisin öz dili ilə deyir:

İblis nədir? Cümlə xəyanətlərə bais.
Ya hər kəsə xain olan insan nədir?
– İblis!

Faciə İblisin monoloqu ilə başlayıb, onun monoloqu ilə də bitir.

H.Cavid "İblis" faciəsində böyük məhəbbətlə ifadə etdiyi dünyəvi fikirlərinə görə bəşəri sənətkar səviyyəsindədir.

"İblis" əsəri əruz vəznində çox yüksək poetik vüsətlə yazılmışdır.

"İblis" faciəsi ilk dəfə 1920-ci ildə Bakıda tamaşaya qoyulmuşdur.

Əsər hər dövr üçün aktual və müasirdir.

"İblis" əsərinin məzmunu

I pərdə

Hadisələr avqust ayının ikinci yarısında Bağdad yaxınlığında cərəyan edir. Müharibələrə nifrət edən, ondan qaçan Arif İxtiyar Şeyxin qülbəsinə sığınmışdır. Ətrafda müharibə dəhşətləri təsvir olunur. Qülbənin iki pəncərəsindən İblis və Mələk görünür.

İblis ətrafda baş verən dəhşət və cinayətlərin səbəbinin insan olduğunu bildirir. Həm də buna sevinir. Mələk isə İblisi günahlandırır, fəlakətlərin kökünü insanların İblisə uymasında görür. Arif çaşqın bir vəziyyətdə Allaha xitab edir. Yer üzündə baş verən ziddiyyətlərin səbəbini aydınlaşdırmaq istəyir:

– İnsanları xəlq etmədə var, bəlkə də, hikmət,

İblisə nə hacət? – deyə soruşmaqla Arif İblisi qəzəbləndirir:

– Arif! Mana bax, sən də mi övhamə qapıldın?

Biçarə cocuq, sən də mi İblisə taqıldın? – deyən İblis Arifi bir gün özünə kölə edəcəyinə söz verir. Çaşqın vəziyyətdə qalan Arif İxtiyar Şeyxdən kömək istəyir. İxtiyar Şeyx ona bildirir ki, qəlbindəki nifrət və

qəzəbi boğsun, vəhşilikləri unutsun. Arif isə bunun mümkün olmadığını fikirləşir.

Arifin gözünə İblis görünür. Ona həqiqəti anlatmağa gəldiyini bildirir. Arif onu bir zülmət kimi özündən uzaqlaşdırmağa çalışır. İblis isə onun yanıldığını, bir atəş olduğunu, atəşsiz nurun olmadığını, Zərdüştün fəlsəfəsinin də atəşə söykəndiyini söyləyir.

Arifə yaxınlaşan Xavər onu sakitləşdirmək istəyir. Arif Xavərin timsalında keçmiş xatirələrinə, əslində Rənanı yada saldığına işarə edir.

Elə bu vaxt İxtiyarla bərabər, İbn Yəmin, Rəna, zənci çavuş və bir əsgər gəlir. Ərəb zabiti olan İbn Yəmin əslində Rənanın atasının qatilidir. Onu aldadaraq özü ilə guya yara sarımağa aparır və inandırır ki, atasının qatilini tapacaq. Arif Rənanı gördükdə heyrətlənir. Arifl Rənanın bir-birini tanıması İbn Yəmini narahat edir.

Arif İbn Yəmindən haradan gəldiyini soruşduqda, o, hərbdən – müharibədən gəldiyini bildirir. Arifin:

"Bir fəzilətsə öldürüb-ölmək,

Canavar bizdən əşrəf olsa gərək" – fikrinə İbn Yəmin etiraz edir. Həyatın bir mübarizə olduğunu, yaşamaq üçün çarpışmağın vacibliyini deyir.

Rəna İbn Yəminə Arifin istanbullu olduğunu, müharibələr nəticəsində evlərinin yandığını, nəslini itirdiyini, qardaşı Vasifin qeyb olduğunu söyləyir.

Çavuş İbn Yəminə Arifin onlar üçün əngəl ola biləcəyini eşitdirir. Onlarla gələn əsgərin Rənanın atasının qatilinin kim olduğunu bildiyi üçün sirrin açılma təhlükəsindən danışır. Onlar oradan uzaqlaşmalı olurlar.

Arif İbn Yəminlə çavuşun söhbətini eşidir və Rənanı getməkdən çəkindirmək istəyir. Rəna isə atasının intiqamını almadan yaşamağın mümkünsüzlüyünü bildirir. İbn Yəminin ona kömək edəcəyini deyir. Rəna Arifin təkidinə baxmayaraq, burada qalmır, İbn Yəminlə gedir.

Bu zaman Rənanın ardınca gələn Vasif dostu kiçik zabitlə rus zabitini yaralı əsiri gətirir.

İxtiyar Şeyx və Xavər yaralı zabitə yardım göstərirlər. Arif bu hadisədən məmnun qalaraq:

Həp şu xislətdə olsa cinsi–bəşər,

Heç görülməzdi bunca vəhşətlər, – söyləyir.

Kiçik zabit Vasiflə söhbət zamanı türk ordusunun qarşısında rus ordusunun geri çəkildiyi məqamda "milləti şəxsiyyətə satmaq olmaz" deyərkən Vasif türk dünyasına qılıncdan daha vacib doğru siyasət və mədəniyyətin kömək edəcəyini bildirir. Vasif kiçik zabitlə Rənanı xain İbn Yəmindən xilas etmək üçün onların getdiyi tərəfə yollanır. İblis yenə də Arifin gözünə görünür. Onu Rənaya çatmağa çağırır. Arif həm öz istəyi, həm də İblisin təkidi ilə Rənanın ardınca getməli olur.

II pərdə

Ərəb zövqünə uyğun bir salon. İblis xidmətçi ərəb qiyafəsində. İbn Yəmin ziyafət təşkil edib. Guya Rəna ilə nikaha girmək istəyir. Rəna xidmətçidən – İblisdən İbn Yəminin niyyətini öyrəndikdə qəzəblənir, onun cinayətlərini açacaq sənədləri götürmək üçün otağa keçir.

Elə bu vaxt Arif də gəlib çıxır. Arif Rəna ilə görüşmək istədiyini bildirdikdə İblis bu işin altunsuz və silahsız mümkün olmadığını deyir. Geri qayıdan Rəna İbn Yəminin cinayətlərini açacaq sənədləri Arifə verir. Arif jandarmları gətirib İbn Yəmini həbs etdirir və özü də jandarmlarla gedir. Bu məqamda Vasif gəlib çıxır və Rənanı oradan uzaqlaşdırır. Sonradan geri qayıdan Arif Rənanın bir zabitlə getdiyini İblisdən eşidib həyəcanlı bir halda onları təqib edir. O, İblisin ucbatından içkili vəziyyətdədir.

Qeyd. Sonradan məlum olur ki, İbn Yəmin jandarmların əlindən qurtara bilib.

III pərdə

İxtiyar Şeyxin qülbəsi görünür. Xavər yaralı əsirlə söhbət edərkən iki türk zabiti gəlir və onlar yaralı zabiti casus zənn edirlər. Yaralı əsir kazanlı bir türk olduğunu, ancaq məcburiyyət üzündən rus ordusunda vuruşduğunu bildirir.

Türk zabitləri qəzəblənirlər. Türk olaraq türkə atəş açdığı üçün onu öldürmək istəyirlər. Yaralı əsir onlara əziyyət vermədən özünü öldürmək istəyir. Ona mane olurlar.

Bu zaman bir ərəb zabiti sevinclə bura gələrək ingilislərin İstanbulu ələ keçirdiyini bildirir. Onun sevindiyini qəbul edə bilməyən yaralı zabit ərəb zabitini öldürür. Bu, türk zabitlərinin xoşuna gəlir. Kazanlı türkü yoldaş kimi qəbul edib birlikdə döyüş meydanına yollanırlar. Hadisəni müşahidə edən Xavər və İxtiyar Şeyx dəhşətə gəlirlər. Xavər əhli-aləmin İblisə uyduğunu söyləyir.

İblis abid qiyafəsində görünür. Vasiflə Rəna təlaş içində gəlirlər. Rəna Xavərdən sığınacaq istəyir.

– Aldınsa da, Arifi əlimdən,
Hər yardıma iştə hazıram mən, – söyləyərək Xavər onu qülbəyə aparır.

İblisin təsiri ilə Rəna zirzəmidə gizlənir, Vasif meşəyə üz tutur. Bu vaxt Arif gəlib çıxır. Xavər onu vəfasızlıqda günahlandırır.

Xavər babasını çağırmağa getdikdə Arif əlindəki rakı şüşəsini başına çəkib kənara atır. Gözünə ilişən tapançanı (bu, öldürülən ərəb zabitinin silahıdır) yerdən götürüb, qurşunlarını yoxlayır. Bu zaman İblis yenə onun gözünə görünür və Rənanın yerini ona göstərir. Arif İblisin ayaqlarına qapanır. Geri gönən Xavər Arifə mane olmaq istəyir, ona alçaq hərəkət etdiyini deyir. Əsəbiləşən, həm də içkili olan Arif qeyri-iradi olaraq Xavəri boğub öldürür. Rənanı götürüb oradan uzaqlaşır.

İxtiyar Şeyx gəlir. Xavərin cənazəsini görüncə fəryad qoparır. Vəhşiləşmiş insanlara nifrət yağdırır, göylərə xitab edir, göz yaşı tökür. İbn Yəmin bura gəlib çıxır. Onu məhv etmək istəyənləri axtarır. Elə bu vaxt Xavərin meyitini görür. Bu cinayətin səbəbini İblisdən soruşur. İblis cinayətkarın Rənaya uyan bir səfil olduğunu və buradan uşaqlaşıb qaçdığını bildirir.

IV pərdə

Arifllə Rəna Elxanın olduğu yerə – meşəyə gəlib çıxırlar.

Rəna təlaş içindədir. Arif onu sakitləşdirir. Söyləyir ki, təlaşa ehtiyac yoxdur, çünki yanında həm silah, ərzaq, həm də altun var. Rəna sərvəti

haradan tapdığını soruşduqda Arif cavab verir ki, zəngin bir yəhudi pəncəsində həlak olduqda bu sərvət ona qalmışdır. Bu zaman haydutlar onlara hücum edib, qızılları tələb edirlər. Vaxtilə türk zabiti olan, indi qaçaq düşən Elxan ağaclar arasından çıxıb onları xilas edir. Haydutlara söyləyir ki, kim haqsız qan tökərsə, ağır cəza alacaq. Arif Elxandan kim olduğunu soruşur. Elxan indi qaçaq əsgər olduğunu, vaxtilə bir ərəb zabitinin xəyanətini açarkən həmin zabitin ona ləkə vurub asdırmaq istədiyini, nəticədə ordunu buraxıb meşələrə çəkildiyini söyləyir.

Elə bu vaxt haydutlar İbn Yəmini gətirirlər. Elxan onu tanıyır. Onu asdırmaq istəyən ərəb zabitinin məhz İbn Yəmin olduğunu söyləyir. Yenə İblis gəlir, Ariflə Rəna onun əlini öpürlər.

Elxan onu abidə bənzətdikdə İblis gah abid, gah rahib, gah qazi, gah mürşid, bəzən də papa olduğunu bildirir, hətta İsa dirilib gəlsə belə, onun qəzəbindən qurtaracağını söyləyir. Qiyafəsini çıxarıb İblis kimi göründükdə Arif ondan qorxur və uzaqlaşır.

İxtiyar Şeyx gəlib fəryad edir, intiqam istəyir.

Elxan:

Tanrı olsaydım əgər gerçəkdən,
Ya bu insanları xəlq etməz idim,
Əgər etsəm, yaşadardım daim
Şadu məsud, – deyir.

İblis ona belə düşünməklə aldandığını söyləyib yekrəng yaşayışın mənasız olmasını bildirir.

Vasif İbn Yəminin çavuşu ilə gəlib çıxır. Elxan İbn Yəmini nə üçün izlədiyini soruşduqda Vasif İbn Yəminin Rənanın atasının qatili olduğunu söyləyir. Bunu İbn Yəminin şübhələndiyi əsgərdən öyrəndiyini deyir. Rəna İbn Yəmini öldürmək istədikdə Elxan mane olur, məsum əllərin qana batmasına razı olmur.

Qaçaqlar bu zaman bir papas, bir xaxam, bir iranlı şeyx və on yaşlı uşağı ilə bir xəstə qadın gətirirlər. Elxan bunların kim olduğunu soruşduqda növbətçi onlar haqqında məlumat verir:

– Papas –ermənidir, Ermənistana "İncil" adı ilə silah daşıyır.

Xaxam – Yəhudi, fransız casusu.

Şeyx–ingilis dəllalı, iranlı, heybəsində altun, sərvət.

Xəstə qadın isə Kərbəlaya uşağının dərdinə çarə tapmağa gedir.

Bu vaxt İblis özünü saxlaya bilməyib deyir:

Dərdə bax, niyyətə bax, millətə bax.

Ölülərdən ölülər feyz alacaq.

Elxanın göstərişi ilə İbn Yəmin, papas, xaxam, iranlı şeyx, xəstə qadın və uşaq güllələnirlər. Elxana görə, dünya bir ahəngdə olmalıdır. Gözəllik və çirkinlik yanaşı mövcud ola bilməz.

Rənanı xilas etdiyi üçün Vasif Arifə təşəkkür edir. Arif bunun borcu olduğunu söyləyir. Ariflə Vasif arasında mübahisə düşür. Elxan Rənanı dinləməyi təklif edir.

Rəna: Arif mənim ilk pərəstişkarım. Vasif isə ən yeni bir dildarımdır. Tanrımla əhdim var. Babamın qatilini kim tapsa, o, məni məmnun edəcək, mən onun olacağam, – söyləyir.

İblis Arifi və Vasifi qızışdırır. Onlar mübahisəni duellə həll etmək qərarına gəlirlər. Arif atəş açıb Vasifi öldürür. Rəna Vasifin meyitini görüb həyəcanla, böyük ağrı ilə onun adını çəkdikdə Arif özü bilmədən qardaşının qatili olduğunu anlayır. İblis Arifin bir qıza vurulmaqla içki düşkünü olduğunu, qatilə çevrildiyini söyləyir. Hamı İblisi günahlandırır, ona hücum edir. İblis isə onları tərk edərək deyir ki, artıq ona ehtiyac qalmamışdır, bu dünyada əsl iblislər onsuz da çoxdur:

– İblis nədir? Cümlə xəyanətlərə bais ...

Ya hər kəsə xain olan insan nədir?

– İblis! ...

Arif və ətrafdakılar çaşqın bir vəziyyətdə qalırlar.

A variantı

1. H.Cavidin həyat və yaradıcılığı ilə bağlı ***səhv*** cavabı göstərin.
   A) "Qızıl qələmlər" təşkilatının üzvü olmuşdur.
   B) İlk şeirlər kitabı 1913-cü ildə Tiflisdə çap olunmuşdur.
   C) İlk şeirlərini "Gülçin" təxəllüsü ilə yazmışdır.
   D) Mənzum faciənin əsasını qoymuşdur.
   E) Həzəc bəhrinin yeni növünü yaratmışdır.

2. H.Cavidin dramaturgiyası ilə bağlı ***uyğunsuzluğu*** göstərin.
   A) "Ana" mənzum faciədir. B) "Topal Teymur" mənzum dramdır.
   C) "Səyavuş" mənzum faciədir. D) "Knyaz" mənzum faciədir.
   E) "Xəyyam" mənzum dramdır.

3. H.Cavidin lirik yaradıcılığı ilə bağlı ***səhv*** cavabı göstərin:
   A) Yaradıcılığa klassik üslubda yazdığı qəzəllərlə başlamışdır.
   B) H.Cavid Azərbaycan poeziyasına sonet, türkü, marş kimi janrlar gətirmişdir.
   C) "Sevinmə, gülmə, quzum", "Uyuyur", "Neçin" şeirləri başdan-başa monoloqlardan ibarətdir.
   D) "Qız məktəbində", "Məzlumlar üçün", "Məyus bir qəlbin fəryadı" dialoqlar əsasında yazılmışdır.
   E) "Xuraman-xuraman" qoşması, "Get", "Könlümü" rədifli qəzəlləri var.

4. H.Cavidin klassik lirika və xalq-aşıq lirikası üslublarının qovuşuğundan yaranmış şeirləri:
   1. ""Yadi-mazi" 2. "Könlümü"
   3. "Bir ahi-məzlumanə" 4. "Hər yer səfalı, nəşəli"
   5. "Bir rəsm qarşısında" 6. "Xuraman-xuraman"
   7. "Dəniz tamaşası" 8. "Otuz yaşında"
   A) 1, 3, 5, 7, 8 B) 2, 4, 7, 8
   C) 1, 4, 5, 6, 7 D) 3, 4, 6, 7, 8 E) 2, 5, 6, 7

5. Bu şeirlər Avropada geniş yayılmış italyan soneti formasında qələmə alınmışdır:
   1. "Mən istərim ki" 2. "Dəniz tamaşası"
   3. "Çəkinmə, gül" 4. "Yadi-mazi" 5. "Bir rəsm qarşısında"
   A) 1, 3 B) 2, 4, 5 C) 1, 2, 4 D) 4, 5 E) 3, 5

6. H.Cavidin poema yaradıcılığı ilə bağlı ***səhv*** cavabı göstərin.
   A) Müəllifin ilk poemaları lirik-romantik, romantik-fəlsəfi məzmun daşıyır.
   B) "Hübuti-Adəm" poemasında nəfsin fəlakətləri ətrafında poetik mülahizələrini irəli sürür.
   C) "Azər" poeması ayrı-ayrı hissələrdən ibarət lirik-epik poemadır.
   D) "Hübuti-Adəm", "İştə bir divanədən bir xatirə" poemalarında epik lövhələr yoxdur, bu əsərlərdə lirik-romantik düşüncələr öz əksini tapmışdır.
   E) "Bir ahi-məzlumanə" poemasında vətənin acı halına dərin təəssüf hisləri ifadə olunur.

7. "Azər" poeması ilə bağlı doğru fikirləri seçin.
   1. Əsərin əsas qəhrəmanı Azərin proobrazı şairin özüdür.
   2. Müəllifin ən kamil poemasıdır, Almaniyada səfərdə olarkən yazılmışdır.
   3. "Səlmanın səsi", "İnqilab xırsızı", "İsyan" bölmələrində yeni cəmiyyətin dərki məsələləri önə çəkilir.
   4. Müəllif Səlmanın dilindən yeni cəmiyyətə bədbin münasibətini bildirir.
   5. Əsərdə Qərb və Şərq haqqında fəlsəfi qənaətlər təqdim olunur.
   6. Əsər süjet xətti olmayan lirik poemadır.
   A) 1, 2, 3, 5 B) 4, 5, 6 C) 1, 2, 4, 6 D) 3, 4, 5 E) 1, 2, 3, 6

8. Azərbaycan şeirində süjetli lirikanın ən gözəl nümunəsidir:
   A) "Öksüz Ənvər" B) "Çiçək sevgisi"
   C) "Qız məktəbində" D) "Uyuyur" E) "Məzlumlar üçün"

9. "Sevinmə, gülmə, quzum", "Məyus bir qəlbin fəryadı", "Uyuyur" .... Məntiqi ardıcıllığı tamamlayın.
   A) "Qız məktəbində" B) "Öksuz Ənvər" C) "Dəniz tamaşası"
   D) "Bir rəsm qarşısında" E) "Məzlumlar üçün"

10. Anadolu şivəsinin əlamətləri nəzərə çarpan şeirləri:
   A) "Rəqs", "Pəmbə çarşab", "Ah, yalnız sən..."
   B) "Keçmiş günlər", "Dəniz tamaşası", "Bir ahi-məzlumanə"
   C) "Çəkinmə, gül", "Mən istərim ki", "Bir ahi-məzlumanə"
   D) "Yadi-mazi", "Öksuz Ənvər", "Qız məktəbində"
   E) "Çiçək sevgisi", "Məzlumlar üçün", "Neçin?"

B variantı

1. H.Cavidin mövzusu Qafqaz həyatından alınmış əsərləri
   A) "Uçurum", "Afət" B) "Ana", "Maral"
   C) "Knyaz", "Səyavuş" D) "Xəyyam", "Şeyda"
   E) "Peyğəmbər", "Şeyx Sənan"

2. "Uçurum" əsəri ilə bağlı doğru fikirləri seçin.
   1. Mövzusu Türkiyə həyatından alınmışdır.
   2. Burada kübar cəmiyyətinin meşşan əxlaqının mənəvi puçluğu açılıb göstərilir.
   3. Türk rəssamının mənəvi-əxlaqi iflası təsvir olunur.
   4. Süni avropalaşmanın, yad təsirlərin milli mənəviyyata vurduğu zərbə ümumiləşdirilir.
   5. Mətbəə işçilərinin azadlıq uğrunda mübarizəsi təsvir olunur.
   6. H.Cavid dramaturgiyasının I mərhələsi bu əsərlə başa çatır.
   A) 1, 3, 4, 6 B) 2, 3, 5, 6 C) 1, 2, 5 D) 4, 5, 6 E) 3, 4, 5, 6

3. "Peyğəmbər" və "Topal Teymur" əsərləri üçün ortaq cəhət kimi götürülə ***bilməz:***
   A) Hər iki əsər tarixi məzmun daşıyır.
   B) Hər iki əsərdə dramatik vasitələrlə yanaşı, təhkiyə və təsvirlərə də yer verilmişdir.
   C) Əsərlər dövrün ədəbi tənqidi tərəfindən mövcud cəmiyyətlə bağlı yozulduğundan müəllif müəyyən çətinliklər qarşısında qalmışdır.
   D) H.Cavid əsərdə qəhrəmanları ideallaşdırmaqda günahlandırılmışdır.
   E) Hər iki əsər mənzum dramdır.

4. *Bu əsər nəsrlə yazılmış faciədir. Əsərdə pulun, sərvətin cəmiyyətdə törədə biləcəyi bəlalar əks etdirilir.* Söhbət hansı əsərdən gedir?
   A) "Xəyyam" B) "Afət" C) "Uçurum" D) "Maral" E) "Knyaz"

5. "Şeyx Sənan" əsərinə aid fikirləri seçin.
   1. H.Cavid dramaturgiyasının şah əsəridir.
   2. Nəsrlə yazılmış faciədir.
   3. Dini-əfsanəfi mövzuda olan bu əsər insanın mənəvi ucalığı haqqında uvertüra təsiri bağışlayır.
   4. Əsərin əsas qəhrəmanı mənəvi bütövlüyü ilə hamını öz etiqadına inandırır.
   5. Əsərdə kübar cəmiyyətin meşşan əxlaqının mənəvi puçluğu göstərilir.
   A) 1, 3, 4 B) 2, 4, 5 C) 2, 5 D) 1, 2 E) 1, 3, 5

6. "Uçurum" və "Afət" əsərləri üçün ortaq cəhətləri seçin.
   1. Mövzusu Türkiyə həyatından alınıb.
   2. Hər iki əsərdə süni avropalaşmanın milli mənəviyyata vurduğu zərbə əks olunur.
   3. Hər iki əsərdə mənəvi-əxlaqi puçluq göstərilir.
   4. Hər iki əsər mənzum faciədir.
   5. Hər iki əsər müəllifin yaradıcılığının ilk dövrünə aiddir.

   A) 2, 3 B) 2, 4, 5 C) 1, 3 D) 1, 3, 5 E) 3, 4, 5

7. Bu əsərlərdən birinin mövzusu İran şairinin əsərindən, digəri isə şair və mütəfəkkirin həyatından alınmışdır:
   A) "Səyavuş", "Xəyyam"
   B) "Knyaz", "Şeyx Sənan"
   C) "Peyğəmbər", "Topal Teymur"
   D) "Şeyda", "Afət"
   E) "Maral", "Ana"

8. Bu əsərlərdən birində sovet dövründəki repressiyaya bir işarə var:
   A) "Uçurum" B) "Şeyda"
   C) "Afət" D) "Peyğəmbər"
   E) "Xəyyam"

9. Bu əsərdə Avropaya qaçan zadəgan mühacir həyatı və faciəsi ümumiləşdirilir:
   A) "Səyavuş" B) "Knyaz"
   C) "Uçurum" D) "Xəyyam"
   E)"Şeyx Sənan"

10. H.Cavidin nəsrlə yazılmış dramatik əsərləri hansılardır?
    1. "Maral" 2. "Şeyda"
    3. "Uçurum" 4. "Afət"
    5. "Peyğəmbər" 6. "Topal Teymur"
    7. "Knyaz" 8. "Xəyyam"
    9. "İblis" 10. "İblisin intiqamı"

    A) 1, 2, 4, 6, 10 B) 3, 4, 5, 6, 7
    C) 1, 2, 8, 9, 10 D) 3, 4, 5, 8, 9 E) 1, 3, 5, 7, 9

C variantı

1. Uyğunluğu seçin.
   1. Qaratay, Özdəmir
   2. Şeyx Kəbir, Xumar
   3. Cəmil, Humay
   4. İsmət, Orxan

   I - "Ana" II - "Afət" III - "Şeyx Sənan" IV - "Maral"

   A) I – 3, II –1, III –4, IV – 2
   B) I – 1, II –3, III –2, IV – 4
   C) I – 4, II –2, III –1, IV – 3
   D) I – 1, II –2, III –3, IV – 4
   E) I – 4, II –1, III –2, IV – 3

2. Tarixi mövzuda yazılmış bu əsərdə tiranlıq əks etdirilməklə yanaşı, türkün qəhrəmanlığı və faciəsi göstərilir:
   A) "Xəyyam" B) "Knyaz"
   C) "Peyğəmbər" D) "Topal Teymur"
   E) "Şeyx Sənan"

3. "İblis" əsəri haqqında ***səhv*** fikri göstərin.
   A) "İblis" əruz vəznində, çox yüksək bir poetik vüsətlə yazılmışdır.
   B) 1918-ci ildə yazılmış 4 pərdəli mənzum faciədir.
   C) Əsərdə müharibə və onun səbəbləri, yaratdığı fəlakətlər və faciələr göstərilir.
   D) "İblis" faciəsi ilk dəfə 1920-ci ildə Bakıda tamaşaya qoyulmuşdur.
   E) I Cahan müharibəsi ərəfəsində yazılmış bu əsərdə XX əsrin əvvəllərində gedən ictimai-siyasi və inqilabi proseslərin real tərzdə ifadəsi diqqəti cəlb edir.

4. "İblis" əsərində Arif surəti haqqında doğru fikirləri seçin.
   1. Əsas surətlərdən biridir, müsbət obrazdır.
   2. Bu surətlə müəllif türk xalqlarının, Şərq dünyasının fəlsəfi düşüncə tərzini ümumiləşdirir.
   3. Oyaq şüur sahibidir, soyuq mühakimələri ilə diqqəti cəlb edir.
   4. Maddi ehtiras əsərin əvvəlində ədalət axtaran qəhrəmanı sonda caniyə çevirir.
   5. Gözüaçıqdır, realistdir, ağıla söykənir.
   6. Mühiti ilə arzuları arasında uçurum görən bu obraz idealist obrazdır, hissə qapılır.

   A) 2, 4, 6 B) 1, 3, 5 C) 1, 2, 5 D) 3, 4, 6 E) 2, 4, 5

5. "İblis" əsərində İblis surəti haqqında doğru fikirləri seçin.
   1. Oyaq şüur sahibidir, soyuq mühakimələri ilə diqqəti cəlb edir.
   2. Mühiti ilə arzuları arasında uçurum görən bu obraz idealist surətdir.
   3. İblisin insanların xislətində olduğunu sübut etmək üçün səhnəyə atılır.
   4. Müəllif həmin obrazda Şərq dünyasının fəlsəfi düşüncə tərzini ümumiləşdirmişdir.
   5. Bu surət, bir tərəfdən, Arifi cinayətə sürükləyən şər qüvvə, ikinci bir tərəfdən, Arifin yatmış şüurunu oyadan, əsl həqiqəti göstərən qüvvədir.

   A) 1, 4, 5 B) 2, 4 C) 1, 3, 5 D) 2, 3, 5 E) 3, 4

6. "İblis" əsərində sonda verilən nəticə:
   A) İblis öz nəfsinə məğlub olan insanlardır. Nə qədər ki onlar var, bəşəriyyət rifah və səadətə çata bilməz.
   B) Hər cür cinayətləri törədən İblis qaçılmaz qüvvədir
   C) İntiqam hisləri cəmiyyəti irəli apara bilməz.
   D) Real mübarizə yollarını tapa bilməyən insanların faciəsi labüddür.
   E) Meşşan həyata alışan kübar cəmiyyət məhvə məhkumdur.

7. "İblis" əsərində məzmunla bağlı ***səhv*** fikri göstərin.
   A) Arif qardaşı Vasifi tanımadan öldürür.
   B) İbn Yəminin cinayətlərini açan sənədləri Arifə Rəna verir.
   C) İbn Yəmin şər atdığı üçün Elxan qaçaq düşür.
   D) Elxan Rənaya İbn Yəminin onun atasının qatili olduğunu söyləyir.
   E) İbn Yəmin Rəna ilə onun razılığını almadan nikaha girmək istəyir.

8. Uyğunluğu seçin.
   1. Bir fəzilətsə öldürüb-ölmək,
      Canavar bizdən əşrəf olsa gərək.
   2. Aldınsa da Arifi əlimdən,
      Hər yardıma iştə hazıram mən.
   3. Tanrı olsaydım əgər gerçəkdən,
      Ya bu insanları xəlq etməzidim,
      Əgər etsəm, yaşadardım daim
      Şadu məsud ...

   I Xavər II Arif III Elxan

   A) I–2, II –1, III – 3 B) I–1, II –2, III – 3
   C) I–3, II –1, III – 2 D) I–2, II –3, III – 1
   E) I–1, II –3, III – 2

9. Bunlardan biri "İblis" əsərindən ***deyil:***
   A) İnsanları xəlq etmədə var, bəlkə də, hikmət,
      İblisə nə hacət?!
   B) Din bir olsaydı yer üzündə əgər,
      Məsud olurdu cinsi-bəşər.
   C) Həp şu xislətdə olsa cinsi-bəşər,
      Heç görülməzdi bunca vəhşətlər.
   D) Bir fəzilətsə öldürüb-ölmək,
      Canavar bizdən əşrəf olsa gərək.
   E) Tanrı olsaydım əgər gerçəkdən,
      Ya bu insanları xəlq etməzidim,
      Əgər etsəm, yaşadardım daim
      Şadu məsud ...

10. Hansı hadisələr "İblis" əsərində II pərdədə baş verir?
    1. Arifin Rəna ilə qarşılaşması
    2. İbn Yəminin həbs olunması
    3. Xavərin Arif tərəfindən öldürülməsi
    4. Haydutların Rəna ilə Arifi tutması
    5. Rənanın İbn Yəminin cinayətlərini açan sənədləri Arifə verməsi

    A) 2, 5 B) 1, 2 C) 3, 4
    D) 4, 5 E) 2, 3

Cəfər Cabbarlı

(1899 – 1934)

Ən yeni dövr Azərbaycan dramaturgiyasının banisi olan C.Cabbarlı zəngin yaradıcılıq yolu keçmişdir. Şair, dramaturq, nasir, publisist, tərcüməçi və teatr xadimi idi. Azərbaycan ədəbiyyatının, teatrının yeni istiqamət alması bu böyük sənətkarın, ədəbiyyat və teatr fədaisinin adı ilə bağlıdır. C.Cabbarlı müasir ədəbi-bədii dilimizin formalaşmasında mühüm rol oynamışdır.

Həyatı

C.Cabbarlı 1899-cu ildə martın 20-də Xızıda Qafar kişinin ailəsində anadan olmuşdur.

Cəfər kiçik yaşlarında məhəllə mollasının yanında oxumuşdur. Ərəb və fars dillərini, "Quran"ı, xüsusilə də klassik ədəbiyyatı yaxşı öyrənmişdir. Sonra o, Bakıda 7-ci rus-tatar məktəbində rus dilində təhsil almışdır. Burada ona S.S.Axundov və A.Şaiq kimi ustad müəllimlər dərs demişlər. Müsavatçılıq ideologiyasının yaradıcılarından olan Mirzəbala Məmmədzadə ilə bir sinifdə oxuyan Cəfər onunla sonralar yaxından dost olmuşdur.

1910-cu ildə rus-tatar məktəbini bitirib Alekseyev adına ali-ibtidai məktəbdə təhsilini davam etdirmişdir. C.Cabbarlının ilk mətbu əsəri olan **"Bahar"** şeiri 1915-ci ildə "Məktəb" jurnalında nəşr olunmuşdur*. 1915-ci

---

* Tədqiqatçı Asif Rüstəmli C.Cabbarlının ilk şeirləri kimi "Həqiqəti-əfkar" qəzetinin 5 noyabr 1911-ci tarixli 2-ci sayında çap olunmuş "Eşidənlərə" (lirik şeir) və "Şücaətim" (satirik şeir) şeirlərini qeyd edir. Bax: A.Rüstəmli. C.Cabbarlının ilk şeirləri. "Azərbaycan" jurnalı, 1987, № 3, səh. 188-190. Belə olanda C.Cabbarlının ilk şeirinin tarixi daha əvvələ – 1911-ci ilə gedib çıxır. Bu vaxt C.Cabbarlının cəmi 12 yaşı var idi. Deyək ki, C.Cabbarlının ilk şeirləri kimi təqdim olunan bu şeirlərin (xüsusən birincisinin) dili ağırdır. Hər iki şeir formasına görə qəzəl janrındadır. (***Elmi redaktordan***)

ildə C.Cabbarlı Bakı Sənaye Texnikumuna daxil olmuş, rus dilində təhsilini davam etdirmişdir.

Tədricən C.Cabbarlı milli azadlıq hərəkatının məfkurəçilərindən birinə çevrilir.

1915-ci ildə M.Ə.Rəsulzadə "Açıq söz" adlı qəzet təsis etmiş və M.B.Məmmədzadə, S.Hüseyn, Ə.Cavad, C.Cabbarlı və başqa ziyalılar həmin qəzetin ətrafında toplaşmışdılar. Həmin illərdə Türkiyədə cərəyan edən gənc türklər hərəkatına C.Cabbarlının da böyük rəğbəti var idi. Məhz həmin dövrlərdə yazılmış "Trablis müharibəsi", "Ədirnə fəthi" əsərləri Türkiyədə baş vermiş tarixi-inqilabi hadisələrə həsr olunmuşdur.

Milli hökumət dövründə C.Cabbarlı yaradıcılığında bir yüksəliş müşahidə olunur. "Sevdiyim", "Azərbaycan bayrağına" kimi şeirləri də bu dövrdə yazılmışdır. C.Cabbarlı 1919-cu ilin avqustunda təsis olunmuş, S.Hüseyinin rəhbərlik etdiyi "Yaşıl qələm" ədəbi cəmiyyətinin fəal üzvlərindən olmuşdur.

1920-ci ildə Milli hökumətin süqutu C.Cabbarlının sonrakı taleyində təsirsiz ötmədi. "Aydın", "Oqtay Eloğlu" kimi əsərlərdəki milli kədər motivi də bu tarixi hadisələrlə bağlı idi.

1920-ci il aprelin 27-də milli hərəkatın bir sıra fəalları: M.B.Məmmədzadə, C.Cabbarlı və başqaları M.Ə.Rəsulzadənin evində toplaşaraq, "Gənc müsavatçılar" hərəkatının əsasını qoydular. Təşkilatın sədri M.B.Məmmədzadə, baş katibi C.Cabbarlı seçilir. Təşkilat bolşevizmə qarşı özəklər yaradır, intibahnamələr buraxır, qeyri-leqal "İstiqlal" qəzetini dərc etdirir.

1923-cü il iyunun 15-də C.Cabbarlı və təşkilatın əksər üzvləri bolşevik hökuməti tərəfindən həbs edilir, ancaq avqustun 12-də müxtəlif şərtlərlə azad edilir.

C.Cabbarlı 1923-cü ilin oktyabrın 5-də də M.B.Məmmədzadənin qaçması və gizli "İstiqlal" mətbəəsinin aşkarlanması ilə əlaqədar yenə həbs olunmuş, həmin ilin oktyabrın 30-da buraxılmışdı. Bütün bunlar C.Cabbarlının Sovet hakimiyyətini heç də asanlıqla qəbul etmədiyini aydın göstərirdi.

1920–1926-cı illər C.Cabbarlının mənəvi böhran keçirdiyi dövr idi. Milli hökumətin milli istiqlal və ideyalarının süqutu, bir sıra millətçilərin bolşevizmi qəbul etməsi C.Cabbarlı üçün ağlasığmaz idi. Bu illərdə o, tərcüməçi işləyir, Bakı universitetinin tarix-filologiya fakültəsində təhsil alır.

C.Cabbarlı əslində bolşevik ideyalarını qəbul etməmişdir. Ancaq qayəsiz və inamsız yaşamaq da onun idealına yad idi. Bolşeviklərin həyata keçirdikləri mədəni inqilab C.Cabbarlının xalqımızın gələcəyi barəsində arzularına uyğun idi. Elə bu proses də onu mənəvi iflasdan xilas etdi.

C.Cabbarlı "Sevil", "Almaz", "1905-ci ildə", "Yaşar" və s. əsərlərini yazdı.

C.Cabbarlı 1934-cü ildə dekabrın 31-də vəfat etmişdir.

Yaradıcılığı

C.Cabbarlı hər üç ədəbi növdə qələmini sınamış, daha çox dramaturq kimi tanınmışdır.

Yaradıcılığının ilk dövründə maarifçi-realist cərəyanın nümayəndəsi kimi çıxış etsə də, maarifçilik dövrü onun yaradıcılığında qısa olmuşdur. O, bir müddət romantik şair kimi tanınır.

C.Cabbarlı yaxşı şair idi. O həm lirik, həm də satirik şeirlər yazmışdır.

C.Cabbarlının milli hökumət dövründə yazdığı şeirlərdə təbii olaraq milli hislər, vətənçilik, milli dövlətçilik duyğuları qüvvətli olmuşdur. **"Sevdiyim"**, **"Azərbaycan bayrağına"** şeirlərini də bu dövrdə yazmışdır.

"Azərbaycan bayrağına" şeirində C.Cabbarlı üçrəngli bayrağın rəmzlərini bədii şəkildə açırdı:

Bu göy boya Göy Moğoldan qalmış bir türk nişanı.
Bir türk oğlu olmalı!
Yaşıl boya islamlığın sarsılmayan imanı.
Ürəklərə dolmalı.
Bu al boya azadlığın, təcəddüdün fərmanı.
Mədəniyyət bulmalı.

Həmin dövrlərdə yazılmış milli ruhlu şeirlərin çoxu itmiş, sonralar da tapılmamışdır.

C.Cabbarlının lirik şeirləri içərisində "Ana" şeiri xüsusi yer tutur. Azərbaycan ədəbiyyatında ana mövzusuna həsr olunmuş ən qiymətli şeirlərdən biri olan bu əsərdə anaya sevgi, ana itkisinin doğurduğu acılar yüksək bədii dillə ifadə edilmişdir.

C.Cabbarlı satirik şeirlərində M.Ə.Sabir ənənəsinin davamçısıdır. C.Cabbarlı satiralarını əruz vəznində yazırdı. Gerilik, avamlıq, qadın hüquqsuzluğu, qaragüruhçuluq, yeniliyin əleyhinə olanlar Cabbarlı satirasının əsas tənqid hədəfləridir. Belə şeirlərdə Sabir üslubuna uyğun satirik monoloqlardan istifadə edirdi. Belə şeirlərdə, Sabirin satiralarında olduğu kimi, çox vaxt mənfi tipin özü danışırdı:

Yaşın oldu on üç, ay qız, səni verrəm ərə,
Bir müdəqqəs kişiyə, pulluya, bir bəxtəvərə.
Vermərəm boynu qıraxmallıya, ya injenerə,
Razı olmam düşəsən zülm ilə zindanə, qızım.

C.Cabbarlının bir poeması var. Bu, 1923-cü ildə əfsanə mövzusunda yazılmış "Qız qalası" poemasıdır.

C.Cabbarlı şair kimi də böyük idi.

Nəsr yaradıcılığı. Müəllifin epik yaradıcılığı hekayələrdən və "Qız qalası" poemasından ibarətdir. İlk hekayələri olan **"Aslan və Fərhad", "Mənsur və Sitarə", "Əhməd və Qumru"** maarifçilik dünyagörüşününün ifadəsi idi.

Son hekayənin qəhrəmanları, bir-birini sevən, səadətlərinin lap yaxında baş tutacağı xəyalı ilə yaşayan Əhməd də, Qumru da ermənilərin törətdiyi Şamaxı qırğınının qurbanlarıdır.

"Aslan və Fərhad" hekayəsində Aslan valideynlərinin vəfatından sonra kiçik qardaşı Fərhadın təhsil alması üçün əlindən gələni əsirgəmir. Fərhadın Kiyevdə təhsil alıb mühəndis kimi vətənə qayıtmasını gözləyir. Lakin Fərhad meşşan, əxlaqsız bir həyat tərzi keçirir. Mühəndis kimi geri dönsə də, mənəviyyatsız bir insana çevrilir. Yazıçı onu xalis şər qüvvə kimi təqdim edir. Qardaşının hesabına təhsil alan Fərhad təhsildən qayıdanda Aslanı vağzalda dostlarına nökər kimi təqdim edir. Qardaşı arvadı Gülzarı özünə məşuqə edir, doğma bacısını öldürür. Gülzar da Fərhada ata əvəzi olmuş Aslanın gözlərinin kor olmasının səbəbkarı olur. Fərhadın mənəvi düşkünlüyü ətrafındakı insanları, eyni zamanda, özünü fəlakətə sürükləyir. Yalnız sonda, həbsxanada Fərhad qardaşının faciəsində günahkar olduğunu başa düşür, lakin nə yazıçı, nə də oxucu

ona bəraət qazandırmır. Müəllif hekayədə insanı bədbəxtliyə sürükləyən mənfi ehtirasları pisləyir.

C.Cabbarlı XX əsrin 20-ci illərində mədəni inqilab, yeni quruculuq mövzusunda hekayələr yazır: **"Qara Qənbər", "Papaq", "Firuzə"** və s.

Dramaturgiyası. C.Cabbarlı istər ilk hekayələrində, istərsə də ilk pyeslərində qəhrəmanlarını pis və yaxşı adamlara bölür. İnsan faciəsinin səbəblərini arayır və bəzən bunları insanın xarakterində, fitrətində, anadangəlmə psixologiyasında axtarırdı. Bu da insan təbiətinə maarifçi münasibətin təzahürü idi.

C.Cabbarlının ilk dram əsəri olan **"Vəfalı Səriyyə"** (1915) pyesində də qəhrəmanlar iki yerə bölünür. Bir tərəfdə həyata, məhəbbətə müasir baxış və bu baxışın təmsilçiləri olan Səriyyə, əmisi oğlu və sevgilisi Rüstəm, dayısı oğlu Məhərrəmdir. Digər tərəfdə Səriyyənin köhnəliyi təmsil edən anası Çimnaz xanım, dayısı Həmzə, dayısı oğlu Qurbandır.

Səriyyə ilə Rüstəm bir-birlərini sevsələr də, Çimnaz xanım qızını dayısı oğlu qoçu Qurbana ərə vermək istəyir. Sonda pristav gəlib qanunsuzluğun qarşısını alır və zorla kəbin kəsdirənləri məsuliyyətə cəlb edir. Səriyyə öz müsibətində anası Çimnaz xanımı günahkar bilir.

Əsər müsbət sonluqla bitir. Belə sonluq M.F.Axundzadə pyeslərini xatırladır. Bu, gənc C.Cabbarlının Avropa-Rusiya maarifi yoluna ümid və inamının təzahürü idi.

Dramaturqun növbəti əsərləri **"Solğun çiçəklər"** (1916) faciəsi və **"Nəsrəddin şah"** (1916) tarixi dramıdır.

Bu əsərlərdə müəllif faciələri yalnız maarifsizliklə deyil, insanların fitri qüsurlarında: paxıllıq, şöhrətpərəstlik, eqoizm və sairədə arayır.

"Solğun çiçəklər" faciəsinin qəhrəmanları əmioğlu və əmiqızı olan Bəhram və Saradır.

Onların məhəbbətinə qarşı duran qüvvə puldur. Hər iki gənc müasir və təhsillidir, romantik bir məhəbbətlə bir-birlərini sevirlər.

Atasının milyonları Saranın analığı Gülnisənin əlinə keçdikdən sonra əmisi oğlu Bəhramda tərəddüdlər başlayır. Bir tərəfdə Saranın məhəbbəti, digər tərəfdə Pəri ilə evlənərək milyonları ələ keçirmək kimi seçim qarşısında qalır. Bəhram pulu seçir. Saranı atıb Gülnisənin qızı Pəri ilə

evlənməyi qərara alır. Həm də bu qərarını onunla bağlayır ki, pulsuz yaşamaq, xoşbəxt olmaq mümkün deyil, pul əldə edəndən sonra Saranın yanına qayıda bilər. Bəhram əslində pulun sirayətedici gücünü unudur. Sara tənha qalır, vərəmləyib ölür. Lakin Bəhram da səadətinə qovuşa bilmir. Başa düşür ki, var-dövlət ona xoşbəxtlik gətirməyəcək. Əsl səadətini itirdiyini hiss edən Bəhram milyonlara qəzəb və nifrətində haqlıdır: "Qəhr olsun dünyanın milyonlar bahasına başa gələcək səadəti!" Müəllif əsərdə Bəhramın fəlakətinin səbəbini varlanmaq ehtirası ilə bağlayır.

"Nəsrəddin şah" pyesininin mövzusu İran tarixindən alınmışdır. C.Cabbarlı bu əsərində daha ciddi problemləri: millət, onun dövləti və taleyi kimi mühüm problemlər qaldırır.

Pyesin konflikti iki cəbhə arasındakı mübarizə üzərində qurulmuşdur: bir tərəfdə azadlıq, milli, sosial tərəqqi tərəfdarları, o biri tərəfdə despot Nəsrəddin şah rejimi və onun təmsilçisi olan feodal dərəbəyliyi. Nəsrəddin şah əslində bu rejimin tərəfdarları olan feodalların əlində oyuncaqdır. Şahın ölkədəki vəziyyətdən xəbəri yoxdur. Ünvanına gələn sənəd və ərizələr ya ona çatmır, ya da təhrif olunmuş şəkildə çatır.

Mirzə Rza və Fərhad çalışsalar da, Rəhim xanın dərəbəyliyinə qarşı şikayətlərini şaha çatdıra bilmirlər. Bu əsərdə müəllif despotizmə qarşı xalq etirazını ümumiləşdirir.

Müəllif bu əsərdə böyük filosof, Şərqin azadlığı uğrunda özünəməxsus mülahizələri, rolu olan, bəzən Şərqdə panislamizmin banisi kimi tanıdılan Cəmaləddin Əfqaninin də obrazını yaratmışdır. C.Əfqani bu əsərdə Nəsrəddin şaha qarşı ayağa durmuş fədai dəstəsinin başçısı kimi verilir.

"Trablis müharibəsi" pyesini C.Cabbarlı 1917-ci ildə yazmışdır. Bu pyesi baş qəhrəmanın adı ilə "Ulduz" da adlandırırlar.

1912-ci ildə Trablisdə türklərlə İtaliya ordusu arasında gedən hərbi əməliyyatlar əsərin tarixi məzmununu təşkil edir və bu tarixi hadisələr konkret obrazların dramatik taleyi fonunda verilir. Əsərdə bir qütbdə Türkiyənin vətənpərvər oğulları, digər qütbdə italyan ordusunun əsgərləri və onlara kömək edən ərəb qəbilə nümayəndələri təsvir olunur.

Əsərdə Ramizlə Ulduzun romantik məhəbbəti də təsvir olunur.

Paşa qızı olan Ulduz məhəbbəti naminə qaçaq mağarasını zəngin həyatdan üstün tutur. Həmçinin bu gənclərin vətənpərvərlik hissi diqqəti cəlb edir. Əsərdə Trablis uğrunda mübarizədə vətənpərvər türk zabitinin əzmini əks etdirən digər qəhrəman Ənvərdir. Bu surətlə C.Cabbarlı Gənc Türklər inqilabının lideri, 1914-cü ildən Türkiyənin baş naziri olmuş Ənvər paşanı təsvir edir. Lakin əsərdə o, hələ paşa deyil. Ənvərin vətənpərvərliyi, fədakarlığı İzzət paşa ilə müqayisədə daha aydın görünür. Düşmənin say çoxluğunu görüb Trablisi təhvil vermək istəyən İzzət paşadan fərqli olaraq, Ənvərin sonuncu əsgərə qədər, bir addım belə çəkilmədən Trablisi müdafiə etmək təklifi üzərində təkid etməsi Trablisi xilas edir, türk əsgərinin əzmini göstərir.

Ulduzla Ramiz bir sıra maneələrə rast gəlsələr də, uzun macəralardan sonra bir-birini tapırlar.

"Ədirnə fəthi" pyesi də 1917-ci ildə yazılmışdır. Üslubu, süjet və ideyası baxımından "Trablis müharibəsi"nə çox yaxındır. Hətta bu pyesi "Trablis müharibəsi"nin ("Ulduz"un) ikinci hissəsi hesab edənlər də var. Əsər 1913-cü ildə Türkiyənin Balkanlarda apardığı hərbi əməliyyatlardan bəhs edir. Vaxtilə Osmanlı dövlətinin paytaxtı olmuş Ədirnə şəhərinin bolqar qoşunlarından azad edilməsi ilə bağlı hadisələr pyesdə əsas götürülmüşdür.

Əsərdə Rüfət və Zöhrənin məhəbbəti də təsvir olunur. Lakin "Ədirnə fəthi"ndə hadisələrin tarixi planına daha çox diqqət yetirilmişdir. Bu da ən çox sonradan paşa olmuş Ənvərin Türkiyə dövlətinin şərəfi uğrunda fədakarlığı ilə bağlı epizodlarda üzə çıxır.

C.Cabbarlının Gənc Türklər inqilabına, bu inqilabın liderlərinə rəğbəti "Ədirnə fəthi"ndə daha qabarıq duyulur.

Azərbaycanda milli hökumət devrildikdən sonra hakimiyyətin bolşeviklərə təslim edilməsi ilə bağlı böyük bir ağrı, təəssüf hissi keçirən C.Cabbarlı **"Aydın", "Oqtay Eloğlu"** faciələrini yazaraq milli kədərini romantik tərzdə ifadə etdi.

"Aydın" (1919) əsərində əsas qəhrəman mühəndis Aydındır. Gültəkini sevib, onunla evlənmişdir. Mühiti, yoxsulluğu onu sıxır. Aydının daxili böhranı, cəmiyyətə etirazı böyük arzuları ilə mühiti arasındakı uçurumla bağlıdır. Personajlar arasında Aydına qarşı duran aşkar bir cəbhə yoxdur.

Lakin Aydın özünü bütün mühitə, bəşəriyyətə qarşı qoyur. Bir tərəfdən, yaşadığı mühit, digər tərəfdən, uşaqlığı, yaşadığı məhrumiyyətlər, təhqirlər və ehtiyac onda küskünlük yaratmışdır. Oxuduğu kitabların təsiri onda həqiqətsizlikdən, qəddarlıqdan intiqam almaq həvəsi oyatsa da, Aydın ittihamçı obraz səviyyəsindən yüksəyə qalxa bilmir.

"Aydın" əsəri ilə "Oqtay Eloğlu" arasında mövzu və ideya bağlılığı vardır.

C.Cabbarlı dörd il üzərində işlədiyi **"Od gəlini"** (1927) faciəsi ilə mənəvi böhranını tamamlayır.

"Od gəlini" tarixi faciəsinin mövzusu IX əsr Babək hərəkatından alınmışdır. Əsərin baş qəhrəmanı olan Elxanın prototipi, bu mənada, Babəkdir. Təsadüfi deyil ki, əsərin əvvəlki adı da "Babək" olmuşdur. Sonralar müəllif Babəki Elxan obrazı ilə əvəz etmişdir. Əsərin əsas qayəsi Elxanın ərəb xilafətinə qarşı mübarizəsi ilə xalqımızın azadlığı uğrunda işğalçılara, müstəmləkəçilərə qarşı mübarizə tarixini bədii şəkildə göstərmək idi. "Od gəlini" Azərbaycan ədəbiyyatında xalqımızın tarixini və milli taleyi problemini bədii əsər mövzusu kimi götürən ilk əsər idi. Bu əsərdə azərbaycançılıq ideologiyası olduqca qabarıq görünürdü.

Əsər tarixi mövzuda yazılmış romantik faciədir.

C.Cabbarlı rejimi nəzərə alaraq zahirdə Elxanın dinə qarşı etirazını verməklə əslində daha dərin ideyanı – şəxsiyyət azadlığını, insanın hər cür yabançı ideologiyaya etirazı və mübarizəsini ümumiləşdirmişdir. Elxan insanı əzən, kölə vəziyyətinə salan hər cür sosial quruluşa, əsarətin hər cür formasına qarşı duran mübariz qəhrəmandır.

Həmçinin Elxanın yaratdığı azad cəmiyyət ictimai varlığa, müasirliyə çox yaxın olduğundan əsər böyük maraq doğurur. Pyesin qəhrəmanı arzularını gerçəkləşdirərək utopik bir cəmiyyət yaradır. Lakin C.Cabbarlı bu istiqamətdə də öz milli qayəsinə sadiq qalaraq, belə bir cəmiyyətin bir gün dinsiz, əxlaqsız, mənəviyyatsız bir cəmiyyətə çevrilə biləcəyinə romantik yönüm verir. Bu, C.Cabbarlının yaşadığı mövcud quruluşun törədəcəyi problemlərə verdiyi proqnozdur. Elxan əqidəsi uğrunda mübarizə aparan, heç bir maneədən qorxmayan ideal bir qəhrəman səviyyəsinə ucalır.

Mədəni inqilab dövrünün ən qiymətli əsəri olan **"Sevil"** (1927) sosialist realizmi metodu ilə yazılmış ilk dram əsəridir. Qadın azadlığı mövzusuna həsr olunmuşdur. Ümumiyyətlə, demək olar ki, Azərbaycan qadınının müstəqilliyi, azadlığı və özünütəsdiqi mövzusu C.Cabbarlı yaradıcılığı üçün səciyyəvidir.

Əsərin əvvəlində Sevil təhsilsiz, məzlum bir ev qadınıdır. Balaş bank işçisidir. O, arvadının məzlumluğundan istifadə edərək meşşan bir həyat tərzi keçirir. Bir gün məşuqəsi Dilbəri Sevillə yaşadığı evə gətirir. Sevil qonaqlara qulluq edir. Bir müddətdən sonra Dilbərin təkidi ilə Sevil küçəyə atılır. Sevil qapılara düşür, qulluqçuluq edir, təhqirlər, həyatın sərt üzü onu da dəyişdirir, nəhayət, az-çox gözü açılır. Çarşabını atır, çəkinmədən: "Mən fabrikə, sosializmə gedirəm", – deyərək yeni həyata atılır. Sevilin əxlaqsız Balaşa: "Nədir namus? Yalnız qadınların daşıyacağı bir yükdür?!"- sualı bir zamanlar Balaşa evinin allahı kimi baxan Sevilin nə qədər dəyişdiyini göstərir. O, işçi fakültəsini, sonra isə Maarif Komissarlığının təqaüdü ilə Moskvada universiteti bitirir, "Azərbaycan qadınlığının inkişaf yolu" adlı kitab yazır.

Pyesin 1928-ci ildə tamaşaya qoyulması böyük əks-səda yaratmışdı. Saxta əxlaq təəssübkeşləri Cəfəri hədələmişdilər. Amma bolşevik rejimi qadının sosial həyata qoşulması ideyasını müdafiə edirdi. "Sevil" tamaşasına gələn qadınlar çarşablarını elə oradaca qoyub gedirdilər. "Sevil" əsəri xalqımızın həyat tərzinin yeni istiqamətdə inkişafına misilsiz təsir göstərdi. "Sevil" əsərindən Özbəkistanda, Tacikistanda, Qırğızıstanda, Türkmənistanda da qadın azadlığı prosesinin inkişafı üçün istifadə edilir, o, hər yerdə tamaşaya qoyulurdu.

Mədəni inqilab dövründə C.Cabbarlı **"Almaz", "Dönüş", "Yaşar"** kimi çox qiymətli əsərlər yazmışdır. Bu pyeslərdə C.Cabbarlı mədəni inqilabın, dağılan köhnə həyat qaydalarının tarixi mənzərəsini yaratmışdır.

Yazıçının ən mühüm əsərlərindən biri tarixi-inqilabi mövzuda yazılmış **"1905-ci ildə"** (1931) pyesidir.

C.Cabbarlı mətnləri hələ də bizə gəlib çatmayan "Bakı müharibəsi" (1919) pyesini və "Araz çayı" (1923) mənzum pyesini də yazmış, ömrünün sonlarında "Əfqanıstan" pyesi üzərində işləmişdir.

C.Cabbarlı Avropa ədəbiyyatından V.Şekspirin "Hamlet", "Otello", F.Şillerin "Qaçaqlar" faciələrini, Bomarşenin "Fiqaronun toyu" komediyasını böyük ustalıqla dilimizə tərcümə etmişdir.

C.Cabbarlının "Aydın", "Oqtay Eloğlu", "Od gəlini", "Sevil", "1905-ci ildə" kimi əsərləri ana dilimizin inkişafında bir mərhələ təşkil edir. C.Cabbarlı mədəni inqilab dövründə yazdığı əsərlərində şəxs adlarını kütləvi sürətdə türkləşdirirdi.

C.Cabbarlının dil təcrübəsi bu gün də təbii və canlı dil kimi nümunədir, örnəkdir.

"Oqtay Eloğlu" pyesi

"Oqtay Eloğlu" (1922) romantik faciədir. Azərbaycan Cümhuriyyətinin süqutuna müxtəlif ziyalı qruplarının xəyanətkar və soyuqqanlı münasibəti gənc C.Cabbarlıya sarsıdıcı təsir göstərmişdi. Ziyalıların əksəriyyətinin xalqın taleyinə biganə qaldığı bolşevik hakimiyyəti zamanı bu mövzunu səhnəyə açıq gətirmək olmazdı. 1920-1922-ci illərdə siyasi terror hökm sürürdü. Ona görə də C.Cabbarlı xalqın taleyinə münasibət məsələsini xalq üçün teatr quruculuğu məsələsi ətrafında ümumiləşdirir.

Oqtay surəti. Xalq və xalqa münasibət mövzusu pyesin əsas leytmotivini təşkil edir. Bu cəhətdən əsərin ideya daşıyıcısı, əsas qəhrəmanı olan Oqtay xalqın taleyi barədə fikirlərini birbaşa söyləyir: "Ya mən olmalıyam, ya xalq" və ya "Yaşamaq istəyiriksə, yaratmalıyıq. XX əsrin təkamülünə qarşı bu yazıq xalqı tək buraxıb qaçmağı kim özünə layiq bilirsə, bilsin, mən bilmirəm. Yaşadığımız mübarizə meydanlarının müxtəlif qazmaları vardır. Buradan kimsə geriyə qaça bilməz. Səhnəmiz yox, fəqət olmalıdır. Onu da mən yaradacağam".

Xalqın taleyi qarşısında şəxsiyyətin rolu və məsuliyyəti məsələsi kəskinliyi ilə qoyulur. Mühitə, zəmanəyə etiraz motivi bu əsərdə də aparıcıdır. Bu cəhətdən C.Cabbarlının bir-birinin ardınca yaratdığı romantik obrazların: Aydın, Oqtay Eloğlu və Elxanın özünəməxsus yeri var.

İstər Aydın, istərsə də Oqtay Eloğlu pul və hakimiyyət səltənətinin qurbanlarıdır. Lakin Aydına nisbətən Oqtayın idealı da, mübarizəsi də daha konkretdir və milli səciyyə daşıyır. Oqtay Eloğlu milli teatr yaratmaq

idealı ilə xalqın mənəvi tərəqqisi yolunda hər şeyi qurban verməyə hazır olan ən işıqlı qəhrəmanlardandır.

Onun daxili böhranı, faciəsi bu yolun nə qədər çətin olduğunu göstərir.

Əsərin sonunda Oqtayın Firəngizi öldürməsi romantik bir seçim kimi qəbul olunmalıdır. Əsərin finalı romantik məntiqlə tamamlanır. Oqtay Firəngizi öldürməklə əslində axtardığı həqiqəti göstərir. Firəngizi məhv edən mühitdir. Ölüm səhnəsi ilə C.Cabbarlı Oqtayın mühiti inkar motivini tamamlayır. Digər tərəfdən, Oqtay romantik məntiqlə Firəngizi həqiqətsiz mühitdən, ona layiq olmayan çirkin mühitdən çıxarıb, öz məntiqicə ən təmiz yerə, daimi yaşayacağı yerə – qəlbinə gömür.

Oqtay Eloğlunun qarşısında böyük ideal durur: teatr idealı. Oqtayın bu idealında simvolik bir məna da vardır. Dramaturq üçün teatr quruculuğu xalqın mədəni tərəqqisi demək idi. C.Cabbarlı xalqımızın müasirləşməsi tərəfdarı idi. Teatra da bu yola aparan qüdrətli bir məbəd kimi baxırdı.

Oqtayın faciəsi milli idealların faciəsidir. Böyük bir ideala doğru qoşan Oqtay üçün qalan hər şey xırda və əhəmiyyətsizdir. Millətinin tərəqqisi, bütün mədəni millətlər kimi parlaq səhnə məbədi yaratmaq arzusu onun varlığına hakim kəsilmişdir. Lakin yaşadığı cəmiyyət, çalışdığı teatr hələ onun idealını qəbul etmir, başa düşmür. Bu baxımdan Oqtayın mühitlə, onun nümayəndələri ilə konflikti yaranır.

Mənəvi dəyərlərə üstünlük verən Oqtay üçün məhəbbət də müqəddəs hisdir. Oqtayın Firəngizə məhəbbəti də uca və ülvidir. O, sona qədər Firəngizə məhəbbətinə sadiq qalır. Lakin Oqtayın seçdiyi yol olduqca çətin və məhrumiyyətlidir. O, hər an təzyiqlərlə qarşılaşır. Yaşadığı cəmiyyət onun məhəbbətini məhv etmək istəyir, şəxsiyyətini alçaldır. Firəngizə məhəbbəti Oqtayın faciəsini daha da dərinləşdirir.

Bu məhəbbət, təbii ki, ona qüvvət verir. Ancaq böyük arzulara çatmaq istərkən ideal hesab etdiyi Firəngizin, qardaşı Aslan bəyin təkidi ilə "Mən səni bir aktyor kimi sevdim", – deməsi Oqtayı məhv edir. Onun daxili böhranına səbəb olur. Oqtay bu yalanla sona qədər barışa bilmir. Cəmiyyətin sosial və mənəvi qanunlarına qarşı üsyan qaldırır.

Oqtay pul, varlanmaq ehtiraslarını nəzərdə tutaraq deyir: "Mən bir aslan kimi çarpışarkən bir yırtıcı çıxdı da, onların hamısını çeynədi, tökdü,

tapdadı. İndi bu sarsılmış qüvvət, bir sönük ruh, ölgün ürək ilə nə edə biləcəyəm, nə? Fəqət yeriyəcəyəm".

C.Cabbarlının bütün çətinliklərə baxmayaraq, yerimək istəyən ilk belə qəhrəmanı Aydındırsa, ikincisi məhz Oqtay Eloğludur.

Oqtay ağır böhran keçirir. Ona hər şey süni və saxta görünür. Oqtayda da, Aydında olduğu kimi, həqiqətsizlik böhranı görürük. Bu həqiqətsizliyin əsl kökü məhv olan milli idealların və dəyərlərin yerindəki boşluq idi. C.Cabbarlı özü də bu boşluğu və böhranı yaşamışdır. Hər iki pyesin ölüm səhnəsi ilə bitməsi təsadüfi deyildi. C.Cabbarlı üçün milli idealları itirmək, onlara qiymət qoymayan cəmiyyətdə yaşamaq ölümlə eynidir. O biri tərəfdən, Aydının və Oqtayın mənəvi səfilliyi də həmin ölümün bir şəklidir.

Oqtayın prototipi elə C.Cabbarlının özü sayıla bilər.

Firəngiz surəti. Firəngiz C.Cabbarlının sevə-sevə yaratdığı romantik qadın obrazıdır.

O, səhnəyə can atan ilk qaranquşdur. C.Cabbarlı üçün aktrisalıq sadəcə bir peşə deyildir, müasir mədəniyyətin rəmzidir, azad qadın idealının təcəssümüdür. Qadın rollarının kişilər tərəfindən oynanıldığı bir vaxtda azərbaycanlı qızının səhnəyə çıxması xalqımızın müasir Avropa həyat tərzini seçməsi demək idi. Digər tərəfdən, müəllif ilk dəfə səhnəyə atılan Firəngizin timsalında azərbaycanlı qadınının səhnəyə doğru yolunun çətinliklərdən, faciələrdən keçib gəldiyini göstərir.

Firəngiz yeniyetmə yaşından Oqtayı, onun yaratdığı teatrı, səhnəni sevir. Lakin Firəngizin yaşadığı mühit ona qarşıdır. Firəngizin qardaşı Aslan bəy zahirən müasir görünsə də, əslində bütün əməlləri, Oqtaydan fərqli olaraq, şəxsi mənafe naminədir. Hətta bacısı Firəngizi təhsilə yönəltsə də, teatra gətirsə də, yalnız özünü düşünür. Firəngizi öz həyat planlarına qurban verir. Firəngizi varlı məmur, "uprava əzası" Danyar bəy Qalaçıxanova ərə verir ki, onun nüfuzundan istifadə etsin. Aslan bəy Firəngizin məhəbbətini də, səhnə ilə bağlı arzularını da məhv edir. Firəngiz təsəllisini Oqtaya məhəbbətində, bu məhəbbətlə yaşamaqda tapır.

Firəngizi bədbəxt edən mühit və bu mühitin Aslan bəy, Qalaçıxanov kimi nümayəndələridir. Onlar üçün hər şeyin ölçüsü pul və vəzifədir.

Bu adamlar zahirdə müasirlik xatirinə teatrı məbəd adlandırsalar da, aktyor peşəsini ləyaqətsizlik sayırlar. Firəngizi səhnədən, Oqtaydan ayıranda da özlərini haqlı hesab edirlər. Bu adamlar, Oqtayın olduqca dəqiq dediyi kimi, avropalı paltarı geymiş cahillərdir, "varatnikli çinovniklərdir", "odun parçalarıdır".

Son səhnədə Firəngizin ölümü həqiqət axtaran Oqtayın əsl həqiqəti üzə çıxarmaq cəhdi idi. Hər şeyi özünün romantik arzuları ilə ölçüb-biçən bir qəhrəmanın, bir həqiqət axtarıcısının cəhdi.

Əslində Oqtay saxta saydığı Firəngizi öldürməklə yaddaşının dərinliyindəki həqiqi, idealist və romantik Firəngizi seçir. Bu həm də Oqtayın saxta və süni ideallardan intiqamıdır.

C.Cabbarlının böyüklüyü ondadır ki, tarixi kökləri olan Aydın və Oqtay kimi milli ziyalı tiplərinin mənəvi faciəsini bədii və fəlsəfi baxımdan şərh etmiş, şəxsiyyətin tənəzzülü və böhranı məsələsini ümumiləşdirmişdir.

Faciənin məzmunu

I pərdə

Səhnənin arxasında Oqtayın bəzəndiyi yer görünür. "Gavə" pyesini oynamağa hazırlaşırlar. Aktyorlar "Gavə" qiyafəsində ora-bura gedirlər.

Firəngiz rus dayəsi Nadya ilə gəlir. Nadya Aslan bəydən ehtiyat etdiyi üçün tamaşa başlandıqdan sonra gedib Oqtayı təbrik etməyi məsləhət görür. Firəngiz Oqtaydan daha utanmayacağını bildirir.

Oqtayın tamaşadan əvvəl çox çətin səhnə hazırlığı təsvir olunur: rus teatrının aktrisası Tamaraya sözləri öyrədir. Dursun Xaspoladla Şəkinskinin hələ də gəlmədiyini söyləyir. Mazandaranski antreprenyorun* mənzil pulunu istədiyini bildirir. Rejissor Tabasaranskinin keflənib yatdığı məlum olur. Biri qalxanın dəstəyinin, digəri parikin olmadığından gileylənir. Bu halda tamaşanın təxirə salınması təklifinə Oqtay qəti etiraz edir.

* Şəxsi teatr, sirk... saxlayan adam

Kassada pul olmadığı üçün Oqtay üzüyünü mənzil kirayəsinə verir. Təki tamaşa dayanmasın. Hətta dekorasiyaları da özü qurub tamaşanın başlanmasına işarə edir.

Bu zaman Oqtayın dostu Səməd bəy gəlir. Oqtaya anasının, bacısının ac və kimsəsiz qaldıqlarını xatırladır. Oqtay qocaman bir xalqın taleyini iki qadının istirahətinə fəda edə bilməyəcəyini söyləyir. Səməd bəy ona qubernatora dilmanc gərək olduğunu deyir. Oqtay azad bir sənətkar olduğu halda, çinovnik işləyə bilməyəcəyini bildirir. Səməd bəy ona rus səhnəsinə dəvət olunduğunu xatırladır. Oqtay bu teatrı özü yaratmalı olduğunu, bu işi başqa birisinin görməyəcəyini deyir. Səməd bəy Oqtaya deyir ki, get rus teatrında işlə, Azərbaycan teatrı yaranar, gəlib çalışarsan. Sən də insansan, qayğıların var, ananı, bacını da dolandırmalısan. Oqtay prins köpəkləri kimi hazır nahara getmək istəmədiyini deyərək: "Yaşamaq istəyirsək, yaratmalıyıq", – söyləyir. XX əsrin təkamülünə qarşı xalqı tək buraxıb getməyi özünə layiq bilmir. Milli teatr yaradacağına əmindir. Elə bu zaman Şahqulu qadınların da tamaşaya gəldiyini sevinclə bildirir.

Tamaşa başlanır. Nadya ilə Firəngiz Oqtayın yanına gəlirlər. Firəngiz Nadyanın israrından sonra yanında gətirdiyi çiçəkləri utana-utana Oqtaya verir. Oqtaya gözəl oynadığını, buna çox sevindiyini bildirir.

Oqtay məmnun halda səhnəyə atılır.

II pərdə

Tamaşa haqqında qəzetdə rəy çıxır, bu, aktyorlar arasında müzakirə olunur. Rəydən aydın olur ki, Oqtayın ətrafında olan aktyorlar istedadsız və səriştəsizdirlər. Tamaşalar yalnız Oqtayın zəhməti hesabına baş tutur. Oqtayla Səmədin söhbətindən aydın olur ki, böyük aktyor xalqa xidməti hər şeydən üstün tutur və onu milli teatr yaratmaqdan uzaqlaşdırmaq mümkün deyil.

Firəngiz məhəbbətini Oqtaya etiraf edir. Oqtay milli teatr yaratmağın çox böyük məhrumiyyətlərdən keçəcəyini nəzərə alıb istəmir ki, bu əzablı yolda Firəngiz də onunla olsun. O, Firəngizin əziyyət çəkməsini istəmir, onun üçün də Firəngizə olan böyük sevgisini yalnız ürəyində yaşatmaq istəyir, bu sevgini etiraf etmək istəmir. Həm də ona elə gəlir ki, Firəngizin məhəbbət adlandırdığı şey, bəlkə də, bir maraqdır, bir sənət sevgisidir, aktyor oyununa olan məhəbbətdir. Firəngiz hər çətinliyə qatlaşacağını söyləyir. Oqtay Firəngizin inadkarlığı qarşısında sevgisini dilə gətirməli olur.

III pərdə

Nadya ilə Firəngizin söhbətindən aydın olur ki, Aslan bəy kitabın arasından Oqtayın məktubunu tapmışdır. Aslan bəy Firəngizdən məhəbbətini danmağı tələb edir, əks təqdirdə Oqtayı sürgün etdirəcəyini bildirir. Firəngizi uprava əzası, "mejdunarodnu kommersant" Danyar bəy Qalaçıxanova ərə verməyə hazırlaşır. Nişan tədarükü görülür. Firəngizin atası Hacı Zaman dindar bir şəxsdir, qızının teatra getməsi xəbəri onu çox qəzəbləndirir. Aslan bəy atası Hacı Zamana və anası Gülgəzə qonaqlar içinə çıxmağa icazə vermir.

Oqtay Aslan bəyin dəvəti ilə onlara gəlir. Aslan bəy Oqtayla söhbətində özünü zahirən ziyalı kimi aparır, teatr barədə danışır. Sonra Oqtaydan Firəngizin məktublarını tələb edir. Oqtay məktubları geri vermək istəmir, həmçinin Firəngizin öz dilindən həqiqəti öyrənmək istəyir. Firəngiz qardaşının təkidi ilə Oqtaya onu bir aktyor kimi sevdiyini deməyə məcbur olur. Oqtay sarsılır. Hər şeyin bir sünilik, yalan, saxta olması onun taleyini, gələcəyini məhv edir. O, həqiqəti axtarıb tapacağına söz verir.

Aslan bəy Oqtaya pul verir. Oqtay pulları qəbul etmir. "Bütün olanlara səbəb puldur" – söyləyən Oqtay intiqam alacağına söz verir. Aslan bəy: "Kimdən intiqam alacaqsınız?" – soruşduqda Oqtay: "Özümdən, taleyimdən, həyatdan, mühitdən, həqiqətin yoxluğundan" cavabını verir. "Bu gündən səfillər padşahı olacağam", – deyərək pulları Aslan bəyin üzünə çırparaq gedir.

IV pərdə

Qarlı bir qış gecəsidir. Bir meyxana təsvir olunur. Oqtay səfil və solğun vəziyyətdədir. Oqtayın bacısı Sevər küçədə dilənir, ikinci bir dilənçi qadınla oturmuşdur.

Sevərin söhbətindən aydın olur ki, Oqtay sürgün olunarkən qızın 5-6 yaşı var imiş. Oqtay gedərkən Səvəri və evlərini dayısına tapşırır. Dayısı da hər şeyi satıb bir-iki il Səvəri saxlamış və dayısı öldükdən sonra Sevər küçədə qalmışdır. Firəngiz bir müddət ərindən gizlin Sevərə kömək etmiş, Danyar bəy Firəngizi boşayıb evdən çıxartdıqdan sonra küçələrdə qalan

Sevər qulluqçu durmuş, sonra xəstələndiyi üçün çölə atılmışdır. Sevər səfil bir vəziyyətdə qardaşından xəbər öyrənmək arzusu ilə yaşayır.

Bu zaman Səməd bəylə Xaspolat gəlir. Xaspolat indi, inqilabdan sonra teatr direktorudur. Onların söhbətindən aydın olur ki, Xaspolat "hər tükü bir qızıldır" deyə Oqtayı şöhrətinə, adına görə teatra qaytarmaq istəmiş, lakin o razı olmamışdır. Səmədi bir kömək kimi gətirməkdə məqsədi Oqtayı teatra qaytarmaqdır.

Xaspolat Oqtayın krımlı dostundan öyrəndiklərini söyləyir.

Aydın olur ki, Oqtay qubernatoru təhqir etdiyi üçün Türküstana sürgün olunmuş, orada da hökümət əleyhinə çıxdığı üçün Sibirə göndərilmişdir. İnqilabdan sonra ona vəzifə vermək istəyirlər, lakin "Mən həyata ayıq gözlə baxa bilmərəm, mən həqiqət axtarıram" deyərək qəbul etmir.

10 illik sürgündən sonra geri dönmüş Oqtay xarabalıqda qalır.

Səməd bəy Firəngizlə Oqtayın məhəbbətini yada salır. Firəngizin başqasına ərə verildiyini, Danyar bəyin var-dövlətini qumara uduzduqdan sonra Firəngizi boşayıb zəngin bir qadınla evləndiyini söyləyir.

Meyxana sahibi Muxanla Oqtayın söhbətindən bəlli olur ki, Oqtay hər cür süniliyə etiraz edir. Hər şeyi olduğu kimi görmək istəyir.

Xaspolatla Səməd bəy yalvarsalar da, Oqtay teatra qayıtmaq istəmir. Meyxanadan çıxarkən Oqtay bacısı Sevərlə qarşılaşır. Sevər ondan çörək istəyir.

Söhbət zamanı Oqtayın sözlərindən Sevər qardaşını tanıyır. Oqtay sarsılır, Sevərə deyir: "Səadətini tanrım qədər sevdiyim bu xalq bircə səni də yaşatmadı". O, Sevərin xatirinə səhnədə oynamağa razılıq verir. Deyir ki, Sevərə yer versinlər, sabah axşam oynayacaq.

V pərdə

Rejissor Şəkinski Oqtayın səhnəyə çıxmasına mane olmaq istəyir. Tamaranı öyrədir ki, oynamasın. Danyar bəy də Şəkinskiyə 500 manat vermişdir ki, Oqtayın səhnəyə çıxmasına mane olsun. Tamaşa ərəfəsində Tamara əvvəl xəstə olduğunu bəhanə edərək səhnəyə çıxmaqdan imtina edir. O biri qadın aktrisa Xurşid İvanova da xəstədir.

Camaatın tələbindən sonra Tamara deyir ki, mən həyatımı sərxoş, yarımdəli bir adamın əlinə tapşıra bilmərəm, qorxuram.

Tamaşaçılar qışqıraraq Tamaranın mütləq oynamasını, tamaşanın başlanmasını tələb edirlər.

Camaatın qışqırtısına Oqtay öz münasibətini belə bildirir: "Səfil xalq, nə bağırırsan! Səndə sənətkar bir qadın yox, varsansa, yarat, yaratmırsansa, sus, uzan, öl!"

Bu zaman Firəngiz narahatlıqla Nərgizə səhnədə oynamağı təklif etdikdə o, birinci olmaq istəmədiyini bildirir. Sevdiyi şəxsin belə zəlil vəziyyətə düşməsini istəməyən Firəngiz səhnəyə atılıb, Amaliya rolunda oynayacağını deyir. Onun qolundan tutub dayanmasını istəyən Nərgizə deyir: "Burax, mən onu məhv etmişəm, indi diriltmək istəyirəm". Şəkinski razı olmasa da, o, səhnəyə buraxılır.

VI pərdə

"Qaçaqlar"ın 8-ci pərdəsi oynanılır: Oqtay Karl, Firəngiz Amaliya rolunda. Firəngiz Oqtayın qarşısına çıxarkən o, özünü itirir. Karlın sözlərini demək əvəzinə, Firəngizə ittihamlar yağdırır. Süni həyatdan qaçmaq, həqiqəti tapmaq istəyir. Qarşısındakının əvvəlki Firəngiz ola bilməyəcəyini, mənəviyyatında bir ideal olaraq gizlətdiyi bu məxluqu rəzil insanlar içində görmək istəmədiyini söyləyərək, Karlın bıçağı ilə onu öldürür. Hamı çaşqın vəziyyətdə Oqtayı ittiham edir. Oqtay isə "Mən onu öldürmədim, o, mənim bağrımdadır", - deyir. Onun sözlərindən aydın olur ki, bəşəriyyət üçün yeni həyat arzulayır. Elə həyat ki, hər şey sünilikdən uzaq olsun, göründüyü kimi deyil, olduğu kimi görünsün.

Son monoloqunda isə Oqtay: "Mən üzümü xalqa tutub, ona müraciət edirəm. Ona təslim oluram. Qoy o söyləsin: kimdir müqəssir? Yaşadaraq öldürən, öldürərək yaşadan, sevərək parçalayan, parçalayaraq sevən əliqanlı səfillər padşahı Oqtay Eloğlumu? Bu zavallı, günahsız yavrumu? Əski mühitin bu gülünc heykəlimi? Və yaxud alman dahisi böyük Şiller özümü?" – söyləyir.

Pərdə salınır.

A varianti

1. C.Cabbarlının həyat və yaradıcılığı haqqında verilənlərdən biri ***yanlışdır:***
   A) 1915-ci ildə nəşr olunan «Açıq söz» qəzetinin redaktoru olmuşdur.
   B) C.Cabbarlının «Bahar» şeiri 1915-ci ildə «Məktəb» jurnalında dərc olunmuşdur.
   C) 1920-ci ildə yaradılmış «Gənc müsavatçılar» təşkilatının baş katibi seçilmişdir.
   D) Rus-tatar məktəbində ona S.S.Axundov və A.Şaiq dərs demişlər.
   E) C.Cabbarlı satirik şeirlərində M.Ə.Sabir ənənəsinin davamçısıdır.

2. C.Cabbarlının şeir yaradıcılığı ilə bağlı doğru fikirləri seçin.
   1. Həm lirik, həm də satirik şeirlər yazmışdır.
   2. «Sevdiyim» şeiri Sovet hakimiyyəti dövründə qələmə alınmışdır.
   3. Bəzi satirik şeirlərində Sabir üslubuna uyğun satirik monoloqdan istifadə edirdi.
   4. Milli hökumət dövründə lirik şeirlərində vətənçilik, milli dövlətçilik ideyalarını tərənnüm etmişdir.
   5. Satirik şeirlərini heca vəznində yazırdı.
   A) 3, 4, 5 B) 2, 5 C) 1, 3, 4 D) 1, 2, 3 E) 1, 5

3. C.Cabbarlının epik yaradıcılığı ilə bağlı ***səhv*** fikri göstərin.
   A) Müəllif XX əsrin 20-ci illərində də həm satirik, həm də mədəni inqilab, yeni quruculuq mövzusunda hekayələr yazmışdır.
   B) Müəllifin epik yaradıcılığı, əsasən, hekayələrdən ibarətdir.
   C) Müəllifin ilk hekayələri «Aslan və Fərhad», «Mənsur və Sitarə», «Əhməd və Qumru» maarifçilik ideyalarını ifadə edirdi.
   D) C.Cabbarlı «Trablis müharibəsi», «Ədirnə fəthi» pyeslərini sovet dövründə qələmə almışdır.
   E) «Aslan və Fərhad» hekayəsində müəllif insanı bədbəxtliyə sürükləyən mənfi ehtirasları pisləyir.

4. Məntiqi ardıcıllığı tamamlayın.
   «Qara Qənbər», «Firuzə» ...
   A) «Papaq» B) «Aslan və Fərhad»
   C) «Əhməd və Qumru» D) «Mənsur və Sitarə» E) «Almaz»

5. «Aslan və Fərhad» hekayəsi ilə bağlı doğru fikirləri seçin.
   1. İlk hekayələrindəndir.
   2. Satirik hekayədir.
   3. Fərhad əsərdə şər qüvvə kimi təqdim olunur.
   4. Müəllif əsərin sonunda səhvlərini başa düşən Fərhada bəraət qazandırır.
   5. Fərhad təhsil alıb geri qayıtdıqdan sonra müəllim işləyir.
   6. Hekayədə insanı bədbəxtliyə sürükləyən mənfi ehtiraslar pislənir.

   A) 1, 3, 6 B) 2, 4 C) 1, 2, 6 D) 1, 3, 5 E) 4, 5

6. C.Cabbarlının yaradıcılığı ilə bağlı ***səhv*** cavabı göstərin.
   A) Həm tarixi, həm də müasir mövzuda dramatik əsərləri var.
   B) Hər üç ədəbi növdə yazmışdır.
   C) Həm lirik, həm də satirik şeirləri var.
   D) Satirik şeirlərini əruz vəznində yazmışdır.
   E) Komediya, faciə və dram müəllifidir.

7. *Bu əsərin müsbət sonluqla bitməsi M.F.Axundov pyeslərini xatırladır. Bu, gənc C.Cabbarlının Avropa-Rusiya maarifi yoluna ümid və inamının təzahürüdür.* Söhbət hansı əsərdən gedir?
   A) «Solğun çiçəklər» B) «Vəfalı Səriyyə»
   C) «Almaz» D) «Sevil» E) «Yaşar»

8. C.Cabbarlının ilk tarixi dramı:
   A) «Nəsrəddin şah» B) «Od gəlini»
   C) «Ədirnə fəthi» D) «1905-ci ildə» E) «Trablis müharibəsi»

9. C.Cabbarlının romantik tarixi faciəsi:
   A) «1905-ci ildə» B) «Nəsrəddin şah»
   C) «Trablis müharibəsi» D) «Ədirnə fəthi» E) «Od gəlini»

10. «Solğun çiçəklər» əsəri ilə bağlı doğru fikirləri seçin.
    1. Balkanlarda gedən hadisələr təsvir olunur.
    2. Pyesin əsas qəhrəmanlarından biri olan Bəhram məhəbbəti deyil, milyonları üstün tutur.
    3. Müəllif əsərdə insan fəlakətinin səbəbini varlanmaq ehtirası ilə bağlayır.
    4. Əsərin sonluğu M.F.Axundzadənin pyeslərini xatırladır.
    5. Müəllif faciələrin səbəbini maarifsizlikdə deyil, insanın fitri ehtiraslarında, şöhrətpərəstliyində, eqoizmdə axtarır.

    A) 2, 3, 4 B) 1, 4 C) 2, 3, 5 D) 1, 5 E) 1, 4, 5

B variantı

1. C.Cabbarlının mövzu və ideya bağlılığı olan əsərləri:
   1. «Aydın», «Oqtay Eloğlu»
   2. «Trablis müharibəsi», «Ədirnə fəthi»
   3. «Solğun çiçəklər», «Almaz»
   4. «Nəsrəddn şah», «1905-ci ildə»
   5. «Vəfalı Səriyyə», «Sevil»

   A) 2, 4 B) 3, 5 C) 1, 2 D) 1, 4 E) 3, 4

2. «Aydın» və «Oqtay Eloğlu» əsərləri ilə bağlı ortaq cəhətləri seçin.
   1. Milli hökumət devrildikdən sonra müəllifin milli kədərini romantik tərzdə ifadə edir.
   2. Əsas qəhrəmanların arzuları ilə mühiti arasında uçurum var.
   3. Qəhrəmanların qarşısında konkret bir ideal yoxdur.
   4. Hər iki əsər faciəvi sonluqla bitir.
   5. Xalq və xalqa münasibət mövzusu əsərlərin əsas leytmotividir.

   A) 2, 3, 5 B) 3, 5 C) 1, 4, 5 D) 2, 3 E) 1, 2, 4

3. «Trablis müharibəsi» və «Ədirnə fəthi» əsərləri üçün ortaq cəhətləri seçin.
   1. Hər iki əsərin mövzusu Türkiyə həyatından alınmışdır.
   2. Hər iki əsərdə Ənvər paşa obrazı yaradılmışdır.
   3. Hər iki əsərdə Türkiyənin Balkanlarda apardığı hərbi əməliyyat təsvir olunur.
   4. Hər iki əsərdə iki gəncin məhəbbəti təsvir olunur və onların məhəbbətinə ictimai bərabərsizlik mane olur.
   5. Hər iki əsərdə müəllifin gənc türkçülərə rəğbəti diqqəti cəlb edir.

   A) 1, 2, 5 B) 3, 4 C) 2, 3, 4 D) 1, 4 E) 2, 3, 5

4. «Sevil» əsəri ilə bağlı doğru fikirləri seçin.
   1. Qadın azadlığına həsr olunmuş pyesdir.
   2. Əsərin sonunda pristav gəlib qanunsuzluğun qarşısını alır.
   3. Balaş arvadının məzlumluğundan istifadə edərək meşşan həyat tərzi keçirir.
   4. Əsərin mövzusu Türkiyə həyatından alınmışdır.
   5. Əsərdə Azərbaycan qadınlarının inkişaf yolu təsvir olunmuşdur.

   A) 2, 4 B) 1, 3, 5 C) 2, 3, 5 D) 1, 4 E) 2, 3, 4

5. C.Cabbarlı hansı əsərlərdə mədəni inqilabın, dağılan köhnə həyat qaydalarının tarixi mənzərəsini əks etdirmişdir?
   1. «Almaz» 2. «Yaşar»
   3. «Vəfalı Səriyyə» 4. «Solğun çiçəklər»
   5. «Dönüş» 6. «Aydın»
   7. «Oqtay Eloğlu» 8. «Od gəlini»
   A) 2, 3, 8 B) 3, 4, 8 C) 6, 7, 8 D) 1, 2, 5 E) 5, 6, 7

6. C.Cabbarlının dramaturgiyası ilə bağlı ***səhv*** fikri göstərin.
   A) Həm müasir, həm də tarixi mövzuda dramatik əsərlər yazmışdır.
   B) Dram və faciə janrına müraciət edən müəllif komediya yazmamışdır.
   C) "Oqtay Eloğlu" faciəsi daha çox daxili monoloqlar üzərində qurulmuşdur.
   D) Həm realist, həm də romantik üslubda dramatik əsərlər yazmışdır.
   E) İlk dəfə olaraq sosializm realizmi metodu ilə dramatik əsər yazmışdır.

7. C.Cabbarlı və H.Cavid yaradıcılığı üçün ortaq cəhətləri seçin.
   1. Yaradıcılığa lirik şeirlərlə başlasalar da, dramaturq kimi məşhurdurlar.
   2. Hər üç ədəbi növdə yazmışlar.
   3. Dramatik əsərlərini yalnız nəsrlə yazmışlar.
   4. Həm lirik, həm də satirik şeirlər yazmışlar.
   5. Həm müasir, həm də tarixi mövzuda dramatik əsərlər yazmışlar.
   A) 1, 2, 5 B) 3, 4 C) 2, 3, 5 D) 1, 4 E) 2, 3, 4

8. C.Cabbarlının «Od gəlini» əsəri ilə bağlı doğru fikriləri seçin.
   1. Romantik tarixi faciədir.
   2. Mövzusu İran həyatından alınmışdır.
   3. Əsərdə feodal dərəbəyliyi tənqid olunur.
   4. Babək Elxanın prototipidir.
   5. Əsərdə şəxsiyyət azadlığı, insanın hər cür yabançı ideologiyaya və əsarətə etirazı ifadə olunur.
   A) 1, 3, 4 B) 2, 3 C) 1, 4, 5 D) 3, 5 E) 2, 3, 5

9. Bu əsərlər ana dilimizin inkişafında bir mərhələ təşkil edir:
   1. «Aydın» 2. «Oqtay Eloğlu»
   3. «Solğun çiçəklər» 4. «Nəsrəddin şah» 5. «Od gəlini»
   A) 4, 5 B) 3, 4 C) 1, 4, 5 D) 1, 2, 5 E) 2, 3, 5

10. C.Cabbarlı hansı əsəri ilə öz mənəvi böhranını tamamlayır?
    A) «Yaşar» B) «Sevil» C) «Almaz» D) «Dönüş» E) «Od gəlini»

C variantı

1. Milli hökumət devrildikdən sonra C.Cabbarlı hansı əsərləri ilə milli kədərini ifadə edirdi?
   A) «Almaz», «Sevil»
   B) «Nəsrəddin şah», «Od gəlini»
   C) «Vəfalı Səriyyə», «Solğun çiçəklər»
   D) «Aydın», «Oqtay Eloğlu»
   E) «Yaşar», «Dönüş»

2. "Oqtay Eloğlu" əsərindəki hadisələrin ardıcıllığını göstərin.
   1. Tamaşa haqqında çıxan məqalənin müzakirəsi
   2. Oqtayın Firəngizə olan sevgisini dilə gətirməsi
   3. Firəngizin Danyar bəy Qalaçıxanova ərə verilməsi
   4. Xaspoladın teatr direktoru olması
   5. Aslanın Oqtayı evinə dəvət etməsi
   6. Oqtay haqqında Xaspoladın məlumat verməsi
   A) 1, 2, 5, 3, 4, 6 B) 1, 3, 5, 6, 4, 2
   C) 2, 3, 5, 6, 4, 1 D) 6, 1, 2, 4, 5, 3 E) 5, 6, 4, 3, 2, 1

3. "Oqtay Eloğlu" əsərinin məzmunu ilə bağlı ***səhv*** cavabı göstərin.
   A) Aslan bəy Firəngizin Oqtay Eloğluya məhəbbətini qəbul edə bilmir.
   B) Oqtay Eloğlu on illik sürgündən geri qayıtdıqdan sonra təsadüfən bacısı Sevərlə qarşılaşır.
   C) Oqtay Eloğlu Firəngizə çatmaq üçün yenidən tamaşada oynamağa razılıq verir.
   D) Şəkinski Oqtay Eloğlunun tamaşada oynamasına mane olmağa çalışır.
   E) Əsərin sonunda Firəngiz Oqtayı yenidən sınmaqdan qorumaq üçün səhnəyə atılır.

4. Fikirlərdən biri Oqtay Eloğluna ***aid deyil:***
   A) "Yaşamaq istəyirsəksə, yaratmalıyıq"
   B) Teatr fəna bir şey deyil. Bir məktəb kimidir. Xalq ondan ibrət alır.
   C) "Xalq və mən – bu iki söz bir yerə sığışdırılmaz".
   D) "Mən prinslərin saxladığı köpəklər kimi hazır nahara gəlmək istəmirəm".
   E) "Bacarmırsan, yaratma, yaradırsan, yaşat!"

5. *"... Onu başqasına verdilər. O da bu yazığın son örpəyinədək qumara uduzub, axırda çıxartdı, başqa zəngin bir qadın aldı. O, indi azad bir qadındır ..."*
   Bu sözlər kimin dilindən və kim haqqında deyilmişdir?
   A) Xaspolad Sevər haqqında B) Xaspolad Firəngiz haqqında

C) Səməd bəy Sevər haqqında D) Səməd bəy Firəngiz haqqında
E) Aslan bəy Nərgiz haqqında

6. "Oqtay Eloğlu" əsəri ilə bağlı ***səhv*** cavabı göstərin.
A) Mühitə, zəmanəyə etiraz motivi əsərdə aparıcıdır.
B) Altı pərdədən ibarət romantik faciədir.
C) Xalq və xalqa münasibət mövzusu pyesin əsas leytmotivini təşkil edir.
D) C.Cabbarlı xalqa münasibət məsələsini teatr quruculuğu məsələsi ətrafında ümumiləşdirir.
E) Oqtaya qarşı duran aşkar bir cəbhə yoxdur.

7. "Oqtay Eloğlu" əsərindəki Oqtay surəti ilə bağlı ***səhv*** cavabı seçin.
A) Aydından fərqli olaraq, Oqtay Eloğlunun qarşısında ideal vardır: teatr idealı.
B) Oqtayın prototipi C.Cabbarlının özü sayıla bilər.
C) Oqtay mübarizəsini davam etdirmək üçün yenidən səhnəyə atılır.
D) Oqtayın faciəsi milli idealların faciəsidir.
E) Firəngizə məhəbbəti Oqtayın faciəsini daha da dərinləşdirir.

8. "Oqtay Eloğlu" əsərindəki Firəngiz surəti ilə bağlı ***səhv*** cavabı göstərin.
A) Oqtay Firəngizi öldürməklə ondan intiqam alır.
B) O, səhnəyə can atan ilk qaranquşdur.
C) Aslan bəy Firəngizi şəxsi mənafeyinə qurban verir.
D) Firəngizi bədbəxt edən mühitdir.
E) Firəngiz surəti ilk azərbaycanlı qadınının səhnəyə doğru yolunun çətinliklərdən keçib gəldiyini göstərir.

9. Aydın və Oqtay surətləri üçün ortaq cəhətləri seçin.
1. Hər ikisinin yaşadığı mühit onların məhəbbətini məhv edir.
2. Cəmiyyətin sosial və mənəvi qanunlarına etiraz edirlər.
3. Hər ikisinin qarşısında konkret idealı var.
4. Hər ikisi həqiqətsizlik böhranı yaşayır.
5. Hər ikisi də mübariz qəhrəman səviyyəsinə yüksələ bilir.
A) 1, 2, 4 B) 3, 5 C) 1, 2, 3 D) 4, 5 E) 2, 3, 5

10. "Oqtay Eloğlu" əsərində qadın surətləri sırasında verilə ***bilməz:***
A) Nərgiz B) Firəngiz C) Nadya D) Gültəkin E) Sevər

Səməd Vurğun

(1906 – 1956)

S.Vurğun ən yeni dövr Azərbaycan poeziyasının və müasir Azərbaycan ədəbiyyatının banisidir.

Ölməz bədii əsərləri ilə Azərbaycan ədəbiyyatını zənginləşdirən, yüksəldən Səməd Vurğun azərbaycançılıq ideologiyasının yaradıcılarındandır.

Əvvəllər əruz vəzninə, sonralar proletar üslubu kimi, sərbəst şeirə meyil etsə də, daha sonra həmişəlik heca vəzninə, xalq şeiri üslubuna qayıtmış, əvəzsiz poetik irs qoyub getmişdir.

Həyatı

S.Vurğun 1906-cı il martın 21-də Qazax rayonunun Yuxarı Salahlı kəndində – Yusif ağa Vəkilovun ailəsində anadan olmuşdur. Atası Yusif ağa dövrünün sayılan şəxslərindən olmuşdur.

Səməd anası Məhbubə xanımı çox erkən – 6 yaşında ikən itirmiş, onun tərbiyəsi ilə nənəsi Ayişə xanım məşğul olmuşdur.

Səməd ilk təhsilini öz kəndlərindəki beşillik rus-tatar məktəbində almışdır. Bu məktəbdə təhsil rus dilində olsa da, ana dili dərsləri çox ciddi şəkildə keçirilir və ana dilimiz şagirdlərə lazım olan səviyyədə öyrədilirdi.

1918-ci ildə Səmədin ailəsi Qazaxa köçür və Səməd F.Köçərlinin burada açdığı Müəllimlər Seminariyasına daxil olur. Seminariyada təhsil ana dilində idi. Seminariya mühiti Səmədin yetkinliyinə, mənəvi inkişafına qüvvətli təkan verir; o, musiqi və dram dərnəklərinin üzvü olur, divar qəzetlərində çıxış edir, skripka çalmağı öyrənir. Səməd o zaman özü də qoşmalar yazır, daha çox M.V.Vidadini, M.P.Vaqifi, Q.Zakiri, T.Fikrəti, A.S.Puşkini, M.Y.Lermontovu oxuyurmuş. Yazdığı şeirlər seminariyanın divar qəzetində dərc olunurmuş.

Şair 1920-ci ildə komsomol sıralarına daxil olur. O, gənc komsomolçu kimi ictimai həyata qoşulur. Səməd özünün bu dövr həyatını "Komsomol poeması"nda təsvir etmişdir.

Seminariyanı bitirdikdən sonra Səməd əvvəl Qazax məktəblərində, 1926-1927-ci illərdə Qubada, 1928-ci ildən Gəncə partiya məktəbində və orta məktəblərdən birində dərs demişdir. Gəncədə Mir Cəlal, Seyfulla Şamilov, Həmid Araslı, Əhməd Cəmil kimi cavan ədiblərlə tanış olmuş, "Qızıl Gəncə" jurnalında şeirlərini Səməd Vurğun imzası ilə çap etdirmişdir.

1929-cu ildə S.Vurğun Moskva Universitetinin dünya ədəbiyyatı fakültəsinə daxil olmuş, rus və dünya ədəbiyyatını yaxından öyrənmişdir. O, 20-ci illərin sonlarında artıq ədəbi aləmdə istedadlı bir şair kimi tanınırdı. Ümumiyyətlə, Moskva Universitetində oxuduğu zaman S.Vurğunun yaradıcılığında ciddi dönüş yaranır. Şair ilk qələm təcrübəsi kimi yazdığı intim lirik şeirlərdən uzaqlaşır. Təsadüfi deyil ki, sonralar həmin lirik parçaları **"Ölən şeirlərim"** (1931) adlandırmışdı.

1931-ci ildə Bakıya qayıtmış və Elmi Tədqiqat İnstitutunun aspiranturasına daxil olmuşdur. Lakin elmi işdən daha çox bədii yaradıcılığa meyil göstərmiş, sonra isə özünü bütünlüklə bədii yaradıcılığa həsr etmişdir.

S.Vurğun 1930-cu ildə **"Şairin andı"** adlı ilk şeir kitabını çap etdirir. 1932-ci ildə **"Fanar"**, 1934-cü ildə **"Könül dəftəri"**, 1935-ci ildə **"Şeirlər"** adlı kitabları nəşr olunur. S.Vurğun bədii yaradıcılıqla yanaşı, bir çox məsul vəzifələrdə də çalışmışdır.

1934-cü ildə Azərbaycan Yazıçılar İttifaqının məsul katibi və SSRİ Yazıçılar İttifaqının İdarə Heyətinin üzvü, 1935-ci ildə ZFSSR İcraiyyə Komitəsinin üzvü seçilmişdir.

1936-cı ildə Azərbaycandan mərkəzə gedən heyətin tərkibində S.Vurğun da Moskvada – Stalinin qəbulunda olmuş və ona həsr etdiyi "Rəhbərə salam" şeirini oxumuşdur. Şeir Stalinin xoşuna gəlmiş və bu şeir şairə uğur gətirmişdi.

1936-cı ildən S.Vurğun bədii yaradıcılıqla daha ciddi məşğul olur; tərcümələr edir, bir sıra poema, pyes və vətənpərvərlik ruhunda şeirlər yazır.

S.Vurğun 1941-ci ildən 1948-ci ilə qədər, arada bir illik fasilə olmaqla, Azərbaycan Yazıçılar İttifaqının sədri olmuşdur.

Müharibə illərində şair cəbhədəki əsgərlərlə görüşür, onlara xalqımızın azadlıq uğrundakı mübarizələri tarixindən söz açır, bəzən döyüşçülərlə məktublaşır, sovet adamında faşizmə nifrət, müharibənin qələbə ilə bitəcəyinə inam hissi yaradır, arxa cəbhədə zəhmətkeşlər qarşısında çıxış edirdi. Arxa cəbhəni ön cəbhənin qələbəsi naminə işləməyə, çalışmağa həvəsləndirirdi.

1945-ci ildə S.Vurğun Azərbaycan Elmlər Akademiyasının həqiqi üzvü seçilmiş, ilk akademiklərimizdən biri olmuş, bir müddət (1954-1956-cı illərdə) Akademiyanın vitse-prezidenti vəzifəsində çalışmışdır. O, "Azərbaycan tarixi" və "Azərbaycan ədəbiyyatı tarixi" kitablarının hazırlanmasında yaxından iştirak etmiş, klassiklərimizin əsərlərinin və xalq ədəbiyyatı nümunələrinin toplanması və kütləvi tirajla nəşr edilməsi üçün bir sıra mühüm işlər görmüşdür.

Həyatının, yaradıcılığının ən mənalı, məsuliyyətli çağında – 1955-ci ildə şairin səhhəti gözlənilmədən pisləşir. O, sağalmaz xəstəliyə tutulur.

1956-cı ildə S.Vurğunun 50 illik yubileyi təntənəli şəkildə keçirilmiş, Azərbaycanda ilk dəfə olaraq **"Xalq şairi"** fəxri adı məhz ona verilmişdir.

S.Vurğun 1956-cı il mayın 27-də vəfat etmişdir. Qəbri Fəxri xiyabandadır.

Yaradıcılığı

S.Vurğunun yaradıcılığının ilk dövrü 1920-ci illərin əvvəllərinə – Qazax Müəllimlər Seminariyasında oxuduğu dövrə təsadüf edir. Şairin bizə məlum olan romantik ruhlu ilk lirik şeirləri, əsasən, əruz vəznində olmuşdur. İlk və nakam məhəbbətinə – Dürrəyə həsr olunmuş bu şeirlərdə şəxsi kədər, uğursuz məhəbbətdən doğan şikayət, etiraz, bədbinlik üstünlük təşkil etsə də. bəzən zəif şəkildə köhnəliyə etiraz da özünü göstərirdi.

Fikrim düşünür o əski anı,
Dürrə! Səni sevdiyim zamanı...
Röyamı, nədir bu gördüyüm, ah?!
Xülyamı, nədir bu aləm, ey vah?!

S.Vurğunun ilk qələm təcrübəsi, bədbin şeirlər dövrü çox tez qurtardı. "Mən and içmişəm ki, bir də qələmim Gözəllərdən ilham almayacaqdır", – deyən şair yaradıcılığı ilə yeni qurulmaqda olan cəmiyyətdə öz yerini müəyyənləşdirməyə, fəal vətəndaş mövqeyi tutmağa çalışır. İctimai–siyasi mövzuda yazdığı **"Şairin andı"**, **"Raport"**, **"Fanar"** kimi şeirlər belə yaranır.

Yaradıcılığının ilk illərində həm əruz vəznində, həm də sərbəst formada şeirlər yazan şair tezliklə heca vəznini milli şeirimiz üçün daha doğma saymış, bu vəznin parlaq nümunələrini yaratmış, sovet gerçəkliyini özünəməxsus dəst-xətlə tərənnüm etməyə başlamış, əsl milli şeirimizə qayıtmışdır.

Bu dönüş həm S.Vurğunun öz yaradıcılığı üçün, həm də Azərbaycan şeir dilinin inkişafı üçün çox böyük əhəmiyyət kəsb etmişdir. O, heca vəznində, müasir Azərbaycan ədəbi dilində yazdığı əvəzsiz şeirləri ilə heca vəznini Azərbaycan poeziyasının şəriksiz və həmişəlik əsas vəzni kimi təsdiqləmişdir.

Molla Pənah Vaqifin yaradıcılığından ilhamlanan S.Vurğun 1935-ci ildə **"Şairin ölümü"** şeirini yazdı. Şeirdə Vaqifin xalq dilinə məhəbbətini oxucunun diqqətinə çatdırmaqla bu məsələyə öz münasibətini də bildirdi:

Dedin ki, el dili, el şeiri gərək,
Böyük bir ölkəyə qanad gərərək,
Üfüqdən üfüqə çapsın atını.
Əziz bir ölkənin xatiratını
Verməyək dağıdan, vuran əllərə,
Doğma sənət gərək bizim ellərə.

Bolşeviklər burjua millətçiliyinə (əsasən, müsavatçılara), romantik, millətçi türk inqilabi poeziyasına, əruz vəzninə düşmən kəsildiyi bir vaxtda S.Vurğun ədəbiyyatımızda azərbaycançılıq, vətənçilik bayrağını qaldırdı. Şair Azərbaycan xalqının böyük qəhrəmanlıq və mədəniyyət tarixini vəsf edib ucaltmağa başladı. Xalqçılıq ideyaları bolşevizmə yad deyildi və S.Vurğun bundan məharətlə istifadə etdi.

Nədən şeirimizin baş qəhrəmanı
Gah Turandan gəlir, gah da İrandan?
Bəs mənim ölkəmin varlığı hanı?
Budur mən açdığım yarış meydanı,
Gəlsin Vərxarnı yamsılayanlar,
Çoxdan danışmayan sevgilim hanı?

S.Vurğuna qədər poeziyamızda azərbaycançılıq məfkurəsi, milli hislərin tərənnümü bir o qədər də güclü deyildi. Şair tezliklə anlayır və anladır ki, Azərbaycan azərbaycanlıların şəriksiz vətənidir. Azərbaycan Respublikasının varlığı xalqın varlığının, milli nailiyyətlərinin təsdiqi və sübutudur. Şair Azərbaycan xalqının dünənki qəhrəmanlıq və bugünkü mədəniyyət tarixini vəsf edib ucaltmaqla Azərbaycana olan əvəzsiz, sonsuz sevgisini, azərbaycanlıların milli qürur hissini ucaltmışdır.

Azərbaycançılıq məfkurəsində A.Bakıxanovun, M.F.Axundzadənin, N.Nərimanovun, M.Ə.Rəsulzadənin, C.Məmmədquluzadənin, C.Cabbarlının əsl xələfi kimi çıxış edən S.Vurğun **1935-ci ildə "Azərbaycan"** şeirini – azərbaycançılığın poetik manifestini yazdı. Bu əsər Azərbaycan vətənçiliyinin pasportu sayılır. Azərbaycanlı olması ilə fəxr edən, vətəni sevə-sevə tərənnüm edən S.Vurğun "Azərbaycan" şeiri ilə əsl milli şair səviyyəsinə yüksəlmişdir. Azərbaycan vətənpərvərliyinin ali zirvəsi sayılan bu şeirdə şair öz xalqına mənsubluğundan qürur hissi keçirir, doğma vətənin varlığını: onun torpağını, suyunu, havasını, duz və çörəyini – bir sözlə, hər şeyini çox səmimi bir dillə tərənnüm edir. Şeirdə "böyük bir keçmişi olan", "yaşı bilinməyən" Azərbaycanın təbii gözəllikləri ilə yanaşı, onun ictimai inkişafı, əldə etdiyi nailiyyətlər, xoşbəxt günləri də tərifləmir. Şeirdəki fəxarət hisləri təsadüfi, keçici bir hal deyildi, S.Vurğun yaradıcılığı boyu dönə-dönə bu hislərin ifadəsinə qayıtmışdır.

El bilir ki, sən mənimsən,
Yurdum, yuvam, məskənimsən,
Anam, doğma vətənimsən!
Ayrılarmı könül candan?
Azərbaycan, Azərbaycan!

Dağlarının başı qardır,
Ağ örpəyin buludlardır,
Böyük bir keçmişin vardır.
Bilinməyir yaşın sənin,
Nələr çəkmiş başın sənin?!

Hətta 1930-cu illərin əvvəllərində S.Vurğun 30 poemadan ibarət **"Azərbaycan" epopeyası** yaratmaq istəmiş, bu niyyətlə bir neçə poema da yazmışdır.

Hələ uşaqlıqdan təbiətin vurğunu olan S.Vurğun bütün yaradıcılığı boyu Vətəninin əfsanəvi gözəlliklərindən ilhama gəlmiş, doğma təbiətin füsunkarlığını realistcəsinə qələmə almışdır. **"Dilcan dərəsi", "Göy göl", "Kür çayı", "Bizim dağların", "Dağlar"** kimi şeirləri məhz təbiətin özü qədər saf və şairanədir:

Yasəmənlər, gül reyhanlar ocağı,
Bizim dağlar bir təbabət qucağı,
Dişləri göynədən soyuq bulağı...
Genişdir meydanı bizim dağların.

Şair təbiətə sadəcə daş, torpaq, ağac kimi baxmır, onda "insan kamalını", "çırpınan ürəklərin həyəcanlarını" axtarır.

Alman faşizminin SSRİ-yə hücumu barədə xəbər verilən gün şair **"Vətən keşiyində"** şeirini yazdı. Bu şeir mahiyyəti etibarilə şairin səfərbərlik çağırışı, əsgər andı idi. Uzaqgörənliklə düşmənin məğlub ediləcəyini bildirən S.Vurğun bütün sovet adamlarını əvvəlki dinc həyata qovuşmaq, tezliklə zəfərlər qazanmaq ümidi ilə dözümlü və iradəli olmağa səslədi. Şairin sabaha ümid dolu baxışı xalqa da nikbin ruh verirdi:

Bu ellər gecəni qatıb gündüzə,
Faşist ordusuyla gəlib üz-üzə,
Dastanlar yazacaq öz hünəriylə,
Ordular basacaq öz zəfəriylə.

Ümumiyyətlə, hərbi mövzu şairin vətənpərvər ruhuna yaxın və doğma idi. S.Vurğun sovet adamının faşizmə nifrətini, müharibənin qələbə ilə bitəcəyinə inamını ifadə edən **"Rəhbərin çağırışı", "Ananın öyüdü", "Şəfqət bacısı", "Partizan Babaş", "Təzə il sovqatı", "Qəhrəmanın hünəri", "Gözaydınlığı"** kimi şeirlərini yazdı. "Şəfqət bacısı" şeirində ana və bacılarımızı da səngərlərə, igid əsgərlərə kömək etməyə – vətəni, eli, yurdu qorumağa çağırırdı:

Gəl çıxaq cəbhəyə, əmr edir Vətən,
Sən də bu meydanda kükrəyib çağla!
Düşmənin gülləsi dəysə sinəmdən,
Mehriban əlinlə yaramı bağla!
Həyat verəcəkdir bizə dərmanın,
Əlinlə yazılsın hökmü zamanın.

Şair şeirlərinin bir çoxunda ön cəbhədə vuruşan döyüşçülərin obrazını, qələbə əzmini tərənnüm etmişdir.

"Leyla" şeiri Azərbaycanın ilk təyyarəçi qadını haqqında yazılmış əsgər nəğməsidir. Gənc bir qızın – təyyarəçi Leyla Məmmədbəyovanın şərəfinə deyilən bu nəğmədə səmimi lirika, qəlbəyatan romantika, qadın qəhrəmanına bir qardaş məhəbbəti vardır. Vurğun Leylanı bütün Şərq qadınlığının timsalı kimi götürür, qeyrətli Azərbaycan qızının nail olduğu qələbəni, azadlığı həvəslə, fəxrlə el-obaya çatdırır:

Sən göylər yolçusu bir azad quşsan,
Aylı gecələrdə görürəm səni.
Zöhrə ulduzuna məftun olmuşsan,
Sürürsən üstünə öz təyyarəni!

Mən demədim sənə: "Ay ağzı püstə!"
Havadır oylağın, Yerdir Vətənin.
Dumanlar içindən, əli göz üstə
Qoca Şərq boylanır dalınca sənin...

Azərbaycan şeir dilinin yad təsirlərdən təmizlənməsində, sadə, səlis, şirin ana dilinin meydanının şeirdə üstünlük kəsb etməsində S.Vurğunun rolu böyükdür. O, bir tərəfdən, aşıq şeirinin, xalq poeziyasının aydın və səmimi dilinə, digər tərəfdən, Füzuli, Vaqif şeirindəki yüksək sənətkarlıq xüsusiyyətlərinə söykənmiş və əvəzsiz sənət inciləri yaratmışdır.

Poemalar. 1930-cu illərdən başlayaraq S.Vurğun müasir və tarixi-əfsanəvi mövzularda "Komsomol poeması", "Ölüm kürsüsü", "26-lar", "Qız qayası", "Bulaq əfsanəsi", "Dar ağacı", "Ölən məhəbbət", "Aslan qayası", "Talıstan", "Üsyan", "Bəsti", "Ayın əfsanəsi"; müharibə illərində və müharibədən sonra "Bakının dastanı", "Zəncinin arzuları", "Muğan", "Köhnə dostlar", "Leninin kitabı", "Aygün", "Zamanın bayraqdarı" və s. poemalarını yazmışdır.

Ümumiyyətlə, S.Vurğunun poemaları həyatı əksetdirmə üsuluna görə 2 yerə ayrılır: epik poemalar, lirik poemalar.

"Komsomol poeması" həm məzmunu, həm bədii vüsəti, həm də hadisələri əhatə dairəsinin genişliyi etibarilə Azərbaycan ədəbiyyatında

mühüm yer tutur. "Komsomol poeması" şairin sonrakı əsərlərinə proyektor kimi həmişə işıq salmışdır.

Əsərdə Azərbaycanda yeni həyat uğrunda gedən mübarizədən – dağ kəndlərində fəaliyyət göstərən yeddi nəfərlik komsomolçu gəncdən, onların mübarizəsindən bəhs edilir.

Şair onların hər birini bitkin xarakter səviyyəsinə qaldırmışdır. Düzdür, əsər müəyyən bir dövrü, tarixi hadisəni əks etdirir, lakin ona tarixi əsər demək olmaz. Çünki surətlər – Gəray bəy, Bəxtiyar, Cəlal, Humay, Şahsuvar və başqaları konkret tarixi şəxsiyyətlər deyillər. Onlar dövrün ən tipik, ən xarakterik adamları, bəlkə, şairin yaradıcı təxəyyülünün məhsuludur. Bu obrazların hər birinin əsasında, sözsüz ki, şairin şəxsən tanıdığı adamlar dururlar.

Bu əsərdə S.Vurğun öz nakam məhəbbətinə də işarə etmişdir. Bu mənada, poemadakı Cəlal obrazının prototipi şair özü, Cəlalın sevgilisi Humayın prototipi isə Dürrədir (şairin seminariyadan tanıdığı və dəlicəsinə sevdiyi, bəzi ilk şeirlərini həsr etdiyi qız). Hər iki sevgili köhnəpərəst qüvvələrin qurbanı olur. Faciə, kədər motivləri poemada şairin poetik fəaliyyətinin, ilhamının ayrılmaz keyfiyyətləri kimi bir daha təsdiqini tapmışdır.

Bu poema şeiriyyət baxımından da şairin ən gözəl əsərlərindəndir. Şairin yaradıcı ruhu, aləmi bu əsərdə daha aydın görünür. S.Vurğun bu poemada Azərbaycan xalqının böyük qəhrəmanlıq və mədəniyyət tarixini də vəsf etdi. Azərbaycanın varlığını axtarmağı, onu poeziyanın əsas tərənnüm obyektinə çevirməyi, milli şeir üslubu uğrunda mübarizə aparmağı, azərbaycanlının milli qürur hissinə müraciət etməyi S.Vurğun məharətlə bacardı.

Əməklə ucalan insan, onun yeni keyfiyyətlərlə zəngin olan mənəvi aləmi də S.Vurğun yaradıcılığında mühüm yer tutur. Şair bu mövzuya "Kənd səhəri", "Muradxan", "Lökbatan", "Bəsti", "Muğan", "Köhnə dostlar" kimi poemalarını həsr etmişdir.

S.Vurğunun müxtəlif illərdə yazdığı poemalarını mövzu baxımından 3 qrupa ayırmaq olar:

1) əfsanəvi mövzulara həsr olunmuş poemalar

2) tarixi mövzulara həsr olunmuş poemalar

3) sovet həyatını əks etdirən poemalar

1930-cu illərdə folklora, xalq ədəbiyyatının toplanmasına, nəşrinə xüsusi diqqət yetirilirdi. Keçmiş dövrlərin ədəbiyyatına, klassiklərin əsərlərinə səhv, yanlış yanaşan bolşevik ideoloqları da xalq ədəbiyyatına zəhmətkeş siniflərin ədəbiyyatı kimi dəyər verirdilər. Onlar dastan, nağıl, əfsanə, mif süjetlərindən istifadəyə xəlqilik kimi baxırdılar.

S.Vurğunun da "Bulaq əfsanəsi", "Qız qayası", "Aslan qayası", "Ayın əfsanəsi", "Hürmüz və Əhrimən" kimi poemalarının bir qismi xalq əfsanə və süjetləri, bəziləri də "Avesta" motivləri əsasında yazılmışdır.

S.Vurğunun tarixi mövzuda qələmə aldığı poemaları: "Ölüm kürsüsü", "Zəncinin arzuları", "Dar ağacı", "Üsyan", "Macəra", "Zamanın bayraqdarı", "26-lar" öz ideoloji keyfiyyətləri ilə seçilir. Bədii dəyərinə görə zəngin olan bu əsərlər ideya və motivləri cəhətdən S.Vurğunun sovet həyatını əks etdirən poemalarına çox yaxındır.

"Muğan" və "Aygün" poemalarını sovet həyatını, bu dövrün yeni insanını əks etdirən poemalar kimi götürmək olar.

Yeni insanın bədii obrazını yaratmaq, onun əməl və mübarizəsini əks etdirmək məqsədilə S.Vurğun 1947–1949-cu illərdə **"Muğan"** poemasını yazdı. Sənətkar yeni insanın ən yaxşı sifətlərini, mənəvi aləmini əks etdirməklə belə gözəl xüsusiyyətlərin tək-tək adamlara deyil, bəlkə də, bütün azərbaycanlılara xas olduğunu göstərmək istəmişdir. "Muğan" poeması şairin əmək mövzusunda yazdığı poemalar içərisində xüsusi yer tutur.

Poema, əsasən, şairin öz gəzintilərindən, səfərlərindən aldığı təəssürat əsasında yaranmışdır. Lirik təhkiyəyə əsaslanan bu poemada tərənnüm çox güclüdür. Əsər romantika ilə dolu 19 nəğmədən ibarətdir.

Ən böyük tikintiyə – Mingəçevir tikintisinə həsr olunmuş bu poemada vətənimizin bir hissəsi olan Muğanın keçmişi, bu günü, gələcəyi vəhdətdə verilmişdir. Şairin addım-addım Muğanı gəzməsi, şahidi olduğu hadisə və gördüyü adamlar haqqında mühakimələrinin silsilə kimi verilməsi əsərin ana xəttini təşkil edir. Bu əsərdə keçmişlə bu günün vəhdətdə götürülməsi poemanın novator keyfiyyətlərindəndir. Qoca arxeoloqun şairlə söhbətində keçmişə müraciəti, Zərdüştün yad edilməsi poemanın ən maraqlı səhifələrindəndir. S.Vurğunun bəzi poemaları ("Komsomol poeması", "Aygün" və s.) üçün səciyyəvi olan müəllif – şair obrazı bu

poemada da bəzi mətləblərin konkretləşməsinə, sənədliliyin gücləndirilməsinə xidmət edir.

Əsər S.Vurğunun Muğana, Kür sahillərinə səyahətinin təsviri ilə başlayır. Hələ poemanın "Təbiət ilhama çağırır məni" ifadəsi ilə açılan proloqunda şair öz poetik niyyətini ifadə edir. "Muğan" Azərbaycan təbiəti haqqında bir dastandır və bu dastanın baş qəhrəmanı Muğan təbiətinin özüdür. Burada tərənnüm olunan ilk obrazlardan biri "çöllər qızı" qaragöz ceyrandır.

Sükuta qərq olmuş ürəyimlə mən
Keçirəm yenə də Muğan çölündən.
Yanında balası, yağış gölündən
Əyilib su içir bir ana ceyran.

Poema boyu şair özü əsərin əsas obrazlarından birinə çevrilir. O gah qoca sürücü ilə, gah qoca çobanla söhbət edir, qocanın dediyi : "Muğan Muğan olsa, biri üç eylər, Muğan tufan olsa, üçü heç eylər" sözlərini oxucuya çatdırır. Bəzən kosmopolit tənqidçilərlə polemika (mübahisə) aparır:

Kosmopolit tənqidçilər ömrü boyu dandı məni,
Dedi: "Əsl şairlərin nə yurdu var, nə vətəni".
Dedi: "Bütün Yer üzüdür sənətkarın ana yurdu.
Bizim çoban şairi də saz üstündə şeir qurdu".

Əslində milli dəyərlərdən uzaq olan bu cür tənqidçilərə şair bir vətənpərvər, millətsevər cavabı verir:

Sizin kimi nökər olub yad ocağı qalamadım,
Vətənimin vüqarıtək vüqarlıdır mənim adım...

S.Vurğun "Muğan"da Zərdüştün Muğan səhrasını gəzib dolaşması haqqında da məlumat verir. Deməli, "Muğan" poeması yalnız şairin öz səfərlərindən alınan təəssüratların ifadəsi deyil, həm də tarixə dair qədim qaynaqların öyrənilməsi, araşdırılması məhsuludur. S.Vurğun bu poemada yeniləşən, quru səhradan nəhəng sənaye və mədəniyyət ocağına çevrilən Muğanın şairanə tarixçəsini vermişdir.

Poemanın canlı adamlarla, öz müasirləri ilə – Sarvan və Manya ilə əlaqədar olan nəğmələri daha yığcam, təbii və gözəldir.

"Qəhrəmanın zəfəri" nəğməsində Mingəçevir qəhrəmanı Sarvanın (Sarvan Salmanovun) pambıq ustası Manya Kərimovaya yarışda qalib gəlməsi, lakin Sarvanın öyünməməsi, lovğalanmaması, bu məğlubiyyətdən Manyanın heç də pərt olmaması göstərilir. Çünki bu insanlar öz şəxsi mənafeləri üçün yox, Vətənin bir parçası olan Mingəçevirin gələcəyi naminə çalışırlar. Beləliklə, "Muğan" poemasında həm gözəl vətənimizin, həm əsl insanların, həm də böyük şairin obrazını görürük. Ümumiyyətlə, Muğan poemada adi, məhdud coğrafi məfhum kimi başa düşülmür və Azərbaycan adlı bir Vətənin dolğun bədii obrazına çevrilir.

1952-ci ildə S.Vurğun "Aygün" poemasını "İnqilab və mədəniyyət" jurnalında dərc etdirir.

Epik planda, geniş həyati lövhələr əsasında yazılmış "Aygün" poeması Azərbaycan poeziyasında çox vaxt mənzum roman kimi qiymətləndirilir.

Ailə-məişət probleminə həsr olunmuş bu əsərin əsas qəhrəmanı Aygündür. S.Vurğun Aygünün timsalında ideal Azərbaycan qadınının surətini yaratmışdır.

Qeyrətli, zəhmətkeş Azərbaycan qadınlarının taleyi həmişə S.Vurğunu düşündürmüş, bir sıra şeir və poemalarında şair bu məsələyə toxunmuşdur. Şair Azərbaycan qadınının möhkəm xarakterinə, müqayisəyəgəlməz sədaqətinə, qeyrətinə inanırdı. O, bu xüsusiyyətləri "Aygün" mənzum romanında daha qabarıq ifadə etmişdir. Şair göstərmişdir ki, Azərbaycan qadını istehsalatda, mədəniyyətdə çalışsa da, onun milli əxlaqi siması həmişə pak və ləkəsizdir. Aygün məhz bu cür qadındır.

Əsərin əsas qəhrəmanı olan Aygün poemanın əvvəlində ailəsinə görə sənətini buraxır, şəhərdən kəndə köçür. Kənddə də bu ailə istədikləri kimi xoşbəxtlik, səadət tapa bilmir, yenidən şəhərə qayıdırlar. Lakin onların ailəsi həyatın sınaqlarına dözə bilmir: Aygün ərindən ayrılmalı və qızı Ülkəri tək böyütməli olur. Cavan və gözəl olduğu qədər də, istedadlı olan Aygün öz bəstəkarlıq təhsilini davam etdirmək üçün vaxtilə təhsil aldığı konservatoriyaya qayıdır. Sənətini – bəstəkarlığını davam etdirir. O, bacarığı, zəhməti sayəsində ucalır, şanlı-şöhrətli bir insana çevrilir. Lakin Aygün sevgisinə sadiq qalır, Ülkərin ürəyində atası Əmirxana olan böyük

məhəbbətə, incə hislərə hörmətlə yanaşır. Əsərin sonunda Aygünün yenidən Əmirxanla birləşəcəyinə aşkar inam yaranır.

"Aygün", əsasən, ailə-məişət planında yazılsa da, burada əməyin insan xarakterini dəyişmək, ucaltmaq qüdrətindən də söz açılır. Belə ki, əsərin ilk fəsillərində zamanın tələblərindən geri qalan, dövrlə səsləşə bilməyən xudbin, qısqanc, qüsurlu Əmirxan sonradan yenidən kəndə gəlir, öz peşəsinə qayıdır, torpağa bağlanır. Bir tərəfdən, əməyin qüdrəti ilə, digər tərəfdən, məhəbbətin təsiri ilə dəyişir, yenidən tərbiyə olunur, ucalır, cəmiyyət və ailə üçün lazımlı insana çevrilir.

Aygün romantik sədaqət rəmzidir, şairin qadın idealıdır.

Dramaturgiyası. S.Vurğunun yaradıcılığında pyesləri də mühüm yer tutur. Onun dörd mənzum pyesi vardır. Pyeslərin dördü də janrına görə dram hesab edilir. Hamısı da heca vəznində yazılmış mənzum dramlardır: "Vaqif" (1937), "Xanlar" (1939), "Fərhad və Şirin" (1941), "İnsan" (1945).

Beləliklə, S.Vurğun H.Caviddən sonra mənzum dram janrına daha güclü meydan yaradır.

Bu əsərlərdən 3-ü: "Vaqif", "Xanlar", "Fərhad və Şirin" tarixi mövzudadır. Bu əsərlərdə S.Vurğun C.Cabbarlı ənənələrinin davamçısı kimi görünür. S.Vurğun tarixi mövzulardan xalqımızın qədimlərdən gələn taleyi barədə məlumat vermək üçün istifadə etmişdir.

"Xanlar" pyesində Azərbaycan bolşeviklərinin, inqilabçı Xanlar Səfərəliyevin bədii obrazı yaradılmışdır. Əsər inqilabi tariximizə həsr olunmuşdur. Müəllifin əsas məqsədi inqilabçı fəhlə Xanlar Səfərəliyevin bədii obrazını yaratmaqla, Azərbaycanın, Azərbaycan xalqının inqilabi mübarizə keçmişini, övladlarının mərdliyini, mətanətini, sədaqətini göstərmək idi. S.Vurğun özü yazırdı ki: "Mən gənc fəhlə–neftçi Xanların şanlı obrazını son dərəcə canlı təsvir etmək istəyirəm ki, gənclərimiz onun mətanətini, sosializmin qələbəsi uğrunda mübarizə işində hədsiz sədaqətini yaxşı mənimsəyə bilsinlər".

Göründüyü kimi, şairin arzusu Vətən oğlunun əsl obrazını yaratmaq olmuşsa da, əsər şəxsiyyətə pərəstişin şiddətli vaxtında yazıldığından burada Stalinin (Koba) fəaliyyəti də qabarıq verilmiş, hətta bir qədər şişirdilmişdir. Nəticə etibarilə Koba əsərdəki hadisələri istiqamətləndirən,

süjet xəttini aparan baş qəhrəmana çevrilmiş, Xanlar obrazı isə haradasa kölgədə qalmışdır.

Üçüncü dramaturji əsəri olan **"Fərhad və Şirin"**i S.Vurğun 1941-ci ildə – Böyük Vətən müharibəsinin qızğın dövründə qələmə almışdır. Əsər dahi Nizaminin "Xosrov və Şirin" mənzum romanının motivləri əsasında yazılmışdır.

Pyesdə Xosrovun Şirinə məhəbbəti İranın Azərbaycana sahib olması üçün uydurulmuş siyasi hiylə kimi göstərilirsə, Fərhadın Şirinə olan saf məhəbbəti həqiqi sevgi kimi verilir, Nizamidə olandan fərqli olaraq, bir qədər də ön plana çəkilir. Fərhadın Şirinə məhəbbəti, mənəviyyatı, duyğu və düşüncələri təmizdir, safdır, çox yüksəkdir. S.Vurğunun Fərhadı aşiq və sənətkardan başqa, həm də vətəni müdafiəyə qalxan bir sərkərdədir. Fərhadın sənəti də, məhəbbəti də vətənpərvərliyə xidmət edir.

Əsərdə hökmdar və zəmanə, zəhmət və məhəbbət, insanlıq və ideal kimi məsələlərə də toxunulur. Hadisələrə həmişə zamanın gözü ilə baxmağı bacaran S.Vurğun "Fərhad və Şirin" əsərində xalqa sonsuz məhəbbət, hər cür zülmə, ədalətsizliyə və köləliyə nifrət, xalqın qalib gələcəyinə inam hislərini qabartmış, konkret olaraq xalqı faşizmə, bütövlükdə isə hər cür zülmə, haqsızlığa, riyakarlığa qarşı amansız və qətiyyətli mübarizəyə çağırmışdır.

S.Vurğunun **"İnsan"** pyesi müharibə və sülh problemləri barədə yazılmış romantik ruhlu fəlsəfi dramdır. Bu əsər müasir mövzuda yazıldığına görə şairin dramaturgiyasında ciddi əhəmiyyətə malikdir. S.Vurğun bu əsərdə müharibənin səbəbləri barədə düşünür, insanlığın müharibələr erasından birdəfəlik uzaqlaşmasını arzulayır.

S.Vurğun filosof Şahbazın dediyi: "Qalib gələcəkmi cahanda kamal?"– sualı ətrafında həm öz qəhrəmanını, həm də hər bir oxucunu düşündürür, inkişaf edən bəşəriyyət üçün real təhlükə sayılan müharibəyə qarşı insanlarda nifrət hissi oyadır. Elə bu sual da pyesin əsas qayəsini təşkil edir.

"İnsan" pyesi haqqında S.Vurğun özü belə yazırdı: "Əsərdə insan taleyi faciələr içindən günəşli-gündüzlü bir səhərə, istiqbala, şüur və idrakın hakim olduğu bir dünyaya yol açır".

S.Vurğun hələ 1947-ci ildə yazdığı "Həyat fəlsəfəsi" şeirində müharibəyə və onun törətdiyi fəlakətlərə öz münasibətini bildirmiş,

"işığın qaranlıqla pəncələşməsi"ndən, "fəlakətin qocalması"ndan, "səadətin gəncliyi"ndən söz açmışdır. Görünür, "İnsan" pyesindəki əsas ideyalar da məhz bu motivlərdən gəlir. S.Vurğun müharibənin törətdiyi dəhşətləri ümumiləşdirmək, müharibənin fəlsəfi mahiyyətini açmaq üçün yaratdığı hər iki filosof Şahbaz obrazını (həm ata Şahbaz, həm də oğul Şahbaz obrazlarını) həyat müşahidələrindən daha çox, təxəyyülünün gücü ilə yaratmışdır.

Tərcümə etdiyi əsərlər:

S.Vurğunun parlaq istedadı, şairlik qüdrəti onun tərcümələrində də özünü göstərmişdir. Şairin tərcümələri bədii keyfiyyətinə görə öz orijinal əsərlərindən, demək olar ki, fərqlənmir. A.S.Puşkinin "Yevgeni Onegin" poemasının tərcüməsi S.Vurğunun yaradıcılığında xüsusi bir hadisəyə çevrilmişdir.

1. O, 1936-cı ildə A.S.Puşkinin "Yevgeni Onegin" mənzum romanını Azərbaycan dilinə çevirmişdir.

2. 1937-ci ildə böyük gürcü şairi Şota Rustavelinin "Pələng dərisi geymiş pəhləvan" poemasını Azərbaycan dilinə tərcümə etmişdir (S.Rüstəm və M.Rahimlə birlikdə).

3. Təqribən 1940–1941-ci illərdə N.Gəncəvinin "Leyli və Məcnun" poemasını dilimizə tərcümə etmişdir.

4. S.Vurğun müxtəlif vaxtlarda M.Qorkinin "Qız və ölüm" poemasını, İ.Çavçavadzenin "Şair", "Vətən", C.Cambulun "Ellər baharı" şeirlərini də Azərbaycan dilinə çevirmişdir.

Bu tərcümələrdə Azərbaycan şeir dilinin imkanları, poetik üsəti, cazibəsi bütün aşkarlığı ilə görünməkdədir.

"Vaqif" mənzum dramı

"Vaqif" mənzum dramı S.Vurğun yaradıcılığının zirvəsidir. Əsərin mövzusu görkəmli Azərbaycan şairi M.P.Vaqifin həyatından və Azərbaycan xalqının XVIII əsrin sonlarında xarici qəsbkarlara qarşı mübarizəsindən götürülmüşdür. "Vaqif" ədəbiyyatımızda əsası ilk dəfə C.Cabbarlı tərəfindən qoyulmuş tarixi qəhrəmanlıq dramıdır. "Vaqif"

pyesini əsl xalq dramı da adlandırmaq olar. Pyesin baş qəhrəmanı xalqın özüdür. Vaqif də, Eldar da xalqı təmsil edirlər.

Əsərin əsas konfliktini istilaçı Ağa Məhəmməd şah Qacarla ona qarşı duran Azərbaycanın vətənpərvər qüvvələri arasındakı azadlıq və müstəqillik uğrundakı mübarizə təşkil edir.

Şairin başqa dramlarında olduğu kimi, burada da əsərin iştirakçıları iki əsas qrupa bölünür: əzənlər və əzilənlər.

İbrahim xanla Qacar Şuşa qalası uğrundakı mübarizədə bir-birinə qarşı qoyulsa da, ümumiyyətlə, onların həyata baxışı, xalqa münasibəti eynidir. Hətta demək olar ki, onlar müəyyən nöqtədə birləşirlər. Onların hər ikisi zülmkardır: hər ikisi Vaqifə, Eldara, daha doğrusu, zəhmətkeş xalqa, dinc əhaliyə qarşıdır. Əsərdə xalqın nümayəndələri də çoxdur: Vidadi, Tükəzban, Gülnar, Əminə xala, Kürd Musa, Qurban kişi, Qasım, Murad və b. Zahirən Qacarın qoşununda olsalar da, əsgər Teymur da, qapıçı Zülfüqar da despotu, despotizmi, xalqın alçaldılmasını qəbul edə bilməyən, əzilənin – həqiqətin tərəfində dayanan adamlardır.

Vaqif xalqın mənəvi qüdrətini, zəka və ruhunu təmsil edir. Eldar isə xalqın fiziki qüdrətini əks etdirir. Beləliklə, Vaqiflə Eldar bir-birini tamamlayır. Bu iki qəhrəmanın fəlakətə qarşı birlikdə mübarizəsi bütöv bir xalqın iradəsini, zülmə, nadanlığa, fəlakətə qarşı vuran qolunu, maddi və mənəvi qüdrətini ifadə edir.

"Vaqif" əsərindən səhnə. Vaqif Vidadinin evində

Əsərdəki hadisələr Vidadinin öz evində namaz üstündəki sözləri ilə, duaları ilə başlayır:

Xudaya, insanın halı yamandır,
Nələr çəkdiyimiz sənə əyandır.
Mənası varmıdır min təriqətin?
Aç, aç qapısını sən həqiqətin.
Nə olur, bir yeni işıq ver bizə,
Bizim kor yaranmış gözlərimizə.
Qoyma ki, yerlərdə sürünsün bəşər,
Dünyada qalmasın nə pislik, nə şər.

Bu parçadan göründüyü kimi, Vidadi saf vicdan timsalı, xeyirxahlıq və alicənablıq carçısı kimi bəşəriyyətin səadəti, xoşbəxtliyi üçün Allaha dua edir, özünün şəxsi dərdindən danışmır. O, bütün əsər boyu bir mələk kimi, xeyirxah əməllər carçısı kimi Vaqifi hər cür təhlükədən qorumağa çalışır. Pyesdəki Vidadi surəti məhz tarixdəki Vidadinin özüdür, tarixdəki şair Vidadi onun prototipidir.

Elə əsərin I şəklində görürük ki, Cavad xanın elçiləri Vidadini vəzir kimi Gəncə sarayına aparmaq üçün şairin evinə gəlirlər. Lakin Vidadi öz elini, obasını, sadə və müstəqil həyatını heç bir saraya dəyişmək istəmir. Cavad xanın dəvətini qəbul etməyərək, elçiləri geri qaytarır.

Çox keçmir ki, gözlənilmədən Qarabağ xanının vəziri, Vidadinin dostu Vaqif Vidadinin evinə qonaq gəlir. İki dostun səmimi söhbətindən bəlli olur ki, Vaqif sarayda yaşasa da, ürəyi öz elində, obasında, xalqının yanındadır. O, sarayda yaşasa da, xalqın, elin müdafiəçisidir. Vidadinin gileylə dediyi: "Unutdun öz ana beşiyimizi"– sözlərinə Vaqif belə cavab verir:

Mən orda olmasam, qan çıxar dizə,
Quşlar da ağlayar ellərimizə...

II şəkildəki hadisələr Şuşada –Vaqifin evində başlayır. Vaqifin oğlu Əli bəyin toyudur. Xüsusi təntənə ilə toya təşrif buyuran İbrahim xan məclisin baş tərəfində əyləşir. Sanki hər şey qaydasındadır.

Xan: "Vəzir, xeyir işiniz xeyli mübarək", – deyə Vaqifə toy münasibətilə gözaydınlığı verir. "Nə qədər mən sağam, kef görəcəksən", – deyə vəzirə – Vaqifə xoş günlər vəd edir. Bu sözlərdən oxucuya elə görünür ki, vəzir

ilə xan yaxın dostdurlar. Lakin elə deyil. Onların arasında olan ziddiyyətin üstü Eldarın məclisə gəlişi ilə açılır. Öz geyimi, hərəkətləri, yerişindəki sadəliyi ilə, hətta gətirdiyi hədiyyəsi ilə məhz xalqın bir nümayəndəsi olduğunu göstərən Eldarın məclisə sərbəst şəkildə daxil olması, onu saymaması xanı qəzəbləndirir.

Elə buradaca Vaqiflə İbrahim xan üz-üzə dayanır, xalqa həqarətlə baxan xanla vəzir deyişir. Vaqif bir qəhrəman kimi oxucunun gözündə ucalır.

M.P.Vaqif İbrahim xanla üz-üzə durduqda bir vətənpərvərin xalqa arxa çevirən despota, öz xalqının cəlladına qarşı üsyankar mövqeyi çox aydın görünür.

Eldar məclisi tərk edib getsə də, kinli xan ondan əl çəkmək istəmir, onu tutdurmaq üçün adam göndərir. Eldar tutulur. "Ata, həbs etdilər yazıq Eldarı", - deyən Əli bəyə Vaqif belə cavab verir: "Vaqif ölməmişdir, onu qurtarar".

Bu hadisələrin sonunda Vaqifin ailə konflikti, ailə faciəsi üzə çıxır. Şöhrətpərəst, vəfasız Xuraman Vaqifin həyat yoldaşı, Əli bəyin analığıdır. Onu namus, ailə şərəfi, ərin qeyrəti yox, özünün şəxsi taleyi, "cah – calal", "var – dövlət" maraqlandırır. Əri ilə İbrahim xanın arasındakı ziddiyyətdən, xanın acıq edib məclisdən getməsindən xəbər tutan Xuraman çox dilxor olur, ərinin vəzirlikdən çıxarılacağından qorxur: "Necə dolanarıq, dilənçilərtək?" – deyə kasıblığı özünə böyük dərd sayır. Vaqif Xuramanın sonrakı faciəsinin səbəbini sanki əvvəlcədən qiymətləndirərək deyir:

Gözüm su içməyir heç Xuramandan,
Onu başqa ruhda böyüdüb zaman.
Deyəsən, şöhrəti çox sevir qadın...
Ah... mənsəb!.. Ah, şöhrət!...Yaranmasaydın!

Şeyxin, küpəgirən qarının təhriki ilə İbrahim xana arvad olmağa razılıq verən Xuraman həm öz şərəfini alçaldır, həm də ərinin namusunu ayaqlar altına salır. Xuramanın xana satıldığını eşidən Vaqif deyir:

Düşüb – düşməyəli bu saraylara
Hələ rast gəlmədim vəfalı yara.

"Vaqif" əsərindən səhnə

Ələsgər Ələkbərov – Vaqif, Fatma Qədri – Xuraman rolunda

Bəlkə də, elə buna görədir ki, Vaqifin oğlu Əli bəy saray gözəli ilə yox, kəndli Əminə xalanın yetim qızı Gülnarla evlənir, sədaqəti, etibarı, dəyanəti, özünə arxanı xalqın arasında axtarır.

Tarixdən məlum olan bəzi hadisələrə Səməd Vurğun sərbəst yanaşsa da, pyesin süjeti, əsasən, tarixdə baş vermiş hadisələr əsasında qurulmuşdur.

İbrahim xan qonşu dövlətlərin – İranın və Rusiyanın təzyiqindən çox narahatdır. Bu qorxulu vəziyyətdən çıxmaq üçün vəziri Vaqifdən məsləhət

almaq istəyən xan, əksinə, ondan məzəmmət eşidir. Vəzir xanı zalımlıqda, xalqla ədalətsiz rəftar etməkdə, bir növ qeyri-əxlaqi siyasətdə günahlandırır. Bu vaxt Ağa Məhəmməd şah Qacardan Qarabağa – İbrahim xana məktub gəlir. Bu məktubda o, İbrahim xana təklif edir ki, təslim olsun. İşğalçıya təslim olmaq təklifini vəzir Vaqif qəti rədd edir, hətta Qacara kəskin cavab məktubu göndərir.

Vaqifin əlindən qəzəbli olan Ağa Məhəmməd şah Qacar Şuşanı tutduqda şairi zindana saldırır. Bir az əvvəl də İbrahim xan xalqı dar ayaqda, çətin vəziyyətdə qoyub Dağıstana qaçmışdı. Sarayın digər nümayəndəsi – "hörmətli" şeyxi Alı satqıncasına qəsbkarın yanına gəlir, şərəfsizcəsinə Qacarı Qarabağa dəvət edir:

Buyurun, qapımız açıqdır sizə;
Yurdu tapşırırıq əllərinizə.

Xalqın düşünən beyni, vüqarlı oğlu Vaqif və vuran qolu Eldar Qarabağ torpağından ötrü mübarizəyə qalxırlar.

III pərdənin 7-ci şəklində İran şahı Ağa Məhəmməd şah Qacarın Qarabağa hücum etməsi təsvir olunur. Hər tərəfdən top-tüfəng səsləri eşidilir. Qacarın ordusu tərəfindən yandırılmış kəndlərin alovu göyə qalxır. Uzaqdan arvad-uşaq fəryadı eşidilir. Bu dəhşətlərdən belə Qacarın qana susamış vicdanı doyunca həzz ala bilmir:

Yan, yan, tərlanların yaşıl yuvası,
Ruhuma can verir ölüm havası...
Mənim vicdanım da, qəlbim də qandır,
Dünya qan üstündə bir xanimandır —

deyən Qacar həyatdan, bəşəriyyətdən, insanlıqdan daha böyük qisas, intiqam almaq istəyir.

Vaqiflə Qacarın üzbəüz qarşılaşdığı səhnə əsərin ən maraqlı, ən qüvvətli və təsirli yeridir.

Əsərin baş qəhrəmanı olan Vaqif Azərbaycanın qürurunun timsalıdır, onun əyilməzlik rəmzidir. Vaqif İran şahı Qacarla görüşəndə baş əymir, şahın iradlarına sanki bütün xalqın adından ürəkdən tikan çıxaran kəskin cavablar verir.

Böyük şairin Qacara dediyi sözlərin hamısı Azərbaycanın, Azərbaycan xalqının adındandır. Şah Qacarın əsiri kimi səhnəyə gətirilən Vaqif

misilsiz, romantik bir cəsarət nümayiş etdirir, öz xalqının qürurunu şərəflə müdafiə edir. Bu səhnədə Vaqif ölümdən belə qorxmayan, ən çətin vaxtda soyuqqanlı olmağı bacaran, öz ağlını, düşüncəsini, qürurunu, əyilməzliyini layiqli şəkildə qoruya bilən bir insandır. Vaqif Qacarın vəzirinin:

Ayağı çarıqlı kiçik bir ölkə

Böyük Firdovsilər yaratdı, bəlkə?.. – kinayəsinə tutarlı cavablar verir, onu susdurmağı bacarır; öz keçmişi ilə öyünür:

Dayan!.. Bu bağçanın hər bir budağı
Üstündə min çiçək, min gül bitirmiş.
Sizin güldüyünüz çoban torpağı
Nizamilər, Füzulilər yetirmiş!

Vaqifin xarakterinə bir əyilməzlik, ucalıq, romantik monumentallıq hakimdir. O, şair Vidadiyə deyir:

Yalvarma, yalvarma o cəllada sən,
Hələ baş əyməmiş bu böyük vətən!

Əsərdə xarici işğalçılara qarşı başlıca əsas qüvvə xalqın özüdür. Pyesdə müəllifin xəlqilik ovqatı qabarıq şəkildə öz əksini tapmışdır. S.Vurğun xalqı müxtəlif səviyyələrdə göstərmişdir:

I – xalq, kütlə obrazında

II – el ağsaqqalı Vidadi obrazında

III – xalqın dövlətini təmsil edən Vaqif obrazında

Bunlar bir-birini tamamlayır, Azərbaycan xalqının ümumiləşmiş obrazını yaradır.

Vaqiflə Qacarın qarşı-qarşıya gəldiyi səhnədə, hər şeydən əvvəl, milli mənafelərin toqquşmasını görürük. Qacar: "Gərək fars dilində yazsın sənətkar", – deyərkən Vaqifin milli heysiyyətinə toxunur.

Bizim bu dağların oğluyam mən də,
Az-az uydururam yeri gələndə –

deyə Vaqif öz milli mənafeyini, qürurunu, Azərbaycan xalqını, onun dilini, onun varlığını müdafiəyə qalxır. Xalqı təmsil edən bir şair üçün xalqın mənafeyi hər şeydən üstündür. Ona görə də Vaqif həm xalqın daxili düşməninə – İbrahim xana, həm də xarici işğalçıya – Qacara qarşı amansızdır.

IV pərdədə, 9-cu şəkildə Şuşadakı zindan göstərilir. "Cahan mülkündə mütləq doğru halət görməyən" Vaqif divara "Görmədim" müxəmməsini yazır, zəmanənin, insanların haqsızlığından, etibarsızlığından, vəfasızlığından, ləyaqətsizliyindən şikayətlənir. Vaqif nə qədər dərdli olsa da, yenə də tədbirlidir, dəyanətlidir. O, hövsələ və ağılla hərəkət edir. Qeyrətli oğlu Əli bəyin tövsiyəsi ilə Eldara məktub yazır, düşmənə – Qacara qarşı mübarizədə Eldarla əlbir olduğunu bildirir, kömək istəyir. Vaqif başa düşürdü ki, xalq birləşərsə, vətən basılmaz. V pərdədə, X şəkildə dünyagörmüş bir qocanın Eldara verdiyi qələbə, azadlıq, məğlubedilməzlik rəmzi olan Misri qılınc xalqın yadellilər üzərində qələbə çalacağından xəbər verir. Əsərin sonunda qana susamış vəhşi Qacar öz vəhşiliklərinin qurbanına çevrilir, öldürülür. "Vaqif" pyesi xalqın zəfəri ilə, yadellilər üzərində qələbəsi ilə, Vaqifin şəxsində xalqın müdrik başçının ətrafında birləşməsi ilə sona çatır. Eldar hörmətlə Vaqifin əlindən öpür, xalq onu – Vaqifi böyük sevinc və təntənə ilə ölüm meydanından aparır. Bu sonluq əslində xalqın öz ixtiyarını öz əlinə alması, öz mənliyini təsdiqləməsi, müstəqil dövlət və güc kimi birləşməsi deməkdir.

"Vaqif" pyesində oxucuya təqdim olunan müsbət surətlərin hamısı Azərbaycanı təmsil edir: Vaqif, Vidadi, Eldar, Kürd Musa, Əli bəy, Gülnar, Əminə xala və başqaları.

S.Vurğun xalqımızın tarixi qəhrəmanlığı mövzusunda yazdığı "Vaqif" pyesini təsadüfən M.P.Vaqifə həsr etməmişdir. Əvvəla, S.Vurğun uşaqlıqdan Vaqifə, onun yaradıcılığına pərəstiş edirdi. İkincisi, onu xəlqilik rəmzi hesab edirdi.

Əsərdəki digər obrazların təhlili. Əsərdə xarici işğalçılara qarşı başlıca, əsas qüvvə xalqın özüdür. Qoca şair Vidadi də xalq köklərini təmsil edən, el gücünə söykənən, xalqa güvənən bir obrazdır, el ağsaqqalıdır. Vaqifin dostu, sirdaşı olsa da, saray mühitindən tamamilə uzaq bir adamdır. O, saray mühitinə qarşı duran xalqın timsalıdır. Vidadi sarayı və siyasəti qan və bədbəxtlik mənbəyi kimi qəbul edir, sarayda yaşayan Vaqifin taleyi üçün narahatlıq keçirir. Saf vicdan timsalı kimi Vidadi öz xeyirxahlığı, alicənablığı ilə əsərdə xüsusi yer tutur. Vaqiflə Vidadi ayrı – ayrı yerlərdə yaşasalar da, hər ikisinin xalqa inamı, əsl insana verdikləri qiymət eynidir:

Günəşi örtsə də, qara buludlar,
Yenə günəş adlı bir qüdrəti var, – deyən Vaqifin sözləri ilə
Qızılı udsa da, qara torpaqlar,
Yenə qiymətini özündə saxlar, – söyləyən Vidadinin fikri bir-birinə çox uyğundur.

Eldar, Kürd Musa, Gülnar – bu igidlər xalqı müdafiə etməyi, torpaq uğrunda canından-qanından keçməyi bacaran insanlardır. S.Vurğun demək istəyir ki, belə oğul və qızlara güvənən xalq məğlub ola bilməz. Birinci pərdənin II şəklində əsərə daxil edilən Eldar öz əzəmətli yerişi, verdiyi məğrur cavabı ilə xalqın qürurunu əks etdirir. Demək, Eldar Koroğlunun həqiqi varisidir – xalqın azadlığı uğrunda yerli hakimlərə və yadelli qəsbkarlara qarşı mübarizə aparmış xalq qəhrəmanlarının XVIII əsrdəki nümayəndəsidir. Əsərdə Misri qılınc da qəhrəmanlıq ənənəsinin rəmzi kimi ümumiləşdirilmişdir. İbrahim xanın qaçdığını eşidən Eldarın:

Vətən torpağında xəyanətə bax!
Yox!.. Yox... basılmaz Vətən!
Hələ bu dağlarda ölməmişəm mən! – deməsi xalqın öz gücünə, mənəvi birliyinə arxayın olmasından irəli gəlir.

Pyesdəki ən dolğun surətlərdən biri də Ağa Məhəmməd şah Qacardır. Qacar olduqca qəddar və bədbəxt adamdır. Onun bədbəxtliyi sonsuzluğunda deyil, vətən və xalq məhəbbətindən məhrum olmasındadır.

"Bu qılınc olmasa, yeyərlər məni" deyən Qacar ancaq fiziki gücünə, qılıncına arxalanır. Yeri gəldikdə Qacar ağıllı adamdır. O, dünyanın və həyatın etibarsızlığını başa düşür. Lakin dünyada insan üçün ən müqəddəs amillərdən biri olan vətəni də qılıncın gücündə görür.

Qacar vətən məhəbbətindən məhrumdur. Ona görə də həyat Qacar üçün öz mənasını itirib. Həyatdan küskün olan Qacar vəhşilikdən və şöhrətdən həzz almağa çalışır, qəlbindəki boşluğu bunlarla doldurmaq istəyir. O sanki qan tökməklə, sonsuz qəddarlığı ilə təskinlik tapır. Qacarın vəhşi təbiətini görmək üçün əsir gürcülərə bir-birilə vuruşmaq əmri verdiyi səhnəni xatırlamaq kifayətdir:

Soysun dərinizi dırnaqlarınız,
Görünsün gözümə qıpqırmızı ət,
Qoy alsın ürəyim bir yeni qüvvət!

Əsirlərin doğma qardaş olduğunu biləndə isə insana yaraşmayan vəhşi ehtirasla deyir:

Vəzir, bax,

Bu oyun, doğrudan, ləzzət olacaq!

Hakimiyyəti qan, qılınc, ölüm üzərində qurulmuş Qacarın fəlsəfəsi belədir:

Mənim vicdanım da, qəlbim də qandır,

Dünya qan üstündə bir xanimandır.

Aşağıdakı misralar Qacarın qeyri-humanist təbiətini, insana, insanlığa nifrətini çox aydın göstərir:

Bir boynu olsaydı bəşəriyyətin,

Onu bir qılıncla vurardım, yəqin.

Qacarın bütün xalqlara, ölkələrə tətbiq etdiyi terror sonda onun özünə qarşı yönəlir: o, qətlə yetirilir.

Əsərdə Tükəzban, Əminə, Gülnar, Xuraman kimi müxtəlif dünyagörüşlü, müxtəlif xarakterli qadın obrazları da vardır.

Əsərin I şəklində oxucu Vidadinin həyat yoldaşı Tükəzban obrazı ilə tanış olur. Tükəzban da Vidadi kimi öz kasıb daxmasında azad yaşamağı dəbdəbəli saraylarda minnətli çörək yeməkdən, həyat sürməkdən üstün hesab edir. Vidadi Cavad xanın elçilərini rədd etdiyi zaman Tükəzban ərinə belə deyir:

Vidadi, nə dedin, lap ürəyimdən!
Ömür sürməmisən qoltuqlarda sən!

Tükəzban qismətinə şükür edən, ərinin arzuları ilə yaşayan vəfalı bir azərbaycanlı qadın obrazıdır.

Əsərdə ən çox mübahisə doğuran, ziddiyyətli obraz Xuramandır. Xuramanın mənsəb və şöhrət düşkünlüyü, mənəvi çürüklüyü onun sözlərindən, hərəkətlərindən aydın olur.

Xuramanın şikayəti şöhrətpərəstlikdən, var-dövlət hərisliyindən, azğınlıqdan, düşüncəsizlikdən, ac nəfsinə əsir olmasından irəli gəlir. Vəzir Vaqifin arvadı olsa da, tez-tez birinci ərini yada salır. Özünün dediyi kimi, əvvəlki əri bir "el ağası" olmuş, qapısındakı nökərlər Xuramanın

qulluğunda hazır durmuşlar. İndi Xuraman Vaqifdən də bunları tələb edir. Əvvəlki dəbdəbəni görməyəndə taleyindən şikayətlənir.

Nəfsinin qulu olan şöhrətpərəst Xuraman üçün həyatda müqəddəs bir şey yoxdur. Kəbinli əri olmasına baxmayaraq, o, xana ərə getməyə razılıq verir. Ərinin qürurunu, öz ucalığını nəfsinə satır, var-dövlətə aldanır. Düzdür, Xuraman gec də olsa, öz səhvini anlayır və günahlarını etiraf etməklə xırdaca bir təskinlik tapmaq ümidi ilə Vaqifin yanına, zindana gəlir və deyir:

Uydum bu dünyada nazü-nemətə,
Özüm də bilmədən uydum şöhrətə.
Bilmədim axırı zəhrimarımış,
Hər qızıl xəzinə bir şahmarımış ...
İndi öz əlinlə gəl öldür məni,
Nə qədər alçaldım, alçaltdım səni!..

Düzdür, Vaqif bu fəlakət, müsibət və nadanlıqda Xuramanı, Xuramanın timsalında insanı deyil, onu əhatə edən mühiti, həyatı, zamanı günahkar bilir. Əvvəl Xuramanı zindandan qovsa da, Xuramanın özünü qayadan atdığını eşidəndə bir növ peşman olur, onu qismən bağışlayır:

Of ... partla, ürəyim! Yazıq Xuraman!
Bizim eşqimizi məhv etdi zaman...

Pyesdəki qadın surətlərindən ən dolğunu Gülnardır.

Nizami Gəncəvinin Nüşabəsinə aid olan "Aslanın erkəyi, dişisi olmaz" sözlərini S.Vurğun Vaqifin dili ilə Gülnarın haqqında söyləyir. Gülnar atasız, kasıb bir kənd qızıdır. Boya-başa çatdığı ailədə var-dövlət görməsə də, düzgün tərbiyə görmüşdür. Gülnar əsərin əvvəlindən axırına qədər öz namusu, qeyrəti, ailəyə, həyat yoldaşına olan sədaqəti, etibarı ilə diqqəti cəlb edir. Gülnar ağıllı olduğu qədər də, mərd, qorxmaz və cəsarətlidir. Yalnız ailə şərəfini, eşqini, məhəbbətini yox, doğma elini, vətənini də qorumağı bacaran igid qızdır. Onu qayınatası Vaqif də yüksək qiymətləndirir:

Sənə halal olsun hər əməyimiz,
Yoxdur səndən özgə bir köməyimiz.
Atalar sözüdür, yaxşı qulaq as;
"Aslanın erkəyi, dişisi olmaz!"

1937-ci ildə yazılmış bu pyeslə S.Vurğun o zaman hökm sürən ölçüsüz repressiyalara da işarə edirdi. Qacarın Azərbaycanda – Şuşada öldürülməsi faktı S.Vurğun üçün rəmzi məna daşıyırdı.

Şübhəsiz, "Vaqif" dramında dövrün tələbi ilə yuxarıdan gələn buyuruqlar əsasında tarixi təhrif faktları da var. Belə ki, İbrahim xan, Ağa Məhəmməd şah Qacar həddindən artıq qara boyalarla verilmiş, Vaqif obrazı bir növ "bolşevikləşdirilmişdir". Xuraman – İbrahim xan xətti isə, ümumən, uydurmadır. (Bunları, xüsusən İbrahim xan obrazı ilə bağlı yanlışlıqları S.Vurğun özü də sonralar etiraf etmişdi). Lakin bunlara baxmayaraq, "Vaqif" Azərbaycan ədəbiyyatında bədii dəyərinə, yaradıcılıq qayəsinə, amalına görə müstəsna qiymətə malik əsərdir.

"Vaqif" pyesi Azərbaycan şeir və dram dilinin nadir incisidir.

Səməd Vurğunun həyat və yaradıcılığının qısa icmalı

1. "Xalq şairi" fəxri adını alan ilk Azərbaycan şairidir.
2. Ən yeni dövr Azərbaycan poeziyasının və müasir Azərbaycan dilinin banisidir.
3. Azərbaycançılıq ideologiyasının əsas daşıyıcılarındandır.
4. Həm klassik, həm də xalq şeiri üslubunda şeirlər yazıb.
5. Əsasən, heca, bəzən əruz vəznində, ilk yaradıcılıq dövrlərində isə hətta sərbəst formada şeirlər yazmışdır.
6. Hər üç ədəbi növdə: epik, lirik, dramatik növlərdə əsərləri vardır.
7. İlk şeirlərini seminariyada oxuyarkən yazmış, seminariyanın divar qəzetində dərc etdirmişdir.
8. 1920-ci illərin sonunda artıq ədəbi aləmdə istedadlı şair kimi tanınmışdır.
9. 1929-cu ildə Moskva Universitetinin dünya ədəbiyyatı fakültəsinə daxil olsa da, 1931-ci ildə Bakıya qayıtmış, Elmi Tədqiqat İnstitutunun aspiranturasında oxumuşdur.
10. 1934-1937-ci illərdə Azərbaycan Yazıçılar İttifaqının məsul katibi olmuşdur.
11. 1941-1944-cü illərdə Azərbaycan Yazıçılar İttifaqının sədri olmuş, bir illik fasilədən sonra yenidən 1945-1948-ci illərdə həmin vəzifədə çalışmışdır.

12. Müharibə illərində, əsasən, sovet əsgərlərinin igidliyinə, onların qələbəsinə həsr edilmiş şeirlər yazmış, əsgərlərdə qələbəyə inam yaratmışdır.
13. Bütün mənfi cəhətlərinə baxmayaraq, Azərbaycan Sovet Sosialist Respublikasını S.Vurğun xalqın milli varlığının təsdiqi kimi qəbul etmişdir.
14. 1941-ci ildə "Vaqif" pyesinə görə SSRİ Dövlət Mükafatına layiq görülmüşdür.
15. 1945-ci ildə Azərbaycan Elmlər Akademiyasının həqiqi üzvü seçilərək ilk akademiklərdən biri olmuş, 1954-1956-cı illərdə Akademiyanın vitse-prezidenti vəzifəsində çalışmışdır.
16. 1956-cı ilin may ayının 27-də vəfat etmişdir.

Lirik şeirləri və şeir kitabları

1. İlk və nakam məhəbbətinə – Dürrəyə həsr edilmiş şeirlər də yazmışdır.
2. 1935-ci ildə "Şairin ölümü" şeirini Vaqifə həsr etmişdir.
3. "Bəs mənim ölkəmin varlığı hanı?" – deyən S.Vurğun ədəbiyyatımızda azərbaycançılıq, vətənçilik bayrağını qaldırdı.
4. 1935-ci ildə "Azərbaycan" şeirini yazmaqla, azərbaycançılığın poetik manifestini yaratdı.
5. "Dilcan dərəsi", "Göy göl", "Kür çayı", "Bizim dağların", "Ellər dünyası"şeirlərində vətən təbiətinin füsunkarlığını realistcəsinə qələmə aldı.
6. Alman faşizminin SSRİ-yə hücumu barədə xəbər verilən gün "Vətən keşiyində" şeirini yazdı.
7. "Rəhbərin çağırışı", "Ananın öyüdü", "Şəfqət bacısı", "Partizan Babaş", "Təzə il sovqatı", "Qəhrəmanın hünəri", "Gözaydınlığı" şeirlərində faşizmə nifrəti, qələbəyə inamı əks etdirmiş, ana-bacılarımızı da yurdu qorumağa çağırmışdır.
8. "Leyla" şeiri Azərbaycanın ilk təyyarəçi qadını haqqında yazılmış bir əsgər nəğməsidir.
9. 1930-cu ildə "Şairin andı" adlı ilk şeir kitabı çap olunmuşdur.
10. 1932-ci ildə "Fanar", 1934-cü ildə "Könül dəftəri", 1935-ci ildə "Şeirlər" adlı kitabları nəşr edilmişdir.

Poemaları

Şairin poemalarını mövzu baxımından 3 qrupa ayırmaq olar:

1. Əfsanəvi mövzulara həsr edilmiş poemalar
2. Tarixi mövzulara həsr edilmiş poemalar
3. Sovet həyatını əks etdirən poemalar

Xalq əfsanəsi və rəvayət süjetləri əsasında yazılmış poemalar: "Bulaq əfsanəsi", "Qız qayası", "Aslan qayası", "Ayın əfsanəsi", "Hürmüz və Əhriman".

Tarixi mövzuda yazılmış poemalar:

"Zamanın bayraqdarı", "26-lar", "Ölüm kürsüsü", "Zəncinin arzuları", "Dar ağacı", "Üsyan", "Macəra".

S.Vurğunun insanın mənəvi aləminin, Azərbaycan təbiətinin, quruculuq illərinin təsvirinə həsr olunmuş poemaları:

"Kənd səhəri", "Talıstan", "Bəsti", "Muradxan", "Lökbatan", "Muğan", "Köhnə dostlar".

S.Vurğunun mənzum romanı: "Aygün".

Dramları

S.Vurğunun pyeslərinin 4-ü də mənzumdur:

1. "Vaqif" (1937)
2. "Xanlar" (1939)
3. "Fərhad və Şirin" (1941)
4. "İnsan" (1945)

"Vaqif" mənzum dramı S.Vurğun yaradıcılığının zirvəsidir.

1. Əsərin mövzusu XVIII əsr şairi M.P.Vaqifin həyatından, Azərbaycan xalqının xarici qəsbkarlara qarşı mübarizəsindən götürülmüşdür.
2. Əsər 5 pərdə, 11 şəkildən ibarətdir.
3. Bu əsərin yüksək bədii dəyərinə baxmayaraq, orada dövrün tələbindən gələn tarixi təhrif faktları da vardır.

A variantı

1. S.Vurğunun şeir kitablarını yazılma ardıcıllığı ilə düzün.
   1. «Şeirlər» 2. «Könül dəftəri» 3. «Fanar» 4. «Şairin andı»
   A) 1, 2, 3, 4 B) 3, 2, 4, 1
   C) 2, 4, 1, 3 D) 4, 3, 2, 1 E) 4, 2, 3, 1

2. Bəndlərdən birini seçməklə sıranı davam etdirin.
   «Şairin andı», «Fanar» ...
   A) «Könül dəftəri» B) «Aygün»
   C) «Komsomol poeması» D) «Şeirlər» E) «Şairin ölümü»

3. Mövzu və janr cəhətdən sıranı hansı şeirlə tamamlamaq olar?
   «Rəhbərin çağırışı», «Partizan Babaş», «Təzə il sovqatı» ...
   A) «Gözaydınlığı» B) «Üsyan»
   C) «Dar ağacı» D) «Ölüm kürsüsü»
   E) «Zamanın bayraqdarı»

4. *«Gəl çıxaq cəbhəyə, əmr edir Vətən,*
   Sən də bu meydanda kükrəyib çağla!» misraları hansı şeirdəndir?
   A) «Leyla» B) «Partizan Babaş» C) «Şəfqət bacısı»
   D) «Qəhrəmanın hünəri» E) «Vətən keşiyində»

5. Xronoloji ardıcıllığı gözləməklə fikirləri düzün.
   1. Moskvada – Stalinin qəbulunda olmuş, «Rəhbərə salam» şeirini oxumuşdur.
   2. «Könül dəftəri» şeirlər kitabını çap etdirmişdir.
   3. Azərbaycan Elmlər Akademiyasının həqiqi üzvü seçilmişdir:
   4. «Vətən keşiyində» şeirini yazmışdır.
   A) 3, 4, 1, 2 B) 2, 1, 3, 4
   C) 1, 3, 4, 2 D) 4, 3, 2, 1 E) 2, 1, 4, 3

6. Bəndlərdən birini seçməklə tarixi mövzuda yazılmış poemaların sırasını davam etdirin.
   «Macəra», «Dar ağacı»...
   1. «Üsyan» 2. «Bulaq əfsanəsi»
   3. «Qız qayası» 4. «Zamanın bayraqdarı» 5. «Aygün»
   A) 1, 4 B) 1, 3 C) 2, 3 D) 4, 5 E) 1, 4, 5

7. Pyeslərini yazılma ardıcıllığı ilə düzün.
   1. «Fərhad və Şirin» 2. «İnsan» 3. «Vaqif» 4. «Xanlar»
   A) 4, 3, 2, 1 B) 3, 4, 2, 1 C) 3, 4, 1, 2 D) 1, 2, 3, 4 E) 3, 1, 4, 2

8. «Vaqif» pyesindən götürülmüş bu sözləri hadisələrin ardıcıllığına görə düzün.
   1. «Vəzir, xeyir işiniz xeyli mübarək,
      Ağ günlərə çıxsın sizin Əli bəy,
      Ancaq çıxarmasın bizi yadından»
   2. «Vaqif ölməmişdir, onu qurtarar»
   3. «Düşüb-düşməyəli bu saraylara,
      Hələ rast gəlmədim vəfalı yara»
   4. «Vidadi, nə dedin, lap ürəyimdən,
      Ömür sürməmisən qoltuqlarda sən»
   A) 2, 3, 4, 1 B) 4, 1, 2, 3 C) 1, 4, 3, 2 D) 3, 2, 1, 4 E) 4, 2, 1, 3

9. Aşağıdakı fikirlər hansı əsərlərdəndir? Həmin əsərlərin yazılma tarixinə əsasən fikirləri düzün.
   1. «Qalib gələcəkmi cahanda kamal?»
   2. «Bir boynu olsaydı bəşəriyyətin,
      Onu bir qılıncla vurardım, yəqin».
   3. «Bu qanlı faciə dərs olsun bizə,
      Hər zaman göz qoyaq öz cərgəmizə!
      Bunu Koba deyir, yoldaşlar, sizə!»
   A) 2, 3, 1 B) 3, 2, 1 C) 1, 2, 3 D) 2, 1, 3 E) 1, 3, 2

10. Bu fikirlər hansı əsərlər haqqındadır? Həmin əsərlər yazılma tarixinə görə hansı variantda düzgün verilib?
    1. 1935-ci ildə yazılıb. Azərbaycanın çılğın poetik manifestidir.
    2. Söhbət yeddi nəfərlik gəncdən gedir. Bu əsərdəki Cəlal və Humayın prototipləri şair özü və sevgilisi Dürrədir.
    3. Qeyrətli təyyarəçi qadın haqqında yazılmış bu şeir sanki bir əsgər nəğməsidir.
    4. Bu əsərdə romantika ilə dolu 19 nəğmə var.
    A) «Zamanın bayraqdarı», "26-lar", «Üsyan», «Azərbaycan»
    B) «Azərbaycan», «Leyla», «Muğan», «Komsomol poeması»
    C) «Kənd səhəri», «Qızıl şahinlər», «Aygün», «Azərbaycan»
    D) «Komsomol poeması», «Azərbaycan», «Leyla», «Muğan»
    E) «Komsomol poeması», «Bəsti», «Üsyan», «Aygün»

B variantı

1. S.Vurğun bu əsərində həm yeniləşən, quru səhradan nəhəng mədəniyyət ocağına çevrilən şəhərdən söhbət açır, həm də 3 min il əvvəlki peyğəmbər Zərdüştdən xəbər verir.
   A) «Bəsti» B) «Hürmüz və Əhriman»
   C) «Qız qayası» D) «Aygün» E) «Muğan»

2. *« Əziz bir ölkənin xatiratını*
   Verməyək dağıdan, vuran əllərə,
   Doğma sənət gərək bizim ellərə»
   Bu misralarla bağlı ***səhv*** fikir hansıdır?
   A) S.Vurğun bu şeiri Vaqif yaradıcılığından ilhamlanaraq yazmışdır.
   B) «Şairin ölümü» şeirindəndir.
   C) Bu şeir 1935-ci ildə yazılıb.
   D) Əsərdə Vaqifin xalq dilinə münasibəti oxucunun diqqətinə çatdırılır.
   E) Bu əsər əruz vəznində, məsnəvi formasındadır.

3. Fikirlərdən biri ***yanlışdır:***
   A) Yaradıcılığının ilk illərində həm əruz, həm də sərbəst formada şeirlər yazan şair tezliklə heca vəznini xalqın ruhuna, ənənəsinə daha doğma bildi.
   B) S.Vurğun ədəbiyyatımızda azərbaycançılıq, vətənçilik bayrağını qaldırdı.
   C) S.Vurğunun ilk poeması «Şairin ölümü»dür.
   D) «Vətən keşiyində» şeiri S.Vurğunun səfərbərlik çağırışı idi.
   E) «Ceyran» şeiri «Muğan» poemasındandır.

4. ***Səhv*** fikri göstərin.
   A) 1945-ci ildə «İnsan» pyesini və «Aygün» poemasını yazmışdır.
   B) 1935-ci ildə «Şairin ölümü» və «Azərbaycan» şeirlərini yazmışdır.
   C) 1930-cu illərin əvvəllərində 30 poemadan ibarət «Azərbaycan» epopeyasını yaratmaq fikrinə gəlmişdir.
   D) 1935-ci ildə «Şeirlər» adlı kitabını çap etdirmişdir.
   E) 1936-cı ildə Moskvada – Stalinin qəbulunda «Rəhbərə salam» şeirini oxumuşdur.

5. Hər iki sevgili köhnəpərəst qüvvələrin qurbanı olur. Bu əsərdə S.Vurğunun öz nakam məhəbbətinə də işarə olunur.
   A) «Bəsti»
   B) «Fərhad və Şirin»
   C) «Ölən məhəbbət»
   D) «Komsomol poeması»
   E) «Muğan»

6. Bu fikirlər hansı əsər haqqındadır?
   Əsərdə yüksək keyfiyyətlərə malik olan yeni insandan, onun quruculuq əzmindən söhbət gedir. Bu poemada tərənnüm güclüdür.
   A) «Zamanın bayraqdarı»
   B) «Muğan»
   C) «Bulaq əfsanəsi»
   D) «Macəra»
   E) «Komsomol poeması»

7. S.Vurğunun "Vaqif" pyesi haqqındakı fikirlərdən biri ***səhvdir:***
   A) İbrahim xanla Qacar Şuşa qalası uğrundakı mübarizədə bir-birinə qarşı qoyulsa da, ümumiyyətlə, onların xalqa münasibəti, həyata baxışı eynidir.
   B) Əsərdəki hadisələr Şuşada – Vaqifin evində, Əli bəyin toyu ilə başlayır.
   C) Vidadi əsər boyu xeyirxah əməllər carçısı kimi oxucuya təqdim olunur.
   D) Tarixdən məlum olan bəzi hadisələrə S.Vurğun sərbəst yanaşsa da, pyesin süjeti, əsasən, tarixi hadisədən götürülmüşdür.
   E) "Necə dolanarıq, dilənçilərtək?" – deyən Xuraman kasıbçılığı ən böyük dərd hesab edirdi.

8. "Vaqif" pyesi ilə əlaqədar fikirlərdən biri ***səhvdir:***
   A) II şəkildə "Vəzir, xeyir işiniz xeyli mübarək!
   Ağ günlərə çıxsın sizin Əli bəy!" – deyə xan vəzirə gözaydınlığı verir.
   B) Xanla vəzirin arasında olan ziddiyyətin üstü, bir-birilərinə olan əsl münasibət Eldarın toy məclisinə gəlişi ilə açılır.
   C) Əsərdəki hadisələr Vidadinin öz evində namaz üstündəki duaları ilə başlayır.
   D) Vidadi bəşəriyyətin səadəti, xoşbəxtliyi üçün Allaha dua edir, öz şəxsi dərdindən danışmır.
   E) Vidadinin həyat yoldaşı Tükəzban da ərinə qoşularaq bu xalqdan ötrü dualar edir.

9. Fikirlərdən biri ***səhvdir:***
   A) S.Vurğunun "Vaqif" əsəri əsası ilk dəfə C.Cabbarlı tərəfindən qoyulmuş tarixi qəhrəmanlıq dramıdır.
   B) 1937-ci ildə yazılmış bu pyeslə S.Vurğun bəzən o zaman hökm sürən ölçüsüz repressiyalara işarə edirdi.
   C) Qacarın Azərbaycanda – Şuşada öldürülməsi faktı əsərdə rəmzi məna daşıyır.
   D) N.Gəncəvinin Nüşabənin dilindən verdiyi "Aslanın erkəyi, dişisi olmaz" sözlərini S.Vurğun Gülnar haqqında söyləyir.
   E) Pyesin sonunda epiloq hissəsi vardır ki, burada xalq yadellilərə qalib gəlir və Vaqif ilə oğlu Əli bəyi ölüm meydanından çıxarır.

10. ***Uyğunsuzluğu*** göstərin.
   A) "Yalvarma, yalvarma o cəllada sən,
   Hələ baş əyməmiş bu böyük vətən!" – Vaqif Vidadiyə deyir.
   B) "Ayağı çarıqlı kiçik bir ölkə,
   Böyük Firdovsilər yaratdı, bəlkə..." – Qacarın vəziri Vaqifə deyir.
   C) "Qızılı udsa da qara torpaqlar,
   Yenə qiymətini özündə saxlar" – Vaqif Qacara deyir.
   D) "Qoy alsın ürəyim bir yeni qüvvət,
   Bu oyun, doğrudan, ləzzət olacaq!" – Qacar vəzirə deyir.
   E) "... nə dedin, lap ürəyimdən!
   Ömür sürməmisən qoltuqlarda sən!" – Tükəzban Vidadiyə deyir.

C variantı

1. Bu fikirlər hansı obraz haqqındadır?
   Əsərdə ən çox mübahisə doğuran, ziddiyyətli obrazdır. Mənsəb, şöhrət düşkünüdür. Ac nəfsinə əsir olduğu üçün qürurunu, namusunu, mənliyini itirir, həm özü alçalır, həm də ... alçaldır.
   A) Xuraman B) Tamara C) Şeyx Alı
   D) Qapıçı Zülfüqar E) Qacarın vəziri

2. Bu əsərlərdən birində S.Vurğun öz azərbaycanlı qadın idealını ümumiləşdirmişdir:
   A) "Komsomol poeması" B) "Ayğün" C) "Leyla"
   D) "Bəsti" E) "Muğan"

3. *"Düşmənin gülləsi dəysə sinəmdən,*
   Mehriban əlinlə yaramı bağla!"– misraları S.Vurğunun hansı əsərindəndir?
   A) "Şəfqət bacısı" B) "Aygün" C) "Ananın öyüdü"
   D) "Qəhrəmanın hünəri" E) "Leyla"

4. "Vaqif" pyesi ilə bağlı ***yanlış*** fikri göstərin.
   A) Tükəzban qismətinə şükür edən, ərinin arzuları ilə yaşayan vəfalı Azərbaycan qadınıdır.
   B) Xuraman gec də olsa, öz səhvini anlayır, günahlarını etiraf etmək üçün Vaqifin yanına – zindana gəlir.
   C) Xəyanətkar İlyas Eldarın dəstəsinə İbrahim xan tərəfindən göndərilmişdi.
   D) Vaqif gəlinini yüksək qiymətləndirərək deyir:
   "Sənə halal olsun hər əməyimiz,
   Yoxdur səndən özgə bir köməyimiz".
   E) Bu pyesdə Qacar Eldar tərəfindən xəncərlə öldürülür.

5. Alman faşizminin SSRİ-yə hücumu barədə xəbər verilən gün S.Vurğun hansı şeirini yazmışdır?
   A) "Partizan Babaş" B)"Ananın öyüdü"
   C) "Şəfqət bacısı" D) "Vətən keşiyində"
   E) "Qəhrəmanın hünəri"

6. "Vaqif" pyesinə M.P.Vaqifin öz şeirlərindən də nümunələr daxil edilib. Biri ***səhvdir:***
   A) "Bax" qəzəlindən
   B) "Görmədim" müxəmməsindən
   C) "Küsmüşəm" qəzəlindən

D) "Xumar-xumar baxmaq göz qaydasıdır" qoşmasından
E) "Durnalar" qoşmasından

7. "Vaqif" pyesindəki bu sözlərdən biri Vidadi haqqındadır:
A) "Qızılı udsa qa qara torpaqlar,
Yenə qiymətini özündə saxlar"
B) "Ömür sürməmisən qoltuqlarda sən"
C) "Günəşi örtsə də qara buludlar,
Yenə Günəş adlı bir qüdrəti var."
D) "Onun görkəmindən iyrənməyin siz,
Bir kəndli babadır, vicdanı təmiz".
E) "Elə şirin-şirin danışmağın var"

8. Variantlardan birində ***uyğunsuzluq*** var:
A) "Qızılı udsa qa qara torpaqlar,
Yenə qiymətini özündə saxlar" – Vaqifin sözləridir.
B) "Ömür sürməmisən qoltuqlarda sən" – Tükəzbanın sözləridir.
C) "Qoy alsın ürəyim bir yeni qüvvət!" – Qacarın sözləridir.
D) "Bu oyun, doğrudan, ləzzət olacaq" – Qacarın sözləridir.
E) "Nə qədər alçaldım, alçaltdım səni!.." – Xuramanın sözləridir.

9. Hüseyn Cavid "İblis" faciəsində nəfsinin qulu olan insanı İblis hesab edir. S.Vurğunun "Vaqif" pyesində öz ucalığını nəfsinə satan bu obrazlardan biri vətən satqını, digəri isə ailəyə ləkədir.
1. Xuraman 2. Qacar 3. Kürd Musa
4. Tamara 5. Şeyx Alı 6. Qacarın vəziri
A) 2, 6 B) 1, 2 C) 5, 6 D) 1, 5 E) 3, 4

10. S.Vurğunun tərcümələri ilə bağlı düzgün fikirlər hansılardır?
1. S.Vurğun Avropanın romantik şairlərinin əsərlərini daha böyük həvəslə tərcümə edirdi.
2. M.Qorkinin "Qız və ölüm" poemasını dilimizə S.Vurğun tərcümə etmişdir.
3. Ş.Rustavelinin "Pələng dərisi geymiş pəhləvan" poemasını S.Vurğun S.Rüstəm və M.Rahimlə birlikdə tərcümə etmişdir.
4. A.C.Puşkinin "Yevgeni Onegin" poemasının tərcüməsi S.Vurğunun tərcümə yaradıcılığında xüsusi hadisəyə çevrildi.
5. Nizaminin "Xocrov və Şirin" poemasını da S.Vurğun tərcümə etmişdir.
A) 2, 3, 4 B) 1, 2, 3, 4 C) 2, 3, 4, 5
D) 3, 4, 5 E) 1, 3, 5

Məhəmmədhüseyn Şəhriyar

(1905 – 1988)

Yalnız İranda deyil, bütün Yaxın və Orta Şərqdə məşhur olan ustad şair Məhəmmədhüseyn Şəhriyar XX əsr ədəbiyyatının ən nadir simalarındandır. Şəhriyarın adı anadilli ədəbiyyatda ən yeni dövr Azərbaycan poeziyasının qüdrətli nümayəndələrinin, farsdilli ədəbiyyatda isə Sədi Şirazinin, Hafiz Şirazinin adı ilə yanaşı çəkilir.

Hətta Şəhriyara "zəmanəsinin Hafizi" də deyilir. O, Cənubi Azərbaycan şeirinə xalq dilini, xalq ruhunu gətirmiş, Təbrizdə Azərbaycan şeirinin Şəhriyar məktəbini yaratmışdır.

Həyatı

Məhəmmədhüseyn Şəhriyar 1905-ci ildə Təbrizin Bağmeşə bölgəsində anadan olmuşdur. Ədibin adı Seyid Məhəmmədhüseyn Behcət Təbrizi, təxəllüsü Şəhriyardır.

İlk şeirlərini "Behcət" təxəllüsü ilə yazsa da, ustad sənətkar kimi ədəbiyyat aləmində "Şəhriyar" adı ilə məşhurdur. Hətta onu yüksək mənada "şairlərin Şəhriyarı" da adlandırırlar.

Şəhriyarın atası Hacı Mirağa Xoşginabi hüquqşünas olmuş, məhkəmədə vəkillik etməklə ailəsini dolandırmışdır.

Anası Kövkəb xanım sinəsi şeirlə, xalq ədəbiyyatı nümunələri ilə dolu olan evdar qadın idi.

Hacı Mirağa Məşrutə hərəkatı dövründə ailəsinin təhlükəsizliyini təmin etmək məqsədilə onları ata-baba yurdu olan Xoşginaba köçürmüşdür. Ona görə də Şəhriyarın uşaqlıq dövrü Heydərbaba dağının ətəyində: Xoşginabda, Şəngilavada, Qaraçəməndə keçmişdir. Şəhriyar

burada ilk dəfə məktəbə getmiş, Axund Molla İbrahimdən dərs almışdır. Şəhriyarın yazdığına görə, Molla İbrahim onun dünyagörüşünün inkişafında mühüm və ciddi rol oynamışdır. Şair o günləri "Heydərbabaya salam" poemasında hörmətlə yada salır:

Bu məktəbdə şeirin şəhdin dadmışam,
Axundun ağzından qapıb udmuşam.
Gahdan da bir axundu allatmışam:
– Başım ağrır, – deyib, qaçıb getmişəm,
Bağçalarda gedib gözdən itmişəm.

1912-ci ildə Hacı Mirağa ailəsi ilə birlikdə Təbriz şəhərinə qayıtmışdır. Təbrizdə Seyid Məhəmmədhüseyn Şəhriyar "Talibiyyə" mədrəsəsində oxumuş, burada fars, ərəb dillərini, evdə xüsusi müəllimdən fransız dilini mükəmməl öyrənmişdir.

Bildiyi, öyrəndiyi bütün dillərdən ana dilini üstün hesab edən, qəlbən sevən Şəhriyar 1913-cü ildə – Talibiyyə məktəbində oxuduğu vaxt ilk şeirini məhz ana dilində – Azərbaycan dilində yazmışdır.

Gənc şair 1921-ci ildə Tehrana gələrək darülfünun mədrəsəsində təhsilini davam etdirmişdir. Burada oxuyarkən Hafiz Şirazinin "Divan"ı ilə yaxından tanış olmuş, özünə "Şəhriyar" təxəllüsünü də Hafiz şeirlərinin təsiri ilə götürmüşdür.

O, 1924-cü ildə Tehranda Ali Tibb Universitetinin diş həkimi və əczaçılıq fakültəsinə daxil olmuş, lakin oranı bitirə bilməmişdir. Universitetdə oxuduğu zaman həm Şəhriyarın dünyagörüşü zənginləşmiş, bədii yaradıcılığı nəzərə çarpacaq dərəcədə inkişaf edərək uğurlar qazanmış, həm də əsl aşiq kimi sevgi dolu narahat günlər yaşamışdır. İnstitutu bitirməyinə cəmi 2-3 ay qalmış Şəhriyar təhsilini yarıda qoyaraq Tehranı tərk etməyə məcbur olmuşdur. Onu buna məcbur edən isə o zaman hakimiyyətdə olan İran şahı Rza Pəhləvinin əmisi oğlu Çırağəli xan olmuşdur. Universitetdə oxuyarkən (1924-1929) Şəhriyar Sürəyya adlı bir qızı dəlicəsinə sevmiş və bu qarşılıqlı məhəbbətlə əlaqədar başı çox bəlalar çəkmişdir. Ürəkdən sevdiyi və "Pəri" adlandırdığı həmin qızı, sən demə, Rza şahın əmisi oğlu da sevirmiş. Həmin şəxs Sürəyyanı Şəhriyarın əlindən almış, şairi əvvəl həbsxanaya saldırmış, sonra Tehranı tərk etmək şərtilə həbsdən buraxdırıb Nişapura sürgün etdirmişdir. Sürgün illəri Şəhriyarın cavanlığını, sevgisini, bəxtəvərliyini əlindən almışdır.

1934-cü ildə şairin atası vəfat etmişdir. Şəhriyar ailənin bu qəmli günlərində sürgündə idi. **"Atamın matəmində"** şeirini də elə sürgündə yazmışdı. Uzun və üzücü sürgün həyatından sonra Şəhriyar 1935-ci ildə Tehrana qayıdır. Burada o, kənd təsərrüfatı bankında işə düzəlir. Lakin hələ də Şəhriyarın həyatında böhranlı dövr və xəstəliklər davam edir, o, dərvişvari bir həyat sürürdü.

Bu dövrdə Şəhriyar İranda sərbəst şeirin banisi sayılan Nima Yişiçlə tanış olmuşdur.

1937-ci ildə Şəhriyar Tehranı tərk edir, doğma Təbrizə gəlir, yayı burada qalır, ona edilən haqsızlıqları, keçənləri qismən unutmağa, gələcəyə ümidlə baxmağa çalışır. Dörd ay sürən bu səfər də onu böhrandan xilas edə bilmir.

Şəxsi taleyinin ağrılı-acılı günləri onu bir insan kimi böhranlı vəziyyətə salsa da, şair taleyi onu şöhrətləndirir, İranın şeirsevənləri tərəfindən Şəhriyar yüksək qiymətləndirilirdi. Fars dilində yazdığı kamil şeirləri ilə M. Şəhriyar İran ədəbi mühitində gündən-günə daha artıq parlayır və hörmət, rəğbət qazanırdı.

1940-cı ilin ortalarında İranda Azərbaycan dilinin fəaliyyət dairəsinin məhdudlaşdırılması, milli ayrı-seçkiliyin qüvvətlənməsi, bir azərbaycanlı kimi, Şəhriyarı çox narahat edirdi. İran ədəbi-ictimai mühiti də "zəmanəsinin Hafizi" adını qazanmış azərbaycanlı Şəhriyara paxıllıq edir, onu mənən sındırmağa, əyməyə çalışır, bir sıra ədəbi-mədəni tədbirlərə ya heç dəvət etmir, ya da çox gec dəvət edir, şairə laqeydlik göstərirdi. Şəhriyarın qaynar bulaq kimi aşıb-daşan şairlik istedadının qarşısını isə heç bir şey ala bilmirdi və ala bilməzdi.

Ustad Şəhriyarın ən ağır, böhranlı günlərində anası Kövkəb xanım ona dayaq, arxa, dost, həmdəm olmuşdur. Kövkəb ana Allahın köməyi ilə oğlunun böhranlı vəziyyətdən çıxmasında əvəzsiz rol oynamışdır. Tez-tez Tehrana gələrək oğluna baş çəkən Kövkəb xanımın doğma el-obadan, xalq ədəbiyyatından, keçən günlərin xoş xatirələrindən etdiyi təsirli, maraqlı söhbətlər Şəhriyarı sanki ayıldır, ruhunu təzələyir, onu həyata bağlayır, yaşamağa səsləyirdi. Lakin xoşbəxt ana-bala münasibəti də uzun sürməmişdir. 1952-ci ildə Kövkəb xanım Tehranda vəfat etmişdir. Bu kədəri, ağrı-acını Şəhriyar fars dilində yazdığı və elegiya kimi səslənən

"Ey vay, anam!" şeirində qismən əks etdirmişdir. Şair "evimizin günəşi" adlandırdığı anasının timsalında bütün analaın əvəzsiz surətini yaratmış, ana-övlad məhəbbətinin müəyyən anlarını dolğun şəkildə mənalandırmışdır.

Pillələrin yanından yenə ahəstə keçdi,
Ürəyi səksəkəli, qulağı səsdə keçdi.
"Balam oyanmasın qoy", – deyə çatıldı qaşı,
Xəyalında xəstənin yenə səbzəsi, aşı.
Ölümündən sonra da özü görür hər işi,
Anam. Biçarə anam. Evimizin günəşi!
Nə qədər ki mən sağam, anam da sağdır mənim,
Səsimdə, nəfəsimdə yaşayacaqdır mənim.

Bir müddət Tehranda yaşayan Şəhriyar burada özünə qarşı hədsiz dərəcədə soyuqluq, biganəlik, haqsızlıq görür. Bu münasibətdən bezən ustad şair 1953-cü ildə yenidən Təbrizə – doğma ocağına qayıdır:

Tehranın qeyrəti yox Şəhriyarı saxlamağa,
Qaçmışam Təbrizə, qoy yaxşı-yaman bəllənsin, –

deyir.

İlk eşqini uzun müddət unuda bilməyən Şəhriyar, nəhayət, 1953-cü ildə (48 yaşında) öz qohumlarından olan Əzizə xanımla evlənmişdir. Əzizə xanım ibtidai məktəbdə dərs deyirdi. O, mülayim, xoşxasiyyətli, alicənab qadın idi. Ailə maddi sıxıntı, kasıbçılıq çəksə də, övlad məhəbbəti, Əzizə xanımın qayğıkeşliyi bir çox məsələləri Şəhriyara unutdururdu. 2 qızı, 1 oğlu olan Şəhriyar övladlarını ən böyük sərvət, dövlət hesab edir, həyatının bu xoşbəxt anlarından fərəhlənir, rahat nəfəs almağa çalışırdı. Lakin bu xoşbəxtlik də uzun sürmədi. 1974-cü ildə həyat yoldaşı Əzizə xanım vəfat etdi, ailə dərdə düçar oldu.

"Görəsən, çərxi-fələyin mənə dərd, qəm, əzab verməkdən başqa, işi-gücü yoxdur?" – deyə Şəhriyar bəzən öz taleyindən acı-acı şikayətlənirdi. Ümumiyyətlə, Şəhriyarın ikiyə parçalanmış: biri dağın zirvəsində, biri dərənin dibində olan taleyi vardır. Birincisi ədəbi taleyidir ki, buna dünya şairləri həsəd apara bilərlər. Ana dilində, fars dilində, bəzən də ərəb dilində yazdığı şeirləri onun ilhamının sərgisidir. Dahilik zirvəsinə qalxmaq və xalq tərəfindən sevilmək üçün şairə nə lazımdırsa, Tanrı

hamısını Şəhriyara vermiş, heç nəyi əsirgəməmişdir. İkincisi Şəhriyarın şəxsi taleyidir.

1973-cü ildə görkəmli alim və ictimai xadim, "Varlıq" dərgisinin naşiri, doktor Cavad Heyət təkidlə ustad Şəhriyarı Tehrana dəvət edir. Bu dövrdə Bulud Qaraçorlu Səhənd də həm maddi, həm mənəvi cəhətdən Şəhriyara dəstək olmuşdur.

İranda şahlıq rejimi devriləndən sonra yeni hökumət orqanları dahi Şəhriyarın maddi güzəranını yaxşılaşdırmaq üçün bəzi tədbirlər gördülər: şairə abad mənzil verildi, müvafiq təqaüd təyin olundu.

Bəzən Təbrizdə, bəzən Tehranda yaşayan Şəhriyar Əzizə xanımın ölümündən sonra övladları ilə birlikdə həmişəlik Təbrizə döndü. Şəhriyarın Təbrizə qayıdışı ilə Təbriz azərbaycandilli şairlərin baş qərargahına çevrildi. İranın ayrı-ayrı vilayətlərində çalışan azərbaycanlı şairlər ustad Şəhriyarın ətrafında birləşdi, ondan bəhrələndi, şeir-sənət inkişaf etdi. Təbrizdə Şəhriyar ədəbi məktəbi yarandı.

1988-ci ilin 18 sentyabrında M.Şəhriyar Tehranın Mehr xəstəxanasında vəfat etmiş, Təbrizdəki Surxab qəbiristanlığında – "Məqbərətüş-şüəra"da dəfn edilmişdir. Məqbərənin önündə Şəhriyarın abidəsi ilə Azərbaycan Respublikası hökumətinin Bakıdan göndərdiyi N.Gəncəvinin heykəli yanaşı durur. Ölümündən sonra əsərləri ingilis, alman, fransız, ərəb dillərinə tərcümə edilmiş, saysız-hesabsız oxucu, əvəzsiz hörmət, məhəbbət qazanmışdır.

Yaradıcılığı

Şəhriyar aldığı təhsilə və doğulub boya-başa çatdığı ölkədəki poetik ənənələrə uyğun olaraq, əsərlərinin çoxunu fars dilində yazmışdır. Lakin Azərbaycan dilində yazdığı əsərlər sayca az olsa da, məzmun və ideyasına görə çox dəyərli və qiymətlidir. Bu əsərlər şairin sağlığında onu Azərbaycanın dahi klassik şairləri səviyyəsinə yüksəltmişdir. Xüsusən "Heydərbabaya salam" poeması anadilli poeziyamızın nadir incilərindən biri sayılmış, həm Şimali, həm də Cənubi Azərbaycanda dillər əzbəri olmuşdur. Hələ uşaqlıqdan ana dilinə olan sonsuz məhəbbəti, bu dildə yazıb-yaratmaq həvəsi Şəhriyarın qəlbində özünə əvəzsiz yer tapmış, bu

məhəbbətin nəticəsində 1913-cü ildə ilk şeirini Azərbaycan dilində, "Talibiyyə" mədrəsəsində oxuyarkən yazmışdır.

1920-ci ildə – Təbrizdəki "Mütəvəssitə" mədrəsəsində oxuyarkən onun Behcət təxəllüsü ilə yazdığı bir neçə şeiri "Ədəb" dərgisində çap olunmuş və gələcəyin ustad şairinə ilk uğurlar qazandırmışdır.

1924-1929-cu illərdə (Tehranda Ali Tibb Universitetində oxuyarkən) Şəhriyar bilik və dünyagörüşünü zənginləşdirməklə yanaşı, bədii yaradıcılığında da ciddi uğurlar qazanmışdır. 1926-cı ildə onun ilk şeir kitabı çap olunmuşdur. Bu kitab **"Sədaye-xuda"** ("Tanrının səsi") adlanırdı. Görkəmli şair və məliküş-şüəra Bahar kitaba yazdığı müqəddimədə Şəhriyarı "yalnız İranın deyil, bəlkə, bütün Şərq aləminin fəxri" adlandırmış, onun parlaq istedada malik olduğunu xüsusi vurğulamış və alqışlamışdır.

1927-ci ildə Şəhriyarın yenə fars dilində **"Məsnəviye – Ruh və Pərvanə"** ("Ruh və Pərvanə məsnəvisi") adlı ikinci şeir kitabı çap olunmuşdur. Bu kitaba isə Peyman Bəxtiyari ön söz yazmış, Şəhriyarın yaradıcılığını layiqincə qiymətləndirmişdir.

1929-cu ildə şairin üçüncü şeirlər kitabı nəşr olunmuşdur. Baharın, Səid Nəfisinin və Peyman Bəxtiyarinin ön söz yazdıqları bu kitab M.Şəhriyarı ədəbi-ictimai mühitdə əvəzsiz şair kimi qəti olaraq təsdiqləmiş, tanıtmış, onu İran ədəbiyyatının fəxri səviyyəsinə qaldırmışdır.

Şəhriyarın yaradıcılığı həm şəkil, həm də mövzu etibarilə çox zəngin və rəngarəngdir. O, klassik şeirin, demək olar ki, bütün şəkillərində yazmış, Şərq ədəbiyyatını dərin məzmunlu, mükəmməl mənalı qəzəl, qəsidə, məsnəvi, qitə və rübailəri ilə zənginləşdirmişdir.

Şəhriyarın yaradıcılığında Azərbaycan mövzusu geniş yer tutur. O, əsərlərində Azərbaycanı ürəklə, ilhamla tərənnüm etmiş, vətənin şanlı tarixinin, böyük istiqlalının, taleyinin, müqəddəratının kamil bədii obrazını yaratmışdır.

Ustadın **"Azərbaycan"** şeiri o taylı, bu taylı azərbaycanlıların vətənə olan məhəbbətindən, məğrurluğundan, azadlıq, müstəqillik arzularından xəbər verir. İctimai-siyasi motivli bu şeirdə Şəhriyar qorxmadan, çəkinmədən Azərbaycanı ayağa qalxmağa, əl-ələ verməyə, müstəqil və

azad olmağa çağırır. Bu, Azərbaycan vətənpərvərliyinin ən yüksək zirvəsi, vətənin azadlığına həsr olunmuş şah əsərlərindən biridir. Fars dilində, qəzəl janrında yazılmış bu şeirdə Şəhriyar öz ürəyini vətəntək yaralı hesab edir. Şairin fikrincə, həm vətənin, həm də Şəhriyarın dərdinin dərmanı, məlhəmi azadlıqdır:

Könlüm quşu qanad çalmaz sənsiz bir an, Azərbaycan!
Xoş günlərin getmir müdam xəyalımdan, Azərbaycan!
Səndən uzaq düşsəm də mən, eşqin ilə yaşayıram,
Yaralanmış qəlbim kimi qəlbi viran Azərbaycan...
Övladların nə vaxtadək tərki-vətən olacaqdır?
Əl-ələ ver, üsyan elə, oyan, oyan, Azərbaycan!
... Şəhriyarın ürəyi də səninkitək yaralıdır,
Azadlıqdır mənə məlhəm, sənə dərman, Azərbaycan!

M.Şəhriyar Azərbaycan dilində yazdığı **"El bülbülü"** şeirində də milli birlik, bütövlük duyğularından, ayrılıq və həsrət dərdinin dözülməzliyindən danışır, hər kəsi öz əsil-nəcabətinə qayıtmağa, ona söykənməyə səsləyir. Şimali Azərbaycanda yaşayan, əslən İran Azərbaycanından olan şair, alim və tərcüməçi Əbülfəz Hüseyniyə yazılmış bu şeir heca vəznində, beşlik formasında, xalq danışıq dilindədir. "El bülbülü" mövzusu, toxunduğu məsələlər baxımından da **"Heydərbabaya salam"ı** xatırladır, poemadakı hislərin, duyğuların davamı kimi səslənir. Bu əsərdə də yüksək poetik zirvənin ab-havası duyulur. Ayrılığı "qəmlə yazılmış bir dastan, roman" adlandıran Şəhriyar ümid və inamını heç vaxt itirməmiş, yaman günləri "keçib-gedib itən" hesab etmişdir.

Yaman günlər keçib-gedib itəndi,
Bir yaxşılıq muradına yetəndi!
O tay – bu tay, fərqi yoxdur, Vətəndi!
Orda burdan yüz il sənət qabaqdı,
Kənd gördüyün həmən taxta-tabaqdı.

Onda sən də atı minib çaparsan,
Öz haqqını qurd ağzından qaparsan,
İtmişləri axtararsan, taparsan.
Alnımıza yazıblar axır vəsli,
Qayıdalım, tapalım axır əsli.

Ana dili mövzusu Şəhriyar yaradıcılığında Azərbaycan mövzusunun tərkib hissəsidir. Hələ 1969-cu ildə – Rza Pəhləvi rejimi zamanı İranda Azərbaycan dilinin qadağan olunduğu dövrdə Şəhriyar Azərbaycan dilində **"Türkün dili"** şeirini yazdı. Ana dilimiz haqqında yazılmış şeirlər içərisində bu şeir, bəlkə də, ən mənalı və kəsərlisidir.

"Türkün dilitək sevgili, istəkli dil olmaz", – deyən şairin ana dilinə sonsuz məhəbbəti, dilimizin zənginliyinə, incəliklərinə, ədəbiyyat və mədəniyyətimizə dərindən bələd olması bu şeirdə də göz qabağındadır. "Şair ola bilməzsən anan doğmasa şair", – deyən Şəhriyar əsl şairliyi istedadın bəhrəsi, istedadı isə Allahın vergisi hesab edir:

Türkün dilitək sevgili, istəkli dil olmaz,
Ayrı dilə qatsan, bu əsil dil əsil olmaz.
Şair ola bilməzsən anan doğmasa şair,
Missən, a balam, hər sarıköynək qızıl olmaz.
Fars şairi çox sözlərini bizdən aparmış,
Sabir kimi bir süfrəli şair pəxil olmaz.

Ümumiyyətlə, Şəhriyarın Şimali Azərbaycandakı qələm dostlarına, Süleyman Rüstəmə, Əbülfəz Hüseyniyə, Rüstəm Əliyevə, Məmməd Rahimə yazdığı mənzum məktublarının məzmununu Azərbaycanın bütövlüyü məsələsi, qarşılıqlı əlaqələrin yaranması ideyası, hər iki Azərbaycanın iftixarı sayılan Bakı həsrəti təşkil edir. Ustad şair bu əsərlər vasitəsilə geniş mənada vətən haqqındakı milli düşüncələrini həvəslə bir daha dilə gətirmişdir. Şair 1967-ci ildə yazdığı **"Məmməd Rahim həzrətlərinə cavab"** şeirində bu mətləbləri özünəməxsus şəkildə aşağıdakı kimi mənalandırmışdır:

O taydadır Şəki, Şirvan, Qarabağ,
Bu tayda da Meşgin, Əhər, Qaradağ.
Bir-birini Arazdan almış soraq.
Araz bizi ayırmadan dağlayıb,
Son özü də gecə-gündüz ağlayıb.

Ayrı-ayrı illərdə ən müxtəlif səbəblərdən Bakıya gələ bilməyən Şəhriyar bu yerlərə xəyalən səfər etmiş, doğma yurdla qucaqlaşmış, vətəni ziyarət etmişdir. Ana dilində yazdığı "El bülbülü", "Can, Rüstəm", "Döyünmə - söyünmə", "Qaçaq Nəbi", "Həkiməcan", "Qafqazlı qardaşlarla görüş", "Gözüm aydın" şeirlərinin qanadlarında ustad

Şəhriyar Şimali Azərbaycana səyahət etmiş, milli-mənəvi birlik ideyasını böyük məharətlə qabartmış, oxucularına çatdırmışdır. Bu əsərlər Şimali və Cənubi Azərbaycan arasında möhkəm və davamlı sənət körpüsünə çevrilmişdir.

Cənubi Azərbaycanda yaşamasına baxmayaraq, Şimali Azərbaycanın ədəbiyyatı, insanları, inkişafı ilə yaxından maraqlanan Şəhriyar milli-mənəvi birliyi şeirin, sənətin, sənətkarların birliyində görürdü. "Döyünmə-söyünmə" şeirində sənətkar fikrilərini belə ifadə etmişdir:

Sarqındı o süsənlərə, sünbüllərə könlüm,
Bülbül kimi qondu o qızıl güllərə könlüm,
Vahidlərə, Qabillərə, Bülbüllərə könlüm.
Şair olalı borcludu Sabirlərə ruhum,
Vurğundu Süleyman kimi Sahirlərə ruhum.

Rahimli, Süleymanlı görüm Bəxtiyar olsun,
Gülgün bacım – Azər qadını bərqərar olsun,
Osman, Nəbi, Kürçaylı, Rəsul, Tudə var olsun.
Fürsətdə Səhənd ilə sizə gül səpərik biz,
Hər göz sizi görmüşsə, o gözdən öpərik biz.

M.Şəhriyarın Azərbaycan haqqında yazdığı şeirlərinin hər biri öz dövrü üçün çox aktual olan məsələlərə həsr edilmişdir. Bu məsələlər Şimali və Cənubi Azərbaycan arasında çoxcəhətli və qarşılıqlı əlaqələrin genişləndirilməsindən, dili, dini, adət-ənənəsi eyni olan, lakin siyasi qurbana çevrilərək bir-birindən ayrı salınmış xalqın birləşməsindən, heç olmazsa, gediş-gəlişinə münasib şəraitin yaradılmasından ibarət idi. Sözsüz ki, bu fikirlər Azərbaycanın hər iki tayında ədəbi qüvvələr tərəfindən həvəslə dəstəklənirdi.

Öz elinə, obasına, qohum-qardaşına, ailə üzvlərinə səmimi məhəbbətlə bağlı olan Şəhriyar əsərlərində (əsasən, "Heydərbabaya salam" poemasında) yeri gəldikcə bu insanları xüsusi hörmətlə yad etmiş, bəzən də onlara xüsusi şeirlər həsr etmişdir: "Atamın matəmində", "Ey vay, anam!", "Əzizə", "Doktor Cavid da getdi" və s. belə şeirlərdəndir. "Ata qüdrətli anam, bacı şəfqətli anam, kişi qeyrətli anam" sözlərilə bütün analara əvəzsiz bir abidə ucaldan Şəhriyar "Ey vay, anam!" şeirində fikirlərini belə davam etdirir:

Heç biləsən mənə bir vaxt nələr, nələr demiş o!
Həqiqətlər söyləmiş, əfsanələr demiş o.
Onun nağıllarıyla qanadlanmış xəyalım,
Bayatılar, laylalar, təranələr demiş o.

Mənim eşqim, ilhamım, hər nəyim var, onundur,
Bu qəmlər, bu ələmlər, bu misralar onundur.
Mən onun sayəsində boya-başa çatmışam,
Anam məni yaratmış, mən aləm yaratmışam.

Şəhriyarın yaradıcılığında nakam məhəbbətinin ağrı-acılarını əks etdirən şeirləri də xüsusi yer tutur. Tələbəlik illərində tanıdığı, dəlicəsinə sevdiyi, "Pəri" adlandırdığı Sürəyyaya həyatda qovuşa bilməsə də, yaradıcılığında heç vaxt ondan ayrılmamışdır. Bu eşqin təsirindən qovrulan, sızlayan gənc aşiq öz hislərini şeirlərinin dili ilə dilləndirmişdir. Nakam məhəbbət Şəhriyarın "Həzin nalələr", "İtmiş Yusif", "Odda yanan pərvanə", "Köynəyin qoxusu", "Dəli Pəri", "Behcətabad xatirəsi" kimi çox təsirli şeirlərinin yaranmasına səbəb olmuşdur. O, "Behcətabad xatirəsi" adlı şeirində – qəzəlində bu nakam məhəbbətinə xüsusi və möhtəşəm abidə ucaltmışdır:

Ulduz sayaraq gözləmişəm hər gecə yarı,
Gec gəlmədədir yar, yenə olmuş gecə yarı.
... Yatmış hamı, bir Allah oyaqdı, daha bir mən,
Məndən aşağı kimsə yox, ondan da yuxarı.
Qorxum budu; yar gəlməyə birdən, yarıla sübh,
Bağrım yarılar, sübhüm, açılma, səni tarı!
Eşqin ki qərarında vəfa olmayacaqmış,
Bilməm ki, təbiət niyə qoymuş bu qərarı?
Eşqi var idi Şəhriyarın güllü, çiçəkli,
Əfsus, qara yel əsdi, xəzan oldu baharı.

Poemaları. Ustad Şəhriyarın yaradıcılığında poema janrının xüsusi yeri vardır. "Haqqın səsi", "Şeir və hikmət", "Nişapurda günəş batarkən", "Qardaşım oğlu Huşəngə", "Gecənin əfsanəsi", "Stalinqrad qəhrəmanları", "Səhəndiyyə", "Hedərbabaya salam" əsərləri poema janrındadır. Onun poemalarının çoxu fars dilindədir. Şəhriyarın poemalarının əksəriyyəti məsnəvi formasındadır.

"Haqqın səsi" poemasında şair "İnsanın vətəni Yer kürəsidir" ideyasını irəli sürmüş, bütün insanları qardaşlığa, bərabərliyə, şər işlərdən əl çəkməyə çağırmışdır.

Dalıb üfüqlərin sonsuzluğuna,
Qışqırmaq bu eşqi bütün cahana:
– İnsan Yer üzünün dürdanəsidir,
İnsanın vətəni Yer kürəsidir.
Yalançı sərhədlər silinsin gərək,
Ərzin bütövlüyü bilinsin gərək!

"Şeir və hikmət" poemasını "Şəhriyarın fəxriyyəsi" də adlandırmaq olar. Bütün varlığı ilə şeir-sənət vurğunu olan lirik qəhrəman hətta "şeirsiz cənnəti də cəhənnəm" hesab edir, şairliyi ilə öyünür:

Yox! Mənim od qəlbim bir bulaq istər,
Yaratmaq naminə yaşamaq istər.
Şeir– azadlığım, şeir – həyatım,
Ömrüm, səadətim, müqəddəratım!
Şeirsiz bir dünya kədər, qəm kimi,
Şeirsiz cənnət də cəhənnəm kimi.
Şeir də insanın vuran əlidir,
Yaradan əlidir, quran əlidir.
Kimin güclüdürsə şeiri-sənəti,
Onun əbədidir mədəniyyəti.

"Şeir və hikmət", "Kəmalülmülkün ziyarəti" poemalarında Şəhriyar yaradıcı ziyalıların, istedadlı rəssam, şair və alimlərin bəzən acınacaqlı taleyindən bəhs etmiş, onların özlərinə layiq qiymət almamalarından söz açmış, xalqa başucalığı gətirə bilən özü kimi böyük zəka sahiblərinin yaddaqalan canlı obrazını yaratmışdır. Şəhriyar bu poemalarında zəmanə və həqiqi sənətkar məsələsini daha qabarıq göstərməyə çalışmışdır:

Təmiz yaşamağı öyrətdin bizə,
Kirli cəmiyyətə ögeydi bu dərs.
Sənin qazanında qaynadıq, ancaq
Həyat kif içində, arzu müqəddəs!

"Gecənin əfsanəsi", "Qardaşım oğlu Hüşəngə", "Eynşteynə müraciət" adlı fəlsəfi səciyyəli əsərlərində şair təkcə öz elinin, obasının, vətəninin,

xalqının yox, bütün dünyanın taleyi üçün mənəvi məsuliyyət daşıyan qüdrətli bir sənətkar kimi çıxış edir.

"Nişapurda günəş batarkən", "Qardaşım oğlu Huşəngə", "Gecənin əfsanəsi" poemaları avtobioqrafik xarakter daşıyır. Bu poemalarda Şəhriyarın Nişapurdakı sürgün illərindən, şanssız taleyindən, ailə ənənələrindən bəhs edilmişdir.

"Gecənin əfsanəsi" həm də tarixi-romantik poemadır. Bu poemanın bəzi hissələri "Hedərbabaya salam" poemasındakı motivlərlə səsləşir.

"Stalinqrad qəhrəmanları" poemasında İkinci Dünya müharibəsində baş verən hadisələr, təsirli hərb səhnələri qələmə alınmışdır.

"Səhəndiyyə" poemasını Şəhriyar yaxın dostu Bulud Qaraçorlu Səhəndin məktubuna cavab olaraq yazmışdır. Bu əsər vətən haqqında Azərbaycan dilində yazılmış qüvvətli poetik simfoniyadır. "Səhəndiyyə" poeması Azərbaycan şeirinin yeni bir "Vətəniyyə"sidir.

Şah dağım, çal papağım, el dayağım, şanlı Səhəndim!
Başı tufanlı Səhəndim!
Səni "Heydərbaba" ol nərələr ilə çağıranda,
O səfil, darda qalan, tülkü qovan şir bağıranda,
Şeytanın şıllağa qalxan qatırı noxta qıranda,
"Dədə Qorqud" səsin aldım, dedim: arxamdı, inandım.
Arxa durduqda Səhəndim Savalantək havalandım,
Selə qarşı qovalandım.

"Heydərbabaya salam" poeması

"Heydərbabaya salam" poeması Məhəmmədhüseyn Şəhriyarın yaradıcılığının zirvəsi, həm də emblemidir. Azərbaycan xalqı üçün ana laylası qədər şirin olan bu poema ədəbi dilin bədii imkanlarının, zəngin tarixinin təsdiqi baxımından da səciyyəvidir.

"Heydərbabaya salam" poeması sadə formada, anlaşıqlı dildə yazılmışdır. Şəhriyar yaradıcılığının bir çox tədqiqatçıları əsərin uğurunu onun sadəliyi ilə əlaqələndirmiş, belə bir sadəliyin içində həyatın özünəməxsus hadisə və əhvalatlarının bədii tərənnümünü sənət üçün xüsusi hal hesab etmişlər. XX yüzillikdə bütöv Azərbaycanda bu poema qədər geniş yayılan, çox oxunan və xalq tərəfindən sevilən ikinci bir əsər

tapmaq çətindir. Bu poemanı təbiiliyi, dillər əzbəri olmaq cəhətdən yalnız S.Vurğunun "Azərbaycan" şeiri ilə müqayisə etmək olar. Elə buna görə də ustad Şəhriyarı "Heydərbaba şairi"də adlandırırlar.

Bu poema, ilk növbədə, anası Kövkəb xanımın "Oğlum, sənə böyük şair deyirlər, fəqət necə yazırsan ki, mən anlamıram" sözlərinin təsiri ilə, həmin müdrik kəlamlara cavab olaraq yazılmışdır.

Bundan başqa, şairin özünün də etiraf etdiyi kimi, "uşaqlıq illərində bərabər oynayıb əyləndiyi insanların zövqünü oxşayan parçalar yazmaq arzusu" da Azərbaycan dilində "Heydərbabaya salam" poemasının meydana çıxmasına səbəb olmuşdur.

Heydərbaba dağ adıdır. "Heydərbabaya salam" isə möhtəşəm bir sənət dağıdır. Ustad Şəhriyar tarixin bütün hadisələrini gözü ilə görmüş, onu sinəsinə köçürmüş Heydərbaba dağından bir tribuna kimi istifadə edərək öz arzu və istəklərini dünyaya bəyan etmişdir.

Poema iki hissədən ibarətdir. Şair poemanın birinci hissəsini Tehranda, 2-ci hissəsini Təbrizdə yazmışdır. Onun I hissəsi 77, II hissəsi 48 bənddən ibarətdir. Bu bəndlər hamısı birlikdə "Heydərbabaya salam" poemasının kamil bir əsər olduğunu sübut edir. Eyni zamanda, bəndlərin hərəsi ayrılıqda bir xatirəni, həyatın bir şirin anını əks etdirən bitkin bədii vahid təsiri bağışlayır.

Heydərbaba, yolum sənnən kəc oldu,
Ömür keçdi, gələmmədim, gec oldu,
Heç bilmədim gözəllərin nec oldu.
Bilməz idim döngələr var, dönüm var,
İtkinlik var, ayrılıq var, ölüm var.

Heydərbaba, Quru gölün qazları,
Gədiklərin sazax çalan sazları,
Kənd-kövşənin payızları, yazları,
Bir sinema pərdəsidir gözümdə,
Tək oturub, seyr edirəm özüm də.

Poema ilk dəfə 1951-ci ildə Təbrizdə əlyazması xətti ilə çap edilmişdir.

Şairin poemada toxunduğu, münasibət bildirdiyi problemlər say etibarilə olduqca çoxdur. Poemada Şəhriyarın doğulduğu, ayaq tutub

yeridiyi, boya-başa çatdığı Vətən torpağının, Vətən gözəlliklərinin təsvir və tərənnümünə geniş yer verilir. Həmin hadisələrdə uşaqlıq dövrünün təəssüratları, Şəhriyarın uşaq vaxtı gördüyü, seyr etdiyi təbiət lövhələri canlandırılır.

Özünün dediyi kimi, anasının nəvazişləri, mahnıları, zümzümələri və şirin-şirin xatirələri şairə ilham və qüvvət vermişdir. Demək olar ki, poema ilk əvvəl şairin anasına, doğma xalqına, qohum-qardaşına ithaf olunmuşdur:

Heydərbaba, Nənəqızın gözləri,
Rəxşəndənin şirin-şirin sözləri.
Türkü dedim, oxusunlar özləri.
Bilsinlər ki, adam gedər, ad qalar,
Yaxşı, pisdən ağızda bir dad qalar.

Şair Heydərbaba – Xoşginab mühitini bütün çalarları, əsas rəngləri və mühüm mətləbləri ilə birlikdə, çox məharətlə canlandıra bilmişdir. Poemada təsvirlər o qədər həyatidir ki, oxucu özünü poemadakı hadisə və əhvalatların mərkəzində hiss edir, təqdim olunan mühiti canlı görə bilir, əsərin personajları ilə birlikdə həmin həyatı yaşayan adamlardan birinə dönür, bir növ sənətkarın yol yoldaşına çevrilir.

Səhər tezdən naxırçılar gələrdi,
Qoyun-quzu dam-bacada mələrdi,
Əmməcanım körpələrin bələrdi,
Təndirlərin qovzanardı tüstüsü,
Çörəklərin gözəl iyi, istisi.

Poemada "uşaqlıq qibləgahı" olan və həsrətlə yad edilən Heydərbaba dağı, Xoşginab, Şəngülava yurdu, Quru göl, Qaraçəmən kimi yerlər vətən rəmzi kimi təqdim olunur.

Əsərdə şair həyatı dərindən duyur, düşünür, ümumiləşdirmə aparır. Elə bir ictimai-siyasi hadisə, adət-ənənə, təbiət mənzərəsi tapılmaz ki, şair ona biganə qalsın. Yeri gəldikcə Şəhriyar onlara öz münasibətini də bildirir. Mirqafar, Mirsaleh, Mirheydər, "heykəlli, saqqallı Tolstoy baba" – Mustafa dayı, Mircəfər, Xoşginabın gülü Firzə xanım, Nənəqız, axund

molla İbrahim və digər şəxslər onun qəlbində canlı xatirələr kimi əbədi yaşayırlar:

Mirsalehin dəlisovluq etməsi,
Mirəzizin şirin şaxsey getməsi,
Mirməmmədin qurulması, bitməsi,
İndi desək, əhvalatdı, nağıldı,
Keçdi-getdi, itdi-batdı, dağıldı.

Əsərdə yalnız təbiət lövhələrinin və etnoqrafik məqamların yox, psixoloji anların da təsvirində şair böyük ustalıq nümayiş etdirmişdir:

Qarı nənə gecə nağıl deyəndə,
Külək qalxıb qap-bacanı döyəndə,
Qurd keçinin şəngülüsün yeyəndə,
Mən qayıdıb bir də uşaq olsaydım,
Bir gül açıb ondan sonra solsaydım.

Bu misraların hər birində insan əhvali-ruhiyyəsinin elə anları verilmişdir ki, yaşından asılı olmayaraq, onu oxuyanların qəlbində həyatın həmin anlarını yenidən yaşamaq arzusu baş qaldırır. Özü də bu anlar şirin, qəlbəyatan, keçmiş xatirələri canlandırmağı bacaran bir dillə sadalanır.

Ana yurdun bütün gözəlliklərini canlı, əlvan boyalarla əks etdirən Şəhriyar Novruz bayramı adət-ənənələrini, bu bayrama hazırlığı, bu bayramın bizə bəxş etdiyi əvəzsiz anları, sevinci sehrli bir dillə canlandırmış, oxucusunu öz sənətinə heyran etmişdir:

Bayram olub, qızlar palçıq əzərlər,
Naxış vurub otaqları bəzərlər,
Taxçalarda düzmələri düzərlər.
Qız-gəlinin fındıqçası, hənası,
Həvəslənər anası, qaynanası.

Yumurtanı göyçək, güllü boyardıq,
Çaqqışdırıb sınanların soyardıq,
Oynamaqdan bircə məgər doyardıq?
Əli mənə yaşıl aşıq verərdi,
İrza mənə novrüzgülü dərərdi.

Bildiyimiz kimi, poemanın 2-ci hissəsi Təbrizdə Şəhriyarın real müşahidələri əsasında yazılmışdır. İkinci hissədə daha çox konkret problemlərə diqqət yetirilmişdir.

Bu hissədə ustad sənətkarın xalq həyatı və məişətinə, öz millətinin istək və kədərinə nə qədər yaxın olduğu qabarıq şəkildə nəzərə çarpır. Bu mənada, "Heydərbabaya salam" poemasının birinci hissəsi Şəhriyarın romantik dünyasını oxuculara çatdırırsa, ikinci hissə şairin gerçək mövqeyini, realizmini bəyan edir:

Şəngülava yurdu, aşıq olması,
Gah da gedib orda qonaq qalması,
Daş atması, alma-heyva salması
Qalıb şirin yuxu kimi yadımda,
Əsər qoyub ruhumda, həm zadımda.

I hissədən götürülmüş bu misraları oxuyan hər bir azərbaycanlı öz qayğısız, xoşbəxt uşaqlıq günlərini, həyatının fərəhli, əvəzsiz çağlarını yada salır.

Kəndli yazıq çıraq tapmır yandıra,
Görüm sizin bərqiz qalsın andıra,
Kim bu sözü ərbablara qandıra:
Nədir axı bu millətin günahı?
Tutsun görüm sizi məzlumlar ahı!

II hissədən götürülmüş bu misralarda Rza Pəhləvi dövrünün azərbaycanlılar üçün çətin tarixi şəraiti, günahsız millətin dözülməz, acınacaqlı həyatı, üstüörtülü şəkildə xalqın azadlıq düşüncələri öz əksini tapmışdır.

II hissənin 2-ci bəndində Şəhriyar özünü **Yusif**, Heydərbabanı, doğma yurdunu isə **Qoca Yəqub** kimi təqdim edir. Bu misralarda ana torpağı, onun təbiəti üçün kövrəlmiş şairin böyük həsrəti, nigarançılıq duyğuları ifadə olunmuşdur:

Heydərbaba, çəkdin məni gətirdin,
Yurdumuza, yuvamıza yetirdin,
Yusifivü uşaq ikən itirdin,
Qoca Yəqub, itmişsəm də, tapıbsan,
Qovalayıb qurd ağzından qapıbsan.

Şair "Siyasət adlı məndə bir mərəz yox", – desə də, xalqının və məmləkətinin illər uzunu istismar edildiyini, müxtəlif siyasi oyunlara qatıldığını geniş xalq kütlələrinə dərk etdirməyə çalışmışdır:

Heydərbaba, göylər bütün dumandı,
Günlərimiz bir-birindən yamandı,
Bir-birizdən ayrılmayın, amandı.
Yaxşılığı əlimizdən alıblar,
Yaxşı bizi yaman günə salıblar!

"Darda qalıb bağıran" şir kimi haray çəkən Heydərbaba şairi bütün zorluqlara baxmayaraq, gələcəyə ümidlə, nikbin nəzərlərlə baxır. Şairin fikrincə, yalnız namərdlərin burunlarını ova bilən mərd oğulların doğulması ilə xalq əsarətdən qurtula bilər:

Heydərbaba, mərd oğullar doğginən,
Namərdlərin burunların ovginən,
Gədiklərdə qurdları tut, boğginən.
Qoy quzular ayın-şayın otlasın,
Qoyunların quyruqların qatlasın.

"Heydərbabaya salam" poeması şairin öz keçmişinə, yaşamış olduğu həyatın özünə "səyahət etmək", hadisələri nağıl etmək yolu ilə qələmə alınmışdır.

Əsərdə şair özü əsas obrazdır. Hadisələr onun dilindən danışılır. Bütün hallarda o, qayğılı-düşüncəli vətən oğlu və milli şeirin sərkərdəsi olan şair Şəhriyardır.

"Heydərbabaya salam" poeması şeirdən yoğrulmuş möhtəşəm Azərbaycan dili abidəsidir. Şair ana dilinin sadəliyi və saflığından faydalanmaqla xüsusi yol seçmiş, əvəzsiz sənət abidəsi yaratmışdır.

Janr etibarilə "Heydərbabaya salam" lirik poemadır. Şairin uşaqlıq xatirələrinin təqdimində müəyyən süjet əlamətləri nəzərə çarpsa da, epik əlamətlərin meydanı genişlənə bilməmişdir.

Poema heca vəznində, bəndlər şəklində yazılmışdır. Bəndlərin hər biri beş misradan ibarətdir, ***aaabb*** şəklində qafiyələnmişdir. Əsərdə bənzərsiz bədii təsvir və ifadə vasitələrindən bacarıqla istifadə edilmişdir.

Şəhriyar poemanın I hissəsini "Deynə mənim şair oğlum Şəhriyar, Bir ömürdür, qəm üstünə qəm qalar" misraları ilə tamamlayırsa, II hissəni sabaha ümidli, nikbin, nəsihətamiz fikirlərlə bitirir:

Heydərbaba, alçaqların köşk olsun,
Bizdən sonra qalanlara eşq olsun!
Keçmişlərdən gələnlərə məşq olsun.
Övladımız məzhəbini danmasın,
Hər içiboş sözlərə aldanmasın!

Poema Bakıda ilk dəfə 1966-cı ildə nəşr olunmuşdur.

Poemaya çoxlu nəzirələr yazılmışdır. "Heydərbabaya salam" poeması XX əsr Azərbaycan ədəbiyyatının mühüm yaradıcılıq nailiyyətidir. Bu poemadan sonra milli şeirimizdə orijinal "Heydərbaba" üslubu formalaşmışdır.

M.Şəhriyarın həyat və yaradıcılığının qısa icmalı

Həyatı

1. Ustad Şəhriyarın adı farsdilli ədəbiyyatda Sədi Şirazi və Hafiz Şirazinin, anadilli ədəbiyyatda ən yeni dövr Azərbaycan poeziyasının qüdrətli nümayəndələrinin adı ilə yanaşı çəkilir.
2. Şəhriyar daha çox fars, müəyyən qədər də Azərbaycan dilində əsərlər yazmışdır. O, ərəb dilində də bəzi əsərlərin müəllifidir.
3. Təxəllüsləri: Behcət, Şəhriyar.
4. 1913-cü ildə – "Talibiyyə" məktəbində oxuyarkən ilk şeirini ana dilində yazmışdır.
5. 1934-cü ildə – Şəhriyar sürgündə olarkən atası vəfat etmişdir. "Atamın matəmində" şeirini sürgündə olarkən yazmışdı.
6. Fars dilində yazdığı şeirləri ilə Şəhriyar artıq İran ədəbi mühitində şöhrətlənmiş, "zəmanəsinin Hafizi" adını qazanmışdı.
7. 1952-ci ildə Kövkəb xanım Tehranda vəfat etmiş, şair öz dərdini, kədərini "Ey vay , anam!" şeirində qismən əks etdirmişdir.

8. Tehranda özünə qarşı biganəlik görən Şəhriyar 1953-cü ildə Təbrizə gəlmişdir.
9. 1973-cü ildə "Varlıq" dərgisinin naşiri, doktor Cavad Heyətin təklifi ilə Tehrana qayıtmışdır. Bulud Qaraçorlu Səhənd ustad şairə hərtərəfli dəstək olmuşdur.
10. Şəhriyarın Təbrizə qayıdışı ilə Təbriz azərbaycandilli şairlərin baş qərargahına çevrilmişdir.
11. 1988-ci ilin 18 sentyabrında M.Şəhriyar vəfat etmiş, Təbrizdəki Surxab qəbiristanlığında – "Məqbərətüş–şüəra"da dəfn olunmuşdur.

Yaradıcılığı

1. Həm lirik, həm də epik növdə əsərlər yaratmışdır.

   Klassik şeirin, demək olar ki, bütün şəkillərində mükəmməl şeirlər yazmışdır: qəzəl, qəsidə, məsnəvi, qitə, rübai və s.
2. Yaradıcılığında Azərbaycan mövzusu geniş yer tutur. Ustad şair bir çox şeirlərində vətəni ürəklə, həvəslə tərənnüm etmiş, yeri gəldikcə Şimali və Cənubi Azərbaycan birliyi məsələsinə toxunmuşdur.
3. "Azərbaycan" şeirində Şəhriyar vətənin taleyindən, müqəddəratından, tarixindən söz açır, onu azad olmağa səsləyir. Şeir fars dilində, qəzəl janrındadır.
4. "El bülbülü" şeirində Vətənin bütövlüyünü, milli birlik ideyasını təbliğ edir, ayrılıq və həsrəti dözülməz dərd sayır. Bu şeir Əbülfəz Hüseyniyə yazılmışdır (daha doğrusu, Ə.Hüseyninin şeirinə nəzirədir). Heca vəznində, beşlik formasındadır.
5. 1967-ci ildə "Məmməd Rahim həzrətlərinə cavab" şeirində Şəhriyar həvəslə vətən haqqındakı milli düşüncələrini, Azərbaycanın tam, bütöv olması ideyasını qabartmışdır.

6. Ümumiyyətlə, Şəhriyarın Şimali Azərbaycandakı qələm dostlarına: Süleyman Rüstəmə, Əbülfəz Hüseyniyə, Rüstəm Əliyevə, Məmməd Rahimə yazdığı mənzum məktubların məzmununu Azərbaycanın bütövlüyü, Bakı həsrəti təşkil edir.
7. Ana dili və Şəhriyar mövzusu da şairin yaradıcılığının tərkib hissəsidir. Azərbaycan dilinə olan sonsuz məhəbbətini 1969-cu ildə yazdığı "Türkün dili" şeirində əks etdirmişdir.
8. Şəhriyar Azərbaycan dilində yazdığı "Can, Rüstəm", "Döyünmə – söyünmə", "Qaçaq Nəbi", "Həkiməcan", "Qafqazlı qardaşlarla görüş", "Gözüm aydın" şeirlərində də milli-mənəvi birlik ideyasını qabartmış, Şimali və Cənubi Azərbaycan haqqında möhkəm sənət körpüsü yaratmışdır.
9. Öz elinə, qohum-qardaşına, ailə üzvlərinə səmimi məhəbbətlə bağlı olan ustad Şəhriyar yeri gəldikcə əsərlərində onların xatirəsini yad etmiş, bəzən onlara xüsusi şeirlər həsr etmişdir: "Atamın matəmində", "Ey vay, anam!", "Əzizə", "Doktor Cavad da getdi"...
10. Dəlicəsinə sevdiyi, "Pəri" adlandırdığı sevgilisini, nakam eşqini "Həzin nalələr", "İtmiş Yusif", "Odda yanan pərvanə", "Köynəyin qoxusu", "Dəli Pəri", "Behcətabad xatirəsi" kimi şeirlərində əks etdirmişdir.

Poemaları: "Haqqın səsi", "Şeir və hikmət", "Nişapurda günəş batarkən", "Qardaşım oğlu Huşəngə", "Gecənin əfsanəsi", "Staqlinqrad qəhrəmanları", "Səhəndiyyə", "Heydərbabaya salam"

1. "Haqqın səsi" fars dilində məsnəvi formasında yazılmış poemadır. Bu poemada Şəhriyar insanları qardaşlığa, bərabərliyə səsləyir.
2. "Şeir və hikmət" poemasını "Şəhriyarın fəxriyyəsi" də adlandırmaq olar. Əsər fars dilində, məsnəvi şəklindədir.
3. Şəhriyarın avtobioqrafik poemaları da vardır: "Nişapurda günəş batarkən", "Qardaşım oğlu Huşəngə", "Gecənin əfsanəsi". Bu poemaların üçü də fars dilindədir. Şair bu əsərlərdə sürgün illərindən, uşaqlıq həyatından, ailə ənənələrindən danışır.

4. "Şeir və hikmət", "Kəmalülmülkün ziyarəti" poemalarında Şəhriyar yaradıcı ziyalıların acınacaqlı taleyindən bəhs etmişdir.
5. "Gecənin əfsanəsi", "Qardaşım oğlu Huşəngə", "Eynşteynə müraciət" poemaları fəlsəfi səciyyəli əsərlərdir.
6. "Gecənin əfsanəsi" avtobioqrafik olmaqdan əlavə, həm də tarixi-romantik poemadır, fars dilindədir. Bu poemanın bəzi hissələri "Heydərbabaya salam" poeması ilə səsləşir.
7. "Stalinqrad qəhrəmanları" poemasında II Dünya müharibəsində baş verən hadisələr, təsirli hərb səhnələri qələmə alınmışdır. Bu poema insanları faşizmə qarşı nifrətə, sabaha, işıqlı gələcəyə inama səsləyir.
8. "Səhəndiyyə" Azərbaycan dilindədir. Vətən haqqında qüvvətli poetik simfoniyadır. Şəhriyar bu əsərini yaxın dostu Bulud Qaraçorlu Səhəndin məktubuna cavab olaraq yazmışdır. "Səhəndiyyə" poeması Azərbaycan şeirinin yeni bir "Vətəniyyə"sidir.

Şəhriyarın ilk kitabları

1. 1926-cı ildə Şəhriyarın "Sədaye-xuda" ("Tanrının səsi") adlı ilk şeir kitabı çap olunmuşdur. Görkəmli şair məliküş-şüəra Bahar kitaba ön söz yazmışdır.
2. 1927-ci ildə Şəhriyarın "Məsnəviye-Ruh və Pərvanə" ("Ruh və Pərvanə məsnəvisi") adlı 2-ci şeirlər kitabı çap olunmuşdur. Bu kitaba Peyman Bəxtiyari ön söz yazmışdır.
3. 1929-cu ildə şairin 3-cü şeirlər kitabı çap olunmuşdur. Bu kitaba Bahar, Səid Nəfisi və Peyman Bəxtiyari ön söz yazmışlar.

"Heydərbabaya salam" poeması

1. Poema Azərbaycan dilindədir. Süjet xətti yoxdur, lirik poemadır. Heca vəznində, beşlik şəklində (***aaabb***) yazılmışdır.
2. Şair əsərin birinci hissəsində romantik duyğularını oxuculara çatdırırsa, ikinci hissədə gerçək mövqeyini, realizmini bəyan edir.
3. Poema iki səbəbdən yazılmışdır: birincisi, anası Kövkəb xanımın "Oğlum, sənə böyük şair deyirlər, fəqət necə yazırsan ki, mən anlamıram" sözlərinin təsiri ilə, ikincisi, özünün etiraf etdiyi kimi, "uşaqlıq illərində bərabər oynayıb əyləndiyi insanların zövqünü oxşayan parçalar" yazmaq arzusu ilə.
4. Bu poemaya görə Şəhriyarı *"Heydərbaba"* şairi adlandırırlar.
5. Əsərdə dağ obrazı özünəməxsus bir yer tutur. Dağ Vətənin rəmzidir. Dağ həm də yüksəkliyə, Allaha yaxınlığa işarədir. Əsərdə şairin özünün də bədii obrazı canlandırılmışdır.
6. Şair Heydərbaba dağına həm də uşaqlıq xatirələrinin şahidi kimi üz tutur.
7. Şairin fikrincə, yalnız namərdlərin burunlarını ova bilən mərd, vətənpərvər oğulların doğulması ilə xalq əsarətdən xilas ola bilər.
8. Poemada üstüörtülü şəkildə xalqın azadlıq düşüncələri, bütöv, birlikdə olmaq niyyəti də öz əksini tapır.
9. Şair Heydərbaba dağını "uşaqlıq qibləgahı" adlandırmışdır.
10. Azərbaycan ədəbiyyatında "Heydərbabaya salam" poemasına çoxlu nəzirələr yazılmışdır.


Həm fars, həm Azərbaycan dilində, həm lirik, həm epik növdə əsərlər yazıb.
Epik əsərləri, poemaları
Lirik əsərləri
"Haqqın səsi"– fars d.
"Şeir və hikmət"– fars d.
"Gecənin əfsanəsi"– fars d.
"Staqlinqrad qəhrəmanları" – fars d.
"Nişapurda günəş batarkən"– fars d.
"Qardaşım oğlu Huşəngə"– fars d.
"Eynşteynə müraciət"– fars d.
"Heydərbabaya salam"– Azərb. d
"Səhəndiyyə"– Azərb. d.
Azərbaycan adlı vətənin bütövlüyünə və Azərbaycan dilinin əvəzsizliyinə həsr edilmiş şeirləri
"Azərbaycan"– fars d.
"Türkün dili"– Azərb. d.
"El bülbülü"– Azərb. d.
"Can, Rüstəm" – Azərb. d.
"Döyünmə-söyünmə"– Azərb. d.
"Qaçaq Nəbi"– Azərb. d.
"Həkiməcan"– Azərb. d.
"Qafqazlı qardaşlarla görüş"–Azərb.d.
"Gözüm aydın"– Azərb. d.
"M.Rahim həzrətlərinə cavab"–Azərb.d.
Nakam məhəbbət şeirləri
"Həzin nalələr"
"İtmiş Yusif"
"Odda yanan pərvanə"
"Köynəyin qoxusu"
"Dəli Pəri"
"Behcətabad xatirəsi"
Əzizlərinə, yaxın adamlarına həsr etdiyi şeirləri
"Atamın matəmində"
"Ey vay, anam!"
"Əzizə"
"Doktor Cavad də getdi"



A varianti

1. Şəhriyarın yaradıcılığı ilə bağlı ***səhv fikirləri*** göstərin.
   1. "Səhəndiyyə" vətən haqqında Azərbaycan dilində yazılmış qüvvətli poetik simfoniyadır.
   2. Əsər şairin yaxın dostu Bulud Qaraçorlu Səhəndin xahişi ilə Azərbaycan dilində yazılmışdır.
   3. Əsər janrına görə poemadır.
   4. Digər poemalar kimi, bu poema da məsnəvi formasındadır.

   A) 1, 4 B) 1, 2 C) 2, 3 D) 3, 4 E) 2, 4

2. M.Şəhriyarın lirikası ilə bağlı ***səhv fikir*** hansıdır?
   A) Şəhriyar fars dilində yazdığı "Ey vay, anam!" şeirində bütün anaların əvəzsiz, yaddaqalan obrazını yaratmışdır.
   B) Əbülfəz Hüseyniyə həsr edilmiş "El bülbülü" şeiri farsca yazılmışdır.
   C) "Azərbaycan" şeiri fars dilində, qəzəl janrında yazılmışdır.
   D) "O taydadır Şəki, Şirvan, Qarabağ,
   Bu tayda da Meşgin, Əhər, Qaradağ" – misraları "Məmməd Rahim həzrətlərinə cavab" şeirindəndir.
   E) "Türkün dili" Azərbaycan dilində yazılmış lirik şeirdir.

3. Bulud Qaraçorlunun məktubuna cavab kimi yazılmış bu misralar hansı əsərdəndir və orada hansı bədii təsvir vasitələri işlənmişdir?
   Başda Heydərbabatək qarla, qırovla qarışıbsan,
   Son ipək telli buludlarla üfüqdə sarışıbsan.
   A) "Türkün dili", metonimiya, epitet B) "El bülbülü", təşbeh, simvol
   C) "Həkiməcan", epitet, metafora D) "Səhəndiyyə", təşbeh, epitet
   E) "Səhəndiyyə", təşbeh, inversiya

4. Verilən nümunə M.Şəhriyarın Şimali Azərbaycan və Bakı həsrəti ilə yazdığı hansı əsərindəndir?
   Şair olalı borcludu Sabirlərə ruhum,
   Vurğundu Süleyman kimi Sahirlərə ruhum.
   A) "Qafqazlı qardaşlarla görüş" B) "Qaçaq Nəbi"
   C) "Gözüm aydın" D) "Döyünmə-söyünmə"
   E) "Həkiməcan"

5. Nöqtələrin yerində hansı sözlər yazılmalıdır?
. . . qeyrəti yox Şəhriyarı saxlamağa,
Qaçmışam . . . , qoy yaxşı-yaman bəllənsin.
A) Tehranın, Təbrizə B) Nişapurun, Tehrana
C) Təbrizin, Tehrana D) Tehranın, Xoşginaba
E) Qaraçəmənin, Təbrizə

6. Aşağıdakı əsərlərdən birini seçməklə cərgəni tamamlayın.
"Həkiməcan", "Qaçaq Nəbi", "Can Rüstəm", "Gözüm aydın"...
A) "Azərbaycan" B) "Ey vay, anam"
C) "Atamın matəmində" D) "Gecənin əfsanəsi"
E) "Döyünmə-söyünmə"

7. Cərgəni tamamlayın.
"Haqqın səsi", "Şeir və hikmət", "Qardaşım oğlu Huşəhgə"...
A) "Köynəyin qoxusu" B) "Gecənin əfsanəsi"
C) "Türkün dili" D) "Behcətabad xatirəsi"
E) "Həkiməcan"

8. Verilmiş fikirləri xronoloji ardıcıllıqla düzün.
1. "Ey vay, anam!" şeirini yazmışdır.
2. Cavad Heyət və Bulud Qaraçorlu Şəhriyara dəstək olmuşlar.
3. Tehranı tərk etmək şərtilə həbsdən azad edilmişdir.
4. "Atamın matəmində" şeirini yazır.
A) 3, 4, 1, 2 B) 4, 3, 1, 2 C) 3, 2, 4, 1 D) 1, 2, 3, 4 E) 2, 1, 4, 3

9. "Heydərbabaya salam" əsərinin adında vardır:
A) təşbeh B) simvol C) metafora
D) metonimiya E) epitet

10. Bu bənd haqqındakı hansı fikir ***səhvdir?***
Heydərbaba, kəndin günü batanda,
Uşaqların şamın yeyib yatanda,
Ay buluddan çıxıb qaş-göz atanda
Bizdən də bir sən onlara qissə de,
Qissəmizdə çoxlu qəmü-qüssə de.
A) III misrada metafora vardır.
B) Heç bir misrada inversiya yoxdur.
C) Bu bənddə tam qafiyələrdən istifadə olunub.
D) Simvol və epitet də işlənmişdir.
E) Birinci misrada *Heydərbaba* sözü metonimiyadır.

B variantı

1. Fars dilində, qəzəl janrında yazdığı bu şeirdə Şəhriyar öz ürəyini "vətəntək yaralı" hesab edir. Söhbət hansı şeirdən gedir?
   A) "Türkün dili" B) "Həzin nalələr"
   C) "Behcətabad xatirəsi" D) "Səhəndiyyə"
   E) "Azərbaycan"

2. Bu poemalardan hansılar Azərbaycan dilindədir?
   1. "Şeir və hikmət" 2. "Qardaşım oğlu Huşəngə"
   3. "Nişapurda günəş batarkən" 4. "Səhəndiyyə"
   5. "Heydərbabaya salam"
   A) 2, 4, 5 B) 1, 3, 4 C) 4, 5 D) 3, 4 E) 1, 5

3. Variantların birində tarixlə fakt uyğun ***gəlmir:***
   A) 1913-cü ildə ana dilində ilk şeirini yazmışdır.
   B) 1952-ci ildə həyat yoldaşı Əzizə xanım vəfat etmişdir.
   C) 1934-cü ildə sürgündə "Atamın matəmində" şeirini yazmışdır.
   D) 1973-cü ildə doktor Cavad Heyətin təkidilə Şəhriyar Tehrana köçmüşdür.
   E) 1926-cı ildə ilk şeir kitabı çap olunmuşdur.

4. Bunlardan ikisi Şəhriyarın şeir kitabıdır:
   1. "El bülbülü" 2. "Ruh və Pərvanə məsnəvisi"
   3. "Atamın matəmində" 4. "Tanrının səsi"
   5. "Doktor Cavad da getdi"
   A) 2, 4 B) 1, 5 C) 2, 3 D) 3, 4 E) 4, 5

5. M.Şəhriyar hansı şeirində həm öz dərmanını, həm də vətənin məlhəmini yalnız azadlıqda görür?
   A) "Türkün dili" B) "Qafqazlı qardaşlarla görüş"
   C) "Azərbaycan" D) "Həkiməcən"
   E) "Qaçaq Nəbi"

6. *... xalq ədəbiyyatından, xoş xatirələrindən etdiyi təsirli, maraqlı söhbətlərlə Şəhriyarı ayıldır, ruhunu təzələyirdi.* Söhbət kimdən gedir?
   A) Kövkəb xanımdan B) Əzizə xanımdan
   C) Doktor Cavad Heyətdən D) Səhənddən
   E) Hacı Mirağa Xoşginabidən

7. *"Fars şairi çox sözlərini bizdən aparmış,*
Sabir kimi bir süfrəli şair pəxıl olmaz".
Bir beyti verilmiş bu şeir haqqında ***səhv*** fikir hansıdır?
A) "Türkün dili" şeirindəndir.
B) Bu şeir Hökumə Bülluri tərəfindən Azərbaycan dilinə tərcümə edilib.
C) Bu şeir 1969-cu ildə yazılıb.
D) Şəhriyar şairliyi istedadın bəhrəsi, istedadı isə Allahın vergisi hesab edir.
E) "Olmaz" rədifli bu şeir əruz vəznində, qəzəl janrındadır.

8. Buraxılmış misranı yerinə qoyun.
"Mənim eşqim, ilhamım, hər nəyim var, onundur,
Bu qəmlər, bu ələmlər, bu misralar onundur.
Mən onun sayəsində boya-başa çatmışam,"
.....
A) Mən anamın gücüylə dağları oynatmışam.
B) Dünya boyda bir aləm, bir aləm yaratmışam.
C) Anam məni yaratmış, mən aləm yaratmışam.
D) Nə qədər ki mən sağam, anam da sağdır mənim.
E) Səsimdə, nəfəsimdə yaşayacaqdır mənim.

9. Bu şeirlə bağlı fikirlərdən biri ***yanlışdır***:
"O taydadır Şəki, Şirvan, Qarabağ,
Bu tayda da Meşqin, Əhər, Qaradağ,
Bir-birlərin Arazdan almış soraq.
Araz bizi ayırmadan dağlayıb,
Son özü də gecə-gündüz ağlayıb."
A) "dağlayıb-ağlayıb" –tam qafiyə, "Qaradağ – soraq" isə qulaq qafiyəsidir.
B) "Məmməd Rahim həzrətlərinə cavab" şeirindəndir.
C) Bu şeir 1967-ci ildə yazılmışdır.
D) **aaabb** şəklində qafiyələnib.
E) Ana dilində yazdığı bu şeiri şair Bakıda oxumaq üçün qələmə almışdır.

10. Fikirlərdən biri ***səhvdir***:
A) "Gecənin əfsanəsi", "Qardaşım oğlu Huşəngə", "Şeir və hikmət" avtobioqrafik poemalardır.
B) "Behcətabad xatirəsi" adlı şeirində nakam məhəbbətinə xüsusi və möhtəşəm abidə ucaldır.
C) "Haqqın səsi" poemasında şair "İnsanın vətəni Yer kürəsidir" ideyasını irəli sürmüşdür.
D) "Şeir və hikmət" poemasına "Şəhriyarın fəxriyyəsi" də demək olar.
E) "Stalinqrad qəhrəmanları" poemasında II Dünya müharibəsində baş verən hadisələr, təsirli hərb səhnələri qələmə alınmışdır.

C variantı

1. *Əsər Azərbaycan dilində yazılıb. Janrına görə poemadır. "Dədə Qorqud" səsin aldım, dedim arxamdı, inandım", – söyləyən şair bu əsəri ilə yeni "Vətəniyyə" yaratmışdır.* Söhbət hansı əsərdən gedir?
   A) "Döyünmə-söyünmə"dən
   B) "Heydərbabaya salam"dan
   C) "Səhəndiyyə"dən
   D) "Qafqazlı qardaşlarla görüş"dən
   E) "Kəmalülmülkün ziyarəti"ndən

2. "Heydərbabaya salam" poeması haqqındakı ***səhv*** fikirləri göstərin.
   1. Poema 2 hissədən ibarətdir.
   2. I hissə belə başlayır:
      "Heydərbaba, ildırımlar şaxanda,
      Sellər, sular şaqqıldayıb axanda"
   3. I hissə belə tamamlanır:
      "Heydərbaba, mərd oğullar doğginən,
      Namərdlərin burunların ovginən"...
   4. II hissə bu misralarla başlayan bəndlə tamamlanır:
      " Heydərbaba, alçaqların köşk olsun,
      Bizdən sonra qalanlara eşq olsun"...
   5. Həm I hissənin, həm də II hissənin son bəndində Şəhriyar öz təxəllüsünü vermişdir.

   A) 3, 4 B) 1, 2, 3
   C) 2, 4 D) 3, 5 E) 3, 4, 5

3. Fikirlərdən biri Şəhriyarın "Heydərbabaya salam" və "Səhəndiyyə" poemaları üçün ortaq ***ola bilməz***.
   A) Hər iki əsər eyni növdə, eyni şəkildə, eyni vəzndə yazılıb.
   B) Hər iki əsər Azərbaycan dilindədir.
   C) Hər iki əsər qiymətli vətənpərvərlik əsəridir.
   D) Bu poemaların ikisində də vətənin rəmzi olan dağa müraciət edilmişdir.
   E) Hər iki əsərdə şairin vətənə olan məhəbbəti həyatı əks etdirmə üsulu olaraq tərənnüm əsasında verilmişdir.

4. ***Səhv*** fikri göstərin.
   A) "Şeir və hikmət", "Kəmalülmülkün ziyarəti" adlı məsnəvilərində Şəhriyar yaradıcı ziyalıların, xalqa başucalığı gətirən zəka sahiblərinin yaddaqalan canlı obrazını yaratmışdır.

B) "Gecənin əfsanəsi", "Qardaşım oğlu Huşəngə", "Eynşteynə müraciət" fəlsəfi səciyyəli əsərlərdir.
C) "Nişapurda günəş batarkən", "Qardaşım oğlu Huşəngə"- avtobioqrafik poemalardır.
D) Şəhriyarın bütün poemaları məsnəvi formasında yazılmış lirik poemalardır.
E) "Tarixi – romantik poema olan "Gecənin əfsanəsi"nin bəzi hissələri "Heydərbabaya salam" poemasındakı motivlərlə səsləşir.

5. "Haqqın səsi" poemasına aid düzgün fikirləri göstərin.
1. Müəllif bütün insanları qardaşlığa, bərabərliyə, şər işlərdən uzaq olmağa çağırır.
2. Şairliyi ilə öyünür, şeiri, sənəti həyatının mənası hesab edir.
3. Bu poemada: "İnsan Yer üzünün dürdanəsidir, insanın vətəni Yer kürəsidir", – deyir.
4. Şair yalançı sərhədlərə etiraz edir, Yerin bütövlüyünü alqışlayır.
5. Şair bildirir ki, onun od püskürən şair qəlbi yaratmaq naminə yaşamaq istəyir.

A) 1, 3, 4 B) 1, 2, 3 C) 2, 3, 4 D) 3, 4, 5 E) 1, 4, 5

6. ***Uyğunsuzluğu*** göstərin.
A) "Onun nağıllarıyla qanadlanmış xəyalım,
Bayatılar, laylalar, təranələr demiş o" – "Ey vay, anam" şeirindəndir.
B) "Dədə Qorqud" səsin aldım, dedim arxamdı, inandım" – "Səhəndiyyə" poemasındandır.
C) "Bu məktəbdə şeirin şəhdin dadmışam,
Axundun ağzından qapıb udmuşam" – "Heydərbabaya salam" poemasındandır.
D) "Yaman günlər keçib gedən, itəndir,
Bir yaxşılıq muradına yetəndir,
O tay – bu tay, fərqi yoxdur, Vətəndir!" – "El bülbülü" şeirindəndir.
E) "Fürsətdə Səhənd ilə Sizə gül səpərik biz,
Hər göz sizi görmüşsə, o gözdən öpərik biz" – "Səhəndiyyə" poemasındandır.

7. Doğru fikirləri göstərin.
1. Öz əsərləri ilə Şimali Azərbaycanı – Bakını xəyali ziyarət edən Şəhriyar milli-mənəvi birlik ideyasını öz şeirlərində məharətlə qabartmışdır.

2. Şəhriyar milli-mənəvi birliyi şeirin, sənətin, sənətkarların birliyində də görürdü.
3. Şəhriyar "Odda yanan pərvanə" şeirində siyasi qurbana çevrilərək bir-birindən ayrı salınmış Azərbaycan xalqının dərdindən ürəkağrısı ilə söhbət açır.
4. Nakam məhəbbətinə həsr etdiyi "Dəli Pəri" şeirində Şəhriyar yazırdı:
"Mənim eşqim, ilhamım, hər nəyim var, onundur,
Bu qəmlər, bu ələmlər, bu misralar onundur".
5. Şairin qəlbində unudulmaz xatirəyə çevrilmiş bir çox yer adları vətənin rəmzi kimi "Heydərbabaya salam" poemasında oxucuya təqdim edilir.

A) 1, 2, 5 B) 1, 2, 3 C) 2, 3, 4 D) 3, 4, 5 E) 2, 3, 5

8. Verilənlərdən yalnız biri ***yanlışdır:***
A) M.Şəhriyar "Heydərbabaya salam" poemasında bir çox qohumlarının, müəllimi Axund İbrahimin, məktəb yoldaşlarının, atasının obrazını əbədiləşdirmişdir.
B) Əsər Azərbaycan xalq danışıq dilində, heca vəznindədir.
C) Poemanın həm I, həm də II hissəsinin son bəndində Şəhriyar öz təxəllüsünü vermişdir.
D) Poemada yalnız etnoqrafik məqamların, təbiət lövhələrinin yox, müəyyən psixoloji anların da təsviri vardır.
E) M.Şəhriyar Heydərbaba dağından bir tribuna kimi istifadə edərək öz arzu və istəklərini bütün dünyaya bəyan etmişdir.

9. Şəhriyarın bu əsərlərinin leytmotivini – ana xəttini vətən sevgisi təşkil edir:
1. "Türkün dili" 2. "Behcətabad xatirəsi" 3. "Heydərbabaya salam"
4. "Haqqın səsi" 5. "Həzin nalələr" 6. "Gözüm aydın"

A) 1, 2, 3 B) 3, 6 C) 3, 4, 6 D) 1, 2, E) 1, 3, 5

10. ***Səhv*** fikirlər hansıdır?
1. İlk şeirlərini "Behcət" təxəllüsü ilə yazmışdır.
2. Ustad sənətkar kimi "Şəhriyar" adı ilə məşhurdur.
3. "Talibiyyə" mədrəsəsində oxuduğu vaxt ilk şeirini məhz ana dilində yazmışdır.
4. Fars, Azərbaycan dilində yazdığı əsərlərlə yanaşı, bəzən ərəb, fransız dilində də şeirlər yazırdı.
5. 1940-cı ilin ortalarında İranda Azərbaycan dilinin fəaliyyət dairəsinin məhdudlaşdırılmasından narahat və narazı olan Şəhriyar "Azərbaycan" şeirini bu mövzuya həsr etdi, Azərbaycan dilinin əvəzsizliyindən danışdı.

A) 4, 5 B) 1, 2, 3 C) 1, 4, 5 D) 2, 4 E) 3, 5

Mir Cəlal

(1908 – 1978)

Mir Cəlal Paşayev Azərbaycan ədəbi, elmi, pedaqoji fikir tarixində görkəmli xidmətləri olan şəxsiyyətdir. Əsərlərində xalqımızın tarixi taleyini ustalıqla əks etdirmişdir.

Həyatı

26 aprel 1908-ci ildə Cənubi Azərbaycanda anadan olan Mir Cəlal Əli oğlu Paşayev uşaq ikən ailəsi ilə Gəncəyə köçmüşdür. Burada ibtidai təhsil almış, sonra pedaqoji texnikumu bitirmişdir. Gəncə və Gədəbəy məktəblərində pedaqoji fəaliyyətlə məşğul olmuşdur. 1930-cu illərdə Kazanda ali təhsil, Azərbaycan Elmi-Tədqiqat İnstitutunda isə aspirantura təhsili almışdır. Elmlər Akademiyası sistemində və mətbuat sahəsində fəaliyyət göstərmiş, 1933-cü ildən Azərbaycan Dövlət Universitetində müəllim, 1961-ci ildən ömrünün sonuna qədər universitetin Azərbaycan ədəbiyyatı tarixi kafedrasının müdiri vəzifəsində çalışmışdır.

O, filologiya elmləri doktoru, professor, əməkdar elm xadimi idi.

1934-cü ildən Azərbaycan Yazıçılar Birliyinin üzvü olmuş, Moskvada keçirilən Azərbaycan ədəbiyyatı və incəsənəti ongünlüyündə, yazıçılar qurultayında iştirak etmişdir. Ədib orden və medallarla təltif olunmuş, əməyi dövlət səviyyəsində qiymətləndirilmişdir. "Bir gəncin manifesti" romanına görə Fəxri Respublika Komsomolu Mükafatı laureatı olmuşdur. Mir Cəlal 1978-ci ildə vəfat etmişdir.

Əsərləri bir çox dillərdə nəşr olunmuş, anadan olmasının 100 illik yubileyi YUNESKO səviyyəsində qeyd edilmişdir.

Yaradıcılığı

"Molla Nəsrəddin" ədəbi məktəbinin ənənələrini yaşadan və inkişaf etdirən Mir Cəlal bədii yaradıcılığa şeirlə başlasa da, Azərbaycan ədəbiyyatını publisistikası, kiçik hekayələri, romanları ilə zənginləşdirmişdir.

Publisistikası. Mir Cəlal 1928-ci ildə "Kommunist" və "Gənc işçi" qəzetlərində çalışmış, bədii publisistik yazılarını mətbuatda çap etdirmiş, ilk əvvəllər oçerk janrına üstünlük vermişdir. Onun ən yaxşı publisistik əsərləri bədiilik ünsürlərinə görə hekayələrindən seçilmir. Oçerklərindən ibarət "Sağlam yollarda" adlı ilk kitabı 1932-ci ildə çap olunmuşdur. Bədiilik, aktuallıq, müasirlik onun publisistikasına xas olan xüsusiyyətlərdəndir. İnsan xarakterlərini açmaq və bədiilik elementi baxımından publisistikası bədii yaradıcılığı üçün baş məşqi olmuşdur. Yazıçı sonralar da oçerk və felyetonlar yazmaqla publisistika sahəsində fəaliyyətini davam etdirmişdir.

Hekayələri. Mir Cəlalın hekayələri yığcamlığı, dil sadəliyi, cəlbedici süjeti ilə diqqəti cəlb edir. Onun hekayələri C.Məmmədquluzadə nəsri ilə "altmışıncılar" (XX əsrin 60-cı illərində bədii fəaliyyətə başlayan sənətkarlar nəzərdə tutulur) nəslinin hekayə yaradıcılığı arasında körpüdür.

Bütövlükdə Mir Cəlalın hekayələrini "həyat hekayələri" adlandırmaq olar. Ədibin hekayə yazmaq məharətinin əsasını insanları, həyatı öyrənmək, həyati müşahidələr aparmaq təşkil edir. "Biz hamımız Mirzə Cəlilin "Poçt qutusu"ndan çıxmışıq" deməklə "Molla Nəsrəddin" ədəbi məktəbinə yüksək qiymət verən ədibin hekayə yaradıcılığını C.Məmmədquluzadənin və Ə.Haqverdiyevin hekayəçilik ənənəsinin davamı hesab etmək olar. Mir Cəlal hekayələri ilə keçmiş sovet rejimi çərçivəsində sadə insanların əhvali-ruhiyyəsini bədii ədəbiyyata gətirmiş, ideologiyadan az-çox uzaq sənət əsərləri yaratmağın mümkünlüyünü sübut etmişdir. Müəllif "Ötən günlərin hekayələri" silsiləsinə daxil olan "Söyüd kölgəsi", "Bostan oğrusu", "Elçilər qayıtdı" hekayələrində hadisələri keçmişə aid etməklə diqqəti sovet rejimi ilə əlaqədar mətləblərdən yayındırmış, əslində yaşadığı həyatın ciddi məsələlərini əks etdirmişdir.

"Vicdan əzabı", "Qonaqpərəst", "Pillələr" hekayələrindəki obrazlar təbiiliyi ilə yadda qalır. Həmin obrazların timsalında oxucu özünü, yaxud müasiri olan insanı görə bilir.

Hekayələrindəki ibrətamizlik Mir Cəlalın müəllimlik fəaliyyəti və bədii ədəbiyyatın tərbiyəediciliyinə xüsusi diqqət yetirməsi ilə bağlıdır. Ədibin ibrətamiz öyüdlər təsiri bağışlayan "Ləyaqət", "Xoşbəxtlik barəsində", "İnsanlıq fəlsəfəsi" və sair hekayələri elə insanlıq fəlsəfəsi ölçüləri ilə ümumiləşir. O, "Fitnə", "Xeyir və Şər" hekayələrini N.Gəncəvinin "Yeddi gözəl", "Kərpickəsən" hekayəsini isə "Sirlər xəzinəsi" poemasının motivləri əsasında yazmışdır. Mir Cəlal bu hekayələrində də oxucularda yüksək əxlaqi keyfiyyətlər aşılamağa xüsusi əhəmiyyət vermişdir.

Mir Cəlal hekayələrində daha çox yumora üstünlük vermişdir. Onun müxtəlif illərdə yazdığı "Şaftalı söhbəti", "Qoltuq radiosu", "Həkim Cinayətov", "İclas qurusu" hekayələrində əsas gülüş hədəfi həyatın və insanlararası münasibətlərin inkişafına mane olan çatışmazlıqlardır. Məsələn, "Şaftalı söhbəti" hekayəsində əsas tənqid hədəfi milli dəyərlərin arxa plana keçirilməsi, xaricpərəstlik xəstəliyi olmaqla, tərbiyəedici, islahedici gülüş formasına üstünlük verilmişdir. "Həkim Cinayətov" isə daha çox satirik gülüş fonunda yazılmışdır.

Romanları və povesti. Mir Cəlal böyük hekayəçi olduğu qədər də qüdrətli romançıdır. O, müxtəlif illərdə yazdığı "Dirilən adam" (1934), "Bir gəncin manifesti" (1938), "Açıq kitab" (1944), "Yaşıdlarım" (1946), "Təzə şəhər" (1951), "Yolumuz hayanadır" (1957) romanlarında təkcə dövrün diktə etdiyi müəyyən ideoloji mətləbləri yox, daha çox müşahidə etdiyi həyat hadisələrini əks etdirmişdir.

Azərbaycan insanının tale romanı olan **"Dirilən adam"**ın mövzusu XX əsrin 20–30-cu illərində Azərbaycanda baş verən hadisələrdən götürülmüşdür. Haqsızlıq və dərəbəyliyin törətdiyi fəsadlar məharətlə qələmə alınmışdır. Əsərin qəhrəmanı Qədirdir. Cəmiyyətdə özünü təsdiq etməyə can atan insanların acınacaqlı həyatı Qədirin timsalında verilmişdir. Bəbir bəy isə ədalətsizliyi, dərəbəyliyi təmsil edir. Yazıçı vəfa, etibar kimi mənəvi dəyərləri oxucuya Qədir-Qumru xətti ilə çatdırır. Əsər müstəqillik illərində səhnələşdirilərək Bakı və Naxçıvanda tamaşaya qoyulmuşdur.

"Açıq kitab" romanında müəllif ali məktəb müəllimi Kərim Gəldiyevin timsalında zahirən özünü yeni quruluşun fəal təbliğatçısı kimi göstərən, əslində sadə insanları müsibətlərə düçar edən xudbinlərin, bədxahların mənəvi faciəsini ümumiləşdirmişdir. Gəldiyevin çirkin niyyətləri və qurduğu torun nəticəsində nahaqdan institutdan qovulan, bədxahların ifşasından sonra instituta bərpa olunan Vahid haqqın, sağlam düşüncənin daşıyıcısı kimi təqdim olunur. Eşqinə, sözünə sadiq qalan Rübabəni Gəldiyev toruna sala bilmir. Bu əsərdə müəllif ədalətsizlik prinsipləri əsasında qurulmuş ali məktəb mühiti vasitəsilə oxucuya sovet cəmiyyətində heç də hər şeyin yaxşı olmadığını çatdırmağa çalışmışdır.

"Yaşıdlarım" romanının qəhrəmanları qocaman yazıçı Kərimzadə və onun nəvəsi Nərimandır. Kərimzadə çarlıq və Xalq Cümhuriyyəti dövründə çalışan, fəaliyyətini Sovet hakimiyyəti illərində də davam etdirən Azərbaycan ziyalısıdır. Nəvəsi Nərimanı savadlı mühəndis, ləyaqətli vətəndaş kimi yetişdirmək arzusu azad, müstəqil cəmiyyətə bəslənən ümidlərini ifadə edir.

Bu əsərdə Cənubi Azərbaycanla bağlı motivlər ədibin milli bütövlük düşüncəsini əks etdirir. "Yaşıdlarım" romanı, bir növ, avtobioqrafik roman təsiri bağışlayan əsərdir. Yazıçı Kərimzadə obrazının proobrazı bir çox cəhətlərdən elə Mir Cəlal müəllimin özüdür.

"Təzə şəhər" romanında insanın yaradıcı gücü, zəhmətinin halallıq və ucalığı quruculuq prosesləri fonunda mənalandırılır.

Mir Cəlal M.Ə.Sabirə həsr etdiyi **"Yolumuz hayanadır"** romanında böyük satiriklə yanaşı, C.Məmmədquluzadənin, N.Nərimanovun və A.Səhhətin obrazlarını da yaratmış, bu şəxsiyyətlərin həyatı ilə bağlı məqamların təsvirində təqdim olunan dövrün mənzərəsini də canlandırmışdır.

Mir Cəlalın bir povesti vardır. **"Dağlar dilə gəldi"** adlanan bu povesti o, 1967-ci ildə tamamlamışdır. Bu povestdə ağsaqqal ziyalılarla yeni nəsil maarifçilərinin əlaqələrindən, Gəncəbasarda və Köşkü kəndində baş verən proseslərdən söhbət açılır. Müəllif göstərir ki, varisliyi saxlamaq çətin olsa da, zəruridir. Bu əsərdə də C.Məmmədquluzadənin bədii obrazı yaradılmışdır.

Mir Cəlalın bədii yaradıcılığında Azərbaycan xalqının çoxsahəli həyatı öz əksini tapmışdır. Doğrudur, ədibin yaradıcılığında dövrlə əlaqədar olaraq sovet ideologiyasının müəyyən təsirləri də duyulur. Bütövlükdə götürdükdə isə Mir Cəlalın xalqına, vətəninə xidmət edən bədii yaradıcılığı bu gün də Azərbaycanda yeni həyatın möhkəmlənməsinə xidmət edir.

Elmi yaradıcılığı. Mir Cəlal həm də görkəmli ədəbiyyatşünas alim idi. Onun həm namizədlik ("M.Füzuli şeirinin poetik xüsusiyyətləri"–1940), həm də doktorluq dissertasiyaları ("Azərbaycanda ədəbi məktəblər"–1947) Azərbaycan ədəbiyyatşünasılığında elmi hadisə idi. Bu gün Füzuli irsinin tədqiqindən, yüksək səviyyəli araşdırılmasından söhbət gedəndə ilk əvvəl xatırlananlardan biri də Mir Cəlal olur. Onun "Füzuli sənətkarlığı" monoqrafiyası namizədlik dissertasiyası əsasında hazırlanmışdı. Doktorluq dissertasiyası əsasında hazırlanmış "Azərbaycanda ədəbi məktəblər" monoqrafiyasında (2004) XX əsrin əvvəllərində realizm və romantizm cərəyanlarının mahiyyəti aydınlaşdırılmış, bu cərəyanların əsas nümayəndələri haqqında mükəmməl, dərin elmi söz deyilmişdir. Həm də bunların bir çoxu elmin ilk sözü idi. Mir Cəlal həm güclü ədəbiyyat nəzəriyyəçisi, həm də ədəbiyyat tarixçisi idi. Onun professor Pənah Xəlilovla birlikdə yazdığı "Ədəbiyyatşünaslığın əsasları", professor Firudin Hüseynovla birlikdə yazdığı "XX əsr Azərbaycan ədəbiyyatı" dərslikləri bu gün də tələbələr üçün çox etibarlı mənbədir.

Mir Cəlal Azərbaycan ədəbiyyatının bir sıra klassikləri (N.Gəncəvi, İ.Nəsimi, M.Füzuli, A.Bakıxanov, İ.Qutqaşınlı, M.F.Axundzadə, M.Ə.Sabir, Ə.Haqverdiyev, S.S.Axundov, S.Vurğun) haqqında sanballı elmi məqalələrin müəllifidir. C.Məmmədquluzadə bədii irsinin əsas tədqiqatçılarından biri də Mir Cəlaldır.

"Bir gəncin manifesti" romanı

"Bir gəncin manifesti" (1938) əsəri Azərbaycan ədəbiyyatında roman janrının ən yaxşı nümunələrindəndir. Əsərin 37-ci ilin tuthatutundan sonra tamamlanması yazıçının bəzən keçmişlə bağlı lövhələri tündləşdirməsinə, yeni quruluşla bağlı hadisələrin təsvirinə

üstünlük verməsinə gətirib çıxarmışdır. Roman XX əsrin əvvəllərindəki ictimai-siyasi proseslərdən daha çox, müxtəlif insanların xarakter və taleyini əks etdirir. Əsər yalnız romanın baş qəhrəmanı, insan azadlıqları uğrunda mübarizəyə qalxmağa məcbur olmuş gənc Mərdanın, onun talesiz kiçik qardaşı Baharın yox, bütövlükdə insanlığın manifesti kimi səslənir. Sona, Mərdan, Mövlam kişi surətləri Azərbaycan kəndlisinin obrazını ümumiləşmiş şəkildə əks etdirirlər. **Bahar** mürəkkəb ictimai-siyasi şəraitdə yoxsulluğun və haqsızlığın qurbanı kimi təqdim olunur. Ehsanlıq tutdan yediyinə görə kəndin varlı sakini olan Hacı İbrahimxəlilin ailəsi tərəfindən döyülür, paltarı əlindən alınır. Baharın qardaşı Mərdan bu işi haqsızlıq kimi qiymətləndirsə də, əvvəlcə Hacı ilə münasibətlərini kəskinləşdirmək istəmir. Lakin Hacı İbrahimxəlilin azğın hərəkətlərinə dözməyən Mərdan onun "dərsini verir". Daha kənddə qalmağın təhlükəli olduğunu bilir və şəhərə gedir. Bundan sonra Bahar da bir parça çörək qazanmaq üçün kənddən didərgin salınır, şəhərə gedir, qapılara düşür. Məşədi Abbasın yanında daha acınacaqlı, sonu faciə ilə bitən ömür yaşayır. Müəllif Baharın acı taleyini "göz yaşı romanı" adlandırır. Onun həyatının son anlarının təsviri yanıqlı bir ağını xatırladır. Ümumiyyətlə, Bahar kiçik adamın böyük ədəbiyyata roman janrı ilə böyük təqdimatıdır.

Ədib **Sonanın** timsalında dözümlü, əzabkeş, mərdanə Azərbaycan qadınlarının ümumiləşdirilmiş obrazını canlandırmışdır. O, övladları Baharın və Mərdanın xətrinə hər əzaba dözür. Heç kəsin qarşısında sınmır, məğrur dayanır. Böyük ehtiyac içində olmasına baxmayaraq, ən çətin anlarda özünün toxuduğu "Yusif-Züleyxa" xalçasını xarici ağalara ən baha qiymətə belə satmır, "itə ataram, yada satmaram",– deyir. Halbuki o, övladlarını dolandırmaq üçün bu xalçanı çox ucuz qiymətə satmağa da hazır idi. Bu da onu mənliyi olan böyük vətənsevər insan kimi xarakterizə edir.

Mərdan çox qardaşcanlıdır, məğrur və qorxmazdır. Hacı İbrahimxəlilin sosial üstünlüyü və yaxınlarının qoluzorluluğu onun əzmini qıra bilmir. Haqsızlığa qarşı barışmaz olaraq qalır. Siyasi fəaliyyətlə məşğul olur. O, tək deyil. Yəhya, Bağır, Yaqub kimi haqsızlıqla barışmayan həmfikirləri var.

Əsərdəki Hacı İbrahimxəlil, Vəznəli kişi, Məşədi Rəhim, Ağarəşid surətləri şəri, zülmü, ədalətsizliyi təmsil edirlər. Əsərdə Mövlam kişi

haqsızlığa qarşı üsyan edən cəsarətli, haqsevən Azərbaycan kəndlilərinin ümumiləşdirilmiş obrazı kimi verilmişdir.

"Bir gəncin manifesti" romanı dolğun həyat materialları və insan xarakterləri ilə zəngindir. Haqsızlığa, ədalətsizliyə qarşı müəllifin barışmaz mövqeyini ifadə etmək baxımından "Bir gəncin manifesti" və "Dirilən adam" əsərləri arasında aşkar yaxınlıq var.

"Bir gəncin manifesti" romanının məzmunu

Bahar kəndin ortasındakı tut ağacının başına çıxıb tut yeyirdi. Kəndin qəddar və varlı adamı olan Hacı İbrahimxəlilin oğlu Ağaməcid Baharı ağacdan düşürmək istədikdə Bahar onu əzişdirir. Ağaməcidin anası Qarınca (Məsmə) gəlib Baharı döydükdən sonra oğlunun köynəyinin cırıldığını bəhanə edib arxalığını da əynindən çıxarıb, onu lüt yola salır. Yoldan ötənlər Qarıncanı qınayırlar. Bu hadisədən pərt olan Baharın anası Sona böyük oğlu Mərdanın bu işi belə qoymayacağından ehtiyat edir. Axşam biçindən gələn Mərdan məsələnin nə yerdə olduğunu öyrənir və Baharın paltarını almaq üçün Hacı İbrahimxəlilin evinə yollanır. Niyyəti sakit danışıb, qardaşının paltarını almaq idi. Lakin Hacı onun atasının ruhunu təhqir edir, Mərdanı da söyür. Bundan çox əsəbiləşən Mərdan daha özünü saxlaya bilməyib, Hacını ayağının altına salır. Bu iş Hacının nökərlərinin də ürəyincə olur. Mərdan evə qayıdanda hökumətdən gizlənən dostu Sureni evlərində gördüyünə görə sevinir. Lakin hər ikisinin evdə qalmalarından ehtiyat edib, anası ilə vidalaşır və şəhərə getməyə qərar verir. Onlar gedəndən sonra Hacının böyük oğlu Ağarəşid Mərdanla hesablaşmağa gəlsə də, onu tapa bilmir. Hacının qardaşı oğlanları da əmilərinin intiqamını almağa söz verirlər. Ancaq Mərdan şəhərə getdiyindən onu tapa bilmirlər.

Səhər Bahar ağası İlyasın quzularını kövşənlikdə otarırdı. Dostu Mürsəllə oynadığı vaxt Ağarəşid onu yüzbaşı Yassar Lətiflə zorla idarəyə aparır. Şəhərdən gələn şeşəbığ müstəntiq və ağası İlyas onu dilə tutub, evlərinə gələn adamın Suren olduğunu öyrənirlər. Növbəti gün Güney kəndinə nahiyə pristavı Ağa bəyin (əsərdə Vəznəli kişi kimi gedir) özü də

gəlir. Hacı İbrahimxəlilin həyətində böyük ziyafət olur. Ancaq vəznəli çuxa geyinmiş pristav Ağa bəyin qanı bərk qara idi. O, Güney kəndinə Gəncə qubernatorunun xüsusi tapşırığı ilə gəlmişdi. Gəncə alayından yeddi əsgər qaçmışdı. Əsgərlər onları tutmaq üçün kəndlərə çıxan nahiyə rəisi Xəlilin başını kəsmişdilər. İndi pristav qatilləri tutmalı idi. Türk zabiti Nəşət əfəndinin kəndlilərə divan tutmağı da fərarilərin tutulub hökumətə təhvil verilməsinə yardımçı olmur. Hacı İbrahimxəlil, hampalar və müstəntiq Müseyib Surenin və Mərdanın da tutulmağını istəyirdilər. Ağa bəyin – Vəznəli kişinin göstərişi ilə Nəşət əfəndi yenidən kəndlilərə divan tutur. Ağsaqqal Mövlam kişini döymək istəyəndə oğlu Yaqub qəflətən meydana atılır. Ara qarışır. Yaqub atasını aradan çıxarır.

Müstəntiq Müseyib Ağa bəyi inandırmağa çalışır ki, Mərdanla onun qonağı bolşeviklərin adamıdır. Onları tutmaq üçün Sona ilə Bahanı ölümlə hədələmək, evlərinə od vurmaq lazımdır. İlyas bəy bu təklifin nəticəsiz olacağına Ağa bəyi də inandırır.

**

Mərdan qonağının tanınmaması üçün onun başını qırxıb "müsəlman" edir. Onlar şəhərə getməyi qərara alırlar.

**

Sona isə Bahanı Əsgərbəyli kəndində Kəmfürsətoğlunun yanında nökərçiliyə verir. Baharın günləri çox ağır keçir.

**

Bir gün Bahar quzu otaranda çöldə rast gəldiyi ceyran balasını tutub evlərinə gətirir. Ceyran balası hamıda maraq oyadır. Hacının oğlu Ağarəşid də ceyran balası ilə maraqlanır. Hətta "vağzal ingilisi" adlandırılan əcnəbi (ingilis) də aşura günü ceyranı gördükdə ondan xoşu gəldiyini yüzbaşı Yassar Lətifə deyir. Lətif də Sonanı çağırtdırıb, "vağzal ingilisi"nin ad günündə ceyranın ona hədiyyə veriləcəyini bildirir. Əvvəlcə narazı qalan Sona yasavul Kazımın məsləhəti ilə bu işə razılıq verir. Bir şərtlə ki, ceyranı özü yuyub təmizləsin, xınalasın, boynundan da gözmuncuğu assın. Bu fikir Lətifin də xoşuna gəlir. Lətifin istəyi ilə Sona onun möhürünü də ceyranın kürəyinə vurur. Yassar Lətif möhürü ona görə vurdurur ki, "vağzal ingilisi" ceyranın gətirilməsində onun xidməti

olduğunu bilsin. Ancaq möhür heç də yaxşı alınmır. Səhəri gün Sona çarvadar Fətişoğlunun arabası ilə ceyranı şəhərə aparanda ceyran qəfil qaçır. Bunu Sona özü düşünərəkdən eləmişdi. Ceyranın qaçması hamının kefinə soğan doğrayır. İngilis özü də maşını ilə ceyranı axtarmağa gedir. Qaranlıqda gördüyü heyvanın ceyran olduğunu zənn edib, onu tutur. Sonradan şoferi ona bu heyvanın ceyran yox, qoduq olduğunu deyəndə tapança ilə qoduğu öldürür. Həmin gecə Bahar da ceyranın fikrindən yata bilmir. Yuxudan duran kimi ceyranın qaçdığı yerə getsə də, o da əliboş qayıdır. Kəmfürsətoğlunun arvadı isə gec gəldiyinə görə onu qovur. Bahar evlərinə dönməyib, qardaşına qovuşmaq ümidi ilə şəhərə yollanır.

**

Mərdan qonağı ilə kənddən uzaqlaşandan sonra bənna Rəhimin evinə gəlir. Rəhim Mərdana məsləhət görür ki, Bakıdan gəlib təbliğat aparan Yəhya ilə tanış olsun. Mərdanla tanışlıqdan sonra Yəhya onu komsomol yığıncağına aparır. Bir gün Yəhyanın tapşırığı ilə təbliğat vərəqələri yaydığı zaman Mərdan həbs olunur.

**

Həyat yoldaşı vəfat edəndən sonra Sonanın həyatı çox sıxıntılı keçirdi. Lakin övladları ilə bağlı arzuları onu həyata bağlayırdı. Ən böyük arzusu böyük oğlu Mərdanın toyunu görmək, toy günü iyirmi il əvvəl toxuduğu "Yusif-Züleyxa" xalçasını gəlin otağının baş divarına vurmaq idi. Lakin Mərdanın həbs olunması, Baharın evdən didərgin salınması bu arzunun həyata keçməsini çətinləşdirir. Mərdanın həbsdən qurtarması, Baharın tapılması üçün pul lazım idi. Mövlam kişinin məsləhəti ilə Sona xalçanı satmaq üçün şəhər bazarına yollanır. Bazarda hamı "Yusif-Züleyxa" xalçasına heyrətlə baxırdı. Xalçanı almaq istəyən bir ingilis öz taciri vasitəsilə Sonadan xalçanın qiymətini öyrənmək istəyir. Sona on qızıla satmaq istədiyini bildirir. Bir cavan fəhlə xalçanın məhz ingilisə satılmasına kinayəli münasibət bildirir. Sanki bütün camaat da xalçanın ingilisə satılacağına təəssüf edir. Ovcuna toxunan pullar Sonanın əsəblərini titrədirdi. İngilis Sonanın gözündə Yusifi – insanların ən gözəlini, ən təmizini qul edib, qəpik-quruşa satın alan Misir hakimi kimi həris və qəzəbli görünür. Sanki içindən gələn bir səs onu silkələyir: "Sən nə edirsən, qul zamanından min illər keçib, bura Misir deyil, Azərbaycandır. Sən Yusif deyilsən, sən Mərdanlar böyüdən Sonasan. Sən

nə edirsən?!" Sona birdən qəti şəkildə satmayacağını bildirir. İngilis xalçanın qiymətini yüz qızıla qaldırsa da, Sona yenə razı olmur. Vahiməyə düşmüş ingilis onun sözlərini tərcümə edən tacir vasitəsilə bildirir ki, xalçanı mütləq mən alacağam. Sona cavab verir ki, itə ataram, yada satmaram. Ətrafdakılar bu cavabına görə Sonanı alqışlayırlar. O, analıq qüruru ilə başını uca tutub evinə qayıdır.

**

Bahar kənddən ayrılandan sonra Mərdanın şəhərə getdiyi yola gəlir. Fikirli idi. Bu zaman İsfəndiyar adlı bir nəfər çörəyini və paltarını vermək şərti ilə şəhərdə atasının yanında işləməyi ona təklif edir. Şəhərdə qardaşını tapmaq həvəsi ilə Bahar bu "mehriban" adamın təklifinə razı olur. Faytonçu Baharı Məşədi Abbasın yanına gətirir. Məşədi Baharın başını qırxdırır. Ona daşqa (at arabası) ilə ət daşımağı tapşırırlar. Sonra bütün qəssabların ətini bir başqası daşıdığından Bahara axşamdan qalan içalatı kasıblar məhəlləsində satmaq tapşırılır. Günlərin bir günü qəfildən bir it qalan yeganə içalatı götürüb qaçır. Qış günü olmasına baxmayaraq, Baharı evdən qovurlar. Onu daldalanmaq üçün getdiyi yerlərdən də qovurlar. Hətta daxil olmaq istədiyi evin sahibəsi də şübhələndiyindən onu içəri buraxmır. İçəridə isə Yəhya bir nəfərlə Mərdanın həbsdən azad olunması üçün plan hazırlayırmış. Əlacsız qalan Bahar yenə öz xozeyini Məşədi Abbasın mənzilinə üz tutur. Lakin Məşədi içalatın pulunu – bir manatı gətirməyincə, onu yenə evə buraxmayacağını söyləyir. Şaxtalı qış günündə dəfələrlə Məşədinin yanına dönsə də, ona rəhm etmirlər. Ona bir az İsfəndiyarın yazığı gəlirdi. Bahar bir hamama girib orada daldalanmaq, isinmək istəyir. Oradan da qovurlar.

Külək qalxmış, boran başlamış, hava lap qaralmışdı. Bahar tir-tir əsir, ayağının birini qaldırıb, birini qoyurdu. Yenə son ümid yeri bildiyi xozeyin evinə üz tutur. Bu dəfə də içəri buraxılmır. Üstəlik, Baharın köhnə yorğanını da bayıra atırlar.

Bahar qara bata-bata bazara sarı yollanır. O, tufana düşən yarpaq kimi əsir, sürüşüb yerə dəyirdi. Getməyə taqəti qalmır. Ağlına qəribə fikirlər gəlir. Hər şeyin yiyəsi var. Yalnız boranlı küçələr sahibsiz və müftə idi...

Səhər konka yolunu təmizləyəndə bir uşaq meyiti tapırlar. Meyiti qəbiristanlıqda dəfn edirlər. Cibindən çıxan kağızı isə qəbirqazana

verirlər. Bu, Mərdanın Surenlə bağladığı qardaşlıq kağızı idi ki, anası saxlamaq üçün ona vermişdi.

Sona isə kənddə balalarının yerin-göyün bəlalarından qorunması üçün dua edirdi.

**

Həbsdə olan Mərdan tapşırığı yerinə yetirə bilmədiyindən özünü günahkar hesab edirdi. Lakin Yəhya onu həbsdən qaçırır. Xəlvəti yolla təşkilatın yığıncağına gələn Mərdan qonşusu Mövlam kişinin oğlu Yaqubun Yassar Lətifi qanına qəltan elədiyini, başına dəstə yığıb qaçaq düşdüyünü və bir uşağın soyuqdan donub öldüyünü eşidir. Ancaq ölən uşağın Bahar olduğunu ağlına belə gətirmir.

Mərdan kəndə getmək istəyir. Yəhya razılıq verir. Vağzaldan keçəndə bir ingilis əsgəri onu hədələdiyindən Mərdan da onu vurur. Tutulsa da, vağzal komendantı onun qaçmağına şərait yaradır. Kəndə çatanda evlərinin yandırıldığını görür. Yaqubun atası Mövlam kişi kənddə baş verənlər haqqında ona danışır. Anası Sonanın isə şəhərə getdiyini öyrənir. Fikirləşir ki, bəlkə, yolda rastlaşdığı və ondan qaçan qaraltı elə anası imiş. Mərdan anasına çatdırmaq üçün Mövlam kişiyə əlli manat pul verir. Özü isə axtarıb Yaqubun dəstəsini tapır. Topa tutulmuş Tatlı kəndinin camaatının aqibətini görüb onlara əməli köməklik göstərir. Evsiz-eşiksiz qalmış insanları şəhərdə müxtəlif ailələrdə yerləşdirirlər. Karxana sahibi Fərzixanov Tatlı camaatının torpağını su qiymətinə almaq istəyəndə Mərdan buna imkan vermir. Camaat Fərzixanovun əsl simasını tanıyır.

**

Mərdan kərpic zavodunda işləyir. Təşkilatda ona etimad və inam artır. Mərkəz yerli partiya təşkilatının qəzeti üçün Bakıdan kağız göndərməli idi. Bu kağızı gətirmək üçün Yəhya Mərdanı Bakıya göndərir. İran şahı gəldiyindən vağzalda qələbəlik idi. İranlı mühacirlər fürsətdən istifadə edib, şaha ərizə vermək istəyirlər. Şahın iranlılara məhəl qoymamasından narazı qalanlar çox olur. Mərdan mühacirlərə şaha qarşı birgə mübarizə aparmaq lazım gəldiyini söyləyir. Bakıya gələn Mərdan Yəhyanın dediyi adamı – Talıb Əliyevi çətinlnklə də olsa, tapır. Şəhəri gəzir, tətilçiləri görür.

**

Sona kəndə qayıdanda qonşusu Movlam kişidən Mərdanın gəldiyini və sonra da Yaqubun dəstəsini tapmaq üçün Tatlıya getdiyini öyrənir. Mövlam kişi Mərdanın verdiyi əlli manatı da Sonaya çatdırır. Sona Mərdanı görmək üçün şəhərə gəlir. Yəhya ilə tanış olur. Oğluna vermək üçün məktub yazdırır. Hələ də Baharın aqibətindən xəbərsiz olan Sonanı Yəhya xəstəxanada işə düzəldir.

**

Bakıdan qayıdan Mərdan Gəncədə çayxanada gecələməyi qərara alır. Səhər açılanda meydanda dar ağacını görüb təəccüblənir. Vəznəli kişi hamıya hədə-qorxu gəlirdi. Mərdan Vəznəli kişini ilk dəfə görürdü. Meydan adamla dolu idi. Vəznəli kişinin əmri ilə bir nəfəri asırlar. Meydandakı adamlar dar ağacına sarı yüyürürlər. Polis atəş açır. Yaralananlar içərisində Mərdan da var idi. Onu şəhər xəstəxanasına gətirirlər. Mətbəə üçün gətirdiyi əşyaları çayxanada tanımadığı adama tapşırması ona yarasından daha çox mənəvi əzab verirdi. Burada xidmətçi işləyən Sona ağır yaralının Mərdan olduğunu bildikdə oğlunu sağaltmaq üçün həkimə yalvarır. Sona Mərdanın vəziyyəti ilə bağlı Yəhyaya xəbər çatdırır. Dostları Yəhyanın yanına gəlirlər. Təkcə Bağır gəlmirdi. Meydanda asılan oğlanın Bağır olduğunu biləndə Mərdanın rəngi kağız kimi ağarır. Mərdan sağalana qədər Gəncə qubernatoru qaçır, hökuməti müdafiə etməli olan əsgərlər silahı töküb təslim olurlar. Mərdan sağalandan sonra onu Güney kəndinə yeni hakimiyyəti – sovetləri təbliğ etmək üçün göndərirlər.

Mərdan Güney kəndində Mövlam kişinin sədrlik etdiyi yoxsullar komutəsində, Mövlam kişinin oğlu Yaqub isə milis idarəsində işləyir. Hacı İbrahimxəlil Mərdanın gəlişindən heç xoşhal olmur. Əlacsızlıqdan Mərdanın təşkil etdiyi yığıncağa getmək istəyəndə Mövlam kişi ona otaqlarının ikisini boşaltmağı tapşırır. Hacı oğlu Ağarəşidi müəyyən bir tədbir fikirləşmək üçün Ələs bəyin yanına göndərir. Ağaməcidi isə Mərdanın yanına göndərmək istəyir. Odla su arasında qalır.

**

Mərdan tez-tez kəndlərə getdiyindən Sona evdə tək qalırdı. Sona bir gün şəhər tərəfdən atışma səsi gəldiyini eşidib yola çıxır. Hacı

İbrahimxəlilin atını minib harasa getdiyini görür. Güllə səslərinin haradan gəldiyini soruşsa da, Hacı ona məhəl qoymur. Sonaya elə gəlir ki, Hacı Mərdanın dalınca gedir. Məlum olur ki, Hacı patron və silah aparır. Səsə gələn Mövlam kişini Hacı tüfənglə vurmaq istəyəndə Mövlam kişi ondan cəld tərpənib Hacını yerə sərir. Yerə tökülən silahlardan bir beşaçılan da Sonaya verir. Mərdan kəndə gəlib Mövlam kişi ilə xeyli adam toplayır. Sona da onlara qoşulmaq istəyir, Mövlam kişi və Mərdan razı olmurlar.

**

Mərdan partizan dəstələrini Müzəffərə təhvil verib şəhərə qayıdır. Şəhər sanki kimsəsiz idi. Mərdan məscidin minarəsindən baxanda görür ki, Ələs bəyin dəstəsinə qoşulan və əyninə kazak paltarı geyinən Ağarəşid məscidin həyətində bir kəndli ilə savaşdadır. Məcburiyyət qarşısında qalan Mərdan Ağarəşidi güllə ilə vurub öldürür. Onun kazak paltarını geyinib vəsiqəsini də götürür. Vəznəli kişinin və İlyas bəygilin yerləşdiyi qərargaha gəlir. Xəlvəti bir yerdə gizlənib müşahidələr aparır. Bura toplaşanların qaçmaq əhvali-ruhiyyəsində olduqlarını başa düşür. Silahını çıxarıb atəş açır. Heç kəs onu görməsə də, qərargahdakılar təşvişə düşdülər. Şəhər ətrafında gedən döyüşlərdə isə Yaqubun dəstəsi çox fəallıq göstərir.

**

Şəhərdə də yeni hakimiyyət uğrunda döyüşlər gedirdi. Yaqubun dəstəsi də şəhərə daxil olur. Mərdan həbsxanaya gedib dustaqları azad edir.

Şəhərdə sakit həyat başlamışdı. Bir gün Möhsün kişi qışda kimsəsiz bir uşağın şaxtadan öldüyünü deyir. Söhbətdən Mərdan həmin uşağın nakam qardaşı Bahar olduğunu tam yəqin edir. Lakin anasına bu barədə heç bir söz demir. Sükut aləminə çəkilib, ürəyində yoxluğu qəlbini yandırdığı Baharın ünvanına müraciət edir. Şəhərdən rəssam çağırtdırıb Baharın şəklini yaratmağı xahiş edir. Baharın öz şəkli olmadığından iş çətinliklə düzəlir.

Epiloqda göstərildiyi kimi, şəkli Baharın adını daşıyan Güney məktəbində divardan asırlar.

Mir Cəlalın həyat və yaradıcılığına aid yaddaş

- ✓ Gəncədə, Kazanda və Bakıda təhsil almış, Gədəbəydə və Gəncədə pedaqoji fəaliyyətlə məşğul olmuşdur.
- ✓ Azərbaycan Dövlət Universitetinin (indiki Bakı Dövlət Universitetinin) kafedra müdiri, Azərbaycan Yazıçılar Birliyinin ən hörmətli üzvlərindən biri olmuşdur.
- ✓ Böyük Vətən müharibəsinin iştirakçısı olmuşdur.
- ✓ 100 illik yubileyi YUNESKO səviyyəsində qeyd olunmuşdur.
- ✓ **"Molla Nəsrəddin"** ədəbi məktəbi ənənələrinin təbliğatçısı və tədqiqatçısıdır.
- ✓ **Hekayə yaradıcılığında** C.Məmmədquluzadənin və Ə.Haqverdiyevin ənənələrini davam etdirmişdir.
- ✓ **"Kommunist"** və **"Gənc işçi"** qəzetlərində çalışmışdır.
- ✓ 1932-ci ildə oçerklərindən ibarət "Sağlam yollarda" adlı ilk kitabı çap olunmuşdur.
- ✓ İlk publisistik yazılarını – oçerklərini yaradıcılığının baş məşqi adlandırırlar. Oçerklərində bədiilik elementləri güclüdür. O, oçerklərlə yanaşı, felyetonlar da yazmışdır.
- ✓ N.Gəncəvinin "Sirlər xəzinəsi" və "Yeddi gözəl" poemalarının motivləri əsasında bir sıra hekayələr yazmışdır.
- ✓ **"Dirilən adam"** romanının mövzusu XX əsrin 20–30-cu illərindən götürülmüş, insanın öz haqları, cəmiyyətdəki mövqeyi uğrunda mübarizəsinə həsr olunmuşdur.
- ✓ **"Açıq kitab"** romanında Kərim Gəldiyevin mənəvi faciəsi sovet cəmiyyətinin daxili puçluğu kimi ifadə olunur.
- ✓ Cənubi Azərbaycanla bağlı motivlərin də əks olunduğu **"Yaşıdlarım"** romanı avtobioqrafik əsər təsiri bağışlayır. Bu əsərdə yazıçı Kərimzadə obrazının proobrazı elə Mir Cəlalın özüdür.

- ✓ **"Təzə şəhər"** romanında quruculuq prosesləri fonunda insanın mənəvi ucalığı dəyərləndirilmişdir.
- ✓ M.Ə.Sabirə həsr olunan **"Yolumuz hayanadır?"** romanında C.Məmmədquluzadənin, N.Nərimanovun, A.Səhhətin həyatından da lövhələr vardır.
- ✓ Mənəvi varislik məsələlərinə həsr olunan **"Dağlar dilə gəldi"** povestində C.Məmmədquluzadənin də obrazı canlandırılmışdır.
- ✓ **"Bir gəncin manifesti"** (1938) romanında XX əsrin əvvəllərində Azərbaycan kəndlisinin ümumiləşdirilmiş taleyi əks olunmuşdur.
- ✓ "Bir gəncin manifesti" romanı proloqla başlayır və epiloqla qurtarır. Hər fəslin əvvəlində epiqraf verilir.
- ✓ **"Ədəbiyyatşünaslığın əsasları"** və **"XX əsr Azərbaycan ədəbiyyatı"** dərsliklərini öz keçmiş tələbələri ilə (professorlar Pənah Xəlilov və Firudin Hüseynovla) yazmışdır.

A variantı

1. Mir Cəlalın həyat və yaradıcılığı ilə bağlı hansı fikir ***doğru deyil?***
   A) 100 illik yubileyi YUNESKO səviyyəsində qeyd olunmuşdur.
   B) Ali təhsilini Bakıda, aspirantura təhsilini isə Kazanda almışdır.
   C) "Dirilən adam" onun ilk romanıdır.
   D) Hekayələrində yumor üstünlük təşkil edir.
   E) Publisistikasında oçerklər üstünlük təşkil edir.

2. Hansı xüsusiyyət Mir Cəlal və M.F.Axundzadə yaradıcılığı üçün ortaq cəhət sayıla bilər?
   A) yaradıcılığa şeirlə başlamaq
   B) mənzum hekayə və povest janrlarında əsərlər yazmaq
   C) öz əsərlərini özlərinin rus dilinə çevirmələri
   D) eyni mövzuda səhnə əsəri yazmaq
   E) tarixi mövzuda povest yazmaları

3. Mir Cəlalın ədəbi yaradıcılığına ***aid olmayan*** janr hansıdır?
   A) hekayə B) oçerk C) faciə D) povest E) felyeton

4. "Dirilən adam" romanının qəhrəmanı Qədirə aid olan xüsusiyyət hansıdır?
   A) Özünü zahirən yeni quruluşun fəal təbliğatçısı kimi göstərir.
   B) Ədalətsizliyi, dərəbəyliyi təmsil edir.
   C) XX əsrin sonlarında Azərbaycanda baş verən hadisələrdə yaxından iştirak edir.
   D) Müəllifin Cənubi Azərbaycanla bağlı düşüncələrini əks etdirir.
   E) Cəmiyyətdə özünü təsdiq etməyə can atır.

5. Aşağıdakı əsərlərdən biri müstəqillik illərində səhnələşdirilərək Bakı və Naxçıvanda tamaşaya qoyulmuşdur:
   A) "Açıq kitab" B) "Dirilən adam" C) "Təzə səhər"
   D) "Bir gəncin manifesti" E) "Yolumuz hayanadır"

6. Mir Cəlal yaradıcılığında *Azərbaycan insanının tale romanı* adlanır:
   A) "Dirilən adam" B) "Bir gəncin manifesti"
   C) "Açıq kitab" D) "Yaşıdlarım"
   E) "Yolumuz hayanadır"

7. İbrətamiz öyüdlər təsiri bağışlayan hekayələri müəyyən edin.
   A) "Vicdan əzabı", "Pillələr"
   B) "Qoltuq radiosu", "Qonaqpərəst"
   C) "Ləyaqət", "Xoşbəxtlik barəsində"
   D) "Xoşbəxtlik barəsində", "Şaftalı söhbəti"
   E) "İnsanlıq fəlsəfəsi", "Söyüd kölgəsi"

8. Mir Cəlalın bu hekayələrindən birində xaricpərəstlik tənqid olunur:
   A) "İclas qurusu" B) "İnsanlıq fəlsəfəsi"
   C) "Qonaqpərəst" D) "Bostan oğrusu"
   E) "Şaftalı söhbəti"

9. Satirik hekayə kimi ***verilə bilməz:***
   A) "Qoltuq radiosu"
   B) "Şaftalı söhbəti"
   C) "İclas qurusu"
   D) "Həkim Cinayətov"
   E) "Ləyaqət"

10. Mir Cəlal hekayələri ilə, ilk növbədə, sübut etmişdir:
   A) satirik hekayələr yazmağın daha zəruri olmasını
   B) ideologiyadan uzaq sənət əsərləri yaratmağın mümkünlüyünü
   C) cəlbedici süjet yaratmağın mümkünlüyünü
   D) tarixilik ünsürlərinin vacibliyini
   E) gerçəkliyə sədaqətini

B varianti

1. Mir Cəlalın "Yaşıdlarım" əsəri ilə Ə.Xaqaninin "Töhfətül-İraqeyn", A.Bakıxanovun "Miratül-camal", İ.Əfəndiyevin "Geriyə baxma, qoca" əsərləri üçün ortaq cəhət hansıdır?
   A) vahid süjet xəttinə malik olmaq
   B) eyni janrda olmaq
   C) tarixi mövzuda olmaq
   D) eyni dildə yazılmaq
   E) haradasa avtobioqrafik səciyyə daşımaq

2. "Açıq kitab" romanındakı Gəldiyevin mənəvi faciəsi, ilk növbədə, əks etdirir:
   A) bəzi vəzifə adamlarının mənəviyyatsızlığını
   B) ali məktəb müəllimlərinin üzləşdiyi çətin sosial vəziyyəti
   C) zülmün və ədalətsizliyin fəsadlarını
   D) sovet rejiminin çürüklüyünü
   E) iddia ilə imkan arasındakı uyğunsuzluğu

3. "Dağlar dilə gəldi" əsəri haqqında doğru fikir hansıdır?
   A) Əsas hadisələrin Cənubi Azərbaycanda baş verdiyi təsvir olunur.
   B) Roman janrındadır.
   C) Müəllif Kazanda təhsil alarkən yazmışdır.
   D) Mir Cəlal "Yolumuz hayanadır" romanında olduğu kimi, bu əsərdə də C.Məmmədquluzadənin obrazını yaratmışdır.
   E) "Azərbaycan insanının tale romanı" da adlanır.

4. Janrına görə fərqli olanı müəyyən edin.
   A) "Dağlar dilə gəldi" B) "Bir gəncin manifesti"
   C) "Yaşıdlarım" D) "Dirilən adam"
   E) "Yolumuz hayanadır"

5. Oçerklərdən ibarət kitab hansıdır?
   A) "İnsanlıq fəlsəfəsi" B) "Ötən günlər"
   C) "Sağlam yollarda" D) "Günün hekayələri"
   E) "Mətləb hekayələri"

6. "Bir gəncin manifesti" romanındakı Bahar surətinə aid olanlar:
   1. Şaxtalı qış gecəsində donub ölür.
   2. Yeni quruluş uğrunda mübarizədə həlak olur.
   3. Kənddən didərgin salınandan sonra birbaşa şəhərə gedir.
   4. Onun timsalında yoxsulluğun və haqsızlığın acı təzahürləri təqdim olunur.
   5. Ehsanlıq tutdan yediyinə görə təhqir olunur.

   A) 3, 4, 5 B) 1, 4, 5 C) 2, 4 D) 1, 2 E) 1, 2, 3, 5

7. "Bir gəncin manifesti" romanında təsvir olunan sadə insanların əsas istəyi nədir?
   A) insan kimi yaşamaq haqqı qazanmaq
   B) torpaq sahibi olmaq
   C) müstəqil, azad Azərbaycan dövləti qurmaq
   D) Hacı İbrahimxəlilin, Məşədi Rəhimin əmlakına sahib çıxmaq
   E) kənddən didərgin salınanları geri qaytarmaq

8. "Bir gəncin manifesti" romanı ilə bağlı hansı fikir doğrudur?
   A) Sonaya görə kənd əhalisinin övladları məşəqqətlərə dözməli olurlar.
   B) Müəllif Mərdanın acı taleyini "göz yaşı romanı" adlandırmışdır.
   C) Yazıçı bu əsərdə yeni quruluş uğrunda mübarizənin təsvirinə daha çox önəm vermişdir.
   D) Əsərdə məhəbbət xətti də verilmişdir.
   E) Roman bütövlükdə Baharın manifesti kimi səslənir.

9. Mir Cəlalın haqsızlığa, ədalətsizliyə qarşı barışmazlıq mövqeyini ifadə etmək baxımından "Bir gəncin manifesti" romanı ilə bu əsərlərindən biri arasında yaxınlıq var:
   A) "Yaşıdlarım" B) "Dirilən adam"
   C) "Dağlar dilə gəldi" D) "Təzə səhər" E) "Açıq kitab"

10. "Bir gəncin manifesti" əsərində cərəyan edən hadisələr baş verir:
    A) Azərbaycan Xalq Cümhuriyyəti dövründə
    B) XX əsrin 30-cu illərində
    C) XX əsrin 80 – 90-cı illərində
    D) Bakı Kommunası dövründə
    E) 1937-ci ilin tuthatutundan sonra

ƏN YENİ DÖVR
AZƏRBAYCAN ƏDƏBİYYATI
II mərhələ
(XX əsrin ortalarından bu günə qədərki Azərbaycan ədəbiyyatı)

Bu mərhələnin başlanğıcı cəmiyyətdə baş verən böyük dəyişikliklərlə əlamətdardır. Cəmiyyəti, insanları, o cümlədən ziyalıları bürümüş qorxu, vahimə, şübhə əhvali-ruhiyyəsinə son qoyulur, buxovlar, qadağalar aradan qaldırılır, ədəbiyyat, incəsənət sosialist məhdudiyyətlərindən can qurtarırdı.

Yazıçılar cəmiyyətdə baş verən dəyişikliklərə daha həssas yanaşır, yeni mövzulara, ideyalara, ümumbəşəri problemlərə daha cəsarətlə meyil edirdilər. 50-ci illərin sonlarında baş verən proseslər – şəxsiyyətə pərəstişin tənqidi, repressiya qurbanlarına bəraət verilməsi, beynəlxalq münasibətlərdə "yumşalma", bununla da dünya ədəbiyyatına marağın artması, az-çox demokratikləşmə meyilləri ədəbiyyatlın inkişafına həqiqi mənada təkan verdi. Bu inkişaf özünü nədə göstərirdi?

1. Qanlı repressiya illərinin dəhşətlərini cəsarətlə ifşa edən əsərlərin yazılmasında (R.Rza. "Qızılgül olmayaydı", M.Hüseyn "Yeraltı çaylar dənizə axır" və s.)

2. Milli dəyərlərə və maraqlara xidmət edən, xalqın tarixini, mədəniyyətini, mənəviyyatını daha dolğun və obyektiv əks etdirən əsərlərin yaranmasında (B.Vahabzadə "Gülüstan", İ.Şıxlı "Dəli Kür", İ.Hüseynov "Məhşər" və s.)

3. Lirik-psixoloji üslubun yaranması, güclənməsi, bu üslubun ədəbi növlərin hamısına sirayət etməsində (İ.Əfəndiyevin romanlarında və pyeslərində, İ.Şıxlı, Elçin, Anar, Ə.Əylisli və başqalarının əsərlərində).

4. Azərbaycançılıq, vətənpərvərlik, milli birlik, şimal-cənub ideyalarının ədəbiyyata daha cəsarətlə gətirilməsində (B.Vahabzadə, X.R.Ulutürk, M.Araz, N.Həsənzadə və başqalarının əsərlərində).

5. Ədəbiyyata, yazıçı və şairlərə, ədəbi orqanlara, ədəbi təşkilatlara diqqət və qayğı göstərilməsində (xüsusilə 70–90-cı illərdə).

Poeziya. Ən yeni dövr ədəbiyyatının II mərhələsində bütün ədəbi növlərdə inkişaf və yüksəliş açıq-aşkar hiss olunur. Ədəbiyyatımızın inkişaf tarixinin əksər dövrlərində olduğu kimi, yenə də poeziya sürətlə inkişaf edir. Poeziyanın ənənəvi mövzuları olan məhəbbət, təbiət, ictimai-siyasi, əxlaqi-mənəvi mövzularda dəyərli əsərlər yaranır. II mərhələdə poeziyada, əsasən, üç nəslin nümayəndələri fəaliyyət göstərirdi:

1. Yaradıcılığa hələ 20–30-cu illərdə başlayan sənətkarlar (S.Rüstəm, S.Vurğun, O.Sarıvəlli, R.Rza, M.Rahim, Ə.Cəmil, N.Rəfibəyli, M.Dilbazi və b.).
2. Ədəbiyyata 40–50-ci illərdə gələnlər (B.Vahabzadə, N.Xəzri, H.Arif, X.R.Ulutürk, B.Azəroğlu, Ə.Kürçaylı, N.Həsənzadə, M.Araz, C.Novruz və b.).
3. Poeziyaya 60–70-ci illərdə gələnlər (F.Qoca, V.Səmədoğlu, Ə.Kərim, S.Rüstəmxanlı, R.Rövşən, Z.Yaqub, N.Kəsəmənli, və b.).

Bu dövrdə sərbəst şeirin də hüdudları genişlənir. Ümumən, bu dövrün poeziyasında iki məktəb – iki üslub özünü göstərir:

1. S.Vurğun məktəbi (üslubu) – daha çox ənənəçilər
2. R.Rza məktəbi (üslubu) – novatorlar (eksperimentçilər)

80-ci illərin sonu və 90-cı illərin əvvəllərindən ikincilərin mövqeyi zəifləməyə başlayır. Bu zaman ictimai fikirdə yaranmış ümummilli ideallar ənənəvi poetik ruhun yenidən dirçəlməsinə meydan açır.

Ən yeni dövr Azərbaycan ədəbiyyatının II mərhələsində yaşayıb-yaradan şairlər:

Hüseyn Arif. Xalq poeziyasının, aşıq yaradıcılığının ənənələrini davam etdirmiş, lirik şeirlər, poemalar yazmışdır (Poemaları: "Yolda", "Dilqəm").

Nəbi Xəzri. Lirik şeirlər, lirik-epik poemalar, mənzum və mənsur dramlar müəllifidir. Bir çox şeirlərinə mahnılar bəstələnmişdir. Yaradıcılığında əməyin, dostluğun, vətənpərvərliyin, əxlaqi-mənəvi

keyfiyyətlərin tərənnümü əsas yer tutur. Poemaları: "Kiçik təpə", "Sumqayıt səhifələri", "Günəşin bacısı" və s.

Qabil (İmamverdiyev). Yaradıcılığında ənənəvi mövzular əsas yer tutur. Şeirlərində mənəvi problemlərə, fəlsəfi ümumiləşdirmələrə, əxlaqi dəyərlərin tərənnümünə geniş yer vermişdir. Yaradıcılığının zirvəsi "Nəsimi" poeması sayılır.

Nəriman Həsənzadə. Lirik şeirlər, lirik-epik poemalar və mənzum dramlar yazmışdır. Əsas mövzuları ailə-məişət, müasir insanın duyğu və düşüncələri, xalqımızın tarixi və s.-dir. ("Nəriman", "Kimin sualı var?", "Zümrüd quşu" poemaları, "Atabəylər", "Pompeyin Qafqaza yürüşü" dramları və s.)

Xəlil Rza Ulutürk. Gözəl şair, mübariz vətəndaş, ana dilimizin böyük təəssübkeşi, azadlıq mübarizəsinin mücahidi olmuşdur. Milli–vətənpərvərlik, vətən təəssübkeşliyi, birlik, azadlıq ideyaları yaradıcılığının əsas xəttini təşkil edir (Xatırla: "Davam edir 37" şeiri).

Tərcümə sahəsində də uğurlu fəaliyyət göstərmiş, N.Gəncəvinin "Sirlər xəzinəsi" poemasını, türk xalqlarının poeziyasından seçmə nümunələr tərcümə etmişdir.

Məmməd Araz. Milli birlik, azadlıq, vətənpərvərlik ideyalarının alovlu tərənnümçüsü olmuşdur. "Atamın kitabı", "Oxucuya məktub", "Dünya sənin, dünya mənim", "Əsgər andı" və başqa kitabları nəşr olunmuşdur. Milli istiqlalımızın tərənnümçülərindən idi.

Cabir Novruz. Şeirlərinin əsas tərənnüm obyektləri ana, insan, Vətən, məhəbbət, gözəllik, əxlaqi-mənəvi saflıq, təbiət olan C.Novruz II mərhələnin ən tanınan, sevilən şairlərindən biri olmuşdur. "Məhəbbət", "Sağlığında qiymət verin insanlara", "Tələbəlik illəri" kimi şeirləri dillər əzbəri olmuşdur. Bir sıra poemaları da vardır.

Vaqif Səmədoğlu (Vəkilov). Son dövr Azərbaycan poeziyasının adlı-sanlı nümayəndələrindəndir. Qeyri-adi düşüncələr şairidir. Bu mənada, poeziyası çox narahat poeziyadır.

Bir neçə böyük maraq doğurmuş komediyanın da müəllifidir ("Yaşıl eynəkli adam", "Bəxt üzüyü" və s.).

Sabir Rüstəmxanlı. Ədəbiyyatda, həyatda, xalqın azadlıq mübarizəsində həmişə öndə gedən şəxsiyyətlərdən biridir. Xüsusilə 80–90-cı illərdə milli ruhlu şeirləri, publisistik əsərləri ilə xalqın dərin rəğbətini qazanmışdır. Müxtəlif illərdə "Gəncə qapısı", "Sağ ol, ana dilim", "Qan yaddaşı", "Ömür kitabı", "Oğuz", "Ölüm zirvəsi" kimi çox qiymətli əsərləri çap olunmuşdur. Son dövrlərdə çox ardıcıl şəkildə nəsr yaradıcılığı ilə də məşğul olur.

Ramiz Rövşən. Müasir Azərbaycanın böyük şairlərindəndir. Şeirlərində milli ruh, vətəndaşlıq keyfiyyətləri, adidə qeyri-adini görmək, sözün iç qatlarına enmək cəhdi güclüdür. Şeirlərinin özünəməxsus poetik intonasiyası var.

Oxucu rəğbətini qazanmış "Göy üzü daş saxlamaz", "Gedək biz olmayan yerə", "Nəfəs" kimi şeir kitablarının, bir sıra nəsr əsərlərinin, kinossenarilərin müəllifidir.

Zəlimxan Yaqub. Aşıq poeziyasının, xalq yaradıcılığının mükəmməl bilicisidir. Milli ruhlu şeirlərin, ümummilli lider Heydər Əliyevin həyatına və şəxsiyyətinə həsr edilmiş "Böyük ömrün dastanı" poemasının müəllifidir.

BƏDİİ NƏSR. II mərhələ bədii nəsrin inkişafında, yeni ruhlu nəsrin yaranmasında müxtəlif nəsillərdən olan nasirlərin böyük əməyi olmuşdur. Bu dövrdə istər yaradıcılığa 30-cu illərdə gələn yazıçılar – M.İbrahimov, M.Hüseyn, S.Rəhimov, Mir Cəlal, İ.Əfəndiyev, istərsə də 50–60-cı illərdə nəsr yaradıcılığına başlayan – İ.Hüseynov, B.Bayramov, H.Abbaszadə, Anar, Elçin, S.Əhmədov, Ə.Əylisli, Y.Səmədoğlu, İ.Məlikzadə, S.Azəri, V.Babanlı və başqaları maraqlı hekayə, povest və romanları ilə ədəbiyyatımızı zənginləşdirmişlər.

II mərhələdə bədii nəsrin əsas nümayəndələri:

İsa Hüseynov (Muğanna). "Yanar ürək", "Saz", "Teleqram" povestlərinin, "Məhşər", "İdeal", "Əbədiyyət" romanlarının və bir çox hekayələrin müəllifidir. Özünəməxsus yanaşma tərzi, yazı manerası vardır. Bu dövr Azərbaycan nəsrinin ən böyük nümayəndələrindəndir.

Sabir Əhmədli. "Aran", "Yamacda nişanə", "Toğana", "Yasamal gölündə qayıqlar üzür", "Dünyanın arşını" romanları, bir sıra povest və hekayələri oxucular tərəfindən rəğbətlə qarşılanmışdır.

Vidadi Babanlı. Ən məşhur əsəri "Vicdan susanda" romanıdır. Bundan başqa, yazıçının "Həyat bizi sınayır", "Müqəddəs ocaq", "Ömürlük əzab" və s. əsərlərində maraqlı obrazlar yaradılmış, həyat həqiqətləri doğru, düzgün əks etdirilmişdir.

Yusif Səmədoğlu. "Qətl günü" romanı, bir sıra hekayələri, publisistik yazıları ilə tanınmışdır. Aydın, səliqəli bir üslubu vardır. "Qətl günü" romanı müasir ədəbiyyatımızda bir ədəbi hadisə kimi qarşılanmışdır.

Əkrəm Əylisli. İ.Əfəndiyev tərəfindən ədəbiyyatımıza gətirilmiş lirik-psixoloji üslubun ən mahir ustalarındandır. Əsasən, kənd həyatından, mənəviyyat məsələlərindən bəhs edən "Mənim nəğməkar bibim", "Ürək yaman şeydir", "Kür qırağının meşələri" və s. əsərləri böyük oxucu rəğbəti qazanmışdır.

Anar. Hekayə, povest, romanları və dramları ilə Azərbaycan nəsrini zənginləşdirən, ona yeni ruh, məzmun, əhvali-ruhiyyə gətirən görkəmli yazıçıdır. "Ağ liman", "Beşmərtəbəli evin altıncı mərtəbəsi", "Molla Nəsrəddin-66", "Evləri köndələn yar", "Sizsiz","Ağ qoç, Qara qoç", "Macal" kimi dəyərli əsərlərin müəllifidir.

Anar həm də "Anlamaq dərdi", "Dədə Qorqud" kimi dərin elmi-publisistik araşdırmaların müəllifidir. Azərbaycan publisistikasının inkişafında xüsusi rolu olan "Qobustan" jurnalının yaradıcısı və baş redaktoru olmuşdur.

Elçin. "Bir görüşün tarixçəsi", "Mahmud və Məryəm", "SOS", "Ağ dəvə", "Ölüm hökmü" və s. əsərləri vardır. Dramları, publisistik yazıları, elmi-tənqidi məqalələri ilə də tanınmışdır.

Mövlud Süleymanlı. Azərbaycan xalqının milli dəyərlərinə möhkəm bağlı bir nasirdir. "Dəyirman", "Köç", "Səs" kimi çox maraqlı, ruhca çox dərin və yeni olan əsərlərin müəllifidir.

Ən yeni dövr Azərbaycan ədəbiyyatının II mərhələsində həmçinin Hüseyn Abbaszadə, Bayram Bayramov, Salam Qədirzadə, Gülhüseyn Hüseynoğlu, Çingiz Hüseynov, İsi Məlikzadə, Əlibala Hacızadə, Həsən Seyidbəyli, İmran Qasımov, Çingiz Abdullayev, Hüseynbala Mirələmov kimi istedadlı nasirlər fəaliyyət göstərmiş, maraqlı hekayə, povest və romanları ilə geniş oxucu kütləsinin rəğbətini qazanmışlar.

Dramaturgiya. II mərhələdə Azərbaycan dramaturgiyasının ən görkəmli siması, heç şübhəsiz ki, İ.Əfəndiyevdir. Onun ən gözəl pyesləri məhz bu dövrdə yazılmışdır. Bu dövrün maraqlı cəhəti budur ki, poeziyanın, bədii nəsrin tanınmış nümayəndələri: B.Vahabzadə, N.Xəzri, N.Həsənzadə, Elçin, Anar və başqaları da dramaturgiyaya maraq göstərmiş, uğurlu əsərlər yaratmışlar. Bu əsərlər Azərbaycan teatrlarında müvəffəqiyyətlə tamaşaya qoyulmuşdur.

Komediya sahəsində, əsasən, Sabit Rəhman, Şıxəli Qurbanov fəaliyyət göstərmişlər. Onların komediyalarında 60–70-ci illərdə cəmiyyətdə özünü göstərən naqisliklər cəsarətlə ifşa olunmuşdur.

Ədəbiyyatşünaslıq. II mərhələdə bədii ədəbiyyatda olduğu kimi, ədəbiyyatşünaslıq sahələrində də canlanma hiss olunur. Xüsusilə ədəbiyyat tariximizin öyrənilməmiş sahələri tədqiqata cəlb olunur, obyektiv şəkildə araşdırılır.

Ədəbiyyat tarixi. Bu sahədə Məmməd Arif Dadaşzadə, Feyzulla Qasımzadə, Həmid Araslı, Mir Cəlal, Əziz Mirəhmədov, Məmmədhüseyn Təhmasib, Rüstəm Əliyev, Hidayət Əfəndiyev, Firudin Hüseynov, Mirəli Seyidov, Qafar Kəndli, Mübariz Əlizadə, Əliyar Səfərli, İsa Həbibbəyli, Şamil Qurbanov, Xalid Əlimirzəyev, Tofiq Hüseynoğlu, Zaman Əsgərli, Kamran Əliyev, Vaqif Sultanlı və b. kimi ədəbiyyatşünaslar ciddi fəaliyyət göstərmişlər.

Ədəbi tənqid. Məmməd Arif Dadaşzadə, Məmməd Cəfər Cəfərov, Cəfər Xəndan, Mikayıl Rəfili, Kamal Talıbzadə, Əkbər Ağayev, Bəkir Nəbiyev, Seyfulla Əsədullayev, Pənah Xəlilov, Yaşar Qarayev, Akif Hüseynov, Tofiq Hacıyev, Aydın Məmmədov, Kamil Vəli Nərimanoğlu, Kamal Abdulla, Nizami Cəfərov, Vaqif Yusifli kimi tənqidçilər ədəbi prosesin təhlil edilməsində, ədəbiyyata düzgün istiqamət verilməsində mühüm fəaliyyət göstərmişlər.

Ədəbiyyat nəzəriyyəsi. Əkrəm Cəfər, Mir Cəlal Paşayev, Pənah Xəlilov, Əziz Mirəhmədov, Şəmistan Mikayılov böyük əhəmiyyət daşıyan dərsliklər, lüğətlər tərtib etmiş, dəyərli kitablar yazmışlar.

Yoxlama testləri

A varianti

1. Bunlardan biri ən yeni dövr ədəbiyyatının II mərhələsinin sənətkarları sırasına daxil edilə ***bilməz:***
   A) N.Həsənzadə B) İ.Hüseynov
   C) Qabil D) C.Cabbarlı
   E) B.Vahabzadə

2. II mərhələdə ictimai-siyasi lirikaya gələn mövzulardan biri ***səhv*** göstərilmişdir:
   A) milli vətənpərvərlik B) azərbaycançılıq
   C) milli maraqlar D) şimal-cənub ideyaları
   E) proletar beynəlmiləlçiliyi

3. "Yanar ürək" povestinin müəllifi:
   A) N.Həsənzadə B) B.Vahabzadə
   C) İ.Hüseynov (Muğanna) D) Ə.Əylisli
   E) Anar

4. Hansı sənətkarlar Nəsimi haqqında böyük əsərlər yazmışlar?
   A) N.Həsənzadə, Qabil
   B) B.Vahabzadə, İ.Hüseynov
   C) Qabil, S.Rüstəmxanlı
   D) İ.Hüseynov, Qabil
   E) H.Arif, Qabil

5. Əsərlərində xalq yaradıcılığı və aşıq poeziyasının güclü təsiri duyulan sənətkarlar:
   A) H.Arif, Qabil B) H.Arif, Z.Yaqub
   C) C.Novruz, H.Arif D) Z.Yaqub, M.Araz
   E) Qabil, Z.Yaqub

6. M.Arazın kitablarını göstərin.
   1. "Dünya sənin, dünya mənim" 2. "Dünyanın arşını"
   3. "Vətən deyin" 4. "Vətəndaş"
   5. "Ömür kitabı" 6. "Atamın kitabı"
   A) 2, 5 B) 1, 4, 5
   C) 1, 3, 6 D) 3, 4 E) 1, 3, 4

7. II mərhələnin 60-cı illərində bədii nəsrdə və dramaturgiyada yaranan yeni üslub necə adlanır?
   A) lirik-romantik
   B) epik-lirik
   C) sosial-psixoloji
   D) lirik-psixoloji
   E) siyasi-mənəvi

8. II mərhələdə dramaturgiyanı yüksək səviyyəyə qaldıran sənətkar:
   A) Ə.Əylisli
   B) İ.Əfəndiyev
   C) N.Xəzri
   D) Elçin
   E) N.Həsənzadə

9. Anarın romanı:
   A) "Dünyanın arşını"
   B) "Beşmərtəbəli evin altıncı mərtəbəsi"
   C) "Mahmud və Məryəm"
   D) "Vicdan susanda"
   E) "Qətl günü"

10. II mərhələdə poeziyanın nisbətən gənc nümayəndələri hansılardır?
   1. H.Arif 2. Z.Yaqub 3. S.Rüstəmxanlı
   4. B.Azəroğlu 5. Qabil 6. N.Həsənzadə
   7. N.Kəsəmənli
   A) 1, 3, 5 B) 3, 5, 6
   C) 2, 3, 4, 6 D) 3, 6, 7 E) 2, 3, 7

B variantı

1. II mərhələdə fəaliyyət göstərən nasirlər hansılardır?
   1. Y.V.Çəmənzəminli 2. İ.Hüseynov 3. X.R.Ulutürk
   4. Elçin 5. Anar 6. Z.Yaqub
   A) 1, 2, 5 B) 2, 4, 6
   C) 3, 4, 5 D) 2, 4, 5 E) 4, 5, 6

2. "Vicdan susanda" romanının müəllifi:
   A) V.Babanlı
   B) Ə.Əylisli
   C) S.Əhmədli
   D) Y.Səmədoğlu
   E) S.Rüstəmxanlı

3. "Nəsimi" poemasının müəllifi kimdir?
   A) N.Həsənzadə
   B) H.Arif
   C) Qabil
   D) S.Rüstəmxanlı
   E) X.R.Ulutürk

4. "Böyük ömrün dastanı" poemasının müəllifi və həsr olunduğu şəxs:
   A) N.Həsənzadə; N.Nərimanov
   B) Z.Yaqub; H.Əliyev
   C) X.R.Ulutürk; M.Ə.Rəsulzadə
   D) H.Arif; Aşıq Alı
   E) B.Vahabzadə; S.Vurğun

5. "Ömür kitabı":
   A) pyeslərin toplandığı kitabdır
   B) poemadır
   C) povestdir
   D) romandır
   E) publisistik əsərdir

6. "Yamacda nişanə" əsərinin müəllifi:
   A) Ə.Əylisli
   B) V.Babanlı
   C) Elçin
   D) Y.Səmədoğlu
   E) S.Əhmədli

7. Ə.Əylislinin yaradıcılığına aid olan əsəri göstərin.
   A) "Mahnı dağlarda qaldı"
   B) "Mənim rəqibim"
   C) "Mənim günahım"
   D) "Mənim nəğməkar bibim"
   E) "Həyat bizi sınayır"

8. Ən yeni dövrün II mərhələsinə ***aid olmayan*** əsər hansıdır?
   A) "Bir görüşün tarixçəsi"
   B) "Ağ dəvə"
   C) "Dünyanın arşını"
   D) "Ələmdən nəşəyə"
   E) "Ağ qoç, Qara qoç"

9. Ən yeni dövr Azərbaycan ədəbiyyatının həm I, həm də II mərhələsində fəaliyyət göstərmiş sənətkar hansıdır?
   A) N.Həsənzadə
   B) Z.Yaqub
   C) İ.Əfəndiyev
   D) Anar
   E) C.Novruz

10. Ədəbiyyatşünas-tənqidçi kimi tanınır:
   A) C.Novruz
   B) Y.Qarayev
   C) Ə.Əylisli
   D) S.Əhmədli
   E) N.Həsənzadə

Rəsul Rza

(1910 – 1981)

Rəsul Rza XX əsr Azərbaycan poeziyasının ən görkəmli simalarından biridir. O, müstəqil poetik üslubun, sərbəst şeirin formalaşmasında ardıcıl axtarışlar aparan sənətkar olmuşdur.

Həyatı

Rəsul Rza 1910-cu ildə Göyçayda dünyaya göz açmışdır. Atası İbrahim qəza rəisinin dəftərxanasında tərcüməçi işləmişdir. Onun ailəsində savada, ədəbi nəşrlərə böyük maraq var idi. Anası Məryəm xanım da şeirə həvəs göstərən qadın olmuşdur. R.Rza ilk təhsilini Göyçayda almış, sonra isə Gəncə Sənaye və Əkinçilik Texnikumunda (cəmi bir neçə həftə olsa da) oxumuşdur.

O, texnikumdakı təhsilini yarımçıq qoymuş, əvvəlcə Bakıya, daha sonra Tiflisə getmiş, təhsilini orada davam etdirmişdir.

1930-cu ildə yenidən Bakıya gəlmiş, "Gənc işçi" qəzetində işləməyə başlamışdır. 1930-cu illər Bakısı şairin dünyagörüşünün formalaşıb inkişaf etməsində mühüm rol oynamışdır. Şair özünün yeni yaradıcılıq yolunu da bu illərdə müəyyənləşdirmişdir. 1937-ci ildə Moskva Kinematoqrafiya İnstitutuna daxil olmuşdur. Moskvadakı təhsil illərində R.Rza rus dilini və ədəbiyyatını dərindən öyrənmiş, yaradıcılıq axtarışları aparmışdır. Həmin vaxtlar o, V.V.Mayakovskinin yaradıcılığı ilə də tanış olur. Bakıya qayıtdıqdan sonra R.Rza bir müddət kinematoqrafiya sahəsində çalışmışdır.

1941-ci ildə müharibə başlanarkən şair cəbhəyə getmiş, Krımda xidmət etmişdir. Cəbhədəki xidmət illərində "Krımskaya boevaya" qəzetində çalışmışdır.

O, müxtəlif illərdə Azərbaycan Yazıçılar İttifaqının sədri, kinematoqrafiya naziri vəzifələrində çalışmışdır.

R.Rza 1960-cı illərdə ilk Azərbaycan Ensiklopediyasının baş redaktoru vəzifəsində işləmişdir. O, oncildlik ensiklopediyanın nəşrini başa çatdıra bilməsə də, onun əsasını qoyan elm və mədəniyyət xadimidir.

R.Rza 60-cı illərdən başlayaraq, novator düşüncənin rəhbərlərindən biri kimi şöhrət qazanmışdır. O, milli ideyaların təbliğində, yenilik axtaran gəncliyin formalaşmasında böyük rol oynamış, onun böyük təsiri ilə xüsusi ədəbi məktəb – Rəsul Rza məktəbi formalaşmışdır.

R.Rza 1981-ci ildə vəfat etmiş, Fəxri xiyabanda dəfn olunmuşdur.

Yaradıcılığı

R.Rza ədəbi növlərin üçündə də: lirik, epik, dramatik növlərdə gözəl əsərlər yaratmışdır.

Əsərlərinin çox hissəsini sərbəst, müəyyən qismini isə heca vəznində yazmışdır. R.Rza eyni zamanda, əruz vəznində də lirik şeirlər müəllifidir.

Lirik poeziyası. R.Rza bədii yaradıcılığa lirik şeirlə başlamışdır. Bu mənada, yaradıcılığında lirika aparıcı yer tutur. Onun yaradıcılığa başladığı 1920-ci illərin sonu ədəbiyyatımızda inqilabi ədəbi proses formalaşırdı. Bu proses R.Rza yaradıcılığına da güclü təsir etmişdir. R.Rza ilk şeirlərindən proletar şeirinin məfkurəçisi kimi çıxış etmişdir. Onun 1927-ci ildə Tiflisdə "Qığılcım" adlı almanaxda dərc etdirdiyi "Bu gün" adlı ilk mətbu şeirində də bu hiss hakimdir. Bu şeirdə şair yaşadığı bu gündən təsirləndiyini bildirir və bu günün şairi olduğunu bəyan edirdi. 1928-ci ildə isə şairin "Komsomolçular" şeiri rus dilində "Zarya Vostoka" qəzetində çap olunmuşdu.

R.Rzanın 1931-ci ildə çap etdirdiyi "Bolşevik yazı" şeiri dərhal diqqəti cəlb etdi. Bu şeir həcminə görə əvvəlki şeirlərindən fərqlənirdi. O dövrkü ədəbi ictimaiyyət bu şeiri yüksək qiymətləndirirdi. "Bolşevik yazı" şeiri çap olunandan sonra artıq R.Rzadan istedadlı proletar şairi kimi danışmağa başladılar. Çünki cavan şair sosialist vətənindən, pambıq tarlalarından bəhs edir, inqilabi nikbinlik nümayiş etdirirdi.

Meydan sənin,
Söz sənin,
sənə bu gün
tələb verir
bu sosialist vətənin!
Bu sadə bir umğu,
bir arzu deyil,
bu, tələbdir,
yaxşı bil!

"Bolşevik yazı" şeirində sərbəst şeir forması əsas cizgilərini büruzə verirdi.

1920-ci illərin sonundan sərbəst şeir formasına gənc şairlərin yaradıcılığında daha çox rast gəlinir. Əslində rus şairi V.V.Mayakovski bu şeir formasında kommunist ruhlu şeirlərini yazırdı. O, digər müasir ruhlu şairləri də öz arxasınca aparırdı.

Azərbaycan poeziyasında da bu formaya müraciət edən şairlərimiz (Mikayıl Rəfili, Səməd Vurğun, Cəfər Xəndan, Rəsul Rza və b.) az olmamışdır. Bu şairlərin içərisində ardıcıllığı etibarilə daha çox R.Rza fərqlənirdi. O, ictimai-siyasi ruhlu şeirlərinin əksəriyyətini sərbəst şeir formasında yazmışdır. Ümumiyyətlə, 1930–1940-cı illər R.Rza poeziyasında siyasi lirika üstün mövqeyə malik idi.

R.Rza 30-cu illər lirikasında dünyada, yeni cəmiyyətdə baş verən hadisələrə cavab verməyə çalışırdı. O, xalq ruhuna və mənəviyyatına bağlılığını da əks etdirən şeirlər yazırdı. Bu baxımdan onun 1930-cu illərdə çap etdirdiyi şeir kitabları diqqəti cəlb edir. Onun ilk şeirlər kitabı 1932-ci ildə çap etdirdiyi "Çapey" idi. Bundan sonra 1935-ci ildə "Qanadlar", 1939-cu ildə "Çinar" şeirlər kitabı işıq üzü görmüşdür. O dövrkü şeirlər içərisində "Çinar" xüsusilə seçilir. Şeir heca vəznində yazılmışdır. Bu şeirdə şair sadə, lakin müdrik bir fikir ifadə edirdi. Şair bu qənaətdədir ki, o kəs ki xalqa möhkəm bağlıdır, onun kökü xalq mənəviyyatının dərinliklərindədir. O, əyilməz və məğrurdur:

Birdən çinar dilə gəldi, dedi: Bax,
Bu torpaqda dərindən kök salaraq
Hər tərəfə uzatmışam qolumu,
Övladlarım bürümüş sağ-solumu.
Belə məğrur dayanmaqda haqlıyam,
Mən kökümlə bu torpağa bağlıyam!

Çinarın bu cavabı çoxmənalı və rəmzidir. Əslində şair öz poeziyasının dərin dəyərlərinə, xalqa, torpağa bağlılığına işıq salırdı.

Dövrün ruhuna sadiq olan şair ehtirası və sərtliyi onun beynəlxalq mövzularda qələmə aldığı nümunələrdə daha üstündür. "Madrid", "Haray, dostlar!", "Həbəşistan", "Cəlladları durdur" poemalarında şair günün nəbzini tutmağa çalışırdı. Bu tipli əsərlərini yazarkən cavan şair o dövrdə nəşr olunan qəzet materiallarına əsaslanırdı. O, beynəlxalq aləmdə baş verən hadisələrə öz kəskin siyasi münasibətini bildirirdi.

1920–1930-cu illərdən sonra Rəsul Rza yaradıcılığının yeni bir mərhələsi – 1941–1945-ci illər müharibəsi dövrü başlanır. 1941-ci ildə şair hərbi müxbir kimi Krıma gedir. O, müharibəni bilavasitə müşahidə edir, müharibənin çətinliklərini mənən yaşayırdı.

Bu illərdə R.Rza tükənməyən bir yaradıcılıq ehtirası ilə yazıb-yaradırdı. Şairin müharibə dövrü poeziyasının baş mövzusu Vətəndir. Onun 1942-ci ildə çapdan çıxan kitabının "Vətən" adlandırılması da təsadüfi deyildi.

Bunun ardınca R.Rza 1942-ci ildə "Bəxtiyar", 1943-cü ildə "İntiqam!.. İntiqam!", "Qəzəb və məhəbbət" kimi güclü vətənpərvərlik ruhunda olan kitablarını nəşr etdirir.

Şairin yaradıcılıq axtarışlarında yeni mərhələ 1950-ci illərə düşür. Bu illərdə şairin poeziyasında insan və onun taleyi, sosial dəyərlərin müdafiəsi mövzusu daha qabarıqdır.

Şairin bu dövr lirikasının digər bir fərqləndirici xüsusiyyəti hadisə və predmetin fəlsəfi dərkindən ibarət idi. Bu baxımdan "Pəncərəmə düşən işıq", "Mən torpağam" şeir kitabları, xüsusi olaraq "İnsan şəkli" şeiri daha maraqlıdır. "İnsan şəkli" şeirində R.Rza bir sərgi salonu arzulayır:

Orada bir insan şəkli asacağam,
Görünsün dünyanın hər yerindən –
zamanın keçmişindən,
dövranın indisindən,
əsrin gələcəyindən.

Bu, şairin təsvir və tərənnüm etdiyi insanın zaman baxımından izahıdır. Aydın olur ki, şairin bu insanı yalnız keçmişin, bu günün yox, həm də gələcəyin insanıdır.

Dünyanı, insan həyatını bütün rəngləri və boyaları ilə vermək, geniş və əhatəli göstərmək üçün R.Rza axtarır və lirikanın yeni vasitələrinə müraciət edirdi.

Bu axtarışların uğurlu nəticəsi kimi onun məşhur "Rənglər" silsiləsi yarandı. Şair "Rənglər" silsiləsində xalqımızın dilində, sənətində və yaddaşında olan rəng yozumlarını böyük ustalıqla poetik dilə çevirirdi. Bu silsilədə şair göstərir ki, xalq anlayışında qara – matəm, qırmızı – bayram, sarı – nifrət rəmzidir. Sənətkar bunları açа-açа öz qənaətlərini də ifadə edir, şeirdə rənglərin daha mürəkkəb, daha zəngin hislər, xatirələr doğurmaq imkanı olduğunu gözəl poetik dillə açıqlayır. Şair qara rəngin rəmzlərini açarkən folklor deyimlərini publisistik dillə izah edir. Qaranı "əbədi ayrılığın ağrısı" adlandıranda ölümə və matəmə işarə etdiyini anlayırıq. "Yaşamaq üçün sürünənlərin çoxu" ifadəsini isə biz xalq dilindəki "qara camaat" məfhumunun qəzet dili ilə ifadəsi kimi qəbul edirik. "Bəzi insan niyyəti" ifadəsini isə xalq dilində işlənən "qaraniyyət adam" ifadəsinin sinonimi kimi başa düşürük. "Ləkəli sözlər" ifadəsi isə "qara yaxmaq" deyiminin bir növ üslubi sinonimidir.

"Rənglər" silsiləsinə daxil olan "Ala-bula" şeirində rənglərin ana dilimizdə əksini tapmış assosiativ çalarları daha qüvvətli verilir:

Güvə dəymiş dəri.
Uzunqunc corabların
kilkə yun kələfləri.
Sevincin, kədərin,
inamın, ümidsizliyin
çeşidləri.
Zebr balası.

"Rənglər silsiləsi" haqqında belə deyənlər tamamilə haqlıdır: "Silsilənin bir sıra nümunələri poetik və yığcam dillə yazılmış izahlı poetik lüğət prinsipi ilə qələmə alınmışdır. Şair, bir qayda olaraq, şeirin başlığına çıxardığı rəngi xalq dilinin misilsiz zənginliyindən istifadə edərək izah edir, bir növ, şeirlə yazılmış rəng lüğəti yaradır".

Satiraları. R.Rza saxtakarlığa, ikiüzlülüyə, tamahkarlığa xüsusilə sərt münasibət bəsləyir. "Nə deyim sənə", "Alicənabov dedi", "Mığmığalar", "Yaman qonşu", "Xanım" kimi satirik seirləri hədəfinin konkretliyi ilə seçilir. "Qonşu paxıl olmasa" şeiri yaradıcılıq mühiti üçün daha səciyyəvi

olan bir məsələyə həsr olunmuşdur. Şair paxıllıq, bir-birini gözü götürməmək kimi halların yaradıcı insanların münasibətini zəhərləyən hal olduğunu, belə halların xırda intiqamçılıq vərdişlərinə səbəb olduğunu qabardır.

"Rüşvətxorlar mərsiyəsi" satirasında şair M.Ə.Sabirin davamçısı kimi çıxış edir. Satira əruz vəznində yazılmışdır. R.Rza şeirinə M.Ə. Sabirdən məşhur sətirləri də əlavə edir:

Rüşvət alırıq, azı az, çoxu çox,
Puldu, qızıldı, ya da şey, fərqi yox.
Xalqa ağır gün bizə bayram idi,
Ax, necə kef çəkməli əyyam idi!

Müəllif rüşvəti cəmiyyət və xalqın sabahı üçün ən böyük sosial təhlükə sayır və onu normal cəmiyyətin və əxlaqın qəddar düşməni bilir. Şair xüsusilə vəzifə və rütbə alverinə qarşı amansızdır.

Tərcümələri. Görkəmli sənətkar bədii tərcümə sahəsində də xeyli işlər görmüşdür. Bənzərsiz tərcümələri ilə ədəbiyyat tarixinə töhfələr vermişdir. O, Azərbaycanın dahi şairi və mütəfəkkiri Nizami Gəncəvinin "Xosrov və Şirin" poemasını fars dilindən sətri tərcümədən istifadə yolu ilə yüksək məsuliyyətlə dilimizə çevirmişdir. O, eyni zamanda, A.S.Puşkinin, M.Y Lermontovun, V.V. Mayakovskinin və başqa şairlərin əsərlərini çox böyük ustalıqla Azərbaycan dilinə tərcümə etmişdir. M.Müşfiqlə birlikdə M.Y. Lermontovun "Demon" əsərini Azərbaycan dilinə çevirmişdir. R.Rza ömrünün böyük bir hissəsini V.V.Mayakovskinin şeir və poemalarının Azərbaycan dilinə tərcümə olunmasına həsr etmişdir.

Poemaları. R.Rza poema yaradıcılığına 1930-cu illərdə başlamış, bütün yaradıcılığı boyu bu janrda çox sanballı əsərlər yaratmışdır. 30-cu illərdə yazdığı poemalarda beynəlxalq həyatda baş verən hadisələr mühüm yer tutur. Bu əsərlərin içərisində 1934-cü ildə yazdığı "Almaniya" poeması xüsusilə diqqətçəkəndir. Poemada təzəcə hakimiyyətə gələn faşizmin antihumanist mahiyyəti tənqid olunmuşdur.

Şair 1940-cı illərin sonlarında "Lenin" poeması üzərində çalışmışdır. O zamanlar Lenin və Stalinə böyük əsərlər həsr olunurdu. Bu, sənətkarın kommunist məfkurəsinə sədaqətini göstərən əlamət sayılırdı. R.Rza da bu yolla getmiş və poemada Leninin ideal obrazını yaratmışdır. Bədii dil

sənətkarlığının yüksək səviyyəsi ilə seçilən bu poema ideya-məzmun baxımından sovet rejiminin ideoloji ölçülərinə uyğun idi. .

R.Rza müharibə ilə bağlı müşahidə və təəssüratlarına sonralar da qayıtmış, 1975-ci ildə faşizm üzərində qələbənin 30 illiyi münasibətilə "Min dörd yüz on səkkiz" adlı poemasını yazmışdır. Şairin "Bir gün də insan ömrüdür" poemasında insana qayğı məsələsi qoyulurdu. Poemada belə bir fikir ifadə edilir ki, insan ömrü, insan taleyi hər cür plandan, tapşırıqdan qiymətlidir. Əsl rəhbər odur ki, onun üçün insanın həyatı, səhhəti, sağlamlığı əsas olsun.

Nəsr əsərləri. Rəsul Rzanın nəsrlə yazılmış epik əsərləri də vardır. O, hekayə və oçerklərin, bir povestin də müəllifidir. Belə əsərlərində də R.Rza dövr üçün aktual olan problemlərə toxunmuşdur. Bu mənada, onun 1927–1928-ci illərdə "Oğul qatili", "Uxajor", "Dilarə" kimi hekayələr yazması da təsadüfi sayılmamalıdır. Əlbəttə, bu hekayələr heç də yüksək sənət əsərləri deyildi. R.Rzanın 1941–1945-ci illərdə yazdığı məqalələr, nəsr əsərləri özünün güclü publisist ruhu ilə seçilirdi. Onun 1943-cü ildə çap olunmuş "Qəzəb və məhəbbət" kitabı bütünlüklə nəsrlə yazılmışdı: oçerk və hekayələrdən, bir də "Leytenant Bayramın gündəlikləri" adlı sənədli povestdən ibarət idi. Xüsusilə sənədli povest müharibə həyatının təsviri, azərbaycanlı döyüşçünün qələbəmizə inamının əks etdirilməsi baxımından çox əhəmiyyətli idi. R.Rzanın özünü bu sənədli povestdəki leytenant Bayramın proobrazı kimi götürmək də olar.

Dramaturgiyası. R.Rza dramatik növdə də qələmini sınamışdır. R.Rzanın 1943-cü ildə nəsrlə yazdığı "Vəfa" pyesi müharibə dövrü ədəbiyyatımızın ən uğurlu əsərlərindən biri hesab edilir. Dramda sənətkar müharibə dövrü adamlarının daxili mənəvi aləmini Vəfa, Bahadır və İntizar obrazları vasitəsilə açıb göstərə bilmişdir. Əsər elə yazıldığı ildə Akademik Dram Teatrında tamaşaya qoyulmuş, böyük tamaşaçı rəğbəti qazanmışdır. Pyesdəki Vəfa, İntizar obrazlarının proobrazı müəllifin 416-cı Azərbaycan atıcı diviziyasında görmüş olduğu bir tibb bacısı idi.

"Qızılgül olmayaydı" poeması

"Qızılgül olmayaydı" (1959–1960) R.Rzanın poemaları sırasında xüsusi yer tutur. Əsər böyük şairimiz Mikayıl Müşfiqin faciəli taleyinə həsr edilmişdir. Poema milli ədəbiyyatımızda repressiya mövzusunda yazılan ilk əsərlərdən biridir. Poemada R.Rza dostu Mikayıl Müşfiqin həbs olunması faktı ilə XX əsrin dəhşətli 37-ci il hadisələrini, repressiyanın antihumanist mahiyyətini açıb göstərmiş, repressiyanı insana qarşı çevrilmiş ən qəddar bir akt kimi mənalandırmışdır.

Poema keçmişə qayıdış formasında (**retro** üslubunda) yazılmışdır. Repressiyalardan – o dəhşətli və faciəvi hadisələrdən illər keçmişdir. Günlərin birində şairin qapısı döyülür. Şair qapını açır. Qarşısında üzünə illərin iztirabı və əzabı çökmüş Dilbəri – Müşfiqin qadınını görür (əslində bu "gecə qonağını" yalnız bir az sonra tanıya bilir):

Başını qaldıranda,
gözlərim bircə anlıq
gözlərinə sataşdı.
Elə bil kimsə birdən
köhnə, tanış kitabın
səhifəsini açdı...

Bu "gecə qonağı" şairin gözünün qarşısında xatirələri canlandırır. Səsə şairin ömür-gün yoldaşı Nigar da oyanıb gəlir. Onlar görüşürlər. Dilbər otağa keçir. Şair dərdin insanı hansı hala saldığına ürəkdən yanır. Səssizcə o illərin ağrı-acısı ilə kövrəlib ağlayırlar. Sonra hamı susur, otaq da, tavan da, divar da susur. Müəllif bu görüş səhnəsindən sonra o müdhiş keçmişə boylanır. Bundan sonra xatirələr danışır. R.Rza Müşfiqlə "Gənc işçi" qəzetindəki ilk tanışlığı, redaksiyadakı ümumi ab-havanı müəyyən detallarla oxucunun gözü qarşısında canlandırır. Bu tanışlıq dostluğa çevrilir. İki gənc şairin mənəvi dostluğuna...

Bu xatirələr çözümündə R.Rza redaksiyada onlarla çalışan adamların da xarakterini açır. Bu adamların fonunda Müşfiq öz bənzərsiz həm daxili, həm də zahiri görkəmi ilə hamıdan seçilir:

Bir yaz günü
tanış olduq onunla.
Sonra da ayrılmadıq...

Mən onun axıcı şeirlərindən
həzz alardım,
o da mənim
xalları bərkiməmiş nəğmələrimdən.

Elə buradaca şair Müşfiqin sadə, açıq ürəkli, hərdən saxta bir gülüşə də aldanan, hərdən əsəbi, tez özündən çıxan, uşaq kimi hər şeyə inanan, yetim kimi kövrək obrazını yaradır.

Tez-tez şeir məclislərinə, görüşlərə getdiklərini təsvir edir:

Salon susub durardı
alovlu misraları
o, məclisə tökəndə:
"Oxu, tar, oxu, tar!
Səni kim unudar?!"
İndi bu sözləri
ona desək, yeri var:
"Səni kim unudar?!"

Poemanın ən təsirli yerlərindən biri Müşfiqin "Gənc işçi" qəzetində çap olunan şeirinə verilən pulla bir dəstə gül alıb anasının qəbri üstünə getməsi, bütün günü orada qalmasıdır.

R.Rza poemada Müşfiqin xalq tərəfindən çox sevildiyini, şeir məclislərində aludəliklə ona qulaq asdıqlarını xüsusi vurğulayır.

Şair ilhamı bitib-tükənməyən Müşfiqlə pəncərəsi döşəmədən bircə qarış yuxarı olan, əl vuranda qapısı qulun kimi qışqıran, suvağı parça-parça tökülən köhnə bir evdə sübhədək şeir oxumalarını, işləmələrini təsvir edir. Ruziləri isə dağlı çörəyi ilə Gəncə pendiri olardı. Onlar birlikdə Füzulini, Natəvanı, Sabiri, Puşkini, Bayronu oxuyar, təhlil edərdilər.

Ən maraqlı olanı bu iki gənc şairin Lermontovun "Demon" əsərini birlikdə tərcümə etmələridir. Sözləri tapdıqca uşaq kimi sevinirlər. Hər birinin yaradıcılıq uğuru bir-birinə qol-qanad verir. Beləcə günlər keçir.

Bir axşamüstü
vədələşdik, ayrıldıq.
"Sabah" gəldi.
O gəlmədi...

Xilaf çıxdımı vədəyə?..
... Anam gözlərini
neçə yol
əlinin dalı ilə sildi,
o gəlmədi.
... Qaranlıqda qərq oldu
qəlbimdəki
ümid, giley,
intizar.
O gəlmədi.

Günlər keçir. Müşfiqdən xəbər gəlmir. Ona "xalq düşməni" kimi namərd bir damğa vurulur:

Doğrudur,
ona namərd şilləsi kimi
vurulan imzalar içində
mənim imzam olmadı...
Lakin necə sakit deyim ki:
səsim gəldikcə bağırmadım.
Xalqı ədalətsiz bir hökmü
pozmağa çağırmadım...

Onun nə şəklini, nə də kitablarını gizlətmədiyindən təsəlli tapır. R.Rza elə buradaca o dövrün siyasi durumunu gözümüz önündə canlandırır. Tutulanların ailələrinin, yaxınlarının başına gətirilən dəhşətli oyunları sadalayır. Müşfiqə, Cavidə, Cavada, Seyid Hüseynə, Cuvarlıya, Ruhullaya qənim, düşmən kəsilənləri təsvir edir. Səlim Petroviçlər, Topuridzelər, Markaryanlar, Borşovlar əllərində "Ölüm qərarı" yazılı vərəq deyib – gülürlər, kefləri kök, damaqları çağdır.

Poemada Müşfiq – Dilbər xətti də çox incə detallarla açılır. Dilbərsiz keçən günlərin Müşfiq üçün necə ağır olduğunu biz Dilbərin bir neçə günlüyə Gəncəyə gedişi anında görürük. Bəs Dilbər necə? Şair poemanın bir neçə yerində kövrək hislərlə bunu təsvir edir. Əsər, demək olar ki, Dilbərə müraciətlə yazılmışdır:

... Gecə keçib, səhər oyanır... Dilbər!
Bu inləyən qəlbimdir,
o yanır, Dilbər!

Qoy bu yanan qəlbimin işığında
axtarım keçənləri,
Axtarım dumanları, çənləri...
Bax, dan yeri sökülür, bacım!
Dan yeri sökülür.
Yollara, irizlərə
şəfəq tökülür, bacım,
qızıl şəfəq tökülür.
Haqqın yolu nə qədər
iztirablı olsa da,
keçdik bu yolu.
Sıramızda pasport aldı
neçə namuslu vətən oğlu.

Poemada Müşfiqin kövrək siması gözümüz önündə canlanır. Poemanın sonuna yaxın şairin Dilbərə cavabları da mənalıdır:

İndi gecə keçib.
Üfüqlər lalə rənginə girir.
Sabahın xoş nəsimi
bir sərinlik gətirir.
Cavablarım tam deyil, bilirəm,
Bu izah intiqam deyil, bilirəm.
Qəlbin böyük ağrısına
şəfa deyil söz məlhəmi.
Min bir ümumi sevinc
dağıdarmı bir həsrətdən,
bir ölümdən doğan qəmi?!

Poemanın sonu nikbin notlar üzərində qurulmuşdur. Müəllif əmindir ki, zaman gələcək, bu ağır günlərin vahiməsi bir cani kimi qovulacaqdır. Şairin əsərləri dillər əzbəri olacaq, heykəlini güllər bəzəyəcəkdir.

... ancaq,
elin qəmli gəlini,
qızılgül olmayaydı,
saralıb solmayaydı.

O müdhiş illərdə itirilmiş dost və insan haqqında xatirələr, bu itkidən doğan kədər və iztirab süjetin əsas məğzini təşkil edir. Lakin bu süjet

vahid bir xətt üzrə qurulmamışdır. Poemada Müşfiqlə bağlı xatirələr fonunda həm dövr, həm də müəllifin özü dayanır. Poemadakı lirik qəhrəman, yəni müəllif bu ədalətsizlikləri, faciəni özü də dərindən duyur və içində həmin ağrıları yaşayır.

"Qızılgül olmayaydı" poeması qırmızı terror mövzusunda yazılmış əsərlər arasında Azərbaycan ziyalısının xatirəsinə həsr olunmuş ən gözəl bədii abidədir.

R.Rza yaradıcılığı ilə bağlı yaddaş

- ✓ 1910-cu ildə Göyçayda anadan olmuşdur.
- ✓ İlk təhsilini Göyçayda almış, sonra Gəncəyə, Bakıya və Tiflisə getmiş, təhsilini orada davam etdirmişdir.
- ✓ İlk şeiri "Bu gün" 1927-ci ildə Tiflisdə "Qığılcım" adlı almanaxda dərc edilmişdir.
- ✓ Proletar şairi kimi "Bolşevik yazı" şeiri ilə tanınmışdır.
- ✓ 1930-cu ildən Bakıya gəlmiş, "Gənc işçi"də işləmişdir.
- ✓ 1937-ci ildə Moskva Kinematoqrafiya İnstitutuna daxil olmuş, burada rus və dünya ədəbiyyatı klassikləri, xüsusən V.Mayakovski yaradıcılığı ilə tanış olmuşdur.
- ✓ 1930-cu illərdə şairin "Çapey" (1932), "Qanadlar" (1935), "Çinar" (1939) şeir kitabları nəşr edilmişdir.
- ✓ 1930-cu illərdə beynəlxalq mövzuda "Madrid", "Haray, dostlar", "Həbəşistan", "Cəlladları durdur" poemalarını yazmışdır. "Almaniya" poeması da bu baxımdan önəmlidir.
- ✓ 1941-ci ildə cəbhəyə getmiş, Krımda xidmət etmiş, "Krımskaya boevaya" qəzetində hərbi müxbir kimi çalışmış, bu qəzetin Azərbaycan variantının redaktoru olmuşdur.
- ✓ 1941-1945-ci illərdə R.Rza "Vətən" (1942), "Bəxtiyar" (1942),

"İntiqam!.. İntiqam!" (1943) və "Qəzəb və məhəbbət" (1943) kitablarını nəşr etdirmişdir.

- ✓ "Qəzəb və məhəbbət" kitabına sənətkarın nəsr əsərləri – hekayələri, oçerkləri və povesti toplanmışdır. Bu əsərlər içərisində "Leytenant Bayramın gündəlikləri" adlı sənədli povesti xüsusilə seçilir.
- ✓ 1948-ci ildə "Lenin" poemasını tamamlamışdır
- ✓ 1950-ci illərdə R.Rza yaradıcılığında yeni axtarışlar dövrü başlayır.
- ✓ 1960-cı illərdə bu axtarışlar R.Rza ədəbi məktəbinə çevrilir. O, novator düşüncənin rəhbərlərindən biri kimi şöhrət tapmışdır.
- ✓ 1960-cı illərdə ilk Azərbaycan Ensiklopediyasının baş redaktoru vəzifəsində çalışmışdır.
- ✓ 1960-cı ildə "Xalq şairi" fəxri adına layiq görülmüşdür.
- ✓ 1960-cı illərin sonunda bütün ədəbi ictimaiyyətin diqqətini cəlb edən "Rənglər" şeirlər silsiləsini yaratmışdır.
- ✓ Tərcüməçilik işi ilə də məşğul olmuş, N.Gəncəvinin "Xosrov və Şirin" poemasını, A.Puşkinin, V.Mayakovskinin əsərlərini, M.Lermontovun "Demon" əsərini (Müşfiqlə birlikdə) ana dilimizə çevirmişdi.
- ✓ M.Müşfiqin 60 illik yubileyi münasibətilə "Qızılgül olmayaydı" poemasını yazmışdır. Bu əsər 1937-ci il repressiyasına həsr olunmuş ən gözəl poetik əsər hesab olunur.
- ✓ 1975-ci ildə faşizm üzərində qələbənin 30 illiyinə həsr olunmuş "Min dörd yüz on səkkiz" poemasını yazmışdır.
- ✓ Dramatik növdə də əsərlər yazmışdır. Onun "Vəfa" pyesi müharibə mövzusunda yazılmış əsərlər sırasında özünəməxsus yer tutur.
- ✓ Satirik şeirlər də yazmış, M.Ə.Sabir ənənələrini davam etdirmişdir. Bu baxımdan "Mığmığalar", "Yaman qonşu", "Qonşu paxıl olmasa", "Xanım", "Alicənabov dedi", "Rüşvətxorlar mərsiyəsi" diqqəti cəlb edir.

R.Rzanın bədii əsərləri



A variantı

1. Hansı fikir ***yanlışdır:***
   A) 1930-cu ildən "Gənc işçi" qəzetində işləməyə başlamışdır.
   B) 1941-ci ildə cəbhəyə getmiş, Krımda xidmət etmişdir.
   C) 1960-cı illərdə Azərbaycan Ensiklopediyasına rəhbərlik etmişdir.
   D) 1931-ci ildə çap etdirdiyi "Bolşevik yazı" şeiri ona uğur qazandırmışdır.
   E) 1930-cu illərdə şairin poeziyasında insan və onun taleyi, sosial dəyərlərin müdafiəsi mövzusu daha qabarıqdır.

2. Bu sənətkar 1960-cı illərdən başlayaraq novator düşüncənin rəhbərlərindən biri kimi şöhrət qazanmış, yenilik axtaran gəncliyin formalaşmasında böyük rol oynamış, onun başçılığı ilə xüsusi ədəbi məktəb formalaşmışdır. Söhbət kimdən gedir?
   A) R.Rzadan B) S.Vurğundan
   C) B.Vahabzadədən D) İ.Əfəndiyevdən E) İ.Şıxlıdan

3. R.Rzanın yaradıcılığı ilə bağlı ***səhv*** fikir:
   A) Ədəbi növlərin hər üçündə əsərlər yazmışdır.
   B) Əsərlərinin çox hissəsini sərbəst vəzndə yazmışdır.
   C) Bütün əsərlərini nəzmlə yazmışdır.
   D) "Bolşevik yazı" şeirindən sonra proletar məfkurəçisi olan şair kimi tanınmağa başlamışdır.
   E) Heca vəznində də bəzi şeirlər yazmışdır.

4. R.Rzanın 1941-ci ildə başlayan müharibə ilə bağlı yaradıcılığına aid verilənlərdən biri ***səhvdir:***
   A) 1941-ci ildə cəbhəyə getmiş, Krımda xidmət etmişdir.
   B) Cəbhədəki xidmət illərində "Krımskaya boevaya" qəzetində çalışmışdır.
   C) Şairin müharibə dövrü poeziyasının baş mövzusu Vətəndir.
   D) Şair müharibə illərində "Mən torpağam", "İnsan şəkli" şeirlərini yazmaqla diqqəti daha çox Vətənə və insana yönəltmişdir.
   E) "Vətən", "Bəxtiyar" şeir kitablarını müharibə illərində çap etdirmişdir.

5. R.Rzanın həyatı və yaradıcılığı ilə bağlı düzgün fikirləri seçin.
   1. 1960-cı illərdə ilk Azərbaycan Ensiklopediyasının baş redaktoru vəzifəsində çalışmışdır.
   2. Şairin dünyagörüşünün formalaşıb inkişaf etməsində 1930-cu illər Bakısı mühüm rol oynamışdır.
   3. Şair 1930-cu ildən başlayaraq novator düşüncənin rəhbərlərindən biri kimi şöhrət qazanmış və ədəbi məktəb yaratmışdır.
   4. 1937-ci ildən sonra Moskvada oxuyarkən V.Mayakovski yaradıcılığı ilə tanış olur.
   5. R.Rzanın mətbuatda dərc etdirdiyi ilk şeir "Bolşevik yazı" ona böyük uğur qazandırdı.

   A) 1, 2, 4 B) 3, 5
   C) 1, 3, 5 D) 2, 5
   E) 1, 2, 3

6. R.Rzanın lirik yaradıcılığı ilə bağlı ***səhv fikir:***
   A) Yaradıcılığında siyasi lirika aparıcı yer tutur.
   B) "Bolşevik yazı" şeiri heca vəznində, beşlik formasında yazılmışdır.
   C) Şairin "Komsomolçular" şeiri rus dilində "Zarya Vostoka" qəzetində çap olunmuşdur.
   D) "Bolşevik yazı" şeirində şair sosialist vətəninin şairin qarşısında qoyduğu tələblərdən bəhs edir, inqilabi nikbinlik nümayiş etdirirdi.
   E) "Bu gün" şeirində şair yaşadığı bu gündən təsirləndiyini və bu günün şairi olduğunu bəyan edirdi.

7. R.Rzanın 1930-cu illər yaradıcılığına aid düzgün fikirləri seçin.
   1. Bu illərdə çap olunan "Bolşevik yazı" şeiri dərhal diqqəti cəlb etdi.
   2. 1930-cu illər poeziyasında siyasi lirika üstün mövqeyə malik idi.
   3. Şair bu illərdə "Çapey", "Qanadlar", "Çinar" şeirlər kitabını çap etdirdi.
   4. Bu illərdə şair yeni axtarışlar aparır və bunun uğurlu nəticəsi kimi "Rənglər" silsiləsi yaranır.
   5. Şairin bu dövr lirikasının digər bir fərqləndirici xüsusiyyəti hadisə və predmetin fəlsəfi dərkindən ibarət idi.

   A) 1, 2, 3 B) 4, 5
   C) 1, 4, 5 D) 2, 3, 5
   E) 1, 4

8. R.Rzanın 1930-cu illər yaradıcılığı haqqında ***səhv fikir:***
   A) 1930-cu illərdə qələmə aldığı "Madrid", "Haray, dostlar", "Həbəşistan" poemalarında beynəlxalq aləmdə baş verən hadisələrə münasibətini bildirirdi.
   B) Bu dövr şeirləri içərisində "Çinar" xüsusilə seçilirdi.
   C) 1930-cu illərdə şair kəskin ruhlu satirik şeirlər yazaraq Sabir ənənələrini davam etdirirdi.
   D) Heca vəznində yazdığı "Çinar" şeirində şair bu qənaətdədir ki, o kəs ki xalqa möhkəm bağlıdır, onun kökü dərinlikdədir.
   E) Bu illərdə xalq ruhuna və mənəviyyatına bağlılığını əks etdirən şeirlər yazırdı.

9. R.Rzanın 1941–1945-ci illər yaradıcılığı ilə bağlı verilənlərdən biri ***səhvdir:***
   A) Bu illərdə şair hərbi müxbir kimi Krıma gedir və müharibənin çətinliklərini mənən yaşayır.
   B) Şairin bu dövr poeziyasının baş mövzusu Vətəndir.
   C) Şair bu illərdə "Vətən", "Bəxtiyar", "İntiqam!..İntiqam!" adlı şeirlər kitablarını nəşr etdirir.
   D) Nəsr əsərlərindən ibarət "Qəzəb və məhəbbət" kitabı da bu dövrdə çap olunmuşdur.
   E) "Cəlladları durdur" əsərini də bu illərdə yazmış, özünün faşizmə nifrət hissini ifadə etmişdir.

10. R.Rzanın müharibə mövzusunda yazdığı əsərlərini seçin.
    1. "Vətən"
    2. "Bu gün"
    3. "Bəxtiyar"
    4. "Çinar"
    5. "Leytenant Bayramın gündəlikləri"
    6. "Haray, dostlar"

    A) 1, 3, 5 B) 2, 4, 6
    C) 1, 4 D) 3, 4, 5
    E) 2, 6

B variantı

1. R.Rzanın yaradıcılıq axtarışlarında yeni mərhələ hansı illərdən inkişaf edib dərinləşmişdir?
   A) 1930-cu illərdən B) 1940-cı illərdən
   C) 1950-ci illərdən D) 1960-cı illərdən E) 1970-ci illərdən

2. Bu əsərlərdən biri R.Rzanın müharibə mövzusunda yazdığı poemadır:
   A) "Almaniya" B) "Min dörd yüz on səkkiz"
   C) "Leytenant Bayramın gündəlikləri" D) "Bəxtiyar"
   E) "Vəfa"

3. R.Rzanın "Qığılcım" almanaxında dərc etdirdiyi ilk şeiri:
   A) "Bolşevik yazı" B) "Çinar" C) "Bu gün"
   D) "Komsomolçular" E) "Yaman qonşu"

4. R.Rzanın poema yaradıcılığı ilə bağlı ***səhv fikir:***
   A) Şair poema yaradıcılığına 1930-cu illərdən başlamış və bütün yaradıcılığı boyu bu janrda sanballı əsərlər yaratmışdır.
   B) 1930-cu illərdə yazdığı poemalarda beynəlxalq həyatda baş verən hadisələr mühüm yer tutur.
   C) Şairin "Almaniya" poemasında 1941–1945-ci illər Almaniyasının antihumanist mahiyyəti açılıb göstərilmişdir.
   D) Şair 1975-ci ildə faşizm üzərində qələbənin 30 illiyi münasibətilə "Min dörd yüz on səkkiz" adlı poemasını yazmışdır.
   E) 1940-cı illərin sonunda "Lenin" poeması üzərində çalışmış, Leninin ideal obrazını yaratmışdır.

5. R.Rzanın 1950-ci illər yaradıcılığına aid düzgün fikirləri seçin.
   1. Bu illərdə şairin poeziyasında insan və onun taleyi, sosial dəyərin müdafiəsi mövzusu daha qabarıqdır.
   2. Bu dövr lirikasının digər bir fərqləndirici xüsusiyyəti hadisə və predmetin fəlsəfi dərkidir.
   3. Şair bu dövrdə beynəlxalq aləmdə baş verən hadisələrə qəzet materialları əsasında münasibətini bildirirdi.
   4. Bu illərdə çap etdirdiyi "Çinar" şeirində xalq ruhuna və mənəviyyatına bağlılığını əks etdirir.
   5. Bu illərdə çap olunan "Qanadlar" şeir kitabında müasirlərinin quruculuq əzmi öz əksini tapmışdır.

   A) 1, 2 B) 3, 4 C) 1, 3, 5 D) 2, 4, 5 E) 1, 4

6. Bu misralar R.Rzanın hansı şeirindəndir?
   Belə məğrur dayanmağa haqlıyam,
   Mən kökümlə bu torpağa bağlıyam.
   A) "Bolşevik yazı" B) "Mən torpağam"
   C) "Bu gün" D) "Bəxtiyar"
   E) "Çinar"

7. Sənətkarın bu kitabına toplanan əsərləri nəsrlə yazılmış hekayə, oçerk və povestdən ibarətdir:
   A) "İntiqam!.. İntiqam!"
   B) "Mən torpağam"
   C) "Çinar"
   D) "Qəzəb və məhəbbət"
   E) "Qanadlar"

8. Bu şeirlərdən birini R.Rza heca vəznində yazmışdır:
   A) "Mən torpağam" B) "Çinar"
   C) "Rüşvətxorlar mərsiyəsi" D) "Rənglər"
   E) "Bolşevik yazı"

9. R.Rzanın satirik yaradıcılığı ilə bağlı ***səhv fikir:***
   A) Onun "Nə deyim sənə", "Alicənabov dedi", "Yaman qonşu" satirik şeirləri hədəfinin konkretliyi ilə seçilir.
   B) "Qonşu paxıl olmasa" satirasında şair paxıllıq, bir-birini gözü götürməmək kimi hallara toxunmuşdur.
   C) R.Rzanın satirik şeirləri onun saxtakarlığa, ikiüzlülüyə etirazının təzahürü idi.
   D) "Rüşvətxorlar mərsiyəsi" satirasını əruz vəznində yazmışdır.
   E) "Bu gün" şeiri də satirik ruhda yazılmışdı.

10. Biri R.Rzanın satirik şeirləri sırasında ***verilə bilməz:***
   A) "Alicənabov dedi"
   B) "Yaman qonşu"
   C) "İnsan şəkli"
   D) "Nə deyim sənə"
   E) "Xanım"

C variantı

1. R.Rza bu satiralarından birində M.Ə.Sabir yolu ilə getmiş, onun bir misrasını olduğu kimi saxlamışdır:
   A) "Rüşvətxorlar mərsiyəsi" B) "Yaman qonşu"
   C) "Qonşu paxıl olmasa" D) "Xanım" E) "Mığmığalar"

2. *R.Rzanın bu satirası yaradıcılıq mühiti üçün səciyyəvi olan bir məsələyə həsr olunmuşdur. Şair belə halları yaradıcı insanların münasibətini zəhərləyən hal kimi qabardır və ona qəti etirazını bildirir.* Söhbət hansı əsərdən gedir?
   A) "Mığmığalar" B) "Xanım"
   C) "Qonşu paxıl olmasa" D) "Yaman qonşu" E) "Alicənabov dedi"

3. Hansı fikir ***səhvdir?***
   A) R.Rza poema yaradıcılığına 1930-cu illərdə başlamışdır.
   B) "Qızılgül olmayaydı" poeması ədəbiyyatımızda repressiyaya həsr olunmuş ən yaxşı əsərlərdən biridir.
   C) 1943-cü ildə nəzmlə yaxdığı "Vəfa" pyesi müharibə mövzusundadır.
   D) "Qəzəb və məhəbbət" nəsrlə yazılmış hekayə, bir povest və oçerklər toplusundan ibarətdir.
   E) R.Rza daha çox V.Mayakovskinin əsərlərini tərcümə etmişdir.

4. Bu əsərlərdən biri ədəbi növünə görə digərlərindən seçilir:
   A) "Vəfa" B) "Almaniya"
   C) "Lenin" D) "Min dörd yüz on səkkiz" E) "Qızılgül olmayaydı"

5. *"Birdən ... dilə gəldi, dedi: Bax,*
   Bu torpaqda dərindən kök salaraq,
   Hər tərəfə uzatmışam qolumu.
   Övladlarım bürümüş sağ-solumu.
   Verilmiş şeir parçasında buraxılmış nöqtələrin yerinə hansı söz yazılmalıdır?
   A) qovaq B) çinar C) palıd D) söyüd E) küknar

6. Verilmiş şeir parçası R.Rzanın hansı əsərindəndir?
   Meydan sənin,
   Söz sənin
   Sənə bu gün
   tələb verir
   Bu sosialist vətənin!
   A) "Bu gün" B) "Komsomolçular" C) "Rənglər"
   D) "Bolşevik yazı" E) "Çinar"

7. R.Rzanın 1930-cu illərdə beynəlxalq mövzuda yazdığı əsərlər içərisində biri ***səhv*** göstərilmişdir:
   A) "Madrid" B) "Həbəşistan" C) "Haray, dostlar"
   D) "Cəlladları durdur" E) "Min dörd yüz on səkkiz"

8. R.Rzanın "Rənglər" silsiləsi ilə bağlı fikirlərdən biri ***səhvdir:***
   A) Dünyanı, insan həyatını bütün rəngləri ilə vermək baxımından bu silsiləyə müraciət etdi.
   B) "Rənglər"də şair xalqımızın dilində, yaddaşında olan rəng yozumlarından böyük ustalıqla bəhrələndi.
   C) Şair bu silsilədə, eyni zamanda, rənglərin daha mürəkkəb, zəngin hislər, xatirələr doğurmaq imkanını da poetik dillə açıqlayır.
   D) Şair qara rəngin rəmzlərini açarkən folklor deyimlərini publisistik dillə izah edir.
   E) Bu silsilə R.Rza yaradıcılığının bir xüsusiyyətini – onun romantik düşüncələrinin M.Füzuli lirikası ilə bağlılığını da üzə çıxardı.

9. R.Rzanın dramaturgiyası haqqında fikirlərdən biri ***səhvdir:***
   A) Sənətkar dramatik növdə də qələmini sınamışdır.
   B) "Vəfa" pyesi müharibə dövrü ədəbiyyatımızın uğurlu əsərlərindəndir.
   C) Əsərdə müharibə dövrü adamlarının daxili, mənəvi aləmi Vəfa və Bahadır obrazları vasitəsilə göstərilmişdir.
   D) Əsər 1943-cü ildə Akademik Dram Teatrında tamaşaya qoyulmuşdur.
   E) "Vəfa" pyesi mənzum faciə janrındadır.

10. Hansı fikir ***səhvdir?***
   A) "Qızılgül olmayaydı" poeması M.Müşfiqin 60 illik yubileyi münasibətilə yazılmışdır.
   B) Şair bu poemada dəhşətli 1937-ci il hadisələrini, repressiyanın antihumanist mahiyyətini açıb göstərmişdir.
   C) Poema retro üslubunda yazılmışdır.
   D) Poemada Müşfiqin xalq tərəfindən çox sevildiyi, şeir məclislərində ona aludəliklə qulaq asıldığı xüsusi vurğulanır.
   E) Əsər başdan-başa kədərli notlar üzərində qurulmuşdur.

D variantı

1. R.Rza "Qızılgül olmayaydı" poemasında Müşfiqlə keçirdiyi günləri bizə necə təqdim edir? ***Biri səhvdir:***
   A) Müşfiqlə pəncərəsi döşəmədən bir qarış yuxarı, əl vuranda qapısı qulun kimi qışqıran ... evdə sübhədək oturub işləmələri
   B) M.Füzulini, A.Puşkini, X.Natəvanı, M.Ə.Sabiri birlikdə oxumaları, əsərlərinin təhlili
   C) M.Y.Lermontovun "Demon" əsərini birlikdə tərcümə etmələri
   D) Gəncəyə, Dilbərin ailəsinə birlikdə qonaq getmələri
   E) ruzilərinin dağlı çörəyi ilə Gəncə pendirinin olması

2. *Uzun zaman*
   qara şübhələr
   məni incitdi yaman.
   Lakin məntiqi nəticə birdi:
   Apardılar,
   yəqin, "müqəssir" idi.
   "Qızılgül olmayaydı" poemasından gətirilən bu misralarla bağlı düzgün fikri göstərin.
   A) Şairin dostuna inamını ifadə edir.
   B) Müəllifin öz yaradıcılığı ilə bağlı şübhələrini əks etdirir.
   C) Bu misralar 30-cu illərin insanlarındakı hakim psixologiyanın təzahürü idi.
   D) Şair o dövrün repressiyalarına etirazını ifadə edir.
   E) Bu misralarda "danosbazlar" ifşa edilir.

3. R.Rza "Qızılgül olmayaydı" poemasında XX əsrin 30-cu illərinin repressiyasına məruz qalmış bəzi görkəmli şəxsiyyətlərin də adını çəkir. Verilənlərdən biri ***səhv*** göstərilmişdir:
   A) Hüseyn Cavid
   B) Cuvarlı
   C) Həmid Sultanov
   D) Əhməd Cavad
   E) Seyid Hüseyn

4. *"Başımı qaldıranda,*
gözlərim birca anlıq
Gözlərinə sataşdı.
Elə bil, kimsə birdən
köhnə tanış kitabın
səhifəsini açdı... "

"Qızılgül olmayaydı" poemasındakı bu parçada bizə təqdim olunan kimdir?

A) Müşfiq B) Dilbər
C) R.Rzanın ömür-gün yoldaşı N.Rəfibəyli D) şairin anası
E) Müşfiqlə "Gənc işçi"də işlədiyi dostu

5. "Qızılgül olmayaydı" poeması ilə bağlı hansı fikir ***səhvdir?***

A) Əsər günlərin birində gecəyarı şairin qapısının döyülməsi, qarşısında üzünə illərin iztirabı çökmüş Müşfiqin qadını Dilbəri görməsi ilə başlayır.
B) Müəllif bu görüş səhnəsindən sonra müdhiş keçmişə boylanır və Müşfiqi gördüyü gündən onunla keçirdiyi anları əsərdə təqdim edir.
C) Əsərdə "Sabah görüşərik", – deyə ayrılan dostların bir daha görüşməmələri çox kədərli notlarla təsvir olunur.
D) R.Rza poemada Müşfiqlə yanaşı, Cavidə, Cavada, Seyid Hüseynə, Cuvarlıya ... qənim kəsilən siyasi mühiti də gözümüz önündə canlandırır.
E) Əsərdəki bütün hadisələr Müşfiqə, onunla keçən günlərə müraciətlə yazılmışdır.

6. "Qızılgül olmayaydı" poeması ilə bağlı düzgün fikirləri seçin.

1. Poemada Müşfiqlə bağlı xatirələr fonunda həm dövr, həm də müəllifin özü dayanır.
2. Əsərdə Müşfiqin həyatının ən ağrılı anlarından birinin anası ilə bağlı olması çox təsirli lövhələrlə təqdim edilir.
3. Əlində "Ölüm qərarı" yazaraq gəzən Səlim Petroviçlərin, Topuridzelərin, Markaryanların kefləri kök, damaqları çağ gəzmələri müəllifdə qəzəb hissi oyadır.
4. Əsərdə geniş epik lövhələr, zəngin obrazlar aləmi, onların daxili psixoloji aləminin açılması vahid bir xətt boyunca təqdim olunur.
5. Poema heca vəznində, səkkizlik formasında yazılmışdır.

A) 1, 2, 3 B) 4, 5 C) 1, 4, 5 D) 2, 4, 5 E) 1, 4

7. "Qızılgül olmayaydı" poemasında:
"Ona namərd silləsi kimi vurulan
imzalar içində mənim imzam olmadı...
Lakin necə sakit deyim ki,
Səsim gəldikcə bağırmadım.
Xalqı ədalətsiz bir hökmü pozmağa çağırmadım..."
deyən şair nə ilə azacıq təsəlli tapır?
A) Müşfiqin bəraət məhkəməsində çıxış etməsi ilə
B) Müşfiqin şəklini və kitablarını gizlətməməsi ilə
C) Müşfiqin əsərlərini toplayıb çap etdirməsi ilə
D) Müşfiqin yubileyinin keçirilməsində fəal iştirak etməsi ilə
E) Müşfiqin ailəsinə kömək etməsi ilə

8. R.Rza "Qızılgül olmayaydı" poemasında Müşfiqlə keçirdiyi bənzərsiz günlərdə şairi necə təqdim edir? ***Biri səhvdir:***
A) hər şeyə uşaq kimi inanan bir şəxs
B) hərdən saxta bir gülüşə də inanan şair
C) yetim kimi kövrək uşaq
D) şeirlərini oxuyanda bir kəlməsini də çaşmayan şair
E) hər sözə əhəmiyyət verməyən bir şəxs

9. R.Rza "Qızılgül olmayaydı" poemasında Müşfiqin obrazını daha çox hansı vasitə ilə verir?
A) Müşfiqin ayrıca obrazının geniş təsviri ilə
B) şairlə xəyali dialoqları ilə
C) Dilbərin sözləri ilə
D) müəllifin işarələri və ricətləri ilə
E) o dövr şəxsiyyətlərinin xatirələri ilə

10. "Qızılgül olmayaydı" poeması ilə bağlı verilənlərdən biri ***yanlışdır:***
A) Müşfiqin özünün ayrıca obrazı cəmi bir neçə epizodda görünür.
B) Şair retro üsulundan istifadə etmişdir.
C) Poemada daha çox Dilbərin təəssüratlarına yer ayrılmışdır.
D) Bəzi hallarda deklamasiya ruhu təsvirlərin detallarla dolğunlaşmasına mane olur.
E) Poemada 1930-cu illərin xofu, vahiməsi şairin öz həyəcanları, vahimələri timsalında detallaşdırılmışdır.

İlyas Əfəndiyev

(1914 – 1996)

İ.Əfəndiyev Azərbaycan dramaturgiyasında C.Cabbarlıdan sonra yeni bir mərhələ açan, nəsrimizdə, dramaturgiyamızda, teatrımızda lirik-psixoloji üslubun əsasını qoyan bir ədəbi şəxsiyyətdir. Onun hekayələri, romanları nəsrimizdə yeni bir istiqamətin başlanğıcıdır.

Həyatı

1914-cü ildə Füzuli rayonunda anadan olmuşdur. İ.Əfəndiyev kənd məktəbində təhsil almış, 1938-ci ildə Ali Pedaqoji İnstitutun qiyabi coğrafiya fakültəsini bitirmişdir. İ. Əfəndiyev kənd məktəbində işlədiyi dövrdə ədəbi yaradıcılığa ciddi maraq göstərir, ilk hekayələrini qələmə alır.

1939-cu ildə çap olunan "Kənddən məktublar" adlı ilk kitabında müəllifin real müşahidələrinin bədii əksi olan 5 hekayəsi toplanmışdı. 30-cu illərin Azərbaycan kəndində baş verən ictimai proseslər, tələtümlü hadisələr bu hekayələrin əsas mövzuları idi. Kövrək, poetik, incə lirizmi, şirin təhkiyəsi ilə diqqət çəkən bu hekayələr Azərbaycan nəsrinə yeni, istedadlı bir nasirin gəldiyini göstərirdi.

1945-ci ildə İ.Əfəndiyevin ikinci kitabı – "Aydınlıq gecələr" çapdan çıxdı. Bu kitabda toplanmış hekayələrdə arxa cəbhə insanlarının fədakar əməyi, saf duyğuları, iztirab və həyəcanları təsvir olunurdu.

50-ci illərdən başlayaraq İ.Əfənfiyev geniş oxucu kütləsinin, xüsusilə gənclərin sevimli yazıçısına çevrilir. Onun hər bir əsəri intizarla gözlənilir, maraqla oxunur.

İ.Əfənfiyev 1996-cı ildə vəfat etmişdir. Qəbri Fəxri xiyabandadır.

Yaradıcılığı

Romanları və povesti. İ.Əfəndiyevin ilk romanı **"Söyüdlü arx"** 1958-ci ildə çapdan çıxır. Romanın əsas mövzusunu 50-ci illər Azərbaycan kəndində baş verən ictimai dəyişikliklər, köhnəliklə yeniliyin mübarizəsi, insan taleləri təşkil edir. Əsərin baş qəhrəmanı Nuriyyə Teatr İnstitutunun aktyorluq fakültəsini bitirmişdir. İşləmək üçün onu kəndə göndərmişlər. Hadisələrin Nuriyyənin dilindən nəql edilməsi əsəri xüsusilə oxunaqlı etmişdi. Bu uğurlu təhkiyə üsulu oxucuya imkan verirdi ki, gənc qəhrəmanın könül dünyasına, mənəvi aləminə daha yaxından bələd olsun, onu qəlbində yaşatsın. Ucqar bir kənddə mədəniyyət işığı yandıran, gənclərin qəlbinə yol tapan bu nəcib təbiətli qız son nəticədə öz həyatını da qura bilir, həyat və sənət arzularına çatır. "Mənəviyyat aləmində ucada dayananlar gec-tez öz bəxtəvərliklərinə qovuşacaqlar" qənaəti romanın məntiqi nəticəsidir, başlıca ideyasıdır.

"Körpüsalanlar" (1960) romanı həm forma, həm də məzmun etibarilə İ.Əfəndiyevin yaradıcılığında yeni addım oldu.

İlk romanında olduğu kimi, müəllif bu romanda da maraqlı təhkiyə üsulu seçmişdir. Hadisələr əsərin əsas obrazları olan Səriyyə, Adil və Qəribcanın dilindən nəql olunur. Bir-birini tamamlayan bu hekayətlər oxucuya qəhrəmanların xarakterinə daha dərindən bələd olmağa imkan verir. Romanda olduqca ciddi əxlaqi-mənəvi problemlər qaldırılmış, maraqlı, orijinal obrazlar yaradılmışdır. Müəllifin əsas məqsədi oxucunu yeni bir düşüncə tərzinə yaxınlaşdırmaq, şəxsiyyət azadlığının, seçim azadlığının zəruriliyinə onu inandırmaq olmuşdur. Əsərin baş qəhrəmanı Səriyyə müəyyən hərəkətləri ilə (məsələn, kişilərə qoşulub ova getməsi, onlarla müxtəlif əyləncəli oyunlar oynaması, özü ərli qadın ola-ola buldozerçi Qəribcanı sevməsi və s.) oxucuda mübahisə doğursa da, bütövlükdə yaxşı qarşılanır və sevilir.

"Dağlar arxasında üç dost" (1963) romanında kənd həyatı, insan taleləri, mənəvi zənginlik, səmimi dostluq hisləri, ailə-məişət problemləri müasirlik baxımından əks etdirilir. Taleyin dağlar arxasında gətirib qovuşdurduğu gənclərin qəribə taleyini oxucu maraqla izləyir.

Əsər 60-cı illərdə ən çox oxunan romanlardan biri kimi Azərbaycan nəsrində layiqli yer tutmuşdur.

"Sarıköynəklə Valehin nağılı" (1976–1978) romanı XX əsrin 70-ci illərində cəmiyyətdə gedən proseslərin real əks-sədası idi. Əvvəlki romanlardan fərqli olaraq, hadisələrin cərəyan etdiyi məkan artıq daha mürəkkəb münasibətlərin mövcud olduğu şəhərdir. Mövzu seçimi həmişə çox uğurlu olan İ.Əfəndiyev bu romanda da geniş oxucu kütləsinin marağını təmin edə bilmiş, həyat materialı ilə zəngin olan hadisələri əsərə gətirməyi bacarmışdır. Romanın mövzusunu uşaq evində, məhrumiyyətlərlə böyümüş, lakin insanlığını itirməmiş iki gəncin – Valehlə Sarıköynəyin taleyi, sevgisi, acılı-şirinli həyat səhifələri təşkil edir. Mənəviyyatca zəngin olan bu gənclər həyatda həm xeyirxah, həm də bədxah insanlarla rastlaşır, şərəf, dəyanət, məhəbbət sınaqlarından çıxmalı olurlar. Lakin heç vaxt insanlıq simalarını itirmirlər.

Əsər güclü müasirlik duyğusu ilə yazılmışdır. 70-ci illərdə cəmiyyətdə gedən mənəvi aşınma, tənəzzül prosesləri, təbəqələşmə, harınlaşmış insanların mənəvi iflası romanda çox realistcəsinə göstərilmişdir.

İ.Əfəndiyevin folklordan bəhrələnmək bacarığı bu əsərdə daha qabarıqdır. Müasir mövzuda olan əsəri nağıl romantikasına uyğunlaşdırmaqla müəllif oxucu marağını təmin edə bilmişdi.

"Geriyə baxma, qoca" (1980) romanı Azərbaycan nəsrində yeni bir mərhələ oldu. Müəllif yaradıcılığında tez-tez istifadə etdiyi üsuldan bu əsərdə də məharətlə istifadə etdi. Hadisələr prototipi (proobrazı) müəllifin özünün olduğu Muradın dilindən nəql olunur. Əsər avtobioqrafik xarakter daşıyır. Təhkiyəçi uşaqlıq illərinə qayıdır, yaşadığı günləri, ayları, gördüyü hadisələri, duyduğu hisləri maraqlı bir dillə oxucuya danışır. Danışılan əhvalatlar Azərbaycan tarixinin mürəkkəb bir dövrünü əhatə edir. Cümhuriyyət dövrü, sovetlərin gəlməsi, kəskin ictimai toqquşmalar, təbəddülatlar, əyalətlərdə baş verən hadisələr inandırıcı bir dillə təsvir olunur. Romanda Bayram baba, Fatma qarı, Nuru, qaçaq Məşədi Təhməz, Xanmurad kimi maraqlı, təbii, canlı obrazlar yaradılmışdır.

İlk dəfə olaraq məhz bu romanda biz Azərbaycan Xalq Cümhuriyyətinin həqiqi simasını görə bilirik. Sovet ədəbiyyatı adlanan dönəmdə həmişə ilk müstəqil dövlətimiz haqqında həqiqətə uyğun olmayan təsvirlərə, böhtanlara yer verilirdi. İ.Əfəndiyev həmin dövrün hadisələrini doğru, düzgün, əsl yazıçı-vətəndaş cəsarəti ilə qələmə almışdır.

Romanın ən maraqlı cəhətlərindən biri də xalq məişətinin, elat-tərəkəmə tayfalarının yaşayış tərzinin, adət-ənənələrinin incə, obrazlı dillə təsvir edilməsidir.

"Üçatılan" (1981) povestini müəyyən mənada əvvəlki romanın davamı kimi düşünmək olar. Bu əsər də avtobioqrafik xarakter daşıyır. Bəzi obrazlar hər iki əsərdə iştirak edir. Hadisələrin baş verdiyi məkan və zaman da təxminən eynidir. Povestin qəhrəmanı dəli-dolu, qabağından yeməyən, mərd, igid bir cavan – çoban Ərşad olduqca təbii, maraqlı bir obrazdır. Povest Azərbaycan nəsrinin ən uğurlu nümunələrindən biridir.

İ.Əfəndiyevin nəsr əsərlərinin dili çox şairanə, romantik bir dildir. Onu "nəsrimizin şairi" adlandıranlar heç də səhv etməmişlər.

Dramaturgiyası. Bu sahədə İ.Əfəndiyevin ilk qələm təcrübəsi 40-cı illərin əvvəlində M.Hüseynlə birlikdə yazmış olduğu "İntizar" pyesidir. "İşıqlı yollar" (1947) pyesində Bakı neftçilərinin II Dünya müharibəsindən sonrakı dövrdə əməyi və mübarizəsi təsvir olunmuşdur. "Bahar suları" (1948) kənd həyatı, yeniliklə köhnəliyin mübarizəsi mövzusunda yazılmış pyesdir.

"Atayevlər ailəsi" (1954) dramı ailə-məişət mövzusunda yazılmışdır. "İşıqlı yollar" və "Bahar suları" dramlarından fərqli olaraq, bu əsərdə konflikt vardır. Düzdür, bu konflikt ailədədir, məhduddur, ancaq hadisələr bir ailə çərçivəsində cərəyan etsə də, cəmiyyətdə baş verən proseslərin əksi əsas diqqət mərkəzindədir. Xosrov və İldırım Atayevlər, Dilşad xanım kimi orijinal obrazlar pyesdə müəllif ideyasının açılmasına xidmət edirlər.

Dramatik növlə bağlı on illik fasilədən sonra (müəllif bu illər ərzində daha çox öz romanlarını yazmaqla məşğul olmuşdu). "Sən həmişə mənimləsən" (1964) əsəri ilə İ.Əfəndiyev dramaturgiyamızda lirik–psixoloji dram janrının ilk nümunəsini yaradır. Pyesin baş qəhrəmanları olan Nargilənin və Həsənzadənin xarakterlərini açmaq üçün müəllif psixoloji detallardan məharətlə istifadə edir. Həyatda yalnız acılıqlar, ağrılar görmüş, varlığına ümidsizlik, bədbinlik, inamsızlıq çökmüş Nargilə nə yaxşı ki məhz Həsənzadə kimi müdrik bir insana rast gəlir. Nargilənin can atdığı işıqlı səadət yolunu ona kamil bir insan olan Həsənzadə göstərir. Məhz Həsənzadənin təsiri ilə Nargilə mənəvi cəhətdən yetkinləşir, daha hislərinin yox, ağlının hökmü ilə hərəkət etməyə çalışır. Pyes zamanında böyük tamaşaçı məhəbbətini qazanan bir əsər kimi bu gün də aktuallığını saxlayır.

"Sən həmişə mənimləsən" dramı Azərbaycan ədəbiyyatı və teatrı üçün bir çox cəhətlərdən əlamətdar oldu:

1. Bu səhnə əsəri ilə Azərbaycan dramaturgiyasında lirik-psixoloji üslubun əsası qoyulmuş oldu.

2. Bu əsər ədəbiyyatın kommunist partiyasının, hakimiyyət orqanlarının sifarişi ilə qoyulmuş şablonlardan, amiranəlik üsulundan müəyyən mənada xilas olmasına gətirib çıxartdı.

3. Bu əsər, eləcə də ondan sonra bir-birinin ardınca yazılmış silsilə dram əsərləri – "Mənim günahım" (1967), "Unuda bilmirəm" (1968) və "Məhv olmuş gündəliklər" (1969) müasir teatrımızın da təzələnməsində, yalançı monumentallıqdan, ənənəçilikdən az-çox xilas olmasında əhəmiyyətli rol oynadı.

Sonrakı dövrdə, 70–80-ci illərdə İ.Əfəndiyev daha çox tarixi mövzularda əsərlər qələmə almışdır.

Belə pyeslərdən biri – 1971-ci ildə yazılmış "Mahnı dağlarda qaldı" pyesi həm oxucuların, həm də tamaşaçıların böyük rəğbətini qazandı.

Azərbaycanda Sovet hakimiyyəti qurulmasının ilk illərində baş verən hadisələr, sinfi çarpışmalar, ictimai toqquşmalar pyesin əsas məzmununu təşkil edirdi. Əsərdə Nicat, Böyük bəy, Şahnaz kimi obrazlar yaradılmışdı.

Tarixi mövzuların müasirlik baxımından işlənməsi müəllifin "Xurşidbanu Natəvan" (1980), "Şeyx Xiyabani" (1986), "Hökmdar və qızı" (1995) pyeslərində xüsusilə qabarıqdır. "Şeyx Xiyabani" ədəbiyyatımızda o taylı-bu taylı Azərbaycanın birliyi probleminə həsr olunmuş ilk dram əsəri idi.

Cənubi Azərbaycan mövzusu, doğma qardaşların ayrılıq nisgili bir motiv kimi İ.Əfəndiyevin "Unuda bilmirəm", "Məhv olmuş gündəliklər", "Büllur sarayda", "Tənha iydə ağacı" pyeslərində də vardır.

İ.Əfəndiyev "Qəribə oğlan" komediyasının da müəllifidir. Amma bu əsər, bir növ, çox ciddi komediyadır. Müəllif göstərir ki, nə qədər qeyri-adi olsa da, bu cəmiyyətdə (sovet sosialist cəmiyyətində) düzlük, səmimilik, açıq danışıq bir qəribəlik kimi görünür. Elə məhz bu cəhətlərinə görə də komediyanın baş qəhrəmanı Valeh "qəribə" oğlandır. Göründüyü kimi, müəllif bu yolla heç də tək-tək adamlardakı yox, bütöv cəmiyyətdəki mənəvi əyintiləri, deformasiyaları əks etdirmiş olurdu. Bu artıq öz dövrünə görə çox böyük cəsarət nümunəsi idi.

"Xurşidbanu Natəvan" (1980)

Pyes istər sənətkarlıq məziyyətlərinə, istərsə də mövzunun bədii həllinə, aktuallığına görə İ.Əfəndiyev yaradıcılığında xüsusi yer tutur.

Əsərin mövzusu XIX əsrdə yaşayıb–yaratmış gözəl şairə, nəcib və xeyirxah bir insan, xalq arasında "Xan qızı" kimi tanınan Xurşidbanu Natəvanın həyatından götürülmüşdür. Tarixi dram janrında qələmə alınmış bu pyes ilk dəfə 1985-ci ildə "Azərbaycan" jurnalında çap olunmuşdur.

Pyes iki hissədən, on beş şəkildən ibarətdir. Təsvir olunan hadisələr əvvəlcə Tiflisdə, daha sonralar Qarabağda, Şuşada, baş verir.

Müəllifin məqsədi heç də oxucunu Natəvanın həyat xronologiyası ilə tanış etmək deyildir. Əsas qayə Natəvanla bağlı problemlərə diqqət yetirmək, şəxsiyyətin xalqın həyatında, tarixi taleyində oynaya biləcəyi rolu nəzərə çarpdırmaq olmuşdur.

Bütün əsər boyu Natəvan bir bədii obraz kimi, eləcə də tarixi şəxsiyyət kimi oxucuya necə təqdim olunur?

1. Sənətə, sənətkara qiymət verən, incə ruhlu şairə.
2. Alovlu vətənpərvər, milli birlik ideyalarının carçısı.
3. Xalqına qırılmaz tellərlə bağlı olan, onun dərdlərini öz dərdi bilən və həll etməyə çalışan ictimai xadim.
4. Vətənin dirçəlişinə, inkişafına çalışan, məhz bu məqsədlə də Şuşaya su çəkdirən bir qurucu, Mil düzünə arx çəkdirən, körpülər qurduran bir şəxsiyyət.
5. İncə bir məhəbbətlə sevən həssas və duyğulu kübar xanım.
6. Xalqının mənafeyi naminə yüksək çinli çar məmurları ilə, İran şahzadəsi ilə döyüşən mübariz bir millət fədaisi.
7. Millətin gələcəyi naminə onun istedadlı balalarını oxudan, şairlərə, ədiblərə, incəsənət adamlarına qayğı göstərən milli qeyrətli ziyalı.
8. Onunla evlənmək istəməkdə İran şahzadəsinin xain niyyətlərini başa düşən, xalqının dilini, ədəbiyyatını, azad olma haqqını hər şeydən yüksək qiymətləndirən bir azərbaycanlı qadını.

Natəvan obrazı milli dramaturgiyamızın bütün mövcudluğu ərzində yaradılmış ən dolğun qadın obrazlarından biridir. Bu əsərdə ilk dəfə olaraq, tarixi dram qəhrəmanı kimi qadın obrazı götürülmüşdür.

Pyesdə Azərbaycanın birliyi, bütövlüyü problemi də diqqət mərkəzindədir. Əsərin müasirliyini təmin edən əsas amillərdən biri məhz budur. Natəvanın Cənubi Azərbaycandan Şuşaya pənah gətirmiş Seyid Hüseynlə ailə qurması sanki bu birliyin rəmzi kimi səslənir.

Pyesdə Natəvandan savayı, Mirzə Ruhullah, Seyid Hüseyn, Hidayət xan, Xasay xan, Daşdəmir, Bəyim, kor Eyvaz, Təhminə, Muradalı kimi müxtəlif taleli insanların maraqlı obrazları da yaradılmışdır.

Pyes güclü müasirlik duyğusu ilə yazılmışdır. Xüsusilə əsərdəki Ter-Vahan surəti ilə müəllif erməni simasızlığını, onun törədəcəyi fəlakət və fitnəkarlığı sanki əvvəlcədən görürdü.

Müəllif pyesdə istər rus çarizminin, istərsə də İran-fars şovinizminin Azərbaycanla bağlı məkrli, ikiüzlü siyasətini çox məharətlə göstərə bilmişdir.

"Xurşudbanu Natəvan" pyesi Azərbaycan dramaturgiyasında tarixi dram janrının ən yaxşı nümunələrindən biri kimi İ.Əfəndiyev yaradıcılığının uğuru sayıla bilər.

"Xurşidbanu Natəvan" pyesinin qısa məzmunu

Əsər iki hissə, on beş şəkildən ibarətdir.

Hadisələr Tiflisdə, Qafqaz canişinin sarayında baş tutan görüşlə başlanır. Canişin Qarabağ xanlığının varisi olan gənc şairəni hörmət və diqqətlə qəbul edir. Ona mülklərinin bir hissəsinin qaytarılmasında yardım edəcəyini vəd edir. Lakin Xurşidbanu qətiyyət və cəsarətlə bütün mülklərin qaytarılmasını tələb edir. Bu görüşü təşkil edən, canişinin yaveri dağıstanlı gənc Xasay xandır. Gənclərin ürəyində bir-birinə qarşı xoş hislər yaranır. Xurşidbanu xanım Xasayı Şuşaya qonaq dəvət edir. Hər şeydə imperiya maraqlarını güdən canişin də Xasay xana bu izdivacın hər cəhətdən sərfəli olacağına işarə edir.

Sonrakı hadisələr Şuşada baş verir. Zahirən xoşbəxt bir ailənin təməli qoyulur. Lakin istər Natəvanın mənsub olduğu cəmiyyət, istərsə də Xasay

xanın ailəsi bu izdivacı uğursuz hesab edir. Hər iki gənc öz xalqının tarixi taleyini düşünür və bu barədə söhbətlər edir. Bu arada Cənubi Azərbaycandan qaçıb Şuşaya pənah gətirən Seyid Hüseyn adlı bir gənc Xurşidbanu ilə görüşür və ona sığınacaq verilməsini xahiş edir. Xan qızı bu gəncin Şuşada yaşamasına icazə verir və yeni açdıqları məktəbdə müəllim kimi çalışmasını tövsiyə edir. Seyid Hüseyn Muradalıya başına gələnləri danışır. Onları xüsusilə İran şahzadəsinin Şuşaya gəlməsi, rus çarının ona bu şəhərdə yaşamaq üçün icazə verməsi narahat edir.

Xan qızının ailəsində vəziyyət get-gedə gərginləşir. Xasay xan Şuşada təhqirlərə, həcvlərə məruz qalır. O, demək olar ki, tənha qalır. Hətta Xan qızına olan məhəbbəti də bu tənhalığı unutdura, bu boşluğu doldura bilmir. Xasay xan Xurşidbanuya buralardan uzaqlaşmağı, Peterburqa, Parisə getməyi təklif edir. Belə gərgin vaxtda Dağıstandan Xasay xanın əmisi qoca knyaz gəlir və kəskin şəkildə ondan vətənə qayıtmağı tələb edir. Natəvan üçün çox çətin olsa da, Xasay xanın vəziyyətini həssaslıqla başa düşür, onun vətənə qayıtmaq qərarını dəyanətlə qarşılayır.

Beləliklə, Xurşidbanu ilə Xasay xanın ömür yolları həmişəlik ayrılmalı olur.

Qəlbinə vurulmuş yaraları unutmaq üçün Xurşidbanu xeyriyyə işləri ilə, ictimai işlərlə məşğul olur. "Məclisi-üns"ün fəaliyyətində yaxından iştirak edir. Xurşidbanunun Şuşaya su çəkdirməsi şəhərdə toy-bayrama çevrilir. Mil düzünə arx vasitəsilə su çıxarılması, camaatın güzəranının yaxşılaşdırılmasına qərar verilir.

Çar hökumətindən siyasi sığınacaq almış İran şahzadəsi Xurşidbanunun görüşünə gəlir. Onların arasında çox kəskin bir söhbət olur. Azərbaycan xalqına həqarətlə baxan şahzadə Xan qızının kəskin və məntiqli cavabları qarşısında aciz qalaraq susmalı olur. Mirzə Ruhullah çox qəzəblənmiş Xan qızı Xurşidbanunu sakitləşdirir.

İran şahzadəsinin vəziri Məliküldövlə Xurşidbanunun görüşünə gəlir, söhbət əsnasında şahzadənin evlənmək təklifini Xan qızına çatdırır. Lakin Banu şahzadənin təklifini rədd edir.

Bu arada Xurşidbanunun öz əmisi oğlu Hidayət xanla kəskin mübahisələri olur. Mil düzünə arx çəkilməsinə mane olmaq istəyən Hidayət xan öz nalayiq hərəkətləri ilə Xurşidbanunu narahat edir.

Xurşidbanu bütün söz-söhbətlərə, böhtanlara son qoymaq üçün müəllimi Mirzə Ruhullahın məsləhətini qəbul edərək ər seçmək məcburiyyətində qalır. Seyid Hüseynin ona gizli məhəbbətini hiss edən Xurşidbanu onu özünə ər seçmək qərarına gəlir və Seyid Hüseynə ərə gedir.

Hadisələr daha da gərginləşir. İran şahzadəsi tərəfindən şərəfi təhqir olunmuş, alçaldılmış Eyvaz (kor çalğıçı) şəhərbəşəhər onun ardınca gəzərək, nəhayət, onu Şuşada qətlə yetirir. Bu qətlə siyasi don geydirərək "İran hökuməti ilə çar hökumətinin münasibətlərini pozmaq, ara vurmaq istəyənlərin təxribatı" adlandırırlar, Seyid Hüseyni həbs edirlər. Natəvan bunu çox qəzəb və təəccüblə qarşılayır. Lakin vicdanlı bir rus ziyalısı olan Mixaylovun dedikləri ona həqiqəti başa düşməyə imkan verir. Sən demə, Zahir Fədanın timsalında "sapı özümüzdən olan baltaların" satqınlığı buna səbəb olubmuş. Xurşidbanu İran şahzadəsinin qətli ilə əlaqədar Şuşaya gəlmiş çar canişini ilə görüşür, günahsız həbs edilmiş insanların azad olunmasına çalışır. Ədalətsizlikdən, haqsızlıqdan bezmiş Xan qızı heç olmazsa özünün hərəkətləri ilə ədaləti bərpa etməyə çalışır. Həmişə əzilənlərin tərəfində olan Xurşidbanu son qətiyyətli addımını atır. O, bütün mülklərindən, torpaqlarından əl çəkir, bunları əsl sahibləri olan kəndlilərə verir. Belə etməklə o, bir daha xalqın, əzilənlərin, zəhmətkeş kütlənin yanında olduğunu nümayiş etdirir.

Xan qızının bu təşəbbüsləri istismarçı təbəqənin təbii qəzəbinə səbəb olur. Əmisi oğlu Hidayət xan böyük bir təşvişlə onu fikrindən döndərməyə çalışır, lakin səyləri nəticəsiz qalır.

Natəvan sürgündə olan Xasay xandan məktub alır. Məktub oxunarkən Xasay xanın surəti görünür. İlk sevgisi puç olmuş, ailəsi dağılmış Xasay xanın sonralar da həyatda özünə yer tapa bilmədiyi aydın olur. Milli satqınların böhtanlarına məruz qalıb sürgünlərə göndərilən Xasay xan ümidsizliyə, bədbinliyə qapılır, intihar edir.

Xan qızı Xurşidbanu mənsub olduğu kübar cəmiyyətinə "əlvida" deyərək xalqına sığınır. Daşdəmir və Bəyimi azad edir. Özü demişkən, gələcək əzablı yollarda xalqı ilə birlikdə getməyə qərar verir.

O, son sözündə inamla bildirir ki, xalqı bu əzablı, uçurumlu yolların sonunda öz milli birliyini, müstəqilliyini, azadlığını tapmış azad Azərbaycan gözləyir.

A variantı

1. İ.Əfəndiyevin qadın qəhrəmanları xatırladır:
   A) S.Vurğunun qadın qəhrəmanlarını
   B) N.Gəncəvinin qadın qəhrəmanlarını
   C) C.Cabbarlının qadın obrazlarını
   D) R.Rzanın əsərlərindəki qadın obrazlarını
   E) klassik poemalardakı qadın qəhrəmanlarını

2. Bu iki dram əsərində konfliktsizlik nəzəriyyəsinin prinsipləri özünü göstərirdi:
   1. "Atayevlər ailəsi"
   2. "İşıqlı yollarda"
   3. "Sən həmişə mənimləsən"
   4. "Şeyx Xiyabani"
   5. "Bahar suları"
   6. "Məhv olmuş gündəliklər"
   A) 1, 3 B) 2, 4 C) 1, 6 D) 2, 5 E) 3, 6

3. İ.Əfəndiyevin yaradıcılığı üçün ***əlamətdar deyil:***
   A) nikbinlik və ümid
   B) həyatilik və konkretlik
   C) bədbinlik və küskünlük
   D) tarixi mövzulara müraciət
   E) realistcəsinə təsvir

4. Bu əsərlərin hansında elat-tərəkəmə tayfalarının həyat tərzi təsvir olunur?
   A) "Söyüdlü arx" romanında
   B) "Bahar suları" pyesində
   C) "Üçatılan" povestində
   D) "Qarı dağı" hekayəsində
   E) "Dağlar arasında üç dost" romanında

5. Obrazların mənəvi iztirablarının lirik və şairanə bir dillə qələmə alındığı hekayə:
   A) "Durnanın günahı" B) "Kiçik bir poema"
   C) "Qoca tarını çaldı" D) "Sən ey qadir məhəbbət"
   E) "Qarı dağı"

6. Hekayələrdən birinin müəllifi İ.Əfəndiyev ***deyil:***
   A) "Sən ey qadir məhəbbət" B) "Qarı dağı"
   C) "Durnanın günahı" D) "Həkimin nağılı"
   E) "Qəhrəman ilə bülbülün nağılı"

7. 1958-ci ildə yazılmışdır:
   A) "Bahar suları" pyesi B) "Üçatılan" povesti
   C) "Sən həmişə mənimləsən" pyesi D) "Atayevlər ailəsi" pyesi
   E) "Söyüdlü arx" romanı

8. "Körpüsalanlar" romanında təhkiyə kimin dilindəndir?
   A) yalnız Səriyyənin
   B) Səriyyənin, Adilin, Qəribcanın
   C) Səriyyə və Qəribcanın
   D) müəllifin
   E) hadisələrin şahidi olan başqa bir şəxsin

9. İ.Əfəndiyevin bu pyesi ilə dramaturgiyamıza lirik-psixoloji üslub gəldi:
   A) "İşıqlı yollar"
   B) "Bahar suları"
   C) "Atayevlər ailəsi"
   D) "Sən həmişə mənimləsən"
   E) "İntizar"

10. İ.Əfəndiyevin tarixi pyeslərini göstərin.
   1. "Mahnı dağlarda qaldı" 2. "Şeyx Xiyabani"
   3. "Atayevlər ailəsi" 4. "Məhv olmuş gündəliklər"
   5. "Büllur sarayda" 6. "Hökmdar və qızı"
   7. "Xurşidbanu Natəvan"
   A) 2, 5, 6 B) 1, 2, 6, 7 C) 1, 4, 5
   D) 3, 6, 7 E) 1, 3, 4, 6

B variantı

1. Əsərlərdən biri tarixi mövzudadır:
   A) "Mənim günahım"
   B) "Dağlar arxasında üç dost"
   C) "Mahnı dağlarda qaldı"
   D) "Büllur sarayda"
   E) "Atayevlər ailəsi"

2. 1960-cı illər ədəbiyyatlında xüsusi mərhələ açan əsər:
   A) "Körpüsalanlar"
   B) "Qəribə oğlan"
   C) "Büllur sarayda"
   D) "Sən həmişə mənimləsən"
   E) "Məhv olmuş gündəliklər"

3. Hansı əsərdə Cənubi Azərbaycan motivləri ***yoxdur?***
   A) "Xurşidbanu Natəvan"
   B) "Büllur sarayda"
   C) "Unuda bilmirəm"
   D) "Şeyx Xiyabani"
   E) "Sən həmişə mənimləsən"

4. Nargilə və Həsənzadə hansı əsərin qəhrəmanlarıdır?
   A) "Sən həmişə mənimləsən"
   B) "Mənim günahım"
   C) "Məhv olmuş gündəliklər"
   D) "Mahnı dağlarda qaldı"
   E) "Tənha iydə ağacı"

5. İ.Əfəndiyev bu dramlarından birində qadın surətini tarixi dramın baş qəhrəmanı kimi götürmüşdür:
   A) "Mahnı dağlarda qaldı"
   B) "Şeyx Xiyabani"
   C) "Xurşidbanu Natəvan"
   D) "Məhv olmuş gündəliklər"
   E) "Unuda bilmirəm"

6. *"Mən azadlığın qüdrətinə inanıram"* ifadəsi İ.Əfəndiyevin hansı obrazına aiddir?
   A) Valehə
   B) Xiyabaniyə
   C) Nuriyyəyə
   D) Mirzə Ruhullaha
   E) Natəvana

7. İ.Əfəndiyevin bu əsərlərinin birində meşşan qadın obrazı var:
   A) "Mənim günahım"
   B) "Körpüsalanlar"
   C) "Atayevlər ailəsi"
   D) "Bahar suları"
   E) "Söyüdlü arx"

8. İ.Əfəndiyevin avtobioqrafik səciyyəli nəsr əsərləri:
   1. "Söyüdlü arx"
   2. "Üçatılan"
   3. "Körpüsalanlar"
   4. "Dağlar arxasında üç dost"
   5. "Valehlə Sarıköynəyin nağılı"
   6. "Geriyə baxma, qoca"
   A) 2, 6 B) 1, 4, 6 C) 2, 3, 4 D) 1, 5 E) 3, 5

9. Azərbaycanın birliyi probleminə həsr olunmuş ilk dram əsəri:
   A) "Xurşidbanu Natəvan"
   B) "Şeyx Xiyabani"
   C) "Məhv olmuş gündəliklər"
   D) "Unuda bilmirəm"
   E) "Sən həmişə mənimləsən"

10. Bu əsərdə hadisələr daha çox baş qəhrəmanın – Səriyyənin dili ilə verilir:
    A) "Söyüdlü arx" B) "Valehlə Sarıköynəyin nağılı"
    C) "Körpüsalanlar" D) "Geriyə baxma, qoca"
    E) "Üçatılan"

İsmayıl Şıxlı

(1919 – 1995)

Öz hekayə və romanları, xüsusən "Dəli Kür" romanı ilə İsmayıl Şıxlı Azərbaycan bədii nəsrinin tarixində bir hadisədir. Onun romanlarının, hekayələrinin baş qəhrəmanı həyatın özüdür; bu həyatın həm adiliyi, həm də qeyri-adiliyidir.

İ.Şıxlı Azərbaycan milli azadlıq hərəkatının mücahidi idi.

Həyatı

İsmayıl Şıxlı ilk təhsilini kənd məktəbində almış, daha sonra Qazax Pedaqoji Texnikumunda oxumuşdur. Böyük şair S.Vurğunun tövsiyəsi ilə 1937-ci ildə Dövlət Pedaqoji İnstitutunun ədəbiyyat fakültəsinə daxil olmuşdur. Onun tələbəlik illəri qanlı repressiya illərinə təsadüf edir. Günahsız insanların, əsl milli ziyalıların, əqidəli şair və yazıçıların məhv edildiyi o dəhşətli dövrün vahiməsi belə İ.Şıxlını ədəbiyyata, yaradıcılığa gedən yoldan çəkindirməmişdir. Əksinə, o məhz həmin illərdə ilk əsərlərini – S.Vurğunun, xalq ədəbiyyatının təsiri duyulan şeirlərini qələmə almışdır. Mətbuatda çap olunan ilk əsəri şeir olmuşdur ("Quşlar", 1938-ci il, "Ədəbiyyat" qəzeti,).

İ.Şıxlı sonralar bədii nəsrə meyil etmiş, hekayələr yazmışdır. Görkəmli yazıçı və tənqidçi M.Hüseynin tövsiyələri gənc nasirin yaradıcılığında böyük rol oynamışdır.

Ali məktəbi bitirib kənd məktəbində bir qədər işlədikdən sonra İ.Şıxlı 1942-ci ildə orduya çağırılır. Müharibənin sonuna kimi döyüşən orduda xidmət edir. Qanlı-qadalı müharibə cəbhələrində də yaradıcılığını əsgər gündəlikləri şəklində davam etdirir.

Müharibədən sonra İ.Şıxlı aspiranturada təhsil almış, oranı bitirdikdən sonra Azərbaycan Pedaqoji İnstitutunda müəllim işləmişdir. O, elmi-

pedaqoji fəaliyyətini təqaüdə çıxana qədər həmin ali məktəbdə davam etdirmişdir.

Müharibə dəhşətlərini əks etdirən ilk hekayəsi – "Həkimin nağılı" 1947-ci ildə "İnqilab və mədəniyyət" jurnalında çap olunur.

İ.Şıxlının ilk romanı "Ayrılan yollar" 1957-ci ildə çap olunur.

İlk romanının uğurundan ruhlanan İ.Şıxlı 1957-ci ildən başlayaraq ən məşhur əsəri olan "Dəli Kür" romanı üzərində işləyir və əsəri 1966-cı ildə tamamlayır. Roman oxucular tərəfindən çox böyük maraqla qarşılanır.

İ.Şıxlı müxtəlif illərdə Yazıçılar İttifaqının katibi, baş katibi, "Azərbaycan" jurnalının baş redaktoru olmuşdur.

İ.Şıxlı 1995-ci ildə vəfat etmiş, Fəxri xiyabanda dəfn olunmuşdur.

Kitabları:

"Ayrılan yollar" (1957), "Dəli Kür" (1966). "Mənim rəqibim" (1975), "Məni itirməyin" (1984), "Daim axtarışda" (1988), "Namərd gülləsi" (1991), "Ölüləri qəbiristanda basdırın" (1992), "Ölən dünyam" (1995).

Yaradıcılığı

İ.Şıxlı ədəbiyyat tariximizdə daha çox nasir kimi tanınır. Nəsr yaradıcılığına hekayə janrı ilə başlamışdır. Yaradıcılığının sonrakı mərhələlərində də bu janra müraciət etmişdir. Onun "Həkimin nağılı", "Kerç sularında" hekayələri müharibə mövzusundadır. İ.Şıxlı "Sənə aşlanım deyək", "Məleykə xala" hekayələrində maraqlı insan obrazları və taleləri yaratmışdır. Avtobioqrafik səviyyəli "Mənim rəqibim" hekayəsində Azərbaycan gəncliyinin mənəvi-əxlaqi dəyərlərə sadiqliyi ifadə olunmuşdur. Azərbaycanın müstəqilliyi uğrunda ümumxalq hərəkatı illərində yazılmış "Sapı özümüzdəndir" hekayəsində əfsanə mövzusu və motivləri vasitəsilə dövrün müasir və mürəkkəb məsələlərinə öz münasibətini bildirmişdir.

"Cəbhə gündəlikləri" Azərbaycan ədəbiyyatında böyük Nizamidən başlamış bu günə qədər müharibə mövzusunda çox əsərlər yazılmışdır. H.Cavidin "İblis", M.Hadinin "Əlvahi-intibah", Ə.Əbülhəsənin "Müharibə", S.Vurğunun "İnsan", R.Rzanın "Leytenant Bayramın

gündəlikləri" və sair əsərlərdə müharibə dəhşətləri, onun törətdiyi bəlalar geniş təsvirini tapmışdır. Bu silsilədə İ.Şıxlının "Cəbhə gündəlikləri" əhəmiyyətli yer tutur. Önəmli cəhət budur ki, müəllif təsvir etdiyi müharibə səhnələrini, dəhşətli mənzərələri şəxsən özü yaşamış, görmüş, ağrı-acılarını dadmışdır. Əsərin reallığı və inandırıcılığı, təsir gücü də məhz bununla bağlıdır. Müəllif ordu həyatının və döyüşlərin ən kiçik təfərrüatlarını belə gözdən qaçırmamış, canlı, inandırıcı şəkildə təsvir etmişdir.

Əsərin baş qəhrəmanı döyüşməyə, öldürməyə, ölməyə məhkum edilmiş əsgərdir. Bu əsgər torpağını, vətənini, anasını, yəni onun üçün müqəddəs nə varsa, hamısını müdafiəyə qalxmış, ölməyə və öldürməyə hazır olan insandır. Həmin əsgərin prototipi də elə müəllifin özüdür, ölümlə, dəhşətlə 3 il üz-üzə qalaraq qələbəyə qədər vuruşan İ.Şıxlıdır.

Gündəliklərdə ilk qeyd 18.10.42-ci ilə, son qeyd isə 4.11.45-ci ilə aiddir. Üçillik bir cəbhə həyatı, əzablı müharibə yolları əsərdə 192 epizodda təsvir olunur. Hər epizodda müharibənin qanlı nəfəsi duyulur, sönən talelər, dağılan tifaqlar göz önünə gəlir. Əsərin qiymətli cəhəti məhz onun insanlarda bu dəhşətli bəlaya – müharibəyə nifrət oyatmasında, bəşəriyyəti sülhə səsləməsindədir.

"Ayrılan yollar" (1957). Bu romanda 1950-ci illər Azərbaycan kəndinin real mənzərələri, müxtəlif taleli insanların həyatı, düşüncələri, mübarizəsi təsvir olunur. Müəllif həmin illərin çox mürəkkəb və ziddiyyətli hadisələrini məharətlə qələmə almışdır. Repressiya dövrünün vahimə və dəhşətlərinin hələ də qaldığı bu dövrdə insanların sanki ayılmağa başlamaları, yeni dövrün tələblərini duymaları, cəsarətlə yeni həyata atılmaları romanın mərkəzində duran əsas hadisələrdir.

Əsərin adı rəmzi xarakter daşıyır və suallara səbəb olur: Yolları ayrılanlar kimlərdir? Nə üçün yollarını ayırırlar, hansı yol düzgün yoldur, bu yollar kimləri haralara aparacaq?

İki yol görünür.

Birinci yol – hədə-qorxu, vahimə, amansız cəza metodlarının hökmran olduğu, insan talelərinin sındırıldığı, azad düşüncənin boğulduğu, vicdanlı insanların sürgünlərdə, zindanlarda çürüdüldüyü dövrün davamı olan yol.

Bu yolun "yolçuları" kolxoz sədri Kosaoğlu və əlaltıları, onları yuxarı dairələrdə himayə edən rayon prokuroru Əsədov və onun kimilərdir.

İkinci yol – köləlik əhvali-ruhiyyəsindən qurtarmaq, azad olmaq, sərbəst düşünmək, adamlarda sabahkı günə ümid, inam yaratmaq, qorxunu, vahiməni öldürmək yoludur.

Bu yolun "yolçuları" köhnə dövranın ətalətindən, köləlik əhvali-ruhiyyəsindən can qurtarmağa, azad düşünməyə, çalışmağa can atan insanlar – kolxozun aqronomu İmran, ona dəstək olan Zeynəb, Kərim kişi və başqalarıdır.

Seçim qarşısında qalan müasir insan bu iki yoldan birini – ikincisini seçməlidir.

Beləliklə, köhnəliklə yeniliyin, keçmişlə gələcəyin, xeyirlə şərin mübarizəsi romanın əsas konfliktini təşkil edir. Əsərdə sosial ziddiyyətlər cəsarətlə verilir və həmin dövrün insanlarına bir növ düzgün yolun hansı yol olduğu göstərilir.

"Ölən dünyam" (1995) İ.Şıxlının sonuncu romanıdır. Bu romanda İ.Şıxlı 50 illik yaradıcılıq yoluna yekun vurmuşdur. Əsəri özü yazmağa başlasa da, sonradan ağır xəstəliyin fəsadı nəticəsində gözləri tutulduğu üçün romanın əksər hissəsini diqtə etmək məcburiyyətində qaldı, bu işi həyat yoldaşı Ümidə xanım gördü. Romandakı hadisələr yaxın keçmişdə – Sovet hakimiyyətinin yeni qurulduğu 1920-30-cu illərdə Azərbaycan kəndində cərəyan edir. İ.Şıxlı əsərdə realist boyalarla sovet rejiminin milli-mənəvi dəyərlərimizə, şəxsiyyət azadlığına və insan ləyaqətinə zidd mürtəce mahiyyətini göstərmişdir. Romanda bir sıra yaddaqalan, fərdi xarakteri ilə seçilən obrazlar yaradılmışdır. Əsərin əsas qəhrəmanlarından olan Ömər koxa cəsarəti, düzlüyü ilə, mərdliyin, kişiliyin təmsilçisi olması ilə "Dəli Kür" romanındakı Cahandar ağa surətini xatırladır.

"Dəli Kür" romanı

Bu roman nəinki İ.Şıxlı yaradıcılığının zirvəsidir, eləcə də Azərbaycan nəsrinin ən uğurlu nümunələrindən biridir. Müəllifin 10 illik gərgin yaradıcılıq axtarışlarının bəhrəsi olan bu roman 1966-cı ildə tamam-

lanmışdır. Böyük oxucu rəğbəti qazanmış bu roman əsasında sonralar bədii film də çəkilmişdir.

Janrına görə tarixi roman kimi düşünülsə də, əsərdə ailə-məişət məsələləri, xalqın adət-ənənələrinin təsviri də geniş yer tutur. Romanın süjeti və kompozisiyası çox məharətlə qurulmuşdur. İlk epizodlardan artıq oxucu hadisələrin axarına düşür və sona qədər intizarla qəhrəmanların taleyini izləyir.

Romanın qısa məzmunu. Hadisələr tipik bir Azərbaycan kəndi olan Göytəpədə baş verir. Kəndin ağası nüfuzlu bir mülkədar, ad-san, hörmət sahibi olan Cahandar ağa təsadüfən gördüyü Mələyi zorla qaçıraraq evinə gətirir. Bu qadın başqasının – Allahyarın kəbinli arvadıdır. Əslində özünü qeyrətli sayan, başqalarından da bunu gözləyən və tələb edən Cahandar ağanın bu hərəkəti nə qeyrət anlayışına, nə də müsəlmançılığa yaraşan bir işdir. Daha sonra xoşagəlməz hadisələr silsiləsi başlayır. Ailəyə dəhşətli nifaq düşür. Xanımlıq, analıq, qadınlıq heysiyyəti təhqir olunmuş Zərnigar xanım – Cahandar ağanın birinci arvadı açıq-aşkar olmasa da, narazılığını bildirir, anasının tərəfində duran Şamxal atası ilə toqquşur və küsüb evdən gedir. Cahandar ağaya nüfuz savaşında uduzan Molla Sadıq intiqam hissi ilə yanan Allahyarı qızışdırır, onun əli ilə düşmənini aradan götürməyə çalışır. Cahandar ağanı alçaltmaq üçün atı Qəmərin yalı, quyruğu qırxılır, bacısı Şahnigar tovlanıb mürid məclisinə – Molla Sadığın "meyxanası"na aparılır, qızı Salatını qaçırmağa cəhd olunur. Cahandar ağa sevimli atını güllə ilə vurur, ürəyinin bir parçası qədər sevdiyi bacısını Kürdə boğur. Bunlar azmış kimi, çar hökumətinin məmurları ilə konflikt baş verir. Dədə-baba qoruğu əlindən alınan Cahandar ağa rus kazakları ilə çarpışmada həlak olur. Əsərin finalı çox mənalıdır. Cahandar ağa kazakların əlinə keçməsin deyə, ona ana qucağı qədər əziz olan Kürün sularına qərq olur, ölümünü də, əbədiyyətini də dəli Kürdə, ana Kürdə tapır.

Romanda müasirlik və yeniliklər. Roman güclü müasirlik duyğusu ilə yazılmışdır. Əsərdə qoyulan bir çox problemlər yaxın keçmişin hadisələri ilə səsləşir.

İ.Şıxlı sanki hiss etmişdi ki, az sonra, yəni 80-ci illərin sonu, 90-cı illərin əvvəllərində xalqımız, onun azadlıq mücadiləsi, torpaq

təəssübkeşliyi sınağa çəkiləcək. Müdrik yazıçı "Dəli Kür"də uzaqgörənliklə xalqı xəbərdar edirdi ki, Vətənin, torpağın, xalqın taleyi həll edilən zamanda milli birlik olmalıdır, iqtidar-müxalifət, tayfabazlıq, yerliçilik söhbəti olmamalıdır. Əsərdə biz bunun canlı nümunəsini görürük. Rus məmurları ilə toqquşmada, torpaq söhbəti araya gələndə Cahandar ağa ilə bir sırada sadə rəiyyəti də, hətta düşməni olan Molla Sadığı da görürük. Onlar qətiyyətlə "torpaq bizim dədə-babamızındır, heç kimə də vermərik" deyirlər.

Milli birlik ideyasının xalqın tarixi taleyində həlledici olması əsərdə bir daha bədii həllini tapır.

Əsərdə Azərbaycan ədəbiyyatının sovet dönəmi üçün həqiqi mənada yeniliklər sayıla biləcək cəhətlər hansılardır?

1. Demək olar ki, ilk dəfə bu romanda zəhmətkeş xalqın nümayəndəsi, yəni fəhlə, kəndli, çoban, muzdur deyil, o dövrün təbirincə desək, istismarçı təbəqənin nümayəndəsi olan ağa, mülkədar obrazı daha çox müsbət planda, rəğbətlə təsvir edilib. İ.Şıxlı cəsarətlə bütün qadağaları kənara qoymuş, əsərin baş qəhrəmanı olaraq, Cahandar ağa kimi parlaq və dolğun bir obraz yaratmışdır.

2. Azərbaycanın ictimai, fəlsəfi və ədəbi fikir tarixində önəmli yer tutan sufizm, müridizm hərəkatının bədii təsvirini də ilk dəfə bu əsərdə görürük. Romanda sufizmin nəqşibəndəlik təriqətinin ayin və mərasimlərinin təsviri də oxucu üçün maraqlıdır.

3. Maarifçilik hərəkatının, onun görkəmli nümayəndələrinin, Azərbaycan xalqının maariflənməsində böyük rolu olmuş Qori Müəllimlər Seminariyasının fəaliyyəti də ilk dəfə bu romanda ətraflı təsvir olunmuşdur.

4. Romanda həmçinin rus monarxiya siyasətinin ən iyrənc cəhətləri – işğalçılıq, müstəmləkəçilik, şovinizm, digər xalqlara, xüsusilə türk-müsəlman xalqlarına "yuxarıdan aşağı" baxmaq, özlərinin köləsi hesab etmək niyyətləri cəsarətlə ifşa edilmişdir.

5. Sovet dönəmində keçirilməsi məhdudlaşdırılmış milli bayramın – Novruz bayramının, onunla bağlı adət-ənənələrin, mərasimlərin geniş təsviri də romanın məziyyətlərindəndir.

Cahandar ağa obrazı. Ədəbiyyatımızın bütün tarixi ərzində yaradılmış ən əzəmətli, ən dolğun obrazlardan biridir. Xarakteri etibarilə ziddiyyətli bir insan olan Cahandar ağa zəhmli, sərt, yeri gələndə qəddar, yeri gələndə incə hislərdən məhrum olmayan bir şəxsdir. Bu baxımdan Cahandar ağa müəyyən dərəcədə Nadir şah, Rüstəm bəy, Gəray bəy kimi əzəmətli obrazlarla yanaşı dayanır. Müəllif Cahandar ağanı mükəmməl obraz səviyyəsinə qaldırmağa nail olmuşdur. Əsər boyu yazıçının bu obraza rəğbəti oxucuya da sirayət edir. Cahandar ağanın əzəmətli şəxsiyyəti, cəsarəti, təəssübkeşliyi bütün qüsurlarına, ziddiyyətlərinə baxmayaraq, oxucuda ona qarşı rəğbət yaradır.

İ.Şıxlı heç bir süniliyə yol vermədən oxucunun nəzərində bütün müsbət və mənfi cəhətləri ilə bir insan obrazı yaradır. Bütün varlığı müəmma və gözlənilməzliklərdən ibarət olan bir insan. Bir-birindən ağır zərbələr alan, lakin sınmayan, əyilməyən, şəxsiyyətini, mənliyini qorumaq üçün ölümünə belə gedən insan. Bu insan İ.Şıxlının böyük məhəbbətlə yaratmış olduğu Cahandar ağa obrazıdır. Hiss olunur ki, bu adamın həyatda prototipi də var. Hər halda bu adam İ.Şıxlıya yaxın olan bir adamdır. Başqa sözlə, Cahandar ağa obrazı olduqca real faktlara, real şəxsiyyətə söykənir. Əks təqdirdə Cahandar ağa obrazı bu qədər təbii alınmazdı.

Qadın obrazları. Romanda Zərnigar xanım, Şahnigar, Salatın, Pakizə, Mələk, Güləsər kimi çox maraqlı qadın obrazları yaradılmışdır. Bu obrazların içərisində Zərnigar xanım xüsusilə seçilir. Qadınlıq, xanımlıq heysiyyəti təhqir olunmuş Zərnigar xanım ərinin hərəkəti qarşısında sarsılır. O, seçim etməlidir. Ya mütilik göstərib ərinin onun üstünə ikinci bir arvad gətirməsi ilə barışmalıdır, ya da ...

Zərnigar xanım müdrik qərar qəbul edə bilmir. Oğlu Şamxalı qızışdırıb üstünə gələn günahsız bir qadını məhv etməyə təhrik edir, bununla da oğulun ata üzünə ağ olmasına, ziddiyyətlərin daha da kəskinləşməsinə səbəb olur. Bu xüsusiyyətinə görə Zərnigar xanım haradasa "Müsibəti-Fəxrəddin" faciəsinin qadın qəhrəmanlarından olan Mələk xanımı xatırladır. Hər halda, Zərnigar xanımın – təhqir olunmuş, alçaldılmış bir qadının hərəkəti başadüşüləndir.

Romanda Cahandar ağanın oğulları – Şamxal və Əşrəf obrazları da geniş yer tutur. Qardaşlar xaraktercə fərqlidirlər. Şamxal, xalq ifadəsi ilə desək, dəli-dolu bir oğlandır. Atası kimi qürurlu, əyilməz, cəsarətli bir

gəncdir. Şamxal çox çətin bir seçim qarşısında qalır. Heysiyyətı, mənliyi təhqir olunmuş ananın tərəfini saxlamaq, yoxsa atanın naqis hərəkətinə göz yummaq, onu müdafiə etmək. O, birinci yolu seçir, bununla da hər şeydən məhrum olur. Lakin qürurunu, şəxsiyyətini sonadək qorumağı bacarır.

Əşrəf isə yaşca kiçik olsa da, çox təmkinlidir. Qori Müəllimlər Seminariyasının tələbəsi olan Əşrəf ləyaqətli hərəkətləri ilə diqqəti cəlb edir. Əsərin sonunda qardaşların yolu ayrılır, hərə öz taleyinin arxasınca yollanır.

Romanda XIX əsrdə ən böyük ictimai hərəkat olan maarifçilik hərəkatının nümayəndəsi, görkəmli pedaqoq A.Çernyayevskinin obrazı rəğbətlə təsvir edilmişdir. Kəndbəkənd düşüb oxumağa meyilli gəncləri tapıb Qori seminariyasına aparıb oxutduran, bu yolda təhlükələrlə, hətta ölümlə belə qarşı-qarşıya gələn bu maarifçi obrazı çox dolğun obrazdır.

Bu sözləri əsərdəki Kipiani – Qori Müəllimlər Seminariyasının müəllimi, gürcü inqilabçı – demokratı haqqında da demək olar. Əsərdə maarifçilik hərəkatının başqa bir nümayəndəsi də "uçitel Əhməd"dir.

Romanın ən diqqətəlayiq cəhətlərindən biri Azərbaycan təbiətinin füsunkar mənzərələrinin, Kürqırağı meşələrin təkrarolunmaz gözəlliyinin şairanə şəkildə təsviridir. Müəllif sanki qüdrətli şair M.P.Vaqifin "Kür qırağının əcəb seyrangahı var" kəlamının bədii təsdiqini vermək üçün nəsrin imkanlarından yetərincə istifadə edir. Romanın birinci abzasından başlayaraq bütün əsər boyu gözəl təbiət təsvirlərinin, dolğun peyzajların şahidi oluruq. Bu mənada, romanın ikinci qəhrəmanı Azərbaycan təbiətidir – Kür çayıdır, bu torpağın suyudur, havasıdır, meşələridir. Bu yurdun adamları da haradasa Kür çayına oxşayırlar. Öz tələtümlüyünə, çılğınlığına, daxili ziddiyyətlərinə və bəzən bir növ başadüşülməzliyinə görə Cahandar ağa elə əsl dəli Kürdür. Bu mənada, əsərin adı da simvolik xarakter daşıyır.

İ.Şıxlının "Dəli Kür" romanı Azərbaycan nəsrində yeni söz, yeni addım oldu.

A variantı

1. Qeyd olunan cəhətlərdən hansı "Dəli Kür" romanına ***aid deyil?***
   A) müasirlik
   B) macəraçılıq ünsürləri
   C) gözəl təbiət təsvirləri
   D) epizm, realist təsvir
   E) maraqlı təhkiyə üslubu

2. "Dəli Kür" romanında irəli sürülən və müasir dövr üçün ən aktual ideya hansıdır?
   A) təbiətin qorunması
   B) din xadimlərinin tənqidi
   C) xalqa xidmət
   D) xalqın bütün təbəqələrinin birliyi
   E) elm və təhsilin əhəmiyyəti

3. Bu surətlərdən biri "Dəli Kür" romanında ***yoxdur:***
   A) Əşrəf B) Əhməd
   C) Allahyar D) Ərşad
   E) Salatın

4. İ.Şıxlının mətbuatda çap olunan ilk əsəri nə idi?
   A) roman B) povest
   C) hekayə D) şeir
   E) oçerk

5. "Həkimin nağılı" hekayəsi hansı mövzudadır?
   A) kolxoz quruculuğu
   B) təlim-tərbiyə, əxlaqi
   C) müharibə
   D) təbiətin qorunması
   E) məhəbbət

6. "Cəbhə gündəlikləri" əsərində müəllif nəyi təsvir edir?
   A) əsgərin məhəbbət macərasını
   B) cəbhə komandirlərinin əsgərlərə qayğısını
   C) arxa cəbhədəki çətinlikləri
   D) şəfqət bacılarının fədakarlığını
   E) müharibə səhnələrini

7. "Ayrılan yollar" romanında "yeni yolun yolçuları" kimlərdir?
   A) rayonun rəhbərləri
   B) İmran, Zeynəb
   C) Kosaoğlu, Əsədov
   D) Kosaoğlu, Kərim kişi
   E) kəndə yeni yol çəkənlər

8. İ.Şıxlının 1984-cü ildə çap olunmuş kitabı necə adlanırdı?
   A) "Namərd gülləsi"
   B) "Məni itirməyin"
   C) "Daim axtarışda"
   D) "Məni qınamayın"
   E) "Ayrılan yollar"

9. "Dəli Kür" romanında bu problemlərdən hansına ***toxunulmur?***
   A) maarifçilik hərəkatına
   B) çarizmin işğalçı siyasətinə
   C) din xadimlərinin satqınlığına
   D) milli bütövlük hərəkatına
   E) torpaq və onun sahibi

10. Bu kitablardan biri İ.Şıxlıya ***aid deyil:***
   A) "Məni itirməyin"
   B) "Daim axtarışda"
   C) "Vicdan susanda"
   D) "Dəli Kür"
   E) "Namərd gülləsi"

B variantı

1. Cahandar ağanın kiçik oğlu harada təhsil alırdı?
   A) Peterburqda, universitetdə
   B) Bakıda, seminariyada
   C) Qazax Pedaqoji Texnikumunda
   D) Molla məktəbində
   E) Qori seminariyasında

2. Cahandar ağanın xarakterinə ***aid deyil:***
   A) cəsarətlilik B) mərdlik
   C) sözübütövlük D) ehtiyatlılıq, ailədə hər şeyi ölçüb-biçmək
   E) çətinə düşənə kömək etmək

3. "Dəli Kür" romanında tarixi hadisələrə münasibətdə yenilik nədir?
   A) din xadimlərinin mənfi planda verilməsi
   B) çarizmin işğalçı siyasətinin göstərilməsi
   C) ağa, mülkədar obrazının müsbət planda təsviri
   D) Azərbaycan kəndlisinin ağır vəziyyəti
   E) sinfi mübarizənin realistcəsinə təsviri

4. Bu xüsusiyyətlərdən hansı "Dəli Kür" romanındakı Şamxal obrazına ***aid deyil?***
   A) mərdlik, sözübütövlük
   B) anasını müdafiə etməkdə tərəddüdsüzlük
   C) barışmazlıq, tərslik
   D) həddindən artıq ehtiyatlılıq
   E) müstəqillik, əyilməzlik

5. Cahandar ağa:
   A) elmin, təhsilin barışmaz düşmənidir
   B) çar məmurlarına müticəsinə tabe olan adamdır
   C) mollaların tərəfini saxlayandır
   D) kəndliləri incidən mərhəmətsiz ağadır
   E) qorxubilməz, cəsur insandır

6. "Dəli Kür" romanındakı Zərnigar xanım bəzi xüsusiyyətləri ilə xatırladır:
   A) Şəhrəbanu xanımı
   B) "Ana" pyesindəki Səlma ananı
   C) "Vaqif" pyesindəki Xuramanı
   D) N.Gəncəvinin qadın qəhrəmanlarını
   E) "Müsibəti Fəxrəddin" əsərindəki Mələk xanımı

7. İ.Şıxlını məşhurlaşdıran əsas əsər hansıdır?
   A) "Ayrılan yollar" romanı
   B) "Dəli Kür" romanı
   C) "Cəbhə gündəlikləri"
   D) hekayələri
   E) "Ölüləri qəbiristanda basdırın"

8. Bu qadın obrazlarından yalnız biri "Dəli Kür" romanında ***yoxdur:***
   A) Zərnigar B) Salatın
   C) Şahnigar D) Güləsər
   E) Şərəfnisə

9. "Cəbhə gündəlikləri" qeyd olunan əsərlərdən hansı ilə məzmun və ideya cəhətdən səsləşir?
   A) "Namərd gülləsi" hekayəsi ilə
   B) "Həkimin nağılı" hekayəsi ilə
   C) R.Rzanın "Vəfa" pyesi ilə
   D) "Leytenant Bayramın gündəlikləri" sənədli povesti ilə
   E) S.Vurğunun müharibə mövzusunda şeirləri ilə

10. Cahandar ağa həlak oldu:
   A) sürgündə
   B) kazaklarla vuruşmada
   C) Allahyar ilə atışmada
   D) kəndə hücum edənlərlə atışmada
   E) həbsxanada

C variantı

1. "Dəli Kür" romanında fitnəkar ruhani obrazı:
   A) Axund Səməd B) Molla İbrahimxəlil
   C) Molla Qasım D) Molla Şərif
   E) Molla Sadıq

2. Ali təhsil aldıqdan sonra İ.Şıxlı harada pedaqoji fəaliyyətlə məşğul olmuşdur?
   A) Kosalar kənd məktəbində
   B) Qazax Pedaqoji Texnikumunda
   C) Birinci Şıxlı məktəbində
   D) Dövlət Pedaqoji məktəbində
   E) Salahlı kənd məktəbində

3. "Ayrılan yollar" və "Dəli Kür" üçün ortaq cəhət:
   A) kənd mövzusunda yazılmaları
   B) eyni obrazların iştirakı
   C) fitnəkar ruhani obrazının olması
   D) maarifçilik hərəkatının bədii təsviri
   E) yeniliklə köhnəliyin üz-üzə gəlməsi

4. İ.Şıxlının yaradıcılığında yüksəliş illəri:
   A) 80-ci illərin sonu
   B) 70-ci illərin əvvəli
   C) 40-cı illərin sonu
   D) 50-ci illərin ikinci yarısı
   E) 40-cı illərin əvvəli

5. İ.Şıxlı hansı mətbuat orqanının baş redaktoru olmuşdur?
   A) "Ulduz" jurnalının
   B) "Qobustan" jurnalının
   C) "Azərbaycan" jurnalının
   D) "Ədəbi üfüqlər" jurnalının
   E) "Ədəbiyyat və incəsənət" qəzetinin

6. İ.Şıxlı ilk hekayələrini kimə oxuyurdu?
   A) S.Vurğuna B) S.Rəhmana
   C) Mir Cəlala D) M.Hüseynə E) Ə.Vəliyevə

7. Bu fikir İ.Şıxlının bir əsərində əsas mötivdir:
   "Müharibə də həyatdır, yaşamaq tərzidir".
   A) "Dəli Kür" B) "Cəbhə gündəlikləri"
   C) "Ölüləri qəbiristanda basdırın" D) "Ayrılan yollar"
   E) "Həkimin nağılı"

8. Müxalif sözə görə bir müddət əvvəl hər cür repressiyalara şahid olan, ona görə də vahimə içində yaşayan bu adamlar indi başqa bir istiqamətin də mövcud olduğuna əmin olmaqdadırlar. Bu hansı əsərdir?
   A) "Dəli Kür" B) "Cəbhə gündəlikləri"
   C) "Həkimin nağılı" D) "Ayrılan yollar"
   E) "Ölüləri qəbiristanda basdırın"

9. "Dəli Kür" romanında əsas müəllif qayəsi:
   A) doğma torpaq və onun sahibi olan insan
   B) bütün təbəqələrin çətin günlərdə, xüsusən işğal, insan mənliyinin təhqir olunması məqamlarında bir yerdə olmasının zəruriliyi
   C) "Zülmə, haqsızlığa qarşı mübarizə maariflənməkdən başlayır" fikrinin təsdiqi
   D) "Ən ağır günlərdə də həyat şirindir" fikri
   E) "Həyat fəlakətli olsa da, onu namusla yaşamaq lazımdır" qənaəti

10. "Ayrılan yollar" romanında prokuror Əsədovun mənfi obrazı hansı rəmzi mənanı verirdi?
    A) Kosaoğlunun taleyi artıq həll olunub.
    B) Keçmişdən qalan yoldan yapışanlar səhv edirlər.
    C) Cəza orqanlarının təkbaşçılığının sona çatması artıq stalinizmin bitməsidir.
    D) İmranın, Zeynəbin yolu haqq yoludur və bu yol davam etməlidir.
    E) Artıq kəndin inkişafı yolunda sədd, maneə ola bilməyəcək.



Bəxtiyar Vahabzadə

(1925 – 2009)

Bəxtiyar Vahabzadə yeni Azərbaycan poeziyasında xalqımızın milli oyanışına xidmət edən əsərlər yaratmış, bütün yaradıcılığı boyu istiqlal və azadlıq ideyalarını yaşatmış, qədim şeirimizin müdriklik, fəlsəfi dərinlik ənənələrini müasir şeir üslubu ilə birləşdirmişdir.

B.Vahabzadə milli azadlıq hərəkatının öncüllərindən idi.

Həyatı

Bəxtiyar Vahabzadə 1925-ci il avqustun 16-da Şəki şəhərində anadan olmuşdur. 1934-cü ildə ailəsi ilə Bakıya köçmüşdür.

O, Bakı Dövlət Universitetində oxuduğu illərdə Mir Cəlalın rəhbərlik etdiyi ədəbiyyat dərnəyinin fəal üzvü olmuş, şeirləri "Gəncliyin səsi", "Gənclik töhfəsi" almanaxlarında çap olunmuşdur. 1947-cu ildə universiteti bitirmiş və aspiranturaya daxil olmuşdur. 1950-ci ildə "Səməd Vurğunun poeziyasi" mövzusunda namizədlik, 1964-cü ildə "Səməd Vurğunun yaradıcılıq yolu" adlı doktorluq dissertasiyası müdafiə etmişdir. 1968-ci ildə onun "Səməd Vurğun" monoqrafiyası çapdan çıxmışdır. Ədib 1974-cü ildə "Əməkdar incəsənət xadimi" fəxri adını almış, 1976-cı ildə Azərbaycan SSR-in, 1984-cü ildə keçmiş SSRİ-nin Dövlət Mükafatı laureatı olmuşdur. 1984-cü ildə isə "Xalq şairi" fəxri adına layiq görülmüşdür. Müstəqillik dövründə "İstiqlal" və "Şöhrət" ordenləri ilə mükafatlandırılmışdır. Azərbaycan Elmlər Akademiyasının həqiqi üzvü (akademik) seçilmişdir. Tərcüməçilik fəaliyyətində öz əqidəsinə uyğun əsərlərə yer ayırmışdır. İngilis klassiki C.Bayronun "Abidos gəlini", rus klassiklərindən A.S.Puşkinin, M.Y.Lermontovun, N.A.Nekrasovun və başqa şairlərin əsərlərini Azərbaycan dilinə tərcümə etmişdir.

B.Vahabzadə 1988-ci ildə Ermənistanın Azərbaycana elan olunmamış müharibəsinə, Qarabağın işğalına qarşı başlanan xalq hərəkatının liderlərindən biri idi.

B.Vahabzadə 2009-cu il fevralın 13-də vəfat etmişdir. Qəbri Fəxri xiyabandadır.

Yaradıcılığı

B.Vahabzadənin bədii yaradıcılığı lirik, epik və dramatik növdə yazdığı əsərlərdən ibarətdir. Vətənimizin birliyi, xalqımızın azadlığı yaradıcılığının baş mövzusudur. Onun ilk poeması 1942-ci ildə, hələ orta məktəbin son sinfində oxuyarkən M.Hadiyə həsr etdiyi "Xəzan bülbülü" poeması, ilk mətbu şeiri isə 1943-cü ildə dərc edilən, əsgər məktubuna həsr olunan "Ana və şəkil" şeiridir. "Mənim dostlarım" adlı ilk kitabı 1949-cu ildə nəşr olunmuşdur. Az, amma yaxşı yazdığı ilk şeirləri fikir təzəliyi və zənginliyi ilə diqqəti cəlb edirdi.

"Əbədi heykəl"(1953), "Sadə adamlar"(1954), "Ceyran"(1957) kitabları da ilk şeir kitablarındandır.

"Gülüstan" sovet imperiyasının xalqımızın öz qəhrəmanlıq keçmişini, tarixini unutdurmaq cəhdinə, "Şəbi-hicran" M. Fizuliyə, "Muğam" el muğamlarımıza, "Ağlar-güləyən" M.Ə.Sabirə həsr olunmuş poemalardır. Klassik ədəbiyyatımızın qəm-kədər motivlərinin müşahidə olunduğu bu əsərlər şairin ənənəvi sovet mövzularından uzaqlaşmaq səylərini ifadə etməklə, 60-cı illər poeziyasında yeni hadisə idi. Şair repressiyaya məruz qalmamaq üçün müstəqillik arzuları ilə yaşayan Azərbaycan xalqının sovet zülmündən doğan kədərini bu poemalarda dolayısı ilə ifadə edirdi. "İki qorxu", "Atalar–oğullar", "Təzadlar", "Qiymət", "Atılmışlar", "İstiqlal", "Şəhidlər" əsərləri şairin ən yaxşı poemalarındandır. Onun sovet dövründə yazdığı poemalar özünün müstəqim mənası ilə yanaşı, daha çox simvolik mənalar daşıyır.

Ədəbiyyata gəlişində S.Vurğunun azərbaycançılığının təsiri güclü olmuşdur. B.Vahabzadənin yaradıcılığında **vətən mövzusu** daha qabarıqdır. O, Azərbaycan xalqının mübarizələrlə dolu tarixini dərindən öyrəndikcə belə nəticəyə gəlmişdir: Azərbaycan Xalq Cümhuriyyəti dövründəki milli hərəkat, Xiyabani hərəkatı, S.Vurğunun azərbaycançılığı, 1941-1946-cı illərdə Cənubi Azərbaycanda baş vermiş milli hərəkat eyni zəncirin həlqələridir. Bu nəticə onun özünün də əsas icraçısı olduğu bir milli proqramın əsas müddəalarından idi.

1941-1945-ci illərdə Cənubda qurulmuş Milli hökumət milli birlik baxımından B.Vahabzadənin mənsub olduğu o zamankı ədəbi gəncliyin gözünü açmışdır.

Milli azadlıq ideyaları ilə bağlı fikirləri sovet dönəmində açıq yazmaq mümkün deyildi. Lakin vətən və onun taleyi, xüsusən Azərbaycanın müstəqilliyi şairin yaradıcılığında həmişə aparıcı mövzu olmuşdur. Təqibə məruz qalmamaq üçün milli ruhlu şeirlərində eyhamlardan və ikimənalı obrazlardan istifadə etmişdir.

B.Vahabzadə "Şəhid məzarları", "Mənə nə var", "Bəsdir" şeirlərində milli varlıq uğrunda ölümə hazır olan döyüşçünün obrazını yaratmışdır. "Təyyarələr" şeirində milli döyüşçü idealını öz yolunda mərdanə ölən təyyarə obrazına bənzədir. Vətəndaş – B.Vahabzadənin milli və estetik idealıdır.

1975-ci ildə yazdığı "Şəhid məzarları" şeirində müəllif göstərir ki, müstəqilliyə gedən yol şəhidlər tələb edir. Hələ SSRİ-nin dağılmasından söhbət getmədiyi bir dövrdə o, şəhidliyi vətən oğlu və döyüşçüsü idealı kimi tərənnüm edirdi:

Şəhid məzarları... Düşmən qənimi.
Vətənin köksündə vüqarla durub.
Mənim varlığımı bir təsdiq kimi
Yurdun sinəsinə möhürlər vurub.

Aşağıdakı misralarda şair sanki 1988-ci ildə Qarabağ torpaqlarını qoruyarkən şəhid olanların tarixi hünərini öncədən görür və alqışlayırdı:

Şəhidlər boylanır əsrlər üstdən,
Dolanır zəmanə,
Dönür qərinə,
Necə yaşamağın, necə ölməyin
Təhrini öyrədir nəvələrinə.

1990-cı ilin 20 Yanvar qurbanlarına həsr olunmuş "Şəhidlər" poeması da xalqımızın istiqlal və azadlıq uğrunda apardığı mübarizəyə həsr olunmuşdur. Bu poemanın qəhrəmanları haqq işi uğrunda şəhid olan vətən övladlarıdır. Şair "Vətəndaş" şeirində insanın vətən qarşısında borcunu bəndənin Tanrı, Allah qarşısında borcuna bənzədir. Şairə görə, vətəndaş millət, Vətən yolunda savaşa və ölümə hazır olan döyüşçüdür. Vətənin,

milli dövlətin müstəqilliyinin yeganə yolu bu məqsəd uğrunda savaşa və ölümə hazır olmaqdan keçir:

Bilirik, dünyaya biz niyə gəldik,
O, bizi yaradan, biz ona bəndə.
Yaradan uğrunda ölməyə gəldik.

Şair şeirlərinin birində göstərir ki, Vətənin əbədiliyi Vətən üçün verilən qurbanların əvəzidir. Və bu əbədiliyə görə şair şükür edir. "Təki Vətən yaşasın" deyir.

B.Vahabzadə Şəki haqqında şeir yazmamağına irad tutan oxucu məktubuna cavab yazanda da vətənin bütövlüyündən, Azərbaycanın milli şairi olmasından fəxrlə danışır:

Mən həm bakılıyam, həm lənkəranlı,
Gəncəli, qubalı, həm naxçıvanlı,
Şəkili, şirvanlı, qarabağlıyam.
Bütöv vətənimə bütöv bağlıyam.

Şairə görə, **ana dili** insanı vətənə bağlayan amil, xalqın varlığının mənəvi pasportudur. "Ana dili" (1954) şeirində dilimizdə danışmağı ar bilənlərə "Vətən çörəyi sizə qənim olsun", – deyir:

Ey doğma dilində danışmağı ar bilən
fasonlu ədəbazlar,
Qəlbinizi oxşamır qoşmalar, telli sazlar.
Bunlar qoy mənim olsun,
Ancaq vətən çörəyi sizlərə qənim olsun.

Onun "Cavab" adlı şeirində Cənubi Azərbaycanda xalqın milli ruhunu qırmaq, dilimizi yad kökə bağlamaq istəyən mənşəcə azərbaycanlı alim Yəhya Zəkaya öldürücü cavab verilir:

Ey sözündən əmin, özündən razı,
Yalanı söylədin kimin adından?
Ananın laylası, atanın sazı,
Babanın ocağı çıxdı yadından?

Sovetlər dönəmində sovet xalqlarının dillərinə münasibət eyni deyildi. Əsas sahələrdə rus dilinə üstünlük verilirdi. İranda isə Azərbaycan dilinin

vəziyyəti daha dözülməz idi. Orada Azərbaycan dilində təhsilin olmaması, kitab çapına qadağa qoyulması şairi qəzəbləndirirdi. O, qəzəbini "Gülüstan" poemasında da ifadə etmişdir:

Təbriz də, Bakı da Azərbaycandır,
Bir elin ruhunu, dilini ancaq
Kağızlar üstündə bölmək asandır.

Ana dilinin sıxışdırılması barədə hər hansı söz danışmaq, açıq yazmaq qadağan olunsa da, B.Vahabzadə repressiyalardan qorxmadan bu mövzuda "Latın dili" şeirini yazmışdır. Latın dili süqut edən Roma imperiyasının dili olmuşdur. Şair əslində bu şeirlə özü yaşayan, lakin dili ölən xalqın vəziyyətini diqqətə gətirirdi.

"Mənim anam" şeirində şair qəsdən ana və ana dili anlayışlarını eyniləşdirir. Savadsız anasını öz əsərlərinin əsl müəllifi adlandırır:

Yox, mən heçəm, mən yalanam,
Kitab-kitab sözlərimin
Müəllifi – mənim anam.

Dramaturgiyası. B.Vahabzadə mənzum dram sahəsində S.Vurğunun ənənələrini inkişaf etdirmişdir. Dramaturgiyası da, poeziyası kimi, vətənpərvərlik, xalq tərənnümü, mənəvi eybəcərliyə, əxlaqsızlığa etiraz motivləri üzərində qurulmuşdur. "Vicdan", "İkinci səs", "Yağışdan sonra", "Yollara iz düşür" nəsrlə, "Fəryad" nəzmlə yazılmış dramlardır.

"Dədə Qorqud" dastanlarındakı motivlər əsasında yazılan "Özümüzü kəsən qılınc" pyesi tarixi mövzudadır. Müəllif özümüzü kəsən qılınc dedikdə qədim türk tayfaları arasındakı düşmənçiliyi, müharibələri nəzərdə tutur. Məcazi – simvolik mənası olan süjet tayfaçılığın, yerliçiliyin təhlükəli olduğuna, düşmənlərimizin bundan bizə qarşı istifadə etdiyinə işarə idi.

Milli şeir dilimizi S.Vurğundan sonra yaradıcılığının yetkinlik mərhələsi XX əsrin 60-cı illərinə təsadüf edən B.Vahabzadə təmsil etmişdir. O, novatorluğu və yenilikçiliyi şeirimizin klassik ənənələrə bağlılığında görürdü.

"Gülüstan" poeması

Əsərin mövzusu Azərbaycanın 1813-cü ildə ikiyə bölünməsinin rəmzinə çevrilmiş Gülüstan müqaviləsi ilə bağlıdır. Vətənin ikiyə parçalanması ədəbiyyatımızda yeni mövzu olmasa da, B.Vahabzadə bu mövzunu Azərbaycan xalqının bir dövlət halında birləşməsi idealı kimi qələmə almışdır. Sovet dövründə Azərbaycanın ikiyə bölünməsi və ya birliyi barədə yazmağa güclü senzura qadağası qoyulmuşdu. Ona görə də şair "Vətəndən vətənə" adlı şeirində yazırdı:

Arazın bu tayı Vətən,
O tayı vətən.
Vətəni görməyə amanım yox mənim.

"Gülüstan" poeması 1959-cu ildə Şəkidə çıxan "Nuxa fəhləsi" qəzetində çap edildikdən sonra şair güclü təzyiqlərə məruz qaldı. Ancaq stalinizmin ifşasından sonra repressiyaların tətbiqi səs-küy yarada bilərdi. Ona görə də şair cinayət məsuliyyətinə cəlb edilmədi. Lakin 1963-cü ildə Azərbaycan xalqı Gülüstan müqaviləsinin 150 illiyinin bayram kimi qeyd etməyə məcbur edildi. "Gülüstan" tarixi mövzulu poema olmaqdan çox, Azərbaycanın Sovetlər birliyi tərkibində olmasına sərt bədii etiraz idi. Epiqrafdan göründüyü kimi, poema Azərbaycanın birliyi və istiqlalı uğrunda çarpışan Səttar xanın, Şeyx Məhəmməd Xiyabaninin, Seyid Cəfər Pişəvərinin xatirəsinə həsr olunmuşdur. Əsərin əvvəlində Azərbaycanın istiqlalının düşmənlərinə: sovet imperiyasına və İran monarxiya rejiminə etiraz ifadə olunur:

Kağıza həvəslə o da qol atdı,
Dodağı altında gülümsəyərək.
Bir qələm əsirlik hicran yaratdı,
Bir xalqı yarıya böldü qılınctək.
Öz sivri ucuyla bu lələk qələm
Dəldi sinəsini Azərbaycanın.
Başını qaldırdı,
Ancaq dəmbədəm
Kəsdilər səsini Azərbaycanın.

B.Vahabzadə kiminsə etinasızlığına heç cür dözmək istəmir, haqlı olaraq belə fikirləşir ki, etinasızlıq da elə qürursuzluqdur, nə qədər

etinasız olacağıq, təhqirlərə dözəcəyik, bir o qədər də alçalacağıq, məhv olacağıq. Şairin misraları da bu mənada qəzəblidir, tələtümlüdür. Poemanın intonasiyası da hönkürtü olmaqdan daha çox, üsyankar çağırışdır. Qəzəblidir, səfərbəredicidir:

Min ləkə vurdular şərəfimizə,
Verdik, sahibimiz yenə "ver", – dedi.
Lap yaxşı eləyib, doğrudan, bizə
Biri "baran", – dedi, biri "xər", – dedi.

Şair qəzəbində də, ittihamında da, kinayəsində də haqlı idi.

Azərbaycan babalardan qalan əmanətdir. O, Azərbaycanın parçalanmasını xəyanət, Tomirislərin, Babəklərin, Koroğluların ruhuna təhqir sayır. Özü isə romantik bir qürurla sanki yaşamaq istəmir, ağı demək dərəcəsinə gəlir:

Qoy əysin başını vüqarlı dağlar,
Matəmi başladı böyük bir elin.
Mərsiyə söyləsin axan bulaqlar,
Ağılar çağırsın bu gün qız, gəlin!

Əsərdə müqaviləni Rusiya tərəfindən imzalayan yaylıqlı, eynəkli cənab və İran tərəfindən imzalayan təsbehli ağa adsız obrazlardır.

Azərbaycanın öz qüvvələrinin siyasət meydanında olmaması şairi qəzəbləndirir və o, xalq adından səsini qaldırır:

Bir deyən olmadı, durun, ağalar!
Axı bu ölkənin öz sahibi var!
Siz nə yazırsınız bayaqdan bəri,
Bəs hanı bu yurdun öz sahibləri?

Əsas hissəsi gah romantik etirazı, gah da acı mərsiyəni xatırladan poemada müqavilə imzalanan gün sanki təbiət də bədbinləşir. "Yanıq Kərəmi"nin bağrı köz-köz olur, Nəbatinin eşqi Arpa çayında batır. Şair imzaların üstünə vurulan möhürü Azərbaycanın sinəsinə basılan dağ adlandırır, müqavilənin bağlandığı kağızı da qınayır:

Ey kağız parçası, əvvəl heç ikən
Yazılıb, qollanıb, yoxdan var oldun.
Böyük bir millətin başını kəsən,
Qolunu bağlayan hökmdar oldun.

Azərbaycanın parçalanmasından sonra yaranan dirəkləri, Araz çayını qınayan şair əsəri nikbin sonluqla bitirir, xalqımızın tarixi birliyini bədənlə canın vəhdəti ilə müqayisə edir. Təbrizdən müğənni Mustafa Payanın Vahidin qəzəlləri ilə oxuduğu muğam da, müəllifin müxtəlif lirik müraciətləri də əslində xalqın birliyinə, bir olmalı olduğuna çağırışdır. B.Vahabzadə "Gülüstan" poemasını Şəhriyarın "Heydərbabaya salam" əsərindən gətirilmiş 2 bəndlə tamamlamaqla özünün tarixi nikbinliyini bəyan edir. Həmin bəndlərdən biri:

"Bir uçaydım bu çırpınan yelinən,
Bağlaşaydım dağdan axan selinən,
Ağlaşaydım uzaq düşən elinən,
Bir görəydim ayrılığı kim saldı?
Ölkəmizdə kim qırıldı, kim qaldı?"

Müəllif ancaq müqavilənin imzalanma anını ümumi şəkildə təsvir etmişdir. Qalan hissələr müəllifin həyəcanları, etiraz notlarıdır. "Gülüstan" süjetsiz, lirik poemadır. Əsərin əsas qəhrəmanı müəllifin milli azadlıq ideyaları və ehtirasları ilə alışan qəlbi və düşüncəsidir. Şair sanki bütün yaradıcılıq imkanları ilə müasirlərinin vətəndaşlıq qürurunu oyatmağa xidmət edir.

B.Vahabzadə yaradıcılığı ilə bağlı yaddaş

- ✓ İstiqlal şairidir.
- ✓ "Xəzan bülbülü" (1942) şairin hələ orta məktəbin son sinfində ikən yazmış olduğu ilk poemasıdır və M.Hadiyə həsr olunmuşdur.
- ✓ Universitetdə oxuduğu zaman şeirləri "Gəncliyin səsi", "Gənclik töhfəsi" almanaxlarında çap olunmuşdur.

- ✓ S.Vurğunla bağlı həm namizədlik, həm də doktorluq dissertasiyaları və monoqrafiya yazmışdır.
- ✓ Tərcüməçiliklə məşğul olmuşdur.
- ✓ "Ana və şəkil" (1943) çap olunan ilk şeiri, "Mənim dostlarım" (1949) çap olunan ilk kitabıdır.
- ✓ "Şəbi-hicran", "İztirabın sonu", "İki qorxu", "Muğam", "Ağlar-güləyən", "Atalar-oğullar", "Atılmışlar", "İstiqlal", "Təzadlar", "Qiymət" əsərləri poema janrındadır.
- ✓ Yaradıcılığında S.Vurğunun təsiri güclüdür.
- ✓ Vətən – yaradıcılığının baş mövzusudur.
- ✓ Milli və estetik idealı vətəndaşdır. "Mənə nə var", "Şəhid məzarları", "Vətən var", "Bəsdir", "Vətəndaş", "Təyyarələr" şeirləri bu ideala xidmət edir.
- ✓ "Vətəndaş" şeirində insanın vətən borcu bəndənin Allah qarşısındakı borcuna bənzədilir.
- ✓ "Ana dili" , "Cavab" , "Latın dili" , "Mənim anam" şeirlərində və "Gülüstan" poemasında da ana dili məsələsinə toxunmuşdur.
- ✓ "Fəryad" dramı nəzmlə yazılmışdır.
- ✓ "Özümüzü kəsən qılınc" dramı "Dədə Qorqud" motivləri əsasında yazılmışdır.
- ✓ Yaradıcılığının yetkinlik çağları XX əsrin 60-cı illərinə təsadüf edir.
- ✓ "Gülüstan" süjetsiz lirik poemadır.
- ✓ Lirik, epik, dramatik növün hər üçündə əsərlər yazmışdır.

A variantı

1. Həm elmi, həm də bədii yaradıcılıqla məşğul olmuşdur:
   A) B.Vahabzadə B) C.Cabbarlı
   C) R.Rza D) M.Şəhriyar E) İ.Əfəndiyev

2. B.Vahabzadənin elmi fəaliyyətinin məhsuludur. 1968-ci ildə kitab halında çap edilmişdir.
   A) "Səməd Vurğunun yaradıcılıq yolu"
   B) "Səməd Vurğun poeziyası"
   C) "Səməd Vurğun"
   D) "Ədəbiyyatşünaslığın əsasları"
   E) "Abidos gəlini"

3. Aşağıdakılardan biri Mir Cəlalla B.Vahabzadənin yaradıcılıq əlaqələrinə aiddir:
   A) birgə ədəbi dərnək təsis etmək
   B) birlikdə əsər tərcümə etmək
   C) eyni bədii əsərin həmmüəllifi olmaq
   D) "Gəncliyin səsi" almanaxına rəhbərlik etmək
   E) Mir Cəlalın rəhbərlik etdiyi ədəbiyyat dərnəyinin üzvü olmaq

4. Poemalardan birinin müəllifi B.Vahabzadə olmaqla, orta dövr Azərbaycan ədəbiyyatı klassiklərindən birinə həsr olunmuşdur:
   A) "Ağlar-güləyən" B) "Səbi-hicran"
   C) "Nəsimi" D) "Xəzan bülbülü"
   E) "Muğam"

5. B.Vahabzadənin hansı əsərləri bütünlüklə həm simvolik, həm də müstəqim mənalar daşıyır?
   A) dramları B) mənzum dramları
   C) nəsrlə yazdığı dramları D) sovet dövründə yazdığı poemaları
   E) tərcümə əsərləri

6. *B.Vahabzadə "Təyyarələr" şeirində ... təyyarəyə bənzədir.* Nöqtələrin yerinə aşağıdakı ifadələrdən hansı uyğundur?
   A) özünün milli estetik idealını
   B) zülmdən doğan kədəri
   C) xalqımızın azadlıq mübarizlərini
   D) milli döyüşçü idealını
   E) arzu və xəyallarını

7. "Şəhid məzarları", "Mənə nə var", "Bəsdir" əsərlərini birləşdirən ümumi cəhət nədir?
   A) azadlıq mübarizlərinin uyuduğu Şəhidlər xiyabanının müqəddəs yer olduğunun göstərilməsi
   B) milli varlıq uğrunda ölümə hazır olan döyüşçünün obrazının yaradılması
   C) Azərbaycan xalqının milli kədərinin əks etdirilməsi
   D) S.Vurğunun azərbaycançılığının güclü təsiri
   E) Vətən və onun taleyinin ötəri hiss olmaması

8. Nə B.Vahabzadənin də mənsub olduğu ədəbi gəncliyin gözünün açılmasında mühüm rol oynamışdır?
   A) Cənubda Azərbaycan milli hökumətinin qurulması
   B) 1988-ci ildə Qarabağ uğrunda şəhid olanların ruhu
   C) 1990-cı ilin 20 Yanvar hadisələri
   D) M.Şəhriyarın "Heydərbabaya salam" poemasının yaranması
   E) tələbəlik illərində ədəbi dərnəklərə üzv olması

9. Xalqına, onun dilinə, milli ruhuna dönük çıxan Yəhya Zəka B.Vahabzadənin hansı əsərinin tənqid hədəfidir?
   A) "Vətən var" B) "Ana dili"
   C) "Cavab" D) "Vətəndaş" E) "Latın dili"

10. Vətənin, milli dövlətin müstəqilliyinin yeganə yolunun şəhidlik zirvəsindən keçməli olduğu B.Vahabzadənin hansı əsərinin əsas motividir?
   A) "Şəhid məzarları" B) "Şəhidlər" C) "Vətəndaş"
   D) "Gülüstan" E) "Özümüzü kəsən qılınc"

B variantı

1. Müəllifi B.Vahabzadə olan və nəzmlə yazılan dram əsəri hansıdır?
   A) "Uçurum" B) "Yollara iz düşür"
   C) "Vicdan" D) "Xanlar" E) "Fəryad"

2. B.Vahabzadə novatorluğu və yenilikçiliyi nədə görür?
   A) tarixi mövzuda əsər yazmaqda
   B) bədii ədəbiyyatın müstəqillik uğrunda mübarizəyə səfərbər olunmasında
   C) azərbaycançılığın təbliğ olunmasında
   D) şeirimizin klassik ənənələrə münasibətində
   E) vətənpərvərliyin tərənnümündə

3. B.Vahabzadənin "Gülüstan" əsəri tarixi mövzuda olması və janr baxımından hansı əsərlərlə müqayisə oluna bilər?
   1. "Dar ağacı" (S.Vurğun)
   2. "Peyğəmbər" (H.Cavid)
   3. "İsgəndərnamə" (N.Gəncəvi)
   4. "Heydərbabaya salam" (M.Şəhriyar)
   5. "Vaqif" (S.Vurğun)
   6. "Üsyan" (S.Vurğun)
   A) 3, 4, 5 B) 1, 6 C) 5, 6 D) 2, 5 E) 1, 2, 3

4. Hansı poemalar eyni ədəbi dövrə aid olmaqla, yaranma ardıcıllığına görə düzgün sıralanmışdır?
   A) "Heydərbabaya salam" (M.Şəhriyar), "Gülüstan" (B.Vahabzadə), "Qızılgül olmayaydı" (R.Rza)
   B) "Xosrov və Şirin" (N.Gəncəvi), "Leyli və Məcnun" (M.Füzuli), "Dəhnamə" (Ş.İ.Xətai)
   C) "Bəngü Badə" (M.Füzuli), "Dəhnamə" (Ş.İ.Xətai) "Qızılgül olmayaydı" (R.Rza)
   D) "Azər" (H.Cavid), "Komsomol poeması" (S.Vurğun), "Gülüstan" (B.Vahabzadə)
   E) "Azər" (H.Cavid), "Gülüstan" (B.Vahabzadə), "Muğan" (S.Vurğun)

5. "Gülüstan" poeması hansı şairdən gətirilən bəndlərlə bitir?
   A) Səhənddən B) S.Vurğundan
   C) Şəhriyardan D) Ş.İ.Xətaidən E) Vaqifdən

6. "Vətəndən-vətənə" şeiri ilə bağlı doğru fikirləri müəyyən edin.
   1. Heca vəznindədir.
   2. Müəllifi B.Vahabzadədir.
   3. Azərbaycanın ikiyə bölünməsi ilə bağlıdır.
   4. Sovet dövründə yazılmışdır.
   5. Ədəbiyyat üçün yeni mövzudur.
   6. "Gülüstan" poemasının tərkibindədir.

   A) 2, 4, 6 B) 3, 4, 5 C) 4, 5, 6 D) 1, 3, 5 E) 2, 3, 4

7. B.Vahabzadənin ilk kitabı:
   A) "Əbədi heykəl" B) "İnsan və zaman"
   C) "Mənim dostlarım" D) "Sadə adamlar" E) "Ceyran"

8. "Gülüstan" poemasında müəllif nəyi Tomrislərin, Babəklərin, Koroğluların ruhuna təhqir sayır?
   A) hər hansı bədbəxt hadisəni faciə kimi qarşılamağı
   B) müqavilənin imzalanmasında Azərbaycanın tərəf kimi iştirak etməməsini
   C) Azərbaycanın parçalanmasını
   D) Sovet imperiyasına və İran monarxiya rejiminə vaxtında meydan oxunmamasını
   E) Azərbaycanın SSRİ tərkibində olmasını

9. B.Vahabzadə yaradıcılığı ilə bağlı ***yanlış*** fikir hansıdır?
   A) İlk mətbu əsəri "Ana və şəkil" şeiridir.
   B) Tayfaçılığa, yerliçilik azarına "özümüzü kəsən qılınc" kimi baxır.
   C) "Ağlar-güləyən" poeması M.Füzuliyə həsr olunmuşdur.
   D) "Şəhid məzarları" əsərini hələ SSRİ-nin dağılmasından söhbət getməyən bir dövrdə qələmə almışdır.
   E) "Cavab" şeiri İranda yaşayan, mənşəcə azərbaycanlı alim Yəhya Zəkaya mənzum məktub şəklində yazılmışdır.

10. Verilmiş nümunənin hansı əsərdən bir parça olduğunu müəyyən edin.

    Bilirik, dünyaya biz niyə gəldik.
    O, bizi yaradan, biz ona bəndə.
    Yaradan uğrunda ölməyə gəldik.

    A) "Vətəndaş" B) "Şəhidlər" C) "Şəhid məzarları"
    D) "Vətəndən-vətənə" E) "Mənim anam"

ƏDƏBİYYAT NƏZƏRİYYƏSİ

NƏZM VƏ NƏSR

Bədii əsərlər iki formada: nəzm (şeir) və nəsrlə yazılır. Nəsrlə yazılmış əsərlərdə fikir adi danışıq formasına yaxın bir şəkildə ifadə olunur. Nəzmlə yazılmış əsərlərdə isə fikir adi danışıq formasından fərqli şəkildə ifadə edilir. Bir qayda olaraq, burada inversiya olur. Sözlər daha çox emosional səslənir. Ərəb sözü olan ***nəzm*** nizam-intizam, qayda-qanun deməkdir. Nəzm əsərlərində elə nizam-intizam və qayda-qanun olur ki, bunlar nəsr əsərləri üçün səciyyəvi deyil. Nəzm *misra, beyt, bənd* əsasında formalaşır. Bu mənada, nəzmin əsas vahidi misradır. Nəzmin əsas əlamətləri isə bunlardır: *ahəng, ölçü, qafiyə, rədif, bölgü, inversiya* və s.

Nəsr adi dil normaları əsasında qurulur. Burada inversiya (söz sırasının dəyişməsi) istisna hallarda olur. Nəsrin vahidi cümlədir. Nəsr şəklində olan bədii mətndə ədəbi dil normaları gözlənilir. Şeirdən fərqli olaraq, nəsrin intonasiyası da adi intonasiyadır. Nəsr misra, beyt və bəndlərdən yox, cümlələrdən, abzaslardan yaranır. Qafiyələrdən, demək olar ki, istifadə olunmur. Nəsrin də öz ahəngi var. Elə ahənglə də bədii mətnin şeir və ya nəsr olduğunu müəyyən etmək mümkündür.

Nəzmin əlamətləri

Ahəng. Eyni ölçülü səslərin növbələşməsi, təkrarlanması və bir-birini izləməsi *ahəng*, yaxud *ritm* adlanır. Ahəng nəsrlə yazılmış əsərlərdə də olur. Amma bu ahəngdarlıq nəzm əsərindəki qədər qabarıq nəzərə çarpmır. *Ölçü, qafiyə, bölgü, rədif* və s. şeirdə ahəng yaradan əsas vasitələrdir.

Ölçü. Ölçünün ədəbiyyatşünaslıqdakı digər adı *vəzndir*. *Vəzn* dedikdə şeirdəki misraların həcmi nəzərdə tutulur. Misraların həcmcə və ahəngcə bir-birinə bərabərliyi vəznin əsas tələbidir.

Qafiyə. Nəzm əsərində tələffüzcə, səs tərkibi etibarilə bir-birinə yaxın olan sözlər *qafiyə* adlanır. Sözlərin səsləşmə dərəcəsinə və işlənmə yerinə görə şeirdə qafiyənin müxtəlif növləri meydana çıxır: *zəngin,* yaxud *tam qafiyə*; *yoxsul*, yaxud *natamam qafiyə; qulaq qafiyəsi, daxili qafiyə və s.*

Sözlərin əksər səsləri bir-biri ilə səsləşdikdə *zəngin* qafiyə yaranır:

Həsənnənə, Həsənbaba qoşadı,
Xaçbulaq yaylağı xoş tamaşadı.
Arsız aşıq elsiz niyə yaşadı?
Ölsün Ələsgərtək qulların, dağlar. (Aşıq Ələsgər)

Bu nümunədə *qoşa, tamaşa, yaşa* sözlərinin əksər səsləri tələffüzcə üst-üstə düşdüyündən *zəngin*, yaxud *tam qafiyə* əmələ gəlir. *Yoxsul*, yaxud *natamam* qafiyədə sözlərin əksər səsləri yox, cəmi bir-iki səsi, daha çox axırıncı hecaları oxşar olur:

Bu gün ellər bayramıdır, əziz, mübarək!
Vətən mülkü başdan-başa al-əlvan geyir.
Göydə ulduz gülümsəyir, yerdə gül, çiçək ...
Hər dost eli bizim yurda qonaq gəl, deyir,
Vətən mülkü başdan-başa al-əlvan geyir.
(Əhməd Cəmil)

Bu şeir parçasında *mübarək, çiçək* sözləri yoxsul (natamam) qafiyələrdir. Çünki həmin sözlərin yalnız *rək, çək* hissələri arasında səsləşmə var.

Bu şeirdəki *geyir, deyir* sözləri isə tam, yəni zəngin qafiyələrdir.

Qulaq qafiyəsi yazılışına görə fərqlənən, amma oxşar tələffüz olunan sözlər vasitəsilə yaranır:

Tovuz kimi şux bəzənib durubsan,
Ala gözə siyah sürmə vurubsan.
Sağ ol səni, yaxşı dövran qurubsan,
Bu dünyanın sonu puçdu, Güləndam!

Heç demirsən, Ələsgərim hardadı?
Səbəb nədi gülün meyli xardadı?
Mənim gözüm sənin kimi yardadı,
Aşığa lütf etsən, xoşdu, Güləndam!
(Aşıq Ələsgər)

Verilmiş bəndlərin son misralarındakı *puçdu, xoşdu* sözləri qulaq qafiyəsidir, çünki *puçdu* yazılışca fərqli yazılsa da, tələffüzünə görə [puşdu] *xoşdu* sözü ilə qafiyə olur.

Bu nümunəyə də diqqət yetirək:

Əziziyəm gül əllər,
Ağ biləklər, gül əllər.
Dəryaca ağlın olsa,
Yoxsul olsan, güləllər.

Burada [güləllər] sözü *gülərlər* sözünün tələffüz formasıdır və məhz bu vəziyyətdə [güləllər] sözü *gül əllər* ilə qafiyə olmuşdur.

Nəzm əsərlərində qafiyə daha çox misraların axırında işlənir. Amma bəzən şeirin ahəngdarlığını bir az da artırmaq üçün misraların daxilində də qafiyədən istifadə edilir. Belə qafiyələr *daxili qafiyə* adlanır. Daxili qafiyələrin bütün misralarda eyni yerə düşməsi əsas şərtdir:

Degildim mən sənə *mail*, sən etdim əqlimi *zail*,
Mənə tən eyləyən *qafil* səni görcək utanmazmı?
(M.Füzuli)

Bu beytdə *mail, zail* və *qafil* sözləri daxili qafiyələrdir və həmin qafiyələr hər iki misrada məhz eyni yerə düşür.

Və ya:

O güli-nərgizi-*məstə* könül çoxdandı *pabəstə*,
Hicrindən olmuşam *xəstə*, neçin gəlməz, neçin gəlməz?!
(Natəvan)

Müqayisə edin: *məstə, pabəstə, xəstə.*

Qafiyələr həm eyni, həm də müxtəlif nitq hissələrindən yarana bilər.

Cinas qafiyə. Cinas qafiyə şəkilcə yaxud tələffüzcə eyni, mənaca müxtəlif sözlərdən təşkil edilir. Məsələn:

Adət budur, yar xəbərin yar olar,
Mənim yarım zəif canım yaralar,
Yerbəyerdən sızıldaşar yaralar,
Rəhm eylə Cüməyə, ay ağa düşdüm.

I misrada qafiyəni təşkil edən "yar olar" sevgilinin xəbər alması, II misrada "yaralar" yaralamaq mənasında, III misrada isə "yara" isminin cəmi kimi (yara+lar) kimi işlənmişdir. Aşıq poeziyasında təcnislər cinas qafiyələr əsasında yaranan janrdır. Lakin cinas qafiyənin işlənmə dairəsi

daha genişdir. O həm klassik, həm də müasir şeirimizdə (daha çox aşıq şeirində) işlənmiş və işlənməkdədir.

Rədif. Misraların sonunda qafiyədən sonra təkrar olunan sözlər rədif adlanır:

Boyun sürahidir, bədənin büllur,
Gərdənin çəkilmiş minadan, Pəri.
Sən ha bir sonasan, cüda düşübsən
Bir bölük yaşılbaş sonadan, Pəri.
(M.P.Vaqif)

Bu bəndin 2-ci və 4-cü misralarındakı *minadan, sonadan* qafiyələrindən sonra işlənən *Pəri* sözü rədifdir. Bu rədif şeirin yerdə qalan bütün bəndlərinin sonunda təkrar olunur. Amma yadda saxlamaq lazımdır ki, rədif *təkrir* sayılmır. Təkrir bədii məqsədlə edilmiş təkrardır və onun daimi yeri yoxdur. Rədif isə həmişə qafiyədən sonraya düşür və adətən bəndlərin ya da beytlərin sonunda gəlir. Rədif bəndləri, beytləri bir-birinə bağlayır. Belə bağlama xüsusiyyəti təkrirdə olmur.

Klassik poeziyada, eləcə də aşıq poeziyasında şeirlərin adları çox vaxt rədif əsasında müəyyənləşdirilir. Məsələn, M.P.Vaqifin "Pəri", Aşıq Ələsgərin "Düşdü" qoşmalarının adı rədif əsasında müəyyənləşdirilmişdir.

Şeirin adı I misra ilə də verilə bilər. Məsələn, M.Füzulinin "Əql yar olsaydı" qəzəlinin, "Padşahi-mülk..." qitəsinin, S.Ə.Şirvaninin "Necə həmtay tutum hər büti-zibayə səni" qəzəlinin adları birinci misra əsasındadır.

Misradaxili bölgü. Misradaxili bölgü tələffüz zamanı misraların tərkibində edilən fasilələrlə yaranır:

Çərşənbə günündə, // çeşmə başında
Gözüm bir alagöz // xanıma düşdü.
Atdı müjgan oxun, // keçdi sinəmdən,
Cadu qəmzələri // qanıma düşdü.
(Aşıq Ələsgər)

Bu bəndin bütün misralarında 6-5 bölgüsündən istifadə edilmişdir. Yəni hər misranın altıncı hecasından sonra fasilə edilmiş və daha sonra misranın yerdə qalan beşhecalı hissəsi tələffüz olunmuşdur.

Ədəbiyyatşünaslıqda bölgü yerinə bəzən *təqti, sezura, duraq, ayaq* terminlərindən də istifadə edilir.

Şeir vahidləri

Şair tərənnüm etdiyi obyekt haqqında fikrini müəyyən hissələrdə tamamlayır. Bu hissələr ***şeir vahidləri*** adlanır. *Misra, beyt, bənd* şeir vahidləridir.

Misra. Şeirin hər sətri misra adlanır. Məsələn, M.P.Vaqifin "Pəri" qoşmasının hər bəndi dörd sətirdən ibarətdirsə, bu o deməkdir ki, həmin şeirin hər bəndində dörd misra vardır.

Beyt. Şeirin iki misradan ibarət olan qismən bitkin hissəsi beyt adlanır. Beyt anlayışı klassik poeziya ilə daha çox bağlıdır. Beytin *şah beyt, mətlə beyt, məqtə beyt* kimi növləri var.

Şeirdə forma və məzmunca ən qüvvətli beyt *şah beyt* adlanır.

Şeirin (xüsusən qəzəl və qəsidələrin) ilk beyti *mətlə beyt*, son beyti isə *məqtə beyt* adlanır.

Hər cür iki misraya beyt demək olmaz. Yadda saxlamaq lazımdır ki, beyt şeirin nisbi bitkin vahididir, daha çox klassik ədəbiyyatla bağlıdır. Beyti qəzəldə, qəsidədə, qitədə, məsnəvidə axtarmaq lazımdır.

Bənd. Şeirin müxtəlif saylı misralardan ibarət qismən bitkin hissəsi bənd adlanır. Bənd şeirin mütənasib hissəsidir. Bir qayda olaraq, şeirin birinci bəndi neçə misradan ibarətdirsə, bu mütənasiblik o biri bəndlərdə də saxlanır.

Misal üçün deyək ki, Aşıq Ələsgərin "Düşdü" rədifli qoşmasında üç bənd vardır və hər bənd dörd misradan ibarətdir.

Beytlə yazılan şeirlər: qəzəl, qəsidə, qitə, məsnəvi.

Bəndlə yazılan şeirlər: rübai, tuyuq, bayatı (bunlar birbəndli dördlüklərdir), qoşma, gəraylı, mürəbbe (bunlar çoxbəndli dördlüklərdir), müxəmməs, müsəddəs, müsəmmən (səkkizlik), müəşşər (onluq).

Şeir şəkilləri

Bəndlə yazılan şeirlər üçün *şəkil* terminindən də istifadə edilir. Şeir şəkli bənddəki misraların sayı ilə müəyyən olunur. Əgər şeirin hər bəndində 4 misra varsa, bu, *dördlük*, 5 misra varsa, *beşlik*, 6 misra varsa,

altılıq adlanır. Dördlüklər çoxdur: *bayatı, rübai, tuyuq, mürəbbe, qoşma, təcnis* və s.

Hər beşliyə də *müxəmməs* deyilməz. Beşlik əgər bənddəki misraların sayına görədirsə, müxəmməsi fərqləndirmək üçün şeirin qafiyə quruluşunu da nəzərə almaq gərəkdir. Beləliklə, *beşlik* şeir şəkli, *müxəmməs* isə şeir janrıdır.

Daha konkret deyilərsə, qoşma, gəraylı, rübai, tuyuq, mürəbbe dördlük, müxəmməs isə beşlik şeir şəklində yazılır.

Məsələn, S.Vurğunun "Azərbaycan", S.Rüstəmin "Təbrizim", A.İldırımın "Əsir Azərbaycanım" və "Qara dastan" şeirləri, M.Şəhriyarın "Heydərbabaya salam" poeması beşlik şəklində yazılsa da, qafiyə quruluşlarına görə onları müxəmməs adlandırmaq olmaz.

Şeir vəznləri

Azərbaycan poeziyasında iki əsas vəzn vardır: *heca vəzni, əruz vəzni.* Poeziyamızda bu vəznlərlə yanaşı, *sərbəst şeir* formasından da istifadə edilir.

Heca vəzni. Heca vəzni Azərbaycan xalqının özünəməxsus şeir ölçüsüdür. Bu milli şeir vəzninin ədəbiyyatımızdakı işlənmə tarixi daha qədimdir. Təsadüfi deyil ki, xalq (eləcə də aşıq) şeirinə aid bütün nümunələr qədim zamanlardan müasir dövrə qədər məhz heca vəznində yaranmışdır.

Misralarda hecaların sayca bərabərliyi heca vəzninin əsas tələbidir. Bu tələbə görə, şeirin birinci misrası neçə hecadan ibarətdirsə, yerdə qalan bütün misralarda da bir o qədər heca olmalıdır. Misralarda hecaların sayından asılı olaraq, müxtəlif *heca şəkilləri* meydana çıxır. Məsələn, şeirin hər misrasında 8 heca varsa, bu, heca şəklinə görə *səkkizlik*, 11 heca varsa, bu, *onbirlik* heca şəkli sayılır. Heca şəkilləri bəzi şeir janrlarının müəyyənləşməsində xüsusi rol oynayır. Belə ki, bayatı 7-lik, gəraylı 8-lik, qoşma, təcnis 11-lik, aşıq müxəmmələri 15-lik heca şəkillərində olur. Azərbaycan ədəbiyyatında 2 hecalıdan 16 hecalıya qədər müxtəlif heca şəkillərindən istifadə edilmişdir. Nümunələr içərisində 7, 8, 11 hecalı şeirlər daha işləkdir.

Heca vəznli şeirlərdə bölgü bütöv söz prinsipinə əsaslanır. Yəni hər hansı misra daxilində fasilə söz bitəndən sonraya düşə bilər, sözün hissələri arasına düşə bilməz. Məsələn:

Analar // yanar ağlar,
Dərdini // sanar ağlar.
Dönər göy // göyərçinə,
Yollara // qonar ağlar. (Ağı)

Göründüyü kimi, bu nümunədə bölgü söz hissələrinin yox, ayrı-ayrı sözlərin arasına (məsələn, *analar* və *yanar* sözlərinin arasına) düşür. Heca vəzninin tələbinə görə, misralar eyni sayda hecalardan ibarət olduğu kimi, misra daxilindəki bölümlərdə də hecaların sayca mütənasibliyi gözlənilməlidir. Yuxarıda misal çəkdiyimiz ağının bütün misralarında birinci bölüm 3 hecalı, ikinci bölüm isə 4 hecalıdır.

Yeddi hecalı şeirlərdə bölgü 3-4 şəklində olduğu kimi, 4-3, 2-5 və 5-2 şəklində də ola bilər.

Səkkiz hecalı şeirlərdə 4-4, bəzi hallarda isə 5-3, 3-5 şəklində bölgüdən istifadə edilir.

Onbirhecalı şeirlərin ən işlək bölgüsü 6-5 və 4-4-3-dür. Bununla yanaşı, onbirhecalı şeirlərdə hərdən 5-6 və 3-4-4 bölgülərinə də rast gəlmək olur.

Bəzən heca vəznli şeirlərdə istisna hallarda bölgü prinsipi pozula da bilər. Məsələn:

Mən bir uşaq, // sən bir ana,
Odur ki, // bağlıyam sana.
Hansı səmtə, // hansı yana
Hey uçsam da, // yuvam sənsən,
Elim, günüm, // obam sənsən. (S.Vurğun)

Çox məşhur bir şeirdən götürülmüş bu bənddə 1, 3, 4, 5-ci misralarda bölgü 4–4 ölçüsündə olduğu halda, 2-ci misrada 3–5 (o–dur–ki//bağ–lı–yam–sa–na) ölçüsündədir. Ümumən, kiçik heca şəkillərində (tutaq ki, 5, 7, 8 hecalılarda) belə bölgü pozulmaları şeirin ahənginə elə də xələl gətirmir.

Heca vəzninə bəzən *barmaq vəzni* də deyilir.

Əruz vəzni. Əruz vəzni ərəb şeirinin ana vəznidir. *Əruz* sözünün ərəb dilindəki əsas mənalarından biri *şeir haqqında elmdir.* Bu vəzni ilk dəfə VIII əsrdə ərəb alimi Xəlil ibn Əhməd sistemləşdirmişdir. Uzun və qısa hecaların növbələşməsi, misralarda mütənasib sıralanması əruz vəzninin əsas tələbidir. Əruz vəznində misraların hecaları sayca fərqli də ola bilər. Bu fərq imalə (*uzanma)* və ya zihaf (*qısaltma*) hesabına ödənilir.

Qısa heca adi saitlə bitən hecaya deyilir. *Uzun heca* isə ya samitlə, ya da uzun saitlə bitən hecaya deyilir. Məsələn, *Vaqif* [Va:qif] və *Nadir* [Na:dir] sözlərində hər iki heca uzun sayılır, çünki birinci hecalar uzun *a* [*a:*] saiti ilə, ikinci hecalar isə samitlə bitmişdir. "Məni candan usandırdı, cəfadan yar usanmazmı?" misrasında "məni" və "cəfadan" sözlərinin tələffüzü qəlibə uyğun olaraq belə olmalıdır: [məni:], yəni ∪ –, [cəfa:dan], yəni ∪ – –. Qısa heca ∪, uzun heca — kimi işarə olunur.

Bu nümunəyə diqqət yetirək:

Şairəm, çünki vəzifəm budur, əşar yazım,
Gördüyüm nikü bədi eyləyim, izhar yazım.
Günü parlaq, günüzü ağ, gecəni tar yazım,
Pisi pis, əyrini əyri, düzü həmvar yazım.
Niyə bəs böylə bərəldirsən, a qare, gözünü?
Yoxsa bu ayinədə əyri görürsən özünü?
(M.Ə.Sabir)

Bəndin ilk dörd misrasındakı hecaların sayı son iki misradakı hecaların sayından fərqli olaraq, 15 yox, 14-dür. Amma *əşar, izhar, tar, həmvar* sözlərində *a* səsinin uzanması və *r* səsinin xüsusi heca kimi *rı* şəklində tələffüz edilməsi hesabına əlavə bir heca yaranır və nəticədə ilk və son misralarda hecaların sayca bərabərliyi təmin edilmiş olur. Yəni birinci, ikinci, üçüncü və dördüncü misralar da beşinci və altıncı misralar kimi 15 hecalı tələffüz edilir.

Deyirlər sözü təfilənin tələbinə görə *derlər* kimi tələffüz olunduqda isə bu, *qısaltma* (zihaf) sayılır. Məsələn:

Derlər utan, heç kəsə bir söz demə,
Haq sözü *derkən* utana bilmirəm.
(M.Ə.Sabir)

Əruz vəzninin iki əsas prinsipi vardır: 1. Heca prinsipi. 2. Bölgü prinsipi.

Heca prinsipi uzun və qısa hecaların mütənasib sıralanmasını tələb edir. Yəni birinci misrada uzun və qısa hecaların sayı neçədirsə, hər bölümdə (təfilədə) bu uzun və qısa hecalar hansı ardıcıllıqla sıralanırsa, o biri misralarda da belə olmalıdır.

Əruzda bölgü *təfilələr* (heca vəznindəki *təqtiyə* uyğun termindir) üzrə qurulur. Bu təfilələr də I misradan – əvvəlcədən müəyyənləşmiş olur. Hər *təfilə* (*qəlib*) də misra bölümünün neçə hecadan ibarət olmasını, üstəlik uzun və qısa hecaların bu bölümdə yerləşmə ardıcıllığını göstərir. Məsələn: fAilAtün (–∪ – –), məfAİlün (∪ – – –)*. Əruzda fasiləni təfilə müəyyən edir.

MəfAİlün o deməkdir ki, dörd hecalı bu misra bölümündə 1-ci heca qısa, ikinci, üçüncü və dördüncü hecalar uzun olmalıdır. *FAilAtün* o deməkdir ki, bu bölüm 4 hecalıdır (fA-i-lA-tün) və hecaların yerləşmə ardıcıllığı isə belədir: uzun, qısa, uzun, uzun. Yəni bütün bölümlərdə 2-ci hecalar qısa olmalıdır.

Əruz vəznində bölgü zamanı bütöv söz prinsipi pozula bilir. Bu o deməkdir ki, əruz vəznli şeirlərdə bölgü sözlərin arasına düşdüyü kimi, sözlərin ayrı-ayrı hissələri arasına da düşə bilər:

O gün ki fəs // li - yaz olur,
Gecə-gündüz // taraz olur. (A.Səhhət)

İkinci misrada bölgü iki ayrı-ayrı sözün (*gecə-gündüz və taraz* sözlərinin) arasına düşdüyü halda, birinci misrada bölgü *fəsli* sözünün hissələri (*fəs* və *li*) arasına düşmüşdür.

Əruz vəznində *məfAİlün, fAilAtün* və s. kimi müxtəlif *təfilələrdən* (qəliblərdən) istifadə olunur. Bu sözlər *fel* sözündən düzəlsə də, heç bir məna vermir, yalnız qəliblərdir, şablonlardır, başqa sözlə, misra bölümlərinin şərti işarələridir, modelləridir. Həmin təfilələr əruz vəzninin ayrı-ayrı *bəhrlərini* əmələ gətirir. Elm aləminə əruzun 19 bəhri məlumdur. Azərbaycan şeirində bu bəhrlərin 11-dən istifadə edilmişdir. Azərbaycan poeziyasında ən çox işlənən bəhr *həzəc* bəhridir. *Pəcəz* bəhri isə ən az işlənən bəhrlərdəndir. İ.Nəsimi "Sığmazam" qəzəlini bu bəhrdə yazmışdır. Azərbaycan poeziyasında əruzun 5 bəhrindən – *həzəc, rəməl, xəfif, səri, münsərih* bəhrlərindən daha çox istifadə olunmuşdur.

---

* Böyük hərflə yazılan sait də uzun hecanı göstərir. Əgər sait kiçik hərflə göstərilibsə, demək, qısa hecaya işarə olunub.

Həzəc ərəbcə *xoşa gələn avaz, gözəl səs, cəh-cəh* deməkdir. Həzəc bəhrində yazılmış şeirləri nəzərdən keçirsək, görərik ki, həmin şeirlər öz axıcılıq və rəvanlığı ilə seçilir. Həzəc bəhrinin müxtəlif növləri vardır. Bu bəhrin əsas növlərindən biri *məfAİlün* təfiləsinin dörd dəfə təkrarlanması əsasında yaranır. M.Füzulinin "Məni candan usandırdı" qəzəli həmin yolla yaranmışdır. M.Füzulinin "Leyli və Məcnun" poemasında isə *məfAİlün* təfiləsinin iki dəfə tam, bir dəfə yarımçıq (*məfulün* şəklilndə) təkrarlanması əsas götürülmüşdür. Bu, qısa həzəcdir.

Həzəc bəhrində yazılmış digər əsərlər: İ.Nəsiminin "Mən mülki-cahan..." qəzəli, müəllifi hələ ki məlum olmayan "Dastani-Əhməd Hərami" poeması, Ş.İ.Xətainin "Dəhnamə" poeması, Q.Zakirin "Eylər" müxəmməsi və s.

Rəməl ərəbcə *ləngərlənmək, dalğalanmaq, ağır-ağır yerimək* deməkdir. Bu bəhrdə yazılan şeirlər öz "ağırlığı", "ləngəri" ilə seçilir. M.P.Vaqifin "Görmədim" müxəmməsi və "Bax" qəzəli, M.Ə.Sabirin "Səttarxana" müsəddəsi bu bəhrdə yazılmışdır.

Rəməl bəhrində yazılmış digər əsərlər: İ.Nəsiminin və Ş.İ.Xətainin "Ayrılır" qəzəlləri, M.Füzulinin "Əql yar olsaydı..." qəzəli, S.Ə.Şirvaninin "Necə həmtay tutum..." qəzəli və s.

Xəfif ərəbcə *yüngül, zərif, incə, mülayim* deməkdir. S.Ə.Şirvaninin "Qaz və Durna" təmsili, "Köpəyə ehsan" satirası bu bəhrdə olub, öz oynaqlığı ilə seçilir.

Səri sözünün lüğəvi mənası *sürətli, cəld, tez-tez* deməkdir. Səri bəhrində yazılan əsərlər (məsələn, M.Ə.Sabirin "Ağacların bəhsi", "Üsuli-cədid" şeirləri) o qədər yüngül oxunur ki, onları heca vəznində yazılmış şeirlərdən fərqləndirmək çətin olur.

Münsərih sözü *axıcı* mənasındadır. Bu bəhrdə yazılan şeirlər də (məsələn, İ.Nəsiminin "Yanaram" qəzəli, M.Ə.Sabirin "Oxutmuram, əl çəkin" satirası) öz axıcılığı və oynaqlığı ilə seçilir.

Yazılı ədəbiyyatda Şah İsmayıl Xətaiyə qədər, bir qayda olaraq, əruzdan istifadə olunmuşdur. Sonradan Azərbaycan ədəbiyyatında heca vəzninin mövqeləri gücləndikcə əruz da tədricən zəifləmişdir. Qazi Bürhanəddin, M.Füzuli, S.Ə.Şirvani, təbii olaraq, bütün əsərlərini əruzda yazmışlar. İ.Nəsiminin çox az sayda şeirləri heca vəznində yazılsa da, o, ilk növbədə, əruza üstünlük vermişdir. Yazılı ədəbiyyatda heca vəzni,

əsasən, Ş.İ.Xətaidən başlayır. Ş.İ.Xətai, M.Əmani, M.V.Vidadi, M.P.Vaqif, Q.Zakir həm hecada, həm də əruzda yazmışlar. XVI əsr Bağdad mühitində M.Füzulinin oğlu Fəzlinin bir qoşması var ki, bu da, təbii ki, heca vəznindədir.

Bugünki şeirimizdə ara-sıra əruz vəznindən istifadə edilmişdir. (Ə.Vahid, S.Vurğun, S.Rüstəm, M.Seyidzadə, B.Vahabzadə, Qabil və b.).

Sərbəst şeir. Standart vəzn, bölgü, qafiyə, bənd və s. tələblərindən müəyyən qədər kənara çıxmaq sərbəst şeirin əsas xüsusiyyətidir. Standart tələblərdən kənara çıxılsa da, sərbəst şeirdə də ahəngdarlığı gözləmək vacibdir. Əruz vəzni ilə müqayisədə heca vəzni sərbəst şeirə daha çox təsir göstərir. Düzdür, sərbəst şeir hecaların sayı, misraların qafiyələnməsi, janr tələbləri baxımından şairə müəyyən sərbəstlik verir, ancaq sərbəst şeir yazmaq heca vəznində şeir yazmaqdan heç də asan deyil. Təsadüfi deyil ki, ədəbiyyatımızda sərbəst şeirin görkəmli nümayəndəsi kimi tanınan R.Rzanın əruz və heca vəznlərində də şeirləri vardır. Sərbəst şeir şairdən böyük təcrübə tələb edir:

Biz onunla tanış olduq
bir yaz səhəri
"Gənc işçi"də.
Tez məhrəm oldu
bir-birinə
könlümüzün gözü də,
qəlbimizin içi də.
(R.Rza)

Sərbəst şeir haradasa nəsrə yaxın olsa da, o heç də ahəngsiz, qafiyəsiz, emosiyasız şeir demək deyildir. Elə mövzular da var ki, onlar sərbəst şeirdə daha uğurlu alınır. Sərbəst şeir sanki oxucu ilə, müsahiblə üz-üzə oturub danışmağı, bir növ, dialoqu xatırladır.

Sərbəst şeir nümunələrinə S.Vurğun, B.Vahabzadə, Ə.Kərim, M.Araz, F.Qoca, R.Rövşən, İ.İsmayılzadə və başqa şairlərin də yaradıcılığında rast gəlirik.

Sərbəst şeirə bəzən *səpkili şeir* də deyilir.

ƏDƏBİ NÖVLƏR VƏ JANRLAR

Bədii ədəbiyyatda həyatı əks etdirməyin müxtəlif üsullarından istifadə edilir. Təhkiyə, tərənnüm, qəhrəmanın danışıq və hərəkətinin əyani göstərilməsi əksetdirmənin əsas üsullarıdır. *Təhkiyə* bədii əsərdə hadisənin oxucuya danışılması, nəql edilməsidir. *Tərənnüm* hər hansı bir hadisənin doğurduğu hiss-həyəcanın bədii əsərdə müsbət planda ifadə edilməsidir. Qəhrəmanın danışıq və hərəkətlərinin əyani şəkildə oxucu və tamaşaçıya çatdırılması isə təhkiyə və tərənnüm üsullarından istifadə etmədən bədii əsər yaratmaqdır. Bu, sadəcə əyani *göstərmə* (təsvir) üsuludur.

Əksetdirmə üsulları ədəbi növlərin yaranmasında əsas amil kimi özünü göstərir. Əksetdirmə üsullarından asılı olaraq ədəbi əsərlər üç yerə ayrılır: *epik növ, lirik növ, dramatik növ.*

Epik növ

Epik sözü *epos* sözündəndir. *Epos* sözü yunanca *danışmaq, söyləmək, nağıl etmək, fikri hekayətmə əsasında çatdırmaq* mənasında işlənir. Deməli, hadisələri ***təhkiyə*** yolu ilə oxucuya çatdırmaq epik növün əsas xüsusiyyətidir. Epik əsərdə təhkiyəçi funksiyasını həm müəllif, həm də qəhrəmanlar daşıya bilər. Təhkiyə iki şəkildə özünü göstərir: təhkiyəçi ya eşidib bildiyi, ya da bilavasitə şahidi olduğu hadisələrdən danışa bilər. Eşidib bildiyi hadisələrdən danışarkən təhkiyəçi rəvayət formasından istifadə edir. Nağıl və dastanlarda təhkiyənin rəvayət forması aparıcı yer tutur. Müəllifin yox, qəhrəmanların təhkiyəçi kimi çıxış etdiyi epik əsərlərdə isə I şəxsin dilindən danışma üsulu daha səciyyəvidir. Təhkiyə bədii əsərdəki digər obrazların dilindən də ola bilər. Epik növdə təsvirdən də, tərənnümdən də istifadə edilə bilər.

Epik əsərlər bəzən *təsviri janr* da adlanır. Bədii əsərdə nəzərə çatdırılacaq hadisənin, yaxud əşyanın əlamətlərinin sözlə ifadəsi *təsvir* adlanır. Təhkiyə kimi, təsvir də daha çox epik növ üçün səciyyəvidir.

Şifahi xalq ədəbiyyatında əfsanə, rəvayət, nağıl, dastan, lətifə, qaravəlli, yazılı ədəbiyyatda isə təmsil, hekayə, povest, roman, oçerk, xatirə epik növün əsas janrlarıdır.

Təmsil. Epik növün qədim janrlarından olan təmsilin ən başlıca xüsusiyyəti *alleqoriya*, yəni heyvan, bitki, cansız əşya surətlərinin şəxsləndirilməsi, insana xas əlamətlərlə təsvir edilməsidir. Alleqoriya təmsilin ayrılmaz xüsusiyyəti olsa da, bütün alleqorik əsərləri təmsil hesab etmək olmaz. Təmsilin ikinci xüsusiyyəti odur ki, burada alleqoriya ilə yanaşı, bədii gülüşdən də istifadə edilir. Təmsilin bir janr kimi üçüncü mühüm xüsusiyyəti nəsihətamiz səciyyə daşımasıdır. Müəllif təmsildə təsvir etdiyi hadisələrlə bağlı çox vaxt sonda bir ümumiləşdirmə aparır, nəsihətamiz fikirlərini irəli sürür. Azərbaycan ədəbiyyatında A.Bakıxanov, Q.Zakir, S.Ə.Şirvani, M.Ə.Sabir, A.Səhhət, H.Ziya və başqa sənətkarların yaradıcılığında təmsilin yaxşı nümunələrinə rast gəlirik. N.Gəncəvinin "Sirlər xəzinəsi" poemasında da təmsil nümunələri vardır.

Təmsil daha çox nəzmlə yazılır. Amma dünya ədəbiyyatında təmsilin nəsrlə yazılmış nümunələri də (məsələn, Ezopun təmsilləri) vardır.

Hekayə. Hekayə epik növün həcm etibarilə kiçik bir janrıdır. Bu janrda müəllif bir və ya bir neçə surətlə bağlı olan konkret bir əhvalatı yığcam şəkildə təsvir edir. C.Məmmədquluzadənin "Poçt qutusu", Ə.Haqverdiyevin "Mirzə Səfər" əsərləri hekayənin səciyyəvi nümunələridir.

Hekayə janrının gözlənilməz finalla bitən forması *novelladır.* C.Məmmədquluzadənin "Qurbanəli bəy", Ə.Haqverdiyevin "Bomba", Mir Calalın "Badamın ləzzəti" hekayələri novella nümunəsi sayıla bilər.

Dünya ədəbiyyatında hekayəni bəzən sadəcə novella da adlandırırlar (məsələn, Mopassanın novellaları).

Hekayə, nəsrlə yazıldığı kimi, nəzmlə də yazıla bilir. Nəzmlə yazılmış hekayəyə *mənzum hekayə* deyilir. Müstəqil mənzum hekayə ədəbiyyatımıza M.Əmaninin yaradıcılığı ilə gəlmişdir. Daha əvvəl N.Gəncəvi də mənzum hekayələr yazmışdır. Lakin bu hekayələr onun poemalarının ("Sirlər xəzinəsi", "Yeddi gözəl") tərkibində verilmişdir.

A.Bakıxanov, Q.Zakir, S.Ə.Şirvani, M.Ə.Sabir və başqa sənətkarların maraqlı mənzum hekayələri vardır.

Povest. Povest rus dilində *danışıq, təhkiyə, nağıl etmək* mənasında işlənən "povestvovanie" sözündəndir. Povestə bəzən *böyük hekayə* deyilir. Çünki povestlə hekayə bir-birinə yaxın janrlardır. Hekayədən fərqli olaraq, povestdə bir yox, bir neçə əhvalatdan bəhs olunur və təsvir olunan surətlərin sayı da hekayədəki surətlərin sayından bir neçə dəfə çox olur. C.Məmmədquluzadənin "Poçt qutusu" hekayəsində bir əhvalatdan və cəmi bir-iki surətdən söhbət açılırsa, həmin yazıçının "Danabaş kəndinin əhvalatları" povestində təsvir edilən hadisələr və obrazlar daha çoxdur.

Roman. Roman sözü fransız, ispan, italyan və s. dillərin daxil olduğu roman dil qrupunun adı ilə bağlıdır. Bu dillərdə təhkiyə üsulu ilə qələmə alınan hər hansı bədii əsər XII–XIII əsrlərdə *roman* adlandırılsa da, sonralar roman xüsusi janr kimi formalaşmışdır. Roman epik növün həcm etibarilə ən böyük janrıdır. Romanda təsvir edilən hadisələr və surətlər povestlə müqayisədə xeyli çoxdur. Hekayə və povestdə yazıçı, adətən, qəhrəmanın həyatının müəyyən bir mərhələsini təsvir etdiyi halda, romanda yazıçı qəhrəmanı dinamik inkişafda göstərmək, bəzən onun bütün ömür yoluna nəzər salmaq imkanı qazanır.

Silsilə təşkil edən iki hissəli roman *dilogiya*, silsilə təşkil edən üç hissəli roman *trilogiya* adlanır. M.Hüseynin "Abşeron" və "Qara daşlar" romanları birlikdə dilogiya təşkil edir. M.S.Ordubadinin "Gizli Bakı", "Döyüşən şəhər" və "Dünya dəyişir" romanları isə trilogiya sayılır. Dilogiya və trilogiyaların hər hissəsi müstəqil roman sayılır və hər birinin də, bir qayda olaraq, öz müstəqil adı olur. Sadəcə, bu müstəqil romanları az-çox eyni mövzu və eyni obrazlar birləşdirir, yaxın edir.

Tarixi şəxsiyyətlərlə, onların həyat və fəaliyyətinin təsviri ilə bağlı olan romanlara *tarixi roman* deyilir. M.S.Ordubadinin Cənubi Azərbaycandakı inqilabi hərəkatdan bəhs edən "Dumanlı Təbriz", Y.V.Çəmənzəminlinin M.P.Vaqifdən bəhs edən "İki od arasında" ("Qan içində"), İ.Hüseynovun İ.Nəsimidən bəhs edən "Məhşər" əsərləri tarixi roman nümunələridir. Azərbaycan ədəbiyyatında tarixi romanın ilk

nümunəsi M.S.Ordubadinin "Dumanlı Təbriz" romanı (birinci cildi 1933-cü ildə çap olunmuşdur) sayılır.

Qəhrəmanların duyğu və düşüncələrinin, daxili hiss-həyəcanlarının ifadəsinə geniş yer verən, hadisələri qəhrəmanların davranışında əks etdirən romanlar *psixoloji romanlar* adlanır. Y.Səmədoğlunun "Qətl günü" əsəri psixoloji romandır.

Həcminə və əhatə dairəsinə görə ən böyük romanlar *epopeya* adlanır. Həcmin genişliyindən başqa, epopeyada digər mühüm cəhət bütövlükdə dövrün, xalq həyatının ən mühüm mərhələsinin təsvir edilməsi, obrazların bütün xalqı təmsil etməsidir. Epopeyanın mərkəzində xalq dayanır. Ona görə də çox vaxt deyirlər ki, epopeyanın qəhrəmanı, baş obrazı xalqdır. Epopeyalar, bir qayda olaraq, tarixi mövzuda yazılır. Rus ədəbiyyatında L.Tolstoyun "Hərb və sülh", M.Şoloxovun "Sakit Don" əsərləri epopeya nümunələridir. Azərbaycan ədəbiyyatında S.Rəhimovun "Şamo" romanını da epopeya adlandırmaq olar.

Roman nəsrlə yazıldığı kimi, nəzmlə də yazıla bilər. Nəzmlə yazılan romanlar *mənzum roman* adlanır. N.Gəncəvinin "Xosrov və Şirin", "İsgəndərnamə" (buna hətta *mənzum epopeya* da demək olar), A.S.Puşkinin "Yevgeni Onegin", S.Vurğunun "Aygün" əsərləri poema olmaqla yanaşı, həm də mənzum roman sayılır.

Azərbaycan ədəbiyyatında ana dilində ilk roman N.Nərimanovun XIX əsrin sonlarında (1896-1899) yazdığı "Bahadır və Sona" romanı hesab edilir.

Oçerk. Oçerk epik növün həcm etibarilə hekayəyə yaxın janrıdır. Hekayədən fərqli olaraq, oçerk faktiki həyat materialı, sənədlilik əsasında yazılır. Bu o deməkdir ki, yazıçı qəhrəmanın adını, tərcümeyi-halının səciyyəvi faktlarını real həyatda necə varsa, o şəkildə də saxlayıb əks etdirir. Düzdür, hekayədə olduğu kimi, oçerkdə də müəllif tipikləşdirmə və ümumiləşdirmə aparır, bədii təsvir və ifadə vasitələrindən istifadə edir, amma yazıçı fantaziyasına, təxəyyülünə geniş yol verilmir. Oçerklə tanış olan oxucu söhbətin konkret olaraq kimdən, real həyatda yaşayıb fəaliyyət göstərən hansı insandan getdiyini dərhal başa düşür. Oçerkdə bədiilik elementləri də olur. Oçerk bədii publisistikaya yaxın janrdır.

Azərbaycan ədəbiyyatında Mir Cəlal, Əvəz Sadıq, Nurəddin Babayev və başqaları oçerkin gözəl nümunələrini yaratmışlar.

Oçerk də nəzmlə yazıla bilər. Tədqiqatçılar S.Vurğunun "Muradxan", "Xumar", M.Müşfiqin "Buruq adamı", "Fantan", "Yüksəliş" kimi bəzi poemalarını bu mənada mənzum oçerk adlandırırlar.

Xatirə. Xatirə, yaxud *memuar* da, oçerk kimi faktiki həyat materialı və sənədlilik əsasında yazılır. Amma oçerkdən fərqli olaraq, xatirədə konkret bir şəxsdən bəhs etmək məhdudiyyəti yoxdur. Xatirədə əsas şərt müəllifin iştirak etdiyi, şahidi olduğu hadisələri təsvir etməkdir. Bundan əlavə, xatirədə həcm məhdudiyyəti də yoxdur. Xatirə həcmcə oçerkdən xeyli böyük də ola bilər. C.Məmmədquluzadənin "Xatiratım", A.Şaiqin "Keçmiş günlər", Ö.F.Nemanzadənin "Xatirələrim", S.Rüstəmin "Unudulmaz müəllim", M.Hüseynin "Bir ay, bir gün", Anarın "Sizsiz" əsərləri xatirə nümunələridir.

Dəqiqlik, tarixi həqiqətin gözlənilməsi memuar janrının mühüm xüsusiyyətləridir. Bu janrda yazılan əsərlərdə şəxsiyyətlərə, hadisələrə müəyyən fərqli yanaşmalar da ola bilər.

Lirik növ

Lirika yunan sözüdür. Bu söz musiqi alətinin adı olan *lira* sözündən götürülmüşdür. Musiqi alətinin adı ilə bağlılığı lirikanın musiqi ilə əlaqəsindən xəbər verir. Lirikanın musiqi ilə əlaqəsi hər ikisinin ahənglə bağlı olması və *insan hiss-həyəcanını qabarıq şəkildə əks etdirməsi* ilə izah oluna bilər. Epik əsərlərdən fərqli olaraq, lirik əsərlərdə hadisə yox, hadisənin insan qəlbində doğurduğu hiss-həyəcan ön plana keçir. Lirik əsərlərdə aparıcı yeri təhkiyə yox, *tərənnüm* tutur. Şair ətraf mühitdə baş verən hadisələrə özünün müsbət münasibətini məhz tərənnüm yolu ilə əks etdirir. Əşya və hadisələrin, təbiət gözəlliklərinin təsiri ilə subyektdə yaranan xoş hislərin, şadlığın, *müsbət* fikir və arzuların bədii əsərdə obrazlı, ahəngdar ifadəsinə *tərənnüm* deyilir. A.Səhhət "Vətən" şeirində vətənə, M.P.Vaqif "Pəri" qoşmasında qadına, Aşıq Ələsgər "Yaylaq" qoşmasında təbiətə məhəbbət hissini oxucuya tərənnüm vasitəsilə çatdırır.

Lirik əsərlər öz *emosionallığı* ilə seçilir. Bu emosionallıq, ilk növbədə, müəllifin duyğu və düşüncələrinin ifadəsi ilə bağlı olur. Məhz bu mənada

deyirlər ki, lirika *ani* və *qüvvətli ehtirasların məhsuludur*. Görünür, elə buna görə də lirik şeir o qədər də həcmli olmur. Duyğu və düşüncələri qabarıq əks olunan müəllif şeirdə əsas surət kimi çıxış edir. Bu surət *lirik qəhrəman* adlanır. Lirik qəhrəmanın hiss-həyəcanları heç də müəllifin şəxsi duyğu və düşüncələri ilə məhdudlaşmır. Lirik əsərlərdə ümumiləşdirmədən istifadə edildiyinə görə müəllifin emosional aləmi minlərlə insanın daxili aləmindən xəbər vermiş olur. Bu mənada, lirik qəhrəman da bir növ ümumiləşmiş surətdir.

"Görmədim" (M.P.Vaqif), "Eylər" (Q.Zakir) kimi şeirlərdə müəllifin hadisələrə müsbət yox, mənfi münasibəti öz əksini tapır. Belə şeirlər, tənqidi mahiyyət daşıdığından həmin nümunələrdə, təbii ki, tərənnüm yoxdur. Burada hadisələrə, obyektlərə müəllifin müsbət yox, mənfi, tənqidi əhvali-ruhiyyəsi, reaksiyası öz əksini tapır. Əhvali-ruhiyyəni, insanın müxtəlif psixoloji anlarını əks etdirdiyindən, təbii ki, bunlar da lirik əsərlərdir.

Lirika mövzu və məzmunca iki əsas qrupa bölünür:

1) məhəbbət lirikası;

2) ictimai lirika.

Məhəbbət geniş anlayışdır. Lirikada insanın vətənə, təbiətə, anaya, həmçinin ananın övlada, bacının qardaşa, kişinin qadına, igidin öz atasına məhəbbətindən bəhs oluna bilər. Bu mövzular içərisində kişinin qadına məhəbbəti poeziyada daha geniş yer tutur. Odur ki, *məhəbbət lirikası* dedikdə, ilk növbədə, qadına məhəbbətdən bəhs edən şeirlər nəzərdə tutulur. Əsasən, məhəbbət mövzusuna müraciət etdiklərinə görə M.Füzuli və M.P.Vaqif kimi sənətkarlar daha çox məhəbbət şairləri sayılır.

İctimai quruluşa, idarəetmə üsuluna, beynəlxalq məsələlərə münasibət ifadə edən, eləcə də sülh, azadlıq, ölkə, vətən və xalq qarşısında borc problemini qoyan lirika *ictimai lirika* adlanır. Bu lirikada şair ictimai hadisələrə ya müsbət, ya da mənfi münasibətini bildirir, ictimai hadisələri ya tərənnüm, ya da tənqid edir. M.Füzulinin "Padşahi-mülk" qitəsi, M.P.Vaqifin "Görmədim" və Q.Zakirin "Eylər" müxəmməsləri, Aşıq Ələsgərin "Görmədim", "Çıxıbdı" qoşmaları ictimai lirika nümunələridir.

Ədəbiyyatşünaslıqda bəzən təbiət mövzusunda yazılmış şeirlər də öz məzmununa görə ayrıca qrup kimi götürülür, *təbiət lirikası*, yaxud *peyzaj*

lirikası adı altında xüsusi öyrənilir. Aşıq Ələsgərin dağlara, yaxud yaylağa həsr olunmuş şeirləri peyzaj lirikasının səciyyəvi nümunələridir.

İstər məhəbbət, istər ictimai-siyasi məsələlər, istərsə də təbiət gözəllikləri öz əksini lirik növün müxtəlif janrlarında tapa bilər. Yazılı ədəbiyyatda lirik növün qəzəl, qəsidə, qitə, məsnəvi kimi formaları beytlər əsasında yazılır.

Qəzəl. Adətən 5-10 beytdən ibarət olur. *Mətlə* (başlanğıc) beytin hər iki misrası bir-biri ilə qafiyələnir. Qalan beytlərin birinci misrası sərbəst buraxılır, ikinci misrası isə ilk beytlə həmqafiyə olur: *aa, ba, ca, ça ...* Qəzəlin *məqtə* (son) beytində şair öz təxəllüsünü verir. Qəzəl daha çox məhəbbət mövzusuna həsr edilir:

Əql yar olsaydı, tərki-eşqi-yar etməzmidim?
İxtiyar olsaydı, rahət ixtiyar etməzmidim?

Ləhzə-ləhzə surətin görsəydim ol şirinləbin,
Sən kimi, ey Bisütun, mən həm qərar etməzmidim?

... Ey Füzuli, dağı-hicran ilə yanmış könlümü
Laləzar açsaydı, seyri-laləzar etməzmidim?

Qəsidə. Qəsidənin qafiyə quruluşu qəzəldəki kimidir. Amma qəzəldən fərqli olaraq, qəsidə ən azı 15 beytdən, yəni 30 misradan ibarət olur. Qəsidə təntənəli, təmtəraqlı üslubda yazılır. Qəsidə, bir qayda olaraq, ictimai mətləbləri ifadə edir. Mövzu və məzmununa görə qəsidənin minacat, nət, mədhiyyə, fəxriyyə, mərsiyə, həcv kimi növləri vardır.

Minacat. Qəsidənin bu növündə Allah tərifləmir və şair ondan kömək diləyir. Klassik poemaların başlanğıc hissəsində, adətən, minacatdan istifadə edilir. Amma deyək ki, bunlar yalnız məzmunca minacat sayıla bilər, onlar formasına görə məsnəvi formasındadır (məsələn, Nizaminin poemalarındakı minacat, eləcə də nət, mədhiyyə, fəxriyyə hissələri kimi).

Nət. Nətdə Peyğəmbərin qüdrətindən və müqəddəsliyindən bəhs olunur. Klassik poemalarda, adətən, minacatdan sonra nət parçası gəlir.

Mədhiyyə. Mədhiyyədə hökmdarlar, yaxud böyük rütbə sahibləri tərifləmir. Məsələn, N.Gəncəvinin "Xosrov və Şirin" poemasında

Məhəmməd Cahan Pəhləvan, M.Füzulinin "Leyli Məcnun" poemasında Sultan Süleyman mədh edilir.

Fəxriyyə. Qəsidənin bu növündə şair öz qüdrətindən bəhs edir, özünün qüdrətli sənətkar olmasından fəxrlə danışır. Ə.Xaqaninin, Nizaminin, M.Füzulinin, S.Ə.Şirvaninin, M.Ə.Sabirin fəxriyyələri çox məşhurdur.

Mərsiyə. Müqəddəslərin, hökmdarların, xalq qəhrəmanlarının, görkəmli sənətkarların ölümü münasibətilə yazılır. Mərsiyə öz mövzusuna və məzmununa görə şifahi xalq ədəbiyyatındakı *ağı* janrı ilə səsləşir. Bəzi mərsiyələrə *növhə* də deyilir. Ə.Xaqani oğlu Rəşidin, arvadının, hətta dünyanı tez tərk edən qızının, M.Ə.Sabir H.Zərdabinin, Müzəffərəddin şahın, Şamaxı şəhərinin çox nüfuzlu adamı Hacı Məcid Əfəndinin ölümünə mərsiyələr yazmışlar.

Həcv. Konkret bir adamın tənqidinə həsr olunan və o qədər də ictimai məzmun daşımayan şeirlərdir. Həcv (həmçinin minacat, nət, mədhiyyə, fəxriyyə və mərsiyə) qəsidə formasında yazıldığı kimi, başqa şeir formalarında da yazıla bilər. Həcvlərdə qeyri-əxlaqi, vulqar, kobud sözlər də işlədilə bilər. Bu, qəzəbin, nifrətin dərəcəsindən də asılı ola bilir. Azərbaycan ədəbiyyatında Q.Zakir, S.Ə.Şirvani, A.Asi, Aşıq Ələsgər, Ə.Cavad və başqaları bəzən həcv yazmağa məcbur olmuşlar.

Qitə. Ərəb sözüdür, *parça, hissə* deməkdir. Qitənin qafiyə quruluşu qəzələ və qəsidəyə yaxındır. Fərq ondadır ki, birinci beytin misraları qəzəl və qəsidədə həmqafiyə olduğu halda, qitədə həmqafiyə olmur. Qitədə yalnız ikinci misralar bir-biri ilə həmqafiyə olur (2, 4, 6, 8-ci misralar): *abcbçbdb...* Həcmi 2 beytdən 10 beytədək olur. Qitənin sonuncu (məqtə) beytində şair, adətən, öz təxəllüsünü bildirmir. Qəzəl daha çox məhəbbət mövzusunda yazıldığı halda, qitə daha çox ictimai-siyasi, əxlaqi-tərbiyəvi məzmun daşıyır. Qazi Bürhanəddinin, Nəsiminin, Füzulinin, S.Ə.Şirvaninin bəzi şeirləri qitə janrındadır. M.Füzulinin "Padşahi-mülk..." şeiri qitənin ən yaxşı nümunələrindəndir.

Məsnəvi. Məsnəvi ərəbcə *ikilik* deməkdir. İstənilən ikiliyə, yəni hər qoşa misraya məsnəvi demək olmaz. Məsnəvinin hər beytində misralar öz aralarında hökmən həmqafiyə olmalıdır: *aa, bb, cc, çç, dd ...*

Məsnəvidən müxtəlif janrlı əsərlərdə geniş istifadə olunur. Məsnəvidə qafiyələr beytdən-beytə dəyişdiyinə və bununla da hadisələri daha ətraflı

təsvir etmək imkanı yarandığına görə klassik şairlərimiz poema janrında əsər yazarkən istər-istəməz məsnəvi formasına müraciət etməli olmuşlar. Ə.Xaqaninin "Töhfətül-İraqeyn" əsərindən tutmuş A.Bakıxanovun "Miratül-cəmal" və "Mişkatül-ənvar" əsərlərinə kimi bütün klassik poemalar məsnəvi formasında yazılmışdır. Hətta Cəlaləddin Rumi özünün ən məşhur əsərini "Məsnəvi" adlandırmışdır. Lirik və ya epik növdə yazılmalarından asılı olaraq, məsnəvilər 2 cür olurdu: 1. Lirik məsnəvilər. 2. Epik məsnəvilər. Lirik məsnəvilər hiss-həyəcan, insanın müxtəlif emosional-psixoloji yaşantılarını ifadə edir, həcmcə də kiçik olur. Təbii ki, bunlarda tərənnüm aparıcı olurdu. Məsələn, Ə.Xaqani belə məsnəvilər də (məsələn, "Şirvanın tərifi" və s.) yazmışdır. Epik məsnəvilər, bir qayda olaraq, həcmcə böyük olur, bunlarda daha çox hadisə və ya əhvalat verilir, bəzən də nəsihət, tövsiyə səciyyəli olur. Klassik ədəbiyyatda poema, təmsil, mənzum hekayə məsnəvi formasında yazılmış, "dastan", "məsnəvi" terminləri daha çox bugünkü "poema" mənasında işlənmişdir. (Nizamidə "Xosrov və Şirin" dastanı, Xətaidə "Nəsihətnamə" və "Dəhnamə" məsnəviləri kimi).

Rübai. Cəmi dörd misradan ibarət olan və daha çox ictimai, fəlsəfi və əxlaqi məzmun daşıyan şeir janrıdır. Çox vaxt birinci, ikinci və dördüncü misraları həmqafiyə olur, üçüncü misrası isə sərbəst buraxılır. Rübai əruz vəzninin həzəc bəhrində yazılır. Rübai deyəndə, bir qayda olaraq, böyük şərq klassiki Ömər Xəyyam (X əsr) yada düşür. Azərbaycan ədəbiyyatı tarixində Məhsəti Gəncəvi rübainin görkəmli nümayəndəsi kimi tanınır. Məhsətinin bir məşhur rübaisinə diqqət yetirək:

Dün kaşı kuzəmi daşlara çaldım,
Sərxoşdum, bilmədim, əlimdən saldım.
Kuzə dilə gəlib söylədi: "Mən də
Sənin kimi idim, bu günə qaldım".

Bəzi rübailərdə misraların dördü də bir-biri ilə həmqafiyə olur: *aaaa.*

Tuyuq. Türk xalqları ədəbiyyatına məxsus bir janrdır. Tuyuq türkcə *duymaq, duyğu* sözlərindəndir. Cəmi dörd misradan ibarət olan, hikmətamiz məzmun daşıyan tuyuğun qafiyə sistemi rübaidəki kimidir: *aaba.* Tuyuq da bəzən, rübaidə olduğu kimi, *aaaa* şəklində qafiyələnə bilir. Rübaidən fərqli olaraq, tuyuq əruzun rəməl bəhrində yazılır.

Ərənlər ər yolunda ərtək gərək,
Meydanda ərkək kişi nərtək gərək.
Yaxşı-yaman, qatı-yumşax olsa xoş,
Sərvərəm deyən kişi ərkək gərək.
(Q.Bürhanəddin)

Azərbaycan ədəbiyyatı tarixində tuyuq janrının ilk nümunələrinə Qazi Bürhanəddinin, bir qədər sonra isə Nəsiminin yaradıcılığında rast gəlirik.

Ədəbiyyatımızda tuyuq janrı iki cür olmuşdur: 1. Cinaslı tuyuqlar. 2. Cinassız tuyuqlar. Əsl tuyuqlarda qafiyələr cinaslardan ibarət olmalı idi. Amma qafiyələri cinaslardan ibarət tuyuqlar nə səbəbdənsə çox az yazılmışdır.

Göründüyü kimi, yazılı ədəbiyyatdakı rübai və tuyuq janrları şifahi ədəbiyyatdakı bayatı janrına (eləcə də bayatışəkilli digər janrlara) çox oxşayır. Bu janrlar arasında həm oxşar, həm də fərqli cəhətlər var.

I. Oxşar cəhətləri:

1. Həm rübai (tuyuq), həm də bayatı birbəndli dördlüklərdir.

2. Bunların qafiyələnmələri də, əsasən, eynidir.

3. Rübai (tuyuq) də, bayatı da lakonik janrlardır.

II. Fərqli cəhətləri:

1. Rübai (tuyuq) yazılı ədəbiyyat (divan ədəbiyyatı), bayatı isə folklor janrıdır.

2. Bayatıdan fərqli olaraq, rübainin (tuyuğun) aaaa şəklində qafiyələnən forması da var.

3. Bayatı heca vəznində (7-lik heca şəklində), rübai (tuyuq) isə əruz vəznində olur.

Mürəbbe. Mürəbbe ərəbcə *dördlük* deməkdir. Hər bəndi dörd misradan ibarət olan mürəbbenin birinci bəndində bütün misralar qafiyələnir, qalan bəndlərin qafiyə quruluşu isə eynilə qoşmadakı kimi olur: *aaaa, bbba, ccca...* Mürəbbedə hər bəndin axırıncı misraları təkrar da ola bilər. Məsələn, "Leyli və Məcnun" poemasında Qeysin – Məcnunun dilindən verilən mürəbbedə hər bəndin axırında "Qanı, ey zalim, bizimlə əhd-peyman etdiyin?" misrası təkrar olunur.

Müxəmməs. Ərəbcə *beşlik* deməkdir. Müxəmməsin hər bəndi beş misradan, ibarət olur. Amma beşlik şəklində olan bütün şeirləri müxəmməs hesab etmək olmaz. Müxəmməsin qafiyə quruluşu belədir: *aaaaa, bbbba, cccca* ... Deməli, müxəmməsin birinci bəndində bütün misralar bir-biri ilə qafiyələnir. Sonrakı bəndlərin dörd misrası öz aralarında həmqafiyə olur, beşinci misra isə birinci bəndin misraları ilə qafiyələnir. M.P.Vaqifin "Görmədim", Q.Zakirin "Eylər" şeirləri müxəmməsin mükəmməl nümunələridir.

Müxəmməs yazılı ədəbiyyatdan aşıq ədəbiyyatına da keçmişdir. Amma yazılı ədəbiyyatda əruz vəznində yazılan müxəmməslərdən fərqli olaraq, aşıq müxəmmələri heca vəznində olur. Həm də aşıqlar müxəmməsin hər misrasını iki yerə parçalamaqla, başqa sözlə, bir misranı iki misra etməklə (birinci 7, ikinci hissə 8 heca olmaqla) onu 10 misra şəklində oxuyurlar. Məsələn, Aşıq Ələsgərin "Mələk" müxəmməsində olduğu kimi.

Təxmis. Təxmis bəndlərdəki misraların sayına, qafiyə quruluşuna görə müxəmməsin eynidir. Əslində təxmis müxəmməsin bir növüdür. Səciyyəvi cəhəti ondadır ki, təxmisin hər bəndində axırıncı iki misra (4-5-ci misralar) başqa bir şairin hansısa qəzəlindən götürülür. Bu o deməkdir ki, bir şair başqa bir şairin qəzəli əsasında müxəmməs yazır (yəni onu 5-liyə çevirir) və həmin müxəmməs xüsusi olaraq *təxmis* adlanır:

Xahi sincab eyləsin fərşin, Füzuli, xah gil,
Hicr ilə mütləq yuxu görməz göz, əylənməz könül,
Yarsız eşq əhlinin dinlənməgi mümkün degil,
"Necə dinlənsin Həbibi sənsiz, ey əndami-gül,
Kim, batır cisminə təndə hər tük olmuş bir tikən"...

Bu, təxmisin son bəndidir. Bəndin sonuncu iki misrası, yəni 4-5-ci misralar Həbibinin, əvvəlinci üç misrası isə M.Füzulinindir. Deməli, M.Füzuli Həbibinin bir qəzəli əsasında təxmis yaratmışdır. *Təxmis* sözünün mənası *beşləmə* deməkdir. Bu söz özlüyündə təxmisin necə yarandığını çox aydın ifadə edir.

Təxmis yazan şair yazdığı şeirin (təxmisin) qafiyə quruluşu, bəhri, hətta məzmunu cəhətdən təxmis etdiyi şairdən aşkar asılı olur. Buna

görə də hansısa şairi təxmis etmək həm təxmis edən şair, həm də təxmis olunan şair üçün bir şərəf işidir.

Müsəddəs. Sözün mənası *altılıq* deməkdir. Hər bəndində altı misra olan şeir janrıdır. Həcmcə 6-10 bənddən ibarət olur. Qafiyə quruluşu, əsasən, belə olur: *aaaaaa, bbbbaa, ccccaa, ...* Yəni müsəddəsin birinci bəndində bütün misralar bir-birilə qafiyələnir, sonrakı bəndlərdə isə əvvəlki dörd misra bir-biri ilə, sonuncu iki misra isə müvafiq olaraq birinci bəndin 5-6-cı misraları ilə həmqafiyə olur. M.Ə.Sabirin "Səttarxana" müsəddəsinin qafiyə quruluşu yuxarıda qeyd olunan şəkildədir.

Göründüyü kimi, mürəbbenin, müxəmməsin və müsəddəsin birinci bəndləri bir-birinə oxşayır, yəni birinci bəndlərdə bütün misralar bir-biri ilə həmqafiyə olur: *aaaa* (mürəbbe), *aaaaa* (müxəmməs), *aaaaaa* (müsəddəs). Fərq yalnız misraların sayındadır.

Əruz vəznli klassik şeirimizdə *müsəbbe* (yeddilik), *müsəmmən* (səkkizlik), *müəşşər* (onluq), *müstəzad, tərkibbənd, tərcibənd* kimi lirik janrlar da işlənmişdir.

Epik-lirik növ

Ayrıca epik və lirik əsərlər olduğu kimi, özündə həm epik, həm də lirik növün xüsusiyyətlərini daşıyan əsərlər də var. Belə əsərlərdə, bir tərəfdən, təhkiyə yolu ilə müəyyən hadisələr danışılır, digər tərəfdən isə, müəllif hadisələrin doğurduğu hiss-həyəcanların ifadəsinə xüsusi yer verir. Təhkiyə və tərənnüm kimi əksetdirmə üsullarının qaynayıb-qarışdığı əsərlər *epik-lirik növ* adı altında öyrənilir. Epik-lirik növ ədəbiyyatşünaslıqda *qarışıq janr* da adlanır. *Dastan* və *poema* qarışıq janra misal ola bilər. Bu janrlarda həm təhkiyə üsulu ilə əhvalatlar nağıl olunur, həm də qəhrəmanların daxili aləminin, onların duyğu və düşüncələrinin ifadəsi diqqət mərkəzinə çəkilir. Hadisələrin təsviri müəllifin, yaxud qəhrəmanın hiss-həyəcanlarının ifadəsinə nisbətən geniş yer tutduqda poema *epik-lirik* poema adlanır. M.Füzulinin "Leyli və Məcnun" əsəri epik-lirik poemadır. Müəllifin, yaxud qəhrəmanın

hiss-həyəcanlarının ifadəsi hadisələrin təsvirini üstələdikdə poema *lirik-epik* poema adlanır. S.Vurğunun "Bəsti" əsəri lirik-epik poemadır.

Dastanda aşıq tərəfindən əhvalatın nəql edilməsi epik üsuldur, qəhrəmanların öz əhvali-ruhiyyələrini, emosional-psixoloji yaşantılarını qoşma və gəraylılarla ifadə etməsi isə artıq lirik əksetdirmədir. Məsələn, "Şah İsmayıl", "Aşıq Qərib", "Abbas və Gülgəz" dastanlarında olduğu kimi.

Dramatik növ

Dramatik sözü yunan dilindəki *dram* sözündən götürülmüşdür, *hərəkət* deməkdir. Qəhrəmanların hərəkət və danışıqlarının ifadəsi əsasında yaranan dramatik növdə təhkiyədən istifadə edilmir. Dramatik növdə yazılmış əsərlərdə müəllifin hadisəyə müdaxilə etməsi də mümkün deyil. Teatr səhnəsində tamaşaya qoyulmaq üçün yazıldığından dramatik növdə olan əsərə *səhnə əsəri* və ya *pyes* də deyilir. Dram əsərlərinin mətni remarka, monoloq və dialoqlardan ibarət olur.

Remarkada müəllif hadisənin baş verdiyi zaman, məkan, qəhrəmanın daxili vəziyyəti, geyimi, zahiri görünüşü, qohumluq əlaqəsi, yaşı və s. barədə məlumat verir: *"Şuşa qalası. Qayalıqda zindan. Səhərdir, günəş yenicə qalxır. Vaqif divara şeir yazır, sonra da yazdığı şeiri oxuyur. Əli bəy qulaq asır"*. S.Vurğunun "Vaqif" dramından götürülmüş bu remarkada yığcam müəllif cümlələri ilə hadisənin baş verdiyi məkan və qəhrəmanların hərəkəti barədə məlumat verilmişdir.

Remarkalar səhnədə oxunmur, onlar pyesi tamaşaya hazırlayan rejissorlar, aktyorlar, rəssamlar, bəzən də əsərə musiqi bəstələyəcək bəstəkarlar üçün yazılır. Remarkalar müəllif göstərişləri olub, icra üçün, səhnədə həmin vəziyyəti yaratmaq üçündür.

Bütün dramatik əsərlərdə personajların nitqi iki formada olur:

1. *Monoloq* 2. *Dialoq.*

Monoloq yunan dilində *təksəslilik, təkbaşına danışmaq* deməkdir. Səhnə əsərində qəhrəmanın öz-özünə, təkbaşına danışması *monoloq* adlanır. Monoloq, adətən, əsas surətlərdən birinin dilindən söylənilir və qəhrəmanın xarakterinin açılmasına, ümumilikdə əsərin ideyasının

oxucu, yaxud tamaşaçıya çatdırılmasına kömək edir. N.Vəzirovun "Müsibəti-Fəxrəddin" faciəsində əsərin əsas surətləri olan Rüstəm bəyin və Fəxrəddin bəyin monoloqlarından məharətlə istifadə edilmişdir.

Dialoq yunanca *söhbət, müsahibə* deməkdir. Səhnə əsərlərində iki və ya daha artıq şəxsin danışığı *dialoq*[*] adlanır. Dramatik növdə yazılmış əsərlərdə süjet xətti və ayrı-ayrı surətlərin daxili aləmi oxucu, yaxud tamaşaçıya daha çox dialoqlar vasitəsilə çatdırılır. Dialoq əvəzinə *mükalimə* də deyilə bilər. *Mükalimə* ərəb sözü olub, *dialoq*la eyni mənalıdır.

Səhnə əsərləri nəsrlə yazıldığı kimi, nəzmlə də yazıla bilər. Nəzmlə yazılan dram *mənzum dram,* nəsrlə yazılmış dram isə *mənsur dram* adlanır. Yadda saxlamaq lazımdır ki, bütün remarkalar nəsrlə yazılır.

Tamaşaya qoyulmaq üçün yox, yalnız mütaliə üçün yazılan dramlara da rast gəlmək olur. Belə dramlar *leze dramlar* adlanır. (Məsələn, H.Cavidin "Peyğəmbər" dramı leze dram sayıla bilər).

Azərbaycan ədəbiyyatında dramatik növün ilk nümunəsini M.F.Axundzadə yaratmışdır. Bu ilk nümunə onun "Hekayəti-Molla İbrahimxəlil kimyagər" komediyasıdır. Beləliklə, Azərbaycan ədəbiyyatında dramatik növün ilk nümunəsi komediya janrında meydana çıxmışdır.

Ümumən, Azərbaycan ədəbiyyatında dramatik növün ilk nümunələri aşağıdakı tarixi ardıcıllıqla meydana çıxmışdır: 1. Komediya – "Hekayəti-Molla İbrahimxəlil kimyagər" (1850). 2. Dram – "Hekayəti-xırs quldurbasan" (1851). 3. Faciə – "Müsibəti-Fəxrəddin" (1896).

Tarixi faciə 1898-ci ildə (N.Nərimanov. "Nadir şah"), mənzum faciə 1910-cu ildə (H.Cavid. "Ana") yazılmışdır.

Dramatik növün üç əsas janrı vardır: komediya, faciə, dram.

Komediya. Yunan sözüdür və *şən yığıncaq, şən tamaşa* deməkdir. Şərqdə bu janra *məzhəkə* də deyilir. Məzhəkə ərəbcə *gülməli söz* və ya *gülməli hərəkət* deməkdir. Həyat hadisələrini gülməli tərzdə əks etdirən pyes *komediya* və ya *məzhəkə* adlanır. Komediyada gülüşə yalnız

[*] Bəzən ikidən çox adamın danışığı mənasında ***poliloq*** terminindən də istifadə edilir.

əyləncə vasitəsi kimi baxmaq olmaz. Komediyada gülüş ictimai-əxlaqi məzmun daşıyır, müəllif bədii gülüşdən istifadə etməklə cəmiyyətdə müşahidə etdiyi nöqsanları tənqid edib aradan qaldırmaq məqsədi güdür.

Komediyada gülüş yaratmağın müxtəlif üsulları vardır. Bu üsullardan biri qəhrəmanın sözü ilə əməlinin iddiası ilə real imkanlarının qarşılaşdırılmasıdır. M.F.Axundzadənin "Hacı Qara" komediyasında Hacı Qaranın öz igidliyindən dəm vurması ilə Arazı keçərkən çaya düşməsi, dövlət məmurlarını, sonradan iki erməni əkinçisini görüb qorxuya düşməsi qarşılaşdırılır və həmin səhnələr arasındakı ziddiyyət vasitəsilə gülüş yaradılır.

Azərbaycan ədəbiyyatı tarixində ilk komediya M.F.Axundzadənin "Hekayəti-Molla İbrahimxəlil kimyagər" əsəridir.

Ədəbiyyatda musiqili komediya nümunələri də vardır. Sözlə musiqinin vəhdəti əsasında yaranan komediya *musiqili komediya* adlanır. Ü.Hacıbəyovun "Arşın mal alan" və "O olmasın, bu olsun" əsərləri musiqili komediyanın əvəzsiz nümunələridir.

Komediyanın baş qəhrəmanı bəzən müsbət obraz da ola bilər. Məsələn, S.Rəhmanın "Nişanlı qız", M.İbrahimovun "Kəndçi qızı" komediyalarının baş qəhrəmanları müsbət obrazlardır. Dramaturqlar belə əsərlərdə gülüşü (istər satirik, istər yumoristik gülüş olsun) daha çox başqa səmtə – mənfi obrazlara tərəf yönəldirlər, müsbət qəhrəmanın bəzi çatışmazlıqları, onun hərəkətlərindəki bəzi anlaşılmazlıqlar müəyyən rəğbət hissi ilə, yumorla göstərilir.

Faciə. Ərəbcə *kədərli, dəhşətli hadisə* deməkdir. Janrın adı kimi *tragediya* terminindən də istifadə olunur. Söz öz ilk mənasından (*tragediya* keçilər haqqında nəğmə demək idi) uzaqlaşaraq, dramatik növün bir janrını bildirmişdir. Komediyada gülməli hadisələr əsas yer tutursa, faciədə kədərli, dəhşət doğurucu hadisələr ön plana keçir. Böyük ümidin, xoş arzunun məhv olması ilə nəticələnən pyeslər *faciə* adlanır. Faciənin baş qəhrəmanı, əsasən, yeni ideya, yeni həyat uğrunda mübarizə aparır. Bu mübarizədə baş qəhrəman kəskin müqavimətə rast gəlir. Qəhrəmanın arzusu ilə həmin arzunu həyata keçirmək imkanı arasında çox böyük ziddiyyət yaranır. Qarşılaşdığı çətinliklərə baxmayaraq, faciə qəhrəmanı öz əqidəsindən dönmür və çox vaxt bu

yolda həlak olur. Faciədə qəhrəmanın fiziki ölümü onun mənəvi qələbəsi kimi mənalanır. Müsbət qəhrəman fiziki cəhətdən məhv olsa da, öz idealı uğrunda fədakar, güzəştsiz mübarizəsi ilə mənfi qüvvələrə mənəvi cəhətdən qalib gəlmiş olur. Bütün bu xüsusiyyətləri N.Vəzirovun "Müsibəti-Fəxrəddin" faciəsində qabarıq şəkildə müşahidə etmək olar. 1896-cı ildə yazılmış "Müsibəti-Fəxrəddin" əsəri Azərbaycan ədəbiyyatı tarixində faciə janrının ilk nümunəsidir. Həmin əsərdən sonra Ə.Haqverdiyev, N.Nərimanov, H.Cavid, C.Cabbarlı kimi sənətkarlarımız faciə janrının yeni-yeni nümunələrini yaratmışlar.

Bəzən faciənin də baş qəhrəmanı mənfi surət olur. Məsələn, Ə.Haqverdiyevin "Ağa Məhəmməd şah Qacar" adlı tarixi faciəsində baş qəhrəman mənfi surətdir. Amma faciə qəhrəmanı mənfi surət olsa da, bütövlükdə güclü şəxsiyyət olmalıdır. Mənfi qəhrəmanın güclü şəxsiyyət olması nəticə etibarilə müsbət qəhrəmanın bir ideala, nümunəyə çevrilməsində heç də az rol oynamır.

Faciə nəsrlə yazıldığı kimi, nəzmlə də yaza bilir. Ədəbiyyatımız tarixində mənzum faciənin ilk nümunəsi H.Cavidin "Ana" əsəridir (1910). Faciə janrının sonrakı daha mükəmməl nümunələri H.Cavidin "Şeyx Sənan" (1914) və "İblis" (1918) əsərləridir.

Dram. *Dram əsəri* dedikdə çox vaxt dramatik növdə yazılmış bütün əsərlər nəzərdə tutulsa da, ayrıca işlənən *dram* termini dramatik növün yalnız bir janrının adını bildirir. Dramda həm komediya, həm də faciəyə xas əlamətlər özünü göstərir. Dram komediya ilə faciə arasında orta mövqe tutur. Buna baxmayaraq, dram janrı dramatik növün digər iki janrından özünəməxsus xüsusiyyətləri ilə seçilir. Faciədəki kimi, dramda da qəhrəmanla ətraf mühit arasında ciddi münaqişə və kəskin toqquşma baş verir. Amma faciədən fərqli olaraq, dramda qəhrəman bu münaqişə və toqquşma zamanı, bir qayda olaraq, həlak olmur, şər qüvvələrə mənəvi cəhətdən qalib gəlməklə bərabər, həm də fiziki cəhətdən sağ qalır. Dramda komik səhnələrdən də istifadə edilə bilər. Amma dramın başdan-başa gülməli hadisələr üzərində qurulması mümkün deyil. Ədəbiyyatımız tarixində dram janrının ilk nümunəsi M.F.Axundzadənin "Hekayəti-xırs quldurbasan" (1851) əsəridir.

Dram janrı da nəzmlə yazıla bilir. H.Cavidin "Peyğəmbər", S.Vurğunun "Vaqif" kimi əsərləri mənzum dram nümunələridir. Yeri

gəlmişkən deyək ki, S.Vurğun bütün dramatik əsərlərini mənzum şəkildə yazmışdır.

Tragikomediya. Bildiyimiz kimi, faciə və dram janrlarında komediya janrının elementlərindən istifadə edilə bilər. V.Şekspirin "Kral Lir" və H.Cavidin "Topal Teymur" əsərlərində, eləcə də S.Vurğunun "Vaqif" dramında təlxək obrazına yer verilməsi faciə və dramda komik elementlərdən istifadə edilməsinə səciyyəvi misallardır. Amma bəzən tragik məzmunlu pyesdə komizm, komik məzmunlu əsərlərdə isə tragizm o dərəcədə əsaslı yer tutur ki, həmin pyesləri janrına görə "faciə" və ya "dram" yox, "tragikomediya" adlandırmaq lazım gəlir. Məsələn, antik yunan ədəbiyyatında faciə ustalarından biri kimi tanınan Evripidin "İon" əsərindən, Avropa intibah ədəbiyyatında öz faciələri ilə daha çox məşhur olan V.Şekspirin "Fırtına" əsərindən tragikomediya kimi danışırlar. XIX əsr rus ədəbiyyatında yumoristik əsərlər müəllifi kimi də tanınan A.P.Çexovun "Üç bacı" pyesi tragikomediya hesab edilir.

Azərbaycan ədəbiyyatında tragikomediya janrı daha çox C.Məmmədquluzadənin adı ilə bağlıdır. C.Məmmədquluzadənin "Ölülər", "Anamın kitabı" və "Dəli yığıncağı" əsərlərinin tragikomediya adlandırılması təsadüfi deyil. Məsələ burasındadır ki, həmin əsərlər komik əhvalatlar fonunda faciəvi məzmun, gülüş içərisində göz yaşı ifadə etməsi ilə ədəbiyyatımızdakı nikbin ruhlu komediyalardan (məsələn, M.F.Axundzadənin "Hekayəti – Molla İbrahimxəlil kimyagər", "Hekayəti – Müsyö Jordan və dərviş Məstəli şah", "Hacı Qara" əsərlərindən) xeyli dərəcədə fərqlənir.

"Ölülər" əsərində Şeyx Nəsrullahın ölü diriltmək adı ilə insanları aldatması, onların şərəf və ləyaqətini tapdalaması; "Anamın kitabı" əsərində ayrı-ayrı ölkələrdə təhsil alan qardaşların milli mənlik hissindən məhrum olması və xalqa biganə mövqe tutması; "Dəli yığıncağı" əsərində ağlı üstündə olan insanların öz mənəviyyatını itirib dəlilərdən betər ağılsızlıq nümayiş etdirməsi nə qədər gülməlidirsə, bir o qədər də kədərli və faciəvidir.

XX əsr Azərbaycan dramaturgiyasının ən böyük nümayəndələri C.Məmmədquluzadə, H.Cavid, C.Cabbarlı, S.Vurğun, S.Rəhman, M.İbrahimov, M.Hüseyn, İ.Əfəndiyev və B.Vahabzadə olmuşlar.

ƏDƏBİYYATDA GÜLÜŞ

Bədii gülüş həyat hadisələrini əks etdirməyin bir formasıdır. Elə janrlar var ki, bədii gülüş həmin janrların ayrılmaz keyfiyyətinə çevrilir. Şifahi xalq ədəbiyyatında lətifə və qaravəlli, yazılı ədəbiyyatda taziyanə (4-6 misralıq kəskin satirik şeir), komediya və felyeton belə janrlardandır. Amma bədii gülüş heç də həmin janrlarla məhdudlaşmır və ədəbi janrların çoxunda bu və ya digər dərəcədə özünü göstərir. Bədii gülüşün iki əsas növü vardır: *satira, yumor.*

Satira. Satira *ifşaedici* və *öldürücü* gülüşdür. Müəllif bu gülüş vasitəsilə ictimai nöqsanları kəskin tənqid edir və həmin nöqsanların daşıyıcılarının məhv edilməsi məqsədini güdür. Müəllif satira hədəfinə çevirdiyi qüvvələrə əks mövqedən yanaşır. Q.Zakir "Xəbər alsan bu vilanın əhvalın" şeirində xalqın qanını soran çar məmurlarını, zülmkar bəyləri və fırıldaqçı din xadimlərini özünə düşmən bilir və onları ifşaedici və öldürücü gülüş hədəfinə çevirir. S.Ə.Şirvani, C.Məmmədquluzadə, M.Ə.Sabir kimi sənətkarların yaradıcılığında satiradan geniş istifadə edilmişdir.

Yumor. Yumor da satira kimi tənqidi mahiyyət daşıyır. Amma bu tənqiddə ifşaedicilik və öldürücülük xüsusiyyəti olmur. Müəllif yumor hədəfinə çevirdiyi qüvvələrə düşmən yox, dost mövqeyindən yanaşdığına görə həmin qüvvələrin nöqsanlardan uzaqlaşması məqsədini güdür. Onlara rəğbətlə, mərhəmət hissi ilə yanaşır. Odur ki, ədəbiyyatşünaslıqda yumor *islahedici* və *mərhəmət doğurucu* gülüş kimi, dost gülüşü kimi səciyyələndirilir. Satira oxucuda tənqid hədəfinə qarşı qəzəb, nifrət hissi doğurduğu halda, yumor oxucuda tənqid hədəfinə mərhəmət hissi doğurur. C.Məmmədquluzadənin "Poçt qutusu" hekayəsində Novruzəli yumor hədəfidir. Müəllif Novruzəlini düşmən yox, dost mövqeyindən tənqid edir və onun avamlıqdan qurtulmasını, gözünün açılmasını, dost-düşmənini tanımasını istəyir.

BƏDİİ ƏSƏRİN QURULUŞU

Mövzu və ideya

Mövzu. Bədii əsərin mövzusu dövr üçün səciyyəvi olan, yazıçının dərk edib seçdiyi, bədii əsərə gətirdiyi hadisələrdir. Məsələn, M.F.Axundzadə "Aldanmış kəvakib" povestinin mövzusunu Şah Abbasla bağlı tarixi bir hadisədən götürmüşdür.

Bədii əsərdə müəllif bir yox, bir neçə hadisəyə müraciət edə bilər. Belə olduqda mövzu iki qrupa ayrılır: əsas mövzu, yardımçı mövzu. Məsələn, N.Gəncəvinin "Xosrov və Şirin" poemasında məhəbbət əsas mövzu olsa da, müəllif əməkçi insan, ədalətli hökmdar kimi yardımçı mövzulara da müraciət edir.

İdeya. Qələmə aldığı həyat hadisəsi haqqında yazıçının gəldiyi fikir bədii əsərin ideyasıdır. "Aldanmış kəvakib" povestindəki əhvalatları təsvir etməklə müəllifin oxucuya çatdırmaq istədiyi ideya bundan ibarətdir: ölkənin idarə edilməsi xalq içərisindən çıxmış adamlara tapşırılarsa, zülm aradan qalxar, insanlar azad və xoşbəxt yaşayarlar. Bunun üçün insanlar maariflənməli, şüurca da inkişaf edib təzələnməlidirlər ki, yeni hökmdarın islahatlarını və ideyalarını nəinki qəbul edə bilsinlər, hətta lazım gəldikdə onu qoruya bilsinlər.

Məzmun və forma

Bədii əsərdə mövzu və ideya onun (əsərin) məzmununa; janr, vəzn, bölgü, qafiyə, bədii təsvir və ifadə (dil) vasitələri və s. isə onun formasına aid anlayışlardır. Məzmunla forma vəhdət təşkil etməlidir. M.F.Axundzadənin sözləri ilə desək "... həm məzmun gözəlliyinə, həm də ifadə (forma) gözəlliyinə malik olan nəzm (... Nizaminin "Xəmsə"si kimi) ... hər kəs tərəfindən bəyənilir". Məzmunla formanın qarşılıqlı əlaqəsində məzmun aparıcı mövqe tutur və formanı müəyyən edir. Yəni yazıçı formanı konkret məzmuna uyğun olaraq seçir. Forma ilə müqayisədə

məzmun daha çox dəyişir. Yazıçı əsərdən-əsərə məzmunu dəyişdiyi halda, formanı heç də əsərdən-əsərə tamamilə dəyişməyə ehtiyac görmür. Məsələn, Aşıq Ələsgər eyni şeir formasından (məsələn, qoşmadan) istifadə edərək, müxtəlif məzmunlu əsərlər yaratmışdır.

Bədii əsərdə hadisə və surət

Həyat hadisələri bədii əsərdə surətlər vasitəsilə əks olunur. *Surət* termini həm məhdud, həm də geniş mənada işlənir. Məhdud mənada surət bədii əsərdə təsvir olunan konkret şəxsləri bildirir. Məsələn, M.Füzulinin "Leyli və Məcnun" poemasında Məcnun, Leyli, Novfəl, Zeyd, İbn Səlam kimi surətlər vardır. *Surət* yerinə bəzən *obraz* da işlədilir.

Geniş mənada surət bədii şəkildə əks olunan müxtəlif faktlar deməkdir. Həmin faktlar insanlarla bağlı olmaqdan başqa, təbiət lövhələri ilə, əşyalarla və heyvanlarla da bağlı ola bilər. Buradan aydın olur ki, surətin müxtəlif növləri vardır: insan surəti, təbiət surəti, əşya surəti, heyvan surəti və s.

İnsan surəti

Bədii əsərdə insan surətləri *fərdiləşdirmə* və *ümumiləşdirmə* yolu ilə yaradılır. Yəni yazıçı insanın həm başqalarından seçilən, həm də başqalarına oxşayan xüsusiyyətlərinə diqqət yetirir. Bununla yanaşı, belə bir cəhəti də unutmaq olmaz ki, ədəbi qəhrəmanların bir qismi fərdi xüsusiyyətləri, digər bir qismi isə başqalarına oxşar xüsusiyyətləri ilə diqqəti daha çox cəlb edir. Fərdi xüsusiyyətləri ilə diqqəti daha çox cəlb edən surət *xarakter* adlanır. Məsələn, C.Cabbarlının "Oqtay Eloğlu" əsərindəki Oqtay, İ.Şıxlının "Dəli Kür" əsərindəki Cahandar ağa xarakter nümunələri sayıla bilər. Çünki bu surətlərin (obrazların) başqa insanlarda az müşahidə olunan özünəməxsus cəhətləri vardır.

Ümumiləşdirmə baxımından diqqəti daha çox cəlb edən surət *tip* adlanır. Məsələn, C.Məmmədquluzadənin "Danabaş kəndinin əhvalatları"

povestində Xudayar bəy XIX əsrin sonlarında yaşayan zülmkar "bəylərin" ümumiləşdirilmiş bir surəti olduğuna görə tipdir.

Yazıçı obraz yaradarkən bəzən həyatdakı real bir şəxsə əsaslanır və həmin şəxs bədii obrazın mənbəyinə çevrilir. Həyatda yaşayan və hansısa bədii obrazın mənbəyinə çevrilən şəxsə *proobraz*, yaxud *prototip* deyilir. Bəzən müəllif özü bədii əsərdə prototip kimi diqqəti cəlb edir. Məsələn, H.Cavid "Azər" poemasında Azərin, C.Cabbarlı "Oqtay Eloğlu" faciəsində Oqtayın, S.Vurğun "Komsomol poeması"nda Cəlalın prototipi hesab olunur.

Müsbət və mənfi surətlər. Əsərdə irəli sürülən mütərəqqi ideyaya tərəfdar olan, insanlara humanistcəsinə yanaşan, xalq mənafeyini güdən surətə *müsbət surət* deyilir. Məsələn, S.Vurğunun "Vaqif" dramında Vaqif, Vidadi, Eldar, Əli bəy, Gülnar müsbət surətlərdir.

Əsərdə irəli sürülən mütərəqqi ideyaya qarşı çıxan, şəxsi mənafeyini xalq mənafeyindən üstün tutan surətə *mənfi surət* deyilir. S.Vurğunun "Vaqif" dramında Qacar, İbrahim xan, vəzir, Şeyx Alı mənfi surətlərdir.

Müsbət surətlərin də bəzi nöqsanları ola bilər. Amma bu nöqsanlar ümumxalq mənafeyi ilə ziddiyyət təşkil etmədiyinə və islah oluna bildiyinə görə belə surətləri mənfi surətlər sırasına daxil etmək olmaz. N.Gəncəvinin "Xosrov və Şirin" poemasında Xosrovun hakimiyyətə və məhəbbətə ciddi münasibət bəsləməmək kimi nöqsanları var. Amma bu nöqsanlara görə Xosrovu mənfi surət adlandırmaq olmaz. Çünki Xosrov daha çox Şirinin təsiri ilə müsbətə doğru dəyişir və nöqsanlardan qurtulur.

Bədii əsərin qəhrəmanı. Təsvir olunan hadisələrin mərkəzində duran və yazıçının irəli sürdüyü ideyanın əsas ifadəçisinə çevrilən surətə *əsərin qəhrəmanı* deyilir. Bir çox əsərlər qəhrəmanların adını daşıyır. N.Gəncəvinin "Xosrov və Şirin", "Leyli və Məcnun", "İsgəndərnamə" poemaları belə əsərlərdəndir. Bəzi əsərlər ikiqəhrəmanlı da ola bilir. Məsələn, Nizaminin "Xosrov və Şirin", "Leyli və Məcnun" poemaları, N.Vəzirovun "Müsibəti-Fəxrəddin" faciəsi ikiqəhrəmanlı əsərlərdir.

Bədii əsərin qəhrəmanı müsbət surət olduğu kimi, mənfi surət də ola bilər. M.F.Axundzadənin ilk komediyasının qəhrəmanı Molla İbrahimxəlil, C.Məmmədquluzadənin "Ölülər" komediyasının qəhrəmanlarından biri olan Şeyx Nəsrullah mənfi surətlərdir.

Əsas və epizodik surətlər. Bədii əsərin surətləri əsərdə tutduqları yerə, münaqişənin həllində oynadıqları rola görə iki yerə bölünür:

1. Əsas surətlər. 2. Epizodik surətlər. Təsvir olunan hadisələrdə fəal iştirak edən, süjet xətti ilə möhkəm bağlı olan, münaqişənin inkişafında və həllində mühüm rol oynayan surət *əsas surət* adlanır.

Surətin əsas surət hesab edilməsi şəxsin bacarıqlı olub-olmaması ilə yox, hadisələrin inkişafında və xarakterlərin açılmasında onun mühüm rol oynaması ilə ölçülür. C.Məmmədquluzadənin "Qurbanəli bəy" hekayəsində nökər Kəblə Qasım aciz, itaətkar bir adamdır. Amma əsərin baş qəhrəmanı Qurbanəli bəyin xarakterinin açılmasında Kəblə Qasım mühüm rol oynadığına görə bu surəti də əsas surət sayırıq.

Baş qəhrəman kimi, əsas surət də həm müsbət, həm də mənfi obrazlardan ibarət ola bilər. S.Vurğunun "Vaqif" əsərində əsas surətlərdən olan Şeyx Alı mənfi surətdir.

Epizodik surət. Əsərin mərkəzi xətti ilə bilavasitə elə bir əlaqəsi olmayan, hadisələrin inkişafına ciddi təsir göstərməyən və oxucunun nəzərinə az çarpan surət *epizodik surət* adlanır. H.Cavidin "İblis" faciəsində xəstə qadın belə surətdir. O, əsərin yalnız bir epizodunda iştirak edir və hadisələrin inkişafına ciddi təsir göstərmir. M.F.Axundzadənin "Hekayəti-Molla İbrahimxəlil kimyagər" komediyasının yalnız əvvəlinci məclisində iştirak edən Şeyx Salah da epizodik surətdir.

Portret. Bədii əsərdə surətin xarici görkəminin – boyu, bədən quruluşu, üz cizgiləri və geyiminin sözlə ifadəsinə *portret* deyilir. C.Məmmədquluzadə "Danabaş kəndinin əhvalatları" povestində Xudayar bəyin uca boyu, qara saqqalı, qaşları, gözləri, sifəti, burnu, papağı barədə məlumat verməklə həmin obrazın portretini yaratmış olur.

Yaradılmış portret obraz barədə oxucuda rəğbət və ya nifrət, müsbət və ya mənfi münasibət əmələ gətirir, xarakterin açılmasına, əsərin ideyasının müəyyən qədər ifadəsinə kömək edir.

Yazıçı obrazın zahiri görünüşünü təsvir etməklə bərabər, onun daxili aləmini, müəyyən hadisələr vaxtı keçirdiyi sevinc, kədər, qorxu, təəssüf, nigarançılıq kimi hislərini də təsvir edir. Belə təsvirə *əhvali-ruhiyyə təsviri* deyilir. Əhvali-ruhiyyə təsvirinə *daxili portret* də deyilir.

Azərbaycan ədəbiyyatında əhvali-ruhiyyə portreti yaratmağın ən böyük ustası M.Füzulidir.

Təbiət surəti — peyzaj

Peyzaj fransız sözüdür, *ölkə, məkan, yer* deməkdir. Peyzaj ədəbiyyatşünaslıqda təbiət təsviri mənasında işlənir. Təbiət mənzərəsinin təsviri *təbiət surəti*, yaxud *peyzaj* adlanır. Yazıçı təbiət təsviri verərkən həmin təsviri qəhrəmanın əhvali-ruhiyyəsi, xarakteri və əsərin ideyası ilə əlaqələndirir. Təbiət gözəlliklərinin təsviri qəhrəmanın əhvali-ruhiyyəsi ilə vəhdət təşkil etdiyi kimi, ziddiyyət də təşkil edə bilər. Məsələn, İ.Qutqaşınlının "Rəşid bəy və Səadət xanım" hekayəsində təbiət gözəlliyinin təsviri Səadət xanımın pərişan əhvali-ruhiyyəsi ilə ziddiyyət təşkil edir. Müəllif bu ziddiyyətdən qəhrəmanın daxili aləmini qabarıq şəkildə əks etdirmək vasitəsi kimi istifadə edir.

Əşya surəti

Bədii əsərdə cansız əşyaların, xüsusən ev, məişət avadanlıqlarının təsviri *əşya surəti* adlanır. C.Məmmədquluzadənin "Danabaş kəndinin əhvalatları" povestində Xudayar bəyin zoğal ağacı – dəyənək də əşya surətidir. C.Məmmədquluzadənin "Poçt qutusu" hekayəsində əşya surəti o dərəcədə mühüm əhəmiyyət kəsb edir ki, müəllif əsərin adında da həmin surətdən istifadə edir.

Əşya surəti də, təbiət surəti kimi, qəhrəmanların xarakteri və əsərin ideyası ilə yaxından bağlı olur.

SÜJET VƏ KOMPOZİSİYA

Süjet

Süjet fransız sözüdür. *Əsərdə təsvir olunan mahiyyət və hadisənin özü* deməkdir. Bədii əsərdə hadisələrin müəyyən xətt üzrə inkişafına *süjet* deyilir. Süjeti təşkil edən hadisələr yalnız düz xətlə deyil, həm də yüksələn və enən xətlə inkişaf edir. Süjet xəttinin inkişafında beş əsas mərhələ olur:

1. Ekspozisiya. 2. Zavyazka. 3. Kulminasiya. 4. Razvyazka. 5. Final.

Ekspozisiya. Azərbaycan ədəbiyyatşünaslığında ekspozisiya anlayışı *bədii müqəddimə, bədii zəmin* terminləri ilə də ifadə olunur. Yazıçı bədii əsərdə əhvalatı danışmazdan əvvəl həmin hadisənin başvermə şəraiti haqqında məlumat verir və bununla da hadisələrin necə cərəyan edəcəyinə işarə edir. Bu, süjet xəttinin *ekspozisiya mərhələsi* adlanır. M.Füzulinin "Leyli və Məcnun" poemasında Qeysin anadan olması, dünyaya gələn dəqiqədən ağlamağa başlaması, gözəl bir qadının qucağında ağlamağını kəsməsi və bu epizodla onun gələcəkdə aşiq olacağına işarə edilməsi əsərin ekspozisiya mərhələsidir.

Zavyazka. Azərbaycan ədəbiyyatşünaslığında *zavyazka* anlayışı *rəbt, düyün* sözləri ilə də ifadə olunur. Həm rus dilindəki *zavyazka*, həm də ərəb dilindəki *rəbt* sözləri *düyün vurmaq, bağlamaq* mənasındadır. Zavyazka ekspozisiyadan sonra gələrək, hadisələrin getdikcə düyünlənməsini, mürəkkəbləşməsini göstərir. "Leyli və Məcnun" poemasında (M.Füzuli) Qeyslə Leylinin məktəbdə tanışlığı, bir-birini sevməsi, sonradan Leylinin məktəbə buraxılmaması, Qeysin səhraya üz tutması, Qeysin atasının Leyliyə elçi getməsi, rədd cavabı alması, Məcnunu şəfa üçün Kəbəyə aparması, Məcnunun Allaha üz tutub onu eşq bəlasından ayırmamağı

arzulaması əsərin zavyazka mərhələsini təşkil edir. Göründüyü kimi, düyünü yalnız bir yox, bir neçə hadisə təşkil edə bilər.

Zavyazka əsərdə konflikt-münaqişənin meydana çıxması ilə başlayır, bir qayda olaraq, süjetin daha böyük mərhələsini təşkil edir.

Kulminasiya. Latınca *qulmen* sözündəndir, *təpə, zirvə, yüksəklik* deməkdir. Buna görə də Azərbaycan ədəbiyyatşünaslığında kulminasiya anlayışı *zirvə, zirvə nöqtəsi* sözləri ilə də ifadə olunur. Əsərin süjet xəttində hadisələrin, ziddiyyətlərin ən yüksək inkişaf mərhələsinə *kulminasiya nöqtəsi* deyilir. M.Füzulinin "Leyli və Məcnun" poemasında Leylinin İbn Səlamın ölümündən sonra səhrada Məcnunla qarşılaşması bu poemanın kulminasiya nöqtəsi sayıla bilər.

Razvyazka. Bədii əsərdə düyünün açılmasına, münaqişənin zəifləməsinə *razvyazka* deyilir. Razvyazka hadisələrin kulminasiya nöqtəsindən sonrakı davamıdır. Bu mərhələdə ziddiyyətlər tədricən aradan qalxmağa başlayır. "Leyli və Məcnun" (M.Füzuli) poemasında İbn Səlamın ölümündən sonra atası evinə qayıdan Leylinin səhrada Məcnunla rastlaşması və Məcnunun Leylini tanımaması razvyazkaya nümunə ola bilər. Razvyazkadan bir çox hallarda əsərin finalı sezilməyə başlayır.

Final. Bədii əsərdə hadisələr müəyyən bir sonluğa çatır ki, bu, *final* adlanır. "Leyli və Məcnun" (M.Füzuli) poemasında Leylinin və Məcnunun ölümü əsərin finalını təşkil edir. Finala bəzən *bədii sonluq* da deyilir.

Sizin geniş keçdiyiniz "Vaqif" dramında süjetin mərhələləri aşağıdakı şəkildədir:

Ekspozisiya – Vaqifin Qazaxa, Vidadiya qonaq gəlməsi, kəndlilərlə görüşməsi, zavyazka Vaqifin oğlu Əli bəyin toy səhnəsində çoban Eldarın gəlişi, xanın qəzəblənməsi ilə başlayır... Kulminasiya Vaqifin Qacarla üzləşməsi, razvyazka isə zindan səhnəsidir. Qacarın öldürülməsi, xalqın Vaqifi zindandan çıxarması və böyük sevinci isə bu əsərin finalı – bədii sonluğudur.

Kompozisiya

Bədii əsərdə həyat hadisələrinin bir-biri ilə əlaqələndirilməsinə və müəyyən bir sistemdə qurulmasına *kompozisiya* deyilir. *Epiqraf, proloq, epiloq,* həmçinin *lirik haşiyə* və *peyzaj* kompozisiyanın ünsürləridir.

Epiqraf. Bəzən yazılı əsərin əvvəlində, yaxud onun ayrı-ayrı hissələrinin, fəsillərinin başlanğıcında başqa sənətkarlardan, görkəmli şəxsiyyətlərdən müəyyən hikmətli fikir ifadə edən cümlə və ya bir neçə misra verilir (həmin cümlələr, misralar müəllifin özünün də ola bilər). Əsərin, yaxud fəslin əvvəlində verilən həmin nümunələrə *epiqraf* deyilir. Epiqraf ifadə etdiyi məna ilə oxucunun diqqətini qabaqcadan əsərin, yaxud fəslin ümumi məzmun və ideyasına yönəldir. Məsələn, Mir Cəlal "Bir gəncin manifesti" romanında böyük rus yazıçısı L.Tolstoydan belə bir epiqraf verir: *"Bütün xoşbəxt ailələr bir-birinə bənzəyirlər, bədbəxt ailələrin isə hərəsi bir cürə bədbəxtdir".*

C.Məmmədquluzadə "Danabaş kəndinin əhvalatları" povestinin əvvəlində yunan filosofu Sokratdan belə bir epiqraf vermişdir: *"Qəlbimdən gələn səs mənə çox zadlar öyrədir. Haman səs pak və təmiz insafımın səsidir ki, hamıda o insaf var. Hər kəs huş-guş ilə onun buyruğuna qulaq asıb əmrinə əməl eləsə, çox sirlərdən agah olub, çox işlər görə bilər".*

Proloq. Yunanca *pro, loqos* sözlərindəndir, *ön* söz deməkdir. Əsərin əvvəlində verilən və danışılacaq əhvalatla oxucunu yığcam şəkildə tanış edən hissə *proloq* adlanır. Məsələn, N.Gəncəvi "İsgəndərnamə" poemasında ənənəvi başlıqlardan sonra "Dastanın xülasəsi və İsgəndərin cahangirlik tarixi" başlığı altında qəhrəmanın həyatına ümumi nəzər salır və bununla əsərə proloq vermiş olur. Yaxud S.Vurğunun "Muğan" poemasında "Təbiət ilhama çağırır məni" misrasının daxil olduğu parça ümumi giriş funksiyası daşıdığına görə proloq nümunəsi sayıla bilər. Bəzən proloqda əsəri yazmaqda müəllifin məqsədi, oxucuya müəyyən

"sifarişləri", istəkləri də verilə bilir. Məsələn, məşhur şairlərdən biri poemalarından birinin başlanğıcında oxucusuna müraciətlə deyir:

Xoşuna gəlməzsə misranın biri,
Onun xatirinə pisləmə şeiri.

Epiloq. Proloqdan fərqli olaraq, epiloq əsərin əvvəlində yox, sonunda verilir. Epiloqda müəllif bütün əsər boyu qaldırdığı məsələləri yekunlaşdırır. Məsələn, "Leyli və Məcnun" poemasında M.Füzuli hadisələri "Təmameyi-süxən" başlığı altında, "Danabaş kəndinin əhvalatları" povestində C.Məmmədquluzadə hadisələri "Xitamə" başlığı altında yekunlaşdırır. *Xitamə* ərəbcə *xətm* sözündən olub, elə *sonluq, epiloq* deməkdir.

Proloq və epiloq, əsasən, iri həcmli epik janrlarda: poema, povest və romanlarda işlənir.

Peyzaj. Bədii əsərdəki təbiət təsviri *peyzaj* adlanır. Məsələn, M.Füzuli "Leyli və Məcnun" poemasında Məcnunla Leylinin görüşündən söhbət açarkən baharın təsvirini verir. İ.Şıxlı "Dəli Kür" romanında Kür qırağındakı meşələrin təsvirindən məharətlə istifadə edir.

Lirik haşiyə. Bu anlayış *lirik ricət* termini ilə də ifadə olunur. Lirik haşiyə, yaxud lirik ricət bədii əsərdə müəllifin hadisələrin inkişafını müvəqqəti olaraq dayandırıb hansısa məsələ ilə bağlı öz hiss-həyəcanını, münasibətini, reaksiyasını bildirməsidir. Məsələn, S.Vurğun "Muğan" poemasında lirik haşiyələrdən tez-tez istifadə edir və Muğan düzü ilə bağlı hiss-həyəcanlarını öz oxucusu ilə bölüşür.

Lirik haşiyə, bir qayda olaraq, epik əsərlərdə, xüsusilə poemalarda işlənir.

Bədii əsərin dili

Bədii dilin tərkibi

Arxaizm, neologizm, varvarizm, vulqarizm, termin və dialektizm kimi anlayışlar bədii dilin tərkibində özünəməxsus yer tutur.

Arxaizmlər. Bugünkü ədəbi dildə işlənməyən və bu səbəbdən köhnəlmiş hesab olunan sözlərə *arxaizmlər* deyilir. Məsələn: "O, sarbana nökərçiliyə veriləndə doqquz-on yaşında bir uşaq idi" (M.Hüseyn). Bu cümlədə *sarban* sözü arxaizm nümunəsidir. Çünki dəvəçiliklə bağlı olan həmin söz müasir dilimizdə işlənmir. Müəllif həmin sözdən istifadə etməklə tarixilik prinsipini gözləmiş olur.

Neologizmlər. Xalqın həyat tərzindəki dəyişikliklərlə bağlı olaraq yaranan yeni sözlərə *neologizmlər* deyilir. Neologizmlər iki cürdür:

a) başqa dillərdən keçənlər; *b*) dilimizin imkanları hesabına yarananlar. *Printer, skayner, menecer, dizayn, spiker* kimi sözlər birinci qrupa, *yayım, dönəm, soyad, soydaş, yetərsay, soyqırımı, tutalğa* kimi sözlər isə ikinci qrupa aiddir. Müasir dövrdə yaşayıb–fəaliyyət göstərən hər hansı bir yazıçı yeri gəldikcə həmin sözlərdən istifadə edə bilər.

Varvarizmlər. Latınca *barbarus* sözündən yaranıb və *özgə dilə məxsus* olan deməkdir. Başqa dilə aid olan, müasir ədəbi dilimizdə işlənməyən sözlərə *varvarizm* deyilir. Varvarizm ədəbi dilin hələ qəbul etmədiyi əcnəbi sözləridir. Yəni bunlar heç də alınma sözlər deyil. Belə sözlərdən bədii əsərlərdə bir priyom kimi istifadə edilir. Məsələn, C.Məmmədquluzadə "Anamın kitabı" əsərində Rüstəm bəyin nitqini fərdiləşdirmək məqsədilə varvarizmlərdən istifadə edir: "Həzərat, il hesabatı barəsində keçən zasedaniyada bir qədər raznoreçiya oldu." Bu nümunədə *zasedaniya, raznoreçiya* sözləri varvarizmlərdir. Çünki rus dilinə aid olan bu sözlər dilimizdə işlənmir. Müəlliflər onları müəyyən məqsədlərlə obrazların nitqində işlədirlər. Hər halda, belə sözlərdən istifadə heç də yaxşı nümunə deyildir. Onlardan yalnız ayrı-ayrı obrazları fərdiləşdirmək məqsədilə istifadə etmək olar. C.Cabbarlının "Sevil" pyesində Dilbər xanımın dilində də xeyli varvarizm vardır. Dramaturq

Dilbərin – Edilya xanımın guya kübar ədalarını, özünü hamıdan uca tutmaq istəməsi ilə bağlı qəribəliklərini, hamıdan seçilən "mədəniyyətini" göstərmək üçün bu varvarizmlərdən bir vasitə kimi istifadə etmişdir.

Vulqarizmlər. Bədii əsərdə işlədilən kobud sözlər *vulqarizm* adlanır. Belə sözlərdən yazıçı oxucuda obrazın səviyyəsi, mədəniyyəti, mühiti, başqaları ilə rəftarı barədə müəyyən təsəvvür yaratmaq məqsədilə istifadə edir: "Köpək oğlu köpək, hara aparırsan eşşəyi? Gözlərin kordur, görmürsən məni burada? Vallahi gönünü soyaram!" (C.Məmmədquluzadə). Bu parçada *köpək oğlu köpək, gözlərin kordur, gönünü soyaram* ifadələri vulqarizm nümunələridir və surətin kobud və qəddar adam olduğunu göstərmək üçün onun dilində işlədilmişdir.

Terminlər. Yazıçı obrazın dilində ayrı-ayrı elm sahələrinə aid sözləri də – terminləri də işlədə bilər. Terminin işlənməsi yalnız zəruri tələblərdən irəli gələ bilər. Bu işlənmə daha çox obrazın səviyyəsi, məşğul olduğu elm, ixtisas sahəsi, bəzən də özünü guya savadlı, oxumuş göstərmək istəyən obrazın mənfi təqdimatı ilə bağlı olur.

Məsələn, C.Cabbarlı "Dönüş" pyesində Arif Hikmət obrazını yaradarkən onun dilində xeyli terminlər vermişdir. Təbii ki, bu, məqsədli edilmişdir. Mənfi surət olan Arif Hikmət əslində işlətdiyi terminlərin mənasını bilmir, əllaməçilik etməklə məşğuldur. Bu yolla o, hamıdan savadlı, bir nüfuz sahibi kimi görünmək istəyir.

Dialektizmlər. Müəllif bəzən obrazın nitqində onu daha çox fərdiləşdirmək, fərqli təqdim etmək üçün ədəbi dilə daxil olmayan *zir, nimdər, becid, badış, əlləşmək* (savaşmaq, pis söz demək mənasında), *yelpənək* kimi sözlər işlədir ki, ədəbi dilə daxil olmayan, yalnız müəyyən dar mühitdə, ərazilərdə anlaşıqlı olan belə sözlər dialektizm adlanır.

Dialektizmlərdən obrazın səviyyəsini, onun çıxdığı mühiti, regionu əks etdirmək üçün istifadə olunur. Bəzən obrazın sadəliyini, yeni mühitə hələ tam uyğunlaşa bilmədiyini göstərmək üçün də dialektizmlərdən istifadə oluna bilir. Məsələn, İ.Əfəndiyev "Büllur sarayda" pyesində obrazlardan birinin nitqində məqsədli olaraq belə sözlərdən istifadə edir.

Qeyd edək ki, varvarizm, vulqarizm və dialektizmlərə, qismən də terminlərə müəllifin nitqində yol verilmir, onlar yalnız müəyyən məqsədlərlə surətlərin dilində işlədilir.

Bədii təsvir vasitələri

Bədii təsvir vasitələri bədii dilin ən mühüm tərkib hissəsidir. Sözün məcazi mənası əsasında yarandığına görə bədii təsvir vasitələri ədəbiyyatşünaslıqda *məcazlar* da adlanır. Epitet, təşbeh, metafora, metonimiya və simvol əsas bədii təsvir vasitələridir.

Epitet. Yunan sözüdür, mənası *əlavə* deməkdir. Sözə qüvvətləndirici başqa bir sözün – təyinin əlavə edilməsinə *epitet* deyilir. Əlavə olunan söz təyinedici funksiya daşıdığı üçün epitet *bədii təyin* də adlanır. Adi qrammatik təyindən fərqli olaraq, bədii təyin məcazi məna daşıyır. Məsələn, *sarı saç* ifadəsində birinci söz məcazi məna daşımadığından bədii təyin (epitet) deyil, *ipək saç* ifadəsində isə məcazi mənada işləndiyindən birinci söz bədii təyin (epitet) nümunəsidir.

Beləliklə, bütün epitetlər qrammatik təyin olduğu halda, bütün qrammatik təyinlər epitet (bədii təyin) sayılmır.

Epitet öz formasına görə I növ təyini söz birləşməsinini birinci tərəfi kimi işlənir. Məsələn, "Dəli Kür" birləşməsində heç də bütün birləşmə yox, yalnız məcazi xarakterli birinci söz (*dəli*) epitetdir.

Müxtəlif sənətkarların tez-tez işlətdiyi *sərv boylu, qələm qaşlı, şahbaz baxışlı* və s. kimi epitetlər *müqəyyəd epitet* adlanır.

Təşbeh. Ərəb sözüdür, *oxşatmaq, bənzətmək* deməkdir. Odur ki, *təşbeh* yerinə Azərbaycan ədəbiyyatşünaslığında *bənzətmə* termini də işlənir. Bədii əsərdə bir predmetin müəyyən əlamətə görə özündən daha qüvvətli başqa predmetə oxşadılmasına *təşbeh*, yaxud *bənzətmə* deyilir. Təşbehdə, əsasən, dörd ünsür olur: 1) bənzəyən; 2) bənzədilən; 3) bənzətmə qoşması; 4) bənzətmə əlaməti (bənzətmə sifəti). *Ürəyim buztək donar* nümunəsində *ürək* bənzəyən, *buz* bənzədilən, *tək* bənzətmə qoşması, *donmaq* bənzətmə əlaməti və ya *bənzətmə* sifətidir. Qeyd olunan ünsürlərin dördü də iştirak edən təşbeh *müfəssəl təşbeh* adlanır. Bənzətmə qoşması və bənzətmə əlaməti iştirak etmədən yaranan təşbeh isə *mükəmməl təşbeh* (əslində "müxtəsər təşbeh") adlanır. Məsələn:

Camalın günəşdir, qəmərdir üzün.

(M.P.Vaqif)

Bu misrada gözəlin üzü günəşə və aya bənzədilməklə təşbeh yaradılmışdır. Bənzətmə qoşması və bənzətmə əlamətinin iştirak etmədiyi, yəni yalnız bənzəyən və bənzədiləndən ibarət olan həmin təşbeh mükəmməl təşbeh nümunəsidir.

Metafora. Yunan sözüdür, *köçürmək* deməkdir. Azərbaycan ədəbiyyatşünaslığında metafora *istiarə* termini ilə də ifadə olunur. *İstiarə* də ərəbcə *köçürmə* mənasına uyğun gəlir. Predmetin müəyyən əlamətinin başqa bir predmet üzərinə köçürülməsinə *metafora* deyilir.

Arandan yaylağa tələsir yağış.

(H.Arif)

Bu misrada *insanın* tələsmək əlaməti *yağışın* üzərinə köçürülmüş, amma *insanın* adı çəkilməmiş, başqa sözlə desək, *insan* sözündən, yəni bənzədiləndən istifadə edilməmişdir. Göründüyü kimi, metafora da təşbeh kimi iki predmetin müqayisəsinə əsaslanır. Təşbehdə müqayisə olunan predmetlərdən (bənzədilən; bənzəyən) hər ikisinin adı çəkildiyi halda, metaforada yalnız birinin adı çəkilir. Bədii əsərdə hər hansı bir şəxsə rəğbət əlaməti olaraq deyilən *gülüm, maralım, ceyranım, quzum* və s. kimi sözlər, həmçinin hər hansı bir şəxsə nifrət əlaməti olaraq deyilən *canavar, tülkü, çaqqal* və s. kimi sözlər də metafora nümunələridir. Məsələn:

Bir tülküyə bax bə! Heç sənincün
Layiqmidir öylə göyərçin?

(H.Cavid)

Bu nümunədə *tülkü* və *göyərçin* sözləri vasitəsilə metafora yaradılmışdır. Yəni tülkünün əlaməti mənfi surətə, göyərçinin əlaməti isə müsbət surətə köçürülmüş, amma həmin surətlərin adı çəkilməmişdir.

Metaforada əlamətlə onun köçürüldüyü predmet arasında birbaşa bağlılıq olmur. *Göylər ağlayır* metaforaya nümunədir. Amma burada *ağlayır* sözü ilə *göylər* arasında birbaşa heç bir bağlılıq yoxdur. *Ağlamaq* atılmış tərəfin – bənzədilənin (insanın) əlaməti idi. İndi dolayısı yolla bənzəyənin – göylərin əlaməti olmuşdur. Müqayisə edin: *Göylər insan kimi ağlayır* (təşbeh) – *Göylər ağlayır* (metafora).

Ümumən, metaforanın (istiarənin) ənənəvi olaraq, əsasən, iki növü qeyd olunur: 1. Bənzədilən atılır, onun əlaməti bənzəyənin üzərinə köçürülür. Məsələn: Təbiət gülür. Göylər yaş tökür və s. 2. Bənzədilən bənzəyənin yerini tutur. Məsələn:

Qızılgül, bağü bostanım, nə dersən?
Fəda olsun sənə canım, nə dersən?
(Ş.İ.Xətai)

Və ya:

Maralım, gəl, gəl,
Ceyranım, gəl, gəl.
(xalq mahnısı)

Buradakı nümunələrdə *gızılgül, bağü bostanım, maralım, ceyranım* sözləri də metaforalardır. Onlar əslində bənzədilən olsalar da, bənzəyənin – sevgilinin yerini tutmuş, bənzəyənlərin özü atılmışdır.

Ədəbiyyatşünaslıqda epitet və təşbeh sadə məcazlar, metafora mürəkkəb məcaz sayılır. Ümumən, həm epitet, həm təşbeh, həm də metafora bənzətmə əsasında yaranan məcazlardır.

Metonimiya. Yunan sözüdür, *addəyişmə* deməkdir. Predmeti bildirən söz əvəzinə, onunla əlaqədar başqa bir sözün işlədilməsinə *metonimiya* deyilir.

Salon gülür gözlərdəki min bir maraqla.
(S.Vurğun)

Bu misrada müəllif *salon gülür* deməklə metonimiya yaratmışdır. Çünki müəllif *adamlar, salondakılar* əvəzinə, *salon* sözünü işlətməklə addəyişmə etmiş və bu yolla məcaziliyə nail olmuşdur.

Bakı fəryad eləyir, gözdən axır sel bu səhər.
(Qabil)

Bu misrada da *Bakı əhalisi* əvəzinə, *Bakı* sözü işlədilməklə metonimiya yaradılmışdır.

Metaforada qarşılaşdırılan tərəflər əslində bir-birindən uzaq predmetlərdir və onlar arasında şərti əlaqə yaradılır. Metonimiyada isə qarşılaşdırılan tərəflər bir-birinə yaxın predmetlərdir və onlar arasındakı əlaqə məhz yaxın predmetlərin əlaqəsidir. Müqayisə edək:

1. *Dağlar bizi gül-çiçəklə qarşıladı.*

2. *Məktəb bizi gül-çiçəklə qarşıladı.*

Birinci nümunədə metafora vardır və orada qarşılaşdırılan tərəflər (dağ və insan) bir-birindən uzaq anlayışlardır. Qarşılamağa duranda, həqiqətən də, dağlar qarşılayıb, amma bu *qarşılamaq* əlaməti əslində dağa yox, insana məxsus əlamətdir. Başqa sözlə, insana məxsus *qarşılamaq* əlaməti dağlara köçürülməklə indi dağların əlaməti olub. İkinci nümunədə isə metonimiya vardır və orada qarşılaşdırılan tərəflər (məktəb və kollektiv) bir-birinə yaxın olan anlayışlardır. İkinci nümunədə *məktəb kollektivi* əvəzinə, məkan bildirən söz (**məktəb**) işlədilmişdir. Beləliklə, bir adın əvəzinə, onunla birbaşa bağlı olan ikinci ad işlədilmişdir.

Metonimiyanın növü olan *sinekdoxa* bir əlamətin bütöv bir predmeti, hissənin tamı əvəz etməsi prinsipinə əsaslanır. S.Rəhimovun "Saçlı" romanının adında sinekdoxadan istifadə edilmişdir. Yəni müəllif baş qəhrəmanın adını (*Rüxsarəni*) onun uzun saçları olmaq əlaməti (*saçlı*) ilə əvəz etmişdir.

Görsən, tanımazsan Yarımsaqqalı.

(Q.Zakir)

Q.Zakir *Yarımsaqqal* sözü ilə Əmirxanov adlı gödəksaqqal bir məmura işarə etməklə sinekdoxa yaratmışdır. Yarımsaqqallıq həmin Əmirxanovun yalnız bir əlaməti ola-ola, şeirdə Yarımsaqqal bütöv bir şəxsin əvəzinə işlənmişdir.

Bütün sinekdoxalar metonimiya olduğu halda, bütün metonimiyaları sinekdoxa hesab etmək olmaz. Sinekdoxa da addəyişmədir, lakin heç də bütün metonimiyalar hissənin, əlamətin bütöv tamı əvəz etməsi şəklində olmur. Sadəcə, sinekdoxalar metonimiyaların bir qrupudur. Göründüyü kimi, sinekdoxalar da addəyişmədir, amma bütöv predmetin əvəzinə onun bir hissəsi, onun bir əlaməti işlədilir.

Simvol. Yunan sözüdür, *nişanə, şərti əlamət* deməkdir. Azərbaycan ədəbiyyatşünaslığında *simvol* əvəzinə *rəmz* terminindən də istifadə edilir. *Rəmz* ərəb sözüdür, *işarə ilə müəyyən fikir ifadə etmək* mənasını bildirir. Bədii əsərdə bir sözlə müəyyən fikrin üstüörtülü şəkildə ifadə olunmasına *simvol* deyilir. Simvolun (rəmzin) mahiyyəti belədir ki, formal olaraq zahirdə, üzdə bir şeydən (məsələn, dənizdən, fırtınadan, qayadan) danışırsan, əslində isə tamam başqa şeyi (adını gizli saxladığın, müəyyən mülahizələrə görə açıq demək istəmədiyin şeyi) nəzərdə tutursan.

İnsanlar arasında göyərçin sülhün və əmin-amanlığın, dağ vüqarın və əzəmətin simvolu kimi qəbul olunur. Xalq yaradıcılığında aslan gücün, canavar acğözlüyün, tülkü hiyləgərliyin, dovşan qorxaqlığın, hədsiz ehtiyatlılığın rəmzi kimi təqdim edilir.

Alleqorik janrlarda, xüsusi olaraq təmsillərdə *simvollaşdırılmış əşyalar* (heyvanlar, predmetlər, bitkilər və s.) iştirak edir. Onların mahiyyəti görüntüdə yox, daxili (gizli, iç) məzmunlarındadır.

Bədii ifadə vasitələri

Bədii ifadə vasitələri də bədii dilin mühüm tərkib hissələridir. Bədii ifadə vasitələri daha çox cümlə şəklində olmasına və bitmiş fikir ifadə etməsinə görə bədii təsvir vasitələrindən fərqlənir. Bu fərqi nəzərə alıb, ədəbiyyatşünaslıqda bədii ifadə vasitələrini **poetik sintaksis**, yaxud **sintaktik fiqurlar** adları altında da öyrənirlər.

Bədii sual, bədii təzad, təkrir, kinayə, mübaliğə, litota və inversiya bədii ədəbiyyatda rast gəldiyimiz əsas bədii ifadə vasitələridir.

Bədii sual. Əsərin emosional təsirini artırmaq üçün fikrin sual tərzində ifadə olunmasına *bədii sual* deyilir. Qrammatik sualdan fərqli olaraq, bədii sualda cavab alıb hansısa məlumatı dəqiqləşdirmək məqsədi güdülmür.

Ayrılarmı könül candan,
Azərbaycan, Azərbaycan?
(S.Vurğun)

Bu misralarda şair Vətənə məhəbbətini daha emosional şəkildə ifadə etmək üçün bədii sualdan istifadə etmişdir.

Bədii təzad. Bədii əsərdə məzmunca bir-birinə zidd iki anlayış və ya vəziyyətin qarşılaşdırılmasına *bədii təzad* deyilir. Bədii təzad iki əsas yolla yaranır:

1. Əks mənalı sözlərin (antonimlərin) qarşılaşdırılması (*antiteza*).

2. Bir-birinə zidd iki vəziyyət, hadisə, yaxud əhvali-ruhiyyənin qarşılaşdırılması (*kontrast*). Müqayisə edək:

Xəyal şirin nemətidir bu acı kainatın.
(S.Vurğun)

Söyüddən bağ saldım, peyvəst eylədim,
Almasın, heyvasın, narın görmədim.
(Aşıq Ələsgər)

Birinci nümunədə *şirin* və *acı* sözləri ilə əksmənalı anlayışlar (antonimlər) qarşılaşdırılmaqla bədii təzad yaradılmışdır. İkinci nümunədə isə min bir əziyyətlə bağ becərmək, amma bu ağır zəhmətin bəhrəsini görməmək hadisələri qarşılaşdırılmışdır. Bu nümunələrdən birincisi (*şirin – acı*) antitezaya, ikincisi isə (*əziyyət çəkmək – zəhmətini görməmək*) təzadın digər növü olan kontrasta misal sayıla bilər.

Təkrir. Bədii əsərdə eyni sözün, yaxud söz qrupunun, ifadənin bilərəkdən təkrar olunmasına *təkrir* deyilir. Bədii əsərdə yersiz təkrar yox, məhz bədii təsir gücünün artırılmasına xidmət edən təkrar *təkrir* sayılır.

Təkririn iki əsas növü vardır: *1. Anafora. 2. Epifora.*

Anafora *eyni başlanğıc* deməkdir. Misraların, yaxud cümlələrin əvvəlində işlənən təkrir *anafora* adlanır:

Nədir o mənalı, dərin baxışlar?
Nədir gözlərindən axan yağışlar?
Nədir qəlbindəki payızlar, qışlar?..
(S.Rüstəm)

Bu nümunədə misralar *nədir* sözü ilə başlanmış və bununla da anafora yaradılmışdır.

Eyni misranın, cümlənin əvvəlində bir sözün təkrarlanması da anafora sayılır. Məsələn: *Nə var, nə var,* burnundan qan gəlibdi. (M.Şəhriyar)

Getmə, getmə, görüm, kimin yarısan,
Hansı bəxtəvərin vəfadarısan? (Qurbani)

Misranın, yaxud cümlənin sonunda işlənən təkrir *epifora* adlanır.

Könül alan dünyada dilbər, dilbər,
Ki, oxuruz hüsnini əzbər, əzbər.
Aləmdə bin qarğaya bir sapan bəs,
Dünyada sərvər gərək, sərvər, sərvər.
(Qazi Bürhanəddin)

Bu tuyuqda *dilbər, əzbər, sərvər* sözlərinin hər biri misranın sonunda təkrar edilmiş və *epifora* yaradılmışdır.

Kinayə. Ərəb sözüdür, *tənə etmək, toxunmaq* deməkdir. Ədəbiyyatşünaslıqda *kinayə* yerinə *ironiya* terminindən də istifadə olunur. İroniya da *istehza, hiyləgərlik* mənasında işlənir.

Fikrin ifadə tərzinin onun daxili mənasına qarşı qoyulması *kinayə,* yaxud *ironiya* adlanır. Kinayədə, adətən, mənfi bir cəhət müsbət görünüşlə təqdim olunur. Məsələn, tənbəl adama qoçaq, xəsis adama səxavətli deyilməsi kinayə yaradır.

Nə var? Nə deyirsən, vəfalı yarım?
(S.Vurğun)

"Vaqif" dramından götürülmüş bu misrada Vaqif ona xəyanət etmiş Xuramanı *vəfalı yar* adlandırmış və bununla da kinayədən istifadə etmişdir. Bədii əsərdə bəzən müsbət cəhətin bilərəkdən istehza ilə mənfi planda təqdim edilməsi ilə də kinayə yaratmaq olur. Məsələn, C.Məmmədquluzadə "Sizi deyib gəlmişəm..." məqaləsində yazır: "Sözümü tamam etdim, ancaq bir üzrüm var: Məni gərək bağışlayasınız, ey mənim türk qardaşlarım ki, mən sizlə türkün açıq dili ilə danışıram. Mən onu bilirəm ki, türk dili danışmaq eyibdir və şəxsin elminin azlığına dəlalət edir". Göründüyü kimi, yazıçı türk (Azərbaycan) dilini uca tutmaq kimi müsbət cəhəti mənfi planda – *türk dili danışmaq eyibdir* şəklində təqdim etməklə kinayə yaratmışdır.

Kinayənin daha kəskin forması *təriz*, yaxud *sarkazm* adlanır. Məsələn, C.Məmmədquluzadənin "Ölülər" əsərində İsgəndər Şeyx Nəsrullahın ölü diriltmək fırıldağına inanan avam adamları *elm dəryası* adlandırmaqla tərizdən istifadə etmiş olur.

Mübaliğə. Ərəb sözüdür, *böyütmək, şişirtmək* deməkdir. Ədəbiyyatşünaslıqda *mübaliğə* termini ilə yanaşı, *hiperbola* terminindən də istifadə edilir. *Hiperbola* da həmin mənanı bildirir.

Bədii əsərdə nəzərə çatdırılacaq hadisənin, hiss-həyəcanın əslində olduğundan daha güclü və qabarıq təqdim edilməsinə – şişirdilməsinə *mübaliğə* deyilir.

Dəryalar mürəkkəb, meşələr qələm,
Mollalar yazdıqca dərdim var mənim.

Bu nümunədə lirik qəhrəman öz dərdinin böyüklüyünü oxucuya mübaliğəli şəkildə çatdırır. Lirik qəhrəman demək istəyir ki, dəryalar mürəkkəbə, meşələrdəki ağaclar qələmə dönsə, o boyda mürəkkəb və o qədər qələmlə mənim dərdimi yazıb qurtarmaq mümkün olmaz.

Xalq lirikasında olduğu kimi, romantik üslublu klassik poeziyada da mübaliğədən geniş istifadə edilir:

İrdi Qara dənizə bu göz qanı.

(Q.Bürhanəddin)

Bu misrada aşiqin qanlı göz yaşının Qara dənizə çatmasından, yaxud Qara dəniz boyda olmasından bəhs edilməsi mübaliğə nümunəsidir.

Və ya:

Kuhikən künd eyləmiş min tişəni bir dağ ilən,
Mən qoparıb atmışam min dağı bir dırnaq ilən.

(M.Füzuli)

Litota. Yunan sözüdür, *kiçiltmək, əhəmiyyətsizləşdirmək* deməkdir. *Litota* mübaliğənin əksi olan ifadə vasitəsidir. Predmetin əlamətinin əslində olduğundan daha kiçik şəkildə təqdim olunması *litota* adlanır.

Ağzın kiçik bir püstədir.

(S.Vurğun)

Bu nümunədə gözəlin ağzı püstə şəklində təqdim edilməklə kiçildilib litota yaradılır. Və ya: Qoşa badam sığmaz dar ağızlım ("Dədə Qorqud"dan).

Başqa bir misal:

Döydü yağış məni, döydü qar məni,
Bir qarışqa minsəm, aparar məni.
(O.Sarıvəlli)

İnversiya. Latın sözüdür, *yerdəyişmə* deməkdir. Nitqin bədii təsir gücünü artırmaq üçün sözlərin qrammatik ardıcıllığının bilərəkdən pozulmasına *inversiya* deyilir.

Yalvarma, yalvarma o cəllada sən!
Hələ baş əyməmiş bu böyük Vətən...
(S.Vurğun)

Bu misralarda xəbərlər (*yalvarma, baş əyməmiş*) mübtəda (*sən, vətən*) tamamlıq (*cəllada*) və zərflikdən (*hələ*) əvvələ keçirilməklə inversiya yaradılmışdır.

İnversiya əslində qrammatik normanın pozulmasıdır. Lakin bu, bədii ədəbiyyatda bədii təsiri gücləndirmək üçün yol verilə bilən pozulmadır, necə deyərlər, məqsədli pozulmadır.

İnversiya şeir üçün daha səciyyəvi əlamətdir.

BƏDİİ YARADICILIQ METODU. ƏDƏBİ CƏRƏYAN VƏ ƏDƏBİ MƏKTƏB

Bədii yaradıcılıq metodu

Həyat hadisələrini təsvir etmək və onları ümumiləşdirmək üçün yazıçının əsas götürdüyü prinsip *bədii yaradıcılıq metodu* adlanır.

Ədəbiyyatda iki əsas yaradıcılıq metodu var:

a) *romantik metod;* b) *realist metod.*

Romantik metod. Bu metod həyat hadisələrini olduğu kimi yox, yazıçının arzuladığı, görmək istədiyi kimi qələmə almağı tələb edir. *Romantik* sözü *roman* sözündəndir, *romanda, kitabda olduğu kimi* deməkdir. Romantik yaradıcılıq metodunda həyat hadisələrinə yazıçının subyektiv münasibəti dominantlıq (üstünlük) təşkil edir. Romantik metodda real hadisələrdən daha çox, ideal hesab olunan hadisə, yaxud cəhətlər ön plana çəkilir. Məsələn, N.Gəncəvinin Bəhram və İsgəndər obrazları ədalətli hökmdar ideyasının daşıyıcıları kimi, şairin bədii təxəyyülünün və fantaziyasının məhsuludur. Bu obrazları N.Gəncəvi tarixdə olduğu kimi yox, özünün arzuladığı kimi təsvir etmişdir.

Hər cür romantik yanaşmalarla müqayisədə, romantik metod bir sistem olaraq daha sonralar meydana gəlmişdir.

Azərbaycan ədəbiyyatında romantizm daha çox XX əsrin əvvəlləri ilə bağlıdır. M.Hadi, H.Cavid, Ə.Hüseynzadə, A.Şaiq, A.Səhhət, C.Cabbarlı bu bədii yaradıcılıq metodunun görkəmli nümayəndələri olmuşlar. "Füyuzat" jurnalı bu metodun əsas tribunası idi.

Realist metod. *Realist* latınca *realis* sözündəndir, *olduğu kimi, həqiqət* deməkdir. Həyat hadisələrini olduğu kimi təsvir etmək realist metodun əsas tələbidir. Bu metodda ideal hadisələr yox, real hadisələr ön plana keçir. Məsələn, XVIII əsr sənətkarı M.P.Vaqif, XVI əsr sənətkarı M.Füzulidən fərqli olaraq, Məcnun və Leyli kimi ideal insanları yox,

həyatda qarşılaşdığı Pəri, Zeynəb kimi real insanları qələmə alırdı. Vaqifin dili də qəliz, təmtəraqlı bir dil yox, o vaxt xalqın danışdığı dilin özü idi. Beləliklə, Vaqif təkcə mövzularında, ifadə etdiyi obyektlərində yox, həm də dildə, bədii ifadə vasitələrində də realizmi təmin etmişdi. Yalnız xalq dilini, onun ifadələrini yaxşı bilən və sevən şair adi sözləri, kiminsə, bəlkə də, "kobud" hesab edəcəyi ifadələri heç də əskiklik saymayaraq yaza bilərdi:

Vaqif deyər: *Doymaz sevən sevəndən,*
Ta ölüncə *əl götürmənəm səndən,*
Əbəs yerə neçin *qaçırsan məndən,*
Mən ki, *zalım, adam yeyən deyiləm?*

Diqqət yetirin, M.P.Vaqif böyük Füzulidən sonra belə yazırdı. Vaqif belə etməklə ədəbi dillə – poeziya dili ilə xalq danışıq dili arasındakı uçurumu dağıtdı, yox etdi. Bu da başqa bir yol idi – yeni yol idi.

Realizm bir bədii yaradıcılıq metodu olaraq, əsasını XVIII əsrdən – M.P.Vaqifdən alır. XIX əsrin əvvəllərində A.Bakıxanovun, M.Ş.Vazehin, İ.Qutqaşınlının, bir az sonra M.F.Axundzadənin (M.F.Axundzadə müəyyən əsərləri ilə tənqidi realistlərə də yaxın idi) şəxsində maarifçi realizm yaranır. Q.Zakir, B.Şakir, M.B.Nadim, S.Ə.Şirvani realizmin bir qolu olan tənqidi realizmin I mərhələsinin (XIX əsrin əvvəlləri və ortaları) nümayəndələri idilər.

C.Məmmədquluzadə, M.Ə.Sabir, Ə.Haqverdiyev, Ö.F.Nemanzadə, Ə.Qəmküsar, Ə.Nəzmi, M.Möcüz tənqidi realizminin daha güclü olan sonrakı qolunun – XX əsr tənqidi realizminin nümayəndələri idilər. Bu tənqidi realizmin də tribunası o vaxt "Molla Nəsrəddin" jurnalı idi.

Ədəbi cərəyan

Tarixin müəyyən inkişaf mərhələsində bir-birinə zidd olan ideoloji mübarizə şəraitində yazıçıların qruplaşıb, ideyaca, məsləkcə, əqidəcə, daha çox üslubca birləşməsinə *ədəbi cərəyan* deyilir.

Ədəbi cərəyanla bədii yaradıcılıq metodu arasında müəyyən fərqlər vardır. Bədii yaradıcılıq metodu ədəbi cərəyanla müqayisədə daha geniş,

daha davamlı anlayışdır. Məsələn, romantik yaradıcılıq metodunu (daha doğrusu, onun müəyyən təzahürlərini) həm Ə.Xaqani, N.Gəncəvi (XII əsr), daha sonra M.Füzuli (XVI əsr) yaradıcılığında, həm də M.Hadi, H.Cavid kimi XX əsr sənətkarlarının yaradıcılığında müşahidə etmək olar. Yaxud realist yaradıcılıq metodu həm M.P.Vaqif və M.V.Vidadi poeziyasında (XVIII əsr), həm də daha sonra, məsələn, S.Vurğun (XX əsr) yaradıcılığında özünü göstərir. Deməli, yaradıcılıq metodu çox böyük dövrü və say etibarilə çoxlu yazıçının fəaliyyətini əhatə edir. Ədəbi cərəyan isə konkret tarixi şəraitlə əlaqədar yaranır və konkret bir dövrlə bağlı olur. Məsələn, XX əsrin əvvəllərində Azərbaycan ədəbiyyatında iki cərəyan yaranmışdır: mollanəsrəddinçilər və füyuzatçılar. Rusiyada isə bu dövrdə füturizm, akmeizm, dekadentizm və simvolizm kimi ədəbi cərəyanlar – bir-birindən fərqli olan yaradıcılıq qruplaşmaları mövcud idi. Bunların hər biri öz dövrünü yaşadı və sonralar da aradan çıxdı.

Romantizm bədii yaradıcılıq metodunun nümayəndələri (M.Hadi, H.Cavid, A.Səhhət, A.Şaiq və başqaları "Füyuzat" jurnalının, tənqidi realizm bədii yaradıcılıq metodunun nümayəndələri (C.Məmmədquluzadə, M.Ə.Sabir, Ö.F.Nemanzadə, Ə.Haqverdiyev, Ə.Nəzmi, Ə.Qəmküsar, M.Möcüz) isə "Molla Nəsrəddin" jurnalının ətrafında birləşmişdilər.

Beləliklə, Azərbaycan ədəbiyyatında mollanəsrəddinçilər cərəyanı tənqidi realizmin, füyuzatçılar isə romantizm metodunun tarixi şəraitə uyğun konkret təzahür formaları kimi çıxış edirdilər.

Ədəbi cərəyan məhdud anlayış olduğundan hər hansı bir xalqın ədəbiyyatında yaranmaya və geniş yayılmaya bilər. Məsələn, rus ədəbiyyatında özünü göstərən *füturizm, dekadentizm, akmeizm, simvolizm* və s. kimi ədəbi cərəyanlar Azərbaycan ədəbiyyatında, demək olar ki, meydana çıxmamışdır.

Ədəbi məktəb

Ustad kimi qəbul olunan bir sənətkarın yaradıcılığı özündən sonra gələn başqa sənətkarlar üçün örnək, məktəb rolunu oynayır. Ədəbiyyatşünaslıqda buna *ədəbi məktəb* deyilir. Ustad, müəllim rolunu oynayan sənətkar *sələf*, ondan öyrənən, onun davamçısı olan sənətkar isə *xələf* adlanır.

Azərbaycan poeziyasında Nizami, Füzuli, Vaqif, M.F.Axundzadə, Sabir və başqaları ədəbi məktəb yaratmışlar. Nizami məktəbi daha çox epik poema yazmaq ənənəsi ilə, Füzuli məktəbi daha çox romantik lirika, o cümlədən qəzəl ənənəsi ilə, Vaqif məktəbi daha çox yazılı ədəbiyyatda aşıq şeiri üslubunu davam və inkişaf etdirmək ənənəsi ilə, Sabir məktəbi isə daha çox satirik şeir ənənəsi ilə bağlı olmuşdur.

Ədəbiyyatımız tarixində Marağalı Övhədi, Əssar Təbrizi, Arif Ərdəbili və b. sənətkarlar Nizami ədəbi məktəbinin, Saib Təbrizi, Qövsi Təbrizi, Seyid Əzim Şirvani, Əliağa Vahid və başqa sənətkarlar Füzuli ədəbi məktəbinin, Əli Nəzmi, Əliqulu Qəmküsar, Mirzəli Möcüz və başqa sənətkarlar isə Sabir ədəbi məktəbinin nümayəndələridir.

Ədəbiyyatımızda dramatik növün əsasını qoyan M.F.Axundzadə də ədəbi məktəb yaratmışdır. N.Vəzirov, Ə.Haqverdiyev, N.Nərimanov və başqa sənətkarlar M.F.Axundzadə ədəbi məktəbinin davamçıları sayılırlar.

Ədəbiyyatımızdakı ədəbi məktəblərdən biri isə "Molla Nəsrəddin" ədəbi məktəbi adlanır. Bu ədəbi məktəbin başçısı C.Məmməquluzadədir. "Molla Nəsrəddin" ədəbi məktəbi daha çox satirik-yumoristik nəsr və publisistika ənənəsi ilə fərqlənir.

Azərbaycan aşıq şeirində Aşıq Ələsgərin yaradıcılığı özündən sonrakı aşıqlar üçün məktəb rolunu oynamışdır. Odur ki, aşıq ədəbiyyatında Aşıq Ələsgər məktəbinin də olduğunu söyləmək mümkündür.

A variantı

1. Ritm-ahəng, bölgü-təqti, ölçü-vəzn – bunlar nəyin əlamətidir?
   A) nəzmin
   B) nəsrin
   C) bədii təsvir vasitələrinin
   D) bədii ifadə vasitələrinin
   E) ədəbi növün

2. Qafiyə haqqındakı fikirlərdən biri ***səhvdir:***
   A) Müxtəlif nitq hissələrindən düzələ bilir.
   B) Zəngin qafiyə, yoxsul qafiyə, qulaq qafiyəsi, daxili qafiyə kimi növləri var.
   C) Qafiyə rədifdən sonra işlənir.
   D) Sözlərin bir neçə hecası bir-biri ilə səsləşirsə, bu, zəngin qafiyədir.
   E) Sözlərin ancaq bir hecası arasında səsləşmə olarsa, bu, yoxsul qafiyə adlanır.

3. Bunlardan biri heca vəzninin əlaməti ***deyil:***
   A) misralarda hecaların sayca bərabər olması
   B) misradaxili bölgünün bütöv söz prinsipinə əsasən aparılması
   C) bölümlərin bütün misralarda eyni yerə düşməsi
   D) on bir hecalı şeirlərdə 6-5, 4-4-3 bölgülərindən daha çox istifadə olunması
   E) uzun və qısa hecaların mütənasib sıralanması

4. Biri əruz vəzninin əsas əlaməti kimi götürülə ***bilməz:***
   A) misradakı sözü parçalayıb hər hissəsini bir bölümə daxil etmək
   B) hecaların uzun-qısalığından, növbələşməsindən ahəngdarlığın əmələ gəlməsi
   C) təfilələrin (təqtinin) müxtəlif şəkildə qruplaşmasından müxtəlif ölçülərin yaranması
   D) təfilənin tərkibində bir səsin uzun və ya qısa tələffüzü ilə bəhrin dəyişməsi
   E) uzun və qısalığından asılı olmayaraq, bütün misralarda hecaların sayca bərabər olması

5. Epik növə aid edilmiş fikirlərdən biri ***səhvdir:***
   A) hadisələri nəqletmə yolu ilə çatdırmaq
   B) danışılan hadisənin başlanğıc və son nöqtəsinin aydın təsəvvür edilməsi
   C) müşahidə edilən hadisəyə subyektiv münasibətin ön plana çəkilməsi
   D) təhkiyənin aparıcı olması
   E) bədii obrazların olması

6. Biri lirik növün əsas əlaməti sayıla ***bilməz:***
   A) Lirikada sevinc və ya kədər, iftixar və ya peşmançılıq, ümid və ya ümidsizlik kimi hislər ifadə olunur.
   B) Bu ədəbi növdə həyat hadisələri hərtərəfli təsvir edilir.
   C) Həcmcə kiçik olur.
   D) Məhəbbət və ictimai-siyasi məzmuna malik olmaq baxımından iki əsas yerə bölünür.
   E) Bu növdə obyektə subyektiv münasibət ön plana çəkilir.

7. Dramatik növlə bağlı hansı fikir ***səhvdir?***
   A) *Dramatik* sözü yunan dilindəki *dram* sözündən götürülüb, mənası hərəkət deməkdir.
   B) Dramatik əsərlərdə hadisələrin yazıçı tərəfindən nağıl edilməsinə imkan yoxdur.
   C) Bu ədəbi növ səhnə avadanlığı, işıq, geyim, qrim və s. amillərlə bağlıdır.
   D) Bu növdə yazılan əsərlər remarka, monoloq və dialoq kimi elementlərdən ibarət olur.
   E) Şifahi xalq ədəbiyyatında dramatik növ olmur.

8. Azərbaycan ədəbiyyatında janrların yaranmasının xronoloji ardıcıllığını qeyd edin.
   1. Mənzum dram
   2. Faciə
   3. Mənzum faciə
   4. Komediya
   5. Tarixi faciə

   A) 4, 2, 1, 5, 3
   B) 4, 1, 2, 5, 3
   C) 3, 2, 1, 4, 5
   D) 5, 4, 3, 2, 1
   E) 3, 5, 4, 1, 2

9. *Dördlük şəklindədir. Birinci bənddə bütün misralar həmqafiyə olur. Sonrakı bəndlər isə bbba şəklində qafiyələnir.* Bu, hansı janrdır?
   A) qoşma
   B) müsəddəs
   C) mürəbbe
   D) müxəmməs
   E) tuyuq

10. Personajların imkanı ilə iddiası arasında ziddiyyətin qarşılaşdırılması dramatik növün hansı janrı üçün daha səciyyəvidir?
   A) dram
   B) komediya
   C) faciə
   D) tarixi faciə
   E) mənzum tarixi dram

B variantı

1. Əşya və hadisələrin təsiri nəticəsində subyektdə yaranan xoş hislərin, şadlığın, fikir və arzuların bədii əsərdə obrazlı ifadəsi nə adlanır?
   A) tərənnüm
   B) təhkiyə
   C) təsvir
   D) tənqid
   E) ahəng

2. Biri mövzunun başlıca xüsusiyyətidir:
   A) yazıçı tərəfindən dərk edilən, qavranılan, dövr üçün səciyyəvi olan hadisə
   B) qələmə aldığı həyat hadisəsi haqqında yazıçının gəldiyi qənaət, oxucuya təlqin etdiyi başlıca fikir
   C) tərkib hissələrinin janr, ahəng, ölçü və bölgü olması
   D) əhvalatın bədii əsərdə müəyyən xətt üzrə inkişaf etdirilməsi
   E) bədii əsərdə həyat hadisələrinin bir-biri ilə əlaqələndirilməsi

3. Aşağıdakılardan birini seçməklə verilmiş sıranı davam etdirin.
   1. ekspozisiya 2. zavyazka
   3. kulminasiya 4. ...
   A) epiqraf
   B) razvyazka
   C) final
   D) epiloq
   E) proloq

4. Süjetlə əlaqədar verilənlərdən biri ***səhvdir:***
   A) Fransız sözüdür, əsərdə təsvir olunan mahiyyət və hadisənin özü deməkdir.
   B) Bədii əsərdə əhvalatın müəyyən xətt üzrə inkişaf etdirilməsi süjet adlanır.
   C) Süjet xəttinin inkişafı müəyyən mərhələlərdən keçir.
   D) Süjet xəttinin ilk mərhələsi ekspozisiya, son mərhələsi final adlanır.
   E) Dramatik növdə yazılmış əsərlərdə süjet olmur.

5. Kompozisiyaya aid edilmiş fikirlərdən biri ***səhvdir:***
   A) Həyat hadisələrinin bədii əsərdə bir-birilə əlaqələndirilməsi, bir sistemdə qurulması kompozisiya adlanır.
   B) Yazıçının peyzajlardan, portretlərdən məharətlə istifadə etməsi kompozisiyanı mükəmməlləşdirir.
   C) Epiqraf, proloq, epiloq, lirik ricət, peyzaj da kompozisiyanın ünsürləri sayılır.
   D) Proloqda yazıçı oxucunu əsərdə danışılacaq əhvalata hazırlayır.
   E) Kompozisiya məzmun anlayışına daxil olan bir məsələdir.

6. Verilənlərdən birini seçməklə məntiqi ardıcıllığı davam etdirin.
   Epiqraf, proloq, lirik ricət ...
   A) epiloq
   B) final
   C) ekspozisiya
   D) kulminasiya
   E) razvyazka

7. Verilmiş hissədə nöqtələrin yerinə hansı söz yazılmalıdır?
   "... janr xüsusiyyətləri ilə bağlıdır. Sənətkar həyatdan götürdüyü materialları epik əsərdə bir cür, lirik və dramatik əsərdə başqa cür qurur, sistemləşdirir".
   A) süjet
   B) kompozisiya
   C) ədəbi cərəyan
   D) mövzu
   E) ideya

8. Bədii dilə aid edilmiş fikirlərdən biri ***səhvdir:***
   A) Əsasını canlı xalq danışıq dili təşkil edir.
   B) Az sözlə dərin məna, geniş fikir ifadə etmək bədii dilin ən vacib şərtlərindəndir.

C) Bədii dildə söz sırasının pozulması yolverilməzdir.
D) Bədii dilin tərkibinə arxaizm, neologizm, varvarizm və vulqarizm də daxil ola bilər.
E) Bədii əsərdə obrazın fərdi xüsusiyyətlərini açmaq üçün ədəbi dildə olmayan əcnəbi sözlərin işlədilməsi varvarizm adlanır.

9. Hansı nümunədə varvarizm işlədilmişdir?
A) Yoldaşlar, bircə spokoys olun, qoyun sözünü desin. (C.Cabbarlı)
B) Məndə sığar iki cahan, mən bu cahana sığmazam. (İ.Nəsimi)
C) Bu hikmət ilhama çağırır məni. (S.Vurğun)
D) Məni candan usandırdı, cəfadan yar usanmazmı? (M.Füzuli)
E) Çıxdı günəş, doldu cahan nur ilə ... (M.Ə.Sabir)

10. Verilmiş nümunələrdə hansı bədii təsvir vasitələri işlənmişdir?
Qoca Muğan fikrə getmiş bir loğman kimi
Sinəsinə nəqş eləyir bu ülviyyəti ...
Səhra duyur, səhra duyur bir insan kimi
Saf gecənin qəlbindəki bir şeriyyəti ... (S.Vurğun)
1. epitet 2. metonimiya
3. təşbeh 4. simvol
5. metafora
A) 1, 4 B) 1, 3, 5
C) 3, 4 D) 1, 2, 5
E) 1, 4, 5

C variantı

1. Biri epitetə ***aid deyil:***
   A) bədii təsvir vasitələrinin sadə növlərindən olması
   B) yunan sözü olub **əlavə** mənasını verməsi
   C) bədii əsərdə sözə onu qüvvətləndirən başqa sözün əlavə olunması
   D) əlavə olunan söz məcazi xarakter daşıdığı üçün epitetə bədii təyin də deyilməsi
   E) epitetin dörd tərkib hissədən ibarət olması

2. Biri metonimiya anlayışını əhatə edir:
   A) nəzərdə tutulan bir əşyanın (yaxud hadisənin) onun özü ilə əlaqədar olan başqa bir sözlə əvəz olunması
   B) bir əşya və ya hadisənin müəyyən əlamətinin başqa əşya üzərinə köçürülməsi
   C) iki əşya və ya hadisə arasında oxşar əlamət tapmaq yolu ilə yaranması
   D) fikrin üstüörtülü şəkildə ifadə olunması
   E) bədii ifadə vasitələrinin bir növü olması

3. Verilmiş misraların daxili bölgüsünü müəyyənləşdirin.
   Boyun sürahıdır, bədənin büllur,
   Gərdənin çəkilmiş minadan, Pəri! *(M.P.Vaqif)*
   A) 4-4-3 B) 5-6 C) 6-5 D) 3-4-4 E) 7-4

4. Nümunədə hansı bədii təsvir və ifadə vasitəsi yaradılmışdır?
   Axıtdım alnımın inci tərini,
   Yanmadım ömrümün iki ilinə,
   Rusiya şeirinin şah əsərini
   Çevirdim Vaqifin şirin dilinə. (S.Vurğun)
   1. epitet 2. metonimiya
   3. inversiya 4. təşbeh 5. metafora
   A) 1, 2, 3 B) 1, 4, 5 C) 2, 3, 5 D) 4, 5 E) 1, 4

5. Biri bədii sual nümunəsi ***deyil:***
   A) Məni candan usandırdı, cəfadan yar usanmazmı? (M.Füzuli)
   B) Dilbəra, mən səndən ayrı təndə canı neylərəm? (İ.Nəsimi)
   C) Ayrılarmı könül candan? (S.Vurğun)
   D) Üzündə gördüyüm nə intizardır?
      Qəlbində Vaqifin sirrimi vardır? (S.Vurğun)
   E) Məşğulluq eyləyib ustadam deyən,
      O hansı ağacdı, tağı yeddidi? (Aşıq Ələsgər)

6. Verilmiş nümunədə hansı bədii ifadə vasitəsi işlənmişdir?
Təbiətin təbi gəlmişdir cuşa,
Qaranlıq dərələr dümağ olmuşdu,
Aran şaxtasının soyuqluğundan
Təpələr büzüşüb yumaq olmuşdu. (M.Şükür)
A) mübaliğə B) bədii sual
C) təkrir D) litota E) kinayə

7. *Latın sözü olub mənası yerdəyişmə deməkdir. Nitqin, ifadənin bədii təsirini artırmaq məqsədilə işlədilir.* Söhbət nədən gedir?
A) metafora B) metonimiya
C) inversiya D) mübaliğə E) təkrir

8. *Fikrin ifadə tərzi onun məzmununa, daxili mənasına qarşı qoyulur. Fikrin tonunda sakitlik əsas şərtdir.*
Söhbət nədən gedir?
A) kinayədən B) inversiyadan
C) litotadan D) təkrirdən E) bədii sualdan

9. Verilmiş nümunədə *kömək* və *gərək* sözləri qafiyənin hansı növünə aiddir?
Özgədən heç zaman gözləmə kömək,
Quru budaq kölgə salmaz, ey ürək,
Qənaət əzizlər, tamah xar edər,
Az olan şeylərə qənaət gərək. (N.Gəncəvi)
A) natamam qafiyə
B) tam (zəngin) qafiyə
C) çarpaz qafiyə
D) misradaxili qafiyə
E) qulaq qafiyəsi

10. *"Mənşəcə türk dilli xalqların poeziyası ilə bağlıdır. Cəmi dörd misradan ibarət olur. Əruzun rəməl bəhrində yazılır. Qafiyə quruluşunu hərfi işarələrlə belə göstərmək olar: aaba,* bəzən də: *aaaa".* Söhbət hansı janrdan gedir?
A) rübaidən B) mürəbbedən
C) tuyuqdan D) bayatıdan E) ağıdan

D variantı

1. *"Əvvəldən axıra qədər həyat hadisələrinin müəyyən bir süjet əsasında təsviri ilə şairin daxili duyğularının ifadəsi üzvi şəkildə birləşir. Belə əsərlər xüsusi bir növ təşkil edərək ... adlanır."* Nöqtələrin yerinə nə yazılmalıdır?
   A) lirik növ B) dramatik növ C) epik növ
   D) lirik-dramatik E) epik-lirik

2. Şeir vahidləri hansılardır?
   1. Misra 2. Təqti 3. Şəkil 4. Beyt
   5. Rədif 6. Vəzn 7. Bənd 8. İnversiya
   A) 1, 4, 7, 8 B) 1, 4, 7 C) 2, 3, 6, 7 D) 2, 5, 6, 8 E) 3, 5, 6

3. Hansılar komediyada gülüşün müxtəlif vasitə və üsullarıdır?
   1. Personajların şəxsi bacarığı ilə danışığının qarşılaşdırılması
   2. Remarkaları səhnədə oxumaqla obrazın xarici və daxili aləmi haqqında məlumatın verilməsi
   3. Surətlərin dilindən verilən sözlər vasitəsilə həmin obrazın fərasətsizliyinin, dəmdəməkiliyinin göstərilməsi
   4. Müəllifin özünün hadisəyə müdaxilə etməsi, haşiyəyə çıxması
   5. Müəyyən bir mətləbi həyata keçirmək məqsədilə ağlasığmaz tədbirin görülməsi
   A) 1, 3, 5 B) 1, 2, 4 C) 2, 4 D) 1, 3, 4 E) 3, 4

4. Epizodik surət nəyə deyilir?
   A) təsvir olunan hadisələrin mərkəzində duran obraza
   B) münaqişənin inkişafında başlıca rol oynayan şəxsə
   C) şəxsi mənafeyini hər şeydən üstün tutan surətə
   D) hadisələrin inkişafına ciddi təsir göstərməyən və oxucunun nəzərinə az çarpan surətə
   E) əsərdə başqalarına humanistcəsinə yanaşan, ideyaya xidmət edən obraza

5. Bədii əsərdə xarakter anlayışına aid edilmiş fikirlərdən biri ***səhvdir:***
   A) Bədii əsərdə təsvir edilən surətin hərəkət və davranışında, başqalarına münasibətdə təzahür edən fərdi xüsusiyyətlərdir.
   B) Xarakter insanın ictimai mövqeyindən, psixologiyasından irəli gəlir.
   C) Bədii əsərdə yaradılan obraz müxtəlif vəziyyətlərə düşdükcə onun xarakterinin konkret detalları meydana çıxır.
   D) Əsərdə yaradılan xarakter eyni zamanda yazıçı təfəkküründün məhsuludur.
   E) Xarakter insanlar arasındakı oxşar cəhətləri ifadə edir və bədii ümumiləşdirmə yolu ilə yaranır.

6. Gəraylı, qoşma hansı şeir şəklində yazılır?
   A) dördlük B) beşlik C) üçlük D) altılıq E) səkkizlik

7. Bu bədii təsvir vasitəsində əlamət bütöv anlayışın, hissə tamın yerində işlənir:
   A) təşbeh B) simvol
   C) sinekdoxa D) metafora E) epitet

8. Bədii əsərdə *tip* anlayışına aid edilmiş əlamətlərdən biri ***səhv*** göstərilmişdir:
   A) Tip anlayışı hadisələr, insanlar arasındakı oxşar cəhətləri ifadə edir.
   B) Bədii ümumiləşdirmə yolu ilə yaradılır.
   C) Tip səviyyəsində yaradılan obrazla onun yaşadığı mühit arasında bir uyğunluq olur.
   D) Sənətkar həyat hadisələrindəki, adamlardakı oxşar cəhətləri bir obrazın üzərində cəmləşdirir.
   E) Tip dedikdə bədii əsərdə fərdi xüsusiyyətləri ilə seçilən surətlər nəzərdə tutulur.

9. Biri əhval-ruhiyyə təsvirinə aiddir:
   A) bədii əsərdə surətin xarici görkəminin sözlə ifadəsi
   B) şən vəziyyətin, nigarançılığın, məyusluğun təsviri
   C) əsərdə müəyyən bir yerin sözlə rəsm edilməsi
   D) hadisələrin müəyyən xətt üzrə inkişafı
   E) insanlara münasibətdə fərdi xüsusiyyətlərin məcmusu

10. Bədii əsərdə qeyri-insani varlıqların ümumiləşmiş şəkildə verilməsi nə adlanır?
   A) əşya surəti B) peyzaj
   C) əhvali-ruhiyyə təsviri D) portret E) tipiklik

E variantı

1. *Bəzən sənətkar danışdığı əhvalatı müəyyən anda saxlayır, kənara çıxmaqla əsərin kompozisiyasında bir orijinallıq yaradır.* Bu nə adlanır?
   A) epiqraf B) proloq C) lirik ricət
   D) peyzaj E) epiloq

2. Verilmiş nümunələrdə qafiyənin hansı növü işlənmişdir?
   Könül, sən ki düşdün eşqin bəhrinə,
   Narın çalxan, narın silkin, narın üz.
   Dost səni bağına bağban eyləsə,
   Almasın dər, gülün iylə, narın üz. (A. Ələsgər)
   A) cinas B) daxili C) qulaq
   D) natamam E) çarpaz

3. Nümunədə hansı bədii təsvir və ifadə vasitələri işlənmişdir?
   Soyuq axşam düşür, sürünür duman,
   Dağlar ağ donunu geyəcək indi.
   Hardansa qəzəblə qıy çəkir tufan,
   Çılpaq qayaları döyəcək indi. (R. Əfəndiyeva)
   1. epitet 2. metafora 3. metonimiya
   4. təşbeh 5. inversiya 6. təkrir
   A) 1, 4, 6 B) 1, 2, 5
   C) 1, 3, 4, 5 D) 2, 3, 6 E) 1, 3, 4, 6

4. Biri müxəmməsin qafiyə quruluşudur:
   A) aaaa, bbba, ccca...
   B) aaaaaa, bbbbaa, ccccaa...
   C) aaaaa, bbbba, cccca...
   D) abcb, çççb, dddb...
   E) aa, ba, ca, ça, da

5. Biri qitənin qafiyə quruluşudur:
   A) aa, bb, cc, çç...
   B) ab, cb, çb, db...
   C) aaba
   D) abcb, ççcb, dddb...
   E) aaaa, bbba, ccca...

6. Ayrı-ayrı şəxslərin, obrazların nitqində işlənən, lakin ədəbi dilin qəbul ***etmədiyi*** əcnəbi sözlər:
   A) arxaizm B) dialektizm
   C) varvarizm D) neologizm
   E) sarkazm

7. Hansı nümunədə qafiyə yaradan sözlər müxtəlif nitq hissələridir?
   A) Könlümün sevgili məhbubi mənim.
      Vətənimdir, vətənimdir, vətənim... (A.Səhhət)
   B) Gözəl vətən! Mənan dərin,
      Beşiyisən gözəllərin... (S.Vurğun)
   C) Yenə gözlərimdə açılır səhər,
      Yenə pəncələşir xəzriylə Xəzər... (S.Rüstəm)
   D) Dövran ki məni məzada saldı,
      Bilməm kim idi satan, kim aldı? (M.Füzuli)
   E) Dağlarının başı qardır,
      Ağ örpəyin buludlardır (S.Vurğun)

8. Beytdə hansı bədii ifadə vasitəsi vardır?
   Olsaydı məndəki qəm Fərhadi-mübtəladə,
   Bir ah ilə verərdi min Bisutunu badə. (M.Füzuli)
   A) sarkazm B) mübaliğə
   C) litota D) anafora
   E) epifora

9. Verilmiş nümunədə hansı bədii ifadə vasitəsi işlənmişdir?
   "... Nə gözəlsən, nə xoşliqasan sən,
   Yeri var söyləsəm, hümasan sən...
   Bu yəqindir ki, var sevimli səsin,
   Oxu, versin mənə səfa nəfəsin. (M.Ə.Sabir)
   A) litota B) bədii sual
   C) mübaliğə D) kinayə E) bədii təzad

10. Bu terminlərdən biri yerinə görə *antiteza* termini ilə də əvəz oluna bilər:
    A) təzad B) hiperbola
    C) metafora D) ironiya E) sarkazm

F variantı

1. Hansı nümunədə daxili qafiyədən istifadə edilmişdir?
   A) Gəl çəkmə cahan qeydini sən, can belə qalmaz,
   Qan ağlama çox, dideyi-giryan belə qalmaz. (M.V.Vidadi)
   B) Boyun sürahidir, bədənin büllur,
   Gərdənin çəkilmiş minadan, Pəri! (M.P.Vaqif)
   C) Alıbdır canımı hicran, olubdur gözlərim giryan,
   O məhvəş nazənin canan neçin gəlməz, neçin gəlməz? (X.Natəvan)
   D) Dövran ki məni məzada saldı,
   Bilməm kim idi satan, kim aldı. (M.Füzuli)
   E) Yaxşı iş də görsən, pis iş də inan,
   Unutmaz onları bu qoca dövran. (N.Gəncəvi)

2. Bu söz ərəbcə *ləngərləmək, dalğalanmaq, ağır-ağır yerimək* mənasını verir. Bu bəhrdə yazılan şeirlərdə bir əzəmət, vüqar özünü göstərir. Söhbət hansı bəhrdən gedir?
   A) həzəc
   B) səri
   C) xəfif
   D) rəməl
   E) münsərih

3. Hansı nümunədə qafiyə yaradan sözlər omonim sözlərdən ibarətdir?
   A) Gətirib onları yada, Təbrizim,
   Baş əymə cəllada, yada, Təbrizim. (S.Rüstəm)
   B) Kişi bir sənəti bilər xalis,
   Çoxuna meyl edən qalar naqis. (S.Ə.Şirvani)
   C) Tikdiribsən qəsr, eyvan, oda sən,
   Bu nökərin, o sevdiyin, o da sən... (Aşıq Ələsgər)
   D) Adət budur, yar xəbərin yar alar,
   Mənim yarım zəif canım yaralar... (M.Cümə)
   E) Abbas bu sözləri deyər sərindən,
   Arxı vurun, suyu gəlsin dərindən... (A.Tufarqanlı)

4. Təmsil janrına aid hansı fikir ***səhvdir?***
   A) Epik növün ən qədim janrlarından biridir.
   B) Tənqid və satira təmsilin ruhunu, canını təşkil edir.
   C) Bu janrda insanlara xas xüsusiyyətlər heyvan, bitki və əşyalar vasitəsilə təqdim olunur.
   D) Həcmcə kiçik olan bu janr dərin məna ifadə edir, nəsihətamiz səciyyə daşıyır.
   E) Yalnız nəzmlə yazılmışdır.

5. *Başqa epik növün janrlarından fərqli olaraq, burada müəllif iştirak etdiyi, şahidi olduğu hadisələri qələmə alır, süjet nisbətən bəsit olur.* Söhbət nədən gedir?
   A) hekayədən
   B) memuardan
   C) povestdən
   D) nağıldan
   E) təmsildən

6. Verilmiş nümunədə hansı bədii təsvir və ifadə vasitələri yaradılmışdır?
   Açın ürəyimin qapısını siz,
   Açın ən mehriban bir qapı kimi.
   Açsanız, xalqımın həyatı kimi
   Siz orda qəribə muzey görərsiz. (İ.Göyçaylı)
   A) inversiya, epitet, metonimiya
   B) təkrir, epitet, inversiya, simvol
   C) epitet, inversiya, təkrir, təşbeh
   D) təşbeh, metafora, təkrir
   E) epitet, təşbeh, mübaliğə

7. Bu fikirlərdən biri bədii ifadə vasitələrinə aid edilə ***bilməz:***
   A) Bədii ifadə vasitələri cümlə, tam fikir şəklində təzahür edir.
   B) Ədəbiyyatşünaslıqda bunlara *poetik sintaksis* və ya *sintaktik fiqurlar* da deyilir.
   C) *Bədii sual, bədii təzad* ayrı-ayrı sintaktik fiqurlardır.
   D) Bədii əsərin emosionallığını artıran ifadə vasitələrindən biri də təkrirdir.
   E) Bədii ifadə vasitələri qarşılaşdırılan tərəflərin iştirakına görə sadə və mürəkkəb olur.

8. Bədii əsərdə işlədilən əşya surətinə aid hansı fikir ***səhvdir?***
   A) Qeyri-insani varlıqların əlamətinin ümumiləşmiş şəkildə verilməsinə əşya surəti deyilir.
   B) Əşya surəti bədii əsərin əsas obyektinə, hadisələrə tabe edilir.
   C) Bu surət əsərdəki əsas surətlərin həyat tərzini, zövqünü öyrənməyə imkan verir.
   D) Əsas surətlərin xarakterlərinin açılmasında əşya surəti müəyyən rol oynayır.
   E) Cansız əşyaları əks etdirən bu surətlər ədəbiyyatşünaslıqda yardımçı qüvvələr adlanır.

9. Hansı nümunədə epifora vardır?
   A) – Vur, vur ki, gətirməyibdir arpa.
   – İnsan dözəməz bu şarpa-şurpa (M.Ə.Sabir)
   B) Bizi yandırır yaman ayrılıq,
   Bu darıxdıran duman ayrılıq. (M.Şəhriyar)
   C) Könlüm min həsrətlə titrəyib əsir,
   Hər dəfə, hər dəfə keçəndə sizdən. (B.Vahabzadə)
   D) Uca dağların başından
   Yolum, ay mədəd, ay mədəd!.. ("Koroğlu" dastanından)
   E) Qarşı yatan qarlı dağlar,
   Dağlar, səndə qarım qaldı... ("Koroğlu" dastanından)

10. Hansı nümunədə anafora ***yoxdur?***
   A) Sən olasan gülüstan,
   Sənə hər an san qurban!
   Sənə min bir məhəbbət
   Sinəmdə tutmuş məkan! (Ə.Cavad)
   B) Sənsiz neynim qürbət eldə günü mən?
   Sənsiz neynim Allahı mən, dini mən? (A.İldırım)
   C) Yaşar dağlar başında qartal kibi,
   Qoşar səhralarda bir maral kibi. (H.Cavid)
   D) Nədir o mənalı dərin baxışlar?
   Nədir gözlərindən yağan yağışlar?.. (S.Rüstəm)
   E) Hansı bimarı salim etdin sən?
   Hansı nadanı alim etdin sən? (S.Ə.Şirvani)

G variantı

1. *Süjetin bu mərhələsini ifadə etmək üçün **rəbt, düyün** sözlərindən də istifadə olunur. Burada həyat hadisələri getdikcə mürəkkəbləşir, münaqişə güclənir və gərgin vəziyyət alır.* Söhbət nədən gedir?
   A) kulminasiyadan B) razvyazkadan
   C) zavyazkadan D) ekspozisiyadan E) finaldan

2. Ustad kimi qəbul olunan bir sənətkarın yaradıcılığı o janrda, o üslubda yazan sənətkar üçün nə rolunu oynayır?
   A) ədəbi məktəb B) ədəbi cərəyan
   C) həyatı əks etdirmə üsulu D) ədəbi metod E) ədəbi növ və janr

3. Əşya və hadisələrin, təbiət gözəlliklərinin təsiri nəticəsində subyektdə yaranan xoş hislərin ifadəsi nə adlanır?
   A) təsvir B) təhkiyə C) tərənnüm
   D) gülüş E) alleqoriya

4. Verilmiş nümunə haqqında hansı fikir ***səhvdir?***
   Min Qazaxda köhlən ata,
   Yalmanına yata-yata,
   At qan-tərə bata-bata,
   Göy yaylaqlar belinə qalx,
   Kəpəz dağdan Göy gölə bax! (S.Vurğun)
   A) Beşlik formasında yazılmışdır.
   B) Misradaxili bölgüsü 4-4 şəklindədir.
   C) Qafiyə quruluşu *a a a b b* şəklindədir.
   D) Tam qafiyədən istifadə olunmuşdur.
   E) Bənddə təşbeh vardır.

5. Verilmiş nümunədə hansı bədii təsvir və ifadə vasitəsi işlənmişdir?
   Öz dostu var,
   düşməni var dilin də
   İsim, sifət döyüşlərdə çox zaman
   karıxır ...
   Fellərsə həmişə
   döyüşlərdə qalib çıxır. (B.Vahabzadə)
   1. Metafora 2. Metonimiya
   3. İnversiya 4. Təşbeh 5. Bədii təzad
   A) 1, 3, 5 B) 2, 4 C) 1, 2, 4 D) 1, 4 E) 1, 3, 4

6. Məsnəviyə aid düzgün fikirləri seçin.
   1. Məsnəvi ərəb sözü olub, ikilik mənasını ifadə edir.
   2. Bütün ikiliklər məsnəvidir.
   3. Hər iki misrası beyt təşkil edib bir-biri ilə qafiyələnir; *a a, b b, v v*...
   4. Məsnəvidə rədifdən də istifadə olunur.
   5. Qafiyə quruluşu şairə hadisənin geniş təsvirinə imkan verir.

   A) 1, 2, 3 B) 1, 3, 5 C) 2, 3, 4 D) 2, 4 E) 1 4

7. Bu janrlardan birində sənətkar, adətən, öz təxəllüsünü ***söyləmir:***
   A) qəzəl B) qəsidə C) qitə
   D) mürəbbe E) müxəmməs

8. ***Dördlük*** şeir şəklinə aid düzgün fikirləri seçin.
   1. Hər bəndi dörd misradan ibarət olur.
   2. Dördlükdən şeir formasından həm klassik, həm də müasir ədəbiyyatda istifadə olunmuşdur.
   3. Bayatı, rübai, tuyuğ yalnız dörd misradan ibarət olan müstəqil əsərlərdir.
   4. Bütün dördlüklərin qafiyə quruluşu eynidir.
   5. Dördlüklərdə təxəllüs işlənmir.

   A) 1, 2, 3 B) 4, 5 C) 1, 4, 5 D) 1, 2, 5 E) 1, 3, 5

9. Mübaliğəyə aid fikirlərdən biri ***səhvdir:***
   A) Ərəb sözü olub *şişirtmək, böyütmək* mənasını bildirir.
   B) Bu söz əvəzinə *antiteza* terminini də işlətmək mümkündür.
   C) Həm şifahi, həm də yazılı ədəbiyyatda çox geniş yayılmışdır.
   D) "Yanğınlar yağsa da yerə göylərdən" ifadəsində mübaliğədən istifadə edilmişdir.
   E) Mübaliğənin əksi litotadır.

10. Verilmiş nümunə qoşmanın məzmunca hansı növünə daxildir?

Səksənində sinən enər dizinə,
Doxsanında qubar qonar gözünə,
Koroğlu der, çünki yetdin yüzünə,
Uca dağ başında kola bənzərsən.

   A) ustadnamə B) gözəlləmə
   C) qıfılbənd D) deyişmə E) vücudnamə

TEST TAPŞIRIQLARININ CAVABLARI

Azərbaycan şifahi xalq ədəbiyyatı

variant	1	2	3	4	5	6	7	8	9	10
A	B	A	B	B	D	E	A	B	C	A
B	E	B	E	E	A	D	D	A	E	B
C	A	E	C	A	E	B	C	A	D	C
D	E	A	E	D	E	B	E	A	E	B
E	A	C	A	E	A	A	D	E	D	C
F	A	B	D	E	C	A	A	E	C	C
G	A	E	E	C	E	C	D	B	D	C

Qədim dövr Azərbaycan ədəbiyyatı
(Ən qədim dövrlərdən XIII əsrə qədərki ədəbiyyat)

variant	1	2	3	4	5	6	7	8	9	10
A	C	E	D	B	E	E	A	D	C	B
B	D	C	B	C	C	B	C	D	A	C

"Dədə Qorqud" eposu

variant	1	2	3	4	5	6	7	8	9	10
A	C	A	A	A	B	D	C	E	A	B
B	A	D	E	A	E	A	E	A	A	A

Nizami Gəncəvi

variant	1	2	3	4	5	6	7	8	9	10
A	C	A	E	C	D	B	E	B	B	B
B	D	B	C	C	A	E	D	C	B	D
C	C	B	E	D	B	A	A	A	C	A
D	D	C	A	C	E	D	D	A	C	D

Orta dövr Azərbaycan ədəbiyyatı

variant	1	2	3	4	5	6	7	8	9	10
A	D	E	B	E	B	B	C	A	B	A
B	A	A	C	A	B	D	A	B	C	C

Seyid İmadəddin Nəsimi

variant	1	2	3	4	5	6	7	8	9	10
A	E	A	B	D	B	B	E	C	D	C
B	D	A	A	D	E	A	C	C	B	C

Şax İsmayıl Xətai

variant	1	2	3	4	5	6	7	8	9	10
A	E	B	C	A	A	D	A	C	D	D
B	B	B	D	A	C	C	B	E	E	A
C	C	B	E	A	C	B	D	A	E	C

Məhəmməd Füzuli

variant	1	2	3	4	5	6	7	8	9	10
A	C	D	D	C	A	E	E	C	D	D
B	D	E	C	D	B	B	E	A	A	A
C	D	C	B	C	D	B	C	B	D	A
D	D	B	E	B	B	B	D	D	C	C

Yeni dövr Azərbaycan ədəbiyyatı.

I mərhələ. XVII–XVIII əsrlər Azərbaycan ədəbiyyatı

variant	1	2	3	4	5	6	7	8	9	10
A	B	A	C	E	E	D	A	D	A	E
B	B	B	D	D	C	D	A	D	D	C

"Koroğlu" eposu

variant	1	2	3	4	5	6	7	8	9	10
A	A	B	C	C	A	E	A	B	A	A
B	C	D	E	A	D	E	A	C	C	C
C	B	B	C	B	E	D	C	D	C	D
D	B	B	E	C	B	B	B	A	C	D

Molla Pənah Vaqif

variant	1	2	3	4	5	6	7	8	9	10
A	A	D	E	A	B	C	E	A	E	E
B	A	D	B	A	E	A	C	A	A	C
C	A	A	C	A	E	C	A	D	D	C
D	D	C	A	A	A	A	D	C	E	E

XIX əsr Azərbaycan ədəbiyyatı. Yeni dövr ədəbiyyatının II mərhələsi.

variant	1	2	3	4	5	6	7	8	9	10
A	B	B	E	A	C	D	B	D	C	C
B	E	C	D	B	D	C	E	E	C	C

Qasım bəy Zakir

variant	1	2	3	4	5	6	7	8	9	10
A	E	E	B	C	D	E	B	C	D	E
B	D	B	C	C	C	C	C	E	D	E

Mirzə Fətəli Axundzadə

variant	1	2	3	4	5	6	7	8	9	10
A	E	E	D	E	A	A	C	B	C	C
B	C	C	C	E	C	E	B	D	C	E
C	B	C	B	C	E	C	D	E	E	B
D	A	A	E	B	D	C	B	D	B	C

Seyid Əzim Şirvani

variant	1	2	3	4	5	6	7	8	9	10
A	E	E	E	C	D	B	C	E	E	E
B	B	C	B	A	D	C	C	E	E	E

Aşıq Ələsgər

variant	1	2	3	4	5	6	7	8	9	10
A	C	A	D	C	A	E	C	A	B	B
B	A	C	C	D	A	E	B	A	D	B

Yeni dövr Azərbaycan ədəbiyyatının III mərhələsi

variant	1	2	3	4	5	6	7	8	9	10
A	A	B	C	B	C	E	A	C	B	D
B	A	A	C	A	B	C	D	E	C	C

Cəlil Məmmədquluzadə

variant	1	2	3	4	5	6	7	8	9	10
A	A	E	A	C	A	E	A	C	E	C
B	D	A	B	E	A	C	A	A	A	A
C	E	A	A	D	A	B	A	A	D	E

Mirzə Ələkbər Sabir

variant	1	2	3	4	5	6	7	8	9	10
A	E	D	A	C	B	E	A	C	C	A
B	A	D	C	B	A	A	D	C	B	E

Ən yeni dövr Azərbaycan ədəbiyyatı

I mərhələ. (XX əsrin 10-cu illərinin sonlarından 50-ci illərə qədər)

variant	1	2	3	4	5	6	7	8	9	10
A	A	C	A	D	B	E	A	D	B	E
B	A	C	E	A	B	E	D	A	C	B

Hüseyn Cavid

variant	1	2	3	4	5	6	7	8	9	10
A	A	B	D	A	A	D	A	C	E	A
B	B	A	E	D	A	C	A	E	B	A
C	E	D	E	A	C	A	D	A	B	A

Cəfər Cabbarlı

variant	1	2	3	4	5	6	7	8	9	10
A	A	C	D	A	A	E	B	A	E	C
B	C	E	A	B	D	C	A	C	D	E
C	D	A	C	B	D	E	C	A	A	D

Səməd Vurğun

variant	1	2	3	4	5	6	7	8	9	10
A	D	A	A	C	E	A	C	B	A	D
B	E	E	C	A	D	B	B	E	E	C
C	A	B	A	E	D	C	B	A	D	A

Məhəmmədhüseyn Şəhriyar

variant	1	2	3	4	5	6	7	8	9	10
A	E	B	D	D	A	E	B	A	D	D
B	E	C	B	A	C	C	E	D	B	D
C	C	D	A	E	D	E	A	C	B	A

Mir Cəlal

variant	1	2	3	4	5	6	7	8	9	10
A	B	A	C	E	B	A	C	E	E	B
B	E	D	D	A	C	B	A	C	B	A

Ən yeni dövr Azərbaycan ədəbiyyatı.

II mərhələ. (XX əsrin ortalarından bu günə qədərki Azərbaycan ədəbiyyatı)

variant	1	2	3	4	5	6	7	8	9	10
A	D	E	C	D	B	C	D	B	B	D
B	D	B	C	B	E	E	D	D	C	B

Rəsul Rza

variant	1	2	3	4	5	6	7	8	9	10
A	E	A	C	D	A	E	A	C	E	A
B	C	B	C	C	A	E	D	B	E	C
C	A	C	C	A	B	D	E	E	E	E
D	D	C	C	B	E	A	B	E	D	D

İlyas Əfəndiyev

variant	1	2	3	4	5	6	7	8	9	10
A	C	D	C	C	A	D	E	B	D	B
B	C	D	E	A	C	E	C	A	B	C

İsmayıl Şıxlı

variant	1	2	3	4	5	6	7	8	9	10
A	B	D	D	D	C	E	B	B	D	C
B	E	D	C	D	E	E	B	E	D	B
C	E	A	A	D	C	D	B	D	A	C

Bəxtiyar Vahabzadə

variant	1	2	3	4	5	6	7	8	9	10
A	A	C	E	B	D	D	B	A	C	C
B	E	D	B	A	C	E	C	C	C	A

Ədəbiyyat nəzəriyyəsi

variant	1	2	3	4	5	6	7	8	9	10
A	A	C	E	E	C	B	E	B	C	B
B	A	A	B	E	E	A	B	C	A	B
C	E	A	C	A	E	D	C	A	A	C
D	E	B	A	D	E	A	C	E	B	A
E	C	A	B	C	B	C	A	B	D	A
F	C	D	A	E	B	C	E	E	D	C
G	C	A	C	E	A	B	C	A	B	E

ƏDƏBİYYAT SİYAHISI

1. N.Cəfərov, T.Kərimli, Z.Əsgərli, A.Bakıxanova. Ədəbiyyat. X sinif. Bakı, 2008.
2. N.Cəfərov, Z.Əsgərli, N.Nəcəfov, B.Həsənli. Ədəbiyyat müntəxəbatı. X sinif. Bakı, 2008.
3. N.Cəfərov, İ.Həbibbəyli, N.Əliyeva, A.Bakıxanova. Ədəbiyyat. XI sinif. Bakı, 2008.
4. N.Cəfərov, N.Nəcəfov, B.Həsənli. Ədəbiyyat müntəxəbatı. XI sinif. Bakı, 2009.
5. Ş.Mikayılov. Ədəbiyyat nəzəriyyəsi. IX-XI siniflər üçün dərs vəsaiti. Bakı, 2008.
6. Ədəbiyyat. X sinif üçün test tapşırıqları toplusu. Ümumtəhsil məktəbləri üçün dərs vəsaiti. Bakı, 2008.
7. Ədəbiyyat. XI sinif üçün test tapşırıqları toplusu. Ümumtəhsil məktəbləri üçün dərs vəsaiti. Bakı, 2008.
8. Ədəbiyyat nəzəriyyəsi. Test tapşırıqları toplusu. Ümumtəhsil məktəbləri üçün dərs vəsaiti. Bakı, 2008.
9. Ekspert şərhləri. Azərbaycan dili və ədəbiyyat. "Abituriyent" jurnalının xüsusi buraxılışı. Bakı, 2003.

MÜNDƏRİCAT

Ön söz 3
Elmi redaktorlardan 5
Giriş 7

AZƏRBAYCAN ŞİFAHİ XALQ ƏDƏBİYYATI

Azərbaycan şifahi xalq ədəbiyyatı 9

QƏDİM DÖVR AZƏRBAYCAN ƏDƏBİYYATI

Qədim dövr Azərbaycan ədəbiyyatı
(Ən qədim dövrlərdən XIII əsrə qədərki ədəbiyyat) 40
"Dədə Qorqud" eposu 49
Nizami Gəncəvi 72

ORTA DÖVR AZƏRBAYCAN ƏDƏBİYYATI

Orta dövr Azərbaycan ədəbiyyatı (XIII- XVI əsrlər) 103
Seyid İmadəddin Nəsimi 112
Şah İsmayıl Xətai 128
Məhəmməd Füzuli 147

YENİ DÖVR AZƏRBAYCAN ƏDƏBİYYATI

I mərhələ. XVII – XVIII əsrlər Azərbaycan ədəbiyyatı 178
"Koroğlu" eposu 186
Molla Pənah Vaqif 211
II mərhələ. XIX əsr Azərbaycan ədəbiyyatı
Yeni dövr ədəbiyyatının II mərhələsi 238
Qasım bəy Zakir 249

Mirzə Fətəli Axundzadə 263
Seyid Əzim Şirvani 291
Aşıq Ələsgər 301
III mərhələ. XX əsrin əvvəllərində Azərbaycan ədəbiyyatı
Yeni dövr ədəbiyyatının III mərhələsi (1900 – 1917- ci illər) 315
Cəlil Məmmədquluzadə 333
Mirzə Ələkbər Sabir 365

ƏN YENİ DÖVR AZƏRBAYCAN ƏDƏBİYYATI

I mərhələ. XX əsrin 10-cu illərinin sonlarından 50-ci illərə qədər Azərbaycan ədəbiyyatı 381
Hüseyn Cavid 394
Cəfər Cabbarlı 421
Səməd Vurğun 444
Məhəmmədhüseyn Şəhriyar 478
Mir Cəlal 508
II mərhələ. (XX əsrin ortalarından bu günə qədər Azərbaycan ədəbiyyatı) 527
Rəsul Rza 537
İlyas Əfəndiyev 561
İsmayıl Şıxlı 574
Bəxtiyar Vahabzadə 588

ƏDƏBİYYAT NƏZƏRİYYƏSİ

Nəzm və nəsr 601
Ədəbi növlər və janrlar 612
Epik növ 612
Lirik növ 616
Epik-lirik növ 623
Dramatik növ 624

Ədəbiyyatda gülüş 629
Bədii əsərin quruluşu 630
Mövzu və ideya 630
Məzmun və forma 630
Bədii əsərdə hadisə və surət 631

Süjet və kompozisiya 635
Bədii əsərin dili 639
Bədii dilin tərkibi 639
Bədii təsvir vasitələri 641
Bədii ifadə vasitələri 645

Bədii yaradıcılıq metodu.
Ədəbi cərəyan və ədəbi məktəb 650
Bədii yaradıcılıq metodu 650
Ədəbi cərəyan 651
Ədəbi məktəb 653

TEST TAPŞIRIQLARININ CAVABLARI 671

ƏDƏBİYYAT SİYAHISI 676

Əhmədzadə İsmayıl Əhməd oğlu
BDU-nun dosenti, filologiya elmləri namizədi

Əsgərli Zaman Şükür oğlu
AMEA-nın Nizami adına Ədəbiyyat İnstitutunun yeni dövr Azərbaycan ədəbiyyatı şöbəsinin müdiri, f.e.d., professor

Əliyev Kamran İmran oğlu
AMEA-nın Folklor İnstitutunun aparıcı elmi işçisi, f.e.d., professor

İmanov Muxtar Kazım oğlu
AMEA-nın Folklor İnstitutunun aparıcı elmi işçisi, f.e.d.

Mirzəyev Ataəmi Balababa oğlu
AMEA-nın Nizami adına Ədəbiyyat İnstitutunun aparıcı elmi işçisi, f.e.n., dosent

İbrahimov Saməddin Həsən oğlu
Bakı Türk Liseyinin ali dərəcəli müəllimi

Vəliyeva Mehriban Hidayət qızı
Bakı şəhəri Z.Əliyeva adına liseyin müəllimi, "İlin ən yaxşı müəllimi" müsabiqəsinin qalibi

Veysəlov Gəncəvi Mürsəl oğlu
Bakı şəhəri, 72 saylı liseyin müəllimi

Əhmədova Sədaqət Balağa qızı
H.Əliyev adına MTK-nın Azərbaycan dili və ədəbiyyat kafedrasının müdiri

Hüseynova Səlminaz Mehdi qızı
H.Əliyev adına MTK-nın müəllimi

ƏDƏBİYYAT

(qəbul imtahanlarına hazırlaşanlar, yuxarı sinif şagirdləri və müəllimlər üçün vəsait)

Kitab «Abituriyent» jurnalı redaksiyasında yığılmış, səhifələnmiş və redaktə olunmuşdur. Fiziki çap vərəqi 42,5. Çapa imzalanmışdır 10.02.10. Tiraj 3000.

© TQDK – «Abituriyent»

Pərakəndə satış qiyməti
6 manatdan çox olmamalıdır

ƏDƏBİYYAT

10 11

Keçilən mövzular üzrə
biliyin dərinləşdirilməsi

İdrak **qabiliyyətinin**
inkişaf etdirilməsi

Proqram materiallarını
mənimsəmə səviyyəsinin yoxlanılması

Testlərlə işləmək **vərdişlərinin**
artırılması üçün vəsaitlər

4 761920 090316